Ağarəhim

# Əsərlər

## Pyeslər, kinossenarilər, kinoseriallar

## XV

Bakı - 2014

**Redaktorlar:**

**Əlizadə Əsgərli**
**Təyyar Salamoğlu (Cavadov)**

**Ağarəhim.** Əsərlər. 20 cilddə. XV cild (Pyeslər, kinossenarilər, kinoseriallar). Bakı, BQU nəşriyyatı, 2015, 505 s.

Yazıçı, dramaturq Ağarəhimin bu cilddə toplanan əsərlərində vətənini, xalqını sevən xeyirxah insanların xarakterləri açılır, həyata münasibətləri göstərilir, onların cəmiyyət içərisindəki mövqeləri işıqlandırılır. Bununla belə yaşadıqları mühitə əyləncə kimi baxan, fikri-zikri asan yolla pul qazanmaq, yeri gəldi-gəlmədi hər işdə öz mənafelərini güdmək olan antipotların törətdikləri cinayətlərin üstü açılır, qeyri-insani hərəkətləri təsvir olunur, əməllərinə nifrət damğası vurulur.

***BQU 2015***



# P y e s l ə r

# ...Namərd körpüsü...

*(İki hissəli, altı şəkilli yumorostik pyes)*

**İştirak edirlər:**

**Gülşad**
**Ərşad**
**İntizar** — Gülşadın arvadı
**Xavər** — İntizarın anası
**Qurban** — atası
**Müseyib** — qardaşı
**Yaxşıxanım** — Gülşadın bacısı
**İsgəndər** — Ərşadın atası
**Buta** — anası
**Vəsiləxanım** — arvadı
**Tuncay**
**İra**
**Nataşa**
**Zərbalı**
**Polis mayoru**
**Serjant**
**Feldşer**
**Uzun qırxıq**
**Gödək qırxıq**





## I hissə
## I şəkil

*Gülşadın evi. Otağın sağ güncündə televizor. Sağdakı yan divar tərəfdə köhnə divan. Otağın ortasında stol, ətrafında stullar. Gülşad stulda əyləşərək başını qolları arasına alıb. Əsəbidir. Arvadı İntizar gəlir. Ərini kədərli görüb başını yelləyir.*

**İntizar:** Ayə, ay evi tikilmişin oğlu, neçə ildi bir yastığa baş qoyuruq. Hələ eyninin açıldığını görməmişəm. Vallah-billah, belə getsə, özünü də, elə bizi də həlak eləyəcəksən. Ayə, kasıbıq kasıbıq da. Özümüzü öldürənmərik ki. Bəyəm kasıblar əlləri aşağıdı, deyə özlərinə qəsd eləməlidilər? Ya gedib harasa soxulmalıdılar, kiminsə cibinə girməlidilər?

**Gülşad** *(başını asta-asta qaldıraraq dərindən köksünü ötürür)***:** Eh... Ay İntizar! Ay canım, ay gözüm... Səni alıb özümü də, səni də bəlaya saldım.

**İntizar:** O nə deməkdi?

*Pauza*

**Gülşad:** İstədim qaş qayıram, vurdum göz də çıxartdım. Ürəyim istəyən kimi səni geyindirib-keçindirənmirəm. Qəlbini ovunduranmıram. Bunlar azmış kimi, uşaqların da üzünə xəcalətliyəm. İmkansızlıq nə əclaf şeymiş...

**İntizar:** Onu özünə dərd eləmə. Sağlığın bəsdi bizə. Evdə səsin, nəfəsin gəlir, elə bilirəm dünya mənimdi. Hər şeyi unuduram. Təhnədə bu günlük çörəyimiz var, bəsimizdi. Necə deyərlər, varlının pulu, kasıbın sevinci.

**Gülşad:** Bilirsən, ay İntizar, nişanlı vaxtlarımızda nə fikirləşirdim?

**İntizar:** Yox...

**Gülşad:** Ürəyim atlanırdı.

**İntizar:** Niyə?

**Gülşad:** Dərdsiz-qəmsiz bir aləmdə yaşayırdım. Fikirləşirdim evlənən kimi Krımdan vurub Antaliyadan çıxarıq. Yurmalada kef eləyərik... Heyf, arzularım puç oldu. Sənə o anları, o sevincli hissləri yaşadanmadım.

**İntizar:** Bəsdi sən Allah, kövrəltmə məni. Bilirsən ki, ürəyim yumşaqdı. Yaş da kirpiklərimin ucundadı...

**Gülşad:** Eh... Dəli olmasam yaxşıdı.

**İntizar:** Bəyəm, dədə-babalarımız o yerləri görmüşdülər? Biz də oturub dərd çəkək? Hər şey Allahın əlindədi, Gülşad. Onun kəramətinə inanmayan kafirdi. Yeri-göyü yaradan istəsə, bizim də evimizin dirəyini qızıldan elər. Kəndin aşağısı da, yuxarısı da gəlib qabağımızda şöngüyər

**Gülşad:** Qurban olduğuma nə pislik eləmişik? Bəyəm, əl-qolunu tutan var? Bir atam vardı, o da ziyarətdən qayıtmadı. Aparıb olan-qalanını da orda qoydu gəldi.

*Pauza*

**İntizar:** Atandan danışma. Bəlkə də biz onun zibilini çəkirik. Əli bir gün belə oğurluqdan, dili bir an belə yalandan, babal yumaqdan qalmırdı. Yəqin eşitmisən də kənddə gəzən söz-söhbəti?

**Gülşad:** Yox... Nə söz-söhbət?

**İntizar:** Ziyarətə gedəndə özüylə matüşkə də aparıbmış qeyrətsiz dədən. Allaha acıq gedib, o da alıb canın. Ondan danışma ürəyim sıxılır.

*Qapı açılır. Qonşu Ərşad əlində kiçik bağlama otağa daxil olur. Ər-arvad qalxıb Ərşadla görüşürlər. Ona əyləşmək üçün stul göstərirlər. Ərşad əyləşir.*

**İntizar:** Qonşu, nə vaxtdı baş götürüb getmisən. Qayıtmaq





bilmirsən. Deyəsən, hələ ata-ananı demirəm, arvadını burda qoyub getdiyini də unutmusan? Sir-sifətin, bazburutun təmiz dəyişib. Üzünə baxan moskvalı olmağına şübhə eləməz.

*Gülüşürlər.*

**Ərşad** *(sinəsini qabardaraq)***:** Biz beləyik də. Nə qədər arvadla sizin kimi diz-dizə oturarlar? Pul qazanmaq lazımdı, anambacım. Yoxsa... Hə... Uşaqlar gözümə dəymirlər. Onlar necədilər?

**Gülşad:** Məktəbdədilər... Yaxşıdılar... Onlara nə var? Biz çəkənlərə dağ da dözməz.

**Ərşad:** Axşam gələcəkdim uşaqları görməyə. Çıxdım həyətə, gördüm işıqlarınız sönüb. Da sizi narahat eləmədim *(Bağlamanı stolun qırağına qoyaraq)*. Bunları sizin uşaqlara almışam... Əmilərindən paydı...

*Pauza*

**İntizar:** Çox sağ ol. Əziyyət çəkmisən, Ərşad qardaş. Özün gəlib çıxmısan, böyük şeydi. Gərək, arvadın Vəsiləxanıma gözaydınlığı verəm.

**Ərşad:** Nə əziyyət? Uşaqların bir dəqiqəlik gülüşləri dünyaya dəyər. Qaldı arvada, oturduğu yerdən qalxanmır *(Gülüşürlər)*. Düz deyirəm, heç nəyə əl vermir.

**İntizar:** Bu yaxında, inşallah, əl-ayağı qurtarır. Övlad şirin şeydi. Ləzzətini görərsiz... Arvadı burda qoyub getmisən. Ağzıgöyçəklərdən kimi deyir, Ərşad rus qızıyla evlənib, kimi də deyir uşağı var. Doğan kimi arvadını götür, apar özünlə, söz-söhbət kəsilsin.

**Ərşad:** Adam barədə çox şey danışarlar *(Baş barmağını sinəsinə vuraraq)*. Şəxsən mənim vecimə də döör... A Gülşad, fikrin hardadı? Halın özündə döör? Ayə, elə bil ev uçub altında qalmısan. Bəyəm, qiyamət qopub? Neçə vaxtdı görüşmürük. Elə

bilirdim, məni görəndə sevincindən uçacaqsan...

**Gülşad:** Ayə, bu ruslarda nə görmüsüz? Gedən geri qayıtmır. Danışanda da ağzınıza çullu dovşan sığmır. Bütün kənd-kəsək, qohum-əqrəba sizdən nigarandı. Gəlin ailənizə, arvad-uşağınıza sahib durun da.

*Pauza*

**Ərşad:** Nigaran niyə olurlar ki? Cavan oğlanam, möhkəm canım, sappasağ əzalarım. Hamısı da öz yerində. O da Moskvanın gur bazarları. Altdan girib üstdən çıxıram. Biz bazar adamıyıq, qağa. Sağlığına, qabağımıza çöp atan da yoxdu.

**İntizar:** Bazar adamı niyə? Olanmaz deyəsən ki, *(əlini göydə oynadır)* biz sivil adamlarıq? Bəyəm, sivillər səndən, Gülşaddan artıqdılar?

**Gülşad:** Doğrusu, bazar sözü mənim də xoşuma gəlmir.

**Ərşad:** Sizin xoşunuza gəlməyə bilər. İntizar xanım, faktı niyə boynumuza almayaq. Ata-babadan burda da, bazarda məşğul idik, indi də orda. İstəyirsiz, bazar sözünü kommersiyayla əvəzləyək, istəyirsiz, bizneslə. Nə fərqi var, əslində, hamısı bir şeydi. Alverin qaşı-gözü olur, bəyəm?

**Gülşad:** Hə... Onu düz deyirsən.

**Ərşad:** Mən hamısını düz deyirəm, qağa.

**İntizar:** Neçə vaxtdı boş-boşuna gəzirsən. Batıb çıxmadığın dəlmə-deşik yoxdu. Qoca atan-anan, hamilə arvadın zülm çəkirlər burda. Çatışmazlıqlarını da öz içlərində çəkirlər. Onu Allah götürməz, Ərşad. Heç olmasa, qəpik-quruş qazanıb gətirə bilmisən?

**Ərşad:** Gətirdiyimə min bərəkət *(gopa basaraq)*. Qış uzunu yeyib yatacaqlar. Üç-beş günə qayıdıb gedirəm. O biri qış üçün də tədarük eləyəcəm. Elə pis öyrənmişəm, bircə gün əlim pulla oynamasa, ürəyim az qalır çatlasın, xanım. Pulsuz kişini it də bəyənməz.

**Gülşad** *(gülümsünərək)***:** Ayə, bir az aşağı düş. Ha... ha... ha... Hansı yollasa beş manat qazanmısan deyə, bizi tapdalamayacaqsan ki.

*Pauza*

**İntizar** *(ərinə)***:** Sən də yavaş elə. Söhbət puldan gedir, lopağdan yox. Pul varsa, hər şey var...

**Gülşad** *(başını yelləyərək)***:** Hə, bircə bu çatmırdı, düzəldi işimiz. Arvadın da dərdi ağırdı... Pul qəhri çəkir.

**Ərşad:** Ayə, burda beş manat tapan kimi arvad bir tərəfdən, uçastkovı o biri tərəfdən minirlər boynuna. Min bəhanəylə tutub alırlar əlindən. Qohum-əqrəbanın da gözü qalır səndə... O deyir ver, bu deyir ver. Ayə, nə qədər vermək olar? Tapdığına peşman olursan. Verirsən, səni qarğıyırlar. Dildən-ağızdan düşmürsən. Vermirsən, səninlə açıq-açığına düşmən olurlar. Rasiyədə elə döör, qağa. Dədəmin goru haqqı, Gülşad, pul xarabada xəzəl kimidi. Bir adam da əlinə baxmır. Xərcləsən, xərcləməsən, özün bilərsən. Ayə, ölkə, millət elə olar ey.

*Pauza*

**İntizar:** Ayə, ölkənin, millətin adını tutma. Qaldı dədənə, gözümüzün qabağında sağ-salamat ola-ola onun goruna niyə and içirsən?

**Gülşad:** Öyrəncəli ağız dayanmaz.

**Ərşad** *(gülərək)***:** Geci-tezi var... Burda nə qəbahət ola bilər ki? Bizim zəmanədə dədə ən yaxşı halda canına, goruna and içmək üçündü. Bir də yaxşı qoyunun ola, qatasan qabağına aparıb otara.

**Gülşad:** Elə ciddi deyirsən ki, adam az qalır inana... *(Gülüşürlər)* Ayə, bəs deyirlər, iqtisadi böhran, çeçenlər, inquşlar, ləzgilər Rusiyanı dağıdır.

**Ərşad:** Deyilənə inanma. O söz göz qaytarmaq üçündü. Adicə bakquş satsan, ya göy-göyərti arabasını dartsan, axşama filan qədər irəlisən. Yemək-içmək, yatmaq barədə fikirləşməyəcəksən. Beş-üç də geri atacaqsan. Çeçen, inquş, ləzgi, bir bəhanə-

di. Onu rus kəşfiyyat idarəsi özü təşkil eləyir.

**İntizar:** Niyə?

**Ərşad:** Ölkənin içindəki zırhazırı yatırmaq üçün... Orda bircə iş var.

**Gülşad:** Nədi o iş?

**Ərşad:** Gərək, özünü qırxıqlardan qoruyasan. Onların Allahı, Tanrısı yox. Olma-olma onlarla qarşılaşasan. Elə ki, qarşılaşdın, səni vurub kişilikdən salacaqlar. Səndə o şeydən əsər-əlamət qalmayacaq.

**İntizar:** Vay... Vay... Vay... Bircə o çatışmırdı. Bəyəm, mən Gülşadı pula görə saxlayıram... A tövbə yox. Özü desin, mən heç vaxt onunla pul davasına oturmamışam. Razı olmaram, indi də gedib o kişiliyini qoyub gələ. Öz əllərimlə *(əllərini başına apararaq)* bu başıma daş salam...

**Ərşad:** Əşi, and içmə, mənim xanımım da elə sənin kimi qorxaqdı. Heç olmasın... Əsas puldu... Ona söz vermişəm, tezliklə onun adına şəhərdə bir ev, özümə də maşın alacam. Qoy düşmən baxıb ürəyi çatlasın.

**Gülşad** *(heyrətlənir)***:** Ayə, həqiqi deyirsən, yoxsa, bizi dolayırsan?

**Ərşad:** Nə dolamaq? Yaşamaq üçün pul lazımdı, pul. Elə olmasaydı, şəhəri, kəndi yoxdu, kişilər arvad-uşağını, ev-eşiyini atıb rasiyyəyə qaçmazdılar. Arvad yanında oturmaqla pul qazana bilərsən?

**Gülşad:** Yoox...

**Ərşad:** Könlü balıq istəyən dalın hara salar?

**İntizar** *(sevincək halda)***:** Vanniya... Ay Ərşad bəy, deyirsən, getsə bir şey çıxar?

*Pauza*

**Ərşad** *("bəy" sözü Ərşadın xoşuna gələrək qurcalanır)***:** Niyə çıxmır, xanım? Bəyəm, mən ölmüşəm, qonşuma bir şey çatmaya? Moskva bazarlarına nəzarət, demək olar ki, mənim əlimdədi. Bir sözüm heç vaxt iki olmur. Yek kəlmə dedim, qurtardı. Qırxıqlar da ora gəlmirlər. Bilirlər ki, mən ordayam. Axı niyə də gəlməlidilər? Aylıq haqların verirəm, gedirlər... Qazanmaq istəyirsən, hazırlaş, səni də aparım, vəziyyəti öz gözlərinlə gör.





**Gülşad** *(tərəddüdlə)***:** Ayə, yox, ey. Mən İntizardan, uşaqlardan ayrı qalanmaram... Bunlar təsəvvür elə ki, əl quzularıdı. Bir də ki mən getsəm...

**İntizar:** Dilinə qurban, ay Gülşad. Əl quzusu bəyəm pis şeydi? Bir də ki mən getsəm deyib dalını saxladın, axıracan demədin, saxlama, qadan alım, gözlərimin işığı, mabədini də de.

**Gülşad:** Axı mən rus dilində "net"lə "yes"i qanmıram. Dərdsərimi ruslara necə başa sala bilərəm? Məni burunlamazlar ki?

**Ərşad:** Ayə, dildən qorxma. Rus dilini bizimkilərdən onsuz da düz-əməlli bilən yoxdu. Üzlərinə baxıb bir balaca hırıldadın, əl-qolunu tərpətdin, özləri səni başa düşəcəklər. Bircə qırxıqların gözlərindən uzaq ol. Mən olmayanda vurub sənə xəsarət yetirməsinlər.

**İntizar:** Necə? Necə? Mən qorxuram, Ərşad.

*Pauza*

**Ərşad:** Gördün bütün yollar tutulub, gərək qaçıb girəsən polkanın altına.

**İntizar:** Birdən, ay Ərşad, şər deməsən, xeyir gəlməz, basıb ora da girdilər?

**Ərşad:** Onda gərək vaxt itirmədən təcili girəsən həprim rus arvadlarının arxasına.

**Gülşad:** Ayə, saxla... Adım var, sanım var. Mən onu eləyənmərəm.

**Ərşad:** Özün bilərsən. Sağ qalmağın yolu budu. Sən kimdən artıqsan? Halva halva deməklə ağız şirin olmur. Gərək kəramətin ola. Pul qazanmaq cəsarət tələb eləyir, qağa. Ağlamayan uşağa döş verən tapılmaz. Elə başa düşmə ki, sən bazardakılardan ya ağıllısan, ya da namuslu *(Gülşad İntizarın üzünə baxır.*

*İntizar dodaqlarını bir-birinə yapışdırıb çiyinlərini çəkir)*. Ayə, qonşu, mən səni pis yola dəvət eləmərəm. Mən səni Moskva bazarında nagüman qoymaram. Canın üçün çatan kimi öz arabamı verəcəm sənə. Cağbacağdı. Doğrudu, bir az cırıldayır. Onun qorxusu yoxdu. Yağlayarsan, ötər... Mən başqa işlə məşğul olaram. Bazarkom da, uçastkovu da bizim adamdı. Həftədə də iki dəfə yığışıb restoranda gillədirik. Bəri başdan deyim ki, Rusiyada gillətməsən, özünə yol açanmazsan.

**İntizar:** Səni min budaq olasan, Ərşad bəy. Kölgən üstümüzdən əskik olmasın. Sən yaxşı qonşusan. Paxıllığın-zadın yoxdu. Mənə elə gəlir ki, bu iş bir az xatalıdı. Mən də bir az qısqancam. Gülşad evə gec gələn kimi ürəyimə qara-qura fikirlər gəlir. Şarpdan-şurpdan o işə "hə" demək çətindi. Qorxuram, öz əllərimlə yola salam, kişi o gedən gedə, peşmançılıq baş verə. Sonra döy başına, döy dizinə ola.

**Ərşad:** Pul qazanmaq istəyənin başına çox xəta gələ bilər. Eşitməmiş olmazsız; "Qul xətasız olmaz".

*Pauza*

**İntizar:** Qorxuram it də gedə, ip də. Mən bir də belə ufallı kişini hardan tapacam?.. Allah atasına rəhmət eləsin, ağına-bozuna baxmadan məni bütün hallarda qane eləyir. Başını hara bağlasam, orda da durur. Desəm, gecə çıxma bayıra, ölsə də çıxmayacaq...

**Gülşad:** Arvad təmiz korladı *(Üzünü Ərşada tutaraq)*. Ərşad, bilirsən ki, sənin xatirini çox istəyirəm. Başımı kəsməyə gəlsəydin, müzayiqə eləməzdim. Nəm-nümsüz verərdim, apparardın. Ancaq o sən deyənlər mənim işim döör. Yük daşımaqdan ötrü burdan ora atıla-atıla getməyə dəyməz. Bəyəm, burda yük azlığıdı, gedib yad ölkədə sarışın ruslara can verəm? Yox, Ərşad, o, həm xatalı, həm də xəcalətli işdi.

**Ərşad:** Ayə, sən nə təhər adamsan? Elə bil altı aylıqsan, kəsilməmisən. Demirəm, burda yük yoxdu. Burda da ürəyin istəyən qədər yük var. Ancaq bəla burasındadı ki, o yükə burda pul verən yoxdu. Qaldı qərib ölkədə, sarışın ruslara can verməyə. Bir tük səndən çıxacaqsa, özünü qorxutma, qoy bəri başdan çıxsın. İntizar xanım da bağışlasın məni, daha o sənin nəyinə lazımdı, lap gedib itin dalında bitsin. Düz demirəm, İntizar xanım?





**İntizar:** Düz sözə nə deyəcəm?.. Ancaq bir iş də var. Bayaqdan bəri fikirləşirəm, axırın bir tərəfə çıxaranmıram.

**Ərşad:** Axı nədi o?

**İntizar:** Qorxuram, Gülşadsız dözənməyəm. Xasiyyətim elə pisdi gəl görəsən, hər axşam başımı yastığa qoyan kimi Gülşad yadıma düşəcək. Onda da gəl yat görüm, necə yatırsan. Sinirlərim korlanacaq.

**Gülşad:** Canın üçün, Ərşad, mən də eləyəm. Elə öyrənmişəm. Arvadsız qalanmıram.

**Ərşad:** Əşi, narahat olmayın, bir yol taparsız. Dar, məhdud çərçivəyə qapanıb qalmaq yaxşı əlamət döör. Ətrafınıza da göz gəzdirin. Atalar deyib: "Palaza bürün, ellə sürün". Sən ağıllı adamsan, Gülşad. Adamlar dəli olanda molla yanına gəlir. Molla dəli olanda hara getsin? İndiki zəmanədə gərək gözüaçıq olasan.

**Gülşad:** Əsaslandırmaya bax ey... Arvadsız, uşaqsız nə ailə? Ailə namus üzərində qurulur. Gərək o şərəfi daim güdəsən. Qədrin biləsən. Uğrunda ölümə də getməyi bacarasan.

**Ərşad:** Ayə, boş-boş şeylərdən az danış. Dünya çalxalanır. Kimsə gözlərini açıb ətrafına baxmır. Hərə öz pul qazanmağındadı. Nə arvad, nə uşaq? Sənsə, gör nədən danışırsan?..

**İntizar:** Booy... Ərşad, sən pozulmusan. Bu sözləri arvadının yanında da deyirsənmi? Ayə, ailə, uşaq tanımayan adamdan şarlatan, qurumsaq çıxar, kişi yox.

**Ərşad:** Mən arvadın ayıqlığına pis baxmıram. Düzdü... Arvadın da gözləri açılmalıdı. O da müasir dünyayla ayaqlaşmalıdı. Maşallah, kənd tamam dəyişib... Mən deyərdim, şəhəri də ötüb keçib. Moskvadan bir neçə qonağım gəlməliydi, saxladım gələn

payıza. Fikirləşdim, arvadın intellekti bir az da artsın.

*Pauza*

**Gülşad:** Ayə, adamsan, qanımı qaraltma. Sənin arvadın ağıllı qadındı. Dözümlüdü. Sənin kimi kişilər baş götürüb gedib Rusiyətə. Orda donuz otaran kim, küçə süpürən kim, bazarda mehtərlik eləyən kim... Nə... nə eləyən kim? Hamısı gündüz ordaburda beləcə əlləşir, axşam da alkaş rus arvadlarının qucağında xoruldayır. Ağıllarına da gətirmirlər ki, onların qoyub getdikləri hər axşam çəpərin dibində hansı hoqqalardan çıxırlar...

**İntizar:** Oo... Sən hardan bildin?

**Gülşad:** Bəyəm, mən bu xarabada yaşamıram?

*Pauza*

**İntizar:** Əşi, sən də əsəbiləşib hamısına bir selbə vurma. İçərilərində düzləri də var. Balalarını gözlərinin qarşısına gətirənlər də tapılır.

**Gülşad:** Ərşad, dərdimizi təzələdin. Ayə, bu kənd elə-belə qurulmayıb ha. Kəndin hamısı bir-birinə qohumdu. Ölülərinin sahibidilər. Bundan başqa qız verib qız alıblar... Namus elə-belə şey döör?

**Ərşad:** Sənin də başın xarabdı, Gülşad... Onu mən də bilirəm. Gərək dövlət bu cavanlara iş yerləri açsın, onları məşğul eləsin, başlarını qatsın. Bunlar da heç hara getməsin. Onda arvadlar Dubaya, kişilər də Rasiyəyə gedib zinadan uşaq törətməzlər..

**İntizar:** Siz söhbət eləyin, qonşu Mehralının gəlini Qızyetər axşamdan ağrı çəkir, bu boyda xarabada bir həkim tapılmır xəstənin üstünə gətirələr. Mən də ona dəyib gəlirəm.

**Ərşad:** Xəstəxana işləmir?

**Gülşad:** Sən kefdən danışırsan. Həkimlər də, müəllimlər də getdilər sənin ardınca Rusyətə. Nə xəstəyə baxanlar var, nə də uşaqlara dərs deyənlər. Deyirlər ki, müəllimlər həkimlərlə, həkimlər də müəllimlərlə əl-ələ verib marusyalarla çaşqa-loşqadadılar.





**İntizar:** Əlac qalıb ara həkimlərinə. Deyirsən, a kişilər, başım ağrıyır, onlar da başını qoyub dalını masaj eləyirlər... Yazıq qız qozbel Sərdara gəlin gələndən on gün sonra əri guya qazanc dalınca gedəndi. O vaxtdan nə telefon açıb, nə də bir barmaq kağız yazıb. Yazıq gəlinin də əlacı kəsilib, İnternetlə ər axtarır. Qaragünlü hələ də bilmir əri ölüb, ya qalıb. İndi də onun üçün uşaq doğur. Sonra da gəl, atasız uşaq böyüt. Kişilər belədi də.

**Ərşad:** Kişilərə nə olub ki? Qazanc dalınca getmək bəyəm pisdi? Bir də ki, kişi arvad döör, onu güdəsən. Kəndirlə ayağına bağlayıb yanında saxlayasan.

**İntizar:** Sən yaxşı vaxt gəlmisən. Arvadın vot-votdadı. Doğub başa çıxsaydı, heç olmasa, uşağının üzünü görərdin.

**Gülşad:** Hə... İntizar düz deyir. Uşağının adını da özün qoyardın. Həyətdə zurna pilədərdin, biz də əl-qol açardıq.

**İntizar:** Uşağın adın nə qoyacaqsan, ay Ərşad?

**Ərşad:** Qız olsa Marina, oğlan olsa Dima.

**Gülşad:** Küykələk atanın, tumanı düşük ananın adını qoysan, qiyamət qopar?

**Ərşad:** Onlarınkı işə yaramır, köhnəlib. Biz uşağımıza müasir ad qoymalıyıq.

**İntizar:** Nə vaxt qayıdırsan, Ərşad bəy?

**Ərşad:** Üç-beş günə. Bəlkə də tez.

**Gülşad** *(qəsdən öskürür)***:** İntizar, sən gərək ki, xəstə yanına getmək istəyirsən. Yaxşı, get, tez qayıt.

*İntizar otaqdan çıxır. Ərşad onun arxasınca çəkinə-çəkinə baxır.*

**Ərşad:** Ayə, *(sinəsinə vuraraq)* bu canım ölsün, kef ordadı. Yupyumru rus qızları. Özü də əlasından. Gündə beşi. Necədi sənin üçün?..

**Gülşad:** Adə, necə-necə? Axmaq-axmaq danışma. Sənin başın xarabdı-nədi? Gündə o qədər arvad dəyişərlər?

**Ərşad:** Nə qanırsan arvad dəyişmək nədi? Yaşamağın ləzzəti ondadı. İntizardan savayı nə görmüsən ki, a bədbəxt?

**Gülşad:** Deməli, sən də ondansan.

**Ərşad:** Adə, kişi ondan olar da *(gülümsünərək)*. Nə deyirsən de. Yatdığın evdi, gəzdiyin həyət. Gördüyün İntizar, oturub durduğun da uşaq-muşaq.

**Gülşad:** İçərilərində müdriklər də çoxdu, Ərşad. Eşitməmiş olmazsan?

**Ərşad:** Nəyi?

**Gülşad:** Tısbağa qınından çıxır, sonra da qınını bəyənmir.

*Pauza*

**Ərşad:** Yox... Düz demirsən. Ömür insana bir dəfə verilir. Onu tufanlara atmaq, tısbağa kimi qınına çəkilmək insafsızlıqdı. Ayə, ağzımı açdırırsan, gündə televizora baxmırsan, radioda eşitmirsən, heç şəhərə getmirsən, min oyundan çıxanları görmürsən? Sənə hansını deyim? Avropa Qərbə, Qərb də Şərqə qarışıb, it yiyəsin, bağa başın tanımır, gör, sən də mənə nə deyirsən? Qarşında iki yol var. Ya camaata qarış, pul qazan, kef çək, ya da vaxtkən özünə kəfən biçdir.

**Gülşad:** Mən arvadıma xəyanət eləyənmərəm. İntizarın haqqı-sayı məni tutar... Həm də arvada xəyanət eləmək, qağa, günahdı.

**Ərşad:** Düzələn deyilsən, kişi. Sənə ağıllı deyənin atasına lənət... Oturmusan kənddə, bir köpük qazanmırsan. İntizar əkdiyi göy-göyərtiyə, saxladığı toyuq-cücəyə, keçi südünə göz dikmisən, qonşunun ayranı ilə dolanırsan, özün də arsız-arsız kişilikdən danışırsan.

*Qapı açılır, İntizar otağa daxil olur.*





**Gülşad** *(arvadına)***:** Nə tez qayıtdın?

**İntizar:** Getdim, gördüm ki, doğub. Özü də oğlan.

**Ərşad:** Kimə oxşayır?

**İntizar:** Babal yuvanmaram. Demək çox çətindi. Fakt budur ki, gədənin rəngi çox qaradı. Bizim kənddə heç vaxt beləsi doğulmayıb.

**Ərşad:** Aa ha... Gəlin keçən il Dubaya-zada getməyib?

**Gülşad** *(gülərək)***:** Allahu-Əkbər də. Yəni deyirsən?... Əşi, yox... Babal yuma, Ərşad. Bu yaxında, inşallah, səninki də doğacaq. Görək, onun rəngi necə olacaq?

*Pauza*

**İntizar** *(rişxəndlə)***:** Uşağın kökü bəlli olsa, onun gələcəkdə tərbiyəsi də asan olar. Özünə baxma, Gülşad, dünya dəyişib. Kim kimdəndi, bilinmir. Görək, Ərşadın bəxtinə Vəsiləxanım nə çıxaracaq?

**Gülşad:** Ərşad, dünyanın işləri qarış-quruşdu. Heç kimi tanımaq olmur.

**Ərşad:** Məni də?

**Gülşad:** Hə. Sıntarmısan. Özün əyrisən, elə bilirsən, hamı sənin kimidi.

**İntizar:** Bir sözlə, karın könlündəki, Ərşad *(Gülüşürlər)*. Camaata qara yaxma... Eşidərlər, gəlib sənin başında turp əkərlər.

**Ərşad:** Neyləyərlər?

**İntizar:** Səni cırarlar, doğuzdurarlar.

**Ərşad:** Ürəyimin təmizliyi nə olsa, mənə danışdırır. Siz də əlli dərənin suyunu yığıb qarışdırıb içinə də zəhər qatıb içirdirsiz mənə. O da içimi doğrayır. Sonra da deyirsiz bir sözə görə neyləyərlər səni. Ölüb Xandadaş, ağlayanı yoxdu...

**Gülşad:** A qonşu, adam dilində danış, biz də başa düşək.

**Ərşad:** Gəldim deyim, həvəsin varsa, nə paxıllıqdı, səni də aparım özümlə, beş-on manat qazan... İstəmirsən, özün bilərsən.

Da məni nə sıxma-boğmaya salırsız. Bura cırılmağa gəlmədim ha...

**İntizar:** Bir kəlmə söz dedik, qiyamət qopmadı ha. İndi hər şey ola bilər.

**Ərşad:** Elə aləmi qatan sözdü də, xəncər yarasına nə var ki... Ağıllı ol, Gülşad.

**Gülşad:** Ağlıma nə olub ki?

**Ərşad:** Nə olacaq? Ağıllı adamın pulu olar. Arvad-uşağı zülmə salıb onları zidgirlik içərisində yaşatmaz. Odu ha, bizim bacoğlu Əlisəfa, iki ildi getdi Rasiyyəyə, ailəsini yağ içərisində böyrək kimi dolandırır. Hamı dolanışığına həsəd aparır. Hər nə desən varıdı.

**İntizar** *(tərəddüdlə)***:** Gülşadı versəm sənə, bizi peşman eləməzsən ki?

**Gülşad:** İntizar, qadan alım, məni oda salma, əşya kimi satma! Xarabasında özünü dolandırmayan kişinin başqa yerdə nə iti ölüb?

*Pauza*

**İntizar:** Dayan görək! Səbrin olsun, səni bu saat yola salan yoxdu. Səsini atma başına. Qonşular eşidər, ağızlarda söz olarıq. Kişi pul qazanar. Arvad əlinə baxmaz. Pulla oyun olmaz. Sənə dinmirəm, artıq-əskik söz demirəm, ayağın yer almasın. Arvadlığımla az qalıram özüm gedəm alverə. Bazardakılar bizim özümüzünkülərdi. Lap olsun başqası. Canında olmasa, sənə kim neyləyəcək? Bura da Dubay döör ki. Ərəblər ağına-bozuna baxmayıb vəhşi kimi basmarlayarlar adamı? Qorxub çəkinməyin nə yeri var? Qaldı rus arvadlarıyla dostluğuna, hərdənbir ona da icazə verirəm. Halal xoşun olsun. Bu şərtlə ki, zina eləməyəsən, qazandıqlarını ona verib gəlməyəsən.

**Ərşad:** Narahat olma, İntizar xanım. Gözüm üstündə olacaq. Mən indi gedirəm, başqa adamlarla da görüşüm var. Söhbət eləyin, Gülşadı göndərsəniz, mənə təcili bildirin. Başqasına söz





verməyim.

**İntizar:** Yaxşı...

*Ərşad gedir.*

**Gülşad:** İşə düşmədim?.. Oturduğumuz yerdə pul adı eşidən kimi arvad da havalandı... Pah atonnan, gedək dərdimizi kimə deyək?

**İntizar:** Gülşad, qadan alım, başqa qadınlara baxıb başına qara-qura fikirlər gəlməsin. İstəsəydim, elə sən yanımda olanda da... Mən gecə çəpər dibində oturub-duranlardan döörəm. Mənim əsli-nəslimə yaxşı bələdsən.

**Gülşad:** Bələdəm. Niyə başa düşmürsən ki, bu alçaq məni aparıb bir göz qırpımında biqeyrət eləyəcək.

**İntizar:** Arğac səndən keçməsə, ürəyin istəməsə, o, heç bir qələt eləyənməz.

**Gülşad:** Bəs kənd, el-oba nə deyəcək? Soruşanlara nə cavab verəcəm? Adım bədnam olacaq.

**İntizar:** Heç nə?... Boş şeydi... hamı elədi, Gülşad. Eşitməmisən?

**Gülşad:** Nəyi?

**İntizar:** Hamı gözüqıpıqsa, sən də ol gözüqapıq. Ellə gələn qada-bala toy-bayramdı. Axından kənarda qalmaq olmaz.

**Gülşad:** Bəs yol xərci?

*Pauza*

**İntizar:** Axşama qohum-əqrəbanı çağıracam gəlsinlər, hərəsi azdan-çoxdan kömək eləsələr, bəsimizdi. Hər şey düzələcək.

**Gülşad:** Birdən eləmədilər?

**İntizar:** Öz ciyəri yanmışlarına baxma... Mən gedim, sənə alt-üst paltarları alım...

*Gülşad kədərli, İntizar sevincək halda otaqdan çıxırlar. İşıq sönür. Səhnə qaralır.*

## II şəkil

*Axşamdı. Gülşadın evi. Gülşadla İntizar evdədirlər. Qapı döyülür. Gülşadın bacısı Yaxşıxanım, İntizarın anası Xavər, dədəsi Qurban, qardaşı Müseyib... gəlirlər. Əl verib görüşürlər. Ordan-burdan söhbət eləyirlər.*

**İntizar:** Başımıza ağıllı ideya gəlib. Atalar yaxşı deyib: "Ağıl ağıldan üstündü". İstədik həmin ideyanı sizinlə bölüşək. Hamınız bu ailənin can-ciyərisiz. İşdi-şayətdi, ideyamız çürük çıxsa, bizim göz yaşlarımızı siz silməli olacaqsız. Yaramıza mazı siz çəkəcəksiz.

**Xavər** *(əsəbiləşərək)***:** Allah!.. Allah!.. Nə maz? Nə ideya? Elə aralıdan götürmə, qızım, onsuz da hamımız əsəbiyik. Sözünün canını de.

**İntizar:** Tələsmə, ana. Bu mühüm məsələdi. Bu işdə tələsmək "ölünü qoyub dirini ağlamaq" olar. Bilirsiz ki, Gülşaddan iki uşağım var. Gözəl-göyçək, gül kimi.

**Xavər** *(çaşqın halda)***:** Yoxsa, boşanmaq istəyirsiz, aaz? Ağlınızı başınıza top eləyin. Bir daxmanız var, boşanıb harda qalacaqsız? Səni başımdan güc-bəlayla aralamışam. Şəxsən səni evimə qoymayacam.

**İntizar** *(gülərək)***:** Yox... Nə boşanmaq?

**Qurban:** A qızım, bəs nə baş-beynimizi aparırsan? Bəyəm, biz uşağıq, sözdən söz çıxarmağı bacarmırıq?

**İntizar:** Əşi, axıra qədər məni dinləsəniz, bəyəm qiyamət qopar?

*Söhbətdən heç bir məna anlamır. Hamı bir-birinin üzünə baxır.*





**Müseyib:** Bacı, qorxma, fikrini birbaşa de. Müqəddiməsiz-filansız. Heç kim sənə rəng yaxanmaz. Təşəbbüs göstərsələr, hamısının anasını bu qardaşın *(səsinə ani fasilə verir)* ağladar...

**Gülşad:** Adə, saxla... Bizi zibilə salma... Hamımız polisdə cavab verməli olarıq.

*Pauza*

**Müseyib:** Ayə, polisin nə hünəri var, ailənin daxili işinə burun soxa... Biz də yerdən çıxmamışıq ha. Sən öl, bir fısdırıq qoparırıq. Gəl görəsən.

**Yaxşıxanım:** Alə, gop eləmə... Sizin kiminiz var? Qardaşım Gülşad olmasaydı, hansı dərənin dibində can verdiyini özün də bilmirdin. Danışığına bax, biz yerdən çıxmışıq? Qanacaqsız. Arxayın ol, bütün kənd bilir sənin hardan çıxdığını.

**Xavər** *(qışqıraraq)***:** Aaz, otur yerində. Hardan çıxıb? Hamı çıxan yerdən. Ağzımı açdırma, həyasız.

**Qurban** *(həyəcanlanır)***:** Allah! Allah!... Axşam-axşam paza keçməsək, yaxşıdı.

**Müseyib:** Yaxşıxanımsan-nəsən, dinmirik-danışmırıq, qudurursan, özünü yığışdır.

**Yaxşıxanım:** Müseyib, günahın hamısıməndədi... Tulanın qulağını kəsməklə it olmaz... Çıxarsan həyətə, danışarıq *(Üzünü İntizara tutaraq)*. Sən də tez elə keç mətləbə.

*Pauza*

**İntizar:** Bilirsiz ki, kənddə dolanışıq çox çətindi. Göy-göyərtiylə, şor-qatıqla nə qədər dolanmaq olar? Bunun sonu olmalıdı, ya yox?

**Xavər:** Onları biz də bilirik. Uzatma...

**İntizar:** Mən də ora gəlirəm.

**Gülşad** *(başını yelləyərək)***:** A qohumlar, səbr yaxşı şeydi.

**Qurban:** Sözünüzün qısası, a bala.

**Müseyib:** Bəlkə sözləri yoxdu?

**Yaxşıxanım:** Görünür, ələ salıblar bizi.

**İntizar:** Nə ələ salmaq? Toyuq kimi qak-qak-qak eləyirsiz, qoyursuz ağzımı açam?

**Xavər:** Bayaqdan qırırıq bir-birimizi. Hələ indi ağız açmaqdan danışırsan? Vaşş... Heyf, mənim əziyyətimdən...

**Qurban:** Belə getsə, deyəsən, arvad, burda qan su yerinə axacaq.

**Müseyib** *(dədəsinə)***:** Ayə, bədbəxt oğlu bədbəxt, sən də şişirtməyə öyrəncəlisən.

**İntizar** *(qardaşına)***:** Adam dədəsinə elə söz deyər? Eşidənbilən bizə nə qiymət verər? Şəxsən mən utanıram sənin əvəzinə.

**Müseyib** *(əsəbi halda)***:** Cəhənnəmə... Utanma... Nə verirlər versinlər. Dədəmiz qoca kişidi. Uzaq başı deyəcəm dədəm ağlın itirib.

**Xavər:** Oğlum, itirməyinə itirib. Elə olmasaydı, dünən öskürən kimi özünü batırmazdı.

**Yaxşaxanım:** Ee... He... he... he... Xi... xi... xi... A Müseyib, a başını dağlayım, gərək bundan sonra sən səsini çıxarmayasan. Xəcalətindən öləsən. Bir kişi ki, özünü saxlayanmaya... ha... ha... ha...

*Pauza*

**Gülşad** *(İntizara incik halda)***:** Qaragüruhlarla adam məsləhətə oturar? Dədəni abırdan saldılar.

**İntizar:** Ciyəri yansın bacının. O, qarışdırdı aranı.

**Yaxşıxanım** *(İntizara)***:** Ağlın çaşıb deyəsən? Sən öl, ər-arvad sizə bir divan tutaram, harda olduğunuzu da bilməzsiz. Danışığına bax bunun *(Üzünü Müseyibə tutaraq)* Müseyibsən-nəsən, çək qəmişini bizdən.

**Xavər:** Yolunu azma... *(Ərinə)* Ya xırxıradan, ya zırzıradan. İmkan verin, İntizar fikrini çatdırsın bizə. Qızın sözü bayaqdan ağzında qalıb.

**Qurban:** Üzümə elə baxırsan, guya mən günahkaram. Əşi,





sözü var, danışsın da.

**Yaxşıxanım:** Onun sözü yoxdu. Xasiyyətinə bələdəm. Olsaydı, çoxdan arvadlararası aləmlə bir eləmişdi. Yəqin ona nəsə lazımdı.

*Pauza*

**Gülşad** *(arvadına)***:** Camaatı çərlətmə, tez elə, indi dağılışıb gedəcəklər, hıçqırağın içində qalacaq. Sonra da başlayacaqsan dədənin, ananın qarasına, "it belə gəldi, qurd elə getdi" deməyə.

**İntizar:** Necə fikirləşirsən? Bəzəksiz-düzəksiz? O saat hoqquldayacaqlar.

**Müseyib:** Hoqquldayanlara bax ey. Üzü içindən qırmızı. Nə dədə qanır, nə ana. Bərbəzək düzənə bax. Ayə, məni qınayan, atana lənət. Gör, dünya necə dəyişibsə, Qurbanla Xavərin qızı İntizar da siyasətçi olub.

**İntizar:** Əzizlərim... Bayaqdan ağzımı açmağa imkan vermirsiz. İndi nə varsa cırından çırpısına qədər hamısını açıb sizə deyəcəm.

**Yaxşıxanım:** Tez, yığcam və konkret.

**Müseyib:** Ee... Eh... Yenə imkan vermirlər.

**Gülşad:** Heyf, mənim zəndimdən... Tüpürüm hamınızın xasiyyətinə.

**Xavər:** Nə?

**Qurban:** Aa, ha... Bu da bizim əziz-xələf kürəkənimiz.

**Müseyib:** Qudurub ha...

**Yaxşıxanım:** Bu, təzə hoqqadı?

**İntizar:** Bu gün belə qərara aldıq ki, sizi çağıraq, mühüm bir məsələni məsləhətləşək.

**Xavər:** Sözünü de.

**Qurban:** Nə məsləhətdi o?

**Müseyib:** Ayə, biz iş-güc adamıyıq. Biz küçənin tinindəki avara yanğınsöndürənlərdən döörük. Belə getsə, mən dözməyəcəm... Zibil qarışdıracam.

**Gülşad:** Hə, İntizar, tez elə.

**İntizar:** Ərşad bəy axşam Moskvadan gəlib. Bu səhər də bizdə olub. Uşaqlara kiçik hədiyyə alıb gətirib, sağ olsun.

*Hamı bir-birinin üzünə baxır.*

**Müseyib:** O, pozğunu, oğraşı evə niyə buraxmısız?

**Gülşad:** Biz buraxmadıq, özü gəldi.

**Xavər:** Onun barəsində biədəb danışırlar.

**İntizar:** Kim danışır, özü bilər. Onun bizə dəxli yoxdu. Qonağı qəbul eləməliydik, elədik də.

**Qurban:** Yaxşı, o, nə dedi?

*Pauza*

**İntizar:** Deyir, Moskva bazarlarında pul hıl verir. Azacıq tər tök, əvəzində nə qədər deyirsən, yır-yığış elə, gətir. Gözün üstə qaşın var deyən də olmur.

**Müseyib:** Ola bilməz... Gop eləyir.

**Gülşad:** Xeyli pul gətirib.

**İntizar:** İstəyir, Gülşadı da gedəndə özüylə aparsın. Buna da azdan-çoxdan şərait yaratsın. Doğrudu, Gülşad getmək istəmir. O, heç vaxt alverlə məşğul olmayıb. İndi şəxsən mən sizin fikrinizi öyrənmək istəyirəm. Getsin, ya getməsin?

**Gülşad** *(yazıq görkəm alaraq)***:** Mən yenə öz fikrimdə qalıram. Əvvəla, evdən-ailədən mən kənarda yaşayanmaram. İkincisi, rus dilini bilmirəm. Üçüncüsü də, pul sayanmıram.

**İntizar** *(əsəbi halda)***:** Onları çox eşitmişik.

*Pauza*

**Qurban:** A bala, çətin zəmanədi. Gedər, o da ilişər, qayıtmaz. Sonra da gəl kişi axtar. İndiki zəmanədə kişi tapmaq çətindi. Kişilər dağın başındadı.

**Xavər:** A kişi, səsini kəs. Pulsuz kişidə nə kəramət? Neçə vaxtdı Gülşad İntizarladı da. Yazıq qız onu yanında saxlayıb turşuya qoymayacaq ki. Pulsuz kişidən yumurtlamayan toyuq yaxşıdı. Ürəyin istəyəndə kəsib qoyarsan dişinin altına. Ya da qapıda zingildəyən it. Düşmən də düşünər, kişinin iti var.





**Yaxşıxanım:** Mən Gülşadın yad ölkəyə getməsinin qəti əleyhinəyəm. İntizar, bilirsən ki, həmişə sənə hörmət eləmişəm. Ancaq indi sənə imkan verməfrəm ki, mənim qardaşımı dəli-divanə eləyib, ölkəbəölkə gəzdirəsən. Qızın böyüyüb, gözünü yumub açacaqsan, qapını elçilər döyəcləyəcəklər. Onda Gülşadı soruşsalar, nə deyəcəksən? Deyəcəksən ki, qazanc dalınca göndərmişəm? Elçilər də bir-birinə göz vurub hırıldaşacaqlar. Utanıb-qızarmayacaqsan?

**Gülşad** *(kövrəlir)***:** Düzdü, bacı, düzdü. Sənin danışan dilinə qurban.

**Müseyib:** Ayə, a yeznə, kişi ağlamaz.

**Yaxşıxanım:** Kişi ağlamayanda, bəzən axmaq arvadı onu ağladır.

**İntizar:** Axmaq özünsən, baldız. Yaşamaq üçün pul lazımdı, lopağ yox.

**Gülşad:** İnsafın olsun, İntizar, bəyəm mən lopaqla oynayan kişiyəm?

*Pauza*

**Qurban:** Bu həyatdı, Gülşad. Gərək onunla barışmağı bacarasan... Hələ zırhazırı qabaqdadı. Elə ki qolun gücdən, dizin taqətdən düşdü, halın tükəndi, əlindən bir iş gəlmədi, bala, onda işin qullabıdı. Arvad hakimiyyəti alır ələ, gündə də kişinin axırına çıxan bir fərman verir. Onda gəl kişiliyini qoru-saxla görüm, necə saxlayırsan?

**Müseyib** *(anasının üzünə baxaraq)***:** Ərinin başı xarab olub, ana. Gözümüz aydın, kim nə çalsa, ona da oynayır.

**Xavər** *(gözlərini hədəqədən çıxararaq)***:** Eybi yoxdu, qoyun çərənləsin. Evə çatan kimi, dəlixanaya telefon açıb dalına da bir iynə vurdurmaq mənə borc olsun. Onda dədən qanar nə danış-

dığını.

**Qurban:** Arvad, imkan ver, İntizar əriylə bir damın altında yaşasın. Sənin ağlınla oturub-dursa, o da tezliklə kol-kos dibi axtarmalı olacaq. Onda fərəzən günə çatarıq.

**Yaxşıxanım:** Sağ ol səni, Qurban kişi. Ürəyimcə danışdın. Əsli-zatında bir qırıq da olsa, ar-namus varmış...

**Xavər:** A kişi, sən niyə qanmırsan ki, bütün günü İntizarın gözləri qabar olub Gülşada baxmaqdan. Nə qədər oturub-durub bir kişiyə baxmaq olar? Bunu kişi it oğlu qanmalıdı, ya yox. Gərək mən deyəm? Məni çərlətdiyin bəs elər. Heç olmasa, yazıq qız... Hərdənbir onun üzü gülməlidi, ya yox?

**Gülşad** *(əlləriylə başını tutaraq)***:** Sağ ol səni, "qayınana".

**Müseyib:** Bərəkallah, ana!

**Qurban:** Tümmətünün qızı, gör nə deyir ey, əə?

**Xavər:** Bəlkə yalan deyirəm? Bu, həyatdı. Hərdən dəyişmək də olar.

*Pauza*

**İntizar:** Əşi, "qarğa məndə qoz var" eləməyin. Anasının əmcəyini kəsənlər, budu gördüz iki qozu atdılar bir dağara, başladılar yırğalamağa. Dost-düşmən da ağına-bozuna baxmadan hay vuracaq üstümüzə. Gəl dağarın ağzını yum görüm, necə yumursan... Adımı da qoyacaqlar...

**Qurban:** Ananın balasısan, a bala. Atalar yaxşı deyib: "Anası çıxan ağacı balası budaq-budaq gəzər". İndi əri diyarbadiyar göndərib neyləmək fikrindəsən?

**İntizar:** Ay dədə, niyə qanmırsan ki, zəmanə dəyişib, yaşamaq üçün pul lazımdı, pul. Boş sözlər, hırıltılar, kişnəşmələr, laqqırtılar zamanı keçdi.

**Müseyib:** Qızıl kimi sözlərdi. O sözlərə mən də şərik.

**İntizar:** Elə isə gəlin, "Gülşad getsin", yoxsa, "Gülşad getməsin" təklifini səsə qoyaq.





*Təklif səsə qoyulur. Yaxşıxanımdan savayı, hamı "Gülşad getsin" təklifinə səs verir.*

**Yaxşıxanım:** Deməli, Gülşad gedir. Yazıq qardaş, bacın ölsün. İntizar atdı sənə. Öz ayağınla gedirsən. Qayıdacağına da ümid yoxdu. Təkcə burda adın qalır *(Dizlərinə-başına döyüb ağlayır. Səsi aləmi bürüyür)*. Hardasız, ay ata, ay ana? Yaşasaydız, görərdiz Gülşadınızın keçi kimi hərraca qoyulmasını. Yazıq qardaş... Anan ölsün. Necə ki, öldü. İndi oğlun arvadı İntizarın əlində yaman günə qaldı *(hönkürür)*. Yox, İntizar, — Nəhayətin sonu var, — deyirlər. Vaxt gələr, əvəzini alarsan. Nahaq iş yerdə qalmaz.

**Qurban:** Məsələ bitdi?

*Pauza*

**İntizar:** Tələsməyin, ilişiyi qalıb.

**Xavər:** Nədi ilişik?

**Müseyib:** Yol xərci məsələsi?... Məndən gözünüzü yığın. O məsələyə anam baxır.

**Qurban:** Mən bir aylıq pensiyamı verə bilərəm.

**Xavər:** Mən də dədən kimi.

**İntizar** *(fikrə gedir)***:** Zəhrimar pul nə əcaib şeymiş... Kimdən umursan, üz çevirib gedir... Sizin təqaüdünüzə...

**Gülşad** *(öz-özünə)***:** Yığ apar, xərc elə, sonra da əlin ətəyindən uzun qayıt. Ömrü boyu da qazan borc ver. Günümə bax. Pulgir arvad...

**İntizar:** Az çərənlə əlimizin üstündə. Sənə bir toy tutaram, özün də bilməzsən hardan gəlib hara getdiyini. Əkdiklərini qardaşım yedirib-içirib, geyindirib-keçindirib saxlamalıdı? A qanmaz, sənin də işini başqası görməlidi? Bəlkə, yalan deyirəm? Gözlərini döymə... Hər kəs öz cəzasını çəkməlidi.

**Müseyib:** Bunu əla, dedin, bacı.

**Yaxşıxanım:** Ədə, kəs səsini... Mən də arvadam. Sənin əcaib

siyasətini mən də qanıram. Gülşadı Rusyətin bazarına niyə göndərdiyini çox yaxşı anlayıram. O, bazara çatar-çatmaz bacın işində olacaq. Ayıbdı... Gül kimi uşaqları var. Onları çirkaba batırmayın. Batırdızsa...

*Pauza*

**Xavər:** A bala, iyli-iyli danışma. Nə sənin qardaşın bazardakılardan, nə də mənim qızım topa dibindəkilərdən artıqdı. Hər zəmanənin öz adamları olur. Həqiqəti niyə qəbul eləmək istəmirsən?

**Qurban:** Çox uzağa gedirsən.

**Müseyib:** Ona "Anam", — deyərlər.

**Gülşad:** Ayə, bu xəcalət öldürəcək məni.

**İntizar:** Çox uzatmayaq. Uzatdıqca işin içindən iş çıxır. Malmadarınız ki var. Satın. Adama üç yüz-dörd yüz təşkil eləyin, Gülşadı yola salaq. O, qazanıb göndərər, onda borcunuzu qaytararıq.

**Müseyib:** Ölü qəbirstanlıqdan geri qayıtmır, bacı. Bəs, Gülşadın qohum-əqrəbası?

**İntizar:** Eh... Onlarda elə qeyrət hardadı?.. Təsəvvür elə ölüblər. Söz güləşdirməyin. Durun, basın bayıra.

*Qurban qabaqda, qalanlar da onun ardınca otaqdan çıxırlar. Gülşadla İntizar onları arxadan süzürlər. Sonra onlar da yan otağa keçirlər. İşıq sönür, səhnə qaralır.*

## III şəkil

*Ərşadın evi. O qalstukunu taxır. Anası Buta divanda oturub başını qolları arasına alıb. Arvadı, ikicanlı Vəsiləxanım gəlib stulda əyləşir. Ərşadın atası İsgəndər otağa daxil olur. Hamı narahatdır.*





**İsgəndər** *(oğluna)*: A bala, pul əl çirkidi. Üç-beş manatdan ötrü ailəni atıb getmə. Arvadın da ağırayaqlıdı. O, çox yaxşı cuvanəzəndi. Əsli-zatı olandı. Qədrini bil.

**Ərşad:** Sənə elə gəlir, ay dədə. Pul gücdü, qüdrətdi. Pulsuzlar "əl çirki" ləqəbini veriblər pula. Pişiyin ağzı ətə çatmayanda murdar deyər. Arvadımı mənə az təriflə, a kişi? Arvadın peşəsi doğmaqdı da.

**Buta:** Bizi az xəcalətli eləməmisən, Ərşad. Qurtar ora-bura qaçmaqdan.

**Ərşad:** Eh... Ay ana, lap cavanlıqdan o qədər utanc gətirəcək işiniz olub. Ər-arvad gedin onun xəcalətini çəkin *(Üzünü arvadına tutaraq)*. Düz demirəm, Vəsiləxanım? Mənim gözəl-göyçək arvadım?

*Pauza*

**Buta:** Boyunu yerə soxum. Gör mənə nə deyir?

**Vəsiləxanım** *(ərinə)*: Düz deyirsən, ayə. Mən səndən razı. Heç olmasa, on beş gün gözlə. Qarnımdakını yerə qoyum, gör kimə oxşayır, sonra get. Əlim əlinə, ağzım ağzına çatmamış, ləzzətini dadmamış çıxırsan aradan. Qadan alım, belə olmaz. Görürsən, nə gündəyəm?

**Ərşad:** Sizə dedim axı. Bu gün mənə dostlarım zəng çalıblar. Deyirlər ki, tez gəl. Nəsə, əlimyandı iş olmasaydı, belə tezliklə, özü də tələm-tələsik məni çağırmazdılar geri. Mənim son sözümü gözləyərlər.

**İsgəndər** *(arvadına üzünü tutaraq)*: Arvad, görünür, sənin kökündə qırıqlıq var, mən bilməmişəm.... Görən, bu kimə oxşayıb?...

**Buta:** Kimə oxşayacaq, goru yanmış dədənə. O da beləydi. Divarın o biri üzündə bilsəydi arvad var, görməzə-bilməzə barbar bağırardı, nə var, nə var, arvad onun səsini eşitsin. Guya səsini eşitməklə... Bu da dədən gorbagorun yolunu gedir. Arı yox, qırı yox...

**Vəsiləxanım:** Rus qızları ağlın başından alıb. Gecə də dilində Nura, Nina, Tanya bitib...

**Buta:** Ərşadın arvadı var. Elə olmasaydı... Yenə sən deyənə inanardım. Aç qulağını eşit, bala. Mən qeyrətsiz oğul doğmamışam.

**Vəsiləxanım:** Əşi, ağzımı açdırma, oğlunun qeyrəti olsaydı, rus qızlarının yanında nə gəzirdi?

**Buta:** Qılıncı qında görməmiş danışma. Kişiyə çox söz deyərlər.

*Pauza*

**İsgəndər:** Kişiyə olar, arvada yox.

**Buta:** Ağıllı danış, kişi. Kişinin arvaddan nəyi və harası artıqdı ki, ona olar, arvada yox? Gül ağzımı açdırma, açaram sandığı, tökərəm pambığı. Ya hər ikisinə, ya da heç birinə.

**Ərşad:** Ana, arvad gərək gözünü götürüb kənara baxmasın. Babam deyərdi ki, arvadın ixtiyarı yoxdu, heç bir halda dövlət sərhədini keçməyə.

**İsgəndər:** Ayə, getdi o zəmanə. İndi arvadlar kişilərdən sərhəd nədi soruşmurlar. Çətini ayağını üzəngiyə qoymaqdı. At elə sıçrayır altında, gəl görəsən, özün də ona məəttəl qalırsan. Otuz il bir yastığa baş qoyduğun arvad alahı düşünür. Arvad yıxan evi fələk də quranmır.

**Ərşad:** Görürsüz uzaq yol üstəyəm. Xeyir-dua verməkdənsə, nəs danışırsız? Mənim əlimin üstə...

**Vəsiləxanım** *(əlini şiş qarnına sürtərək)*: Deməli, bunun sənə dəxli yoxdu, hə...

**Ərşad:** Yox... *(tez sözünü dəyişir)* Niyə ki?

*Pauza*

**Vəsiləxanım:** Yox... Mən də yerdən pırt eləyib çıxmamışam. Sənin kimi kişinin istəsəm, əllisinin başına corab toxuyaram. Yadında saxla. Atasından xəbərsiz uşaq heç kimə oxşamaz...





*Qapı açılır. Gülşadın əlində çamadan İntizarla otağa daxil olurlar. Görüşürlər. Buta başın yelləyir. İsgəndər qəsdən boğazını arıtlayır. Arvad ərini başa düşür, qonaqlara əyləşmək üçün stul göstərir. Gülşadla İntizar otururlar.*

**İsgəndər:** Gedin, ancaq arvad-uşağı yaddan çıxarmayın. Gec-tez bu xanımların üstünə qayıdacaqsız.

**Gülşad:** Nə danışırsız? Mən arvad, uşağın xatirinə gedirəm Moskvaya. Yoxsa, xarabada mənim nə itim azmışdı?

**Buta:** Avazın yaxşıdı, Gülşad, əgər oxuduğun "Quran" olsa....

**İntizar:** Başqa cür olsa, bilirsən neylərəm?

**Vəsiləxanım:** Neyləyərsən?

**İntizar:** Boğazını dişimlə kəsərəm.

*Pauza*

**Buta** *(İntizara)*: Arvad arvadın hiyləsini yaxşı bilər. Ərinin başı orda, səninki də burda qatılacaq. Arada uşaqlar qalacaq. Mənim onlara yazığım gəlir.

**Ərşad:** Eh... Ay ana, nə qoyub, nə axtarırsan. Həmişə babam deyərdi: "Kişinin başı qalda gərək".

**Gülşad:** Bəs arvadınkı? Məni İntizar göndərir. Vallah-billah, bu gediş mənim də ürəyimcə döör. Bilirəm, İntizarın nəfsi məni oda salacaq. Atalar deyib: "Az ye, həmişə xımır-xımır". Onda, qarın da doyar, göz də.

**İsgəndər** *(Ərşadla Gülşada rişxəndlə)*: Gedin, gedin, a bala. Axırınız yaxşı olsun. Ərşad, gələndə uşağın səni tanımayacaq. Onda ananla mən də yəqin o dünyada olarıq. Tanrı bircə balanı qorusun.

**Ərşad:** O dünya, ya bu dünya, nə fərqi var, ay dədə? Qismətimizdə varsa görüşərik, olmaz, yox. Onun fikrini çəkmə.

*Pauza*

**İntizar:** Vəsiləxanımla məndən nigaran qalmayın. Biz sizin-

ləyik *(Üzünü Vəsiləxanıma tutaraq)*. Kişi kimin çəpəri üstə banlayır, banlasın. Öz işidi. Ancaq pulu evdə olsun, ha... ha... ha...

**Vəsiləxanım:** Mənə ərim lazımdı, pul yox. Dünyada iki qüdrətli şey var: biri Allah, o birisi pul. Pul olan yerdə Allah yaddan çıxır. Çünki pul şeytandı...

**Buta:** Yaman qəliz danışırsan. Elə danış, biz də bir şey qanaq.

**İsgəndər** *(arvadına)*: Heç vaxt məni anlamamısan *(Oğluna)*. Rumi barədə bir şey eşitmisən?

**Ərşad:** Bir şey nədi? Çox... Bu saat Rumi Samara bazarındadı. O gün yanından dostlarımız gəlmişdilər. Deyirlər, əlinin altında neçə rus findi-furuşu var. Hər axşam da hərəsindən öz dolyasını götürür. Bir sözlə, Ruminin əlinin dalı da kəsir qabağı da. Özü də hər gecə kefdədi.

**İsgəndər:** Mən onu demirəm, a bala, Mövlanə Cəlaləddin Rumini deyirəm.

**Gülşad:** O kimdi, İsgəndər dayı?

*Pauza*

**Buta:** O böyük alim, şair Rumini demirsənmi, a kişi? Bunlar hardan qansınlar o kişi kimdi? Bunlarınki bazardı, bir də tindəbucaqda dayananlar.

**İntizar:** Elələrindən indi də çoxdu.

**Vəsiləxanım:** Kimdən? Rumidən, yoxsa...

**İsgəndər:** Əşi, Rumidən. Bilirsiz o nə deyib?

**Vəsiləxanım:** Yox...

**İsgəndər:** Deyib ki:

*Qula bəla gəlməz haqq yazmayınca.*
*Haqq da bəla yazmaz qul azmayınca.*

**Vəsiləxanım:** Fəlsəfədi. Heyf vaxtında mənim kimi onun da





qədrini bilən olmadı.

**İntizar:** Eh... Nə qoyub, nə axtarırsan? Həmişə babam deyərdi ki, kişi elə olar. Sözünün kəsəri olar. Gündə bir arvadla oturub-durandan nə kişi?

**Buta** *(Vəsiləxanıma)*: Özündən danış... Bir kişinin öhdəsindən gələnmirsən. Dilin də bir qarışdı. Qoyalar onun-bunun dediklərini təkrarlayasan.

**Vəsiləxanım:** Təkrar biliyin anasıdı.

**Ərşad:** Dədəmin də peşəsi gündə piləməkdi.

**Gülşad:** Nəyi?

**İntizar:** Zurnanı.

**Vəsiləxanım:** Kişini dolamayın, Allaha acıq gedər. O, yaşlı adamdı.

*Pauza*

**İsgəndər** *(başını bulayaraq)*: Ay Buta, övlad ki var, çox çətin şeydi. Yaxşısı bəxtindi, pisi əlhəzər. Barəsində nə düşünmək olur, nə düşünməmək.

**Buta:** Fikrini bir az da açıqla, kişi. Dolaşıq danışma. Gedir-gedir də. Uşağın qəlbini niyə qırırsan? Kefini pozma, nə vaxtsa, qayıdacaq.

**İsgəndər:** Arvad, açıqla deyirsən, açıqlayım. Həzrət-Abbas haqqı, pis, yaramaz övlad ki, var, valideynin yanından çıxan çibandı. Onu nə açıb camaata göstərə bilirsən, nə də deşə. Qalır içini yandıra-yandıra.

**Ərşad:** Hə, bu da dədəmin fəlsəfəsi... Görürsüz də. Həzrət Abbas haqqı, mənim dədəm küçədə gecələyən alkaşlardan olsaydı, məni bu qədər yandırmazdı. Bəlkə də fəxr eləyərdim.

**Vəsiləxanım:** Kaş özün elənçiyindən olaydın, Ərşad bəy. Səni itirim, tapmayım.

**Gülşad:** Boyy... Təzə hoqqadı?

**İntizar:** Elə danışma. İt-qurd olsalar da, yol üstədilər. Ərimiz olublar. Gələcəkdə də bilmək olmaz.

*Pauza*

**Ərşad:** Heç yadımdan çıxmaz. Dizəcən qar yağmışdı. Şaxta adamı kəsirdi. Yer buz bağlamışdı. Ayağı sürüşüb yıxılan kim, güc-bəlayla ayağa qalxan kim. Qolu-qıçı qırılan, başı yarılan, içi tökülən kim.

**Buta:** Vay... Vay... Dədəm vay... De ki, bazardakılar qırılıb batdı.

**Ərşad:** Bə nədi?.. Təsəvvür eləyirsiz də?

**Vəsiləxanım:** Onlardan çətin adam olar.

**İntizar:** Ürəyimizi çatlatma... Sonra...

**Ərşad:** Sonrası budu ki, qəflətən bazarda bir haray-qışqırıq düşdü, fısdırıq qopdu, gəl görəsən. Başımı qaldırıb nə görsəm yaxşıdı?

**İsgəndər:** De görək, nə görmüsən.

**Ərşad:** İki qırxıq durub qarşımda. Bir gombulu da dayanıb arxamda. Uzun qırxıq güclü bir zərbə endirdi çənəmə. Sən öl, dədə, elə bildim çənəm çıxdı yerindən. Başım fırlandı.

**Buta:** Canları yanmışlar.

**Vəsiləxanım:** Gərək çənən sınaydı.

**İntizar:** Ağız, kirisənə. Qoy dalın desin.

**Gülşad:** Eşit, İntizar, gör məni hara göndərirsən?

**İsgəndər** *(rişxəndlə)***:** Qoyun görək, dalı nəylə qurtarır.

*Pauza*

**Ərşad:** Gödək qırxığın zərbəsini göydə tutdum. Dərhal da qolun burub dibindən çıxartdım. Arxamda dayanan gombulun zağarına bir təpik ilişdirdim. Qarnına necə sancı doldusa, yerdə ilan kimi qıvrılmağa başladı. Ərinmədim, qabağıma keçənə ilişdirdim.

**İsgəndər:** Nəyi?

**Ərşad:** Əşi, nəyi? Nəyi? Yumruğu, təpiyi, kəlləni.

**Buta** *(üzünü gəlininə tutaraq)***:** Təsəvvür eləyirsən də... Kişiləri şil-küt eləyib.





*Pauza*

**İntizar:** Deməli, bazarda qan su yerinə axıb.

**Gülşad** *(başını yelləyərək)***:** Məni oda atma, İntizar.

**İntizar:** Ağciyər olma. Kişinin başı qalda gərək.

**İsgəndər:** Ərşadın sözünü kəsməyin, görək axırı necə qurtardı?

**Ərşad** *(dərindən nəfəs alaraq)***:** Bunların cavabını yaxşıca vermişdim ki, gördüm, qırxıqlar bazara axışırlar. Başa düşdüm ki, onlara tək cavab vermək çətin olacaq, özümü itirmədim, gəncəli Lələşi, lənkəranlı Musiki, qubalı Toliki sələdim. Onlar da köməyə gəldilər. Bir göz qırpımında ara qarışıb, məzhəb itdi. Geniş cəbhədə vurhavur başlandı, nə başlandı. İt yiyəsin, bağa başın tanımadı. Kim kimi vurduğunu bilmədi. Sən öl dədə, alıcılarla satıcılar da qarışdılar bir-birilərinə. Gözlər olsun görməsin.

**Buta:** Allah amandı. Bütün bədənim əsdi.

**Vəsiləxanım** *(ərinə)***:** Ayrı vaxt səs eşidəndə yorğanın altında titrəyirsən, bazarda o həngaməni necə düzəltdin? İnanmıram.

**Buta:** Ev buzovundan öküz olmaz... Ara qarışdırmaq peşəndi, bəyəm bura sual yeridi?

**İntizar:** Dalı necə oldu, Ərşad qardaş.

**Ərşad** *(özünü çəkərək)***:** Hər iki tərəfdən ölən və yaralanan *(əlini boğazına sürtərək)* xirtləyə qədər.

**İsgəndər:** Bəs, polis hara baxırdı?

**Gülşad:** Vallah halım çətin olacaq. Mən ona dözənmərəm.

**Ərşad:** Elə çaxnaşma düşəndə polislər qaçıb gizlənirlər. Çaxnaşma elə ki, qurtardı, iki-bir, üç bir hadisə yerinə gəlirlər.

**İntizar:** Elə niyə?

**Ərşad:** Canları salamat olsun deyə. Tez də düşərlərini alıb gedirlər.

**İsgəndər:** Dünyanın işinə bax...

**Vəsiləxanım:** Sən də onlara pul verdin?

**İntizar:** Verməsəm, polislər əl çəkərdilər?

**Buta:** Polislər də ona gözlərini dikiblər. Harda qan çıxsa, ordan alıb dolanırlar.

**Gülşad:** Verməsən, aldatsan, sənə paz çalarlar.

**Vəsiləxanım** *(həyəcanla)*: Paz eyb eyləməz. Nə qədər verdin?

**Ərşad:** Heç nə. Uçastkovuya bir arağın pulunu.

**İntizar:** Ölən çoxıydı?

**Ərşad:** Bayaq dedim axı, xirtləyə qədər.

**Vəsiləxanım:** Rus polisləri o qədər yaralıya, ölümə bir araq pulu, bizimkilər isə bir qapaza, ya təpiyə yüz minlərlə ABŞ dolları alırlar. Fərqə bax ey.

**Buta:** Ruslar insaflıdılar.

**Ərşad:** Sən öl, dədə, təkbaşına qırxıqların yüzünə cavab verərəm.

*Pauza*

**İsgəndər:** Bu da mənim qazancım... Təvəqqe eləyirəm, çalışın, ev-eşiyinizə salamat qayıdıb gələsiz.

**Gülşad** *(üzünü Ərşada tutaraq)*: Məni bəlaya saldın.

**Ərşad:** Hərə bir tale yaşayır.

**Vəsiləxanım:** Bəs mənim qarnımdakının taleyi?

**İntizar:** Taleyi Allah yazır, biz yox.

**Buta:** Bala ki, var...

**Vəsiləxanım:** Uşağı unutma, Ərşad.

**İntizar:** Qazandığını özündə saxlama, əlindən alıb başımıza daş salarlar.

**Buta:** Qırxıqlar əmanəti.

**İsgəndər** *(kövrələrək)*: Ərşad, işdi qayıdıb gəlsən anan Butayla mənə baş daşı düzətdirərsən, cümədən-cüməyə gəlib qəbrimiz üstə şöngüdərsən.

**Ərşad** *(çantasını götürərək)*: Getdik. Çox qalsaq, çox şey eşidəcök.





*Hamı Ərşadla Gülşadı dövrəyə alır. Onları öpürlər. Ərşadla Gülşad qabaqda, qalanlar da onların ardınca evdən çıxırlar. Butayla İntizar gedənlərin ardınca su atırlar. Vəsiləxanım gözlərinin yaşını silir. İsgəndər onlara əl eləyir. İşıqlar sönür, səhnə qaralır.*

## II hissə
## IV şəkil

*Moskva. Kirayənişin ev. Bir neçə azərbaycanlı kişi və rus qadını. Ərşadla Gülşad onların arasındadırlar. Yeyib-içirlər. Papiros tüstüsü otağı bürüyüb. Keflidirlər. Tuncay yanındakı Nataşanı tez-tez öpür. Gülşad həsədlə onlara baxır. Arabir gülümsünür. Tuncay şirnikir. Açıq-saçıq hərəkətlərini artırır.*

**Tuncay** *(Gülşada)*: Nə baxırsan, əə, qırışmal? Deyəsən, ağzın sulanır. Nə arvad görmüsən, nə də öpüş. Elli, oğraşlığın yoxdu ki?

**Gülşad** *(diksinib çaşır)*: Ayə, yox, əə. Sən nə danışırsan? Hələ indi gəlmişəm. Təlim keçirəm. Mənim kim olduğumu bir azdan görəcəksən.

**Ərşad:** Dərinə getmə, Tuncay, təzədi. Sabah onu qoşacam arabıya, bazar aşağı, bazar yuxarı sürəcəm, axşam ağzı ayıra qalacaq. Nəinki arvad, heç özü də yadına düşməyəcək. Yeli-quzu çıxacaq. Olacaq yanındakıların tayı.

*Gülüşürlər.*

**Gülşad:** Ayə, məni dilə-dişə salmayın. Tərbiyəli adamam. Mənə heç nə lazım döör. İş tapıb balalarıma çörək qazansam bəsimdi. Arvadım yolumu gözləyir...

**Ərşad:** Arvadın sənin yox, pulunun yolunu gözləyir.

**Tuncay:** Arvadın neyləyir?

**Nataşa:** Ərşad dediyini eşitmədin? Pul gözləyir.

**Tuncay** *(Nataşaya)***:** Aaz, icazə verrəm, dur onu maç elə. Ağzının suyun yığışdırsın.

*Nataşa oturduğu stuldan atılır. Yaxınlaşıb Gülşadın boynuna əl atır. Gülşad əlləriylə üzünü qapayır.*

**Gülşad:** Mənə yaxın gəlmə. Dedim mən tərbiyəsiz döörəm. Arvada söz vermişəm *(Ərşada)*. Ayə, başına dönüm, ağrın alım, bu ifritəni məndən uzaq elə.

**Ərşad:** Ayə, dedim axı, hələ təzədi. Yavaş-yavaş...

**Tuncay:** Ərşad, təzə nədi, əə, sən öl, qonağın deyəsən lap bakirədi.

*Nataşa Gülşadın başından, qulağından öpür, sonra da qayıdıb yerində əyləşir. Gülşad handan-hana özünə gəlir.*

**Nataşa** *(yanındakılara göz vuraraq)***:** Əlasındandı. Tər iyi gəlmir.

**Gülşad:** Üzümün suyunu tökmə. Gələn günü çimmişəm.

**Nataşa** *(ağzındakı saqqızın yarısını Gülşada uzadaraq)***:** Al çeynə. Nəfəsin təmiz olsun. Bəlkə, bizə lazım oldun.

*Gülüşürlər.*

**Gülşad** *(Ərşada)***:** Ayə, məni nə günə saldın, əə, sən? Eşidib-bilənlər bizə nə deyər, əə? Çatmamış, dəyusluq möhürün vurdurdun bizə... Arvada xəyanət eləsəm, lap atama lənət.

*Pauza*

**Tuncay:** Dəyyusluq anadangəlmə qabiliyyətdi. O, əta yolu





ilə qazanılmır, Gülşad.

*Zərbalı qabaqda İra da onun ardınca tələm-tələsik, təngnəfəs otağa daxil olurlar. Həyəcanlıdırlar.*

**Zərbalı:** Bazarda yaman biabırçılıq olub.

**Ərşad:** Niyə?

**İra:** Sizinkilər qızlara sataşırlar. Oğurluq eləyirlər.

**Nataşa:** İş o yerə gəlib ki, azərbaycanlılar utanmaz-utanmaz erəmənilərlə birləşib girişirlər ruslara.

**İra:** Keçinin əcəli çatanda çobanın çomağına sürtülər.

*Otaqda səs-küy eşidilir. Nataşa qapını açıb çölə baxır. Həyəcanlanır.*

**Nataşa:** Sakit... Qırxıqlar aşağıdadılar. Axtarış aparırlar.

**Ərşad:** Vay!.. İndi biz neyləyək?

**Gülşad:** Sən də qorxursan? Bəs deyirdin, yüzünə cavab verərsən.

**Ərşad:** Sözdü, demişdim. Onlarla zarafat olmaz.

**Gülşad:** Qaça bilərik?

*Pauza*

**Tuncay:** Gəliblərsə, deməli, bütün bənd-bərə kəsilib. İç-çalatımızı vurub tökəcəklər. Qol-qıçımızı qıracaqlar.

**Nataşa:** Bəlkə İrayla biz çıxıb girəcəkdə onların başını qataq? Siz balkondan özünüzü atın. Başqa yolu yoxdu.

**İra:** Yox, onu mən bacarmaram... Zərbalını güc-bəlayla tapmışam. Birlikdə ölməyə hazıram.

**Ərşad:** Bəlkə binanın damına çıxaq?

**Gülşad:** Bizi damdan yerə atsalar, onda necə?

*Qapı çöldən vurulur, içəridə çaxnaşma düşür.*

**Tuncay:** Adə, gəldilər.

**Zərbalı:** Başımıza daş salacaqlar.

**Gülşad:** Öyün yıxılsın, Ərşad, məni bəlaya salan yerdə. Gopkələ buymuş?

**Ərşad:** Öldürəcəklər... Ya da vurub şikəst eləyəcəklər.

**Nataşa:** Ölümünüzə mən məsuliyyət daşımıram.

**İra:** Mənə təkcə Zərbalı lazımdı.

**Zərbalı:** Atam-anam sənə qurban, İra, gör neyləyirsən?

*Nataşa qorxa-qorxa gedib qapını açır. Bir neçə qırxıq içəri daxil olur. Vuruş başlanır. Tuncay əldən çıxıb qaçır. İra Zərbalını qırxığın əlindən almağa çalışır. Bu vaxt Zərbalının başına arxasında dayanan qırxıq zərbə endirir. Zərbalı yıxılır. Ərşad da üzü üstə yıxılır. Qırxıqlar Gülşadın qulaqlarını, burnunu kəsirlər. Gülşad al-qan içərisində bağırır. Qırxıqlar çıxıb qaçırlar. Gülşad sürünə-sürünə güzgünün qarşısına keçir.*

**Gülşad** *(ağlayır)*: Vay qulaqlarım! Vay burnum! Evin dağılsın, Ərşad, kəndə gələn yerdə. Bu abırda xarabama qayıtsam, İntizar, balalarım məni tanıyacaqlarmı? Lap tutalım tanıdılar, mənə ərim, atam deyə yaxın duracaqlarmı? Bu, mənə lazım idimi?

*Pauza*

**Ərşad** *(özünə gələrək)*: Ayə, bəsdi, əə. Dul arvadlar kimi deyinmə. Kişinin başına iş gələr.

**Nataşa** *(Gülşada baxıb heyrətlənərək)*: Ooyy... Bu nə sirsifətdi? Lap cənub itlərinə oxşayırsan... Belə getsə, səni qan aparacaq.

*Gülşad daha da heyrətlənir. Qışqırıb ağlayır.*

**Ərşad:** Yavaş, əə. İti-qurdu təzədən üstümüzə gətirmə. Gəl-





sələr, bu dəfə dibindən kəsəcəklər.

**Nataşa:** Nəyi? Necə?

**İra:** Hər şeyi... Müsəlmansayağı.

**Gülşad:** Öl, Gülşad, öl, gör, nə günə düşmüsən. İt arxasınca güləcək sənə. Vallah, sənə ölmək yaraşır.

*Qapı açılır. Polislər otağa doluşurlar. Polis mayoru otaqda o tərəf-bu tərəfə gəzərək gözlənilmədən Zərbalının ayağına təpiklə vurur.*

**Mayor:** Bu, nədi,əə? Bu, ölüb ki?

**Serjant:** Nəfəsi gedib-gəlir, cənab mayor.

**Mayor:** Başına su tökün... Qoyun ayılsın. Bunları kim bu it gününə salıb?

**İra:** Qırxıqlar...

**Mayor:** A ha... Deməli, günahkardılar *(Gülşada baxaraq diksinir. Geri çəkilir)*. Ayə, bu dəyyus nəyə oxşayır, əə? Ürəyim gup elədi. Bunu tezliklə sərgiyə çıxarmaq lazımdı.

**Nataşa:** Niyə, mayor?

*Mayor Zərbalıya yaxınlaşır. Nəbzini tutur. Öldüyünü başa düşür.*

**Mayor:** Ayə, bu çoxdan çezib ki... Qoy qafqazlılar bunlara baxıb özləri üçün ibrət dərsi götürsünlər. Əclaflar, özünün-özgənin bilmirlər. Çatan kimi hamısını basmarlayırlar. Özü də harda gəldi orda. Elə bil camaat onlar üçün əkib-biçib. Yaxud ətirləyib-kirşanlayıb saxlayıblar.

**İra:** Mayor, qadan alım, çox şeyə girişmə. O məsələ mübahisəlidi. Bizim kişilərin çoxu döl üçün yaramırlar. Yoxsa, dəli olmamışıq ha... Nəqdi qoyub nisyə dalınca düşək.

**Serjant:** Cənab mayor, sarı sim.

**Mayor** *(Gülşada tərəf dönərək)*: Əə, düdük, burnunu, qulaqlarını saxlayanmayacaqdınsa, burda nə qələt eləyirdin?

*Pauza*

**Serjant:** Kabab iyinə gəlmişdi, mayor, indi də gəlib görüb eşşək dağlanır.

**Gülşad:** Dədənə lənət, Ərşad. Mən boyda heyvanın başına nə oyun açdın?..

**Mayor:** Adın nədi dedin?

**Gülşad** *(əsəbi halda)*: Heyvan! Kəl! Dəvə!.. Hansından desən, ondan, mayor.

**Mayor** *(üzünü İrayla Nataşaya tutaraq)*: Bundan nə döl artıran? Kəlçə-külçədən öz donuzlarımız yaxşıdı *(Üzünü serjanta tutaraq)*. Düz demirəm, serjant? Ha... Ha... Ha...

**Serjant** *(ayaqlarını cütləyərək)*: Düzdü, düzdü, cənab mayor, hi... hi... hi...

**Nataşa** *(serjanta)*: Səsini kəs. Anlamaza dedilər ki, qəlb açan söz de...

**İra:** O da ağanadı atasının goruna... Ayə, niyə qanmırsız, yuxarıdakıların başı qarışıb yığmağa, dağıtmağa. Bir də loqqa-loq içməyə. Kəlçə-külçələr də arvad uşaqlarını atıb gəlib bizi saxlayırlar da. Heç olmasa, o qanmaz qırxıqları siz başa salın, mayor.

*Ərşad pıqqıldayıb gülür, Gülşadsa hönkürüb ağlayır.*

**Mayor** *(əsəbiləşərək)*: Nə zırhazır salmısız, əə? Atdıraram qırxıqların ağzına, luppadan udarlar sizi.

*Pauza*

**Gülşad:** Allah, özün haqla get, Allah. Oturduğumuz yerdə gör nə günə saldılar bizi. Əlacımız sənədi, Allah, özün kömək ol bizə.

**Ərşad:** Ayə, kəs səsini. Allaha qurban olum, o haqla gedəsi olsa, gərək bizə dubinka...





*Mayor qəhqəhə çəkir. Serjant gülümsəyir.*

**Mayor:** Çıxardın cibinizdəkiləri.

**Gülşad:** Məndə yüz var.

**Ərşad:** Məndə əlli.

**Mayor** *(serjanta)*: Gir bunların cibinə *(Serjant yoxlayır. Hərəsinin cibindən bir dəstə pul çıxarır)*. Oğraşlar yalan danışmağa öyrəncəlidilər. Durun düşün qabağıma. Sizi barmaqcıqlar arasında çürüdəcəm. Onda anlarsız yalan danışmaq nə deməkdi?

**Ərşad:** Qaldığımız yeri ki tanıyırsan, mayor. İşə başlayaq. Sənin düşərini də gətirərik.

**Mayor:** Mən sənə inanmıram.

**Gülşad:** İnan, o eləməsə də, mən eləyəcəm.

**Mayor:** Gəlməsəniz, ananızı...

**Gülşad:** Oldu, mayor.

**Ərşad:** Onların günahı yoxdu, söymə...

**İra:** Ərşadla Gülşadı bizə bağışlayın. Göndərərik yanınıza, mayor.

**Nataşa:** Mütləq gələrlər.

**Serjant** *(Gülşadla Ərşada)*: Sözünüzə düz çıxmasanız, bir kapal qırxıqla özüm gələcəm.

**Ərşad:** Əşi, onlar lazım döör. O yana elə. Yəni biz kişi döörük?

**Gülşad:** Qırxıqlar əlimizdəkiləri də alıb getdilər. İnsafsızlar götürdüklərindən Nataşayla İraya da heç nə vermədilər.

*İra gedir, Gülşadın başını sığallayır. Gülşad geri çəkilir.*

**Gülşad:** O yanda dur. Atamın goru haqqı, hələ mənə yad əl dəyməyib.

*Pauza*

**Mayor** *(əsəbi halda)*: Qudurma, əə. Sənə üç gün vaxt veri-

rəm. Get İrayla kəbin kəsdir. Kəbinsiz yaşamaq rus əxlaqına ziddir. Əxlaqsızlıq da cinayətdi. Onu sənə qırxıqlar bağışlamazlar.

**Gülşad:** Nə?

**Mayor:** Zurna!

**İra:** Qulaqları yox, burnu yox. Mən onu neyləyəcəm?

**Serjant:** Əsas burun, qulaq deyil. Mayor belə məsləhət bilir, Allahına şükür elə.

**Mayor:** Ha... ha... ha... Nəhayətsiz səhrada əlinə dəvə düşüb, arsız-arsız durub erkək-dişiliyini yoxlayır.

**Ərşad** *(zarıltıyla)*: Onun arvadı, uşaqları var. Arvadı da çox qısqancdı. Bilsə, dünyanı dağıdacaq. Gərək, biz onda kənddən əlimizi üzək.

**Mayor:** Mənə nə? Nataşayla da sən kəbin kəsdirməlisən. Düzdü, bir az qocadı. Ancaq isti evi, yaşamağa yeri var. Canı da suludu. Təcrübəsinə söz olanmaz. Çobanın könlü olsa, təkədən pendir tutar.

*Pauza*

**Gülşad:** Mənə bu saat arvad yox, həkim lazımdı. Belə getsə, məni qan aparacaq. Heç nəyə, heç kimə lazım olmayacam.

**Mayor** *(Zərbalının meyidini göstərərək)*: Yöndəmini İra özü bilir... İndi o meyidi zırlayın getsin balkondan. Adın da qoyarsız damdan qırxıqlar atıb.

*Ərşadla Gülşad Zərbalının başından, Nataşayla İra ayaqlarından tutub meyidi balkondan atırlar, tez də geri qayıdırlar. Mayor dabanı üstə qapıya tərəf dönür. Serjanta getmək işarəsini verir və iti addımlarla qapıdan çıxırlar.*

**Gülşad:** İndi biz neyləyək?

**İra:** Nə tez yadından çıxdı? Söhbət belə oldu ki, səndən özüm adam qayırım.





**Gülşad:** Bəs İntizar?

**Ərşad** *(acıqla)*: Ay onun atasına lənət. Onunla qurtarmadın?

**Nataşa:** Ayə, bu dilbilməzi hardan tapmısan?

*İrayla Nataşa Gülşadın yaralarına dərman sürtür, üzünü sarıyırlar. Sonra da onu baytar məntəqəsinə aparırlar. Ərşad da onların ardınca ayaqlarını sürüyə-sürüyə çıxır. İşıq sönür, səhnə qaralır.*

## V şəkil

*Baytar məntəqəsi. Ağ xalatlı yaşlı qadın, Nataşa ilə İra qabaqda, Gülşad və Ərşad onların ardınca kabinetə daxil olurlar. Feldşer ayağa qalxır. Xəstəni əyləşdirirlər. Feldşer sarğı açır. Tez də diksinib geri çəkilir.*

**Feldşer:** Bu nədi, az? Bunu hardan tapmısız?

**Nataşa:** Adamdı.

**İra:** Evdən. Allah qoysa, ərim olacaq. Onu bu günə özüm saldım. İstədim ondan adam qayıram. O da vurdu belə çıxdı.

**Ərşad:** Həkim, sənə qurban olum, ona kömək elə.

**Feldşer:** Sən kimsən?

**Ərşad:** Onun həmkəndlisi.

**Gülşad:** Həkim, qələt eləyərəm ata-babamla, bir də bu yerləri yadıma salsam.

**Feldşer** *(İraya)*: O psixoloji zıbbıltıya düşən adamdan, İra can, bir şey gözləmə... Özünü aldatma... Buna vaxt itirməyə dəyməz.

**Nataşa** *(təntimiş halda)*: Ərşad necə?

**Feldşer:** Eh... Heç onda kişilik sifəti yoxdu.

**Nataşa:** Hey özünü tərifləyirdi...

*Pauza*

**Feldşer:** Yalandı... Gopdu... O, kənddən belə gəlib... Onun özünü...

**İra** *(təəssüflə)***:** Yaxşı, mazla biqeyrətin üz-gözünü. Mənim bəxtimə çıxana bax... Arsız-arsız mayor da gör mənə kimi yük eləyir.

**Feldşer:** Bundan mayor da xəbərdardı?

**Nataşa:** Hə... Narahat olma... Özü məsləhət bildi bura gətirək. Azdan-çoxdan xeyrimizi də sənə verək.

**Feldşer:** Bunlardan nə xeyir, üzlərinə baxanda görünür baş-ayaq olduqları. Belənciklərdən üçü də mənim uğuruma bir-birilərinin ardınca gəlib çıxmışdı. Onlardan canımı qurtarınca, bəlkə dəfələrlə dizlərimi yerə qoydum. Əl çəkmək bilmirdilər ki.

**Nataşa:** Yaxşıdı da...

**İra:** Deyirsən, bunlar da elə olar?

**Gülşad:** Həkim, ölüm ayaqlarının altında, mənə imdad elə. Görürsüz, it günündəyəm.

**Feldşer:** Bizdə donuzlar belə olur. İtlər yox...

**Ərşad:** Həkim, onun başı xarab olub. And olsun dədəm İsgəndərin canına, bazarda işə başlayan kimi, gəlib xəcalətindən çıxacam.

**Feldşer:** Sən bazar adamısan?

**Gülşad:** Hə... İkimiz də.

**Feldşer:** O sözü özünüzə necə sığışdırırsız?

**Nataşa:** Çox dərinə getmə...

**İra:** Onlar olmasa, bizi kim dolandırardı?

*Pauza*

**Gülşad:** Qəribə ölkədi. İki gündən bir gurultusu aləmi götürür. Gah Avropaya, gah Qərbə, gah da Şərqə musqul oynadır. Gəlmişik burda əlləşib-vuruşub ac-yalavacları dolandıraq. Tutub burun-qulağımızı kəsirlər. Deyən, başa salan da yoxdu ki, a bala, belə olmaz.





**Feldşer:** Necə? Necə? Dövlət əleyhinə çağırış? Təbliğat?

**Gülşad:** Düz deyirəm də, burun-qulaq kəsmək dövləti cinayətdi. Bununla kimlər məşğul olmalıdı?

**Ərşad:** Ayə, sox yerinə. Tin-bucaq onlarla doludu. Gəlib bütün bədənimizi deşik-deşik eləyərlər.

**Gülşad:** Ərşad, deyirsən, bundan da betəri...

**Nataşa:** Canın ağrıyır, əzizim, bilmirsən nə danışırsan? Sən deyənləri eşitsələr, kişiliyini əlindən alacaqlar.

**Feldşer:** Kişiliyi qalıb ki?

**İra:** Düzünə qalsa, yox.

**Ərşad:** Bəxtimiz gətirmir.

**Feldşer** *(şpristi dərmanla doldurar aq)***:** Soyun, quduzluq üçün iynə vuraq, özünə gəl. Getdikcə başın xarab olur.

**Gülşad:** Bəyəm məni it tutub? Qudurmuşam?..

**Feldşer:** Bağırma... Qudurmasaydın, neçə min kilometr yol qət eləməzdin. Bizə tapşırıq belədi.

*Gülşad aradan çıxmaq istəyir, Nataşayla İra cumub onu çarpayıya basırlar. Ərşad Gülşadın şalvarını aşağı çəkir. Feldşer şpristi onun yanına boşaldır. Gülşadın səsi kabineti bürüyür.*

**Gülşad:** Qıçların qırılaydı, Ərşad, bizə ayaq basan yerdə... Da məndən nə olar? Oturduğum yerdə məni bir küçük elədilər. Səninlə ailə quran yerdə başıma daş düşəydi, arvad. Pul-varidat nə yaman şeymiş. Hamı məni ya küçük, ya da, tula deyə çağıracaq... Ayə, bu nətəhər ölkədi, əə?

*Pauza*

**Ərşad:** Dul arvadlar kimi o qədər deyinirsən, adam başın itirir. Kənddəkilər də bezdi, burdakılar da. Ayağın o qədər ağırdı, neçə gündü kənddən çıxdığımız, hələ gedib bazara çatanmamışıq.

**Nataşa:** Hə... Onu yaxşı deyirsiz.

**İra:** Yəqin sizi göz kəsib. Yoxsa...

**Gülşad:** Gəldik, saqqal düzəltməyə, bığı da qoyub gedirik.

**Feldşer:** Tələsmə. Sənin kimidən çox görmüşəm.

**İra:** Narahat olma. Sənə təzə qulaq-burun qoydurarıq. Olar əvvəlkindən də yaxşı.

*Pauza*

**Gülşad:** Eh... İra... İra... Feldşer nə vaxtdan adama burun-qulaq düzəldir? Məni yandıran təmiz başqa şeydi... Hərə mənə bir ad qoyacaq. Uşaqlarım xəcalətimi çəkəcək... Qonşumuz vardı. Yaxşı kişiydi. Bir gün tulasının qulağını kəsməyə hazırlaşırdı. Mənim tulaya yazığım gəldi. Kişidən soruşdum: —İtin qulağını niyə kəsirsən? Dedi: — Çox yekədi. Səsi eşitməyə mane olur. O, kəsdi. Həmin vaxtdan ölüncəyə qədər o kişi mənim gözlərimdə qatil, cani kimi yaşadı. İndi də o hadisə yadıma düşəndə tula yazıq, o kişi isə insafsız, mürvətsiz kimi yaşayır qəlbimdə. İndi təsəvvür eləyin, mən bu şəhərdə, ac-yalavac, imkansız bir tulayam. Qırxıqlar isə ar-namuslarını arxalarında gəzdirən, mürvətsiz o kişidi. Eşidən-bilənlər mənə tula, qırxıqlara isə canavardan artıq nə dəyər verəcəklər?

**Feldşer:** Dəyər-məyər gözləmə. Yoxdu, olmayacaq da.

**Ərşad:** Qurtar söhbəti... Sənin siyasi savadın yoxdu. Qorxuram...

**Gülşad** *(rişxəndlə, iki mənalı)***:** Nədən? Boş-boş danışıb aləmi qarışdıracağından. Sən hələ dərk eləmirsən ki, ruslar bizim böyük qardaşımız və bacılarımız olub və olacaqlar da. Onların bizə nə desən, eləməyə haqları var...

**Feldşer:** Əla. Axır ki, qandın.

**İra:** Belə çıxır ki, mən də, Nataşa da sizin böyük bacılarınızıq?

**Ərşad:** Bə nədi?

**Gülşad:** Ayə, bu nədi, əə? Bircə bu çatmırdı... Ayə, Ərşad, ağzını yerə tut danış. Hər yoldan ötəndən ayrı şey demirəm, ada-





ma bacı olar? Daş yağdır, Allah, daş yağdır. Hələ çox şeylər eşidəcök, çox şeylərin şahidi olacoq.

**İra** *(Feldşerə)***:** Bunların baş-gözlərin sarı ver bizə, aparaq. Hallarına baxarıq, əl verməzsələr, dallarına bir təpik.

**Nataşa:** İra düz deyir. Bayaqdan havaya atəş açırıq... Bunlar bağlı buğçadı. Nələri var, nələri yoxdu, bilinmir. Hər biri güclü müşahidə, dəqiq eksperiment tələb eləyir.

**Gülşad:** Gör səni nə günə saldılar, ay Gülşad. Mənə dəyən bu zıppıltıdan sonra nə müşahidə, nə eksperiment?

**Feldşer:** Əsəblərimlə oynamayın. Canınız üçün, qırxıqları çağırıb özüm sizi onlara təhvil verərəm, batarsız...

*Pauza*

**Ərşad** *(Gülşada)***:** Adam oğlusan, eşitdin, bəsdi də. Bu qədər arsızlıq olar?

**Gülşad:** A namərd, məni kişilikdən salmısan, deyirsən, acığımı ağzımdan da almayım? Dolan ürəyimi boşaltmayım? Ayə, bəyəm mən heyvanam? Yox, Ərşad, mən içimi boşaldacam. Nə var, danışacam. Bu, mənim hüququmdu. Ağız üyütməsə, iç boşalmaz.

**İra:** Danış, Gülşad, danış. Unutma ki, canına and olsun, nə qədər danışsan, nə burunun, nə də qulaqların geri qayıdacaq.

**Nataşa:** Ancaq qırxıqlar geri qayıda bilərlər *(Üzünü Ərşada tutaraq)*. Necədi, yırtılmayıb?

**Ərşad:** Bərk sancı verir, dəqiq deyənmərəm.

**Nataşa:** Onu özümüz yoxlayarıq. Neyləyək, qismətimiz beləymiş... Yaxşı qurtardız. Zərbalının gününə düşsəydiz, necə olardı, hə?.. Azərbaycanlılar necə deyirlər?

**İra:** Nəyi?

**Nataşa:** Anaları namaz üstəymiş...

**Gülşad:** Ee... Tüpürüm hamısına.

**İra:** Nəyə?

**Gülşad:** Elə ona da, buna da. İçim özümü yandırır, vallah, çö-

lüm özgəni. İntizar da yəqin ki, oturub günləri sayır. Kişinin göndərdiyi pullar indi gələr, sabah gələr. Yaxşı deyiblər: "Sən saydığın say, gör fələk nə sayır".

**Feldşer** *(Gülşada)*: Hörmət başa düşmürsən?

*Pauza*

**Ərşad:** Səninlə bir də səfərə çıxsam, Gülşad, ataba-atama lənət. Ayə, sən nəsənmiş, əə...

**Gülşad:** Deyirsən, adam deyiləm?.. Sağ ol, Ərşad. Zaman gələr başa düşərsən. Ayə, başımızda dəlləklik öyrənirlər, deyirsən, bu nırhanır nədi? Da mən sənə nə deyim? Sənin ağlının kəsəri budu da. Sən mən qonşunu kimlərə dəyişmədin? Kimlərə satmadın? Mənim gül kimi balalarım vardı *(Hönkürtüylə ağlamağa başlayır. Qadınlar Gülşadın hərəkətlərinə uğunurlar)*.

**Ərşad:** Bəh... Bəh... Bəh... Bircə meymunumuz çatmırdı.

**Gülşad:** Meymun sənin atandı.

**Ərşad:** Lap sənin nəslindi. Sənə gül kimi şərait yaratmaq istədim, sən də dalını-qabağını yoxlamadan gör nə yaratdın?

**Gülşad:** Nə şərait, əə, düdük?

*Gülşadla Ərşad bir-birilərinə əl-qol atırlar. Feldşer araya girir.*

**Feldşer:** Ay camaat, hardasız, tez gəlin. Qeyrətsizlər qırırlar bir-birilərini. Polis!.. Polis!..

*İra Gülşadı, Nataşa Ərşadı arxadan qucaqlayıb geri çəkmək istəyir. Ərşadla Gülşad daha da qızışır. Qəflətən qapı açılır, iki qırxıq içəri girir. Gülşad cəld qapıdan çıxır...*

**İra:** Günah Gülşaddaydı.

**Uzun qırxıq:** O, neyləmək istəyirdi?

**Nataşa:** Bir az da geciksəydiz, feldşeri zorlayacaqdı.





**Gödək qırxıq:** Ola bilməz...

*Pauza*

**Feldşer:** Eh... Ölmüşdü Katya Petrovna. O da mənə girişə. Onu özüm...

*Qırxıqların hərəsi Ərşadın bir qolundan tutub aparır. Nataşayla İra da onların ardınca gedir. Feldşer üst-başını düzəldir. O tərəf-bu tərəfə baxır. O da qapıdan çıxır. İşıq sönür, səhnə qaralır.*

## VI şəkil

*Gülşadın evi. İntizar güzgünün qarşısındadı. Astadan mızıldana-mızıldana üz-gözünə sığal çəkir. Qapı açılır, Gülşad otağa daxil olur. İntizar onu güzgüdə görcək diksinir, vahimələnir. Ayağa qalxır. Gülşad qapının ağzında olduğundan otaqda o tərəf-bu tərəfə qaçır.*

**İntizar:** Yaxın gəlmə. Vay, məni qara basır? Axı, sən kimsən?

**Gülşad:** Qorxma... Mənəm, ərinəm, qadası... Gülşadam... Tez qayıtdım...

**İntizar:** Yox, ola bilməz. Mən sənə inanmıram. Sən qulyabanısan.

**Gülşad:** Mən Gülşadam. Sənin ərinəm. Rusiyada qırxıqlar burnumu, qulaqlarımı kəsib məni it gününə saldılar. Ay zalım, məni səsimdən də tanımırsan?

**İntizar:** Yox... Hər kimsən bilmirəm, çıx qapıdan, səni gözlərim görməsin.

**Gülşad** *(iki əliylə başına vuraraq)*: Vay, dədəm vay. Bircə bu qalmışdı. Gör nə günə düşdüm?.. Məni arvad da tanımır...

İntizar, imkan ver, beş dəqiqə oturum. Nəfəsimi dərim, hər şeyi sənə başa salım. Lap istəyirsən, qohum-əqrəbanı da çağır gəlsinlər.

**İntizar:** Qohum-əqrəbalıq burda nə iş? Deyirsən, ərim Gülşadsan?..

*Pauza*

**Gülşad:** Hə... Həzrət Abbas haqqı qorxma, necə deyirəm, elədi.

**İntizar:** Bu viddə-fasonda mən ər yola salmamışam. Burun-qulaqlarını saxlayanmayan kişi mənim nəyimə gərəkdi... Bas bayıra... Uşaqlar bu viddə gəlib səni görərlər, günaha bataram... Qonşular bilsələr, bizi ələ salacaqlar.

**Gülşad** *(kövrəlir)***:** Mənə, balalarıma yazığın gəlsin, İntizar. Axı sən...

**İntizar:** Bu görkəmdə balalarına da lazım deyilsən. Uşaqlar sənə baxıb qorxacaqlar. Qorxu içərisində yaşamaqsa, yaşamaq deyil.

*Qapı açılır, Qurbanla Xavər içəri daxil olur.*

**Qurban:** Allah sən saxla... Bu, nə bədheybət şeydi? Yuxudayam, ya havalanıram, nədi?

**Xavər** *(qışqırır)***:** Allah, ürəyim çatladı... *(Ürəyi qısılır. İntizar mətbəxə qaçır, bir stəkan su gətirib anasının üzünə, sinəsinə səpir... Handan-hana özünə gəlir).*

**İntizar:** Ata, bu viddə şey görmüsən? Səncə, bu gördüklərimiz yuxudu?

**Qurban:** Təki yuxu olaydı.

**Xavər:** Yox, bu yuxuya oxşamır.

*Qurban əlini Gülşadın bədənində, çiyinlərində, başında gəzdirir. Təəssüf hissiylə qızının üzünə baxır.*





**Qurban:** Yox... Nə yuxu? Həqiqətdi, özü də lap yekəsindən *(Üzünü Gülşada tutaraq)*. Bu nə viddi, əə? İllərlə Rusiyada qalanlar bu görkəmdə geri qayıtmırlar. Hanı burnun? Ayə, qulaqlarını neyləmisən? Yoxsa, pişiklər aparıb?

**Gülşad:** Kəsdilər.

**Xavər:** Kimlər?

**Gülşad:** Qırxıqlar... Heyf... Gül kimi sir-sifətim vardı. Kənd-kəsək də halıma-xislətimə bələdiydi. İndi mən neynəyəcəm?

*Pauza*

**Xavər:** Bizə kənd-kəsəyi göstərmə. Sənin nəyin vardı, nəyin yoxıydı, İntizar hamıdan yaxşı bilirdi... Xəcalətin bizə bəsdi. Adamlar arasına necə çıxaq? Eşidib-bilənlərin hərəsi sənə bir ad qoyacaq: tula Gülşad, çubuş Gülşad, burun Gülşad, qulaq Gülşad... Nə bilim daha nələr, nələr. İndi də gəl götür bu adları. Kişi, vallah yazığım qaragünlü İntizara gəlir. Ər sarıdan batırdı, yarımadı. Evi yıxılmış günün-günorta çağı qızın üstünə yerisə, yazıq uşağa bəs eləyəcək. Qorxudan ölməsə, yaxşıdı. Bircə əlac qalır.

**Qurban:** Nədi o?

**Xavər:** Gülşadın özünəqəsdi.

**İntizar:** Yüz dəfə and içə, özün yerə sürtə, ana, canına and olsun inanmaram. Mənim bu heybətdə ərim olmayıb, ola da bilməz.

**Gülşad:** İntizar, qadası, insafın olsun.

**İntizar:** Nə insaf, əə, sırtıq-sırtıq danışma.

**Xavər:** Dilinə bax ey arsızın.

**Qurban** *(üzünü arvadıyla qızına tutaraq)***:** Deyirsiz Gülşad deyil, hə?.. Bəlkə Ərşadın da ata-anasını çağıraq? Görürəm, biz bu saat havalıyıq. Ağla-qaranı qarışdırırıq. Ayıranmırıq. Soyuq başla bəlkə onlar bizə bir ağıllı söz deyələr?

**Xavər:** Nə söz deyəcəklər?

**Qurban:** Qiyamət qopmaz ki, onların da fikirlərini öyrənsək?

Desinlər görək, bu əcaib həqiqətən Gülşaddı, ya yox...

*Pauza*

**İntizar:** Lap olsun Gülşad. Mənə dəxli yoxdu. Kişi gəlmişkən, rədd eləyin getsin.

**Qurban:** Səbr eləyin, — Məsləhətli don gen olar, — deyiblər. Bir-iki baş, lap belə üç baş nə qədər ağıllı olsa, yüz baş yenə ondan üstün olar. Lazım gəlsə, bu problemi kəndin də müzakirəsinə verərik.

**Gülşad:** Sağ ol səni, Qurban kişi... *(Qışqırır)* Mən Gülşadam. Başa düşmürsüz, Gülşad...

**Qurban:** Oğul, məsələ çox dərindi. Bunu oturub-durub düşünmədən həll eləmək müşkül işdi *(Qurban telefona yaxınlaşır, nömrələri yığır və ara verir).* Alo... Alo... Salaməleyküm. Ayə, İsgəndər, sənsən?

**İsgəndər:** Bəli! Bəli!

**Qurban:** Dur arvadı da götür, İntizargilə gəl.

**İsgəndər:** Ayə, xeyirdimi?

*Pauza*

**Qurban:** Hələlik xeyirdi, ya şərdi, deyənmərəm. Bura bir bədheybət, adama oxşamaz bir şey gəlib çıxıb. Gəlin birlikdə aydınlaşdıraq, görək bu nədi? Siz də biz deyəni deyirsizmi?

**İsgəndər:** Ayə, ağzında şey deyirsən... Şey şey olacaq da. Başqa nə ola bilər ki?

**Qurban:** Çox danışma, arvadı da al yanına, tez elə, gəl. Gözüm bu şeydən su içmir.

**İsgəndər:** Gəlirik.

**Gülşad:** Bəh... Bəh... Bəh... Nə günə qaldım ey.

**İntizar:** Ana, ömründə belənçiyin görmüsən?

**Xavər:** Ağzını yerə tut danış, aaz. Bunu Allah düşmənimə də göstərməsin... Daldan adama oxşayır. Qabaqdan tamam alahı şeydi.

*Pauza*





**Qurban:** Tələsməyin, ağıl ağıldan üstündü... Gəlsinlər görək.

*Qapı açılır, İsgəndərlə arvadı otağa daxil olur. İsgəndərin arvadı tutulur və qışqırır.*

**Buta:** Buuy, başıma daş düşən canım. Ayə, bunu hardan tapmısız?

*İsgəndər də təəccüblənir.*

**Qurban** *(İsgəndərə)***:** Bu nə olan şeydi?

**İsgəndər** *(fikirləşərək tərəddüdlə)***:** Aşağıdan və daldan adama, yuxarıdan və başdan kalba Nəcəfin oğlu ovçu Hüsünün tulasına.

**Gülşad:** Bu boyda kişi danışdı çıxdı başa.

**Xavər:** Danışdığını yeyəsən.

**Buta:** Metısdı?..

**Gülşad:** Hə... Metısam.

**Xavər:** Bu, Gülşada oxşayır, ya oxşamır?

*İsgəndərlə arvadı Gülşada diqqətlə baxır.*

**İsgəndər:** Səsiylə gözlərindən hə... Qalan yerdən, babal yuvanmaram, yox. Dəqiqin İntizar bilər, a Xavər.

**Buta:** Yandan da bir balaca oxşarlığı var.

**Qurban:** Biz bunu neyləyək?

**İsgəndər:** Bu, göz dağıdı. Ömürlük xəcalətdi. Gecənin birində əkin başın getsin.

**Gülşad:** Ayə, insafın olsun.

**İsgəndər:** Bizi tanıyırsan?

**Gülşad:** Dabbaqda gönünüzə də bələdəm. Sən İsgəndərin arvadı Butasan. O Qurban kişi, bu da sənin arvadın Xavərdi. İnti-

zar da uşaqlarımın anası...

**Buta:** Sən Rusiyaya kimlə getmişdin?

**Gülşad:** Sənin biqeyrət oğlun Ərşadla.

**İsgəndər:** Bəs o hanı?

**Gülşad:** Onun nazik yerinə qırxıqlar xeyli təpik çaldılar. Məni bu hala saldılar. İkinci dəfə qırxıqlar gələndə mən qaçdım. Bu dəfə onu qulaqlarından tutub apardılar. Sonra neylədiklərini bilmədim.

*Pauza*

**İsgəndər:** A... ha... Deməli, belə. *(Üzünü Qurbana tutaraq)* Bu, lazım olacaq, dəlil-sübut üçün saxlayın. Öldürsəz, heç nədən özünüz də ilişərsiz. Sonra da get itə-qurda cavab ver.

**İntizar:** Mənə belə ər lazım deyil.

**Xavər:** Mən də elə düşünnəm. Əli-ayağı salamat olanda bir iş görənməyən kişi şikəst olanda neyləyəcək, a bala.

**İsgəndər:** Ay pir olmuşun qızı, salamatlar Rusiyadadı. Bu boyda kənddə şikəst olmayan kişi var ki? Birinin qıçı, ikincisinin əl-qolu, üçüncüsünün gözü... hansını deyim. Bunun da burnu, qulağı. Qalan əzaları ki, yerindədi. Tam məsuliyyətimlə deyirəm, Gülşaddan istifadə eləmək olar.

**Qurban:** İsgəndər, belə çıxır ki, bu, Gülşaddı da?

**İsgəndər:** Özüdü ki, var.

**Buta:** Neyləmək olar, qismətdi də.

*Vəsiləxanımla Yaxşıxanım gəlirlər. Gülşadın boynunu qucaqlayıb öpürlər.*

**Yaxşıxanım** *(ağlaya-ağlaya)***:** Ədə, qardaş, səni nə günə salıblar. Lap Məmmədin itinə oxşayırsan.

**Gülşad** *(kövrəlir)***:** Mərdimazarın evi dağılsın, bacı, sənə qurban olum.

**Yaxşıxanım** *(üzünü Qurbanla Xavərə tutaraq)***:** Da yeliniz-





quzunuz çıxar. İçiniz dincələr *(Üzünü İntizara tutaraq)*. Sən də get, əlinə həna qoy. Bunun ağrısını sonra bilərsən... Tökdüyünü yığacaqsan... Pul, gəlir doludu. Qohum-əqrəbana da bəsdi.

**Qurban:** A bala, Gülşad, heç olmasa, bazara əlin çatdımı, azdan-çoxdan...

*Pauza*

**Gülşad:** Keçi can hayında, qəssab piy... Məni adam şəklində göndərib tula kimi qəbul elədiz. Danışmağa dilin də var.

**Xavər:** Bu, heç yaxşı olmadı.

**İsgəndər:** Dünyanın işi belədi, bir yandan itirirsən, o biri tərəfdən tapırsan. Heç olmasa, sənədləri düzəldib pensiya fonduna verin. Sənə azdan-çoxdan təqaüd kəssinlər.

**Buta** *(Gülşada)***:** İçim göynəyir. Nə qədər olmasa, baladı. Səncə, Ərşada nə cəza verə bilərlər?

**Gülşad:** İstəsəydilər, qulaqlarını kəsərdilər, elə ordaca işini bitirərdilər... Çox güman ki, ona ya butulka, ya da yonulmamış paz...

**Buta:** Vay... Vay... Vay... Dözəcəkmi, yazıq balam.

**Gülşad:** Onu dəqiq deyənmərəm. Ola bilər ki, ayrı zad da tətbiq eləsinlər.

**İsgəndər:** Adə saxla... Qalanını danışma... Ondansa, kaş qulağın kəsəydilər.

*Pauza*

**Vəsiləxanım:** Butulka ondan yaxşıdı. Onu bir özü bilərdi, bir butulka yeridən qırxıqlar, bir də mən...

**Buta:** Axı butulka beynəlxalq hüquqa ziddi.

**Qurban:** İndi zidd olanlar moddadı.

**Xavər:** O da modladı?

**Buta:** Kişi, mən bilmirəm, dövlətlərarası müqavilələrdə onlar da var?

**İsgəndər:** Elə danışırsan, lap bişmiş toyuğun gülməyi gəlir, bəyəm, o müqavilələri mən bağlamışam, mən də sualına cavab

verəm?

**Gülşad** *(Vəsiləxanıma)*: Deyəsən, əl ayağın qurtarıb.

**Vəsiləxanım:** Hə, qardaş, çox çətinliklə.

**Gülşad:** Yalxıdı, yoxsa, əkiz?

**Vəsiləxanım:** Yalxı!

**Gülşad:** Qızdı, oğlan?

**Vəsiləxanım:** Qız.

**Gülşad:** Oğlan olsaydı, zülmə düşərdi, yaxşı qurtarmısız...

**Vəsiləxanım:** Niyə?

**Gülşad:** Məni görmürsən? Ərşadın vəziyyəti də miyanadı. O da yəqin dədəsinə oxşayacaq... Yaxşı, qızın adı nədi?

**Vəsiləxanım:** Zaminə. Ərəb adı...

**Gülşad:** Dubay?.. Yaxşıdı. Bir var bazarda oturub, bir də var evində.

**Qurban:** Sən ağıllı adamsan, fikirləşmirsən ki, bunun axırı hara gedir?

*Pauza*

**İsgəndər:** Dəqiq deyənmərəm, neftə, qaza müqavilə deyirdilər, bağladıq. Yanımızda dayan dedilər dayandıq... Nə dedilər, elədik. İndi də tutub əzalarımızı dibindən kəsirlər.

**Qurban:** Hələ turbalarımızı demirsən.

**Xavər:** Turba qaldı ki. Hamısını...

**İsgəndər:** Nə?

**Buta:** Hi... Hi... Hi... Keçirtdilər özlərindən.

**Qurban:** Allah qonşularımıza insaf versin. Qırxıqları atıblar ortaya. Özləri deyənmədiklərini elətdirirlər onlara. Hay-huy eləyən kimi, məsuliyyəti da atırlar qırxıqların boyunlarına. Kefdəyik canın üçün. Durub söz desək, bizi də günahkar çıxarıb cəzalandıracaqlar.

**İntizar:** Bizi də qoydular fərəzən günə.

**Gülşad:** Özümüz qudurtduq... Nə varsa, ver dedilər... Verdik... Dərdimizi indi kimə deyək? *(Səsinə ani fasilə verir)* Əcəb





paza keçdik.

**İsgəndər:** Siz Gülşadı həkimə aparın *(Üzünü arvadına tutaraq)*. Biz də gedək görək, Ərşadla əlaqəyə girə bilirikmi?.. Qırxıqlar onu Gülşaddan betər günə salacaqlar...

*Hamı otaqdan çıxır. İşıq sönür, səhnə qaralır.*

*2009*

# Xanımın desant batalyonu

***(iki hissəli, altı şəkilli pyes)***

**İştirak edirlər:**

**Əfican** — direktor, professor
**Ətayə** — 40-45 yaşlarında qadın, elmi işçi
**Həcibala** — elmi işçi
**Katya** — 25-26 yaşlarında qadın, katibə
**Mirfırıldaqov** — şöbə müdiri, professor
**Məkirli** — direktor müavini
**Gülüş** — 28 yaşlarında, elmi işçi
**Qızbacı** — 30-32 yaşlarında, elmi işçi
**Zülüş** — 30-35 yaşlarında, elmi işçi
**Xosuzadə** — 60-65 yaşlarında, şöbə müdiri, professor
**Meydulla** — nazirliyin işçisi
**Həlimə** — Əficanın arvadı
**Sərraf** — Rüsalənin əri
**Rüsalə** — Əficanın qızı
**Kişi** — 45 yaşında
**Alaqafanlı** — 30 yaşında
**Bəyazxanım** — 30-32 yaşlarında
**Güləndam** — 35 yaşında





## I hissə
## I şəkil

*Geniş, işıqlı kabinet. Masanın sol tərəfində üst-üstə qalaqlanmış kitablar. Telefon aparatı. Direktor Əfican yumşaq kresloda əyləşib. Əsəbidir. Qəzeti o üz-bu üzə çevirir. Qapı açılır. Ətayə salam verib içəri daxil olur. Əfican qəzeti kənara atır.*

**Əfican:** Hə... Gəl, əyləş.

*Ətayə əyləşir.*

**Ətayə** *(Əficana)*: Məni çağırtdırmısız? Olduqca əsəbi görünürsüz? Yenə əhvalınızı kim qarışdırıb?
**Əfican:** Hə... Tifaqları dağılsın mərdimazarların...
**Ətayə:** Özünü darıxdırma... Hər yer əsəbilikdi.
**Əfican:** Gözümüz aydın, deyirlər gündə yüz şəbədə qoşurlar mənə. Belələrinə nə deyəsən?...
**Ətayə:** Boy... Bircə bu çatışmırdı... Eləsə, Əfican...
**Əfican:** Tələsmə. Mən də Əficanam. Hamısını it gününə salacam, ac qoyacam. Dilənçi eləyəcəm... Buranı dağıdacam...
**Ətayə:** Səni istəyənlərin nə günahı? Barəndə danışanları rədd elə getsinlər. Baş-qulağın dincəlsin.
**Əfican:** Demək asandı, hansını çıxarıram, qaçır məhkəmələrə. Məhkəmələri də bilmirsən? Beş-üç alıb qaytarırlar üstümə.
**Ətayə:** Dallarına elə maddə yapışdır, cıqqırıqlarını çıxaranmasınlar.
**Əfican:** Şər?.. Böhtan?.. Deməzlər ki, bu nədi?
**Ətayə:** Şər, böhtan niyə? Bu, özünümüdafiədi... Araba gedər, cırıltısı baş ağrıdar.

**Əfican:** Ağıllı adamsan.

*Ətayə sinəsini qabardır.*

**Ətayə:** Əleyhinizə işləyənləri tapıb üzə çıxaran bacarıqlı kəşfiyyatçılar lazımdı sizə. Bilməlisiz ki, daşlar hardan atılır üstünüzə və atan əclafların azarları nədi?

**Əfican:** Kəşfiyyatçı? Əşi, onu o yana elə, dilə-dişə düşərik.

**Ətayə:** Sözümü qəribçiliyə salmayın. Hamı elədi, Əfican. Nazirliklərdə də belədi. Nazirlərin bütün idarə və şöbələrində desant kəşfiyyatçı qrupunun üzvləri var. Sizin niyə desant kəşfiyyatçı qrupunuz olmasın? Elə olmasa, kresloda çox oturanmazsız. Qəflətən tutub alarlar əlinizdən. Qalarsız yana-yana, bağıra-bağıra.

*Əfican fikrə gedir. Handan-hana Ətayənin üzünə baxaraq çiyinlərini çəkir.*

**Əfican:** Axı necə?

**Ətayə:** Çox sadə. Hər şöbəyə sözünüzü deyən bir adam işə götürün. Tələbinizi də əvvəlcədən açıqlayın. Onlar qərəzsiz-filansız, sözçülükdən uzaq, yerli-yataqlı informasiyaları məxfi toplayıb ötürsünlər sizə. Onda qara yelin hardan əsdiyini bilərsiz. Kompyüter-informasiya əsrində başqa cür işləmək çətindi. Elektron vasitələr od eləyir. Ağzıma daşlar, gəzən söz-söhbətləri internetdə yazsalar, neylərsiz? Gərək papağınızı götürüb qaçasız. Sonra, nə qədər and-aman eləsəz, "xəbərim yoxdu" desəz də, sizə inanan olmayacaq. Onda da: — Əfican qara şəbəkədə özünüyuma gəzişmələri eləyir — deyib güləcəklər.

**Əfican:** Yaratmaq olar?

**Ətayə:** Niyə olmur?... Kəşfiyyata ancaq qadınları götürün.

**Əfican:** Niyə kişiləri yox, ancaq qadınları?





*Pauza*

**Ətayə:** Məsələyə bir qədər geniş aspektdən yanaşın. Birincisi, bu işdə məxfilik gözlənməlidi. Bilirsiz ki, kişilər münasibətlərdə davamsızdılar. Atanşikdilər... Ağzıyırtıqdılar. İkincisi, çoxu alkaşdı. Vaxt-bivaxt yoxdu. Oturacaqlar xaş, ya da elə xingəlxanalarda. Salacaqlar vurhavur, açarlarını itirəcəklər. Özünün, özgənin fərqinə varmadan, olan-olmaz sirləri açıb tökəcəklər. Üçüncüsü, yaramaz, baş ağrıdan iddialar irəli sürəcəklər.

**Əfican:** Yəni necə?

**Ətayə:** Direktorluq iddiasına düşəcəklər. Anladılarsa, barəndə informasiya axını yaradacaqlar, bir-birlərindən şübhələnib vuruşacaqlar. Bunun da dalı gedib çıxacaq qəzetlərə, televiziya kanallarına, məhkəmələrə. Elə olduğu halda, biabırçılığa dözənməzsiz, Əfican. Unutma ki, kişilər xanımlarla cəngə girənməzlər. Xanımlar istədikləri vaxt, istədikləri yerdə bomba partlada bilərlər. Lap istəsələr, sizin kabinetinizdə də...

*Əfican heyrətlə Ətayəyə baxır. Nəfəsi daralır. Qalxıb pəncərəyə yaxınlaşır. Həyətə göz gəzdirərək geri dönür.*

**Əfican:** Məni dəli elədin... O çox dolaşıq məsələdi.

**Ətayə:** Dəli olunası, dolaşıq salınası heç bir iş yoxdu. Dövlətlərin dayağı deyirlər xalqdı. Bəri başdan deyim: yalandı, boş sözdü, mən ona inanmıram, Əfican. Dövlətin dayağı mükəmməl qurulmuş, sistemli və müntəzəm iş aparan məxvi kəşfiyyatdı. Götür İzraili, ABŞ-ı, İranı. Hələ Rusiyanı demirəm.

**Əfican:** Əşi, dövlətləri o yana elə. Başımızı cəncələ salarsan.

**Ətayə:** Mənə inan, Əfican.

*Pauza*

Kəşfiyyat güclüdüsə, dövlət də qüdrətlidi... Yenə deyirəm, indiki zəmanədə desant qrupuna xanımların qəbulu məsləhətdi...

**Əfican:** İyirmi yeddi şöbə və bölmə var... İyirmi yeddi ştatı mən

hardan alım?

**Ətayə:** Laborantları özünüzünküləşdirin. Şöbə və bölmələrdə müdirlərindən narazı xanımlarla danışıb özünüz tərəfə çəkin. Həyasız qadınlardan da tapıb bir neçəsini elmi işçi kimi şöbələrə aformut eləyin. Sözünüzü deyən, yumruğunuzu vuran olmasa, gec-tez sizi "hopp" eləyib udacaqlar.

**Əfican:** Qrupu yaratmaq çətin məsələdi.

**Ətayə:** Mənə səlahiyyət verin, tez bir zamanda yaradım. Söz verirəm sizə ki, çox yaxşı, ümid verən olacaq.

**Əfican:** Aa haa... Deməli, iki hakimiyyətlik! Mənə deməzlər ki, a boynu sınmış, bu nədi? Özündən nə hoqqa düzəltmisən?

*Ətayə qəhqəhə çəkir. Əfican çaşqın halda onun üzünə baxır*

**Ətayə:** Kimə hesabat verməliyik ki?! O öz aramızda qalacaq, Əfican. Hamı bir-birindən xəbərsiz olacaq. Onlar ayrı-ayrılıqda təkcə məni tanıyacaqlar. Tapşırığı da məndən alacaqlar.

**Əfican:** Nəsə bu "kəşfiyyat", "desant" sözləri mənim xoşuma gəlmir. Onların dalından qorxuram.

**Ətayə:** Dalı mənim işimdi. Qorxan gözə çöp düşər. Yadınızdadı? ABŞ İraqa hücum əməliyyatının adını "Səhrada fırtına", Əfqanıstana girəndə "Dağlarda tufan" qoymuşdu.

**Əfican** *(təntimiş halda)*: Əşi, o ABŞ-dı, mən kiməm?.. Yox... Xanım, onlarınkı çox zırpıdı, çox da yekəsinə qaçma, ortabab yaxşıdı. Eşidib bilərlər gecələrin birində, ikimizin də anamızı ağladallar.

**Ətayə:** Düzmü başa düşdüm? Deyirsiz həm ortabab, həm də bir az örtülü. Əşi, qoz burda, fındıq burda. İstədiyimiz vaxt qıra bilərik: hi... hi... hi...

**Əfican:** Bu görəcək fikirlər ağlına hardan gəldi?

*Pauza*

**Ətayə:** İnsan ağılla yaşayır, əzizim.





*Əfican söhbətin səmtini dəyişir.*

**Əfican:** Bilirsən ki, üç aydan sonra direktor seçkisidi. Professor Mirfırıldaqovla professor Xosuzadə də mənə alternativdilər.

**Ətayə:** Ooo... İddiaya bax... İtiniz qudursun. Bizi yaradan haqqı onlara beş qaz da *(Əfican gəlib kreslosunda əyləşir)* usburd olammaram.

**Əfican:** Yox... Mən elə deməzdim. İkisi də özlərindən deyəndilər. Pis, yaxşı, — alimdilər. Məncə, onlar elmlə məşğul olsalar yaxşıdı...

*Pauza*

**Ətayə:** Kimdən narazısızsa, çalışın onları aradan tez götürün. Desant kəşfiyyat qrupunu təcili yaradaq. Qrupun iyirmi yeddi üzvü olacaq, hərəsi bir adamı özünə tərəf çəksə, onda təqribən bizimkilər qırx səkkiz-qırx doqquz faiz olacaq. Üç-dörd faiz də sizin dostlarınız. Bununla da təhlükə sovuşar.

**Əfican:** Özümünkülərdən qorxuram. Görəndə üzümü duz kimi yalayırlar, mədhiyyə oxuyurlar, elə ki üzümü çevirib iki addım uzaqlaşıram, arxadan qamçılayırlar. Yuxarılara ananim məktublar yazırlar.

**Ətayə:** Gördüz, kişilər nədi?

**Əfican:** Doymuşam, Ətayə, doymuşam, onlardan.

**Ətayə:** Üç-dörd faizə ümid yoxsa...

**Əfican:** Onda kabineti təhvil verim?

**Ətayə:** Əşi, yox!.. Təhvil nədi?.. Əksinə, biz əl-ələ verib tapqırı bərkitməliyik.

*Qəflətən qapı açılır. Hacibala içəri daxil olur. Əsəbi görünür. Salamsız-filansız üzünü Ətayəyə tutur.*

**Hacibala:** Yekə arvadsan, bəyəm, qanacağın yoxdu? Hər gün gəlib oturursan kişinin çənəsinin altında. Nə hır qanırsan, nə də zır.

Əficanın da arvadbazlığından keçmə. Qadın görən kimi əriyir. Saatlarla mırt vurur *(üzünü Əficana tutaraq)*. Əşi, adamları qəbul eləyəcəksən, ya yox?

**Ətayə:** Əyə, cəhənnəm ol, ağzımı açdırma. Niyə qanmırsan ki, biz boş-boş danışmırıq, mühüm məsələ müzakirə eləyirik.

*Pauza*

**Həcibala:** Oturub gözləyək ki, sənin quşun nə vaxt uçacaq, durub gedəcəksən, biz də gəlib dərdimizi açacoq?

**Ətayə:** Sən öl, Həcibala, başına bir oyun açaram, hardan gəldiyini bilməzsən.

**Həcibala** *(Əficana):* Mən aliməm, çırtı-pırtı adam döörəm. Mən qapı arxasında qalmışam, sənsə dul qadınla burda mırt vurub azarını öldürürsən...

**Əfican:** O nə danışıqdı, əə? Xanım barədə danışmağı bacarmırsan?

**Həcibala:** Əşi, az xanım-xanım sal. Dilin qabar olub hər yoldan ötənə xanım deməkdən.

**Əfican:** Alimliyini gözə soxma. Yekə kişisən, ağır otur, batman gəl. Gördük alimliyini. Fındıq boyda şeyin yoxdu. Nədi onun adı?

**Ətayə:** Mərifət?..

**Əfican:** Hə, hə, çıx bayıra, xanımla qurtaraq, səninlə də olarıq.

**Həcibala:** Pəh... Pəh... Kefdəyik *(öz-özünə)* Elə bil arvad-zad görməyib ey, zalım oğlu. Bu qədər də damarı boş adam olar?

**Ətayə:** Məni ayağa qalxmağa məcbur eləmə, Həcibala. Sənin kimilər Əficanı it gününə salıblar.

**Əfican** *(astadan)***:** Sən də ağ eləmə. İt gününə yox... Ayıbdı.

**Həcibala** *(Ətayəyə)***:** Sənin qoçuluğun da varmış... Ay camaat... Ay camaat... Qoymayın Ətayə məni...

*Ətayəylə Əfican təəccüblə Həcibalaya baxırlar.*

*Katya çay gətirir. Həcibala təəccüblə baxır.*





**Katya:** Belə də kişi olar. Adam qorxur.

**Ətayə:** Başına daş düşmüşün səsinə bax ey, elə bil ayı bağırır. Dimmirəm, danışmıram, nə tumanını atmısan başına *(Ətayə qalxıb Həcibalanı itələyə-itələyə qapıdan çıxarır)*. Alçaq, camaata dil verirsən? Girib Əficanın başına olmazın oyununu açsalar, onda kimə nə cavab verəcəksən?... *(üzünü katibə Katyaya tutaraq Əficana işarə eləyir)* Bu axmaqdan düz-əməlli arvad saxlayan da çıxmaz.

**Katya:** Mənə atma. Mən onun arvadı-zadı döörəm.

**Ətayə:** Yox əşi, o aldı, qaldı sənin ona ərə getməyin.

*Katya üzünü çevirib gedir. Ətayə qapını bağlayır. Əficanla Ətayə yerlərində oturub söhbəti davam etdirirlər.*

**Ətayə:** Harda qaldıq?

**Əfican:** Seçki... Tapqır məsələsində.

**Ətayə:** Bu seçki ki var, çox axmaq şeydi. Bəzən adamın özünü yuyur.

**Əfican:** Necə yəni yuyur?

**Ətayə:** Bir balaca kirpiklərinizi qırpdız, gözlərinizi yumduz, səhlənkarlıq elədizsə ha, bil ki, uduzmusuz. Rəqib qalibdi. Bilirsiz ki, mən bələdiyyə və parlament seçkilərində əməlli-başlı can verənlərdənəm. İki seçki komissiyasının sədri olmuşam. Fikirləşirsiz bu nədi?

*Pauza*

**Əfican:** Fikirləşirəm. Təcrübəlisən, ona görə də səndən yararlanmaq istəyirəm.

*Ətayə fikrə gedir. Başını qaldırıb pəncərədən çölə baxır. Nəsə mızıldanır.*

**Ətayə** *(gülümsünür)***:** Gərək sədr həm saxtakarlığa mükəmməl yiyələnmiş, həm də tam sınaqdan keçmiş adam olsun. Başqa cür ol-

sa, uduzarsız. Rəqiblərinizin də həyasızlıqlarına söz olammaz. Qaşınmayan yerdən qan çıxarandılar. Onlarla cəngə girmək...

**Əfican:** Gecələr yuxum ərşə çəkilib, gözlərimi yumammıram. Qara-qura şeylər gəlir gözlərimin qabağına. Hey diksinib atılıram. Arvadı da dəli eləmişəm.

*Əfican qorxur. Sir-sifəti bozarır. Başını yelləyir. Ətayə gülümsəyir.*

**Ətayə:** Özünüzü sıxmayın. Mən ki bir işə əl qoydum, dalı-qabağı olmur... İstəyimiz baş tutacaq. Gedim, işim var, danışarıq.

*Ətayə gedir. Əfican nəsə fikirləşir. O da qalxıb otaqdan çıxır. İşıq sönür.*

## II şəkil

*İnstitutun həyəti. Əfican güləfrəngidə əyləşib qəzet oxuyur. Ətayə gəlir. Salam verib onunla üzbəüz əyləşir.*

**Əfican:** Neçə gündü fikirləşirəm. Yaradacağımız təşkilatı heç cürə təsəvvür eləyənmirəm. Onun mexanizmini, texnologiyasını, zıppıldatma metodikasını aç görək, nə olan şeydi.

**Ətayə** *(gülümsünərək):* Elə qəliz danışırsız ki, mən sizi başa düşmürəm. Bir az sadə....

**Əfican:** Vəzifəni andıra qalsın. Barəsində adam o qədər fikirləşir axırda da bezir...

**Ətayə:** Ruhdan düşməyin. Əlinizdə vəzifəniz, peçatınız, maşınınız, başı xarab da olsa, katibəniz. Hələ söyüb söycələdiyiniz quşbaz müavininizi, səy elmi katibinizi demirəm. Özünüzün xəcalət gətirəcək şey-şüyün olmasa...





**Əfican:** Nə oldu tolazlama.

*Pauza*

**Ətayə:** Bir məzhəbə qulluq eləsək. Sizin yumruğunuz gərək möhkəm olsun. Səsini çıxaranın *(yumruğunu irəli itələyərək)* düz ağzına.

**Əfican:** Nə danışırsan, xanım, bura elm ocağıdı, döyüş meydançası döör axı, çatanı nakauta salaq.

**Ətayə:** Yumruq deyəndə böhtanı, şantajı nəzərdə tuturam, zıppıltıyla tolazlamağı yox.

*Əlində çay Katya gəlir, çayı stolun üstə qoyur.*

**Katya:** Yuxarıdan Mətləb Lankaraniylə Madad Zəngilani sizinlə körüşmaka qelib.

*Ətayə əsəbləşir.*

**Ətayə:** Əcəb paza keçmişik *(üzünü Katyaya tutaraq)* Korsan, görmürsən, mühüm şeyə, nədi onun adı *(üzünü Əficana tutaraq)* siz deyin də *(sonra üzünü Katyaya tutaraq)* zada girişmişik?

**Əfican:** Bəlkə Qəşəm Lənkəraniylə Mədəd Zəngilanini...

**Ətayə:** Yox... Gözləsinlər... Cəhənnəmə ki, gəliblər... Gedən kimi Fazil Maştağalı gələcək... Az gəl get bura.

**Katya:** Aaa... Man vazifami...

**Ətayə** *(səsini qaldırır)***:** Əbləh... Biz nəyi? Qoy başım açılsın.

*Katibə küsüb gedir.*

**Əfican:** Əsəbləşmə. Keç əsas məsələyə.

**Ətayə:** Hə, dediniz texnologiya nədi?

**Əfican:** Mexanizm, metodika, vasitə...

**Ətayə:** İyirmi yeddi toçka var. Onların hərəsinə bir desant xanım ataq.

**Əfican:** Nə? Desant?

**Ətayə:** Özünüzü batırmayın.

**Əfican:** Məni dolaşdırma.

*Əfican gözlərini yumub fikrə gedir.*

**Ətayə:** Barəndə əks-təbliğat gedir. Seçkiyə qədər iş görməliyik.

**Əfican:** Bircə bu qalmışdı... Axı nə deyirlər?

**Ətayə:** Şümür Səfiyarla həmişəhərli İbadətə dediklərindən. Kimin ağzın yummaq olar? Desant kəşfiyyat qrupunu təşkil eləsək... Başqa cür danışsalar, bircə-bircə çağırıb ağızlarını cıraram. Əfican, sizə balıq özü lazımdı, yoxsa, başı?

**Əfican:** İkisi də.

**Ətayə:** Üç xanımla danışmışam. Otaqdadılar. Üçü də qoçaq. Söz altda yatmayan, atılan sözü göydə tutan, atlını atdan salan...

*Pauza*

**Əfican** *(fikirləşir)***:** A ha.. Desant üzvləri birdən mənə girişsələr?..

**Ətayə:** Yox... Nə danışırsız? Mənim işarəmi gözləyəcəklər. Gecikdirmə, əmrlərini ver, şöbələrdə yerləşdir. İkisini də bu arada gətirəcəm. Onlara evdə təlim saatları ayırmışam.

**Əfican:** Demokratiya: he... he... he...

**Ətayə:** Həyat baş-ayaq fırıldaqdı. Bicliyiniz varsa, hər şey sizindi. Açığını deyim, mən komissiya sədri, gətirdiyim xanımlar üzv olsalar, kim nə atır atsın, doxsan səkkiz onda beş faiz qutudan siz çıxacaqsız. Bir adam "mık" eləyənməz. Mirfırıldaqovlar, Xosuzadələr gedib qarınlarını qaşısınlar. Elələrindən çoxunun başını yemişəm. İllah da parlament seçkilərində...

**Əfican:** Dava-dalaş, yazışma, intiriqa-zad olmaz ki?

*Pauza*

**Ətayə** *(başını yelləyir)***:** İşinizə baxın. İki yolunuz var: ya seçki çatmamış yerinizi təhvil verməlisiz, ya da qazanı qarışdırmalısız. Birinci yolu seçsəz, adınız olacaq maymaq, ikinci də fırıldaq. Hansı yaxşıdı? Maymaq, yoxsa fırıldaq? Onu da unutmayın, Əfican, elə xaotik cəmiyyətdə yaşayırıq ki, fırıldaq olmayan yoxdu. Hər şey fırıldaqla keçir. Fırıldaqla qazanılan nailiyyət bizim kor cəmiyyətdə qələbə kimi anlaşılır, Əfican.





**Əfican:** Deyirsən, ikinci yolu seçim?

**Ətayə:** Başqa yolunuz yoxdu. Seçməzsiz, gedib bulvarda ya domino oynayarsız, ya da gəlib-gedənin dalına-qabağına baxarsız.

*Gülüşürlər.*

**Əfican:** Seçki texnologiyasıdı, mexanizmidi nədi, onu açmadın axı.

**Ətayə:** Elə terminlərlə mənim başımı xarab eləməyin. Şöbələrə atacağımız desantlar namizədlərin başlarını yastığa qoyacaqlar.

**Əfican:** Necə?

*Pauza*

**Ətayə:** Əvvəla, komissiyanın obyektivliyinə namizədlərdə inam oyanacaq. Balıq soxulcan keçirilmiş tilova yaxınlaşan kimi özlərininki bilib desantlara yaxınlaşacaqlar, ürəklərini açacaqlar. Onlardan kömək diləyəcəklər. Təbii ki, xanımlar namizədlərə üzdə "hə", "hə" deyəcək, altda vızqırt. Necə deyərlər: "İstədiyim yar idi, yetirdi pərvərdigar".

**Əfican:** Aaz sənin başına neyləyim?

**Ətayə:** Neyləyəcəksiz? Başımı saxlayın, məvacibimi artırın, vəssalam.

**Əfican** *(əlini gözlərinin üstə qoyaraq)***:** Bu gözlərim üstə.

**Ətayə:** Arvadınızla qızınızın burdan ayaqlarını kəsin. Tapşırın, xarabalarında oturub ağzı başına danışmasınlar. Söz yiyəsinə tez çatır. Onların gəlib-getməsi, işə burun soxmaları işçilərdə sizə nifrət oyadar... Qorxuram... Əziyyətimiz hədər gedər.

**Əfican:** Öyrəncəlidilər. Öhdələrindən gələmmirəm.

**Ətayə:** O sözləri atın başınızdan. Deyərlər arvadının, qızının ağzın yığanmayandan nə direktor?

**Əfican:** Düz deyirsən, arvad sarıdan içim özümü yandırır, çölüm özgəni.

**Ətayə:** Vəzifə belədi də.

**Əfican:** Hə... Olursan hamının qulu. Hərə də sənə bir şəbədə qoşur.

*Ətayə gedir. Katya gəlir.*

**Katya:** Mətləb Lənkaraniylə Mədəd Zəngilani gözləsinlər, ya getsinlər? Bayaqdan donquldanırlar. Başqaları da var.

**Əfican:** De ki, məni yuxarı çağırdılar. Qəbul sabah olacaq.

*Elmi işçi. Qızbacı gəlir, Katya ona mane olmağa çalışır.*

**Qızbacı:** Məni qəbul eləməsəz, dağıdaram, od vurub yandırram buranı.

**Əfican:** Tələsirəm. Yuxarı çağırıblar... Başqa vaxt...

**Qızbacı:** Xeyir. Gəlmişəm, məni dinləməlisiz, özü də ədəb-ərkanla.

**Əfican:** Niyə?

*Pauza*

**Qızbacı:** Niyəsi budu ki, siz direktor, mən işçiyəm. Mən olmasam, sizi bura rəhbər qoymazlar. Qoyublarsa, məni dinləmək sizin borcunuzdu. Çünki qaz vurub, qazan doldurursuz. Biz göz yumuruq, siz kef çəkirsiz.

**Əfican:** İşə düşmədim?

**Qızbacı:** Özünüzü yayxalamayın. Huşdurum-haray Qara olsaydız, nə yanınıza gələrdim, nə də: — Məni dinləyin — deyərdim.

*Əfican çaşır. Nəfəsi təntiyir. Qalstukunu çəkişdirir. Qalstuk açılır, hirslənib onu döşəməyə çırpır.*





**Əfican:** İçinə tüpürüm.

**Qızbacı:** İçinə də tüpürüm, çölünə də.

**Əfican:** Bu nə danışıqdı? Yekə arvadsan. Sən dəlisən, gicsən? Bəyəm mənim ixtiyarım çatmır, öz qalstukumun içinə tüpürməyə?

**Qızbacı:** Sən o sözü mənim yanımda deyirsənsə, qalstukunuza yox, mənə tüpürmüş olursuz. Qalstukunuza tüpürmək istəyirsizsə, xarabanız var. İstəyirsiz, evinizdə lap tüpürdüyünüzü yalayın. Elə elədiyinizdi ki, barənizdə zurna piləyirlər də...

**Əfican** *(çəkincəkli halda)***:** Sözünüzü deyin, eşidirəm.

**Qızbacı:** Hi... hi... hi... Puldan ötrü başınızı soxmadığınız dəlmə-deşik qalmayıb. Mənə mükafat niyə vermirsiz? Gərək deyəm?... İtə-qurda verirsiz.

**Əfican** *(ani fikirləşir)***:** Ağzın nətərdi?

**Qızbacı** *(təəccüblə)***:** Başa düşmədim. Görmürsən? Siz də necə, məndə də elə.

**Əfican:** Sirr saxlaya bilirsənmi?

*Pauza*

**Qızbacı:** Lazımsa, hə.

**Əfican:** Bu yaxında seçkimdi. Mənə çox yox beş-altı səs lazımdı. Təşkil eləyə bilərsənmi?

**Qızbacı:** Canın da alaram. Evdə at ilxısı it sürüsüyük. Niyə təşkil eləmirəm? Eləyərəm.

**Əfican:** Əşi, evdəkiləri bura qatma. Burdakılardan təşkil eləsən, necə deyərlər sən məni, mən də səni...

**Qızbacı:** Hə?

**Əfican:** Razılaşırıq? Danışdıq?

**Qızbacı:** Hə...

**Əfican:** Get, narahat olma.

*Qızbacı gedir. Əfican çayı içir, sonra da qalxıb yavaş addımlarla gedir. İşıq sönür.*

## III şəkil

*Əməkdaşlar zalda Mirfırıldaqovla Xosuzadənin görüşünə toplaşıblar. Əfican, Məkirli, Mirfırıldaqov, Xosuzadə gəlirlər , əyləşirlər. Məkirli ayağa qalxır.*

**Məkirli:** Əziz həmkarlar! Bu toplantı direktorluğa namizədlərlə görüşə həsr olunur. İstərdim ki, namizədlər platformalarını, seçicilərsə həmin platformalara münasibətlərini açıqlasınlar. Sözü əvvəlcə verək direktorluğa namizəd, professor Mirfırıldaqova.

**Mirfırıldaqov** *(ayağa qalxaraq)*: Biz qeyri-adi nə fövqəlplatforma irəli sürə bilərik? Gəlin gop-kələkdən uzaq olaq. Real söhbət eləyək. Seçilərəmsə, nizam-intizamı möhkəmləndirərəm. Tədqiqatların keyfiyyətinə nəzarəti yüksəldərəm. Nəticələrin təcrübəyə tətbiqinə nail olaram. Əməkdaşların maddi güzaranını yaxşılaşdıraram...

*Pauza*

**Ətayə:** Bəyəm, mötərəm direktorumuz, professor Əfican indiyə qədər dediklərin uğrunda çalışmayıb? Ə, sən əməkdaşların əvəzinə tədqiqat aparacaqsan ki, keyfiyyəti qaldırasan?

**Mirfırıldaqov:** Xeyir... İntizamsızlıq, başı pozuqluq təşkilatda baş alıb gedirsə, işdə keyfiyyətdən söhbət gedə bilməz. Əməkdaşlar aylarla işə gəlmirlər. Bəyəm bunlar yalandı?

**Gülüş:** Əə, bəs bu camaat nəylə məşğuldu?.. Əficana böhtan atma. O, sənə bir şıllaq atar, bizi yaradan haqqı, qaçıb altından qurtarammazsan. Get, özünə iş tap.

**Mirfırıldaqov:** Bu nə danışıqdı, aaz? Bərəkallah... O səlahiyyəti sənə kim verib?.. Əfican?!

**Qızbacı:** Burda Əficanlıq nə iş var?

**Mirfırıldaqov:** Onda siz hansı bandadansız? Sizi bura atıblar ki, başımız üstə darğalıq eləyəsiz?

**Gülüş:** Hərə bir tikə çörək qazanıb balalarına aparır. Onu da siz





kəsmək istəyirsiz?

**Ətayə:** Nə banda, nə atmaq? Sözünə fikir ver. Sənə elə söz deyərəm ki, dəymişin duran yerdə kalın tökülər. Ağıllı arvad səni qapıda bir gün də saxlamaz, Mirfırıldaqov.

**Əfican:** Kim nə istəyir, mane olmayın, qoyun danışsın. Demokratiyadı. Fikir plüralizmi var. Ancaq ədəb-ərkan çərçivəsində.

**Mirfırıldaqov:** Bərəkallah.

**Zülüş:** Mirfırıldaqov, bayaqdan danışırsan, susuruq. Sən nə vaxta qədər fırıldaqlarından əl çəkməyəcəksən? Axı sən "Dərə xəlvət, tülkü bəy" ideyasının daşıyıcısısan. Düşünürsən ki, yəqin səni tanıyan yoxdu? Götür namizədliyini geri, özünü abırdan salma.

*Pauza*

**Mirfırıldaqov:** Xanım, sən narahat olma. Yüz ölçüb, bir biçib namizədliyimi vermişəm. *(Gülərək)* Qorxan gözə çöp düşər.

**Ətayə:** Hırıldama. Katya hazırdı, bircə işarə gözləyir, açar sandığı, tökər pambığı, dincələrsən.

**Mirfırıldaqov** *(əsəbləşir)*: Katya kimdi? Nə sandıq? Nə pambıq? Nə sirr?

**Qızbacı:** Gücənmə... Xətasız qul olmaz...

**Ətayə:** Bizi oynatma, Mirfırıldaqov. Bir səsimiz var, aç qulağını eşit, o da Əficanındı.

**Gülüş:** Söz güləşdirmə, professor. Səndən üç min alan xanımın adını qəsdən çəkmirəm. Bildin də, kimi deyirəm? Nə üçün səndən aldığını inkar eləyəmməzsən ki? Düzünü de. Alıb? Alıb! Faktdı... Səninlə özünün tanışının evində olub? Olub! Şahidlər var. Səni şantaj eləyib? Eləyib! Sübüt göz qabağındadı. Müxtəlif pozalardan lütana bülbülü kimi şəkillərini çəkib? Çəkib! Dəlillər yetərincədi. Özü də təkzib olunmaz. Dalınca sanatoriyaya gedib? Gedib! Şahidlər salamatdılar. Səndən orda da üç min qoparıb? Qoparıb! Görüblər. Daldalayammazsan...

**Ətayə** *(əsəbi halda)*: Ayə, nə qeyrətsiz adamsan, əə.

**Mirfırıldaqov:** Hamısı yalandı... İftiradı... Səni məhkəməyə

verəcəm. Göstərin o şəkilləri...

*Pauza*

**Zülüş:** Nə məhkəmə? Nə filan? Gülüşün dedikləri bütün əməkdaşların telefonlarına ötürülüb? *(üzünü zaldakılara tutaraq)* Camaat ötürülüb? *(Hamı təsdiqləyir)*. Səsini diktofona köçürüb? Köçürüb! Dinləyə bilərsən. Barəndə toplanan faktlar internetdə var? Var! Oxuya bilərsən? Bunlara nə deyirsən?

**Ətayə:** Faktlar... Sübutlar... Dəlillər... Şahidlər... Səsin... Dediklərin... Kişiləşmə. İndiyədək yaşadıqların bir qoz. Gözlərinə baxanda...

**Mirfırıldaqov:** Nə?

**Qızbacı:** Dəyyusluq yağır. Həşəyri, düdük. İstəyirsən telefonu açıb hamıya yenidən nümayiş elətdirim?

**Mirfırıldaqov:** Yığışdır telefonu. Mən də sənin zibilini qurcalasam, altından çox şey çıxar. Dul qadın belədi də, nə olsa danışır.

*Pauza*

**Gülüş:** Məni ayağa qaldırma. Qalxsam, əlimin suyunu...

**Zülüş** *(Mirfırıldaqova):* Zıqqıltın-mıqqıltın aləmi götürür. O nəmənə şeydi?

**Ətayə** *(iki əliylə üzünü tutaraq)***:** Üzünün suyu tökülsün. Ətim sümüyümdən aralanır, qurtarın biabırçılığı.

**Mirfırıldaqov:** Paza keçmədik?!.

**Qızbacı:** Keçmisən, özü də lap yekəsinə.

**Ətayə:** Əlindən gələni elə. Eləyəmmirsən eləmə. İtin-qurdun ağzında gərək saqqız kimi çeynənəsən. Bundan sonra səni direktor seçənin...

**Mirfırıldaqov:** İçiniz boşaldı?

**Zülüş:** Canının qeydinə qalanmayan özgəyə xoş güzəran vəd eləyə bilər? Eləyərəm desə, heç ona inanan tapılar? Abrına-həyana qısıl, qaxıl otur yerində, Mirfırıldaqov, boş xülyalarla yaşama.

*Zalı gülüş səsləri buruyur. Məkirli ayağa qalxır.*





**Məkirli:** İndi də söz verilir Xosuzadəyə.

*Pauza*

**Xosuzadə:** Bəri başdan deyim ki, mənim platformamla Mirfırıldaqovun platforması arasında kəskin fikir ayrılıqları yoxdu. Əlavə onu deyə bilərəm ki, tez-tez əməkdaşların təbiətə gəzintilərini təşkil eləyəcəm. Gənclərin evlənməsinə şərait yaradacam. Mədəni-kütləvi tədbirlərə yer ayıracam. Maaşlara əl gəzdirəcəm. Evsizlərə mənzil ayırtdıracam...

**Ətayə:** Ayə, basıb-bağlama. Onları hardan eləyəcəksən? Sən bir ölkəyə prezident seçilirsən, yoxsa, bir instituta direktor? Ömründə bir dəfə sınıq barmağa... Sən danışdıqca gülməkdən özümüzü güc-bəlayla saxlayırıq. Fikirləşmirsən ki, hamı səni məsxərəyə qoyar? Pişiyini ağaca dırmaşdırarlar? Sənə qoşulan şəbədələrdən için alışıb yanmır? Ağzını yerə tut, səsin çıxmasın...

**Xosuzadə:** Ətayə, sən məni biabır eləyəmməzsən. Səni gecəykən... Özü də əlli-ayaqlı...

**Gülüş** *(başını bulayaraq)***:** İtirmisən yurd-yuvanı, olmusan avara. Arın yox, qırın yox. Burun soxmadığın da dəlmə-deşik qalmayıb.

**Zülüş:** Səndən nə adam olar, nə direktor, nə də alim. Xosuzadə, alimlər iki cür olurlar. Həqiqi alimlər, girdirmə alimlər. Mirfırıldaqovla sən girdirmələrdənsiz.

**Xosuzadə:** A ha... Nə olar, Zülüş.

**Ətayə:** Heç vaxt heç nə olammayacaqsız. O iddianızdan əl çəkin. Siz xeyirlə şəri ayırammırsız. Həyasızlığınız da üstəlik.

*Məkirli yerindən qalxır.*

**Məkirli:** A kişilər, xalq sizi istəmir də. Zornan seçkiyə qatılmaq olar? Gedin özünüzə iş tapın da.

*Pauza*

**Mirfırıldaqov:** Sağ ol, Məkirli... Arxada bizimlə cici-bacı olur-

san, burdasa ayrı cürə danışırsan? Bizi sən qızışdırıb, namizədliyimizi verdirmədin?

**Məkirli:** Xeyir, sizi qızışdıran, ortaya salan lap tümmətün olsun... Mənim bir sifətim var.

**Xosuzadə:** Məkirli, sən elə şaybasan ki, bütün həlqələrə keçirsən. Bayaq bu xanımların qeybətini qırmadın? İndi də hərcayilik eləyirsən. Utan... Qızar... Heç olmasa, səsin çıxmasın.

**Zülüş:** Məkirlidən nə kişi? Seçkidən sonra ona da baxarıq.

**Məkirli:** Nəyimə baxacaqsız? İşim-peşəm yorğanınızı üstünüzə çəkməkdi... Bezmişəm.

*Zala pıçha pıç düşür. Əfican ayağa qalxır.*

**Əfican:** Sakit... Sakit... Çox dərinə getməyin. Malı-mala qatmayın. Sözünüzü növbəylə....

**Xosuzadə:** Bu qoçuları harda bəsləmisən, Əfican?

**Əfican:** Qoçu bəsləyənin atasına lənət.

**Ətayə:** Bircə şərləmməmiz qalmışdı... *(üzünü Məkirliyə tutaraq)* Sən də az aşın duzu döörsən.

**Gülüş:** Eh... O da bizim birimiz.

**Zülüş:** Bayquşumuz çatmırdı...

**Ətayə:** Kişilər, siz qeyri-ciddi adamlarsız. İşçilərin başın pozub, onları zinhara gətirməyin.

**Zülüş** *(üzünü Məkirliyə tutaraq)***:** Deyəsən, sən də Mirfırıldaqovla Xosuzadənin tayısan. A qırışmal, altdan-altdan Əficana qarmaq atırsan? Dinmirik, danışmırıq elə bilirsən xəbərsizik? Batırmadığınız kol-kos başı qalmayıb.

**Gülüş:** Yüz dəfə seçkiyə girsələr, inanın, Xosuzadəylə Mirfırıldaqov məğlub olacaqlar. Gəlin qurtarağın bu həngaməni.

*Adamlar ayağa qalxıb zalı tərk edirlər. İşıq sönür*





# II hissə
## IV şəkil

*İclas zalı. Zal əməkdaşlarla doludur. Nazirliyin nümayəndəsi Meydulla qabaqda, ardınca Əfican və müavini Mərəkəli gəlirlər. Özləri üçün ayrılmış yerdə əyləşirlər. Əfican əməkdaşları salamlayır və çıxış üçün sözü Meydullaya verir*

**Meydulla:** Əziz həmkarlar, on ilə yaxındı ki, sizinlə bir sistemdə fəaliyyətdəyəm. Həmişə yaxşı sorağınızı eşitmişəm. Fəaliyyətinizdən ruhlanmışam. Qabaqcıl təcrübənizi hamı rəğbətlə qarşılayıb. Kollektivin indi də elmi potensialı böyükdü. Açığını deyim, keçmişinizdən fərqli olaraq, son zamanlar fəaliyyətinizdə ciddi geriləmə duyulur.

**Zülüş:** Xeyir, kollektiv bütün gücüylə işləyir. Doğrudur, arada bir-iki təsadüfi gedə-güdə işimizi əngəlləyir, fəaliyyətimizi gözdən salır. Amma tezliklə gedə-güdələrin də atasına od vurarıq.

**Gülüş:** Kollektivdə, cənab Meydulla bəy, dedi-qodu yaradanlar var. Direktorluğu intiriqalara sürükləyirlər. Biz elə adamların niyyətlərini içlərində boğacağıq.

*Pauza*

**Meydulla:** Mən sözümü axıra qədər deyib qurtarmadım. İmkan verin, öz fikirlərimi sizinlə bölüşüm.

*Əfican əlini qaldırıb, zala "sakit olun" işarəsini verir. Zal tədricən sakitləşir.*

**Əfican:** Buyurun, Meydulla bəy.

**Meydulla:** Siz deyirsiz, hər şey yaxşıdı. Adamlar səmimidi. Bir anlığa sizə mən də inanıram. Soruşuram: kollektivdən, direktordan, keyfiyyətsiz tədqiqatlardan yuxarı təşkilatlara konkret faktlarla ya-

zan kimlərdi?

*Pauza*

Professor Mirfırıldaqov burdadımı?

*Mirfırıldaqov ayağa qalxır.*

**Mirfırıldaqov:** Bəli burdayam.

**Meydulla** *(ərizəni göstərərək)*: Bu ərizəni yazan sizmisiz?

**Mirfırıldaqov:** Yazdıqlarımı yüz faiz təsdiq edirəm.

**Meydulla:** Əlavə deyiləcək sözün varmı?

**Mirfırıldaqov** *(boğazını arıtlayaraq)*: Əlavəm odur ki, təşkilatda iki hakimiyyətlik hökm sürür. Bir iş görmək üçün əvvəl Ətayənin, sonra direktorun bayrağı altından keçməliyik. Soruşan lazımdı: Axı Ətayə kimdi? Ona hansı səlahiyyətlər verilib? Gəlmisiz, imkan verin, özləri ikihakimiyyətliliyə aydınlıq gətirsinlər. Hüquqa zidd deyilsə, biz də bilək, elə siz də. Eybi yoxdu, qanunidirsə, biz də ona can-başla əməl eləyək. Əgər onu izah eləyə bilməsələr, onda cənab direktor özüylə Ətayə arasındakı münasibətlərə aydınlıq gətirsin.

*Pauza*

**Meydulla:** A ha, deyəsən, rənglər tündləşir.

*Meydulla arxaya çevrilib əvvəl Əficana, sonra Məkirliyə baxır. Məkirli söz istəyir. Meydulla sözü ona verir.*

**Məkirli:** Professor Mirfırıldaqov nəyə istinadən ikihakimiyyətlik məsələsini irəli atır, onu mən deyəmmərəm. Ətayə direktorluğun üzvüdü. Məsələlərin müzakirəsində kollegiyallığa, demakratikliyə yön verəndi. Doğrudu, bir az sərtdi, adamlara yersiz güzəştə getməyəndi. Buna görə professor Mirfırıldaqovun Ətayə xanıma, hörmətli direktora böhtan atmağa haqqı yoxdu.





*Professor Xosuzadə əlini qaldıraraq söz istəyir*

**Xosuzadə** *(əsəbi halda)*: Bu zalda əyləşənlərin doxsan faizi bayaqdan direktorun əməllərindən gileylənirdilər. Deyin, indi səsiniz niyə batıb? Yoxsa, söz deməyə cəsarətiniz çatmır? Mən elə kişiliyə, qadınlığa... Fikrim sizə çatdı da?

*Pauza*

**Ətayə:** Professor, sən heç olmasa, danışma. Professor diplomunu necə almısan, onu yaxşı bilirik. Keçən gün on dəqiqəlik çıxışında yüz yetmiş səkkiz dəfə “necə deyim” ifadəsini, altmış iki dəfə “şeydi”, qırx dörd dəfə “zaddı” sözlərini işlətdin. Direktor səndən keyfiyyətli tədqiqat istədiyi üçün onu mütləq şantaj eləməlisən? Yadında saxla, sənin tək savadsız professora aramızda yer olmayacaq. Yaxşısı budur ki, özün üzü sulu ərizəni yazıb gedəsən. Dönə-dönə xahiş eləyirəm, cənab Meydulla bəy, sözü Xosuzadənin laborantı Zülüşə verəsiz. Düzünü o, desin.

**Zülüş** *(əvvəl çəkinə-çəkinə, sonra qızışaraq)*: Doğrusu, mən danışmaq istəmirdim. İndi ki məcbur eləyirsiz, bir-iki gəlmə mən də zıplayım.

*Pauza*

Birncisi, Xosuzadə hamının qarşısında utanmadan, qızarmadan nə olsa, danışır. Arvad kişiyə fərq qoymur. Ağzın yummaq çox çətindi. İkincisi, bu kişi dəhşətli dərəcədə şorgözdü. Mən şəxsən direktora bu barədə dönə-dönə demişəm. Abrımız-həyamız gedib. Axı qadın yanında elə danışmaq biabırçılıqdı. İki dəfə fikirləşmişəm gedim ərimə deyim. Onu burdan çıxanda şil-küt eləsin. Ətayə xanım yalvar-yaxar eləyib qoymayıb. Deyib: “Ərinə demə, bəlkə düzələ?”. Bu anadan gəlmə qozbeldi, o, düzələn döör.

*Pauza*

Elə kişiylə bir şöbədə işləməyi özümə təhqir sayıram. Qaldı professor Mirfırıldaqova, o barədə danışmağı heç özümə sığışdırmıram. Bir şöbə müdiri ki, əməkdaşlarının çantasına əl gəzdirə, qə-

pik-qüpük nəzir yığa, ondan nə gözləyəsən? Onun ipinin üstə odun yığmaq olarmı? O getsin, əvvəl özünü tərbiyə eləsin, sonra başqalarının haqq-hesabını aparsın.

**Mirfırıldaqov:** İşimiz əcəb düzəldi. Bu nə danışır əə?

**Xosuzadə:** Ayə, bu ki belə deyildi, onu kim başdan çıxardı?

*Söz Gülüşə verilir*

**Gülüş:** Bu təşkilata bir direktor olmalıydı. Onu da demokratik yolla kollektiv seçib. Biz də o direktorla işləyirik. Bəyəm başqaları Əficandan yaxşı olacaq? Yox... Siz danışdıqca, mənim matım-qutum quruyub, xəcalət çəkirəm. Ay camaat, Mirfırıldaqovdan, Xosuzadədən direktor olarmı? Bu əyyaşlar hər gün işə piyan gəlirlər. Yolda, tində-bucaqda adamlara sataşırlar. Mən təklif eləyirəm, hər iki professor kollektivdən uzaqlaşdırılsın. Biz xanımlar öz aramızda vahid fikrə gəlmişik. Onlar burda işləyəcəklərsə, biz çıxaq...

*Səs zalı bürüyür. Heç kim heç kimi eşitmir. Getdikcə rənglərin qarışdığını, əlbə-yaxa dava olacağını hiss eləyən Meydulla keçib əyləşir yerində.*

**Meydulla:** Professor Məkirli, yığıncağı siz idarə eləyin.

*Məkirli ayağa qalxır.*

**Məkirli:** Professorlar Mirfırıldaqovla Xosuzadə barədə ciddi ittihamlar irəli sürüldü. Bu ittihamları kişilər səsləndirsəydi, qulaqardına vurmaq olardı. Qadınların fikrinə isə biz barmaqarası baxa bilmərik. Mirfırıldaqovla Xosuzadənin ittifaq yaratmasına təəssüflənirəm. Deyə bilərsiz nə ittifaq? Sirr deyil ki, üç ay əvvəl professor Mirfırıldaqovla professor Xosuzadə direktor seçkisində öz namizədliklərini vermişdilər. Obyektiv keçirilən seçkidə onlar uduzdular. Məğlubiyyəti kişi kimi qəbul eləməkdənsə, görün, bu adamlar indi hansı yolu tutublar? Kollektivə ləkə vurmaq, direktoru gözdən salmaq, təmiz adamlar barədə şübhə oyatmaq.... Hansını deyəsən? Bu, namərdlikdi. Belə olmaz.





*Pauza*

**Ətayə:** Əzizlərimiz. Sizlərdən bəzi kişilər, əlbəttə ki, hamınızı demirəm, Mirfırıldaqovla Xosuzadənin hərəkətlərinə bir anlığa göz yuma bilərsiz. Çünki kişisiz. Onlar məişət pozğunu, şorgöz, arvadbaz olduqları halda, əməlsaleh qadınlar onlarla bir araya gələ bilərmi? Qadınlar istəmirlərsə, rəhbərlik o professorlara necə mərhəmət göstərə bilər? Mən xahiş eləyirəm, söz demək istəyən xanımların hamısına imkan yaradın, danışsınlar.

**Həlimə:** Əşi, bu adamlar Əficandan intiqam almaq istəyirlərsə, özləri bilərlər. Can onların, cəhənnəm tanrının. Onların intiqamının kollektivə nə dəxli var? Hər gün yolumuzu kəsirlər, bizə hədə-qorxu gəlirlər. — Seçkidə onlara səs vermədiyimizə görə, bizi işdən qovdurmaqla hədələyirlər. Bəzən də bizə intim gözlə baxırlar. Mənim elə şeylərdən zəhləm gedir. Ərim gələr...

*Mirfırıldaqov deyilənlərə dözmür*

**Mirfırıldaqov:** Yalan danışanların lap atasına lənət. Ayə, Xosuzadə, bizi abırdan saldılar ki bu ifritələr. Ayə, nə qələt eləyib əlimizə qələm aldıq. Mən heç, a camaat, abırınız olsun, bəyəm Xosuzadə siz deyən kimi, yüngül-düngil adamdı? O yazıq başını qaldırıb adam üzünə baxammır utandığından. İndi bizi nəyə məcbur eləyirsiz? Axı bilirsiz siz deyenlər Xosuzadədə uşaqlıqdan yoxdu. Lazımsa həkimdən aldığı arayışı da göstərə bilər. Siz qoyan ad heç özümü demirəm, o kişiyə yaraşarmı? Biz neyləyək? Törədilən cinayətləri ört-basdır eləmək üçün görün, hansı yollara əl atırsız?

*Pauza*

**Bəyazxanım:** Bəlkə unutmusan, səninlə bağlı müxtəlif pozalar-

da şəkillərinin və əcaib səslərinin, əttökən sözlərinin telefonlara ötürülməsini? Mırfırıldaqov, Əficanın hərəkətlərinə kölgə salmaqda məqsədiniz nədi? Kollektivi gözdən salmaq? Yox, onu bacarmayacaqsız. Əvvəlcədən sizə deyirəm, açın qulaqlarınızı eşidin, daş qayaya rast gəlib.

**Katya**: Yekə kişisiz, əə. Adınızın yanına professor yapışdırmısız, özünüz də gündə yüz fırıldaqdan çıxırsız. Açıb ağartmırıq, elə bilirsiz dilimiz-ağzımız yoxdu? Ya lalıq? Elə qışqıraram, qulaqlarınız batar. Başqa söz tapammırsız? Dəhlizdəki müzakirələrə nə deyirsiz? Killerlik eləyirsiz. Müxtəlif profilli şəkillər. Həyəcanlı səslər. Əndirəbadi sözlər. Əcaib hərəkətlər. Təxribatlar. Oyunbazlıqlar. Nələr... Nələr... Utanmırsız elədiklərinizdən. Nə istəyirsiz kollektivdən.

**Yerdən səslər:** Sağ ol, Katya... Əla! Belə ha!...

**Əfican** *(yerdən)***:** Saxla... Nə olsa, danışmazlar. O iş bir dəfə oldu, qurtardı.

**Katya:** Elə mən də onu deyirəm də.

**Ətayə:** Qoy nə bilir desin.

**Katya:** Mən yalan danışmıram. Olanı deyirəm.

**Məkirli:** A bala, bu toplanışda ondan söhbət getmir. Mən nə qədər fırladıram, sən söhbəti başa düşmürsən. Seçkidən danış, seçkidən!

*Pauza*

**Xosuzadə:** Məkirli, biz həmyaşıdıq. İki qozu atmısız bir dağara, dımbıldada-dımbıldada düşmüsüz ortaya. Hərəyə bir cürə dil verib danışdırırsız. Bu yığıncaqda dəli yadına daş salırsız. Adamları qəsdən əsas məsələdən uzaqlaşdırırsız. Biz bunu nə sən yalaq Məkirliyə, nə fitnə-fəsadlar törədicisi iblis Ətayəyə, nə də vəzifə hərisi, kəmfürsət Əficana güzəştə gedəcəyik. Mən öz adımdan deyirəm: mübarizə başlandı. Ayə, Əfican, bu xanımları fitvalayıb bizim üstümüzə niyə salmısan? Bu zavallıları tovlayıb hərəsini bir dərədən gətirmisiz.Deyirsiz: "Sizi alim eləyəcök". Səfeh düşüncələrlə onla-





rın ailələrini dağıtmayın. Uşaqlarını yetim qoymayın. Axı, onlar da bizim xalqın övladlarıdı.

**Məkirli:** Sən düz demirsən, professor. Qazanı Mirfırıldaqov qaynatdı. Adamları içindən o, oynatdı.

**Xosuzadə:** Özün yalan danışırsan. Bu çənəgirlər, şantajçılar sənin ovcundadırlar. Şəxsən professor Mirfırıldaqov abırlı adamdı, o, sənin kimi axmaq deyil.

**Ətayə** *(yerdən)***:** Görün, kimlərin üzlərini sığallayır.

**Xosuzadə:** Ləyaqətli adamların səhvi ləyaqətdən doğar. Elə başa düşməyin ki, biz yatmışıq, heç bir şeydən xəbərimiz yoxdu. Gedib-gələn nəfəsinizə də bələdik. Ancaq abırımıza, həyamıza qapanıb dinib, danışmırıq. Mirfırıldaqov öz haqqını, hüququnu tələb eləyir. Sizsə, onun sözünü dağa-daşa yozursuz. Məkirliylə Əfican, mənim sözüm sizədi. Qaragüruhları başınıza yığıb camaatı nüfuzdan salmağa çalışmayın. Əl çəkin nadanlığınızdan. Qurtarın hoqqabazlıqdan. Atalar deyib: "Quyunu qazanda gen qaz"... "Ağacın iki başı var"...

*Pauza*

**Məkirli:** Bizə dərs verincə, özünüzə nəzər salsaz, yaxşı olar.

**Əfican:** Bizə az hədə gəlin, professor Xosuzadə. Biz də bu zirvəyə elə belə gəlib çıxmamışıq. Yaxşını pisdən ayıra bilirik. Bizimlə stəkan stəkana vurursuz, sonra da gedib arxada ayağımızın altını qazırsız. Bizə xəyanət eləyirsiz. Banda yaradırsız. Bəlkə bunu da boynunuzdan atasız?

*Pauza*

**Xosuzadə:** Əvvəla, yalan danışma, nə mən, nə də Mirfırıldaqov sizinlə stəkan-stəkana vuran adamlarıq. İkincisi də ittifaqı Ətayəylə sən yaratmısan. Məkirli də gün axşamacan zurna çalır. Bu hərəkətləriniz bizə qarşı təxribatdı. Görək, bu təxribat nəylə qurtaracaq?

**Gülüş:** Sizin faciənizlə.

*Meydulla ayağa qalxır. Səbr və təmkinlə.*

**Meydulla:** Mən görürəm bura çəkişmə, intiriqa yuvasına çevrilib. Burda anarxiya hökm sürür. İki cəbhə qarşı-qarşıya dayanıb. Xanımlar professor Mirfırıldaqov və professor Xosuzadəni şorgöz adlandıraraq onlarla birlikdə işləmək istəmədiklərini iddia eləyirlər. Bu ağır ittihamdı.

**Qızbacı** *(yerdən)*: Kişi şorgöz olar...

*Hamı gülüşür.*

**Meydulla:** Olar... Ancaq həddində... Qaldı bu profesasorların sizinlə birlikdə işləməsinə. Bu elə belə iş döör. Gedək, yaxşı-yaxşı fikirləşək.

*Meydulla kağız-kuğuzunu götürüb gedir. Adamlar da onun ardınca zaldan çıxırlar*

## V şəkil

*Əficanın evi. Əfican divanda uzanır. Arvadı Həlimə stulda əyləşərək jurnalı vərəqləyir. Sonra jurnalı kənara qoyur. Ərinə tərəf donur.*

**Həlimə:** Əfican, bu dünyada fərli gün görmədik, ömür də getdi.

**Əfican:** Hə, lap özümüzü assaq da, milyonlarımız olsa da, gedən ömrün qarşısını alammarıq.

*Pauza*

**Həlimə:** Həyat həm amansız, həm də çox qəribədi... Uşaqlıqda bir cürəydik, cavanlıqda başqa cürə. İndi də belə... İçimiz də dəyişib, çölümüz də.

**Əfican:** Həyatın fəlsəfəsi budu.

**Həlimə:** Fəlsəfə-zad bilmirəm, şəkər, ürək çatışmazlığı bezdirdi məni. Hələ xırda-xuruş xəstəliklərimi demirəm.





**Əfican:** Beynində çox gəzdirirsən, neçə dəfə o barədə fikirləşmə demişəm sənə.

**Həlimə:** Sənin gubbuldatdıqların sözdü, Əfican. Ağrılar-acılarsa, mənim canımdadı. Beyin candan ayrı döör ki?.. Nəvələri yerbəyer eləyə bilsəydik...

*Əfican divandan qalxır. Pəncərəyə yaxınlaşır. Sonra arvadına tərəf dönür.*

**Əfican:** Dərdli deyingən olar, dərdsiz güləyən. Hər şeyi özünə yük eləyənsən. Balam, nəvələrin ata-anası yoxdu? Bu yaşda nəvə qəhri çəkməliyik? Biz necə böyüdük, necə ev-eşik qurduq, xəbəri olan vardımı?... Bəsdi sən atanın goru, imkan ver, heç olmasa, bundan sonra...

**Həlimə:** Nə?

**Əfican:** Yaşayaq.

**Həlimə:** Uşaqlarsız nə yaşam?

**Əfican:** Qudaların da sənin kimi düşünürlərmi? Yox... Nəvələr xəstələnəndə də bir şeyi bəhanə eləyib çıxırlar aradan. Telefon açıb hal-əhval da tutmurlar...

**Həlimə:** Sənə də söz deməyə məəttələm. Öyrəncəlisən zəhərini tökməyə... O gün də uşaqlar səndən gileylənirdilər.

**Əfican** *(kinayəli gülümsünərək)*: Gözüm aydın... Qədirbilməzlərin peşəsi gileylənməkdi. Nə qədər ömrüm qalıb? Giley-güzarsız yaşayammırıq...

**Həlimə:** İşdə adamlarla necə yola gedirsən?

*Əficanın rəngi bozarır*

**Əfican:** Yüz dəfə sənə demişəm işlərimə qarışma?

*Pauza*

**Həlimə:** Çox şeyi üzünə vurmuram Əfican, elə bilirsən, qulaq-

larım kar, gözlərim kordu? Kabinetinə çatan kimi, Ətayəni salırsan çənənin altına. Hələ Katyanı demirəm... Sənin üçün ağ-qara, fərqi yoxdu... Hər rəngin var...

**Əfican:** İndi də Ətayəyə yaxası oldun məni? Bizim nəsildə arvaddan yarıyan olmayıb. Başıma haranın daşın salım?.. Bu yaşda nə iş gördüyümü bilmirəm?

**Həlimə:** Görürəm... Dəlilik zirvəsinə qalxmısan.

*Əfican Həliməyə çəpəki baxır. Əsəbi halda stolun üstündən jurnalı götürür və dərhal da stola çırpır.*

**Əfican:** Dünən qızın Rüsalə niyə gəlmişdi mənim iş yerimə? Ana olub ondan soruşdunmu? Günəşin nə günahı vardı ki, Rüsalə onu abırdan, ismətdən saldı? Mənim nüfuzumu ayaqları altına atdı? Günəşin saçlarını əlinə dolayıb dəhliz aşağı yuxarı sürüdü? Bezmişəm əlinizdən.

**Həlimə:** Niyə?

**Əfican:** Qohum-əqraba dərdi çək. Quda dərdi çək. Qayın-baldız dərdi çək... Əcəb mehtərəm...

**Həlimə:** Hamısın özün eləmisən.

**Əfican:** Nəyi eləmişəm?.. Gündə bir yaramazdan söz eşidib günümü qara eləmisiz. Mən bir loxma üçün evdəkilərlə vuruşum, yoxsa işdəkilərlə qanlı bıçaq davasına çıxım? Günüm qaradı. Qurama söz eşidən kimi qızın da, özün də dəli olub gedirsiz mənim iş yerimdə qoçuluq eləməyə... Ayıbdı.

**Həlimə:** Ayə, səsini atma başına. Səni "çik" eləyib yumurtadan çıxandan tanıyıram. Əlimdə böyüyən köşəkən, dalına nağara çalınmayan vaxtın olub? Nə tez unutdun oğurluq üstə kəşfiyyatdan qovulmanı, əyyaşlığın, dələduzluğun barəndə qəzetlərdə yazılan felyetonları, arvadbazlığına görə televiziyada çalınan zurnaları?

*Pauza*

Atama lənət, yalan deyirəmsə, sənin başın xarabdı... Öyrənmiş





şey tövbə tanımır. Özümə söz vermişəm, yığışmasan, bu dəfə özüm gələcəm o xarabaya, nə fıstırıq qopacaq, onu gözlərinlə görəcəksən. Utanmaz-utanmaz dilin də var, deyirsən ki, qız gedib Günəşi döyüb. Gərək öldürəydi. Özü də tək onu yox, elə səni də.

**Əfican** *(əsəbiləşərək)***:** Evdə də, çöldə də böhtandan, iftiradan qurtarammıram. Mən oğurluq, əyyaşlıq eləyirəm. Televiziya, qəzetlər barədə çıxarılan məhkəmə qərarlarını oxumadın? Böhtana görə cəzalandırılanlardan xəbərsizsən? Bərəkallah sənə, a belə arvad. Deyəsən böhtana daha özünlə qızın keçmisiz. Atalar yaxşı deyib: "Ana tökəni, qız yığar", "Anası çıxan ağacı, qızı budaq-budaq gəzər" *(Səsini qaldıraraq).* Atana lənət, a məni qınayan, bu yaşda kişi arvaddan boşanar?

**Həlimə:** Ağzı başına danışma. Sən məni boşayammazsan, Əfican. İstəsəm, sənin dalından özüm dəyərəm... Bir də ki sənə xoruz səsi eşitməmiş elə atalar sözləri deyərəm, özün də məətəl qalarsan. Qızın adın tutma. Nə olsun ki, əlacı kəsilib o, sənə — "Ata" — deyir.

*Pauza*

**Əfican:** Təzə xəbər. Yəni Rüsalənin atası mən döörəm, Həlimə?

**Həlimə:** Sənə bir toy tutaram, ölənlərin də dirilib gələ ha, dadı damağından getməz.

**Əfican:** Kül başına, ay Əfican, qocalıq nə axmaq şeymiş, arvad da sözə baxmır. Bu yaşda qısqanclığa bax.

**Həlimə:** Zir-zibil eşələmə. Bir halda ki, mənimlə yaşamağına peşmansan, şalvarını götür, evdən çıx.

**Əfican:** Gedəndə arxeyin ol, şalvarımı yaddan çıxarmayacam.

*Qapı açılır. Söhbət kəsilir. Rüsalə əri Sərrafla otağa daxil olurlar. Həliməylə Əficanın əsəbiliyi dərhal kürəkənlə qıza sirayət eləyir. Ağızucu salamlaşırlar. Rusaləylə Sərraf stulda əyləşirlər*

**Həlimə** *(Əficana)***:** Bayaqdan gözümü çıxarırdın. Nə sözün var,

de üzlərinə.

**Rüsalə:** Nə olub, ana?

**Sərraf** *(Üzünü qayınatasına tutaraq)***:** Rüsalə barədə qeybəti şəxsən mən - Sərraf Savalan oğlu sizə qadağan eləyirəm.

**Rüsalə** *(ərinə)***:** Əşi, sən saxla. Cırtqozluq eləmə... *(Üzünü anasına tutaraq)* Yoxsa Günəşlə davamızı deyir?

**Həlimə:** Bə nədi?

**Rüsalə:** Atam sevinsin ki, onu da Günəşə qatmadım. Qızım Ququşun canıyçın qeybətimi qıracağını bilsəydim...

**Əfican:** Sağ ol, Həlimə.

**Həlimə:** Mən niyə?

**Əfican:** Doğduğun bundan artıq olmaz ki.

**Sərraf** *(Əficana)***:** Axırıncı xəbərdarlıq. Rüsaləyə rəğmən danışmağı sizə qadağan eləyirəm.

**Əfican:** Sərraf, sənə üç sualım var.

**Sərraf:** Buyurun. İki ali məktəb qurtarmışam. Suallarına doğru-dürüst cavab verəcəm.

*Pauza*

**Əfican:** Neçə ildi bizə urcah olduğun? Neçə uşağın var? Rüsalə və özün bircə gün işləmisizmi?

**Sərraf** *(Əficanın sualı hansı məqsədlə verdiyini anlayaraq)***:** Ayə, yekə kişisən. Adına layiq sual ver. Mən də baş işlədim. Onlar nə suallardı?

**Həlimə:** A kişi, dayan, dayan mən cavab verim. Urcah olduğu on altı ildi. Üç uşaqları var. Heç vaxt da işləməyiblər. Sənin qazancından bir qaşıq da onlar yeyiblər. Qiyamət qopub? Kişi elədiyini başa qaxmaz.

**Sərraf:** Əlbəttə, kişi!

**Rüsalə** *(atasına)***:** Nə danışdığını bilirsən, ata? Birdən mən qız yox, oğlan doğulsaydım, Sərrafı da alıb mənə gəlin gətirəydin. Onda bu sualları gəlin Sərrafa da verəcəkdin? Mən xəcalət çəkirəm, ata, sənin dediklərinə. Heç səndən gözləməzdim. Gəlin, ya kürəkən. Nə fərqi var?





**Sərraf:** Gör, nəyi müzakirə eləyirik, Allah? Öl ay Sərraf, öl. Gör nə günə qalmısan.... *(Başını bulayır)* Etiraz eləmirəm, bu qızın, o da sən. Götür, saxla, *(ayağa qalxaraq)* mən getdim.

**Həlimə:** Ayə, otur yerində, bala, hələ ölməmişəm mən, sən acıq eləyib bu xarabadan gedəsən.

**Rüsalə:** Xəcalət!... Böyük Xəcalət!.. Ata!

**Əfican:** Vay... Vay... Vay... Öl yerə gir Əfican Meraclı!.. Arvad səni nə günə salıb?

*Pauza*

**Rüsalə:** Çölün azar-bezarını gətirib üstümüzə tökmə, kişi. Məni əsəbləşdirmə. Nə qədər ömrüm var, canın üçün, sənə ata deməṛəm. Üz döndərməyim səndən, döndərdim ha... Yıxılıb ölsən, qəbrin üstə də ayaq basmaram. Bax, bu Sərrafın canıyçün onu da qoymaram.

**Sərraf:** Sən olmayan yerdə mən nə qələt elərəm. Onda qalmış da qəbirüstü ola.

**Həlimə:** Sizi qınamıram, bala, adam canından bezəndə nə desən eləyər...

**Rüsalə:** O nə söz-söhbətdi? İşdə hamı səni məsxərəyə qoyur, lağ eləyir.

**Əfican:** Kişinin çuxası yatdı, ölsə ondan yaxşıdı... Qalsa, arvad gündə ona bir şəbədə qoşar. Onun da arsız-qırsız içi ağlar, üzü hırıldar.

**Rüsalə:** Söhbət gəzir ki, Ətayəylə hər gün oturub diz-dizə, verirsiz burun-buruna, dirəşirsiz çənə-çənəyə, nəsə hazırlayırsız? Qadınlardan ibarət gah "İctimaiyyatla əlaqə qrupu", gah “Şəxsi mühafizə bölməsi”, gah da “Kəşfiyyat dəstəsi” yaradırsız. Xeyir ola, əməliyyat keçirməyə kişilər yaramadı?

**Əfican:** Bu da təzə hoqqadı?

**Sərraf:** Əsas hoqqadı. Təzə, ya köhnə olsun... Hoqqaya təzə-köhnəliyin nə dəxli?

**Əfican:** Ətayə ağıllı qadındı.

**Rüsalə:** Gizlində hörə edənin aşkara doğuşu olar.

**Əfican:** Onun elmi dərəcəsi yoxdu.

**Həlimə:** Ağlı ki, var.

**Əfican:** Ağılla yanaşı elmi dərəcə də olmalıdı *(Sinəsini qabardaraq)*. Onun ikisi bir yerdə hər adamda olmur.

**Həlimə:** Kişiləşmə. Sənin nəyə qadirliyini... *(Astadan)*. Yumşaq yorğan-döşəkdə yatıb-qalxammayan kişidən nə umasan?

**Sərraf** *(təəccüblə)*: Toçnı?

**Həlimə:** Toçnı... Mən havaya güllə atmıram.

*Pauza*

**Əfican:** Ev buzovundan öküz olmaz.

**Sərraf:** Hi... hi... hi... Bizim pipikli xoruz kimi.

**Rüsalə** *(ərinə)*: Öl yerində. Yüz dəfə demişəm: barmağımı oynatmasam hırıldama. İşarə verməsəm, danışma... Kimə deyirsən?.. Yenə şit-şit...

**Sərraf:** Oldu cana.

**Həlimə** *(üzünü ərinə tutaraq əsəbi halda)*: Bir əlcə uşaqdı. Gözünə su ver. Öyrən, arvadla necə danışarlar... Vərdişkarsan, üstümə hörüldəməyə...

**Əfican** *(öz-özünə)*: Paz! Özü də necəsi? İşdəki pazdan qurtarmamış evdəki paza... Vay... Vay... Allah düşmənimə də qismət eləməsin.

**Sərraf:** "Paz" sözün yığışdır, qayınata. "Paz" sözünü eşidəndə vicvicəm tutur. Onu Allah düşmənimə də qismət eləməsin.

**Əfican** *(başını yelləyərək)*: Bir tərəfdən ürəyim, o biri tərəfdən də arvadım məni kişilikdən saldı.

**Həlimə:** Kişilikdən danışma. Onu adama şiprislə yeritmirlər ki...

**Sərraf:** Kişilik ölməkdənsə, qaynata, adamın özü...

*Telefon zəng çalır. Dəstəyi Əfican götürür.*





**Katya:** Salam, Əfican.

**Əfican:** Salam, eşidirəm.

**Katya:** Təcili gəlin... Yuxarıdan...

**Əfican:** Bu saat... Gözləsinlər.

*Əfican Meraclı getməyə hazırlaşır.*

**Həlimə:** Gedir mırt vurmağa... Sənin kimi kişidənsə...

**Rüsalə:** Bu dəfə ora getsəm... Tozanaq göyə qalxacaq...

**Sərraf:** Özü də nə tozanaq... Ha... ha... ha...

*Əfican qapıdan çıxır. Qalanlar yan otağa keçirlər. İşıq sönür.*

## VI şəkil

*Əfican kabinetində əyləşərək. Telefonla danışır. Əsəbidir. O, handan-hana dəstəyi yerinə qoyur. Qapı açılır. Başında şiş papağı olan kişi içəri daxil olur. Salam verir. Əfican salamı başıyla alır*

**Kişi:** Gəlmək olar?

*Pauza*

**Əfican:** Gəlmisən də. Tez elə, sözünü de, indi yuxarıdan gəlirlər, tədbirimiz var.

**Kişi:** Mən Həci xanım Güləndamın əriyəm… O, təzəliynən sizə işə gəlib. Özüm də iki tin aşağıdakı məscidin axundu Məmməd Hüseynin köməkçisiyəm.

**Əfican:** Çox yaxşı.

**Kişi:** Bu səhər telefon zənginə oyandım. Qorxdum, elə bildim, nəsə qohum-əqrəbamdan bəd xəbər var. Əslində bəd xəbər oldu. Tez dəstəyi götürdüm. Bizim telefon paralel olduğundan xanımım Həci Güləndam da yan otaqdan dəstəyi götürüb bir qadınla danışır-

dı. Qulaq verdim. Anladım ki, danışan sizdə işləyən Ətayədi.

**Əfican:** Xanım xanımla danışar da. Burda nə əcaib iş var?

**Kişi:** Əcaibi odu ki, Ətayə tez-tez "Desant", "Batalyon" sözləri-ni işlədirdi. — Səni desant atacam — deyirdi. Doğrusu, nə atacağını bilmədim. Gəldim öyrənim ki, onlar nə mənə şeylərdi? Qardaş, Ətayə mənim xanımımın başını yeyib. Mənim bir kapal balam var. Hələ xeyir işlərin görməmişəm. Belə getsə, xanım mənim başıma daş salacaq. Ailəmi pərən-pərən eləyəcək.

*Pauza*

**Əfican:** Mən hardan bilim Həci xanım Güləndamla Ətayə nə-dən danışırlarmış? Bəlkə "desant", "batalyon" sözləri paroldu? Arvad işindən şeytan da baş açmaz. Özün də deyirsən, sən axundun köməkçisisən. Belə şeyləri gərək sən məndən yaxşı biləsən.

**Kişi:** Arvadımı anlasaydım, bura niyə gəlirdim ki?

**Əfican:** Sənin arvadını mən anlamalıyam?

*Qapı açılır. Ətayə kabinetə daxil olur.*

**Əfican:** Adın sən çək, qulağın bur. Ətayə xanım, söhbətin üstü-nə özün gəlib çıxdın.

**Ətayə** *(gülümsünərək)***:** Nə söhbətdi o?

**Kişi:** Bu səhər tülkü qığ atmamış Həci xanım Güləndamın başı-nı nə xarab eləyirdin?

**Ətayə** *(Sifətini bozardaraq)***:** Həci xanım Güləndamın başı var-dı ki, onu da mən xarab eləyəydim?

**Kişi:** O mənim xanımımdı. Sənə ixtiyar vermirəm, onun barə-sində elə bədgüman danışmağa. Bu gün batalyona cəlb eləyərsən, sabah desant atarsan. O biri günü də ondan kamukadze qayırarsan... Salarsan ərəb arvadlarının gününə.

*Pauza*

**Əfican:** Astadan… Eşidib atamızı yandırarlar.

**Ətayə** *(Üzünü kişiyə tutaraq)***:** Eşitdiyimə görə məscidin axund köməkçisisən… Yığışıb Hacı pivəsindən içir, addım başı xanımla-rın hüquqlarının pozulmasına fitva verirsiz… Utanmaz-utanmaz diliniz də var danışmağa?..

**Kişi:** Xanım, Həci Güləndamın sahibi mənəm, yoxsa sən? Belə getsə, sən onları…

**Ətayə:** Mən onları nə?

**Kişi:** Pozacaqsan.

*Pauza*

**Əfican:** Yox… Olmadı, əşi, elə danışma… Sən Ətayəni tanı-mırsan.

**Kişi:** Əşi, necə tanımıram? Buna ilişəndən elə bil arvada gicit-kan sürtüblər... Dəli olub. Məni eşitmir ki, eşitmir. Gündə mənə genderdən-nədən danışır, qanun-manun kaçattlayır.

**Ətayə:** Hələ harasıdı? Bu günlərdə arvadların ərlərinə hücumu başlanacaq. Onda baxarsan işinə.

**Əfican** *(çəkinərək)***:** Vay!.. Vay!.. Səni xaraba qalasan, gender qayıran dünya…

**Kişi** *(matı-qutu qurumuş halda Ətayənin üzünə baxır)***:** Xanım, bu dünya, bu da sən. Neylərsən, özün bilərsən. Mənim arvadımla qurtar. Mən sözümü deyib gedirəm.

*Kişi gedir. Əfican kişinin arxasınca baxır.*

**Ətayə:** Sənin kimi kişinin başını dağlayım… *(üzünü Əficana tu-taraq)* Elə bilirsən asandı, xanımlardan desant hazırlamaq?

*Meydulla gəlir. Ətayə otaqdan çıxır. Meydulla Əficana əl verib görüşür.*

**Meydulla:** Vaxtımız azdı. Tez gedəcəm. İşçiləri zala toplayın, onlarla söhbət eləyək.

*Səhnənin ön hissəsinin işığı qaralır. Arxa hissə yavaş-yavaş*

*işıqlanır. Adamlar zala toplaşıblar. Meydullayla Əfican gəlirlər. Salam verib stulda əyləşirlər. Meydulla ayağa qalxır.*

**Əfican:** Cənab Meydulla Meydullayevi eşidək. O, mühüm iş üçün gəlib.

**Meydulla:** Biz keçən toplanışda məsələni müzakirə elədik. Güman elədim ki, müzakirədən nəticə çıxararsız. Təəssüf. Çox təəssüf… Şikayətlər yuxarı daha çox axışmağa başladı. Özü də necə? Meşok-meşok. Təəccüblüdür ki, məktublarda qorxunc, təhlükəli hadisələrdən də söhbət açılır. Axşam Avropa Şurası da bu barədə bəyanat yayıb.

**Mirfırıldaqov:** Şəxsən mən şikayət eləməmişəm.

**Bəyazxanım:** Bizi dəli eləməyin. Meydulla bəy, nə varsa, bir dəfəlik, yerli-yataqlı açıb danışın. Aramızda xəstələr, ikicanlılar var.

*Hamı gülüşür. Bəyazxanım qalxdığı stulda oturur*

**Meydulla** *(şikayət məktubundan seçmələr oxuyur)***:** Birincisi, məsələyə vaxtında aydınlıq gətirilməsə, təşkilat daxilində yaranan intiriqabaz qruplar vay-şivən qaldıracaq, qan tökməkdən çəkinməyəcəklər... İkincisi, təşkilatda yaradılan "Xanım desant batalyonu" öz həddini aşır. Qətl təhlükəsi yaranıb. Terror ola bilər.

*Pauza*

Tezliklə qarşısı alınmasa, məsuliyyət yuxarı təşkilatların üzərində qalacaq. Üçüncüsü, Ətayənin rəhbərliyi altında kamikadzelər yetişdirilir. Dördüncüsü, burda "Qadınların kişilərə qarşı hücum əməliyyatı"na ciddi hazırlıq gedir. Şübhə yoxdur ki, silah-sursat alınıb. Bu işə siyasi-ideoloji rəhbərliyi Əfican, komandirliyi Ətayə edir. Müavinlə elmi katib ara qızışdıranlardı. Başqa sözlə, ələkçinin qıl verənidilər...

*Pauza*

Bunlar nə deməkdi? Beynəlxalq aləm, buna çox kəskin reaksiya





verib? Xahiş eləyirəm, bu məsələlərə aydınlıq gətirəsiz.

**Qızbacı** *(yerdən)***:** Nə? Dədəm vay!...

**Zülüş:** Biz fil qulağında yatmışıq…

**Gülüş:** Vay!.. Vay!.. Atana lənət ocaq qalayan. Canımıza od salan.

**Alaqafanlı:** Bəli! Bəli! Elədi!

**Əfican:** Bu, özünübiabırçılıqdı. Özü-özünü yemədi. İftiranın da, böhtanının da həddi var.

*Adamlar çiyinlərini çəkib təəccüblə bir-birilərinin üzünə baxırlar.*

**Qızbacı:** Meydulla bəy, yazılanların hamısı şişirtmədi. Bəyəm, idarə və təşkilatlarda, küçələrdə, ailələrdə hər gün vay-şivən, dava-dalaş düşmür? Adamlar saç yolduya çıxmırlar? Qanlar axıdılmır? Əşi, qurtarın bulanıq söz-söhbəti. Alaqafanlını öyrədiblər.

*Pauza*

**Alaqafanlı:** "Xanım desant batalyonu"nu kimin nə məqsədlə yaratdığını bilmirsiz? Xanımların kişilərə hücumu, kamikadzeliyin hardan, kimlərdən qaynaqlandığından xəbərsizsiz? Ayıbdı... İstərdim ideoloqlar qabağa çıxsınlar, səhvlərini etiraf eləsinlər.

**Bəyazxanım:** Alaqafanlının dilini yeyim. O hər şeyi düz danışır. Onun dilinə yalan gəlmir... Yaxşı olar, təşkilat barədə komandirin özü Ətayə danışsın. Dalda tullanıb-düşməyə nə var ki. Kişi qızı ona deyərəm, elədiklərini boynuna alsın. İnanıram, o mərd qadındı, alacaq da...

**Ətayə:** Meydulla bəy! Bunların hamısının başı xarabdı. İçi boş qoz görmüsən?

**Meydulla:** Bəli! Nə olub ki?

**Ətayə:** Bunlarınkı ondandı.

**Meydulla:** Sübut lazımdı, xanım, sübut!..

**Ətayə:** Xanım mənim öz adımdı. Uşaqlıqda ana nənəm məni o

adla çağırardı *(Pıçapıç düşür)*.

**Meydulla:** Sakit!

**Ətayə:** Sonralar anam öldü. Ögey anam adımı dəyişdi, qoydu Ətayə. Mən bura işə gəldim. Ermənilərlə müharibə başlandı. Gördüm, döyüşdə uduzuruq, torpaqlar əldən gedir. İstədim, "Milli desant batalyonu" yaradıb ermənilərin arxasına ataq. Düşmənə divan tutaq. Ona da Əfican imkan vermədi. Biz də qaxılıb oturduq yerimizdə. Namussuz kişidən qeyrətli xanım yaxşıdı. Bizim kişilər davadan qorxdular, hətta, oğlanlarını fərari elədilər. Hansı yaxşıdı, siz kişilər? Yoxsa bizim kimi fədai və mübariz olmaq istəyən vətənpərvər xanımlar? Sizin kimi ar-namusunu arxasına atıb gizlənmək, yoxsa bizim kimi fədakar fəaliyyətə atılmaq?! Bax, bu təşkilatı o vaxt mən yaratdım. Əfican, təəssüf ki, iflasa uğratdı!..

**Alaqafanlı:** Yalandı… O təşkilat demokratik fikirli, ipə-sapa yatmayan kişiləri aradan götürmək məqsədiylə yaradılıb. Təzəliycən öyrənmişəm ki, batalyonun nümayəndələri bütün şöbə və bölmələrdə var və əməlli başlı iş aparırlar. Ətayənin də iki başlı, siyasi danışığı Əficanı müdafiə məqsədi güdür.

**Meydulla:** Keçək kamukadze məsələsinə.

*Pauza*

**Güləndam:** Ciyəri yansın ərimin. Sözü baş-ayaq anlayıb. Ətayənin "kompramis" sözünü "kamikadze" kimi qanıb, dərhal da tumanın atıb başına. Nə deyəsən, köməkçisidi də. Durub şalvarın çəkə-çəkə gəlib bura. Mollada ağıl olar? Orda, cənablar, qorxulu bir şey yoxdu.

**Meydulla:** Bəs xanımların kişilərə hücumuna nə deyirsiz?

**Güləndam:** Hi… hi… hi… Ağ eləməyin də, cənab Meydulla. Həmişə kişilər xanımlara hücum çəkir. Qiyamət qopar, bir dəfə də… hi… hi… hi…

*Əvvəl hamı gülüşür, birdən araya sakitlik çökür.*





**Meydulla:** "Siyasi-ideoloji rəhbər Əfican" ifadəsinə necə baxırsız?

**Güləndam:** Cənab Meydulla, siz ona ifadə kimi baxırsız, mən rəhbər kimi. Aramızda elə adamlar tapmaq olar ki, ona lap kişi kimi baxsınlar. Bunun nəyi pisdi ki?

**Meydulla:** Xanım, sən nə demək istədiyini mən anlamıram. Yaxşı olardı ki, fikrini bir qədər də açıqlayasan.

**Əfican:** Məni müzakirə obyektinə çevirməyin.

*Pauza*

**Xosuzadə:** A kişilər, bayaqdan hamını dinləyirəm. Məni dəhşət bürüyür. Məntiqim məni aldatmırsa, söhbətdən belə çıxır ki, Ətayə Əficanı müdafiə üçün gizlincə "Xanım Desant Batalyonu" yaradıbmış. Bu batalyonun üzvləri də təqribən əməkdaşların otuz faizi olub. Bu da seçkilərdə Əficanın qalibiyyət bayrağı qaldırmasını təmin eləyib.

**Meydulla:** Bəli! Şükür olsun Xudaya ki, bayaqdan çaldığım zurnanın səsi sənə hələ indi çatır!

**Mirfırıldaqov:** Əgər həqiqətən də elədisə, mən Ətayəni əzəcəm.

**Əfican:** Bacarmazsan.

**Güləndam** *(üzünü Xosuzadəylə Mirfırıldaqova tutaraq)*: Ətayənin ayağı bilənləri sizin başınız bilmir. Hap-gop eləməyin.

**Meydulla:** Güman eləyirəm ki, hər şey aydındı. Doğrayıb-tökməyə ehtiyac yoxdu. Belə vəziyyətdə bu təşkilatdan normal məhsul gözləmək olarmı? Təşkilat datasiyayla işləyəcək.

**Güləndam:** Datasiya nədi?

**Ətayə:** O da Meydullanın kəşfidi. Bəsdirin!.. Öyrəncəlisiz qatıb qarışdırmağa.

**Xosuzadə:** Seçkinin nəticələri ləğv olunsun.

**Mirfırıldaqov:** Fırıldaq seçkinin nəticələri kimə lazımdı?

**Ətayə:** Professorlar, üzümü sizə tuturam. Siz, əvvəla, seçkinin nəticələrinin fırıldaq və qeyri-legitim olduğunu sübut eləyin. İkin-

cisi də, təkrar-təkrar seçki keçsə, yenə də qalib Əfican olacaq. Cənab Meydulla, idarədə intiriqa yaradıb qan salmayın. Xatırladıram, ola bilər, sən də qana boyanasan, ağzıma daşlar, bu iclasdan heç salamat çıxmayasan. Mənə elə gəlir ki, işdən çıxarılası adamlar professor Mirfırıldaqov və professor Xosuzadədir. Ay camaat, bu kişilərin ad-familiyalarına fikir verin. Mirfırıldaqov, Xosuzadə. Eşidəndə adam ət tökür. Hi… hi… hi… Namusu, qeyrəti olanlar belə əcaib adlar altında yaşayarlarmı? Cənab Meydulla, biz direktorumuzu seçmişik, ona hamı səs verib, o, legitimdi. Qarşıdakı beş il müddətinə rəhbərimiz Əfican olacaq. Səni bura kim fitvalayıb göndərib bilmirəm. Dur, özün də vızqırt...

*“Xanım desant batalyonu”nun üzvləri ayağa qalxırlar. Səs-küy qopur. Hamı bir ağızdan.*

"Rədd olsun Mirfırıldaqov və Xosuzadə cütlüyü! "Vızqırtsın fitnəkar Meydulla! "Yaşasın rəhbərimiz Əfican"!..

*Elə bu vaxt Katya zala girir. Meydullaya məktub verir. O, məktubu oxuyur.*

**Meydulla:** Siz saxlayın. Kollegiya məsələni müzakirə edərək qərara alır: Yarıtmaz işinə görə Əfican, təhlükə yaratdıqları üçün Ətayə, başda olmaqla “Xanımın Desant Batalyonu”un üzvləri təşkilatdan uzaqlaşdırılsınlar. İntiriqabaz Mirfırıldaqov və hap-gopçu Xosuzadə fərdi təqaüdə göndərilsinlər. Direktor səlahiyyəti seçkiyə qədər gənc alim Elvüsal Qasımoğluna həvalə olunsun.

*Alqış səsləri zalı bürüyür. Meydulla zaldan çıxır. Qrup üzvləri və Ətayəylə Əfican da onların ardınca çıxırlar. İşıq sönür.*

***2011***





# Qızıl əllər

***(iki hissəli, altı şəkilli pyes)***

**İştirak edirlər:**

**Riyad** — baş həkim, kardioloq, tibb elmləri üzrə fəlsəfə doktoru, 40 yaşında
**Professor** — kardioloq- cərrah, 60-62 yaşlarında
**Könül** — həkim-cərrah, 30 yaşında
**Şərqiyyə** — tibb bacısı, 26 yaşında
**Tərlan** — iş adamı, xəstə, 30 yaşında
**Rəvanə** — Tərlanın anası, evdar qadın, 58 yaşında
**Səfər** — kardioloq, 45 yaşında
**Şirzad** — endekrinoloq

# I hissə
# I şəkil

*Kardiologiya xəstəxanası. Baş həkim Riyad xəstənin sənədlərinə baxır. Qeydlər götürür. Həkim Səfər otağa daxil olur. Stulda əyləşir. Əsəbi görünür. Riyad həmkarının əsəbiliyini hiss eləyir. Ancaq üzə vurmur. Səfər mızıldanır.*

**Səfər:** Hardan gəldi bu qız? O, gələn günə daş düşəydi. Bütün günü hara gedirsən, nə iş görürsən qanqaralığı *(başını yelləyərək)* olur. Bir yel əsəydi, kimin nəyi var, əynindən qopaydı. Hamı olaydı lüt-üryan. Ya da sur düdüyü çalınaydı, bir candı, hamı verib rədd olaydı. Yığdıqları da bu dünyada qalaydı. Düşəydik hamımız quş həddinə...

*Riyadı gülmək tutur. Səfər mənalı-mənalı ona baxır.*

**Riyad:** Bu dediklərinin hamısı mənə aiddi? Hiss eləyirəm, son vaxtlar məni görəndə çox əsəbiləşirsən. Utanma, Səfər. İçində nə azarın var, saxlama, aç, tök.

**Səfər:** Yox... Nədi o qızcığazın adı? Dünən gəlib ey, adı dilağıza sığmayan... Pay atonnan, adı da çıxdı yadımdan. Başım xarab olub.

**Riyad:** Hə... Könülümü deyirsən? İnanmıram, onun adını sən unudasan. Ancaq başının xarablığına yavaş-yavaş mən də inanıram.

**Səfər:** Hə... Bə kimi deyəcəm. Allah zavaldı, göndərib... Yediyimizə zəhər qatır, yuxumuzu ərşə çəkir. Qaldı başı xarablığına. Qardaş, ona bais sizsiz.





*Şərqiyyə gəlir. Əlindəki bir neçə dərman şüşəsini şkafa qoyur. Sonra da keçib dəftərçədə qeydlər aparır.*

**Riyad:** Yox, ora-bura çəkib, məni dağa-daşa salma, Səfər. Vallah səninki dava-davadı. Ağlını başına yığ, qurtar söz-söhbəti. Qaldı o qıza. Onun az qeybətini qır... Yadında saxla, onu bu klinikadan qaçırmağa, sənə imkan vermərik, qoy işləsin, xəstələrin dərdinə çarə eləsin.

**Şərqiyyə:** Səfər öyrəncəlidi dul arvadlar kimi deyingənliyə. Ağzından gündə bir avaz gəlir.

**Səfər** *(Şərqiyyəyə)*: O nə danışıqdı, az, nə utanan üzün var, nə də qızaran gözün... Sən kimsən, mənə o sözləri deyəsən. *(Riyada)* Bunlar sizə güvənməsə... Sizin yüz dolanışıq yeriniz var, ona görə də səsiniz çıxmır. Mən cibi boşluqdan, üzü qaralıqdan arvad-uşağın üzlərinə baxanmıram. Heç bilirsiz, evin kişisi, ailənin başçısı olmaq nə deməkdi? Cibləri boş kişiylə pişiyin az fərqi olur.

**Şərqiyyə** *(Kinayəylə)***:** Hə... Onu bilmirdim... Yaxşı oldu dedin... Siz aclıqdan gileylənəndə gərək biz əl-ayağımızı uzadıb qan qusaq. Qoparmadığın xəstə, girmədiyin cib yoxdu.

**Riyad** *(Əsəbi halda)***:** Buna nə sözün var, Səfər? Şərqiyyə düz deyir *(Gülərək)*. Nə qarnın doyur, nə gözün. Doğruyub-tökdüklərini də bir batman balla yemək olmur.

**Səfər:** Bəsdirin, Riyad, sizin sayənizdə, vallah, kefi Könül çəkir, biz yox. Elə bil neçə ildi, bir-birimizi tanımırıq... Xəstələr də haya-küyə düşüblər. Qaçırlar qızcığazın yanına... Nə deyirsiz, deyin, küyə gedən xalqıq.

**Şərqiyyə:** Xəstəyə şəfa tapması lazımdı. Qaldı Könülün yanına qaçmalarına. Səsini çıxarmasan da, inanıram, içində deyirsən balam, kişinin qızı işini bilir. İnsanlarla davranmağı bacırır. Könlü-gözü tox, əlləri də şəfalıdı. Adamların Könül xanımın yanına qaçmalarının sirri bundadı, Səfər. Niyə deyinirsən?..

Açıq danışaq, özümüz, ya yaxınlarımız xəstələnəndə biz də imdad umduğumüz həkimlərə üz tuturuq... Sənə inansaydılar, sənin yanına gələrdilər. Deyinməklə iş bitmir, Səfər.

**Səfər** *(Əsəbiləşir)***:** Anam-bacım, sən get öz qazanını qarışdır. Əsəbiləşdirmə məni, imkan ver, ürəyimizi boşaldaq kişiyə.

*Pauza*

**Riyad:** Kobudsan, Səfər. O nə danışıqdı? Sözlərini eşidən olsa...

**Səfər:** Mən də istəyirəm, qoy eşitsinlər, qəbahətim nədi? Şərqiyyəni də mindirmisiz başımıza... Düz deyirəm də. Görmürsüz, qaşığın çömçədən böyük olub qazan qarışdırdığını? Biz burda oyuquq, ya xəstəyə baxmağa savadımız çatmır, ya da onunla danışmağa mərifətimiz? Ağzımızı açmağa məəttəlik. Şərqiyyə atılır üstümüzə. Siz də elə düşünürsüzsə, böyük səhv eləyirsiz. Klinikada ayrı-seçkilik salmayın. İşçilər arasında nifaq yaratmayın. O, sizə də fayda verməz, Riyad, elə bizə də.

**Riyad** *(Gülərək)***:** Mənə hədə gəlirsən? Yanında nə basarlı işim var? Aç de, utanma. *(üzünü Şərqiyyəyə tutaraq)* Könül xanım lazımdı.

**Şərqiyyə:** Əməliyyatdadı.

**Riyad:** Qurtaran kimi mənim yanıma gəlsin.

**Şərqiyyə:** Oldu.

*Şərqiyyə gedir. Səfər qalxıb otaqda gəzişir.*

**Səfər** *(Mızıldanır)***:** Atalar yaxşı deyib: "Təzə ay çıxanda, köhnəsini doğrayıb ulduz qayırarlar". Deməli, xəstəxanada daha bizə ehtiyac yoxdu. Görünür, burdan baş götürüb getməliyik. Axı hara?.. *(Səsini qaldıraraq)* Ay Riyad, a qardaş, açıq deyin, biz də bilək, məqsədiniz bizi qaçırmaqdısa, nəyə lazımdı belə sürüşkənlik, ara qatıb hörmətsizlik eləmək? Bir dəfəlik üzümüzə deyin, biz də başımıza çarə qılaq.





**Riyad** *(Kinayəylə gülərək)***:** Çaşmısan, Səfər. Giley-güzarın qurtaran vaxtını görsəydim, dinc nəfəs alardım... Qursağın çox dardı. Səndə də qabiliyyət olsaydı...

*Pauza*

**Səfər** *(kinayəylə)***:** Yoxdu? Çox sağ olun, Riyad, qabiliyyətsizliyimdən xəbərsiziydim. Yaxşı ki, dediz... Mən olanı danışıram... Haqqımı tələb eləyirəm. Könül gələndən biz artıq adama çevrilmişik. Addım-başı kəsdiyimiz duz-çörəyi də tapdalayırıq. Belə getsə, *(başını yelləyərək)* salaməleyküm də kəsiləcək. Bəlkə yalan deyirəm?

*Pauza*

Axı siz baş həkimsiz, Riyad, bunları siz tənzim eləməlisiz. Hər kəsə yerini siz göstərməlisiz. Mən neçə ildi burda can qoyuram... Çürüyürəm. Dünən gələn qızı çıxarmısız başımıza.

*Riyad Səfərin üzünə diqqətlə baxır. Əsəbdən Səfərin çənəsi əsir. Riyad sənədlərə imza ata-ata başını yelləyir.*

**Riyad:** Sən çox qabağa çıxırsan, Səfər. Nə danışığını, nə də nəyə qadirliyini bilirsən. Yekə kişisən, məni hövsələdən çıxarma. Mən də Könülü sən tanıyan qədər tanıyıram. Xanım qarasına danışmaq heç bir kişiyə ləyaqət gətirməz. Elə sənə də. Bir də ki "biz" deyəndə sən kimləri nəzərdə tutursan?

**Səfər:** Özümü.

**Riyad:** Hə... Tam səmimi sözümdü, Səfər, özünü Könüllə eyniləşdirmə. Siz başqa-başqa dünyanın adamlarısız.

**Səfər:** Paho... Gözümüz aydın... Bundan sonra ağzımızı açanmarıq ki. Bəlkə barəsində bir roman da yazdırasız? Kino da çəkdirəsiz... Bəs biz kimik?! Bu boyda təcrübəmiz işə yaramır?... Öyrənmək istəyirəm, Könülün havadarı xəstəxanada sizsiz, yoxsa kənarda kimsə var? Deyin, biz də bilək... Umu-küsümüzü kəsək... Yıxılıb oturaq yerimizdə. Ya da gedib başımıza

çarə qılaq.

**Riyad:** Çaşmısan, Səfər. Boş-boş danışma. Könülün havadarı özüdü: ağılıdı, təhsilidi, qabiliyyətidi, işə məsuliyyətidi. Adamlara münasibətidi. Yenə deyim?

*Pauza*

**Səfər:** Mənə övladlarımı geyindirib-keçindirmək, yaşatmaq lazımdı. Mən başqa heç nə bilmirəm, bilmək də istəmirəm. Sizə gün kimi aydındı ki, Könül xəstələrin çoxluğundan baş açmağa vaxt tapmır, bizsə müalicə eləməyə xəstə... Könül cavan, subay qızdı. Pul onun nəyinə gərəkdi?

**Riyad** *(Səsi gərilərək)***:** Sən xəstələrə deyəsən, gəlir mənbəyi kimi baxırsan? Məqsədin xəstələri müalicə eləmək yox, onların ciblərinə girməkdi?

**Səfər:** Hamıda niyyət bir, ona çatmaq üçün gedişlər başqa-başqadı. Pərdələməyə ehtiyac yoxdu. Onu kiçik yaşlı məktəblilər də anlayırlar... Qədimdən belə olub. Həkim əziyyət çəkib xəstəni sağaldır, xəstə də onu dolandırır.

**Riyad:** Çürük fəlsəfə, səfeh düşüncə, əcaib xilqət.

**Səfər:** Qəribədi. Guya özün... Adamların da gözləri görmür. Heç nə anlamırlar, heç nə qanmırlar... Biz fanatik deyilik, hər qondarma sözə də inanaq.

*Pauza*

**Riyad:** Mənim barəmdə ürəyin istəyəni de. Çəkinmirəm. Sən həkimliyi yox, adamlara iftira atmağı, qara yaxmağı özünə peşə eləmisən. Ancaq sənə imkan verməric ki, Könül barədə ağzına gələni necə gəldi tullayasan. Onu da özün kimi çirkaba batırasan.

*Pauza*

Unutma ki, Könülün ləyaqəti şərəfinə sədaqətində, vicdanı təmizliyindədi. O, sənin kimi vecsiz düşünənlərdən deyil. Sözü bütöv, riyadan uzaq, əməli saf xanımdı.

**Səfər:** Gözləriniz gözəllikdən nə yaman qamaşıb?!. Bir az





ehtiyatlı olun, Riyad... Təzə xəbər var? Varsa, de, biz də bilək...

**Riyad:** Sus. Az çərənlə. Əks halda, vecsiz söz, çirkin niyyətlərinə görə barəndə tədbir görəcəm... İstəyirəm biləsən, o, çoxlarına tay deyil. Əvvəla, Könül açıq fikirli xanımdı. Onun kimsədən umacağı yoxdu. Olduqca mədənidi. Avropada təhsil alıb. Nəzəriyyəyə dərindən yiyələnib. Mükəmməl təcrübə keçib. Qazandığı bilikləri təcrübəyə tətbiq eləyə bilir.

*Pauza*

**Səfər** *(öz-özünə)***:** Dədəm vay, nə əlahiddə xanımdı əə, bu Könül?! *(səsinə ara verərək)* Biz nəylə məşğuluq? Yoxsa, düşünürsüz ki, biz bura kiməsə şəbədə qoşmağamı yığışmışıq?

**Riyad:** Əvvəla "biz" yox, "mən" de. İkincisi də, o sualı özünə ver. Xəstələr uzun illər xəstəxanada baş girlədən, soyğunçu Səfərin başı üstən - hərçənd sənə həkim deməyə dilim gəlmir, neyləyim ki, diplomun var - ayaqlayıb Könülün yanına qaçırlarsa, deməli, bu, təsadüfi deyil. Get, əzizim, o günahı özündə axtar... Nə xəstələr, nə də kollektiv Könülün gül camalına susamayıblar. O, çox mehribandı, təmənnasızdı. O xanımın qızıl əlləri var. Unutmayaq ki, onlar Könülə Allahın vergisidi. Allah vereni də biz alanmarıq.

**Səfər** *(rişxəndlə)***:** Görürəm, bir azdan mənə acıq getsin deyə bildirəcəksiz: — "Könül böyük psixoloqdu". Əlahiddə həkim-cərrahdı. Bəlkə yaxasından orden də asasız, Riyad.

**Riyad:** Orden mənlik deyil, Səfər. Bəli, Könül həm yaxşı psixoloq, həm də bacarıqlı kardioloq-cərrahdı. O, istedadlı psixoloq olmasaydı, yaxşı həkim də olanmazdı. Yoxsa, buna şübhən var?.. Çox iddialısan, Səfər. Boyundan yuxarı tullanmağa çalışma, çalışsan da, niyyətinə çatanmazsan.

**Səfər:** Xeyr, mən o sözünüzlə qəti razı deyiləm. Məni qabiliyyətsiz adam, zəif həkim sanma.

**Riyad:** İddialı olmasaydın, ürək əməliyyatına girişməyə təşəbbüs göstərməzdin... Yaralı barmaq sarımaq, yetişmiş çiban

deşmək sənə haqq qazandırmır ki, ürək əməliyyatına iddia qaldırasan.

**Səfər** *(İncik halda)***:** Siz məni niyə bu qədər korkəsməz sanırsız?

*Pauza*

**Riyad:** Soruşuram: bircə dəfə ürək əməliyyatı aparılan otaqda olmusanmı?

**Səfər:** İmkan verirsiz? Yeri gəldi-gəlmədi, elə hey Könülü qabağa keçirirsiz. Bilirəm, şəriksiz... Zəhmət çəkin, mənə də şərait yaradın, sonra sözünüzü deyin. Bacarmasam... Ürəyiniz istəyəni artıqlamasıyla çatdırmasam...

**Riyad** *(əlini-əlinə vuraraq qəşş eləyir)***:** Ayə, bəyəm, insan dovşandı? Tələf olanda sənin qəbahətindən keçək? Ayə, vallah başın xarabdı. Xəstəsən... Sərsəm ideya daşıyıcısısan. Çox məsuliyyətsizsən...

*Pauza*

Niyə anlamırsan, əlində dovşan ölən həkimin qəbahəti məsuliyyətsizlik, insan öldürən həkiminki cinayətdi. Səninlə çənə döymək istəmirdim, indi ki, məcbur eləyirsən, səndən soruşuram: hansı ağılla Könüldən yuxarı təşkilatlara anonim məktublar yazırsan? Böhtan, şər dolu yazılarla nəyə nail ola bilərsən?

**Səfər** *(Boynundan ataraq)***:** Nə anonim məktub?! Nə böhtan?! Nə iftira?! Mənim zatımda, nəsli-nəcabətimdə elə yaramaz iş görən olmayıb. Onu sizə Könülmü deyir? Bax, şər buna deyərəm. Bu yolla mənim ağzıma daşmı basmaq istəyirsiz? Yox... Onu bacarmazsız... Əl-ayağınıza dolaşmayım, — deyə məni qova-qova namərd eləmək fikrindəsiz?

**Riyad** *(Kinayəli-kinayəli)***:** Səfər, bunda deyirlər: “Oğru elə qışqırdı, doğru bucağa qısıldı”. Səninki ondandı. Nazirə ünvanladığın böhtan, iftira dolu məktublar məndədi. Koridorda işçilərə, indi burda mənə dediyin sözlər də həmin ərizələrdə yazılıb. Sənə xatırladım ki, ərizənin üzünü başqasına köçürtdürmüsən.





Buna nə deyirsən?

**Səfər:** Yalandı. Könül sizi qızışdırıb üstümə saldığı üçün mənə cavab verməlidi. Bəlkə məktubu özü təşkil elətdirib? Nə çox məndən acığı gələn tanış-bilişləri.

**Riyad:** Dəhşətli adamsan, Səfər. Məktubları özün yazdığın tam sübut olunub.

**Səfər:** Necə?

**Riyad:** Necəsi budu ki, Səfər, sən anonim məktubu nazirin ünvanına yola salanda çaşıb orijinalı da konvertə qoymusan və yola salmısan. Məktubun orijinalı da bizdədi. Sən buna nə deyirsən?

*Pauza*

**Səfər** *(Ani fikrə gedir)***:** Xeyr. Bu da məni susdurmağa xidmət eləyən əcaib manevrdi.

**Riyad:** Nə manevr, Səfər, elə olmasaydı, bunları indi üzünə deməzdim. Sən axmaqsan.

**Səfər** *(Tutulur, qızarıb-bozarır, udqunur)***:** Siz lap ağ elədiz. Bu ki təhqirdi... Dediklərinizi sübut eləmək lazımdı... Bir türk müdrik sözü var: “Bir məmləkətdə kiçik, imkansız adamların üstə kölgə düşəndə həmin məmləkətdə günəş sönər”. Qaldı sizə, daha deməyə sözüm yoxdu. Siz xoşunuz gəlməyən adamlara böhtan atmağa öyrəncəlisiz.

**Riyad** *(Gülümsünür)***:** Çox həyasızsan, Səfər *(Gülümsünərək)*. Sən danışdıqca Zeynəb qarının mütəfəkkircəsinə dediyi hikmətləri yadıma düşdü. Yaramazların gecə-gündüzləri olmur. Dünyaya yaramaz gəldiklərindən niyyətləri sarsaq, danışıqları cəfəngiyyat olur. Özlərində olmayan ağıldan, vicdandan dəm vururlar. Ancaq özlərində ləyaqətdən, şərəfdən əsər-əlamət olmur. Kimə necə gəldi şər atırlar, qara yaxırlar. Ömründə özünə bircə dəfə sual vermisənmi: axı mən kiməm? Nə çarəyəm? Kimə rəğbətim var? Gəlib-gedib Könülün arxasınca donquldanırsan. Ayıbdı. Özünə qiymət ver. İnanıram ki, Könül barədə xanı-

mın, övladların xəbər tutsalar, sənin abırını alarlar.

**Səfər:** Başa düşmədim, Zeynəb qarı, onun bu nəriltili-gurultulu sözləri hardan çıxdı... Bəsdirin Riyad, məni yenə təhqir eləyirsiz, nüfuzdan salmağa çalışırsız. İstəyinizə nail olmaq üçün təkrar eləyirəm, vicdanlı adamları ləkələməyə çalışırsız.

**Riyad:** Ehtiyac varsa, məktubunu tibbi ekspertə də təqdim eləyə bilərik. Səfər, nə qədər gec deyil, boynuna al ki, sən həqiqətən də yaramazsan. Bər-bəzəkli sözlərlə özünə qiyafə biçənsən. İnanıram, Qüdrət sənin kimiləri yaradıb ki, başqaları sənə baxıb ibrət götürsün.

*Pauza*

**Səfər** *(Ani fikrə gedir. Səsi enir)*: Gözlərim aydın... Kül mənim başıma. Arxamda quyu qazılır, saman çöpündən dəyirman tikilir, mən yatmışam. Riyad, inanın ki, bu çirkin oyunu heç vaxt sizdən gözləməzdim.

**Riyad:** Hansı oyunu?

**Səfər:** Anonim məktub adıyla ağzıma daş basmaq oyununu... Çox hiyləgərsiz, Riyad.

**Riyad:** Kor kora kor deməsə, bağrı çatlar.

**Səfər:** Könül bəlaymış, Riyad. Gec-tez şəxsən o, sizi bəlaya salacaq. Bir də görəcəksiz, istəyinə nail olub... Oturub kabinetinizdə.

**Riyad:** Ağzıbaşına danışma. Könül baş həkimliyə yox, daha məsul vəzifələrə layiqdi. Arxayın ol, mən bir neçə dəfə vəzifəmi ona təklif elədim, ancaq o, özü sahib durmadı. O götürmədi. Götürsəydi, sevinərdim. Buna nə deyirsən?.. Belə getsə, sənin Könül barədə dediklərini, anonim məktubunu kollektivin müzakirəsinə qaldıracam. Onda anonim yazmadığını sübut eləyərsən.

**Səfər:** Yaxşı, boynuma alıram. Məktub söhbətini qurtar. Bir qələtdi eləmişəm.

**Riyad:** Bu, başqa söz.





*Qapı açılır. Qabaqda Könül, arxasınca qucağında gül dəstəsi Şərqiyyə otağa daxil olur. Könül yorğun görünür. Salam verir.*

**Könül** *(Riyada)*: Məni soruşmusuz?

**Riyad:** Hə... Təzə xəstə gəlib. İstərdim, onun müayinə sənədlərinə siz də baxasız.

**Könül:** Baş üstə.

**Riyad:** Sizi təbrik eləyirəm, Könül. Gələn ay Dünya Kardioloqlar Cəmiyyətinin Nyu-Yorkda keçiriləcək simpoziumunda iştirak üçün dəvət olunmusuz. Dəvətnamə məndədi.

**Könül:** Nə yaxşı! Məmnuniyyətlə gedərəm. Tibbdə yeniliklər çoxdu. Etiraf eləyim ki, mənim öyrənməyə ehtiyacım böyükdü.

*Şərqiyyə gül dəstəsini dolabçanın üstündəki güldana qoyur.*

**Səfər** *(Gülümsünür)*: Şərqiyyə xanım, siz özünüz gülsünüz. Diliniz də şirin olsa...

*Hamı gülüşür. Səfər sözünə davam eləyir.*

İki gülün ətri qovuşanda adam canını qoymağa yer tapmır.

**Şərqiyyə** *(Qəsdən)*: Demək istəyirsiz, adam az qalır ölsün, hə?.. Siz Allah məni işə salmayın. Bunun üçün Könül xanıma təşəkkür eləyin. Gülləri ona hədiyyə eləyiblər, mənə yox.

*Riyad ucadan gülür.*

**Könül:** Nə təşəkkür?

**Riyad:** Siz həqiqətən də təşəkkürə layiqsiz, Könül xanım. Sizin bacarığınız, istedadınız klinikamıza nüfuz qazandırır.

**Səfər** *(Riyada)*: Başqa sözünüz yoxsa, mən palataya baş çəkim.

**Riyad**: Buyurun...

*Səfər əsəbi halda otaqdan çıxır. Şərqiyyə onun arxasınca kinayəylə baxır.*

**Şərqiyyə:** Geci-tezi var. Xəstə sahibləri ya onu vurub öldürəcəklər, ya da həbs elətdirəcəklər. Heyf ki, çirkabı hamımızın üstünə töküləcək.

**Könül:** Onu yola vermək lazımdı... Mən gedim təzə xəstəyə baş çəkim.

*Könüllə Şərqiyyə gedir. Riyad da onların ardınca kabinetdən çıxır. Səhnə qaralır.*

## II şəkil

*Könül müayinə otağındadır. Xalatının düymələrini bağlaya-bağlaya masa arxasına keçərək stulda əyləşir. Şəfəq gətirdiyi dərmanları şkafa qoyur. Professor otağa daxil olur və olduqca yorğun görünür. Könül hörmət əlaməti olaraq ayağa qalxır.*

**Professor** *(Könülə)*: Qalxma, əyləş, qızım.

*Professorla Könül əyləşir.*

**Könül:** Çox yorğun görünürsüz, professor.

**Professor:** Hə... İş çox, dincəlməyə macal yox.

**Şərqiyyə:** Professor, kofe hazırlayımmı?

**Professor:** Yox... Bir azdan... Könül xanım, siz Tərlanı an-





keoqrafiya elədizmi? Necədi vəziyyəti?

**Könül:** Bəli, professor! Onun vəziyyəti mənim düşündüyümdən də ağırdı. Bayaqdan fikir məni caynağına alıb hara gəldi aparır. Qəti qərara gələ bilmirəm.

**Professor:** Niyə?

**Könül:** Əvvəla, Tərlanın fuksional damarlarından biri tam tutulub. İkincisində səksən, üçüncüsündə isə otuz faiz qan işləmir. Başlıcası, keçirilmiş revmatik proses nəticəsində aydın oldu ki, ürəkdə mitral dəliyin kəskin daralması gedir. Hazırda dəlikdə üç-dörd santimetr diametrdə genişlənmə aparılması zərurəti var. Ayrı-ayrılıqda bunların hərəsi ciddi cərrahiyyə tələb eləyir. İndi fikirləşirəm, hansını əvvələ salaq? Bəlkə sinə açılmışkən ikisini də eyni vaxtda aparaq? Xatırladım ki, əvvəllər də iki dəfə infarkt olub. Ürəyin arxa divarında çapıq izləri aydın sezilir... Düşünürəm: bu əməliyyata xəstə tab gətirərmi?

*Şərqiyyə bir stəkan çay gətirib professorun qarşısına qoyur.*

**Şərqiyyə:** Deyin, anası ölmüş diriykən ölüdü ki.

*Professorla Könülün üzü ciddi görkəm alır. Bunu Şərqiyyə də anlayır. Şərqiyyə bəhanəylə otaqdan çıxır.*

**Professor:** Belə çıxır ki, ürəyin arxa divarında da ciddi problem var. Mən sizi düzmü başa düşdüm, Könül xanım?

**Könül:** Bəli! Görünür, vaxtıyla yaxşı müalicə olunub. Ona görə də qan özü üçün təzə kapliyar kanallar açıb. Ürəyi də qanla qismən həmin kapliyarlar təmin eləyir.

*Şərqiyyə gəlir.*

**Şərqiyyə:** Bağışlayın, professor, fikirləşəcəksiz ki, mən ba-

şım girməyən yerə bədənimi soxuram. Hi... Hi... Hi... Öyrəncəliyəm, söz gələndə saxlayanmıram. Neyləyim ey, uşaqlıqdan beləyəm.

**Professor:** Mən heç nə düşünmürəm... *(Gülümsünərək)* Südlə gələn sümüklə gedər.

**Könül:** Ağzın boş qalanda nə olsa danışırsan. Elənçikdə ağzına konfetdən, saqqızdan qoy.

*Hamı gülüşür.*

**Professor** *(Könülə)*: Öyrənmisizmi, ürək çatışmazlığı xəstədə irsidi, yoxsa sonradan yaranıb?

**Şərqiyyə:** Onun fərqi varmı?

**Könül:** İşə düşmədik?.. Ay qız, öz işinlə məşğul ol.

**Şərqiyyə:** Nə dedim ki, bir sualdı verdim də.

**Professor** *(Şərqiyyəyə)*: Fikrimizi yayındırma. Olmasa, soruşmaram ki.

**Könül:** Onu da öyrənərəm... Bu səhər xəstə yoxlanıldı. Məlum oldu ki, şəkəri də çoxdu. Yüksək dozada insiulin alır.

*Pauza*

**Professor** *(Dərindən nəfəs alır və astadan başını yelləyir)*: Zəhrimar şəkər adamları gir-gic eləyir. Ağır əməliyyatda həkimi təngə gətirir. İşə mane olur. Təhlükəni artırır. Şəkəri elə indidən cilovlamağa çalışın. Şəkər qalxacaqsa, deməli, əməliyyatdan sonra xəstə yeməkdən qalacaq. Şəkəri dərmanla kompensasiya eləməli olacağıq. Bütün hallarda endikrinoloqla məsləhətləşin. Mütləq o da ləngimədən şəkəri ciddi nəzarətə keçsin. Əməli iş görsün.

**Könül**: Oldu, professor.

**Professor:** Bu, çox düşündürücü problemdi. Böyük risq və cəsarət tələb eləyir.

**Könül:** Cəsarət və risq öz yerində, sizcə xəstə eyni anda iki





zərbəyə tab gətirə bilərmi? Düşünürəm: bəlkə xəstəliyin birini indi, ikincisini sonraya saxlayaq.

**Professor** *(Fikirləşir)*: Əməliyyatda birincinin ikinciyə mane olacağı qaçılmazdı. İşin gedişində biz istəsək də, istəməsək də, hər iki çatışmazlığa qarşı çıxmaq məcburiyyətində qalacoq, qızım. İstərdim düşündüklərini necə var, elə də açıqlayasan.

**Könül:** Risqli də olsa, xəstənin fiziki cəhətdən gücünü nəzərə alıb, mən əməliyyatın eyni vaxtda aparılmasına üstünlük verirəm. Bu əməliyyatda başlıca söz sizindi, professor.

**Professor:** Təklifinin səmərə verə biləcəyinə açığını deyim ki, ümid azdı. Ancaq əməliyyatı gecikdirmək və ya təxirə salmaq da olmaz. Necə fikirləşirsən, ürək cərrahiyyəsi tarixində eyni vaxtda iki əməliyyat aparmaq cəhdi olubmu?

**Könül:** Təsadüf eləməmişəm.

**Professor:** Böyük ixtiralar, əlahiddə kəşflər risqsiz olmur. Onlar qurbanlar tələb eləyir. Ancaq mən istəməzdim ki, elə risqlər canlı insana yönəlsin.

*Pauza*

**Könül:** Hörmətli professor! Görünür, hissə qapılıram, onun üçün də fikrimi aydın ifadə eləyənmirəm. Hamı yaşamaq istəyir, o cümlədən, Tərlan da. Çox düşünmüşəm. Tərlanın yaşamı əməliyyatdan keçir... Sizdən nə gizlədim. Axşam elmi rəhbərim professor Ernix Heynlə də bu barədə danışdım. Vəziyyətlə əlaqədar İranın görkəmli kardioloq-cərrahı Seyid Əhməd Həsəntaşdan da, Şərqdə ilk açıq ürək əməliyyatı keçirən professor Cavad Heyətdən də məsləhət aldım. Ayrı-ayrılıqda onların hər biri mənə ürək köçürmə əməliyyatını məsləhət bildilər. Ancaq klinikamızdakı şərait ona imkan vermir.

**Professor:** Çox böyük uzaqgörənlik eləmisən. Siz xəstənin qan təzyiqini, şəkərini, böyrəklərin funksional vəziyyətini normallaşdırmısızmı?

**Könül:** Bəli! Dediklərimiz tam ciddiyyətlə nəzarətdədi. Hər

şey diskə köçürülüb. Özünüz də baxa bilərsiz.

**Professor:** Nəbzini, qan təzyiqini, şəkərini, ürək fəaliyyətini ciddi nəzarətə götürək. Riyada da vəziyyəti açıqlayaq.

**Könül:** Mən Riyadla da danışmışam. O da sizin qərarınıza üstünlük verir.

**Professor:** A ha... Çox yaxşı.

**Şərqiyə:** Xəstə öz vəziyyətini düzgün anlamır. Necə gəldi hərəkət eləyir. Məncə vəziyyəti ona kəskinliyiylə aydınlaşdırılsa, pis olmaz. Cəld hərəkətlərdən, ağır şeylər götürməkdən çəkinər. Dərmanlara və məsləhətlərə etinasız yanaşmaz.

*Professor Könülün üzünə baxır.*

**Könül:** Tərlan olduqca həssasdı. Ağıllıdı. Qürurludu. Mənə elə gəlir ki, o vəziyyətindən xəbərdardı. Bildiklərindən artıq söz deməklə onu həyəcanlandırmış olarıq. O, çox ehtiyatlı və həm də emosionaldı.

**Şərqiyyə:** Ona yazığım gəlir.

*Pauza*

**Professor** *(Gülümsünərək zarafatla)***:** Məncə, qadının kişiyə heç vaxt yazığı gəlmir. Kişiyə qarşı onda rəğbət hissi doğur... Xəstə xəstəliyindən qorxursa, istər-istəməz onda əsəb gərginliyi yaranacaq. Əməliyyatdan əvvəl bu halın baş verməsi vəziyyəti daha da ağırlaşdıra bilər. O ki qaldı ürək xəstəsi ola.

*Pauza*

Hazırlaş, Könül xanım, nə qədər çətin olsa da, Tərlanın yaşamı üçün biz risqə getməliyik. Başqa yolumuz yoxdu. Cərrahiyyə əməliyyatını sən aparacaqsan.

**Könül:** Axı professor, onu mən tək bacarmaram.

**Şərqiyyə:** Qorxmayın, Könül xanım, mən də yanınızda olacam.

*Otaqda gülüş.*





**Professor:** Tək niyə? Mən də, sənin assistentlərin də yanında olacaq. Bu uğurlu əməliyyatdan sonra sən bomba partlatmış olacaqsan. Şöhrətin göylərə qalxacaq.

**Şərqiyyə:** Hamı sizdən danışacaq.

**Könül:** Özümü belə mürəkkəb əməliyyata hazır sanmıram.

**Professor:** Özün barədə belə bədgüman olma. Hazırlığın da, qabiliyyətin də əməliyyata tam imkan verir. Bu əməliyyatda sənə cəsarət gərəkdi, yalnız cəsarət. Güman eləyirəm ki, o da səndə var.

*Riyad gəlir. Salamlaşırlar. Professor sözünə davam edir.*

Yanına gələcəkdim. Yaxşı oldu gəldin, Riyad. Qərarlaşdırdıq ki, Tərlanın əməliyyatını Könül keçirsin.

**Könül:** Əməliyyatı gecikdirmək olmaz.

**Riyad:** Tərlana mənim də heyfim gəlir. Cavandı. Gələcəyi var. Mən eşidəndə ki, o, ananın tək övladıdı, ürəyim sıxıldı... Neyləmək olar, görünür belə qismətdi.

**Şərqiyyə:** Allah yiyəsinə qismət eləsin. Məndən nə asılıdısa, mən də hazıram. Könül xanım, sizə nə deyirlər, ona da əməl eləyin.

*Hamı gülür. Riyad başını bulaya-bulaya gedir.*

**Professor:** Qərarımız qətidi. Könül xanım, get əməliyyata hazırlaş. Unutma ki, xəstə sənə inanmalıdı. Xəstədə inam, yaşamaq eşqi yaratmaq uğurun başlanğıcıdı. İnfeksiya ocağını sonasiya aparmaq məqsədiylə xəstəyə antibiotik təyin elə.

**Könül:** Oldu, professor.

**Şərqiyyə:** Tərlanın iki günlük xaricə səfər planı var. O, getməyə israrlıdı.

**Könül** *(Təəccüblə)***:** Onu sən hardan bildin?

**Şərqiyyə:** Anasından. Yazıq qadın göz yaşlarını saxlayanmır.

**Professor:** Nə xaricə səfər?! Nə plan?! Könül xanım...

*Telefon zəng çalır. Professor dəstəyi götürür.*

**Səs:** Salam.

**Professor:** Əleyküm-əssalam.

**Səs:** Professor, Tərlandan narahatıq. O, yol üstədi. Təyyarəyə bilet almışıq.

**Professor:** Tərlanı başqasıyla əvəzləyin.

**Səs:** Yəni vəziyyəti elə kəskindi?

**Professor:** Bəli.

**Səs:** Eh... İşimiz düzəldi.

**Professor:** Xudahafiz... *(Öz-özünə)* Eh... İnsan taleyi...

**Şərqiyyə:** Professor, sağlam adamlar xəstələrin dərdini nə qanırlar?

*Otağı gülüş səsləri bürüyür.*

**Professor:** Mən gedim, digər xəstələrə də baş çəkim.

*Professor gedir. Onun ardınca Şərqiyyə də otaqdan çıxır. Tərlanın anası Rəvanə xanım otağa daxil olur. Könül onu gülərüzlə qarşılayır. Qadın ümidlərini itirəcək tərzdə Könülə yaxınlaşır.*

**Rəvanə** *(Göz yaşları axıda-axıda)***:** Könül xanım, mən xalan sənə qurban, oğlum cavandı. Hələ ona nişan taxmamışam. Ad eləməmişəm. Tərlanı mənə qaytar. Onun həyatı deyirlər, sənin əlindədi. O, mənim yeganə övladımdı. Ümidimdi. Elə elə ki, ümidim qırılmasın, qızım. Ağzıma daşlar, əgər onun başına bir iş gəlsə....





**Könül:** Narahat olmayın, xanım. Tərlanın xatirini mən də çox istəyirəm. Onunla bir sinifdə oxumuşuq. Bir partada əyləşmişik... Sizi də tanıyıram. Arxayın olun. Mən əlimdən gələni eləyəcəm...

*Pauza*

**Rəvanə:** Biz sizin xəcalətinizdən çıxarıq, qızım.

**Könül:** Nə danışırsız, Rəvanə xanım. Onu sağaldıb, ayağa qaldırmaq mənim borcumdu. Xəstənin şəfa tapması həkimin şərəfidi. Nə xəcalət? Çalışacam, sizin üzünüzü güldürüm. Professor da əməliyyatda iştirak eləyəcək...

**Rəvanə:** Sizə minnətdaram, qızım.

**Könül:** Qətiyyən...

**Rəvanə:** İcazə verin, əllərinizdən öpüm.

**Könül:** Yox... Yox...

*Rəvanə sıxılır. Göz yaşları axıdır. Könül onu qucaqlayaraq üzündən öpür. Könül ağır sarsıntı içərisindədir.*

**Rəvanə:** Ümidsiz yaşamaq olmur.

**Könül:** Hər şey yaxşı olacaq.

*Rəvanə göz yaşlarını silə-silə otaqdan çıxır. Könül xanım da onun ardınca. Səhnə qaralır.*

## III şəkil

*Palata. Bir-birindən aralı iki çarpayı. Baş tərəfdə çarpayılar arasında qoyulmuş dolabcanın üstündəki güldanda rəngbərəng güllər. Tərlan çarpayıda uzanır. Rəvanə stulda əyləşir. Qəm, kədər içində ana-bala söhbət eləyirlər. Rəvanə təlaş içindədir.*

**Tərlan:** Ana, nədən narahatsan? *(Yataqdan qalxaraq yüngül*

*idman eləyir)*. Gələn ay İsveçə səfərim var. Həm ticarət, həm ziyarət. Bir az da orda dincələrəm.

**Rəvanə:** Oturduğumuz yerdə başımıza oyun gəldi... Hələ tələsmə. Sağlıq olsun, gedərsən... *(Dərindən köksünü ötürür, sonra da özünü saxlayanmayıb kövrəlir)* Rəhmətlik atan səni canından çox istəyirdi, yaxşı ki, bu gününü görmədi, görsəydi...

**Tərlan:** Yaxşı-yaxşı, özünü az üz, belə getsə, məni də kövrəldəcəksən. Barəmdə kiçik bir şey eşidən kimi, öyrəncəlisən heç nədən göz yaşları axıtmağa.

**Rəvanə** *(Üzündə təbəssüm doğur)***:** Neyləyim, oğlum, Allah məni də belə yaradıb. Bu yaşdan sonra istəsəm də, başqa cür olanmaram. Atan da cavan vaxtı mənə təksinləşdirici sözlər deyərdi.

**Tərlan:** İstəyirəm, həmişə üzün gülsün, gözlərindən sevinc yağsın. Belə olanda çöhrəndə işıq doğur.

*Qapı açılır. Şərqiyyə əlində dəftər, qələm otağa daxil olur. Tərlan çarpayının qırağında oturur.*

**Şərqiyyə:** Tərlan, əməliyyat olunmaq üçün razılıq verməlisiz.

**Tərlan:** Mən, yoxsa anam?

**Şərqiyyə:** Anan yox, sən.

*Rəvanə diksinir. Heyrətlə oğluna baxır. Gözləri dolur. Tələm-tələsik palatadan çıxmaq istəyir.*

**Tərlan** *(Anasına)***:** Hara gedirsən, ana, burda nə var ki. Bəyəm əməliyyata gedəndə tək mən razılıq verirəm? Bütün pasientlərdən razılıq alınır... Qorxub-çəkinməyə dəyməz.

**Rəvanə:** Bilirəm, oğlum, mən anayam, ürəyim dözmür.

**Tərlan:** Razı olmasaydıq, öz ayaqlarımızla bura niyə gəlirdik?





**Rəvanə** *(Titrək səslə)***:** Mən nə deyirəm ki.

**Şərqiyyə:** Bizdən də tələb olunur.

*Şərqiyyə dəftər-qələmi Tərlana verir. Rəvanə otaqdan çıxır. Tərlan dəftəri yazır, imza atır və Şərqiyyəyə qaytarır.*

**Tərlan:** Buyurun, xanım.

**Şərqiyyə** *(Ucadan oxuyur)***:** Üzərimdə ürək əməliyyatı aparılmasına razıyam.

*Şərqiyyə gedir. Tərlan çarpayısına uzanır. Başını balınca qoyur. Dərin fikrə gedir.*

**Tərlanın daxili səsi:** Eh... Həyat... Həyat... Sən nə qədər qəribəsənmiş. Fitnə-fəsadların qənirsizmiş... Bir parça kağıza imza atmağıma dözməyən yazıq anam, əməliyyatdan salamat çıxmasam, onda neyləyəcəksən? İndidən yüz dəfələrlə ölüb-dirilirsən. Yoxluğuma tab gətirə biləcəksənmi? Əlbəttə ki, yox... Kaş məndən savayı, sənə dayaq duracaq bircə övladın olaydı.

*Pauza*

Bilirəm. Üstünə dağlar ağırlığında dərd-sər axışır. Onların altından necə çıxacağını təsəvvürünə gətirirsənmi? Dözmürsən... Qəm, kədər, qüssə içərisində boğulursan, inləyirsən, mənim anam...

*Qapı açılır. Könül qabaqda, Şərqiyyə də onun ardınca palataya daxil olurlar. Könülün üz-gözündə parıltı duyulur. Parıltı Tərlana sirayət eləyir. Salamlaşırlar.*

**Könül** *(Şən səslə)***:** Necəsən, Tərlan? Bu axşam yaxşı yata bilmisənmi?

**Tərlan:** Yaxşıyam. Yuxumu da almışam.

**Könül** *(Cihazla yoxlayaraq)***:** Qan təzyiqin də, şəkərin də, ürək döyüntülərin də yaxşıdı.

*Könül həyəcan keçirir. Tərlanın soyuq, nigaran baxışları ona dikilir.*

**Tərlan** *(İxtiyarsız halda)***:** Könül xanım, əməliyyatı siz aparacaqsız?

**Könül** *(Təbəssümlə)***:** Hə... Professorla birlikdə mən aparacam. Yoxsa, qorxursan, Tərlan. Səndə nə var ki. Hər gün neçə-neçə ürək əməliyyatı aparırıq. Bunun adı cərrahiyyədi. Doğrudu, adı gurultuludu ancaq özü çox sadədi.

*Pauza*

**Tərlan:** Çox təvazökarsız. Adamlar qarışqanı fil eləyirlər, sizsə əksinə, fili qarışqa.

**Könül** *(Gülümsünərək)***:** Qarışqa nədi, fil nədi? Bunu mən deyirəm, Tərlan. Yoxsa mənə inanmırsan?.. Uğura inamım olmasa, mən əməliyyata girmərəm.

**Tərlan:** Yox... Yox... Nə danışırsız? İnanmasaydım, bu palatada yatıb indiki anı gözləyərdimmi?

**Könül:** Deməli, anlaşdıq. Müasir şəraitdə tibb aləmində çox böyük inkişaf var. Kompüter, elektron texnoloji sistem həkimlər qarşısında çox böyük imkanlar açır. Bugünkü texnika on il əvvəlkindən yüz min dəfələrlə yüksəkdi. Dünyada açıq ürək, böyrək köçürmə əməliyyatları həyata keçirilir. Tibbin nəzəriyyə və praktikasında təsəvvür olunmaz yeniliklər əldə olunur. Belə olan təqdirdə səndə aparacağımız əməliyyat çox sadədi. Əsası odur ki, sən qorxmayasan. Cəsarət, inam olan yerdə uğur var, Tərlan.

**Tərlan:** Sağ ol.

**Şərqiyyə:** Hamı deyir ki, Könülün əlləri çox şəfalıdı, Tərlan.





**Tərlan:** Bilirəm. Təkcə anamdan nigaranam.

**Könül:** Yaxşı, yaxşı... Mən yanında durduqca, deyəsən, sən çox şey danışacaqsan. Ananı da haldan-hala salırsan. Mən gedim, başqa xəstələrə də baş çəkim. Professorla da görüşməliyəm.

*Könüllə Şərqiyə palatadan çıxır. Rəvanə əlində bir dəstə gül gəlir. Gülü dolabçanın üstünə qoyur.*

**Rəvanə:** Qonşumuz Minarə xalan göndərib. Onu içəri buraxmadılar. Çox istəyirdi, palataya gəlsin, səni görsün. Sənin əhvalını öyrənsin.

**Tərlan:** Sağ olsun, əziyyət çəkib gəlib. Eybi yoxdu, indi bu dar macalda palataya gəlişinə icazə verməyiblər, tələsməsin, əməliyyatdan sonra görüşərik.

**Rəvanə:** Bu gün sübh çağı yataqdan qalxmışam. O ki var Allaha yalvarmışam. Qorxma oğlum, hər şey yaxşı olacaq.

**Tərlan** *(Gülümsünərək)***:** Elə bilirdim, mənim anam dünyada heç nədən qorxub çəkinmir.

**Rəvanə:** Sən düz bilirsən. Yeganə qorxub-çəkindiyim şey sənin barmağına tikan batmasıdı. Adicə soyuqdəymədən hərarətin qalxanda dünya başıma dolanır. Həkim varsa, xəstəxana varsa, deməli, xəstə də, cərrahiyyə də var, oğlum. Neçə gündü görürəm, nə qədər bura, bir o qədər də burdan evinə adam axışır.

**Tərlan:** Hər şeyi özünə dərd eləmə. *(Zarafatla).* Burdan axışanların aralarında zurna-qavalla gedənləri yoxdu ki?

**Rəvanə** *(Diksinir)***:** Evin tikilsin, nə zurna-qaval? Səninlə danışmağa məəttələm. Kor-peşman eləyirsən məni. Allah hamıya kömək olsun, elə bizə də. Ananın intizarı, nisgili həmişə olacaq. Analar öyrəncəlidilər. Balası dara düşəndə, axşamlar

evə gec gələndə övladının kimsəylə sözü çəpləşəndə, anaların ciyərləri parçalanır, oğlum.

*Pauza*

**Tərlan:** Eh... Analar... Analar... Siz nə qədər qüdrətlisiz?! Möhtəşəmsiz?!. Doğurdan da, mələkdilər analar!

*Tərlan otaqda gəzişir. Pəncərədən həyətə baxır. Sonra geri dönür. Dərindən ah çəkir. Sözünə davam eləyir.*

Özü qüdrət, üzü nur, sözü hikmətdi, mənim anam.

*Tərlan anasını qucaqlayıb öpür. Yenə sözünə davam edir.*

Əməliyyatdan sonra toyum barədə fikirləşərik.

**Rəvanə:** Allah eləsin.

**Tərlan:** Nigaran olma, ana, Könül yaxşı həkimdi. Doğrusu, Şərqiyyə gəlib dəftər-qələmi mənə tərəf uzadanda, — Əməliyyata razılıq verməlisən — deyəndə içimdə üşütmə yarandı. Mən iltizam yazanda sən otaqdan çıxdın, elə bildim səninlə mənim aramda birdən-birə keçilməz uçurum yarandı. Sən o tayda qaldın, mən bu tayda. Biz birdəfəlik ayrıldıq. Onda elə bildim ürəyim parçalandı. Məni qəhər boğdu... Ölümüm üçün yox, təkcə səndən ayrılmam üçün... Nə yaxşı ki, Könül gəlib başımı qatdı. O hissləri məndən uzaqlaşdırdı... Hər şey arxada qaldı. Qorxmuram... İstəyirəm, sən də qorxmayasan. Əməliyyat ürəyimizcə olacaq. Professor özü də əməliyyata nəzarət eləyəcək.

*Pauza*

**Rəvanə:** Dəhlizdə eşitdim. Könül də subaymış. Xoşbəxt olmalı baladı. Ağıllı xanımdı. Yıxılı evin dirəyidi.

**Tərlan** *(Gülümsünərək)***:** Eh... Qadınlar... Qadınlar... Əcəb xilqətləri var. Çatmamış adamların evliliyini, subaylığını öyrənirlər. Ay ana, sən də elə. Yenə nə ağlına gəldi? Mən can hayında, sənsə... Könül dediklərini eşidər. Tərs kimi xasiyyəti də tündü. Canım da onun əlində... *(Gülərək)* Hə... Neyləyək?





**Rəvanə:** Saqqalın ağarsın, sənə də söz deyənmirəm. O saat içindən qəmbərqulu çıxarırsan. Məni dəli eləyirsən... Axı Könül elə balaya oxşamır.

**Tərlan** *(Zarafatla)***:** Gündə neçəsin doğrayır.

**Rəvanə:** Ədə, bəsdi... Qız eşidər...

*Tərlan söhbətin səmtini dəyişir.*

**Tərlan:** Zarafat eləyirəm. Barəmdə az fikirləş... Kişi cəsarətli olar. “Qorxan gözə çöp düşər”.

**Rəvanə:** Allahı olan nagüman qalmaz.

**Tərlan** *(Anasına təskinlik verir)***:** Əməliyyat qurtarandan on gün sonra gəzə bilərəm. Gərək yaxşı istirahət eləyəm. Əzab-əziyyətimin əvəzini çıxam.

*Qapı açılır. Şərqiyyə özüylə gətirdiyi iynəni Tərlana vurur. Həbləri içirir. Tərlan saata baxır.*

**Rəvanə:** Vaxtdı?

**Şərqiyyə:** Hələ yox. Həyəcan keçirməyə dəyməz.

*Şərqiyyə gedir. Rəvanə çarpayının qırağında əyləşir. Tərlanın əlini əllərinə alaraq sığallayır.*

**Tərlan:** Uşaqlıq illərim hərdən yadıma düşür, tez-tez başımı qoyardım dizlərinin üstünə... Gözlərimi yumardım, bəzən yatardım, rahatlanardım. Kaş yenə uşaq olaydım. Saçlarımı darayaydın. Geyindirib-keçindirəydin. Atam da sağ olaydı. Məni atamın yanına salıb məktəbə yollayaydın.

**Rəvanə:** Məni kövrəltmə, Tərlan, o atalı illərin arxada qaldı.

*Qapı açılır. İki tibb bacısı arabacıqla palataya daxil olurlar. Şərqiyyə də onların ardınca.*

**Şərqiyyə:** Tərlan, qalx əyləş arabacığa.
**Tərlan:** Özüm gedərəm.
**Şərqiyyə:** Yox... Arabacıqda.

*Tərlan ayağa qalxır. Özündə halsızlıq duyur, büdrəyir, tez çarpayının başlığından tutur. Rəvanəylə Şərqiyyə ona kömək eləyir. Tərlanı arabacığa əyləşdirirlər Tibb bacıları Tərlanı aparır. Rəvanə də onların ardınca gedir.*

*İşıq sönür.*

## II hissə
## IV şəkil

*Səliqə-səhmanlı, geniş və alatoran reanimasiya otağı. Sağ tərəfdə yumşaq kreslo. Otağın ortasında çarpayı. Baş tərəfdə yerləşdirilmiş nəfəs tənzimləyici, nəbz və təzyiqə nəzarətedici cihazlar. Həkim və tibb bacıları xüsusi çarpayıda xəstəni gətirirlər. Çarpayını otağın ortasında qoyurlar. Xəstəyə lazım olan cihazları calaşdırırlar. Adamlar otaqdan çıxırlar. Səhnə ani olaraq qaralır. Sonra yavaş-yavaş işıqlar yanır. Professor xəstənin solunda, Könül sağında, qalan personal da onların yanındadırlar. Rəvanə ayaq tərəfdə dayanaraq xəstəyə heyrətlə baxır. Bərk həyəcan keçirir. Xəstə yavaş-yavaş narkozdan ayılır. Gözlərini açır. Ətrafdakıları gülümsəyən görür. Xəstənin də üzündə yüngül təbəssüm yaranır.*

**Tərlan** *(Professora)***:** Deyəsən, çox yatmışam, doktor, gəlişinizi bilməmişəm, bağışlayın.





**Professor:** Təqribən iyirmi dörd saat.

*Tərlan ani fikrə gedir. Hamı susur.*

**Könül:** Gözümüz aydın, Tərlan, əməliyyat olundun. Canını əzab-əziyyətdən bir dəfəlik qurtardın.
**Tərlan:** Nə? Əməliyyat olundum? Bura haradı?
**Könül:** Həyəcanlanma... Xəstəxana. Əmin ola bilərsən, əməliyyat istədiyimizdən də uğurlu keçdi. Professor da yanındadı.
**Tərlan:** Tanıyıram.
**Rəvanə:** Daha fikir eləmə, yaxşısan, oğlum.

*Tərlan çarpayıda çevrilmək istəyir. Professor əlini onun çiyninə qoyur.*

**Professor:** Çevrilmək olmaz.

*Tərlan əlini üzünə aparır. Burnunda oksigen cihazının qoyulduğunu duyur. Könül dərhal Tərlanın əlini tutur.*

**Könül:** Heç bir şeyə əl vurmaq olmaz.

*Tərlan bir anlıq nə eləyəcəyini unudur. Gözləri ayaqlarının mələfədən çıxan baş barmağına dikilir.*

**Tərlan:** Barmaqlarım niyə elədi?
**Könül:** Necə?
**Tərlan:** Yetişmiş əriyi andırır. Sapsarı.
**Professor:** Narahat olma, infeksiyadan qorunmaq üçün bədəninə dərman çəkilib. Ona görə də elə görünür. Əlinə, qoluna bərkidilən cihazlar da vəziyyətini normallaşdırmaq məqsədi da-

şıyır. Ehtiyatlı ol, cihazlar bədənindən ayrılmasın.

*Tərlan əllərinə baxır. Əllərinin şişdiyini görərək təəccüblənir.*

**Tərlan:** Yəqin üz-gözüm də belə olar?

**Professor:** Çox şeyə fikir vermə, Tərlan. Əməliyyatdan sonra belə olmalısan. Sənə çox danışmaq olmaz. Tez-tez öskürəcəksən, o səni incidəcək. Qorxma, öskürək sənə xeyirdi. Sinənə bəlğəm toplanır. Öskürək bəlğəmin xaric olunmasına, sinənin, nəfəs yollarının açılmasına, yüngülləşmənə kömək eləyəcək. Könül xanım sənin üçün çox fədakarlıq göstərdi. Şükürlər olsun Allaha ki, zəhməti hədər getmədi.

*Tərlan Könülün üzünə baxır. Baxışlar toqquşur. Könülün sevinc parlayan gözlərindən, çöhrəsində doğan işıqdan məmnun qalan Tərlan dərindən köksünü ötürür. Bunu hamı duyur.*

**Könül:** Deyilənlərə əməl eləsən, tezliklə ayağa qalxacaqsan. Nə lazım olsa, şəfqət bacılarına de... Biz də tez-tez sənə baş çəkəcəyik. Özünü darıxdırma... Şagird dostlarımız da həyətdə həyəcan keçirirlər. İndi gedib onları da təbrik eləyəcəm.

**Tərlan:** Oldu, həkim.

**Rəvanə** *(Qəhərlənərək)***:** Hər gün gələcəm yanına, oğlum. Qonşularımız da uğurlu əməliyyatı eşidib sevinirlər. Tez-tez telefon açıb vəziyyətinlə maraqlanırlar.

*Tibb işçiləri seyrəlirlər. Ən axırda Rəvanə qalır. O, Tərlanın üzündən öpmək istəyir. Tibb bacısı ona mane olur.*

**Şərqiyyə:** Xəstəyə toxunmayın, xanım.

**Rəvanə:** Niyə?





**Şərqiyyə:** Mikrob keçər, fəsadlar verər.

**Rəvanə:** Eh... Mən yaşda arvad hələ də dünyadan xəbərsizəm.

**Şərqiyyə:** Sən də get. Mən burdayam.

**Rəvanə:** Yaxşı... Mən gedirəm, oğlum, yastığın yüngül olsun.

*Ana sakit addımlarla otaqdan çıxır. Tərlanı yuxu aparır. Səhnə qaralır. Tez də işıqlanır. O, gözlərini açır. Şərqiyyə ona yaxınlaşır, cihazları nəzərdən keçirir.*

**Şərqiyə:** Nə lazımdı, Tərlan?

**Tərlan:** Su... Dilim, dodaqlarım quruyur.

*Şərqiyyə stəkanda su gətirir. Tərlan başını azacıq balıncdan qaldıraraq su içir. Yenidən başını balınca qoyur. Könül gəlir.*

**Könül:** Vəziyyətin necədi, Tərlan?

*Pauza*

**Tərlan** *(Üzüntülü səslə)***:** Belə də, həkim. Bu günüm də varmış.

**Könül:** Kim xəstələnmir ki, Tərlan. Bəyəm mən, ya professor xəstəlikdən sığortalanmışıq? Ya öyünə bilərik ki, indən belə də xəstələnməyəcəyik? Yox... Vəziyyətin tam nəzarətdi. Səni tezliklə ayağa qaldıracam.

**Tərlan:** Sağ ol, həkim.

**Könül:** Anana özüm qadağa qoymuşam. Tez-tez yanına gəlib səni kövrəltməsin. Sənə kövrəlmək, qəhərlənmək olmaz... Bilirəm, əməliyyatdan sonra yeyə bilmirsən. Şəkərin yüksəkdi. Endekrinoloqla danışmışam. Təcrübəli həkimdi, tezliklə şəkərini nizama salacaq... Şəfqət bacılarına da tapşırmışam, sabah səni qaldırıb gəzdirəcəklər.

**Tərlan:** Nə tez, həkim?
**Könül:** Tez deyil. Ürək də, şəkər də gəzmək tələb eləyir. Sənə yemək-içmək lazımdı. Bir də ki səni reanimasiya otağında bir neçə gün artıq saxlayacam.

*Tərlanın sifəti bozarır. Üz-gözündə qorxu duyulur. Həkim xəstənin həyəcanlandığını anlayır. Gülümsünür və sözünə davam edir.*

Narahat olma. Ürəyinə qara fikir gətirmə. Burda xəstəyə nəzarət daha güclüdü. Gözümüz üstündə daha çox olar. Səndən arxayın olmaq istəyirəm.

*Tərlanın üzündə təbəssüm, gözlərində sevinc qığılcımları parlayır.*

**Tərlan:** Sizə borcluyam, Könül xanım.
**Könül** *(Xoş təbəssümlə)*: "Siz" yox, Tərlan, "sən" deyə müraciət elə mənə. Bir də ki nə borc?.. Mən xəstə, sən həkim olsaydın, nəsə umacaqdın?..
*Pauza*
**Tərlan:** Çox təvazökarsız, Könül xanım.
**Könül:** Mən həkiməm, Tərlan. Xəstəyə qayğı həkimə ancaq üzağlıq, ləyaqət gətirər. Sənətini sevməyən, onu qədirləndirməyən loğman gərək o sahədə işləməsin. Öz dəyərimizi bilməsək, xəstə bizə inanarmı? İnamsız, ümidsiz yaşamaq instinktlər ağuşunda çabalamaqdı. Arxayın ol, qara-qorxu arxada qaldı.
**Tərlan** *(Gülümsünür)*: Sağ olun, Könül xanım.
**Könül:** Xəstələrim var, onlara baş çəkib gələcəm.

*Könül gedir. Tərlan fikrə dalır. Şərqiyyə ona yaxınlaşır.*





**Şərqiyyə:** Tərlan, siz çox öskürürsüz. Nəfəsinizi çox ehtiyatla alın. Nəfəsin ritmi, ahəngi pozulanda əksər hallarda öskürək yaranır. O da sizə əziyyət verir.
**Tərlan:** Bəs deyirlər, öskürək mənə xeyirdi.
**Şərqiyyə:** Xeyirdi, ancaq bu qədər yox...
**Tərlan:** Hə... Öskürəndə sinəmdə dözülməz göynərtilər yaradır. Elə bil içimdə mina partlayır. Onun qəlpələri sinəmin hər tərəfinə yayılır. Mən o dəhşəti sözlə ifadə eləyənmirəm.
**Şərqiyyə:** Tezliklə sağalıb ayağa qalxarsan. Könül xanım da həyəcandan, intizardan qurtular.
**Tərlan** *(Gülümsünərək)*: Könülün çəkdiklərini düşünəndə bir təhər oluram.
**Şərqiyyə:** Necə?
**Tərlan:** Sarsılıram... Mükəmməl əməliyyat aparıb.
**Şərqiyyə:** Hamı ondan razılıq eləyir.

*Şərqiyyə söhbətin səmtini dəyişir.*

**Şərqiyyə:** Anan qapı arxasındadı, ürəyi dözmür, gəlmək istəyir.
**Tərlan:** De gəlsin. Ürəyi dözmür. Siz Allah anamı qapı arasında saxlamayın.

*Şərqiyyə gedir. Rəvanə gəlir. Əlindəki dolu qara zənbili döşəməyə qoyur. İçindəki şirə dolu şüşələri şkafın üstünə düzür.*

**Rəvanə** *(Səsi titrəyə-titrəyə)*: Çox danışmayacam, oğlum. Bazardan meyvə alıb evdə şirə çəkmişəm, gətirdim içəsən. Qorxma, şirə sənə ziyan eləməz. Gəlişimə həkimlər icazə vermirlər. Yoxsa yanından əl çəkmərəm.
**Tərlan:** Yaxın gəl, ana, əllərindən öpüm. Ətrini duyum.
**Rəvanə** *(Heyrətlə)*: Yox!.. Yox!... Sənə nəsə keçər. Sağal,

qalx ayağa.

*Rəvanə qəm, kədər içərisində Tərlandan ayrılır. Tərlanın gözləri dolur.*

**Tərlanın daxili səsi:** Eh... Xəstə ana. Məni boya-başa çatdırınca başın nələr çəkməyib?! Ömür vəfa versə, hələ bundan sonra nələrə qatlaşmalı olacaqsan... Eh... İşə bax. Səhər qalx isti yatağından. Canındakı sızıltıya, iniltiyə dözə-dözə bazara get, meyvə al, əl-qolun qırıla-qırıla zülmlə evə gətir, əziyyətlə şirə çək, əzabla mənə gətir. Nə var, nə var, mən onun dadına baxım. Şəfa tapım...

*Pauza*

Bilirəm, gecələr də kirpiklərini qırpmamısan. Məni düşünə-düşünə nə qədər göz yaşları axıtmısan... Bunlar azmış kimi, indi də qapıda dayan, oğlunun gününə ağla. Bunu ancaq sən eləyə bilərsən, ana.

*Tərlan yuxuya gedir. Otaq yavaş-yavaş ani qaranlıqlaşır və yenidən işıqlanır. Tərlan gözlərini açır.*

*Şərqiyyəylə başqa bir tibbi bacısı çarpayıya yaxınlaşırlar.*

**Şərqiyyə:** Tərlan, ehtiyatlı ol, səni qaldırıb gəzdirək.

**Tərlan:** Bəlkə sabah.

**Şərqiyyə:** Yox... Siz xəstələrdən olsa heç vaxt. Nədən çəkinirsiz. Yaralarınızı hiss eləməyəcəksiz. Hamı ilk dəfə sizin kimi olur. Həkim əmin olmasaydı, sizi gəzdirməyi bizə tapşırmazdı. Siz kişilər qara görməmiş özünüzdən gedirsiz.

*Tərlanı ayağa qaldırırlar. Dəhlizdə o baş-bu başa aparıb, gətirirlər. Sonra da çarpayıda uzandırırlar.*





**Tərlan:** Elə bil yuxudayam. Gəzməyimə inananmıram.

**Şərqiyyə:** Hələ harasıdı. Sizi tezliklə evə yola salacağıq.

*Şərqiyyənin telefonuna zəng gəlir. Xanım telefonu açır. Ani dayanır. Sonra telefonu Tərlana verir. Sözünə davam eləyir.*

Anandı. Ancaq çox yox.

**Tərlan:** Oldu.

**Rəvanə** *(Sevincək, titrək səslə)*: Oğlum, manitorda gəzişinə baxdım. Allaha min şükür. Çox yaxşısan. Həkim də vəziyyətindən razıdı. Tezliklə səni palataya köçürəcəklər.

**Tərlan:** Sağ ol, ana!

*Şərqiyyə telefonu Tərlandan alır. Şərqiyyə gülümsəyir. Tərlan sözünə davam edir.*

Halsızam, sinəmdəki göynərtilər məni dəli eləyir, gəzəndə qıçlarım üstündə dayananmıram. Yeyə də bilmirəm.

**Şərqiyyə:** Ay eviniz tikilsin, üzərinizdə bu boyda cərrahiyyə əməliyyatı aparılıb, düşünürsən ki, halsızlığın da olmasın? Adamın ayağına tikan batanda, ya adamı arı vuranda ufultusundan dayana bilmir. Dünya başına dolanır. Etiraf elə ki...

**Tərlan:** Nə? Demək istəyirsiz qarışqanı fil eləyənəm? Eh, gör nə danışırsız? Tikan... Arı... Daha nə? Qıçımdan çıxarılan damarın izlərini görəndə vahimələnirəm.

**Şərqiyyə:** Onu fikirləşmə...

*Şərqiyyə palatadan çıxır. Tərlan başını balınca qoyur, onu yuxu aparır. İşıq sönür.*

## V şəkil

*Palata. Çarpayı. Baş tərəfdə dolabça. Onun da üstündə güldan. Güldanda tər gül dəstəsi. Rəvanə çay gətirir. Şərqiyyə şəkəri yoxlayır. Şəkər aparatında 496 görünür. Bunu görən Tərlan əsəbiləşir. Endekrinoloq Şirzad gəlir.*

**Tərlan:** Həkim, bacarmırsız, kənara çəkilin, başqa həkim çağıraq. Bəyəm ölkədə həkim qəhətə çıxıb?

**Şirzad** *(Gülümsünür)***:** Yaraların bir tərəfdən, yeməməyin də o biri tərəfdən... Səbrin də yox... Şəkərin də yatmış gürzə kimi qalxmağa bəhanə axtarır. Mən neyləməliyəm? Qaldı başqa həkimə. O sənə fayda gətirməz, Tərlan.

**Rəvanə** *(Pərt və həyəcanlı halda)***:** Oğlum, nələr çəkdiyini anlayıram. Bədənin dözmür. Həkimlər neçə gündü əldən-ayaqdan gedirlər ki, hər şeyi qaydaya salsınlar. Sənsə əsəbiləşib vəziyyətini daha da ağırlaşdırırsan.

**Şirzad** *(İncik halda)***:** Nahaq yerə təlaş keçirirsən, Tərlan. Əməliyyatdan sonra sənin şəkərin sürətlə qalxırdı. Hətta, ağlagəlməz həddə çatmışdı. Enmək bilmirdi. O zaman hamımız səndən demək olar ki, əl üzmüşdük. İndi isə şəkərin tədricən düşür. Enmə mərhələsindədi. Bizim hamımız sevinirik. Sən nədən narazısan?

*Rəvanənin gözlərindən yaş axır. Şərqiyyə gedir. Tərlan tədricən sakitləşir.*

**Tərlanın daxili səsi:** Axı bu zavallıların günahı nədi? Gecəgündüz yatmayıb keşiyimi çəkmələrimi? Yaşamağım üçün keçirdikləri təlaşlarmı? Qəribə adamam. Öz günahımı, hərəkətlərimi anlamıram. Eh... Şəkər... Şəkər... Məni necə də hövsələdən çıxardın? Xarakterimə uyğun olmayan don biçdin mənə. İndi də peşmançılıq çəkdirirsən... Utandırırsan məni. Mən özümü nəyə vadar elədim? Könül eşitsə, barəmdə nə düşünər?





*Pauza*

Fikirləşməyər ki, Tərlan hələ də uşaqlığında qalır? Davakarlığından əl çəkməyib? Yenə öz müəmmalı xislətindədi? Soruşsa, əlbəttə, soruşmayacaq, indi soruşsa, onda nə deyərəm ona?..

**Rəvanə:** Gərək Şirzad həkimə acıdillik eləməyəydin, oğul. O da sağalman üçün cani-dillə çalışır.

**Tərlan** *(Anasının könlünü almağa çalışır)***:** Nə böyük söz oldu ki, ay ana. Bir kəlmə yersiz sözüm gəmini dəryada batırdı. Fikir eləmə, gələr, üzr istəyib onunla barışarıq...

**Rəvanə:** Nə qəlb qıran söz de, nə də üzr istə.

*Pauza*

**Tərlan** *(Gülümsünür)***:** Məyusluq, qəm, kədər sənə yaraşmır. Darıxdırma özünü. Həkimlər xəstələrinin nələr çəkdiklərini yaxşı bilirlər. Ona görə də inan mənə, təsadüfi sözümün başına ip salmazlar. Bir də ki, ay ana, axı kimə pislik eləmişik? Kimə daş atmışıq?

**Rəvanə:** Allahı olan nigaran qalmaz.

**Tərlan:** Neyləyim, ay ana, sənə qurban olum, məni belə doğmusan.

**Rəvanə** *(Gülərək)***:** Bilirsən ki, özündən müşdəbehlərdən... Maşallah yaxşısan, ay Tərlan. Xəstəxanaya gələn zamankı vəziyyətin hara, indikin hara?.. Burdan çıxan kimi gözaltının adını de, çərşabımı atıb başıma, düz gedəcəm ata-anasının yanına.

**Tərlan** *(Gülərək)***:** Heç bayaqdan elə danışmırdın? Yenə sarı sim: yenə gözaltı, yenə axtarış? Yəqin həftənin sonuna xəstəxanayla xudahafizləşərik...

*Könül otağa gəlir. Rəvanə sevinir. Şərqiyyə otaqdan çıxır.*

**Könül:** Hə... Necədi, Rəvanə xanım...

**Rəvanə:** Siz oğlumu mənə qaytardız, həkim. Allah sizə ömür versin. Sevincimdən danışmağa sözüm də qəhətə çıxıb.

**Könül:** Yox, Rəvanə xanım. Həyatı insanlara Yaradan verir. Bizsə...

**Tərlan:** Haqqınız çoxdu... Əməyinizi azaltmayın.

**Könül** *(Söhbətin səmtini qəsdən dəyişir)***:** Oxuduğumuz vaxtları hərdən xatırlayıram. Kövrəlirəm, qəhərlənirəm. Yenə o günlərə qayıtmaq istəyirəm, Tərlan.

**Tərlan:** O zamanlar çox sentimentalıydın, elə indi də.

**Könül:** Həyat qəribəliklərlə doludu, Tərlan.

**Tərlan:** Qəribəliklər olmasa, nə yaşam?

**Könül:** Məktəbdə oxuduğumuz illəri heç xatırlayırsanmı, Tərlan?

*Pauza*

**Tərlan:** Hərdən düşünürəm, öz-özümə deyirəm: — Nə qədər qəribəsənmiş, qalsız-qadasız məktəb illəri. Safsan. Təmizsən. Arzusan. Diləksən.

**Könül:** Bir o qədər də şıltaq, ipə-sapa yatmayan. Ancaq hər iki halda səmimi. Mehriban. Doğma. Qəlb ovsunlayan. Sevinc, fərəh bəxş eləyən...

**Tərlan:** Hə... Sevincli-kədərli xatirələr ümmanı. Bir həyətə toplaşardıq, şənlənərdik, oynayardıq, danışardıq, gülərdik...

**Könül** *(Gülərək):* Bir şeyi bəhanə eləyib tez-tez bir-birimizə sataşardıq, dalaşardıq, inciyərdik, küsərdik.

**Tərlan:** Sonra da umu-küsünü unudub barışardıq. Can deyib-can eşidərdik.

*Gülüşürlər*

**Könül:** Heyf... Keçdi dərd-sərsiz o illər. Arxada qaldı o sevincli-kədərli anlar...

*Pauza*





**Tərlan** *(Qızararaq)***:** İndi də yandırır məni elədiyim o sarsıntılı *(qəsdən adını çəkmir)* qəbahət. Neçə illərdi utanıram, əsəbiləşirəm yadıma düşəndə. Kaş olmayaydı.

*Pauza*

O vaxtdan hey düşünərdim: bircə dəfə dayanaydıq üz-üzə. Dikiləydi gözlərim gözlərinə. Tək bircə dəfə hisslərimiz dil açaydı, ürəklərimiz danışaydı... Dünyanın işinə bax, nəymiş insan taleyi...

*Pauza*

Nə düşünürdüm, nə baş verdi. İndi qəlbim oyulur qəm, kədər dolu tənhalıq dənizində. Kaş yenə o anlar olaydı.

**Könül** *(Qəhqəhə çəkərək)***:** Səni sevirəm dediyim üçün bir də üzüm sillə yeyəydi?! Yenə səndələyəydim?! Ağ girdə sifətimdə barmaqlarının izi qalaydı?! Vurduğun üçün özün də hıçqırıb ağlayaydın?! Sonra da üz çevirib gedəydim?!

*Tərlan xatirələrin qanadında uçur. Gözləri məchul bir nöqtəyə dikilir. Gözlərindən yanaqlarına bircə gilə yaş dığırlanır.*

**Tərlan** *(Dərindən köksünü ötürərək)***:** Bu da məsum uşaqlıq həyatımız... Mən lap sonralar anladım, nə qədər şirinmiş o pak duyğuların ağuşunda çabalamaq.

*Pauza*

**Könül** *(Kövrələrək)***:** Sən onda da təmiz idin, saf idin, elə indi də, Tərlan.

**Tərlan:** O vaxt dediyin bir kəlmə üçün peşmançılıq hissi keçirdinmi?

**Könül:** Yox. O zamanlar sənə büruzə verməsəm də, qəfil vurduğun sillə içimdəki hissləri daha da dərinləşdirdi. Məni sənə bağladı.

*Elə bu vaxt Şərqiyyəylə Rəvanə gəlir. Şərqiyyə gətirdiyi*

*həbləri Tərlana verir. Tərlan içir.*

**Rəvanə** *(Könülə)***:** Dilim-ağzım qurusun, Tərlansız mən neylərdim, qızım?! Xoşbəxt olasan, Allah sənə özünə layiq...
**Könül** *(Qəsdən)***:** Tərlan, ürəkdən şikayətin varmı?
**Tərlan:** Yox... Ürək özüyçün yavaş-yavaş döyünür.

*Otağı gülüş səsləri bürüyür.*

**Şərqiyyə:** Etibarlı ürək...
**Könül** *(Gülümsünərək)***:** Saxlama, de... *(üzünü Tərlana tutaraq)* hazırlaş... Sabah səni evinə yola salacam. Özünü gücə salma. Gərək daim nəzarətdə olasan...

*Palatanı sükut bürüyür. Handan-hana Tərlan dərindən köksünü ötürür.*

**Şərqiyyə:** Ahın dağlara, daşlara, Tərlan.

*Yenə otağı gülüş səsləri buruyür.*

**Rəvanə** *(Şərqiyyəyə)***:** Mən həmişə Allahıma dua eləyəcəm ki, qarşınıza yaxşı adamlar çıxsınlar.
**Şərqiyyə** *(Zarafatla)***:** Təki çıxsın. Pisindən də qorxmuram. Uzaq başı üstündə işləyib yumşaldacam.
**Könül** *(Şərqiyyəyə)***:** Ay qız, bəsdi. Dilini saxla *(Tərlana)*. Çalışaq şəkərini normada saxlayaq. Əsəb yaradan şeylər barədə düşünmə.
**Tərlan:** Düşünməmək olurmu?
**Könül:** Dedim, çalış. Mənə sözün? Bir şeydən şikayətin yoxsa... Gedim, o biri xəstələrimə də baş çəkim.





*Şərqiyyəylə Könül gedir.*

**Rəvanə:** Oğlum, mən gedim, evi qaydaya salım. Sabahdan bizə göz aydınlığına gələnlər olacaq. Onda üzümüz utanmasın. Bir azdan gələcəm.
**Tərlan:** Bir zaman alıb sənə verdiyim üzüyü də gətir mənə, ana.
**Rəvanə** *(Sevincək)***:** Yoxsa...

*Tərlan başını balınca qoyur. Rəvanə otaqdan çıxır. Səhnə qaralır.*

## VI şəkil

*Palata. Tərlan yataqdadır. Rəvanə divanda mürgüləyir. Günəş şüaları pəncərədən palataya yayılır. Tərlan başını balıncdan qaldırır.*

**Tərlan:** Ana!.. Ay ana!

*Rəvanə hövlnak oyanır.*

**Rəvanə:** Hə... Eşidirəm, oğlum. Yuxu aparıb məni... Necəsən?
**Tərlan:** Bu gün dünənkindən daha yaxşı əhvaldayam. Ağrı-acıdan, narahatlıqdan əsər-əlamət yoxdu.
**Rəvanə:** Qızıldı deyirlər Könülün əlləri.
**Tərlan:** Zəhmət olmasa, pəncərəni aç. Çöldə gözəl hava var. Otağa təmiz hava gəlsin.

*Rəvanə pəncərəni açır. Tərlan ciyər dolusu nəfəs alır.*

**Rəvanə:** Nədənsə, yorğunam.

**Tərlan:** Neçə gündü ayaq üstəsən.

**Rəvanə:** Neyləmişəm ki?

**Tərlan:** Sənə elə gəlir. Xəstəxana şəraiti. Ah-uflar... İynə-dərmanların iyi-qoxusu. Psixoloji sarsıntı. Narahatlıq. Bütün bunların hamısı gərginlik deyilmi, ana?

**Rəvanə:** Ola bilər.

**Tərlan:** Çarpayıdan qaldırsaydın, ana, otaqda bir az gəzərdim.

**Rəvanə:** Nə əcəb özün dilə gəldin bala? İlk dəfə xoş bir təşəbbüs? Günəş hardan doğub ay oğul?

*Rəvanə Tərlanı qaldırır. Otaqda gəzirlər. Tərlan yorulur. Gəlib çarpayıya uzanır.*

**Tərlan:** Qıçlarım bədənimi saxlamır. Çox gəzsəm, yıxıla bilərəm.

**Rəvanə:** Axı həkim — gəz — deyir.

**Tərlan** *(Gülümsünür)***:** Bədən mənimdi, yoxsa həkimin?

**Rəvanə:** Həkim bilməsə, deməz.

**Tərlan:** Mən tab gətirənməyib yıxılsam, həkim susacaq. Sən də kor-peşman olub üz-gözünü cıracaqsan... Kaş şəkəri də özümdən beləcə uzaqlaşdıra biləydim.

**Rəvanə:** Əlacsız dərd yoxdu. Ən qorxulusu ürəkdi.

*Şərqiyyə əlində təzə, tər gül dəstəsi gətirib, dolabçanın üstünə qoyur.*

**Şərqiyyə:** İş yerinizdən dostlarınız göndəriblər.

**Tərlan:** Sağ olsunlar.

*Şərqiyyə gedir.*





**Rəvanə:** Gedim, bir-iki dəstə gül alıb gəlirəm.

**Tərlan:** Hə... Onu mən deyəcəkdim, ana.

*Rəvanə gedir.*
*Tərlan başını balınca qoyur. Onu yuxu aparır. Tez də oyanır.*

**Tərlanın daxili səsi:** Könül elə həmin Könüldü... Bu illər ərzində xasiyyəti də dəyişməyib. Baxışı da, gülüşü də elə uşaqlıqdakı kimi məsum, cəlbedici, səmimi... Çox ağıllı gözləri var. Utanıram onun qayğılarından... Çəkdiyi əziyyətlərindən. Səhhətimlə bağlı nigarançılığından...

*Rəvanə əlində gül dəstələri otağa daxil olur. Arxasınca Şərqiyyə də gəlir.*

**Tərlan:** Gəl, ana, gəl, sənə qurban olum. Sənsiz mənə nə həyat?!. Əziyyətini halal elə. Nə gözəl güllər?!

**Rəvanə:** Güllərin çox gözəl ətri var, oğlum.

**Tərlan:** Güllər də təbiətin möcüzələrindəndi. O gözlərimizə nə qədər cazibədar görünsə də, bir o qədər də ürəyimizə, hissimizə, hətta, ağlımıza təsir eləyir. Qəlbimizi açır.

**Şərqiyyə:** Tərlan, siz danışanda adam bir təhər olur, ey. Yazıçılığınız yoxdu ki?

**Tərlan:** Yox... Necə bəyəm?

**Şərqiyyə:** Lap yazıçılar kimi danışırsız.

**Rəvanə:** Bu gün xoşbəxtəm. Geridə qalan bu sarsıntılı, iztirablı anları heç vaxt unudanmaram. Həyatın keşməkeşləri, dəhşətləri insan taleyindən ayrılmazdı.

**Tərlan** *(Gülümsünərək)***:** Filosofdu mənim anam.

**Şərqiyyə:** Olar da. Bir oğlu var, o da gözlərinin qabağında...

**Rəvanə:** Analar çəkəni dağ da çəkməz.

**Tərlan:** Özünü üzmə, ana. Çox fikirləşirsən. Çox götür-qoy eləyirsən. Ona görə də dərd-qəm yükü səni yaxalayır.

**Rəvanə:** Götür-qoy eləməmək olurmu? Eh... Bu dünyaya gəl, ye, iç, get. Sonra nə olsun? İzin-tozun da qalmasın.

**Şərqiyyə:** Dünya əzəldən belədi, Rəvanə xanım. Axıracan ondan razılıq eləyəni nə görmüşəm, nə də eşitmişəm?

*Şərqiyyə otaqdan çıxır.*

**Tərlan:** Bir azdan Könül xanım sənədlərimi gətirəcək. Məni yola salmağa yəqin ki, professor da, tibb bacıları da gələcəklər. Hamısına təşəkkürünü bildirərsən. Bayaq gətirdiyin gül buketini Könülə, o birilərini də professora, tibb bacılarına təqdim eləyərsən.

*Könül gəlir.*

**Könül:** Yaxşısan Tərlan. Həyat davam eləyir.

**Tərlan:** Hə... Narazılıq eləməyə haqqım yoxdu. Əlbəttə, sizin sayənizdə. Ancaq çox yorğun görünürsən.

**Könül** *(Təəssüflə)*: İş adamı üzür, Tərlan. Yəqin sizdə də belə olur.

**Tərlan:** Baxır hansı işə. Mən həmişə həkimlərə qibtə eləmişəm. Bəzən həkim olmadığıma görə özümü məzəmmətləmişəm də.

**Könül** *(Ani fikrə gedir)*: Çoxları gəncliyində elə hisslər keçirirlər... Həkimlik sevgi tələb eləyir. Sənətini sevmədən yaxşı həkim olmaq mümkün deyil.

**Tərlan:** Təkcə sənətini yox, həm də xəstələri. Qadınların həkim olması iki qat məsuliyyətdi, elə deyilmi?

**Könül** *(Tərlanın sözünü başı ilə təsdiqləyərək)*: Elədi

**Rəvanə:** Hə, necədi, bu gün Tərlanla mürəxxəs eləyirsiz?

**Könül:** Eləyirik. Oğlunuza sağlamlıq arzulayıram, Rəvanə





xanım. Heç vaxt belə ağır durum əzablı günlər keçirməyəsiz.

*Qapı açılır. Professor bir neçə tibb işçisi ilə palataya daxil olur. Tərlan ayağa qalxır. Hamını Rəvanə xanımla birlikdə gülərüz qarşılayırlar. İşçilər Tərlana əl verirlər. Ona uğurlar diləyirlər.*

**Professor:** Tərlan, sənin həyatın üçün Könülün keçirdiyi həyəcanlar, çəkdiyi ağrı-acılar, iztirablar məni dəhşətə gətirdi. Onun sayəsində ayağa qalxdın. Ürəyindən qorxma. İdman elə. Hovuzda çim. Təmiz havada gəz.

*Pauza*

**Tərlan:** Yaşamağımın, xəstəlikdən qurtarmağımın başlıca səbəbi Könül xanımdı, sizsiz, hörmətli professor, dostlarımdı. Məni var gücünüzlə dəstəklədiz. Ayağa qaldırdız. Mən də, əziz anam da heç vaxt havadarlarımızı, bu gərgin keçən anlarımızı unutmarıq.

*Rəvanə alıb gətirdiyi gül buketini Könülə, Tərlanın iş yerindən göndərilən gül dəstəsini isə professora verir. Qalanlarını da tibb bacılarına paylayır.*

**Rəvanə:** Hamınıza təşəkkür eləyirik.

**Tərlan** *(Könülə)*: Mənə elə gəlir ki, ilk inciklik məsafəsində qalan nöqtədən bizi ayıran on beş il birdən-birə əriyib yox oldu. İndiki anda o nöqtəylə bu nöqtə qovuşdu, elə deyilmi *(kövrələrək)?* Könül xanım, *(titrək səslə)* məni bağışlayırsanmı?

**Könül:** O nə sözdü, Tərlan!

**Tərlan:** Elə isə dünən anamın min bir diləklə gətirdiyi üzüyə sahib dur.

*Tərlan cibindən üzüyü çıxarır. Könül utana-utana ətrafdakılara baxır, sonra barmağını irəli uzadır. Tərlan üzüyü illərlə məhəbbətini qəlbində gəzdirdiyi Könülün barmağına keçirir. Hamı sevinc və fərəhlə əl çalır. Əvvəl Rəvanə, sonra da professor Tərlanla Könülün alnından öpür. Hamı deyə-gülə palatanı tərk edir.*

*İşıq sönür.*

***2012***





# Kinossenarilər

# Canavar balası

***(İki hissəli kinossenari)***

**İştirak edirlər:**

**Yusif** — el ağsaqqalı, Nofəlin atası
**Səriyyə** — Yusifin arvadı
**Nofəl** — hərbi komandir
**Ənvər** — əsgər, şahid
**Məhkəmənin sədri**
**Dövlət ittihamçısı**
**Vəkil**
**Sarkisyan** — şahid
**Rima** — şahid
**Mama Roza** — aşpaz
**Aşot** — erməni hərbçilərinin komandiri
**Vazgen Paranyan** — şahid
**Xaçaturov** — Ermənistan Milli Təhlükəsizlik Nazirliyi Xüsusi Məxfi Xidmət Agentliyinin rəisi, polkovnik
**Stepanyan** — erməni hərbçisi
**Alixanyan** — erməni hərbçisi
**Qriqoryan** — erməni hərbçisi
**I hərbi kəşfiyyatçı** — azərbaycanlı
**II hərbi kəşfiyyatçı** — azərbaycanlı
**III hərbi kəşfiyyatçı** — azərbaycanlı





## I hissə

*Göytəpə kəndi. Kəndin dörd tərəfi meşədir. Kamera yaşıl dona bürünmüş dağları, sakit axan bulaqları, gur şəlaləni panorama alır. Ekranda mavi səmada pərvaz edən quşlar uçuşur. Ağ saçlı, dünya görmüş Yusif kişi çay aşağı düşür. Atın sakit yerişindən görünür ki, o, heç yerə tələsmir, çox xoşbəxt görünür. Kadr arxasından Yusif kişinin səsi eşidilir.*

**Yusifin səsi:** Mən düz yetmiş üç il əvvəl bu kənddə dünyaya göz açmışam. Oxumağı, yazmağı bacarmasam da, çox şey öyrənmişəm. Xalq, millət üçün ən əziz sərvət dildi, bir də üstündə boya-başa çatdığı, qarnını doydurduğu torpaq. Şükür olsun Xudaya, gözəl dilimiz, barlı-bəhərli, zəngin torpağımız var. Ulularımız onları əzizləyiblər, qoruyublar, nəsillərdən-nəsillərə ötürüblər. Fəxr eləyirəm ki, dünyada Azərbaycan adlı müstəqil dövlətim var. Onun dağına da, keçilməz qayalarına da, meşələrinə də vurğunam. Yazda əlvan boyalara bəzənir, yayı buz bulaqlı, payızı barlı-bəhrəli olur... Kəndim mənim, torpağına qurban olum. Sənə xəyanət eləyənlərə qoynunda yer yoxdur...

*Kadr dəyişir. Yusifin həyəti. Axşamdır. Göyün üzündə ala-tala buludlar uçuşur. Yusifin arvadı Səriyyə corab toxuyur. O, corabı kənara qoyub ərinə çay gətirir. Yusif başını qaldırıb uçuşan buludlara baxır.*

**Səriyyə:** A kişi, yenə nə olub, özündə deyilsən?
**Yusif:** Nə olacaq?! Yağı düşmən çörəyimizi yedi, suyumuzu içdi, axırda da bizə xəyanət elədi. Sərhəddə adamlar qırılır. Uşaqlar vahimə içərisində yaşayırlar. Üstəlik, torpaq da əldən

gedir. Hansını deyim?

**Səriyyə:** Başı boşluğumuzdan... Unutqanlığımızdan... Bəyəm, kişi, bu, birinci haldı?

**Yusif:** Torpaqlar əşya kimi satılır... Məni öldürən Allahsız satqınlardı.

**Səriyyə:** Tələsmə, kişi, onlar da cəzalarını alacaqlar.

**Yusif:** Allahın səbri çox genişdi. O, bələlərinin cəzasını verincə, bizimki bizə dəyər. Ölənlər də ara yerdə gedirlər. Heyf ölənlərin canından, murdarlanmış torpaqdan. Bir göyə bax....

**Səriyyə:** Nə olub ki?

**Yusif:** Təmiz bircə o göydü. İnsan ayağı dəysə, ora da çirkaba batacaq. Niyə belə oldu? Dur, o tütəyi gətir.

*Səriyyə yan otağa keçir. Tez də əlində tütək qayıdır. Yusif tütəyi alır, əlində oynadır, astadan dodaqlarına yaxınlaşdırır. Tütək yavaş-yavaş nalə çəkir, səsi kənd-kəsəyə yayılır. Qonşular eyvana çıxıb zarıyan tütəyin səsinə qulaq asırlar. Kamera onları panorama eləyir. Yusifin gözləri önündə "Xocalı", "Şuşa" faciələri canlanır. Kadrlar bir-birini əvəzləyir. Səriyyənin gözlərindən yaş süzülür. Handan-hana tütək susur.*

**Səriyyə:** Yaman kövrəldim, ay Yusif... Sənin belə yanıqlı tütük çalmağını çoxdandı eşitməmişdim.

**Yusif:** Bulud boşalanda hər tərəf sel-su olar.

**Səriyyə:** Bilirəm, Nofəlin fikrini çox çəkirsən. Deyirəm, dava qurtarıb, o da gəlsəydi, evləndirərdik, bu yaşda biz də nəvə görərdik.

**Yusif** *(köks ötürərək)***:** Müharibə çox ailələrə dağ çəkib. Çoxdandı bu zavallıdan da xəbər-ətər yoxdu. Hərdən düşünürəm, bəlkə, əsir düşüb, bəlkə də şəhid olub?

**Səriyyə** *(içini çəkərək)***:** Bu nə danışıqdı? Deyəsən, başına at təpib bu yaşda... Xəta-bəla bəyəm bizim üçün gəlib?





**Yusif:** Mən nə dedim, ay arvad?

**Səriyyə:** Da nə deməliydin?

**Yusif:** Döşünə yatmayan söz deyən kimi atılırsan. Bəyəm bizimki şəhid olanlardan artıqdı? Eşitməmisən? Qaradan da tünd rəng var? Bu, müharibədi. Müharibə ölüm-itimdi... Camaat necə, biz də elə... Apar tütəyi as yerindən *(gülümsünərək)*, az qala qırdıracaqdı bizi.

*Səriyyə başını bulaya-bulaya tütəyi aparır.*

Pauza

İlahi, mənim əlimdə imkan olsaydı, dünyanı cənnətə döndərərdim... Qarabağı düşməndən geri alardım... Hər kəs istəyincə yaşayardı. Adamların göz yaşlarını bir də görməzdim.

*Səriyyə gəlir, Yusifin dalğın nəzərlərini duyur.*

**Səriyyə:** Belə getsə, özünü həlak eləyəcəksən, kişi.

**Yusif:** Həlak niyə? Günümü görmüşəm, dövranımı sürmüşəm. Bundan sonra yaşamağım artıqdı.

**Səriyyə:** Ürəyimi kövrəltmə.

*Poçtalyon Səməd gəlir. Salamlaşırlar.*

**Yusif:** Hə... Yoxsa, Nofəldən məktub var?

**Səməd:** Məktub yox, teleqramdı.

**Səriyyə:** Gəlir?

**Səməd:** Alın, oxuyun.

**Səriyyə:** Ürəyimizi çatlatma... Yoxsa, uşağın başında bir iş var?

**Yusif:** Əşi yavaş... *(Başını bulayaraq)*. Ortada heç nə yox, qarğa məndə qoz var eləmə, qonşuların qulağı azdan-çoxdan bir şey kəssə, kəndə qıy vuracaqlar.

**Səməd** *(sakit tərzdə)***:** Sakit ol, Səriyyə bacı, oğlunuz salamatdı.

*Səməd teleqramı oxuyur.*

Nofəlin valideynlərinə! Sabah saat onda Ali Məhkəmədə Nofəlin mühakiməsi olacaq. Sizin də orda iştirakınız tələb olunur.

*Səməd xudahafizləşib gedir.*

**Səriyyə:** Bizim oğlumuzun məhkəmədə nə işi?
**Yusif:** Mən nə bilim, gedərik, bilərik.
**Səriyyə:** Heç nə başa düşmürəm. Mənim oğlum hara, məhkəmə hara?

*Kadr dəyişir. Yusiflə Səriyyə evə keçirlər. Lazım olan şeyləri çantaya yığırlar.*

**Yusif:** Bizim qismətimizdə bu da varmış...

*Yusifin gözləri Nofəlin divardan asılan şəklinə dikilir.*

**Səriyyə:** Uşağın şəklinə qanlı-qanlı baxma, kişi. Hələ bilmək olmaz, bizi nədən ötrü çağırırlar.
**Yusif:** Məhkəməyə adamın başını sığallamağa çağırmazlar.
**Səriyyə:** Sən bircə əsəbiləşmə.
**Yusif:** Pulları, pasportları götür. Cəld ol.
**Səriyyə** *(Ağlamsınaraq)***:** Kişi, mənə indi-indi təsir eləyir. Bu nə bəladı biz düşdük?
**Yusif:** Yox, arvad, Nofəl yolunu aza bilməz. İnanmıram… Sənin yuxusuz gecələrin, mənim çəkdiyim əzab-əziyyət, ona verdiyimiz tərbiyə hədər gedə bilməz.





**Səriyyə:** Vallah, mən də inanmıram.
**Yusif:** Yetmiş üç illik ömrümdə məhkəmə, prokurorluq işçiləri ilə qarşı-qarşıya dayanmamışam… Ancaq, "məhkəmə", "xalq hakimi", "prokuror" sözlərini çox eşitmişəm. Ağlıma gəlməzdi ki, ömrümün qürub çağında yolum məhkəməyə düşəcək, kim bilir, bəlkə məni də danışdıracaq, sorğu-suala tutacaqlar. Üzünü görmədiyim, səsini eşitmədiyim adamlar içərisində məhkəmə sədrinin, prokurorun, nə bilim kimlərin, kimlərin suallarına cavab verməli olacam…
**Səriyyə:** Nə olsun? Bəyəm, məhkəməyə düşən təkcə bizik? Camaat boşanmağa gedir, boşanır, dişlərini ağarda-ağarda da geri qayıdırlar. Arsız-arsız da danışıb gülürlər. Bizə nə olub? Hələ ki bir iş yoxdu?
**Yusif:** Yaman yorulmuşam. Əsəb məni əldən salıb. Görəsən, Nofəlin əlindən xəta çıxar? Axı mənim oğlum cinayətkar ola bilməz. Bu nəsə mənim ağlıma batmır. Bəlkə də onu yoldan çıxarıblar? Yox! Axı nəyin xatirinə yolunu azsın? Görünür, bir anlaşılmazlıq var… Nofəl hara, məhkəmə hara? Bəlkə şərə düşüb?! Hər halda adamı boş yerə tutmazlar… *(Dərindən nəfəs alır)*. Adam öldürmək onun əlindən gəlməz. Bəlkə satqınlıq eləyib? Satqınlıq?! Görən, ürəyimdəki bu ağrı, göynərti hardandı?!
**Səriyyə:** Uzaq yoldu, kişi, ləngiməyək.
**Yusif:** Təki rüsvayçılıq olmasın.

*Onlar danışa-danışa gəlib avtobusa əyləşirlər. Kamera maşını müşayət edir. Maşın gözdən itir.*

*Kadr dəyişir. Yusif kişiylə Səriyyə maşından düşüb binaya daxil olurlar. Məhkəmə zalı. Prokuror, məhkəmə sədri. İclasçılar, vəkil, məhkəmənin katibi öz yerlərində əyləşiblər. Sədr zalı nəzərdən keçirir. Yusiflə Səriyyə də zalda oturublar. Polislər*

*Nofəli qolu qandallı gətirib dəmir barmaqlıqlar arasına salırlar. Səriyyə ixtiyarsız halda ayağa qalxır, yenidən oturur. Nofəl heç kimə baxmadan başını aşağı salıb.*

**Sədr:** Məhkəmə iclasını açıq elan edirəm. Müttəhim Nofəl Yusif oğlu Kələntərlinin işi ilə əlaqədar məhkəmə iclasına başlayırıq. Müttəhim Nofəl Yusif oğlu Kələntərli Çiçəklidərə bölgəsində "N" hərbi hissəsinin, Qoşa Çinar ətrafında hərbi əməliyyat qrupunun sirlərini erməni işğalçılarına satmaqda, Günəşli kənd sakinlərindən bir dəstə azərbaycanlı qoca, qadın və uşağı meşədə qəsdən, xəyanətkarcasına qırğına verməkdə təqsirli bilinərək ittiham olunur. Müttəhim Nofəl Yusif oğlu Kələntərlinin mühakiməsi ilə əlaqədar prokurorluğun qərardadını oxumaq üçün sözü dövlət ittihamçısına veririk.

**Dövlət ittihamçısı:** Cinayət işi materiallarının araşdırılması, şahidlərin izahatı, yerlərdə aparılan söhbətlər, müharibənin gedişi istiqamətlərinin gözlənilmədən dəyişməsi, hərbi sirlərin satılması, hərbi sursatın düşmənin əlinə keçməsi, hətta özünün komandir olduğu dəstənin mühasirəyə düşməsi Nofəl Yusif oğlu Kələntərlinin düşmənə əlverişli imkan yaratdığını tam sübuta yetirmişdir. Nəticədə düşmən torpaqlarımızı zəbt edərək böyük faciə törətmişdir. Buna görə də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin uyğun maddəsinə əsasən müttəhimin həbsinə sanksiya verilmişdir.

**Sədr:** Əyləşin.

**Yusifin daxili səsi:** Kaş qulaqlarım kar olaydı. Pərvərdigara, saçımın, saqqalımın ağaran çağında bu nə bəladı mənə göndərmisən?.. Ay nankor oğlu nankor, mən səni sevə-sevə, saf, təmiz duyğularla böyütmüşəm… Həmişə sənə vətən qeyrətindən, torpaq məhəbbətindən danışmışam. Sənə böyük ümidlərlə baxmışam… Mən hardan biləydim ki, sinəmdə böyüyən bu ilan balası xalqın qatili olacaq? Sənə verdiyim çörək gözlərini tutsun…





Mənim ocağıma haram qatan namərd. Gör məni necə rüsvay elədin? Bu dərdə dağ da dözə bilməz…

*Sədr Nofələ müraciətlə.*

**Sədr:** Müttəhim Nofəl Kələntərli, Çiçəklidərə bölgəsində Azərbaycana məxsus "N" hərbi hissəsinin sirlərini düşmənə satmaqda məqsədin nə olmuşdur?

**Nofəl:** Mən heç bir sirr satmamışam. Bunlar məni dolaşdırmaq, cəbhə bölgəsində komandir kimi nüfuzdan salmaq üçün qurğudur. Həmişə mənim paxıllığımı çəkiblər. Qorxublar ki, tezliklə hərbi rütbəm qalxa bilər. İzahat vermişəm və indi də deyirəm, mən satqın deyiləm, bu fikirdə də olmamışam. Bir azərbaycanlı kimi vətənimi sevmişəm, bu gün də sevirəm. Bu böhtanların heç biri ilə razı deyiləm.

**Yusifin daxili səsi:** Bayaqdan mən də asıb-kəsirəm. Bəlkə, doğrudan da onun heç bir günahı yoxdu, yazığa böhtan atıblar? Nə çoxdur başqasını gözü götürməyən.

**Dövlət ittihamçısı:** Bu sənədlərlə tanış olmuşam, əsl həqiqəti ayna kimi əks etdirir. Hansı böhtandan danışırsan? Sən hərbi satqınlığa yol vermisən. İndi də yalan danışmaqla yaxanı qurtarmaq istəyirsən.

**Nofəl:** Mən bircə onu bilirəm ki, bu toru qəsdən qurublar. Amma gözəl atalar sözü var: "Özgəyə quyu qazan özü düşər".

**Dövlət ittihamçısı:** Atalar sözünü misal gətirməkdənsə, satqınlıq edəndə vətənin, xalqın, valideynlərin barədə düşünəydin…

**Nofəl:** Mənim ata-anamla işiniz olmasın. Onları bura nahaq çağırmısız.

**Sədr:** Protokol üzrə onların iştirakı vacibdi. Çiçəklidərə bölgəsində "N" hərbi hissəsinin hərəkət edəcəyi yolları bir komandir kimi sən bilirdin?

**Nofəl:** Yox! Bu, doğru deyil. Onu başqaları da bilirdi. Burda heç bir gizli iş yox idi.

**Dövlət ittihamçısı:** Axı həmin məlumatlar mərkəzdən yalnız sənə verilirdi. Başqaları bundan xəbər tuta bilməzdilər. Əgər bilən olubsa, deməli, sən demisən.

**Nofəl:** Xeyr. Mən heç kəsə sirr verməmişəm. Görünür, məlumatı başqa yollarla əldə ediblər… Sadəcə, məsələ burasındadır ki, indi mən komandir kimi satqınların əvəzində cavab verməк məcburiyyətindəyəm.

**Sədr:** Şahid Sarkisyanı çağırın, gəlsin…

*Sarkisyan gəlir.*

**Sədr:** Özünü təqdim elə.

**Sarkisyan:** Sarkisyan Xoren Ambarsumoviç. Yerevanda doğulmuşam. Çiçəklidərə vuruşunda əsir alınmışam.

**Sədr:** Müttəhim Nofəl Yusif oğlu Kələntərli, sən erməni işğalçı ordusunun komandirlərindən biri, qatı cinayətkar Sarkisyanı tanıyırsanmı?

**Nofəl:** Xeyr, tanımıram.

**Sədr:** Şahid Sarkisyan, sən necə, Nofəli tanıyırsanmı?

**Sarkisyan:** Bəli! Mən onu çox yaxşı tanıyıram.

**Nofəl:** Yalan deyir.

**Sarkisyan:** Mən onunla üç dəfə görüşmüşəm. Ratsiya ilə də bir neçə dəfə əlaqəyə girmişik. O da məni çox yaxşı tanıyır. Bir çox məlumatları da mən ondan almışam.

**Sədr:** Nofəl Kələntərli sənə hansı məlumatları verib?

**Sarkisyan:** Əsas hərbi hissənin yerləşdiyi yeri, strateji yüksəklikləri, hücumun vaxtını, atəş açılacaq nöqtələri, əsgərlərin sayını. Bir sözlə, bütün hərbi sirləri mən ondan öyrənmişəm.

**Nofəl** *(əsəbi)*: Sən nə əclaf adamsan?..

**Sədr:** Müttəhim Kələntərli, sənə söz verəndə danışarsan.





**Dövlət ittihamçısı** *(Sarkisyana)*: Bu sirləri ermənilərə açmaqda müttəhim Kələntərlinin məqsədi nə idi?

**Sarkisyan:** O, sirləri bizə verir, əvəzində əsgərlərin meyidlərini alıb sahiblərinə satırdı. Bir neçə dəfə bu işdə mən də ona kömək eləmişəm.

**Dövlət ittihamçısı:** O, ermənilərdən daha kimlərlə əlaqə saxlayırdı?

**Sarkisyan:** Bizim alay komandiri Aşotla.

**Nofəl:** Mən elə erməni tanımıram. Bu dığanı mənim əleyhimə öyrədiblər…

**Sarkisyan:** Aşot həmişə Nofəli bizə təriflәyərdi. Nofəlin ermənipərəst olduğunu deyirdi. Sonra özümüz də bunun şahidi olduq. Biz çox asanlıqla Nofəldən istifadə edirdik. “Çiçəklidərə əməliyyatı”nda bizə əsas məlumatları da o verib.

**Sədr:** Nofəlin "ermənipərəst" olmasını necə sübut edə bilərsən?

**Sarkisyan:** Sübut odur ki, o, bizə satılmışdır.

**Sədr:** Mən istərdim, sən məhz “ermənipərəst” fikrini bir qədər də dəqiqləşdirəsən.

**Sarkisyan:** Bu, bizdə də təəccüb doğururdu. Özün azərbaycanlı olasan, amma, özünə qarşı çevriləsən. Biz Nofələ yalnız satqın kimi baxırdıq. O, görüşlərin birində mənə dedi ki, siz tələsməyin, bu türklərin atasını birgə yandıracağıq… Mən inanıram ki, “Böyük Ermənistan” yaranacaq, türklər əvvəl-axır bu müharibəni uduzacaqlar…

**Nofəl:** İndi gördünüz, bu, iftiradı. Mən azərbaycanlı ola-ola, elə sözləri necə deyə bilərəm?

**Sarkisyan:** Elə biz də ona mat-məəttəl qalmışdıq.

**Sədr:** Aydındı… Aşot haqqında nə deyə bilərsən?

**Sarkisyan:** Aşot arxa cəbhədə xidmət edir. Azərbaycanlı əsirlərlə iş aparır.

**Sədr:** Nofəl Kələntərli Aşotu nə vaxtdan tanıyır?

**Sarkisyan:** Dəqiq deyə bilmərəm. Amma bir dəfə Aşot mənim yanımda ratsiya ilə Nofələ "qardaş" deyə müraciət edib, onu erməni kəndinə, Arakelin evinə qonaqlığa çağırdı. Mən ratsiyada bunu da eşitdim ki, Nofəl hökmən gələcəyini bildirdi. Kəşfiyyat İdarəsi məni Yerevana çağırdığı üçün həmin ziyafətdə iştirak edə bilmədim. Amma aldığım məlumata görə, Arakelin evində yaxşı kef məclisi olub… Onlar gecə yarıyadək bakirə qızlarla əyləniblər. Aşotla Nofəlin dostluğunun tarixi qədimdi, qədim.

**Sədr:** Sənin dediyindən belə çıxır ki, Nofəl Kələntərli ilə Aşot son günlərə qədər görüşüblər?

**Sarkisyan:** Bəli!

**Sədr:** Müttəhim Nofəl Kələntərli, indi sözün nədi?

**Nofəl:** Ağ yalandı, böhtandı. Mən satqın deyiləm. Aşot adlı erməni də tanımıram. Onunla heç bir əlaqəm olmayıb. Vətənimi də burda oturanlardan az istəmirəm. Qaldı bu erməni dığasının üzümə durmasına, burda təəccüblü bir şey yoxdur. Xalqımın düşməni məni — milli ordumuzun zabitini, komandirini, döyüşdə ermənilərə divan tutan Nofəli tərifləməyəcək ki. Mən Nofəl Yusif oğlu Kələntərli həmişə torpağımızın şərəfini qorumuşam, düşmənlərimizlə qorxmadan vuruşmuşam. Ermənilər məni öz tərəflərinə çəkmək istəyiblər, amma mən onların fitvasına uymamışam.

**Dövlət ittihamçısı:** Müttəhim Nofəl Kələntərli, bizdə olan məlumata görə, ermənilərlə əlaqə saxlamaq üçün sənin xüsusi şifrən olub. O şifrə necə adlanır?

**Nofəl:** Mənim heç bir şifrəm olmayıb, hamısı uydurmadır.

**Sədr** *(üzünü Sarkisyana tutaraq)*: Nofəlin şifrəsi necədir?

**Sarkisyan:** NYK.

**Sədr:** NYK-nın açılışı nədir?

**Sarkisyan:** Nofəl Yusif oğlu Kələntərli.

**Sədr:** Bu şifrəni Nofələ kim verib?





**Sarkisyan:** Bizim Kəşfiyyat İdarəsi…

**Sədr:** Deməli, Nofəl Kələntərli birbaşa erməni kəşfiyyat idarəsi ilə əlaqədə olub.

**Sarkisyan:** Bəli, olub! O, birbaşa mərkəzə çıxa bilirdi. Hətta, Məxfi Xidmət Agentliyinin son yığıncağında verilən tapşırıqlardan da xəbərdardı. Hər mühüm sirrə görə Daşnaksutyun Partiyası ona böyük məbləğdə pul verirdi.

**Sədr:** Müttəhim Nofəl Kələntərli, topladığın həmin pulları harda saxlayırdın?

**Nofəl:** Qaldırılan ittihamların hamısı quramadır. Erməni kəşfiyyatı ilə əlaqəm yoxdur. Daşnaksutyun Partiyasından da pul almamışam. Sarkisyan canını qurtarmaq üçün mənə böhtan atır.

**Sədr:** Şahid Sarkisyan, Daşnaksutyun Partiyası Nofəl Kələntərliyə çatacaq pulları hara keçirirdi?

**Sarkisyan:** Fransa bankına, yoxlatdıra bilərsiniz.

**Sədr:** Nofəl Kələntərli, nəzərinə onu da çatdırım ki, Fransa bankındakı hesabın barədə artıq bizdə məlumat var. Sənədlər bizim əlimizdədir.

**Dövlət ittihamçısı:** Müttəhim Nofəl Kələntərli, sən çox təkidlə deyirsən ki, erməni kəşfiyyat idarəsi ilə əlaqən olmayıb *(sənədlərin içindən bir fotoşəkil göstərir)*. Bəs həmin idarənin məsul işçisi Paranyanla çəkdirdiyiniz bu şəklə nə deyə bilərsən?

*Nofəl susur. Dövlət ittihamçısı əlindəki kaseti maqnitofona salır. Nofəlin erməni kəşfiyyatı ilə ratsiya danışıqları səslənir "Mən NYK-yam".*

**Sədr:** Müttəhim Nofəl Kələntərli bu danışdıqların kimlərdilər? "Qoşa çinar" əməliyyatı qrupunun sirlərini erməni kəşfiyyatına satmaq üçün sənə hansı vədlər verilmişdi?

**Nofəl:** Onları tanımıram. Dedim ki, erməni kəşfiyyatı ilə əlaqə saxlamamışam və heç bir vəd də almamışam. Cəbhədə na-

muslu əsgər kimi vuruşmuşam. "Mərkəz"dən alınan bütün əmrləri yerinə yetirməyə çalışmışam. Hətta hərbi şücaətlərimə görə barəmdə televizorda veriliş də hazırlayıblar.

**Dövlət ittihamçısı:** Düzdür, sən "Mərkəz"in əmrini yerinə yetirmisən. Amma bu "Mərkəz" ermənilərin olub. Sən yağı düşmənin əmrlərini qul kimi həyata keçirmisən.

**Nofəl:** "Qoşa çinar" əməliyyatında heç bir satqınlıq olmayıb.

**Dövlət ittihamçısı:** Sən kəşfiyyat qrupunun planını kobudcasına pozmusan. Bütün əsgərləri inandırmısan ki, "Qoşa çinar" əməliyyatında ermənilər mövqe tuta bilməzlər. Oraya hazırda Azərbaycan hərbçiləri nəzarət edirlər.

**Nofəl:** Qətiyyən düz deyil. Planı tək mən hazırlamamışam. Mən də başqaları kimi müzakirədə öz fikrimi bildirmişəm. Ola bilsin ki, səhvə yol vermişəm.

**Dövlət ittihamçısı:** Sən səhv eləyə bilməzdin. Kəşfiyyat qrupu səni vaxtında xəbərdar eləmişdi. Sən komandir olmusan. Əsgərlərin taleyinə, planın hazırlanmasına, icrasına birbaşa məsuliyyət daşıyırdın. Sən əsgərləri qırdırmısan. İndi də səhv eləmişəm deməklə məsuliyyətdən boyun qaçırmağa çalışırsan. Onu da bilməlisən ki, elədiyin bu qatı cinayət xalqın kürəyinə arxadan vurulan zərbədi. Sənin əməllərin erməni faşistlərinin törətdiyi dəhşətlərdən də betərdi.

*Kadr dəyişir. Ekran ağarır.*

*Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin Xüsusi Məxfi Xidmət Agentliyinin rəisi, polkovnik Xaçaturovun kabineti. Stepanyan, Alxanyan, Qriqoryan və başqaları əyləşiblər.*

**Xaçaturov:** Sizi bura dəvət etməkdə məqsəd Qarabağ müharibəsi ilə əlaqədar vəziyyəti öyrənmək, müharibənin gedişini bir qədər də intensivləşdirməkdir. Əvvəlcə sizi eşitmək istərdim, Stepanyan.





**Stepanyan:** Rus hərbi birləşmələri ilə erməni könüllüləri vahid cəbhədən çıxış edirlər. Axşam rus ordusunun generalı Semyonov bizi xeyli miqdarda silah-sursatla təmin eləyib. Bu həftə Azərbaycanın Qızılca təpəliklərini götürməliyik.

**Xaçaturov:** Əlavə bir şeyə ehtiyacınız varmı?

**Stepanyan:** Hələlik yox.

**Alxanyan:** Bizdə də vəziyyət yaxşıdı. Dünən rus hərbi birləşməsindən üç ədəd "Qrad" qurğusu, beş tank götürmüşük. Xeyli miqdarda avtomat, pulemyot əldə etmişik. Livandan, Suriyadan gələn muzdlu əsgərlər də bizə kömək eləyirlər.

**Xaçaturov:** Plana görə, sizin ordu hissələri sabah səhərə yaxın Meşəlini götürməlidi. Ora çox mühüm strateji obyektdi.

**Alxanyan:** Bəli! Əmin ola bilərsiz. Biz bütün qüvvələri səfərbərliyə almışıq. Döyüşçülərin əhvali-ruhiyyəsi də yüksəkdi. Ümidvaram ki…

**Xaçaturov:** Çox gözəl. Məncə, bizim axsayan yerimiz Qriqoryanın rəhbərlik elədiyi hərbi hissədi.

**Qriqoryan:** Cənab polkovnik, biz də döyüşə ciddi şəkildə hazırlaşırıq. Azərbaycandan olan casuslarla, şəxsən Nofəl Kələntərliylə də zəruri əlaqələr qurmuşuq. Bu işdə bizə Köçəryan da kömək eləyəcək. Yaxşı olardı ki, biz "Qoşa çinar" əməliyyatının döyüş planını tez əldə eləyək. Belə olarsa, itkimiz az olar.

**Xaçaturov:** Kapitan, bu istiqamətdə Nofəllə danışmışıq, ciddi iş gedir. Nəticə hasil olan kimi siz məlumatlandırılacaqsız.

**Qriqoryan:** Oldu, cənab polkovnik.

**Xaçaturov:** Narahat olmayın. Bu axşam hər ehtimala görə, sizə əlavə qüvvələr də göndəriləcək.

**Qriqoryan:** Çox sağ olun, polkovnik.

**Stepanyan:** Əlavə qüvvədən çox, azərbaycanlı komandir Nofəllə əlaqəyə girmək döyüş bölgəsində bizə daha çox imkanlar açır. Odur ki, kəşfiyyatı gücləndirməliyik.

**Alxanyan:** Mən də Stepanyanın fikrini dəstəkləyirəm.

**Xaçaturov:** Əsirlər məsələsi nə yerdədi?

**Alxanyan:** Nofəlin köməyi ilə keçən döyüşdə əlli iki nəfər əsir götürmüşük. Onlardan on ikisi qadın, səkkizi uşaq, altısı cavan oğlandı. Qalanları qoca kişilərdi.

**Qriqoryan:** Bizdə əsirlərin sayı otuz dörddü, cənab polkovnik.

**Stepanyan:** Bilirsiz ki, mən döyüş bölgəsinə təzə gəlmişəm. Hələ ki, elə bir ciddi əməliyyatda iştirak etməmişəm. Ona görə də bizdə…

**Xaçaturov:** Sizi başa düşürəm. Nəzərinizə çatdırım ki, əsirlər bizə çox lazımdı. Uşaqların müəyyən əzaları kəsilib xarici ölkələrə satılır. Bu, çox böyük valyuta mənbəyidi. Fiziki cəhətdən güclü olanlar arxa cəbhədə işlədilir, iş qüvvəsini itirənlərsə əsir düşmüş erməni əsgərləri ilə dəyişdirilir. Qaldı əsir alınan Azərbaycan əsgərlərinə, onlara qarşı amansız olmaq lazımdı. Onları elə hala salmalısız ki, hər ehtimala qarşı əsirlikdən azad ediləndən sonra bir də cəbhə bölgəsinə gəlmək imkanları olmasın. Müharibə qəddarlıq tələb eləyir. Hər bir erməni əsgəri bilməlidi ki, düşməni öldürməsə, düşmən onu fürsət düşən kimi məhv eləyəcək… Başqa sözünüz, əlavə təklifiniz varmı?

**Stepanyan:** Xeyr.

**Alxanyan:** Oldu, cənab polkovnik.

**Xaçaturov:** Yaxşı… Qriqoryan, "Qoşa çinar" əməliyyat planı ilə bu gün özüm məşğul olacam. Lazımi adamlara tapşırıq veriləcək.

*Kadr dəyişir. Ekran ağarır. Məhkəmə zalı.*

**Sədr:** Nofəl, sən doğrudan da düz adamsansa, satqın deyilsənsə, bunlar hara, sən hara?

**Nofəl:** Çox maraqlıdı. Bu oyunu düzəldincə məni sifarişlə





öldürtdürəydiz də.

**Dövlət ittihamçısı:** Sən cinayətkarsan. Özü də həyasızından.

**Nofəl:** Xeyr. Məni qəsdən suçlayırlar. Mən xalqıma qarşı cinayət törətməmişəm. Sizin dediklərinizi sübut eləmək lazımdı. Bu mərəkə sübut ola bilməz.

**Sədr** *(polis nəfərinə)***:** Şahid Ənvər Bədəlovu çağırın gəlsin.

*Ənvər Bədəlov gətirilir.*

**Sədr** *(Nofələ)***:** Müttəhim Nofəl Kələntərli, Ənvər Bədəlov sənin əsgərin olub. O, sənə böhtan atmaz ki?

**Nofəl:** Adam qardaşına da inana bilmir. Bilmək olmaz Ənvərin ağlına nə gələcək?

**Sədr:** O, həqiqəti söyləyəcəyinə and içib. Ənvər, sən "Qoşa çinar" əməliyyatında sağ qalan yeganə əsgərsən. Döyüşlərdə fəal iştirak etmisən, yaralanmısan. Nofəl Kələntərli barədə verdiyin ifadəni təsdiq eləyirsənmi?

**Ənvər:** Bəli! Çox gözəl əməliyyat planı hazırlanmışdı. Qəfləti manevrlə işğal altında olan bir neçə kəndi azad eləyə biləcəkdik. "Sərt Qaya"da mövqelərimizi də möhkəmlətmişdik. Bircə hücum əmrini almaq qalırdı. Nofəl hücum əmrini vermədi.

**Sədr:** Niyə?

**Ənvər:** Nofəl xəyanət elədi. Bizi satmışdı.

**Sədr:** Nədən bildin?

**Ənvər:** Bir neçə dəfə qərargahdan qayıdanda onun ermənilərlə ratsiya ilə danışıqlarının şahidi olmuşam. Əvvəl çaşdım, sonra gördüm yox, Nofəl özüdü. Mən onu aradan götürəcəkdim, əsgərlər arasında iğtişaş yaratmamaq üçün Şahin qoymadı.

**Nofəl:** Yalandı.

**Ənvər:** Mən hücum əmrini tələb etdikdə Nofəl planın dəyişdiyini dedi. Çəmənli kəndi istiqamətinə getməyimizi, guya orda

bizə yeni qüvvələrin qoşulacağını bildirdi. Onda mərhum Şahin Nofələ dedi ki, bu, açıq-açığına xəyanətdi. Gözlənilmədən Çəmənli istiqamətində ermənilər hücuma keçdilər. Əsgərləri mühasirəyə aldılar. Nofəl arxadan atəş açıb Şahini öldürdü. Məni yaraladı… O, məni də ölmüş bilib qaçdı.

**Nofəl:** Bunun danışdıqları hamısı cəfəngiyyatdı. Döyüş meydanı kukla teatrı deyil ki, orda istədiyin kimi oynayasan.

**Sədr:** Bura tamaşa  zalı deyil.

**Ənvər:** Hər tərəfdən üstümüzə avtomat, pulemyot güllələri od kimi yağırdı. Həmkarlarımın hamısını itirdim. Görünür, sağ qalmışam ki, bu satqının, vətən xaininin, xalq düşməninin iç üzünü açım…

**Dövlət ittihamçısı** *(Nofələ)***:** İndi sözün nədi?

**Nofəl:** Görünür, əməliyyatın planını Şahinlə Ənvər satıblar… İndi də Ənvər gözə kül üfürür. Necə olub ki, hamı ölüb, bu sağ qalıb?

**Sədr:** Hə, o sualı hərdən özünə də ver, Nofəl Kələntərli!

**Dövlət ittihamçısı:** Müttəhim Nofəl Kələntərli, Günəşli kəndi alınmazdan iki gün əvvəl axşam sən uşaqlıq dostun Aşotla erməni kəşfiyyat idarəsinin məsul işçisi Vazgen Paranyanın evində olmusunuz…

**Sədr:** Məhkəmə fasilə elan edir.

## II hissə

*Yenidən məhkəmə zalı. Məhkəmə həmin tərkibdə işə başlayır.*

**Nofəl:** Məni şantaj eləyirsiniz, cənab prokuror?

**Dövlət ittihamçısı:** Deməli, boynuna almırsan? Eybi yoxdur. Bəs həmin gecə kef çəkdiyiniz erməni qadınları Rimanı, Zoyanı, Rozanı da xatırlamırsan? Yoxsa, bunlar da yalandı, böhtandı, müttəhim Nofəl Kələntərli?!





**Nofəl** *(həyasızcasına)***:** Dedim ki, mən Vazgenin evinə getməmişəm. Ona heç bir plan verməmişəm, sizin dediyiniz kef məclisində də olmamışam.

**Sədr:** Nofəl Kələntərli, Günəşli kəndinin süqutu günü, sən həbs ediləndən sonra ordumuz kef çəkdiyiniz kəndi düşməndən azad edib. Aşotun sənə ötürdüyü, kef çəkdiyin erməni qızı Rima da əsir düşüb… Şahid erməni qızı Rimanı gətirin.

*Rima məhkəmə zalına gətirilir. Nofəlin halı dəyişir.*

**Sədr:** Nofəl Kələntərlini tanıyırsanmı?

**Rima:** Bəli, tanıyıram.

**Nofəl:** Mən bu qızı heç vaxt görməmişəm.

**Sədr:** Rima Georgiyevna, deyin, Nofəl Kələntərli ilə nə vaxt, harda tanış olmusunuz?

**Rima:** Günəşli kəndi alınandan bir neçə gün əvvəl, kef məclisində.

**Sədr:** Cəbhə bölgəsinə gəlməkdə məqsədin nə idi?

**Rima:** Azərbaycandan zorla qoparılacaq Günəşli kəndinin döyüş planını Nofəldən almaq.

**Sədr:** Səni bu işə kim vadar etmişdi?

**Rima:** Ermənistan Kəşfiyyat İdarəsi.

*Kadr dəyişir. Ekran ağarır. Ermənistan Kəşfiyyat İdarəsi. Xaçaturovun kabineti.*

**Xaçaturov:** Əyləş… Rima Georgiyevna, sən mühüm bir tapşırıqla əlaqədar Azərbaycana yaxın olan kəndlərin birinə yola düşməlisən.

**Rima:** "Böyük Ermənistan"ın azadlığı uğrunda ölümə də

hazıram!

**Xaçaturov:** Sən az müddət ərzində bizim təşkilatın çox bacarıqlı agenti kimi böyük nüfuz qazanmısan.

**Rima:** Xalqıma xidmət mənim üçün böyük şərəfdi.

**Xaçaturov:** Daşnaksutyun Partiyası sənin kimi vətənpərvərləri ilə fəxr edir.

**Rima:** Biz ermənilər Azərbaycan torpaqlarının zəbt olunması naminə müharibəyə başlamışıq və o torpaqları tam işğal edənə qədər vuruşmalıyıq.

**Xaçaturov:** Azərbaycandan olan agentimizin məlumatına görə, bu yaxınlarda biz bir neçə Azərbaycan rayonunu itkisiz ələ keçirə bilərik…

**Rima:** Bu əməliyyatda mən nə etməliyəm?

**Xaçaturov:** Sən mərd qızsan! Deməli, belə! Sən qiyafəni dəyişib bu axşam Azərbaycan sərhədini aşmalısan.

**Rima** *(təəccüblənərək)***:** Necə?

**Xaçaturov:** Narahat olma. Bu işdə sənə yaxından yardımçı olacaqlar. Sən sərhədi keçən kimi bizim nümayəndəmiz Aşot orda səni qarşılayacaq, bu da Aşotun şəkli *(Stolun üstündəki şəkli götürüb ona uzadır)*. Onu görən kimi tanıyacaqsan…

**Rima:** Fəaliyyətim nədən ibarət olacaq?

**Xaçaturov:** Tələsmə, hər şey sənə aydın olacaq. Əvvəllər Sumqayıtda yaşamısan, Azərbaycan dilini də yaxşı bilirsən. Elə deyilmi?

**Rima:** Bəli, doğrudu.

**Xaçaturov:** İndi sənin əlində imkan var ki, ermənilərin milli düşmənçilik intiqamını bu azərilərdən alasan.

**Rima:** Mən hazıram! Əmr edə bilərsiz, cənab polkovnik!

**Xaçaturov:** Bu işdə tələsmək olmaz. Kəşfiyyat böyük səbr, iti və çevik ağıl, soyuq ürək tələb edir. Hisslərin qızışması fəlakət törədir. Sən Nofəl Kələntərli adlı bir azərbaycanlı kapitanı ilə məhəbbət oyununa girib Günəşli kəndinin döyüş planını almalısan…





**Rima:** Axı.

**Xaçaturov:** Həyəcanlanma, o, sənin düşündüyün qədər də çətin adam deyil. Əslinə qalanda, o, bizə satılıb. O, bizim Azərbaycandakı əlaltımızdı. Onun əli ilə biz çox iş görmüşük.

**Rima:** Belə olduğu halda, cənab polkovnik, məni ora niyə göndərirsiz?

**Xaçaturov:** O, sapında durmayan dəhrə kimidi. Ağlına nə gəlsə, onu da danışır.

**Rima:** Belə sürüşkən adamla…

**Xaçaturov:** Bu əməliyyata görə, o, külli miqdarda pul istəyir. Ancaq qorxmağa dəyməz. Hərif həddən artıq pulgir və arvadbazdı. Səni görən kimi əriyəcək. Hətta, pul da yaddan çıxacaq… Biz ona o qədər pulu verə bilmərik… Ona görə də gərək, sən bu tapşırığın öhdəsindən gələsən. Bayaq necə dedin? "Böyük Ermənistan" uğrunda…

**Rima** *(gülümsünərək)***:** Oldu, cənab polkovnik!

**Xaçaturov:** Əməliyyatı yerinə yetirdikdən sonra səni mükafat gözləyir.

**Rima:** Oldu! İcazə verin, mən gedim hazırlaşım…

**Xaçaturov:** Gedə bilərsən.

*Rima kabinetdən çıxır. Xaçaturov Nofəlin şəklinə baxıb onu bir kənara atır. Kadr dəyişir. Məhkəmə zalı.*

**Dövlət ittihamçısı:** Sübuta bu da əsas vermir?

**Nofəl:** Xeyr.

**Sədr** *(Rimaya)***:** Cəbhə bölgəsinə hansı adla gəlmişdin?

**Rima:** Müxbir kimi. Əsgərlərin həyatından məqalə yazmalıydım.

**Sədr:** Nofəllə necə tanış olmusunuz?

**Rima:** Plana əsasən, Aşot məni Nofəllə tanış elədi. Mən

onunla səhərə qədər kef çəkdim. Ondan Günəşlinin müdafiə planını aldım. O, mənə çoxlu vədlər verdi. Hətta, ona qoşulub ABŞ-a qaçmağı da təklif elədi. Cibimə iki min dollar da qoydu.

**Dövlət ittihamçısı:** Buna nə deyirsən, Nofəl Kələntərli? İndi Rimanı tanıdığını boynuna alırsanmı?

**Nofəl:** Tanımıram, tanımaq da istəmirəm.

*Kadr dəyişir. Ekran ağarır. Aşpaz Mama Rozanın evi. Aşotla Rima otağa daxil olur. Mama Roza onları gülərüzlə qarşılayır.*

**Aşot:** Rozacan, qonağı qəbul elə.

**Roza:** Aşot, eli, bu, nə gözəl qızdı. Adam az qalır…

**Aşot:** Elə şey eləmə. Jurnalistdi, bizim əsgərlərdən yazacaq. Adı Rimadı. Bir müddət sənin yanında qalacaq.

**Roza:** Gözüm üstə yeri var *(Aşot Rimaya həsrətlə baxır. Roza ona acıqlanır)*. Ac qurd kimi ağzını açıb nə baxırsan?

**Aşot:** Gözəl qıza baxarlar da, Rozacan!

**Roza** *(zarafatla):* Get tayını tap, Aşotcan.

**Aşot:** Mənə nə olub ki?

**Roza:** Çox şitin çıxarırsan.

**Aşot** *(qəsdən söhbəti dəyişir)***:** Rimacan, elə birinci bizim bu aşpaz Mama Rozadan yazarsan. Onun bişirdiyi yeməklər də özü kimi dadlı olur.

**Roza:** Aşot onu düz deyir.

**Rima** *(zarafatla)***:** Roza barəsində böyük bir məqalə yazmaq mənim boynuma. Ancaq…

**Aşot:** Nə ancaq?

**Rima:** Yeməyin dadlı olduğunu anladım, bəs Rozanın dadını hardan bilirdin?

**Roza:** Eh… Aşotu hələ yaxşı tanımırsan. Qarınqulunun biridi. O qədər danışır... Nə qədər baş sındırsan da dediklərindən bir şey qanmayacaqsan… İndi də görünür, barəmdə məqalə yazdırmaqla məni məşhurlaşdırmaq istəyir.





**Aşot:** Sən bu yerlərin məşhur Mama Rozasısan. Səni bu yerlərin itləri də tanıyır. Təbliğata nə ehtiyac? Düz demirəm, Rozacan?

**Roza:** Az çərənlə, itil burdan. Qaldıqca…

**Aşot:** Yaxşı, sabaha qədər.

*Aşot gedir. Rima paltarını dəyişib özünü divana atır.*

**Roza:** Bu kəndin əsgərləri çox yaxşıdı. Məni də çox istəyirlər.

**Rima:** Sən gözəlsən, gözəli istəyərlər də.

**Roza:** Təki bəxtim gözəl olaydı.

**Rima:** Bəxtinə nə olub ki? Maşallah, gül kimi ev-eşiyin, gözəl əndamın. Deyəsən, əsgərlər də sənə yaxşı baxırlar.

**Roza:** Məni təngə gətiriblər. Cavansan, sabah səni görsələr, dəli olacaqlar. Çoxunu tanımıram, onlara yazığım gəlir. Neçə vaxtdı çıxıblar ev-eşiklərindən. Çoxu da ailəli… Nə demək istədiyimi başa düşürsən də?

**Rima:** Niyə başa düşmürəm ki… Ürəyiyumşaq adamsan… Bir də ki gözəl qadın görəndə gərək kişilər hayıl-mayıl olsunlar, ağılları başlarından çıxsın.

**Roza:** Hamısı ac canavar kimidi. Ov gözləyirlər…

**Rima:** Mən tikanlı ovam, arxayin ol, məni yeyə bilməzlər.

**Roza** *(gülür)***:** Yesələr, boğazlarında qalarsan?..

**Rima:** Hə… Onu düz deyirsən. Xoşum gəldi sözündən. Azərbaycanlıların yaxşı atalar sözü var: "İnək göz etməsə, buğa sıçramaz".

**Rima:** Mən öz dəyərimi yaxşı bilirəm.

**Roza:** Sən çoxdan Yerevanda yaşayırsan?

**Rima:** Yox… Sumqayıtdan qaçqınam…

**Roza:** Oy… Danışma Sumqayıtdan… Sumqayıt hadisələri-

nin çəkilişinə baxanda adam dəhşətə gəlir, insan olduğuna xəcalət çəkir. Özün yaxşı bilirsən. Hadisələri də gözlərinlə görmüsən…

**Rima:** Hə… Nə olsun ki?

**Roza:** Öz aramızdı, bütün qırğınları, faciələri biz ermənilər yaratdıq. Sumqayıt hadisələrini də biz ermənilər törətdik. Dünyaya da səsimizi "öldürdülər" deyə biz ermənilər özümüz yaydıq…

**Rima:** Sən bu sözlərlə nə demək istəyirsən?

**Roza** *(qorxaraq)***:** Heç… Demək istəyirəm ki, bu qırğınlar bizə gərək deyildi. Heç türklərə də…

**Rima:** Tarix boyu belə olub, torpaqlar qanla yuyulub.

**Roza:** Günahsız adamları qan nəhrinə salanların bəlasını Allah özü versin.

**Rima:** Torpaq işi çox müşkül məsələdi. Gəl, söhbəti dəyişək.

**Roza:** Sən burda neçə gün qalacaqsan?

**Rima:** Bir neçə material var, yazan kimi qayıdacam.

**Roza** *(maqnitofonun düyməsini basır)***:** Qəmdən, kədərdən uzaq olaq. *(Müğənni qız şən mahnı oxuyur)*.

*Kadr dəyişir. Nofəl, Aşot və Vazgen birlikdə gəlirlər. Stol açılıb. Yemək-içmək başlanıb.*

**Aşot:** Axçi, bizim dostumuz çoxdandı heç harda olmayıb. Nə tələb eləyir yoluna qoy…

**Rima:** Aşot, sənin bu dostundan yamanca xoşum gəlir. Nədəndi, bilmirəm, bu musurmanda özümə bir doğmalıq görürəm. Lap bizim erməni kişilərinə oxşayır.

**Vazgen:** Amma erməni qadınları bu musürman kişilərini yaman xoşlayırlar ha…

**Rima:** Sizin öz yeriniz var, onların öz yeri… Erməni kişiləri-





nə heç kim çata bilməz.

**Aşot:** Elə demə, axçi, qonağın xətrinə dəyər.

**Nofəl:** Xətrimə dəyməz, Rimacan, sən mənə elə erməni kişisi kimi bax.

**Rima:** Massab haqqı, sən əsl kişisən… Adama əziyyət vermirsən.

**Aşot:** Rima, xahiş edirəm, bizim qonaq üçün bu stol üstündə, türklər necə deyir, pısqırıq bir rəqs elə… Roza, sən də bir mahnı oxu, ürəyimiz açılsın….

*Rima rəqs edir. Roza erməni dilində mahnı oxuyur. Nofəl sərxoş halda Rimaya qoşulur. Aşot və Vazgen bir-biriləri ilə gizlincə söhbət edirlər.*

**Aşot** *(üzünü Vazgenə tutaraq)***:** Bu axmaq nə qədər ki, ağlını itirməyib, Günəşli kəndinin əməliyyat planını ondan almaq lazımdır. Mən Yerevana məlumat verməliyəm.

**Vazgen:** Tələsmə, axmağı duyuq sala bilərik. İmkan ver, əvvəl qəlbini ələ alaq. Sonrası asandı. Lazım olanı öyrənərik.

**Aşot:** Qoyma onu çox içsin. Ağılsız başdan nə desən çıxar. Planı alandan sonra istəyir lap küpünə girsin.

**Nofəl** *(Rimanı qucaqlayır)***:** Rima, sən əsl rəqqasəsən… Sənə tamaşa elədikcə, az qalıram özümü itirəm… Elə bilirəm dünyanın xoşbəxtiyəm.

**Rima:** Sən xoşbəxtlik deyəndə nəyi nəzərdə tutursan?

**Nofəl:** O mücərrəd şeydi. İndi istəyirəm səninlə tək qalam…

**Rima:** Sizin "Arşın mal alan" filmində bir yer var ey?

**Nofəl:** Orda çox yer var, hansını deyirsən?

**Rima** *(oxuyur)***:** Mən gedərəm o oğlana
Onun pulu çox olsun
Dərdi-qəmi az olsun.
Pulun var?

**Nofəl** *(oxuyaraq qıza cavab verir)***:**

Pulum var, bir anbar,
Üstəlik, dollarım da.

**Rima:** Pul verərsən, istəyini yerinə yetirərəm.

*Nofəl əlini cibinə salıb onun başına dollar səpir. Roza pulları göydə tutub yaxasına basır. Rima narazılıq edir.*

**Nofəl:** Dava salmayın, ikinizə də çatar.

**Rima** *(Rozanın üstünə cumur)***:** O pullar mənimdi, qaytar deyirəm sənə.

**Aşot:** Rima, cana, pul yaxşı şeydi, amma ondan ötrü adam özün cırmaz.

**Rima:** Nofəl mənim lübovnikimdi. O, başqasına niyə pul verməlidi?

**Vazgen:** Axçi, bizim pulumuz Nofəlinkindən çoxdu.

**Aşot** *(astadan)***:** İşin yoxdu, kişinin pulu var, qoy versin də.

**Rima:** Aşot, siz kişi deyilsiz? Mənə bir az siz də kömək eləsəz qiyamət qopmaz ki.

**Aşot:** Axı sən Nofəlin xidmətindəsən.

**Vazgen:** Sən Nofəli razı sal, nə qədər desən, mən kömək eləyərəm, narahat olma.

**Nofəl:** Mən özüm ölməmişəm ki.

*Nofəl əlini cibinə salıb pul çıxarmaq istəyir. Vazgen onun qolundan yapışıb qoymur.*

**Vazgen:** Hələ lazım deyil… Bir az özünü ələ al…

**Nofəl:** Beş günlük dünyadı, beşi də qara. Pul əl çirkidi. Bir də gördün ki, təsadüfi bir güllənin qurbanı oldun. Ona görə də kef çəkmək istəyirəm.

**Aşot:** Qızlar, siz Vazgenlə söhbət eləyin, mənim Nofəllə





söhbətim var.

**Vazgen:** Aşot, sən işində ol… *(Qızlara)* Mələklər, gəlin biz vuraq…

**Roza:** Vurmasaq, iş düzələn deyil.

*Hamı stolun ətrafına yığışır. Nofəl süfrə başına qayıdanda Aşot onu kənara çəkir.*

**Atot** *(Nofələ)***:** Günəşli kəndinin alınma planı hazırdı?

**Nofəl:** Hə… Onu özüm hazırlamışam. Günəşlini itki vermədən götürə biləcəksiz *(cibindən zərfə bənzər bir kağız çıxarıb ona verir)*. Burda hər şey dəqiqliyi ilə göstərilib.

**Aşot:** Erməni xalqı sənin bu xidmətini yüksək dəyərləndirəcək… Sən həmişə bizim diqqətimiz, qayğı və himayəmiz altında olacaqsan…

**Nofəl:** Mənə çatacaq pulları bilirsiniz də hara köçürəcəksiz?

**Aşot:** Mərkəz sənin bütün koordinatlarını bilir.

**Nofəl:** Əla… Aşot, bu əməliyyatdan sonra həmişəlik Yerevana köçmək istəyirəm. Sonrası Allah kərimdi. Bəlkə də, getdim Amerikaya…

**Aşot:** O pulları ki, az müddətdə sən qazanmısan, lap "Mars"a da köçə bilərsən…

**Nofəl** *(gülür)***:** Gözəl yaşamaq üçün gərək risq eləyəsən… Aşot, mənim həyatım risqə qoyulub… Nə vaxt üstü açılsa, məni məhv eləyəcəklər.

**Aşot:** Risqsiz həyat yoxdu, Nofəl, kefindən qalma… Rima səni gözləyir.

*Onlar stola yaxınlaşırlar. Səs-küy aləmi bürüyür. Aşot qədəhləri doldurur.*

**Vazgen:** Mən istəyirəm bu qədəhləri içək Nofəlin şərəfinə.

O, çox bacarıqlıdı, cəsarətlidi, dostluqda sədaqətlidi… Nofəl bizim haqq işimizə inanır. O, bilir ki, ədalət naminə vuruşmuşuq. Qədim erməni torpaqları öz xalqına qayıtmalıdı.

**Roza:** Siyasəti qurtarın, biz bura kefə gəlmişik, torpaq alqı-satqısına yox.

**Nofəl:** Roza düz deyir… Rimiçka gəl yanıma.

**Aşot:** Gəlin, biz gedəyin. Rima ilə Nofəl pişikləri boğuşdursunlar.

*Hamı gülür. Rima güzgünün qarşısına keçir. Nofəl ona müraciətlə.*

**Nofəl:** Mənim pulum çoxdu, əzizim. Sən mənim xoşuma gəlirsən. İstəsən, çıxıb birdəfəlik gedərik bu cəhənnəmdən. Torpaq mənim nəyimə lazımdı? Hər gün siyasətlə başımızı qatırlar.

**Rima:** Kim?

**Nofəl:** Min hiylə ilə xalqı aldadanlar, bizə torpaqdan, vətəndən moizə oxuyanlar. Özləri vəzifə tuturlar, rüşvət yığırlar. Xalqın əmlakını talayırlar. Kiminsə əlində alət olmaq, əzizim, bizə lazımdımı?!

**Rima:** Nofəlçik, sən doğru deyirsən.

**Nofəl:** Əzizim, bu lazımsız müharibə məni təngə gətirib. Atəş səslərindən qulaqlarım tutulur. Barıt iyi zəhrimi yarır. Nə qədər qan, ölüm görmək olar… Mən də hamı kimi yaşamaq istəyirəm.

**Rima:** Mən də sənin kimi həmişə azad, sərbəst yaşamaq arzusunda olmuşam. Açığını desəm, təzə tanış olsaq da, səndə özümə doğmalıq hiss eləyirəm. Hardandı, doğrusu, bilmirəm.

**Nofəl:** Mən müharibəyə biznes kimi baxmışam. Ondan milyonlarla dollar götürmüşəm. Ölsəm, hamısı xarici banklarda batacaq. Sabah cəbhə bölgəsinə gedəcəm. Sənə söz verirəm, Günəşlini sizinkilərə təhvil verib səhəri gün burda ziyafətdə olacam… Yanına qayıdacam. Al, bu iki min dolları da. *(Dolları Rimaya verir)*. Yaxşı-yaxşı fikirləş, əzizim.





**Rima:** Yataq hazırdı… Gedək… Gedib gələrsən, qalanını açıq başla danışarıq.

*Kadr dəyişir. Onlar yataq otağına gedirlər. Soyunub yatağa girirlər.*

**Nofəl** *(gərnəşərək)***:** Əsəblərim bir balaca sakitləşib.

**Rima:** Get vanna otağına. Səhər duş qəbul eləməyin ləzzəti başqadı.

*Nofəl hamam otağına gedir. Rima otaqda tək qalır.*

**Rimanın daxili səsi:** Vətən xaini, sən nə qədər sadəlövhsən? Mən "Böyük Ermənistan" uğrunda ölümə də hazıram... Belə səfehləri himayə eləməklə Azərbaycanın hələ çox kəndlərini, şəhərlərini tutacağıq.

*Kadr dəyişir. Aşot gəlir, Rima ona yaxınlaşır.*

**Aşot:** Nofəl hardadı?

**Rima:** Çimir. Aşot, al bu materialları, Yerevana çatdır. Bilmək olmaz, birdən ələ keçə bilər.

**Aşot:** Bu hərifi əlində bərk saxla… Bununla çox iş görə bilərik.

**Rima:** Oldu.

*Aşot gedir. Rima yan otağa keçir.*

*Kadr dəyişir. Məhkəmə zalı. Adamlar heyrətlənərək bir-birilərinin üzlərinə baxırlar. Sədr hamını sakitliyə dəvət eləyir.*

**Dövlət ittihamçısı:** Bayaqdan bəri xalq, vətən deyə hayqırırsan. Yaratdığın bu həngamə cinayətlərini sübuta yetirirmi?

**Nofəl** *(əsəbi halda)***:** Hamısı quramadı. Bu həngaməni ustalıqla necə düzəltmənizə mən də məəttəl qalmışam.

**Sədr:** Yenə sübuta ehtiyac var?

**Nofəl:** Adamı bu qədər şantaj eləmək olmaz, sədr. Hər şeyin həddi var. Guya mən bu xalqa düşmənəm. Xalqın düşmənini dostları ilə qarışdırırsız. Öyrənmək istərdim, bu nəyə xidmət eləyir?

**Dövlət ittihamçısı:** Sən dəhşətli bir tipsən... Bu qədər həyasızlıq olmaz. Sonuncu dəfə, həbsindən əvvəl kimin evindəki ziyafətə dəvət almışdın?

**Nofəl:** Mən heç kimin evindəki ziyafətə dəvət almamışam. Görünür, yeni təxribat da düzəldilib. Buyurun, onu da təqdim eləyin.

*Kadr dəyişir. Ekran ağarır. Paranyanın evi. Ziyafət məclisi qurulub. Ermənilər Nofəli gözləyirlər. Nofəlsə gəlib çıxmır.*

**Roza** *(Rimaya üzünü tutaraq)***:** Axçi, bu satqını gözləməkdən gözümüzün kökü saraldı ki...

**Rima:** Nofəlin satqınlığı olmasaydı, Günəşlini zəbt etmək çətin olacaqdı.

**Vazgen:** Alsaydıq da böyük itki verəcəkdik.

**Aşot:** Bəli! Az itki ilə böyük iş. Azərbaycan ordusu xeyli itki verib. Çoxlu sayda Azərbaycan əsgəri əsir alınıb. Etiraf edək ki, bunlar Nofəlin sayəsində mümkün oldu.

**Rima:** Biz belələrinin qeydinə qalmalıyıq. Yüz erməni əsgərindən bir azərbaycanlı casus sərfəlidi.

**Roza:** Mən Nofəli belə bilməzdim. Bəlkə onunla ratsiya ilə əlaqəyə girəsiz.

**Aşot:** İndiki vəziyyətdə işləri korlaya bilərik.





**Vazgen:** Hələ qarşıda Nofəllə çox işimiz var.

**Roza:** O, Günəşlini bizə neçəyə satdı, Aşot?

**Aşot:** Bu, hərbi sirdi. Sirri faş eləmək gələcək əməliyyatları pozmaq deməkdi.

**Rima:** Nofəl çox gecikir, bəlkə, o, təhlükədədi?

**Vazgen:** O, elə kafirdi ki, dəyirmanın boğazına ölü salsan, diri çıxacaq.

**Roza:** Aşot, Nofəlin növbəti görəcəyi iş nə olacaq?

**Aşot** *(sualdan yayınaraq)***:** Onu "Mərkəz" bilir. Hansı tapşırığı versələr, biz də onu həyata keçirəcəyik.

**Rima:** Köklər çox dərindədi, Roza, yaxşı olar ki, çox şeyə burun soxmayasan.

**Roza:** Rimacan, aşpaz olmağıma baxma, mən də çox şeydən halıyam.

**Aşot:** Sən olmuşlardan halısan, olacaqlardan yox.

**Roza:** Niyə?

**Rima:** Aşot düz deyir.

**Vazgen:** Arxayın ola bilərsiz, Rima, axşam Nofəllə nə iş gördüyünüzü, hansı üzü üstə yatdığınızı Roza bilir, ha... ha... ha...

**Rima** *(gülərək)***:** Ona şübhə eləmirəm. Ancaq Qarabağda Köçəryanla Sarkisyanın ağıllarına nə gəldiyindən, inanmıram ki, Rozanın xəbəri olsun.

**Roza:** Azərbaycanlıların yaxşı məsəli var: "Söhbət dananı qurda verər", "Çoş dedin, eşşək yadıma düşdü". Sən Köçəryan dedin, hamamda çiməcəyim yadıma düşdü. Axşam qonağım olacaq… İcazə verin, mən gedim. Nofəl onsuz da gecikir.

**Aşot:** Siz gedin, Mama Roza… Mən narahat olmağa başlayıram.

*Roza gedir.*

**Vazgen**: Bəlkə Nofəllə əlaqəyə girəsən.

**Aşot** *(fikirləşir, radioqəbuledicini işə salmaq istəyir)***:** Alınmır, Vazgen.

**Rima:** Neyləyim?

**Aşot:** İmkan tapan kimi özü bizimlə əlaqəyə girəcək.

**Rima:** Görəsən, öldürməzlər ki?

**Vazgen:** Bizim tapşırıqlarımıza əsasən, o, əvvəlcədən öz işini görüb aradan çıxır. İstədiyinə nail olandan sonra lazımi yerdə peyda olur.

**Rima:** Başbilənləri ondan şübhələnməzlər ki?

**Aşot:** Başbilənlərdən ona şərait yaradanlar var. Olmasa, bu boyda cinayətləri o, tək başına törədə bilməzdi.

**Rima:** O, gördüyü işlərə cinayət kimi yox, biznes kimi baxır.

**Vazgen:** Pul gözlərini örtüb.

**Rima:** Nofəl azərbaycanlı ola bilməz.

**Aşot:** Sən onu hardan bilirsən?

**Rima:** Heç vaxt adam öz vətəninə, xalqına xəyanət eləməz.

**Vazgen** *(gülərək)***:** Bəlkə anası bizimkilərdəndi?

**Aşot:** Lap atası da ola bilər.

**Rima:** Erməni qadınlarına baxma. Azərbaycanlı qadınlar erməni kişiləriylə əylənməz.

**Vazgen** *(stulda əyləşir)***:** Aşot, mən öldüm acından, gəlin, adama bir loxma kəsəyin, ağlımız başımıza gəlsin. Nofəl gəlib çıxanda, tiyanı təzədən qızışdırarıq.

**Aşot:** Etiraz eləmirəm.

*Radioqəbuledici siqnallar verir.*

**Rima:** Aşot, gör kimdi?

**Aşot** *(danışır)***:** Bəli! Eşidirəm… Yox!.. Biz də gözləyirik…

**Vazgen:** Kimdi?

**Aşot:** "Mərkəz"dəndi. Nofəldən xəbər çıxmadığı üçün narahatdılar.





*Onlar süfrə arxasında əyləşib yeyib-içirlər. Vazgen qədəhi qaldırır.*

**Vazgen:** Qarabağ məsələsini qapayan kimi Gürcüstanın Axalkalaki problemini qaldırmalıyıq. İnanıram ki, qələbə uzaqda deyil. Qarabağa təzyiq artdıqca, Bakıdakı gərginlik son həddə çatır. Hamı qarışır bir-birinə, başlar itir, ağız deyəni qulaq eşitmir. Bu psixoloji təzyiq daim gündəmdə durmalıdı.

**Aşot:** Əzizim, əslinə qalsa, biz də fanatikik… Bu müharibəyə ehtiyac yox idi, Vazgen. Azərbaycanın imkanları genişdi. Mən siyasətçi deyiləm. Ancaq qandığım budu ki, biz torpaq, ərazi məsələsini ortaya atmasaydıq, Bakının neft, qaz sənayesi tezliklə bizim olacaqdı.

**Rima:** Yox, Aşot, mən səninlə razılaşa bilmərəm. O obyektlər kimin olursa-olsun, dəxli yoxdu, biz müharibəmizi davam etdirməliyik. Türkiyəyə olan iddialarımızı da təmin etməliyik. Bunsuz Ermənistanın nicat yolu yoxdu.

**Vazgen:** Rima, sən Daşnaksutyun Partiyasının üzvüsən?

**Rima:** Bəli! Ana bətnindəki körpə də "Daşnaksütyun"un üzvü olmağa borcludu… Nə olsun ki, qadınam, türklərin qanını da içməyə hazıram... Belə getsə, bu günlərdə Nofəli də "Daşnaksütyün"ün üzvü eləyəcəm. Buna tam əmin ola bilərsiz.

*Gülüşürlər.*

**Aşot:** Elə danışırsan ki, Rima, guya Nofəlin yatağına girən sən yox, başqasıdı.

**Rima:** Doğrudu, girdim. Unutmayın ki, o hərəkət mənim "Böyük Ermənistan" uğrunda mübarizəmin tərkib hissəsidi…

**Vazgen:** Ha … ha … ha … ha…

**Rima:** Biz qadınlar, siz kişilərdən daha mübarizik.

*Növbəti qədəhlər vurulur, içirlər. Vazgen maqnitofonun düyməsini basır. Aşot qalxıb Rimanı rəqsə dəvət eləyir. Vazgen də onlara qoşulur. Elə bu vaxt bayırdan vurulan təpiklə qapı taybatay açılır. Azərbaycanın üç hərbi kəşfiyyatçısı əllərində avtomat içəri atılır.*

**Birinci hərbi kəşfiyyatçı:** Tərpənməyin! Əllər yuxarı!
**İkinci hərbi kəşfiyyatçı:** Alçaqlar, beyninizi sovuraram!

*Üçüncü hərbi kəşfiyyatçı əsirlərin alt-üst paltarlarını yoxlayır, silahlarını götürür, əllərini qandallayır. Erməni əsirləri titrəyə-titrəyə bir-birinin üzünə baxırlar.*

**Üçüncü hərbi kəşfiyyatçı:** Getdik.

*Azərbaycanın hərbi kəşfiyyatçıları əsirləri qabaqlarına qatıb aparırlar.*
*Kadr dəyişir. Məhkəmə zalı. Adamlar əsəbidirlər. Yusiflə Səriyyə həyəcanlanır.*

**Sədr:** Şahid Vazgen Paranyanı gətirin.

*Vazgen Paranyan gətirilir.*

**Sədr:** Vazgen Paranyan, sən müttəhim Nöfəl Kələntərlini tanıyırsanmı?
**Vazgen:** Bəli, tanıyıram.
**Sədr:** Sən necə, Nofəl Kələntərli?
**Nofəl:** Yadıma gəlmir, unutmuşam.
**Sədr** *(Vazgenə)***:** Səninlə Nofəl Günəşli kəndinin alınması planını müzakirə etmisiz. Sonra da həmin plan Aşota ötürülüb. Sən bu faktı təsdiq eləyirsənmi?





**Vazgen:** Bəli, ötürülüb. Üstəlik, əməliyyatın gedişində səhv etməyək deyə mənə əlavə izahatlar, məsləhətlər də verib.
**Sədr:** Nofəl sənin təşkil etdiyin kef məclisində iştirak edirdimi?
**Vazgen:** Belə ziyafətlər çox olub. Mənim də, Arakelin də evində Rima adlı şux gözəllə kef çəkiblər.
**Dövlət ittihamçısı:** Sən Rima ilə Nofəlin fotoşəkilini çəkmisənmi?
**Vazgen:** Çəkmişəm. Nofəl o qədər içmişdi ki, özündə-sözündə deyildi. Şəklin çəkilməsindən belə xəbər tutmadı.
**Dövlət ittihamçısı:** Həmin fotoşəkil kimdədi?
**Vazgen:** Şəkillər Aşotdadı.
**Dövlət ittihamçısı** *(Nofələ)***:** Buna nə sözün?
**Nofəl:** Vazgen bütün bunları özündən uydurur. Heç bir fotoşəkil çəkilməyib.
**Dövlət ittihamçısı:** Bizə lazım idi ki, Vazgen bu faktları sənin üzünə desin. O ki qaldı fotoşəklə, buyurub baxa bilərsən.

*Nofəl barmaqcıqlar arasında qıvrılır. O tərəf-bu tərəfə gedir.*

**Sədr** *(onu qınayaraq)***:** Sənin planına əsasən, erməni hərbi hissələri səhər alatoranda Günəşli kəndinə hücuma keçib dinc əhalini hər tərəfdən gülləyə tutublar...

*Vazgen Paranyanı sədrin işarəsi ilə aparırlar.*

**Dövlət ittihamçısı:** Müttəhim Nofəl Kələntərli! Sənin casusluğun nəticəsində Azərbaycanın üç kəndi işğal olunmuş, onlarla qadın, uşaq, qoca əsir alınmış və məhv edilmişdir. Cinayətlərinin həddi-hüdudu haqqında əvvəlcədən heç düşünmüsənmi? Bunlara nə deyirsən?

**Nofəl:** Cənab dövlət ittihamçısı! Bəlkə elə düşünürsüz ki, Azərbaycanın bütün işğal olunmuş torpaqlarının səbəbkarı mənəm?

**Sədr:** Suala cavab ver, söz güləşdirməklə məqsəddən yayınma.

**Nofəl:** Cənab dövlət ittihamçısının sualı çox müəmmalıdı, möhtərəm sədr.

**Dövlət ittihamçısı:** Nofəl Yusif oğlu Kələntərli, səni bu satqınlığa nə vadar eləyib?

**Nofəl:** Daha özümü müdafiə eləmək fikrində deyiləm… Bircə atam Yusifdən, anam Səriyyədən üzr istəyirəm.

**Sədr:** Müttəhim Nofəl Kələntərli, heç olmasa, indi səmimi ol. Azərbaycan kimi vətənin olduğu halda, bu torpağın çörəyi, suyu ilə böyüyüb boya-başa çatdığın halda, o satqınlığı, o xəyanətləri hansı ağılla eləmisən? İnsan da öz vətəninə, xalqına yağı kəsilərmi? Millətini unudarmı? Səni bu cinayətləri törətməyə kim vadar eləmişdi?

**Nofəl:** Vaxtı ilə qonşumuz olan Aşot və bir də onun anası Siranuş *(Yusif əsəbi halda ayağa qalxır. Zala sükut çökür. Nofəl başını aşağı salır)*.

**Yusif:** Hörmətli sədr, möhtərəm məhkəmə üzvləri! Mən müttəhim Nofəl Kələntərlinin atası, yanımda əyləşən Səriyyə isə onun anasıdır. Sizdən çox təvəqqe eləyirəm, mənə çıxış üçün söz verəsiz.

**Sədr:** Buyurun, Yusif Kələntərli!

**Yusif:** Möhtərəm sədr, cənab prokuror, hörmətli iclasçılar! Biz uzaq dağ kəndi Göytəpədən gəlmişik. Görünür, biz pis tərbiyəçi olmuşuq. Vətən, xalq üçün oğul yox, düşmən, cinayətkar yetişdirmişik. Belə bir cinayətkar böyütdüyümüzə görə biz də məsuliyyət daşıyırıq. Bizim günahımız böyükdür. Bu gün mən dərk edirəm ki, yaşamağa, başıma papaq qoymağa, el-oba içərisində gəzməyə haqqım yoxdur. Nofəl bizə qarşı da nankorluq





eləyib. Onun bu xəyanəti cəzasız qala bilməz. Mən bir həqiqəti sizin nəzərinizə çatdırmaq istəyirəm…

**Sədr:** Buyurun, Yusif Kələntərli.

**Yusif:** 1955-ci ilin payızıydı. Mən meşəyə ova getmişdim. Körpə ağlartısı eşitdim. Yaxınlaşdıqda gördüm həqiqətən də uşaqdı. Məni dəhşət bürüdü. Onu götürüb evə gəldim. Səriyyəyə verdim. O, uşağın bələyini açan kimi dedi. Bu ki, erməni uşağıdı. Ermənilər uşağı belə bələyirlər. Qolunda da kiçik xaç var. Mən dərhal ona bildirdim ki, erməni olması alnına yazılıb? Nə fərqi var, xristian, ya müsəlman? Hamının yaradıcısı o böyük Allahdı.

O gündən biz uşağa Nofəl adını qoyduq. Onu ərsəyə çatdırdıq. Nazı ilə oynadıq, şıltaqlıqlarına dözdük. Mənim başım işəgücə qarışdı. Yazıq Səriyyə onun əzab-əziyyətini çəkdi. Yuxusuz gecələr keçirtdi. Uşağa təhsil verib onu ev-eşiyimizə sahib elədik. *(Üzünü Nofələ tutaraq)*. Nəydi səni bu cinayətə təhrik edən, a nankor?! A qansız?! Səni küçük balası kimi meşəyə atan şərəfsiz valideynlərinə xidmət eləmisən? Necə oldu ki, səni "oğul" deyə böyüdən Yusifin zəhmətini belə asanlıqla yerə vurdun?! Gecələr yatmayıb beşiyin başında keşik çəkən, sənə analıq qayğısı göstərən Səriyyəni xar elədin?! Nəydi bizim günahımız?! Nəydi xalqın, millətin təqsiri, a namərd?! Mən anlaya bilmirəm, ömrümüz boyu sənə verdiyimiz tərbiyənin gücü nə üçün bu qədər təsirsiz oldu?! Sənin erməni qanın nə qədər güclüymüş, a yaramaz?! İnsani hisslərini itirmiş Aşotun, Allahını unudan Siranuşun çürük təbliğatına necə inandın?! Doğru deyirlər, ayını, pələngi, meymunu əhliləşdirmək, tərbiyə eləmək olar, ancaq canavarı yox!!! Bu nankora "oğul" deyən yerdə dilim quruyaydı!.. Möhtərəm hakim, çıxışımın sonunda bir də deyirəm, bu işdə günahkar mənəm! Böyük səhv eləmişəm! Amma bu səhvim xalqıma, vətənimə çox baha başa gəldi. Xahiş eləyirəm, məni də məsuliyyətə cəlb edəsiz, cəzalandırasız!..

*Səriyyə dözə bilməyib ayağa qalxır.*

**Səriyyə:** Mən savadsız bir qadınam. Burda, hamının gözləri qarşısında Nofəlin törətdiyi əməllərin üstü açıldı. Vətənə xəyanəti sübut edildi. Bir ana kimi Allah bilir, mən nələr çəkirəm?! Xəcalətdən özümə yer tapanmıram. Yusifin dediyi kimi, mən ona belə tərbiyə verməmişəm. Gözlərimlə, kirpiklərimlə od götürmüşəm. *(Ağlayır)*. Onu böyütmüşəm. O, isə mənim dinimə, imanıma, xalqıma, millətimə… *(Qəhərdən boğulur, lakin köksünü ötürərək sözünə davam eləyir)*. Nə isə… Atalar yaxşı deyib: "Ot kökü üstə bitər…". Yusif ürəyimcə danışdı. Mən də öz haqqımı tələb eləyirəm *(Nofələ baxaraq)*. Qaytar Kələntərli familiyasını! Qaytar Nofəl adını! Qaytar Yusif ata, Səriyyə ana adlarını!!!" Qaytar!!!

**Zaldan səs eşidilir:** Bəs onun adı nə olsun?!

**Cəriyyə:** Canavar balası!!!

*Səriyyə əyləşir, sədrin səsi pauzanı əvəz eləyir.*

**Sədr:** Tərəflərin razılığı ilə istintaq yekunlaşdırılsın. İttiham nitqi söyləmək üçün söz dövlət ittihamçısına verilir.

**Dövlət ittihamçısı:** Hörmətli sədr və möhtərəm kollegiya üzvləri! Nofəl Yusif oğlu Kələntərlinin Azərbaycan Respublikası CM-nin müvafiq maddəsilə ittiham olunmasına dair cinayət işi məhkəmə istintaqında şahid ifadələri, iş materialları ilə tam sübuta yetirildi. Ona görə də müttəhimin həmin maddə ilə təqsirli bilinərək ölüm cəzasına məhkum edilməsini xahiş eləyirəm.

**Sədr:** Söz müdafiəçiyə verilir.

**Vəkil:** Möhtərəm hakim, hörmətli xalq iclasçıları! Hüquqlarını müdafiə elədiyim Nofəl Yusif oğlu Kələntərlinin törətdiyi cinayət hərəkətləri göz qarşısındadır. Torpaqlarımızın işğal





olunması, milyonlarla həmvətənimizin ev-eşiklərindən didərgin düşməsi buna sübutdur. Məhkəmə prosesində müttəhimin başqa millətin nümayəndəsi olması da aşkarlandı. Lakin onun öz təqsirini boynuna alması, peşmançılığı cinayət məcəlləsinə əsasən məsuliyyəti yüngülləşdirən hal kimi nəzərə alınmalıdır. Ona görə də müttəhimin cəzasının yüngülləşdirilməsini xahiş eləyirəm.

**Sədr:** Müttəhimə son söz verilir.

**Nofəl:** Möhtərəm sədr! Hörmətli kollegiya üzvləri! Qəbahətim böyükdür. Mən ən ağır cəzaya layiqəm! Əməlimdən peşmanam! *(Kövrəlir, dil-dodağı əsir)*. Hüquqlarımın pozulmadığı üçün ədalət məhkəməsinə minnətdaram! Haqq və ədalət məhkəməsindən günahlarımı yumaq üçün möhlət istəyirəm.

**Sədr:** Məhkəmə məşvərətə gedir...

*Adamlar asta-asta zalı tərk edirlər. Nofəl şahmar ilan kimi qıvrılaraq polis nəfərlərinin iştirakı ilə zaldan çıxır. Məhkəmə zalında yalnız üzgün, yorğun Yusiflə Səriyyə görünür. Axırda Yusif arvadının qolundan tutub qaldırır. Onlar asta addımlarla zalı tərk edirlər.*

*Kadr dəyişir. Göytəpə kəndi. Səhər yenicə açılıb. Yusif əl-üzünü yuyur. Səriyyə ona dəsmal verir. O, qurulanır. Sonra çəpərə yaxınlaşıb qonşusu Ramiz müəllimi çağırır.*

**Yusif:** Ramiz, ay Ramiz!..

*Ramiz eyvana çıxır.*

**Ramiz:** Eşidirəm, qonşu... Səhər-səhər nə əcəb?

**Yusif:** Səninlə işim var, gəl, sözümü deyim.

**Ramiz:** Baş üstə.

*Yusif həyət qapısına tərəf gedir. Ramiz gəlir. Əl verib görüşürlər. Sonra atın axuruna tərəf gəlirlər.*

**Yusif:** Bilirəm, Ramiz, sənin bu atdan xoşun gəlir... Mən artıq qocalmışam. Yoruluram, ata ürəyimcə baxanmıram. Bu gündən at olur sənin.

**Ramiz:** Yox, Yusif kişi, atın otun-əncərin, suyun verərəm. Sənə kömək eləyərəm. Narahat olma.

**Yusif:** Yox, Ramiz... Mənim bir sözüm var. Ağzımdan çıxdı, deməli, sözümə də sahibəm.

**Ramiz:** Sözünün qətiliyinə şübhəm yoxdu.

**Yusif:** İstəyirsən, atı axurda saxla, istəyirsən apar öz həyətinə... Sən atın yeminə, suyuna bax... Mən də səhər-səhər turac, kəklik ovuna gedim.

**Ramiz:** Sözündən belə çıxır ki, Səriyyə xala bu gün turac plovu bişirəcək?!

*Gülüşürlər.*

**Yusif:** Hə... İnşallah...

*Kadr dəyişir. Yusif tüfəngini götürüb kəndin kənarındakı meşəyə tərəf gedir. Ramiz atı qaşovlayır. Sonra onu axurdan çıxarıb minir. Kadr dəyişir. Meşədən atəş səsi eşidilir. Çaydan su gətirən Səriyyə Ramizi görüb gülümsəyir.*

**Səriyyə:** Bu nə səsdi, ay Ramiz?

**Ramiz:** Yusif əmidi. Yəqin turac vurdu. Axşam turac plovu yeyərik...

**Səriyyə:** Hə... Yusif turac plovu xoşlayandı...

**Ramiz:** Sən bişirən plov yamanca dadlı olur, Səriyyə xala.

**Səriyyə:** Bişirərəm, axşam plovu bir yerdə gəlib yeyərsiz.





Yusif Bakıdan gələndə deyib ki, atı bağışlayacaq sənə... Amma, at çox yaraşır sənə... Mənə Yusifin lap cavanlığını xatırladırsan, bala.

**Ramiz:** Allah Yusif kişiyə ömür versin. Mən də sizin oğlunuz. Həmişə qulluğunuzda durmağa hazıram...

**Səriyyə:** Çox sağ ol, bala...

*Kadr dəyişir. Səriyyə samovara od salır. Ramiz atla gəlir.*

**Səriyyə:** Oğlum, bir qaç meşəyə, gör Yusif hardadı? Ona çatdır ki, çay hazırdı.

**Ramiz:** Baş üstə.

*Ramiz atla çapa-çapa gedir. Kadr dəyişir. Kamera bir anlığa kəndi, meşəni panorama edir. Meşənin içi. Yusif vaxtilə Nofəli tapdığı yerdə uzanıb. Al-qan içərisindədir. Ondan bir az aralı tüfəngi düşüb. Ramiz Yusifi görür. Onu dəhşət bürüyür. Səriyyə arvad dəhşətli "səhərin kədərindən" xəbərsizdir...*

*Kadr dəyişir. Ramiz atla həyətə gəlir.*

**Səriyyə:** Hə, tapıb dedinmi?

**Ramiz** *(çaşqın halda)*: Gəldim...

**Səriyyə:** Nə? Saxlama de...

*Adamlar meşəyə tərəf qaçırlar. Filmin son titrləri oxunur.*

***1996***

# Qırmızı qar

*(1 seriyalı bədii film)*

**İştirakçılar:**
***Azərbaycanlılar:***

**Sədaqət** — gənc qadın
**Növrəstə** — gənc qız
**Səmayə** — orta yaşlı qadın
**Sona** — cavan gəlin
**Qətibə** — ərsiz qadın
**Xədicə** — yaşlı qadın
**Tamam** — qonşu
**Kərəm** — el ağsaqqalı
**Əkrəm** — Sədaqətin babası
**Rəşad** — Sədaqətin əri
**Kərəməli** — cavan oğlan
**Mərdan** — orta yaşlı
**Mustafa** — orta yaşlı
**Zakir** — əsgər
**Nəbi** — cavan oğlan
**Cavidan** — 11-12 yaşında
**Şakir** — 7-8 yaşında

***Ermənilər:***

**Şef** — quldurbaşı
**Suren** — köməkçi
**Razmik** — qapıçı
**Benik** — quldur
**Birinci erməni**
**İkinci erməni**
**Üçüncü erməni**
**Seda** — sağıcı
**Armida** — sağıcı

***Kütləvi səhnələr:***
**15 qaçqın**





## I hissə

*Dağlar qoynunda yerləşən Güldərənli kəndi. Kamera kəndi panorama alır. Hər tərəf qarla örtülüdür. Əkrəm kişi qoyun-keçini tövləyə salıb evə qayıdır.*

*Kadr dəyişir. Ev. Əkrəm kişi isti sobanın qırağında əyləşib. Xədicə arvad ərinə çay verir. Sonra da oturub söhbət edirlər.*

*Kadr dəyişir. Qaş qaralmaq üzrədir. Dağ yolu ilə hərəkət edən "VİLİS" markalı maşın həyət darvazasının qarşısında dayanır. Rəşad (qucağında uşaq), Sədaqət və Növrəstə həyətə daxil olurlar.*

**Tamam qarı:** Ay Xədicə, ay Xədicə! Qonaqlarınız gəlir, durun qarşılayın.

*Kadr dəyişir. Xədicə qarı ilə Əkrəm kişi eyvana çıxırlar. Rəşad Sədaqət və Növrəstə eyvana yaxınlaşırlar. Ev sahibləri və qonaqlar pilləkənin qabağında qarşılaşırlar. Görüşürlər. Öpüşüb Xədicə qarı uşağı Rəşaddan alır. Sir-sifətinə baxır. Yanağından öpür.*

**Xədicə:** Buuy, buz kimidi, bu uşaq, a bala! Nənən ölsün, ay Sakit! Ədə, bunlar yeziddi, nədi? Səni bu vəziyyətə salıblar.
**Əkrəm kişi:** Soyuqdu. Üşüyüblər. Uşaqları az danla.
**Xədicə:** A kişi, dayanma. Uşaq ilk dəfə nənə-baba evinə gəlir. Ayaqaçdısını ver.
**Əkrəm:** Bu saat, ay arvad. Üç illik qara qoçum var. Kəsəcəm onun gəlişinə.

*Xədicə arvad körpəni sobanın yanındakı döşəkçəyə qoyur. Sonra tələsik süfrə açmağa başlayır.*

*Kadr dəyişir. Əkrəm kişi əlində bıçaq tövləyə daxil olur. O, qara qoçun buynuzlarından yapışıb onu tövlədən çıxarır, ayaqlarını kəndirlə bağlayıb qarın üstünə yıxır. Fışıltı ilə axan qan qar üzərinə çilənir. Qar üzərində kiçik qan gölməçəsi yaranır. Əkrəm kişi bıçağı qanlı qar basmış torpağa sancır.*

*Kadr bir anlıq ekranda dayanır. Uzaqda mahnı səsi eşidilir. Filmin adı yazılır:* ***"Qırmızı qar"***

*Ekran dayandıqca, mahnının fəryadı daha güclü səslənir.*

**Mahnı**

Dağlar başı ala qar
Ala yaylaq, ala qar,
Nə qədər qar yağmışdı
Yağmamışdı belə qar...

*Birdən evin çilçıraqları sönür. Növrəstə pəncərədən çölə baxır.*

**Növrəstə:** Kəndin bütün işıqları söndü.

**Əkrəm kişi:** Eybi yoxdu. İndi yandırarlar. Siz bir az ehtiyatlı hərəkət edin. Sakit balamız yuxudan oyanar. Otağı qaranlıq görüb qorxar.

*Xədicə qarı neft lampasını yandırır.*

**Sədaqət** *(Gülümsünərək)***:** İşığın sönməsi onu göstərir ki, yatmaq vaxtıdı.





**Növrəstə:** Hə, düz deyirsən, bacı.

*Kadr dəyişir. Gecə yarı. Kənd tanklarla, PDM-lə, toplarla, qradlarla atəşə tutulur. Evlər od tutub yanır. Pulemyotların, avtomatların şaqqıltısı, itlərin hürüşməsi, qoyun-keçilərin mələşməsi, mal-qaranın böyürtüsü, camışların anqırtısı eşidilir. Əkrəm kişinin evi qrad mərmisindən alışır. Sakit yuxudan diksinib ayılır. Sədaqət körpəsini bağrına basır.*

**Əkrəm kişi:** Tez olun, yığışın evdən çıxaq. Evə mərmi düşə bilər.

*Kadr dəyişir. Ailə evdən çıxır. Erməni faşistlərinin PDM və tankları gecənin bağrını yarır. Ermənilər kənd camaatını qovur, qaçanları güllələyirlər. Ağ qar qırmızı qana boyanır. Camaatın səsi tankların səsinə qarışır. Ətraf bir an içində cəhənnəmə dönür. Qaranlıqda bu vahimələr daha da dəhşətli görünür. Bir tərəfdən dilsiz-ağızsız heyvanlar, o biri tərəfdən isə insanlar qaçır. Bu səhnələr dəhşətli, fəryad qoparan mahnının fonunda cərəyan edir.*

**Mahnı**

Biz yatdıqca, yağı düşmən oyandı,
Ağ qar! Ağ qar! Al rənglərə boyandı
Məhşər qopdu, zülm ərşə dayandı,
Ah qədim kənd bir gecədə yad oldu.
Dünya bizə başdan-başa od oldu.

*Adamlar yaranmış vəziyyətdən çaş-baş qalıb, qorxu və təlaş içərisində ev paltarında. Pulemyot, avtomat və tanklardan adamları vururlar.*

*Güllələr yağış kimi yağır. Güllə Əkrəm kişinin sinəsini dəlir.*

**Əkrəm kişi:** Öldüm, ana!

*Əkrəm kişinin qanı qarın üstünə tökülür. Qar al qana boyanır. Rəşad qucağında Sakit Əkrəm kişinin meyidinə tərəf irəliləyir. Avtomat gülləsi Rəşadı başından tutur. O, qucağında uşaq Əkrəm kişinin cəsədi üstünə yıxılır. Onların qanı bir-birinə qarışıb qarın üstünə axır. Sakit babası ilə atasının meyidləri yanında qalıb qışqırır. Xədicə qarı Sədaqətlə Növrəstəni meyidlərə yaxınlaşmağa qoymur.*

**Xədicə qarı:** Yox, yox, siz evə qayıdın, mən də gəlirəm.

*Xədicə qarı meyidlərə tərəf sürünür. Əri ilə kürəkəninin ölüb-ölmədiyini yoxlayır. Ürəyi sıxılır. Uşağı qucağına alır. Körpə səsini kəsmir. Xədicə qarı iməkləyə-iməkləyə geri qayıdır. Sədaqətlə Növrəstə özlərini itirirlər. Sədaqət doğmalarının meyidləri üstünə qaçmaq istəyir. Xədicə qarı qoymur.*

**Xədicə qarı:** Tələsmə! Tələsmə, qoy ötsün bu qəza, sonra.

*Kadr dəyişir. Çöldə atışma səsləri eşidilir. Xədicə qarı Sakiti Sədaqətə verib pəncərəyə yaxınlaşır, o yan-bu yana baxır. Elə bu an sinəsindən vurulur. Arxası üstə döşəməyə sərilir. Onun dəhşətli səsi Sədaqətlə Növrəstənin iliyinə işləyir. Sakit ağlayır. Ana uşağı döşəmə üstünə qoyub nənəsinin cəsədini pəncərənin qarşısından evin ortasına tərəf çəkir.*

*Birdən Əkrəm kişinin evinin tavanına top mərmisi düşür. Ev alışıb yanmağa başlayır.*

*Kadr dəyişir. Uşağı qucağına almış Sədaqətlə Növrəstə Xədicə qarının meyidini Əkrəm kişi ilə Rəşadın cəsədinin yanına çəkib gətirirlər. Qonşu həyətdən rus, erməni dilində "vur bu əclafları, qır alçaq türkləri" — deyə söyüşlər eşidilir.*





**Sədaqət:** *(Pıçıltı ilə)* Qaçaq, Növrəstə.

*Kadr dəyişir. Sədaqət uşağını götürüb Növrəstə ilə sürünə-sürünə həyətin aşağı hissəsinə, oradan da kəndarası yola çıxırlar. Birdən Sədaqət ayaq saxlayır.*

**Sədaqət:** Biz doğmalarımızın meyidlərini qoyub hara qaçırıq, bacı?

**Növrəstə:** Biz ölümdən qorxub qaçmırıq... Biz ar-namusumuzu, qızlıq, qadınlıq ləyaqətimizi, ismətimizi götürüb qaçırıq. Şərəfsizlərin əlində bədnam, rüsvay olmamaq üçün qaçırıq, bacı.

*Onlar gecənin qaranlığında gözdən itirlər. Atəş və güllə səsləri kəsilmək bilmir.*

*Kadr dəyişir. Səhər açılır. Kol-kosların dibindən qurşağacan çıxan qarın altından adamlar başlarını qorxa-qorxa qaldırırlar. Soyuqdan adamlar bir yerə toplaşırlar. Sonra onlar bir-birlərinə dayaq olaraq irəliləyirlər. Sağ qalmış kənd ağsaqqallarından biri olan Kərəm kişi üzünü irəliləyən dəstəyə tərəf çevirir.*

**Kərəm kişi:** Darıxmayın... Mən bu yerləri yaxşı tanıyıram. Çıraqlı meşəsinə gedək. Dar cığırlarla zirvəsi qarlı dağları aşaq. Dağın arxasında Azərbaycan kəndləri yerləşir. Belə olsa, ar-namusumuz ayaqlar altına düşməz. Şərəfimiz tapdalanmaz.

*Növrəstə dəstənin arasından Kərəm kişiyə cavab verir.*

**Növrəstə:** Necə olursa-olsun, erməni quldurlarının əlindən

qaçmalıyıq.

**Kərəm kişi:** Allahın köməkliyi ilə bu əzablı yolları gedərik.

*Qaçqınların dəstəsi irəliləyir. Ekranda qarın üstündə onların ayaq izləri görünür.*

*Kadr dəyişir. Erməni quldurları kənddəki boş evlərə daxil olurlar. Onlar otaqları dağıdır, qiymətli şeylər axtarırlar. Şef və onun dəstəsi oğurluq edə-edə bir-bir evlərə daxil olur.*

*Dəstə meşə ilə irəliləyir. Bərk yorulan adamlar ağacların gövdələrinə söykənib nəfəslərini dərirlər. Uzaqdan ermənilərin maşın və PDM-lərinin səsləri eşidilir. Qaçqınlar meşədə olan kol-kosların, sıx, gövdəli ağacların dalında gizlənirlər.*

*Əsirlər gizləndikləri yerdədirlər. Qorxudan səslərini çıxartmırlar. Lakin uşaq ara vermədən ağlayır. Qaçqınları baxışları Sədaqətə yönəlir. O, baxışları hiss edib sakitcə Növrəstəyə baxır.*

**Sədaqət** *(riqqətlə, həyəcanla öz-özünə)***:** Bilirəm, yazıqlar mənə bir söz deyə bilmirlər. Amma mən nə edə bilərəm? Körpə uşağa necə başa salım ki, ağlama.

*O, uşağı sakitləşdirməyə cəhd göstərir. Uşaq isə daha ucadan ağlamağa başlayır. Kərəm kişi oğrun addımlarla Sədaqətə yaxınlaşır.*

**Kərəm kişi:** Səni başa düşürəm, qızım... Körpə yazıq hardan bilsin ki, onun ağlaması hamımızın əsir düşməyinə səbəb ola bilər... Qızım, sənə qurban olum, çalış, onun səsi uzağa getməsin.

**Sədaqət:** Bilirəm, bilirəm, ermənilər izimizə düşüblər...

**Kərəm kişi:** Elədir, qızım... Onlar bizi təqib edirlər...





**Növrəstə:** Sizi başa düşürəm, baba... Əgər biz əsir alınsaq, namusumuz ayaqlar altına düşəcək...

*O, uşağı bacısından alıb onu sakitləşdirməyə cəhd göstərir. Uşaq isə ağlayır.*

**Kərəm kişi:** Axı bu uşağı necə başa salasan?.. Sən Allah, qızım, sözlərimdən incimə...

*Kərəm kişinin gözləri yaşarır.*

**Sədaqət:** Mən hər şeyi başa düşürəm, Kərəm əmi. Yaranmış vəziyyəti dərk edirəm.

*Uşaq bir anlıq susur. Kərəm kişi sevinir.*

**Kərəm kişi:** A, sakit oldu... Ağıllı baladı, bizim sözümüzü eşitdi.

*Uşaq yenə ağlamağa başlayır. Sədaqət həyəcanlanır. O, uşağı bağrına basıb yırğalayır. Ekranda onun gözləri görünür. Kadr arxasından Sədaqətin səsi eşidilir.*

**Sədaqətin səsi:** Mən indi nə edim, İlahi? Doğma balamdan necə əl çəkim?! Bu dilsiz uşağı necə başa salım ki, ağlamaq olmaz, ermənilər gəlib bizi tutub apararlar. Mənim balam, sən Allah, ağlama... Sən səsini kəsməsən, həm özünün, həm də zavallıların həyatına qəsd edəcəksən. Ağlama, körpə quzum... Ananın və xalanın isməti ləkələnə bilər...

*Uşaq ağlayır. Hamının narahat baxışları bir anlıq Sədaqətin baxışları ilə toqquşur.*

**Sədaqət:** Yox... Yox... Belə olmaz!... Biz əsir düşə bilmərik... Belə getsə, bu dilsiz uşaq bizi ələ verəcək.

**Növrəstə** *(özünü itirərək)*: Sən nə etmək istəyirsən?

**Sədaqət** *(daxili bir fəryadla)*: Alçaqlar, əclaflar, namussuzlar...

**Növrəstə:** Özünü ələ al, bacı!..

*Sədaqət uşağı köksönə sıxır. Az qala gözləri hədəqəsindən çıxır. Növrəstə hiss edir ki, Sədaqət uşağı boğur.*

**Növrəstə** *(Ağlayaraq)*: Sən nə edirsən?.. Vallah bacı, Sakit bir daha ağlamaz...

**Sədaqət** *(Ağlını itirərək)*: Elədir, bacı, o bir daha ağlamayacaq. Həyatım qədər istədiyim balam bir daha ağlamaycaq. Mənim əziz balam, mən hardan biləydim ki, sənin belə acı taleyin olacaq. Mənim balam, sən bu qədər adamın fəlakətinə səbəb ola bilməzdin. Allah, özün keç mənim günahımdan.

*Sədaqət özündən asılı olmadan çığırmaq istəyir. Növrəstə cəld onun ağzını əli ilə qapayır. Qaçqınların gözlərindən yaş damcıları axır. Sədaqət elədiyi hərəkətdən özü də bərk qorxub bayılır. Qaçqınlar onu özünə qaytarmağa çalışırlar. Kərəm kişi uşaq kimi ağlayır. Sədaqət handan-hana özünə gəlir. O, palıd ağacından kiçik bir budağı sındırır. Yarısını özündə saxlayır, yarısını Növrəstəyə verir.*

**Sədaqət:** Kömək elə, bacı! Sakitimə — ilk ciyər-parama yer qazaq, bacı! Babamıza, nənəmizə, Rəşada qəbir qaza bilmədik. Barı onların ruhu şad olsun deyə, Sakiti torpağa biz tapşıraq, bacı!

*Ana qəbri qucaqlayıb ağlayır.*





**Sədaqət:** Mən səni şəhərdən min bir əzabla bunun üçün gətirməmişdim, balam! *(Palıd ağacına nişan qoyaraq)* Görüşənədək, mənim körpəm, mənim yavrum!

*Sədaqətin qohumlarından olan Sona ona yaxınlaşır.*

**Sona:** Qalx, bacım, qalx! Qismətimiz belə imiş.

*Sona və başqaları onu qəbirdən zorla ayırırlar.*

**Kərəm kişi** *(Sədaqəti bağrına basıb ağlayır)*: Məni bağışla, qızım. Kaş dilim lal olaydı sənə yaxınlaşan yerdə...

*Sədaqət daxili fəryadla, ağlını itirərək hamıya yaxınlaşır.*

**Sədaqət** *(Xırıltılı səslə)*: Hanı mənim körpəm, hanı mənim balam, mənim Sakitim?!

*Hamı heyrət və təlaş içərisində anaya baxır. Kərəm kişinin günahkar gözləri yumulur.*

**Kərəm kişi:** Körpənin ölümündə mənəm günahkar... İlahi, bu qadında nə böyük iradə varmış. Aman Allah, yaratdığın bəşər övladı nələrə qadir deyilmiş?! Elinin-obasının namusu və şərəfi naminə övladını sinəsində boğan ananın ürəyi, qəlbi nə imiş, Xudaya?! Xalqın namus qalasını qoruyan o kişi qeyrətli ananı hifz elə, İlahi! Səni başa düşürəm. Bir tərəfdə namus, şərəf, ləyaqət, ismət məhəbbət! O biri tərəfdə kin və nifrət, hiddət və qəzəb! Özün kömək ol bizlərə, İlahi! Hardan doğmuşdu bu hünər, bu qüdrət, bu hikmət?! Şahid ol, İlahi, yenilməz qadın cəsarətinə! Qarşısıalınmaz ana qüdrətinə!

*Sədaqət özünü ələ alıb dəstə ilə birgə bu əzablı yollarla gedir. Qaçqın dəstəsi asta-asta gözdən itir.*

*Kadr dəyişir. Şef və onun dəstəsi gözlənilmədən meşəyə girir. Adamlardan bir neçəsi qaçmaq istəyir. Şef onları gülləyə tutur. Sədaqət bu vəhşiliyi görüb Şefin üstünə cumur. O, Şefin boynuna atılıb onu var gücü ilə boğmağa başlayır. Üzünə tüpürür.*

**Sədaqət:** Alçaqlar, əclaflar!.. Yöndəmsizlər. Niyə günahsız adamlara əl qaldırırsan?..

*Şef üzünün tüpürcəyini silir. Suren Sədaqəti tapança ilə vurmaq istəyir.*

**Şef:** Tələsmə, o, bizə lazım olacaq.

*Növrəstə bacısının qolundan tutub geri çəkir. Nəbi Şefə tərəf yeriyir, yumruqlarını düyünləyir.*

**Nəbi:** İnsafınız olsun, Allahsızlar!

*Şef tapançanı çıxarıb Nəbini vurur.*

**Şef:** Al, bu da sənin!

*Əsirlər İlanmələrlə irəliləyirlər. Ermənilər əsirləri batalqaya salırlar. Xəstələr, yaralılar, qocalar yorulub qalırlar. Yeriyə bilməyənlər güllələnirlər.*

**Şef:** Siz türklərə hələ bu da azdı, qabanlar, ayılar.
**Sonanın daxili səsi:** Belə yaşamaqdansa, ölüm yaxşıdı. Ölənlər xoşbəxtdilər. Nə olaydı, Allah-Təala ermənilərin ürəyinə bir Əli xofu salaydı. Bu əzab-əziyyətdənsə, bizi qıraydılar, məhv edəydilər, bu cəhənnəm əzabından qurtaraydıq. Arımız, namusumuz heç olmasa özümüzdə qalaydı. Pisimizi, yaxşımızı özümüz biləydik.





*Kadr dəyişir. Budanmış tənək sahəsi. Bir qədər aralıda üstünü qar basmış, qırılmış budaqlar görünür. Əsirlər yorğun halda dayanıblar. Hamı nifrətlə Şefə baxır.*

**Şef:** Alçaqlar! Əclaflar! Sizin nəslinizi yer üzündən kəsmək gərəkdi.
**Kərəməli:** Alçaq, əclaf sizsiz. Ermənilərin kökü kəsilməlidi. Çünki sizdə nə ar, nə namus, nə qeyrət, nə insaf, nə də ləyaqət var.
**Şef** *(üzünü Surenə tutur)***:** Bu alçağın qulaqları çox itidi. Həm də uzundu. Onu qaydaya salmaq lazımdı.
**Suren:** Oldu, Şef.

*Suriklə Qarsevan Kərəməliyə tərəf cumur. Surik bıcağı çıxarır, düyməsini basır. Onlar Kərəməlinin qulağını kəsməyə çalışırlar. Bu, mümkün olmur.*

**Şef** *(Qışqıraraq)***:** Dayanın!

*Ermənilər əl saxlayırlar.*

*(Soyuqqanlılıqla)* Beton dirəklərdən məftili kəsin. Onu dirəyə bərk-bərk sarıyın. Sonra da qulaqlarını dibindən sıyırın. Gərək, hər şeyi mən sizə öyrədəm?
**Suren:** Oldu, Şef!

*Suren dirəklərə tərəf qaçıb məftili qırır. Ermənilər yenidən*

*Kərəməlinin üstünə cumurlar. Onu dirəyə tərəf sürüyürlər. Sonra dirəyə sarıyırlar.*

**Kərəm kişi:** Səni and verirəm o böyük Yaradana. O oğlanı öldürmə.

**Şef:** Qoca, itil burdan. O, zəhərli ilandı. Onu sənin gözünün qabağında yandıracam.

**Kərəm kişi:** Allahdan qorx, a namərd.

*Ermənilər tənəklərin qırılmış quru qol-budaqlarını, çırpıları Kərəməlinin üstünə atırlar.*

**Şef:** Odu özüm vuracağam...

*Qaçqınlar için-için ağlayırlar. Şef cibindəki burun dəsmalını çıxarıb uzun bir budağın başına bağlayır və sonra kibritlə yandırır. Suren maşının arxasındakı konistirdəki benzindən qalağın üstünə tökür. Şef əlində yanan dəsmalı Kərəməlinin üstünə atılmış üzüm budaqlarına yaxınlaşdırır. Qaçqınlar heyrətdən qışqırırlar. Alov getdikcə qızışır. Kərəməlinin fəryadı aləmə yayılır.*

**Sonanın səsi:** Əzizim qoşa dağlar
Verib baş-başa dağlar.
Mən ki, didərgin düşdüm,
Sən də qal, yaşa, dağlar.

Baxır dolayı dağlar,
Çəkir harayı dağlar.
Kaş öləydik Vətəndə
Qərib ölsək, kim ağlar.

Mən aşiq el gələndi,





Hayıma el gələndi
Vətəndən ayrı düşdüm,
Gözlərim kölgələndi.

*Qaçqınlar ölüm çığırı ilə irəliləyirlər. Növrəstə altı yaşlı Şakiri özünə tərəf sıxıb asta-asta addım atır. Kərəm kişi, Səmayə arvad özlərində güc taparaq gedirlər. Onların hər birinin əzablı gözləri ekranda görünür.*

**Kərəm kişinin səsi:** Aman Allah, bu əzablara dözmək necə də çətindir! Bu işgəncədənsə ölüm yaxşıdı. Ölüm! Aman Allah, bu anlam nə qədər üzüntülüdü?! Nə qədər sarsıdıcıdı?! Nə qədər dəhşətlidi?! Ölüm indi bizim üçün yaşamaqdan qiymətlidi, Xudaya! İlahi, biz zavallılara mərhəmət göstər! Kömək ol, ya Rəbbim!

**Növrəstənin səsi:** Heç insanı da odda yandırarlarmı?! Bu vəhşiliyin sonu olacaqmı, İlahi?! Şükür sənin böyüklüyünə. Adamlar niyə belə olurlar?! Qatil, oğru, qaniçən, əzazil, quldur!.. Axı nə üçün zülmün zənciri bu qədər uzun olur?! Nədir onları adi insanlıq hisslərindən məhrum edən?! Nə üçün onlar başları üstə olan o Böyük Qüdrəti görmürlər?! Nədir, bu əxlaqsızlıqlar?! Necə yaranıb, nə cür doğulub ölçülərə gəlməyən bu cinayətkarlıq?! İnsanlar Allahın dərgahından dönəndə necə də dəhşətli olurlar?!

**Mərdanın səsi:** Nədir günahımız, İlahi?! Niyə belə olmalıydı bizim taleyimiz?! Nə vaxta qədər biz bu nadanların əlində əzab çəkməliyik, ya Rəbbim?! Göstər qüdrətini, ey böyük Yaradan!

**Sonanın səsi:** Gərək yaxşı-yaxşı düşünək, fikirləşək! Unutqanlığı ataq! Dostu düşməndən ayıraq! Pisimizi, yaxşımızı yüz dəfələrlə ölçək-biçək...

**Qətibənin səsi:** Unutqanlıqlar hardan gəlir? Qan yaddaşı-

mızdanmı? Soy kökümüzdənmi? Bilmirəm... Bəs torpağa, millətə xəyanətlər necə? Yaxşı, onlar nədəndi? İçdiyimiz sudanmı? — Yox! Üzərində gəzdiyimiz torpaqdanmı? — Yox! Aldığımız havadanmı? — Yox! Yediyimiz çörəkdənmi? — Yox! Bəs nədəndi? Bəlkə satqınlara təlqin olunan tərbiyədəndi? Qəbahətdəndi? Dünya malına aşılanan hərislik hisslərindəndi? Düşünürəm. Nədir bu biz zavallıların günahı? Niyə belə olmalıydı bizim taleyimiz?

**Sədaqətin səsi:** Hadisələrin sonunu heç cürə təsəvvür edə bilmirəm. Özümün də, bacım Növrəstənin də qeyrət və namusuna qapanıb qalmışam. Əgər ölməsək, bizi daha faciəli, daha fəlakətli anlar gözləyir. Dünyanın bir çox dərd-sərindən xəbərsiz, hələ özünün kimliyini dərk etməyən bu yazıq Növrəstə hadisələrin burulğanında, azğın dalğaların qoynunda özünü məhv etməyəcək ki? O bir Allah bilir! İndi mən onu gözləyən, anbaan ona yaxınlaşan namusuna təcavüz təhlükəsini bu məsum qıza — əziz, doğma bacıma necə çatdırım?

*Şeflə Suren yanaşı dayanan Sədaqətlə Növrəstəni kənardan süzürlər. Öz aralarında nəsə pıçıldaşırlar. Sədaqət Növrəstəni özünə tərəf çəkir. Bunu görən Kərəm kişi asta-asta onlara yaxınlaşır.*

**Kərəm kişi:** Belə getməz, qızım. Allahın da səbrinin tükənən vaxtı var. Yaradanı olan dərd çəkməz. Görünür, qismətimiz belə imiş. Səbirli olun. Bir-birinizdən ayrılmayın, qızım!..

**Şef:** Gecdir, gedək dincimizi alaq. Bunları o biri əsirlərin yanına salın. Səhər haqq-hesab çəkərik.

**Suren:** Oldu, Şef.

*Kadr dəyişir. Tövlə. Köhnə əsirlərdən biri təzə gələnlərə məlumat verir.*





**Mustafa:** Narkomanlar, mafiozlar axşamdan xeyli keçmiş gəlib əsirləri aparırlar. Cavab qaytaranları, dediklərinə tabe olmayanları döyür, şil-küt edir, qol-qabırğalarını sındırırlar. Şikəst edirlər. Bax, bu gördüyünüz xəstə, şikəst gəlinlər kimi. Quldurlar Azərbaycan dilini bilirlər. Ehtiyatlı olun. Onların yalan vədlərinə aldanmayın.

*Axşam. Göz gözü görmür. İyrənc vəziyyətə düşmüş tövlə. Şakir yatdığı yerdən qalxır. Ağlamağa başlayır. Gözlərini ovuşdurur.*

**Cavidan:** Niyə ağlayırsan?

**Şakir:** Qarnım acından ölür.

**Kərəm kişi:** Şakir, oğlum, gəl babanın yanına.

*Şakir Kərəm kişiyə tərəf gəlir. Kərəm kişi onun başını, boynunu sığallayır, onu inəklər yatan tərəfə aparır. Kişi taxtalardan bir neçəsini çıxarır. İnəklərin yanına addayır, əlini sürtə-sürtə sağmalını tapır.*

**Kərəm kişi:** Şakir, bura gəl, oğlum.

*Şakir Kərəm kişinin yanına gəlir.*

**Kərəm kişi:** Mən inəyin başını qatacam. Sən onun məmələrini əm. Qorxma, oğlum.

*Uşaq inəyi əmməyə başlayır.*

**Şakir:** Doydum, baba, bəsdi.

**Kərəm kişi:** Səhərə yaxın bir də gələrik. Şükür sənin böyüklüyünə, İlahi. Əsir düşən uşağın ruzusunu da arxasınca gön-

dərmisən. Bu, sənin hökmündü. İnsanlara zülm etmək sənin böyük qüdrətini dananların işidi...

*Şakirlə Kərəm kişi taxtaların arasından əsirlərin yanına keçirlər. Kərəm kişi taxtaları öz yerinə bərkidir.*

*Şef isti sobanın qırağında oturub dadlı yeməklər yeyir. O, Surenlə araq içir, keflənir və sonra ədabazlıq edərək tapançadan bir neçə atəş açır.*

*Tövlənin yanında kiçik bir otaqda növbə çəkən Razmik cəld Şefin olduğu otağa qaçır.*

*Kadr dəyişir. Kef məclisi davam edir. Razmik təlaşla içəri daxil olur.*

**Razmik:** Güllə atan kim idi?.. Nə olub?..

**Şef:** Kefim fışdırıq çalır, Razmik... Bu dünyanın əzabı bəyəm bizə qalıb?

**Razmik:** Şef, tövlədə beş-altı əsir qalıb. Deyirəm, bəlkə onların işini bitirim.

**Şef:** Yox, onlar bizə lazımdı. Get, öz işinlə məşğul ol.

**Razmik:** Oldu, Şef!

*Kadr dəyişir. Sədaqətlə Növrəstə arxalarını bir-birinə söykəyərək oturublar. Sədaqət yuxuda babası Əkrəmi, nənəsi Xədicəni, əri Rəşadı görür.*

**Xədicə** *(yuxuda)***:** Bacından muğayat ol. İndi onun pənahı sənsən, qızım. Bizdən nigaran olmayın. Biz daha rahatlandıq. Sən böyüksən, bacını başa sal. Çox cavandı, onu aldada bilərlər. Şərəfimizi, ləyaqətimizi qoruyun, qızım. Şərəfli ölüm mənasız həyatdan yaxşıdı. Allah özü sizə yar olsun, bala! Bizdən Növ-





rəstəyə salam söylə. Qoy o da darıxmasın. Tezliklə sizinlə də görüşərik...

*Nənə qeybə çəkilir. Onu Rəşad əvəz edir.*

**Rəşad:** Əzizim, bilirəm, hər şeyi bilirəm. Danışma. Sakit də indi mənim yanımdadı. O da, mən də bilsən sənin üçün nə qədər darıxmışıq. Lap həddsiz. Sakit tez-tez sənin üçün ağlayır, kürlüyünü eləyir. Özünü qoru. Səni yaxşı tanıyıram. Onun üçün də səndən nigaran deyiləm, Sədaqət! Babanla, nənənlə birlikdəyik. Tələsmə, səninlə də, Növrəstə ilə də tezliklə görüşəcəyik...

## II hissə

*Tövlənin qapısı açılır. Razmik əlində fanar daxil olur. İçəri işıqlanır. Razmik üzünü Qətibəyə tutur.*

**Razmik:** Sən dur ayağa...

**Qətibə:** Durmuram...

**Razmik:** Özbaşınasan bəyəm?.. Dur ayağa, deyirəm sənə.

**Qətibə:** Elə buradaca öldür məni! Gedən deyiləm...

**Razmik:** Şefi əsəbləşdirmək olmaz. Yoxsa o, hamınızı qırar.

*Suren əlində fanar tövləyə daxil olur.*

**Suren:** Deyəsən, gücün çatmır, Razmikcan...

**Razmik:** Zorla aparmasaq, mümkün deyil...

**Suren:** Ala bu kəndiri, əl-qolunu bağla, aparaq Şefə, o, çox gözləyə bilməz...

*Razmik Surendən ipi alıb zorla Qətibənin əl-qolunu*

*bağlamağa çalışır. Bu dözülməz hadisəni görən Mərdan Qətibəyə köməyə gəlir. O, Surenə bir yumruq vurur. Suren yıxılır. Mərdan sinəsi ilə Qətibənin qabağını kəsir.*

**Suren** *(Mərdana)***:** Axmaq adam... Çəkil kənara. Yerini tanı...

**Mərdan:** Sən yerini tanı... Biz ölərik, namusumuzu ayaqlar altına atmarıq...

**Suren:** Ara, o, məni vurdu?.. Mən onu bilirsən...

**Razmik:** Əl saxla, Suren...

**Suren:** Qurban olasan Razmikə, yoxsa qarnını deşik-deşik edərdim...

**Razmik:** Xoşluqla deyirəm sənə, qızı burax getsin bizimlə...

**Mərdan** *(Gözü birdən divarın dibində dayanan üçdilli yabaya sataşır)***:** Xoşluqla itilin burdan...

**Suren:** Sən bizə itil deyirsən?

**Mərdan:** Bəli, sən və sənin kimi qab dibi yalayan itlərə deyirəm.

*Razmik ipi götürüb Qətibənin üstünə gedir. Mərdan cəld sıçrayaraq yabanı götürüb Razmikin üstünə cumur. Elə bu an Suren avtomatdan atəş açır. Mərdan yerə sərilir. Əsirlər qorxudan yerlərində donub qalırlar. Şakir ağlayır. Razmik və Suren Qətibənin əl-qolunu bağlayır, sürüyərək tövlədən çıxarırlar...*

*Qətibəni qarın üzəri ilə sürüyərək Şefin yanına aparırlar. Qətibə gah ayağa qalxır, gah da yıxılır. Onu hər iki vəziyyətdə dartaraq aparırlar. Qətibənin fəryadı ətrafa yayılır...*

*Tövlə. Əsirlər Mərdanın meyidi ətrafında əyləşiblər. Kərəm kişi "Yasin" oxuyur. Göz yaşları onların yanaqlarından süzülür. Hiss olunur ki, Səmayə arvad dəli olmaq dərəcəsinə gəlir. O, tez-*





*tez dizlərini döyəcləyir... Növrəstə Şakiri bağrına basır. Qətibənin uzaqdan gələn fəryad səsi adamın bağrını yarır. Şef kefli halda yerə yıxılmış Qətibəyə yaxınlaşır.*

**Şef:** Sən məndən nahaq yerə qorxursan... Məgər sizin türk kişilərindən pisəm?..

**Qətibə:** Mənə əl vurma, iyrənc dığa...

**Şef:** Mənim ürəyimə dəyirsən, gözəl xanım...

**Qətibə** *(Birdən əllərini göyə qaldıraraq)***:** Bu işgəncələrdən özün bizi qoru, İlahi!..

**Şef:** Səsini bizdən başqa heç kim eşitməyəcək. Əbəs yerə özünü yorma...

**Qətibə:** Siz hökmən Allahın qəzəbinə gələcəksiniz. Bu rəzaləti nə yer, nə də göy götürər...

**Şef:** Bəsdir mollalıq elədiyin *(Suren və Razmikə).* Qaldırın onu *(Suren və Razmik Qətibəni qaldırırlar).*

**Qətibə** *(Zorla onları itələyir və divar dibinə qısılıb qalır)***:** Yaxın durmayın mənə.

**Şef:** Yaxın dursaq, nə edəcəksən, ay yazıq?!..

*Qətibənin gözü pəncərənin qırağında dayanan boş araq şüşəsinə sataşır. Şef ona yaxınlaşır. O, cəld şüşənin boğazından tutaraq onu divara vurub sındırır. Araq şüşəsinin sınıq ucunu Şefə uzadır.*

**Şef:** Dişi bəbir kimi yaman cəldsən...

**Qətibə:** Yaxın gəlsən, bu şüşə ilə üz-gözünü doğrayacam.

**Suren:** Şef, bəlkə dərsini verək?

**Şef:** Yaxşı qızdı. Onu gərək özüm əhliləşdirəm.

**Qətibə**: Onu yuxuda görərsən, çirkin dığa...

*Şef, Suren və Razmik ona yaxınlaşırlar. Elə bu vaxt Qətibə*

*əlindəki iti şüşə qırıntısı ilə qol damarlarını kəsir. Qan ətrafa sıçrayır. Ekran qan damcılarından qızarır.*

*Kadr dəyişir. Tövlə. Səmayə arvad qışqırıb ayağa qalxır.*

**Səmayə:** Ay camaat, nə yatmısız, ayağa qalxın. Sabah oğlum Zamanın toyudu. Hamınızı toya dəvət edirəm. Gəlməsəniz, inciyərəm. Hazırlıq görün. Gəlin, Salman kişinin qızı Nərminəyə nişan aparaq. Durun, durun ayağa, gecikirik. Gedək gəlinin əlinə həna yaxaq *(cırtıq vura-vura oxumağa başlayır):*

Evimizə gəlin gəlir
Sığallayıb telin gəlir
Görüşünə elim gəlir
Çıraqları gur yandırın,
gur yandırın.
Bu oğlanı şadlandırın,
şadlandırın.

*Hamı hövlank halda ayağa qalxır. Heç kəs səsini çıxarmır. Səmayə arvad da sakitləşir.*

*Kadr dəyişir. Malabaxanlar inəkləri tövlədən çıxarırlar. Sağıcı Seda ilə Armida inəkləri sağırlar.*

**Seda:** Armida, elə bil mənim inəyimi bu gecə sağıblar.
**Armida:** Sən Allah, bəsdi. Az danış. İndi deyəcəksən ki, bu ciyəri yanmış əsirlər inəyimi əmirlər.
**Seda:** Yox, niyə ki, ay qız. Mənim əsirlərə yazığım gəlir.
**Armida:** Ağrım onların ürəyinə. Tutublar , Qarabağ bizimdi. Biz Qarabağı vermərik. Dəvədən yıxılırlar, höt-hötünü yerə qoymurlar.





**Seda:** Bəs bizə nə olub? Qarabağ onların ola-ola çırmanıb düşmüşük ortaya. Tumanımızı atmışıq başımıza, həyasızcasına deyirik: — Qarabağ bizimdi. Yalandı, onu ortaya atanın gözü çıxsın.
**Armida:** Az, bəsdi, az. Elə bil azərbaycanlıların burnundan düşmüsən, lap onlar deyən kimi deyirsən.
**Seda:** Düz deyirəm də. Cavanları qızışdırıb salıblar azərbaycanlıların üstünə. İndi də günahsız qocaları, qız-gəlinləri, uşaqları gətirib qırırlar burda. Deyirlər, erməni kişiləri axşam əsir qadınları gəlib aparırlar evə ki, kef çəksinlər. Gözlərinə dönüm onların da. Döyülürlər, ölürlər, ancaq erməni kişilərinə boyun əymirlər. Söz öz aramızda qalsın. Biz erməni qadınları üçün özümüzün, özgənin fərqi yoxdu. Kişilər çatmamış hazır oluruq qabaqlarında. Haradan istəyirlər oradan da o söz...
**Armida:** Əşi, elə yaxşısını bizimkilər eləyir.
**Seda:** Niyə, a canı yanmış?
**Armida:** Məgər bilmirsən?! İşləri düşən adama erməni kişiləri arvadlarını, qızlarını, təzə gətirdikləri gəlinlərini ətirləyib kirşanlayıb ötürürlər. Az olub belə hallar? Qonaqlardan qalan uşaqları da "oğlum", "qızım" deyib saxlayırlar. Sən Allah, bəsdi, arımız yox, qeyrətimiz yox. Başlayırıq azərbaycanlılara da şəbədə qoşmağa.
**Seda:** Ağız, heç azərbaycanlı kişisi görmüsən? Onun ləzzətini dadmısan?
**Armida:** Niyə görməmişəm, qonşumuz azərbaycanlı deyildi? Nə gizlədim səndən, indi də yadıma düşəndə ürəyim titrəyir. Adama əziyyət-zad verib eləmirlər ki.
**Seda:** Hə bacım, mənim də çox xoşuma gəlirlər. Başı batsın onları burdan qovanların. Kişiyə deyirəm, siz niyə elə deyilsiz? Elə hey deyir, biz elə ola bilmərik. Cəhənnəmə olun.
**Armida:** Day demə. Dad onlarnan getdi.
**Seda:** Bunu mənə yox ey, kişinə de.

**Razmik** *(Gəlir)***:** Deyirəm, bu azərbaycanlı kişilərində nə görmüsüz ey?

**Seda:** Onu arvadından soruş. Ləzzətini o, sənə deyər.

**Armida** *(Ucadan gülərək)***:** Ağız, heç o, özü arvadının üzünü görür ki? Düşüb əsirlərin iyinə. Əsirlərdən də bir şey çıxmır. Şef bunu gecə-gündüz otuzdurub burda. Özü də bu zavallının arvadı ilə məşğul olur evdə. Külbaş arvadına şərait yaradır. Bu da gəlib bizimlə burda ağız-ağıza verir.

*Şef gəlir. Razmikə üzünü tutur.*

**Şef:** Bunlara həyət-bacanı təmizlədin. Özünüz də axşama hazırlıq görün.

**Razmik:** Oldu, Şef.

*Tövlənin qapısı açılır.*

**Razmik:** Çıxın, çıxın, tövlədən. Qammazlar, heyvanlar.

*Kadr dəyişir. Həyət. Bellərlə yolların qarını təmizləyirlər. Sədaqət qarın altından köhnə paslı alması tapıb dəsmala bükür. Şakir soyuqdan donub tir-tir əsir. Çömbəlib ağlayır. Səmayə çırtma vurub oynayır.*

**Səmayə:** Evimizə gəlin gəlir.
Sığallayıb telin gəlir.
Görüşünə elim gəlir
Çıraqları gur yandırın,
gur yandırın
Bu oğlanı şadlandırın,
şadlandırın.





*Əsirlər Səmayəyə peşman-peşman baxırlar. Kərəm kişi ilə Sona Səmayənin qolundan tutur. Səmayə dartınaraq onların əlindən çıxır. Yaxınlıqdakı qar topasının üstündə oturur. Razmikə dirsəyini göstərir.*

**Səmayə:** Sənə göstərərəm kim olduğumu.

*Səs-küyə uşaqlar gəlirlər. Səmayə uşaqların üstünə qaçır, uşaqlar da onu qar topuya tuturlar. Səmayə deyir, gülür, qışqırır. Ermənilər onu ələ salırlar. Səmayə nəzarətdən çıxır. Razmik Səmayəni avtomatın qundağı ilə vurur. Səmayə yıxılır. Suren onu təpiklə vurur. Səmayə çətinliklə ayağa qalxır.*

**Səmayə:** Şahid ol, sən də, İlahi, odlara saldın balamı...
Qanlı meydana gedən, yollara saldın balamı...

*Səmayə deyib ağlayır. Əlləri ilə sinəsinə vurur. Şef gəlir.*

**Şef:** Aralaşın, it küçükləri! Bu nə səsdi, bu nə oyundu.

*Adamlar əsirlərdən bir qədər aralanırlar.*

**Şef:** Tez olun işləyin, alçaqlar, sizi bura yedirib içirməyə gətirməmişik.

*Şef Sədaqətlə Növrəstəni gözaltı edir.*

**Şefin səsi:** Bu günkü qonaqlarımız əvvəlkilərdən cavandılar. Onlarla səhərə qədər kef çəkməyə, vaxt keçirməyə dəyər.

*Şefin niyyətini Səmayə başa düşür.*

**Səmayə:** Şef, nə çıxarılası gözün var? Nə canını alaram? Ətini tikə-tikə edib şişə çəkərəm. Bir balaca qızardaram, uf demədən yeyərəm.

*Şef Səmayənin gözlərinə baxır. Səmayə köntöy-köntöy danışır.*

**Şef:** Səsini kəs, kafır.

**Səmayə:** Nə qışqırırsan ə! Mən sənin üçün nəyəm, dəyyus. Oğlum Zamanı öldürdün. Var-yoxumu taladın, evimi dağıtdın. Oğraş, indi də məni söyürsən? Arvadı pozğun köpəkoğlu. Səni indi bu əllərimlə boğub öldürəcəm. Arvadlarını, qızlarını satanlar. İndi bizə kişilik edəcəklər... Ədə, sən bir buna bax ey...

*Səmayə Şefin üstünə yeriyir. Şef geri çəkilir. Şefin ayağı sürüşüb yıxılır. Səmayə onun sinəsi üstünə oturub onu boğmağa başlayır. Suren Səmayəni təpiklə vurub Şefin üstündən aşırır. Səmayə onun üzünə tüpürür. Şef tapançasını çıxarıb Səmayəyə atəş açır.*

**Şef:** İtin cəsədini götürün.

*Əsirlər Səmayənin cəsədini tövlənin arxasına aparırlar.*

*Axşamdır. Əsirlər tövlədədirlər. Qapı açılır. Razmiklə, Suren içəri girirlər.*

**Suren:** Sədaqət bizimlə getməlidi. Bu, Şefin əmridi.
**Sədaqət:** Necə? Kimin əmridir?

*Sədaqət Sureni boğmağa başlayır. Növrəstə bacısına köməyə*





*gəlir. Razmik avtomatın qundağı ilə Sədaqətin başına vurur. Suren də Növrəstəni kənara itələyir.*

**Sədaqət:** Əclaflar, sizin alçaq niyyətiniz heç zaman baş tutmayacaq.

*Ermənilər gedirlər. Şef ermənilərə qəzəblənir.*

**Şef:** Oğraşlar, əclaflar! Mən sabah sizə göstərərəm.

*Sədaqətlə Növrəstə kürəklərini bir-birinə söykəyərək gözləri yumulu oturublar. Sədaqət cibindən əl dəsmalını çıxarır. Onun arasındakı köhnə, paslı almazı götürür. Sol qolunun bilək damarlarını kəsir. İtirdiyi qandan huşunu itirir. Ürəyi dayanır. Növrəstə yuxudadır. O, yuxusunda babasını, nənəsini, Rəşadı, Sakiti, Sədaqəti görür. Xədicə qarı irəli yeriyir.*

**Xədicə:** Qızım, qızlıq mücrünü qoru, qızım. Namusumuzu, şərəfimizi ayaqlar altına atma.
**Növrəstə:** Bilirəm, bilirəm nə demək istəyirsən, arxayın ol, nənə. Hər şey, hər şey sizin istəyinizlə olacaq.
**Xədicə:** Tezliklə görüşənədək!

*Növrəstə yuxudan oyanır. Bir istəyir Səadqəti qaldırsın. Yuxusunu danışsın. Sonra da onu narahat etmək istəmir.*

**Növrəstənin səsi:** Yazıq, necə də tərpənməz yuxuya gedib. Yat, əziz bacım, yat. Dincəl. Sabah bizi nələr gözləyir, nələr? Sən heç kimdən, heç nədən qorxmursan. Sən insanlığın ən ali zirvəsində dayanaraq hər şeyə qadirsən, bacı. Sənin gördüyün işlərin hər biri bir möcüzədi. Sən özünün də, kənd zənənlərinin də ar-namusunu qorumaq üçün doğma övladını boğdun. Bunu

kim edə bilərdi? Yox, sən adi insan deyilsən, bacı! Namus etiqaddır, namus vətəndi, namus xalqdı, bacım. Gərək onu görə biləsən! Duya biləsən! Sən, doğrudan da, sədaqətsən, etibarsan, dəyanətsən, özün boyda sevgisən, məhəbbətsən, Sədaqət!..

*Növrəstə ayağa qalxmaq istəyir. Sədaqət arxası üstə yıxılır. Növrəstə Sədaqətin əlindən tutur. Əli qana batır. Onu təəccüb bürüyür.*

**Növrəstə:** Sədaqət, Sədaqət, qalx ayağa, bacım.

*Sədaqətdən səs çıxmır. Sona əlini Sədaqətin üzündə gəzdirir.*

**Sona:** Sədaqət keçinib ki.

*Növrəstə bacısını qucaqlayıb ağlamağa başlayır. Almaz Sonanın əlinə keçir. Kərəm kişi qızın qol damarlarının kəsildiyini görür.*

**Kərəm kişi:** Ar-namusunu qorumaq üçün sən neylədin, qızım?! Ananın südü sənə halal olsun, bala. Sənə min rəhmət! Sən ölməmisən, sağsan, Sədaqət. Ölən bizik. Allahdan bircə arzum var, qızım, bizə də şərəfli ölüm qismət eləsin.

*Kərəm kişi Şakirin başını sığallayır. Kadr dəyişir. Ekran ağarır. Növrəstənin gözü yol çəkir. Gözləri qarşısında bacısı Sədaqət gəlinlik paltarında canlanır, ağ paltarda yaralı quş kimi rəqs edir.*

**Növrəstə:** Yazıq bacım, sən nə üçün bu cəhənnəmə gəlmisən?

**Sədaqətin səsi:** Mən bura gəlməmişəm... Məni bura gətiriblər...





**Növrəstə:** Bura daha gəlmə, bacı... Bu cəhənnəm yuvasında yaşamaqdansa, sənin yanına gəlmək daha xoşdu...

**Sədaqətin səsi:** Mənim bacım. Sən mənim yanıma gəlməməlisən. Sən bizim intiqamımızı o bişərəflərdən almalısan... Qoy, o böyük Yaradan sənə güc, cəsarət və hünər versin. Sənin intiqamın böyük Yaradanın intiqamı olacaq. O böyük Yaradan bu zülmlərə, rəzalətlərə, vəhşiliklərə dözə bilməz.

**Növrəstə:** Bacı, sabah məni, Kərəm babanı və Şakiri bilirsən, nələr gözləyir?!

**Sədaqətin səsi:** Onu təkcə Allah bilir. Allah özü sənə yar olsun, bacı! Sən heç kimdən, heç nədən qorxmamalısan. Mənim yeganə ümidim sənsən, bacı. Mən gedirəm... Nigaran qalsam, yenə gələcəyəm.

*Sədaqətin kölgəsi yox olur. Kadr dəyişir. Ekran ağarır.*

**Növrəstə** *(Əllərini birdən göyə qaldırır)***:** Belə yaşamaqdansa, ölüm yaxşıdı, İlahi...

**Kərəm kişi** *(Şakirə baxır)***:** Mənim bu tifillərə yazığım gəlir... Allahdan ölüm arzulama, qızım... Allahdan qüvvə, güc dilə...

*Kərəm kişinin sözləri Sədaqətin əks-sədasına çevrilir.*

**Sədaqətin səsi:** Bacı, sən o bişərəflərdən intiqam almalısan... Allah köməyin olsun.

*Ekranda Növrəstənin mənalı baxışları görünür. O, dərin fikirlərə qərq olur.*

*Razmik Növrəstəyə yaxınlaşır. Növrəstə göz-qaşları ilə onu*

*şirnikdirir.*

**Razmik:** Gəl mənim otağıma.

**Növrəstə:** Niyə?

**Razmik:** İstəyirəm, sən isti otaqda, yumşaq yorğan-döşəkdə yatasan.

**Növrəstə:** Söz ver ki, məni öldürməyəcəksən.

**Razmik:** Sən nə danışırsan?

*Növrəstə susur. Kərəm kişi heyrətlə ona baxır. Şakir heç bir şey anlamayaraq kənardan tamaşa edir. Növrəstə nə isə düşünərək Razmikə tərəf bir neçə addım atır. Kərəm kişi dözməyərək hirsli halda.*

**Kərəm kişi:** Namusumuzu, qeyrətimizi ayaqlar altına atma. Bacın Sədaqətin ruhundan utan. O, bizim namusumuzu qorumaqdan ötrü doğma övladını boğub öldürdü, özünə qəsd etdi. Sən indi şərəf və ləyaqətimizin ayaqlar altına atılıb tapdalanmağına razı olma. Günahsız ölənlərin ruhundan qorx...

*Növrəstə elə bil həmin sözləri eşitmir. Razmikə tərəf inamla addımlayır. Razmik qapını açır. Növrəstə tövlədən çıxır. Kərəm kişi əllərini göyə qaldırır.*

**Kərəm kişi** *(Fəryad içində)***:** Aman Allah... Kaş gözlərim kor olaydı. Bu dəhşətləri görməyəydim...

*Kərəm kişinin gözü yaşarır. Şakir ona yaxınlaşır.*

**Cavidan:** Növrəstə dəli olub, nədi?! Bu ki, namussuzluqdu. Satqınlıqdı. Onu öz əllərimlə boğacam, baba.

**Şakir:** Ağlama, baba... *(Onun gözünün yaşını ovcu ilə silir)* Bacım bir azdan gələr...





**Kərəm kişi** *(Özünü itirmiş halda)***:** Hə... Hə.. Elədi, bala, indi gələr... Sən başını dizimə qoy... Bax belə, indi isə çalış yat...

*Şakir başını Kərəm kişinin dizinə qoyur. Kərəm kişinin gözləri heyrətdən az qalır ki, hədəqəsindən çıxa.*

*Kadr dəyişir. Razmik çarpayıda uzanıb. Növrəstə ehtiraslı baxışlarla ona baxır.*

**Razmik:** Mənə elə baxma... Gəl yanıma.

**Növrəstə:** Mən işıqda utanıram...

**Razmik:** Sən ağıllı qızsan. Düz deyirsən, işıq bizə mane olar.

**Növrəstə:** Hə... Hə... Söndür, mən soyunum...

*Razmik işığı söndürüb yerinə girir. Növrəstə stolun üstündəki bıçağı götürür.*

**Razmik:** Nə üçün soyunmursan?

**Növrəstə:** Qoy gəlim yanına, sonra soyunaram...

**Razmik:** Yaxşı, gəl otur yanımda.

*Növrəstə onun yanında əyləşir. Razmik onu qucaqlamaq istəyir. Növrəstə əlindəki bıçağı onun ürəyinə sancır və burur. Razmik ölür. Qız onun paltarlarını geyir. Tapançasını, avtomatını götürüb otaqdan çıxır.*

*Növrəstə əsirlər yatan tövlənin qapısını açır.*

**Növrəstə:** Tez olun, tez olun! Çıxın qaçaq. Qapıçını öldürdüm. Avtomatını da götürdüm.

*Kərəm, Cavidan, Şakir, Sona və başqaları səsə qalxırlar. Başlarını itirirlər.*

**Kərəm kişi:** Şükür sənin böyüklüyünə, Xudaya. Gör kimlər nələrə qadirdilər?

**Cavidan:** Məni bağışla, bacım. Dığanın otağına gedəndə elə bildim satılmısan. Sənin haqqında pis fikrə düşdüm.

**Növrəstə:** Eybi yoxdu, qardaş. İndi ki, bildin, bacın onun otağına nə üçün gedib.

**Cavidan:** Bildim, bacı, bildim. Sən kişilərdən də cəsarətlisən.

*Əsirlər tövlədən çıxırlar. Kadr dəyişir. Əsirlər meşələrə, dağlara üz tutub Azərbaycana tərəf irəliləyirlər.*

**Kərəm kişi:** Ay, camaat, biz belə hərəkət edə bilmərik. Bu saat gəlib bizi qıracaqlar. İki-bir, üç-bir ayrılmalıyıq. Bu meşələrə dağılmalıyıq. Yer qardı. Asanlıqla izimizə düşəcəklər.

*Əsirlər qruplara bölünüb ayrılırlar. Növrəstə üzünü Cavidanla Şakirə tutur***.**

**Növrəstə:** Cavidan, Şakir mənimlə gedərsinizmi?

**Cavidan:** Biz ancaq səninlə gedəcəyik, bacı!

**Şakir:** Mənə inək tapacaqsanmı, bacı?

*Kadr dəyişir. Səhər açılır. Şeflə Suren dəli kimi tövlənin qapısını açırlar. Sonra Razmik yatan otağa qaçırlar. Onlar Razmiki ölmüş görüb daha da əsəbiləşirlər.*

**Şef:** Sənin bu dostun Razmik çox oğraş adammış. Donuz oğlu, donuz. Adam da türk qızına inanıb onu isti yatağa soxar?.. Sadəlövh, axmaq adam imiş donuz balası...





**Suren:** Ölünü çox danlamazlar, Şef...

**Şef:** Elə sən də onun kimi ölüsən...

**Suren:** Mənim taxsırım nədir, Şef?

**Şef:** O əfəli gərək tək buraxmayaydın.

**Suren:** Məni yaman qısqandı... Anamın goru haqqı heç yaxın buraxmadı.

**Şef:** Razmikin ölümünə bais sən olmusan, qurtardı getdi...

*Onlar tövlənin arxasına keçirlər.*

**Suren:** Şef, ayaq izləri çox yaxşı görünür.

**Şef:** O türk fahişəsi əlimizdən qaça bilməz.

*Kadr dəyişir. Ləpirlərin izi ilə Şef və Suren irəliləyirlər. Dərələrdən, düzlərdən keçirlər.*

*Kadr dəyişir. Səhərdir. Şef əsəbiləşib. Ermənilər əsirləri axtarırlar. Növrəstə, Cavidan, bir də Şakir qarlı düzlərlə Azərbaycana tərəf hərəkət edirlər.*

*Bir qədər aralıqda Şeflə Suren Növrəstə, Cavidan və Şakirə tərəf irəliləyirlər. Əsirlər qayanın arxasında gizlənirlər. Şef onlara atəş açır. Növrəstə Sureni öldürür. Şef onları vurmaq üçün yerini dəyişir. Bu anda Növrəstə Şefi vurur. Şef yaralı halda dərəyə tərəf yumbalanıb aradan çıxır. Cavidan Surenə tərəf qaçır. Onun avtomatını, papağını, gödəkçəsini götürür. Surenin papağını və gödəkcəsini Şakirə geyindirir.*

**Şakir:** Mən erməni paltarını istəmirəm.

**Cavidan:** Bəsdi. Az danış. Soyuqdan, şaxtadan dona bilərsən.

**Şakir:** Bacı, qaqaş nə danışır? Axı mən də kişiyəm.

**Növrəstə:** Sən balaca kişisən. Papaq da, gödəkçə də sənə

çox yaraşır. İndi şef sənsən, qardaş. O, isə quldurdu, canidi.

**Şakir:** Quldur, cani sözü nədi, bacı?

**Növrəstə:** Oğru, adam öldürən.

*Kadr dəyişir. Növrəstənin də, Cavidanın da çiynində avtomat Şakirin əllərindən tutub gedirlər. Şakir qorxur.*

**Cavidan:** Deyəsən, qorxursan, Şakir?

**Şakir:** Bəs siz qorxmursuz?

**Növrəstə:** Nədən qorxuruq?

**Şakir:** Axı tülkü, ayı, canavar, pələng gəlib bizi parçalayarlar.

**Cavidan:** Yox, düz demirsən. Burda ayı, pələng olmaz.

**Növrəstə:** Tülkü, canavar da bizə yaxın gələ bilməz.

**Şakir:** Niyə ki?

**Növrəstə:** Cavidanla məndə avtomat, tapança, qumbara var. Biz onları vurub öldürərik.

**Cavidan:** Lap Şefi vuran kimi.

**Növrəstə:** Gördün də, Şef dərəyə necə yumbalandı?

*Kadr dəyişir. Onlar qarlı düzlərlə irəliləyirlər. Bir azdan Şakir dayanır.*

**Şakir:** Qarnım acından ölür.

**Cavidan:** Tələsmə. Bir azdan yemək taparıq.

**Şakir:** Ayağım donur, qaqaş.

**Növrəstə:** Onda gəlin bir az qaçaq. Ayağımız qızışsın.

**Şakir:** Axı, yorulmuşam.

**Cavidan:** Bacı, mən Şakirdən qorxuram. Çətin olacaq.

**Növrəstə:** Qaçaq. Kəndə çataq. Orda yemək haqqında fikirləşərik.





*Kadr dəyişir. Kənd. Növrəstə, Cavidan və Şakir səksəkəli halda gedirlər.*

*Bir həyətə daxil olurlar. Bağlı-bağatlı ikimərtəbəli ev. Birinci mərtəbənin pəncərələrindən işıq seli axır. Növrəstə, Cavidan və Şakir həyətə girirlər.*

**Növrəstə:** Cavidan, sən Şakirlə darvazanın yanında gözlə. Avtomatları, tapançaları, qumbaraları saxlayın. Özünüz də burdan heç yana tərpənməyin. Mən evə gedirəm. Ev sahibindən çörək alacam. Gözünüz qapı-pəncərələrdə olsun. Məni döysələr, tez həyətdən çıxın. Bax, o təpənin arxasında məni gözləyin. Silahları unutmayın, onlar hələ bizə lazım olacaq...

**Cavidan:** Nə danışırsan? Onlar səni vursalar, avtomatla qıracam onların hamısını.

**Növrəstə:** Yox! Səsə salma. Ermənilər gəlib üçümüzü də öldürərlər.

**Şakir:** Qaqaş, bacı düz deyir. Mən ermənilərdən qorxuram.

**Cavidan:** Yaxşı, yaxşı, gözlərinin qorasını tökmə. Qorxaq.

*Növrəstə evə tərəf gedir. Evdən "Tərəkəmə" musiqisi eşidilir. O, eyvana çıxıb qapını döyür.*

**Evdən səs:** Buyurun, gəlin.

*Kadr dəyişir. Növrəstə otağa keçir. Evdə süfrə açılıb. Dörd nəfər saqqallı erməni yeyib-içir. Onlar keflidirlər. Avtomatları evin küncünə söykəyiblər. Qıçını güllə zədələmiş Zakir adlı azərbaycanlı əsir böyrü üstə uzanıb. Ermənilər qızın azərbaycanlı olduğunu başa düşürlər. Ermənilər Zakiri rəqs etməyə məcbur edirlər.*

**Zakir:** Yox! Yox! Öldürün məni. Bundan ölüm yaxşıdı.

**Quldurbaşı:** Qarabağ sizindi, ya bizim?

*Zakir susur.*

**Quldurbaşı:** Eloğlunun əvəzinə sən oynamalısan. Yoxsa, ikinizi də o dünyalıq edəcəm.

*Növrəstə Zakirə baxır. Sonra rəqsə başlayır. Ermənilər içirlər. Qız xeyli oynayıb qəflətən avtomatlardan birini götürür və ağzını ermənilərə sarı tuşlayır.*

**Növrəstə:** Əllərinizi qaldırın. Üzünüzü divara çevirin, alçaqlar.

*Quldurlar çaşırlar.*

**Benik:** Avtomatı yerə qoy, fahişə!

*Növrəstə güllə ilə onu vurur. O, yıxılır. Ermənilər vəziyyəti başa düşürlər.*

*Zakir avtomatlara tərəf sürünür. Birini götürüb atəşlə quldurları yerə sərir.*

**Zakir:** Əclaflar, alçaqlar! İndi bildiniz kimindi Qarabağ?
**Növrəstə:** Zakir, qardaşım, cəld ol, gedək sən də bizimlə.
**Zakir:** Mən ayaq üstə dura bilmirəm, bacı! Sizi də məhv edə bilərəm. Bura quldur yuvasıdı. Sən çox dayanma.

*Növrəstə stolun üstündəki yeməkləri süfrəyə büküb götürür.*

**Növrəstə**: Gəlirəm, qardaş.





*Kadr dəyişir. Növrəstə qapıdan çıxıb həyətə düşür. Evdən atəş səsi eşidilir. Növrəstə səsə çevrilir. Yanıqlı bir ah çəkib uşaqlara tərəf gedir.*

*Ayaz gecə. Növrəstə, Şakir, Cavidan həyətdən çıxıb qarlı düzlərlə irəliləyirlər.*

**Şakir:** Qaqaş, bacı, bir ora baxın. Orda quldurlar var.
**Cavidan:** Onlar kol, yulğun topalarıdı. Quldur deyillər, qardaş.

*Kadr dəyişir. Onlar tədricən irəliləyib həmin kol topasının daldasında süfrə açırlar. Növrəstə yeməkləri bölüşdürür. Şakir axıra qədər yeyir. Cavidanla Növrəstə paylarının yarısını ciblərinə qoyurlar.*

**Şakir:** Sağ ol, bacı, qarnım acından ölürdü.
**Cavidan:** Qarın acından ölməz, ağrıyar, qardaş.
**Şakir:** Bacı, mən sussamışam.
**Növrəstə:** Al, bu almanı ye, susuzluğun yatsın.

*Növrəstə, Cavidan və Şakir qarlı düzlərlə gedirlər.*

*Növrəstə avtomatların daraqlarını yoxlayır. Atəş açmaq qaydalarını Cavidana başa salır. Tapançanın güllələrindən birini ayırıb cibinə qoyur.*

**Cavidan:** Gülləni niyə ayırdın, bacı.
**Növrəstə:** Ehtiyac olsa, sonuncu gülləni özümə vuracam.
**Cavidan:** Sən nə danışırsan? Bizə kim yaxın gələ bilər? Mən ölərəm, buna imkan vermərəm.
**Şakir:** Bacı, qurban olum, güllənin birini də mənim üçün

saxla.

**Növrəstə:** Nə üçün, Şakir?

**Şakir:** Axı qaqaşla sən olmasan, mən də öləcəm.

**Cavidan:** Niyə qardaş?

**Şakir:** Mən bir də tövlədə qalmaq istəmirəm. Mən qaçacam, ermənilər məni öldürəcəklər.

**Növrəstə:** Qorxma. Bizi bir də tövləyə sala bilməzlər.

*Şakir qıçlarının, bədəninin ağrısından ağlamağa başlayır. Cavidan avtomatı Növrəstəyə verir. Şakiri dalına götürür. Bir az gedir. Cavidan yıxılır. Növrəstənin halı dəyişir.*

**Növrəstə:** Yaxşı, gəlin bir yer tapıb əyləşək.

*Kadr dəyişir. Ekran bir anlıq ağarır. Növrəstənin gözləri önünə seminariyada oxuduğu müddətdə atıcılıq üzrə respublikada qazandığı mükafatın təqdimat mərasimi gəlir.*

*Cavidan, Növrəstə və Şakir Gəlinqayaya doğru irəliləyirlər. Növrəstənin gözləri önündə gəlinlik paltarında Sədaqət canlanır. O, qarın üstündə sıldırım qayaya bənzər bir qürurla dayanıb.*

**Sədaqət:** Sənin gördüyün o zirvə Gəlinqayadı, qızım. Tarixlər şahidi Gəlinqaya bizim hamımızın çox, lap çox işlərindən xəbərdardı. Başının üzərində dayanıb sənə baxır, sənə qiymət verir Gəlinqaya!

**Növrəstə** *(Zirvəyə baxaraq)*: İnsafın olsun. Qaçanı qovmazlar. Bizə kömək ol. Sağ-salamat çatdır bizi kəndə.

**Sədaqət:** Gəlinqaya neçə-neçə qanlı döyüşlər görmüşdür... O, neçə-neçə igidlər yola salmışdır... Neçə-neçə haqlı-haqsız hadisələrin şahididi. Neçə minilliklərdi bu dağların başında bax beləcə səbr və təmkinlə dayanır, məğrur qamətini saxlayır. Hamıya öz tarixi dastanından söhbət açır Gəlinqaya!





**Növrəstə:** Kərəm baba, nə üçün bura “Gəlinqaya adlanır?

**Sədaqət:** Belə nəql edirlər ki, bu yerlərin şahı başqa məmləkətdən oğluna gəlin gətirir *(Kərəm kişi danışdıqca ağ dumanın içində biz həmin gəlini görürük).* Gəlin Allah-Təalanın qüdrətindən yarandığından bədrlənmiş ayla, parlayan ulduzlarla, səhər doğan günəşlə bəhsə girirdi.

*Duman içində ekranda gəlin uzun hörüklərini açıb yumağa başlayır. Qayınatası bilmədən qapını açıb içəri daxil olur. Gəlin özünü itirir. Başısulu ayağa qalxır. Onun çılpaq, mərmər sinəsi görünür. Qayınatası cəld üzünü çevirib gedir.*

**Gəlin:** Allah, bu, nə biabırçılıqdı mən düşdüm. Yox... Yox... Mən bir daha qayınatamla üz-üzə gələ bilmərəm.

*Gəlin qaçır. Kərəm kişi əfsanəni danışmaqda davam edir. Gəlin zirvəyə doğru irəliləyir.*

**Sədaqət:** Gəlin arını, namusunu, ləyaqətini götürüb bu dağlara çəkilir, o, zirvəyə doğru irəliləyir. Allah-Təalanın dərgahına üz tutur.

*Gəlin əllərini göyə qaldırır.*

**Gəlin:** Allah, mən xəcalətimdən yerə girmək istəyirəm. İlahi, sənə and verirəm o böyüklüyünə... Məni ya öldür, ya da daşa döndər...

*Gəlin daşa dönür. Kərəm kişi əfsanənin ardını danışır.*

**Sədaqət:** Allah gəlinin səsini eşidir. Onu öldürmür, daşa

döndərir. O heykəl tarixlərdən-tarixlərə ötür, insanların qeyrət və namusunun təmizliyindən xəbər verir.

*Sədaqət ağ dumanın içərisində yox olur.*

*Kadr dəyişir. Yaralı Şef ayaq izləri ilə Növrəstə, Cavidan və Şakirə tərəf sürünür. Onun irəlilədiyini Şakir görür.*

**Şakir** *(həyəcanla)***:** Bacı, Şef ölməyib gəlir.

*Onlar Şef gələn tərəfə çevrilirlər. O, dərhal Növrəstəni vurub yaralayır. Cavidan qayanın arxasına keçir. Şef Şakiri nişan alır. Bu anda Cavidan Şefi vurur.*

*Növrəstənin bədəni al-qana bürünür. O, gücünü yavaş-yavaş itirir.*

**Növrəstə:** Qardaşlarım, Cavidan, Şakir daha mən ölürəm. Zirvəni aşan kimi Azərbaycan kəndləridi.

*Cavidan da, Şakir də Növrəstəni qucaqlayıb ağlayırlar.*

**Şakir:** Bacı... Bacı... Ölmə... Eşidirsən?.. Ölmə.
**Növrəstə:** Qorxmayın. Qardaşlarım. Ölsəm də, dərdim yoxdu. Sizi Azərbaycan kəndlərinə çatdıra bildim.

*Növrəstə özündə güc tapıb ayağa qalxır.*

**Növrəstə** *(Gəlinqayaya baxaraq)***:** Gəlin bacım, mən də sənin kimi olmaq istəyirəm. Sən bu zirvəsi qarlı dağlarda məğrurcasına dayanmısan. Sən böyüksən, qüdrətlisən, ulusan. Gəlin bacım! İndi səndən bir təvəqqem var. Mənə də öz ayaqların altında yer elə... Qoy, mən də səninlə qalım... Qoşa qarıyaq, qoşa yaşayaq, gəlin bacım!..





*Növrəstə bu sözləri deyib ağappaq qarın üstünə yıxılır. Ağ qar qan ləkələrinə boyanır. Cavidanla Şakir Növrəstənin öldüyünü hiss edib hönkür-hönkür ağlayırlar. Kamera qarlı zirvələri panoram edir.*

*Cavidanla Şakir qarı Növrəstənin üstünə tökürlər, onu qarla basdırırlar. Onlar qar topasını əlləriylə bir neçə dəfə sığallayıb ayağa qalxırlar. Qardaşların düzəltdikləri qar-məzar Gəlinqayanın ayaqları altında möhtəşəm bir abidə kimi görünür. Şakir Növrəstənin avtomatının qayışından yapışıb arxasınca dartaraq zirvəyə doğru irəliləyir. O, irəlilədikcə ekranda titrin sətirləri hərəkət edir.*

**Kadr arxasında əks-səda:**

— İndi zirvəsi qarlı bu dəli dağın şişman qayasında iki məzar uyuyur: biri minilliklərin arxasından boylanan sonsuz Gəlinqaya, o birisi isə xalqımızın şərəf və namus qalasının bakirəliyini qoruyan qərib bir məzar...

Hər il dağlar, dərələr al qumaşa bürünəcək. Əlvan güllərin, çiçəklərin ətri bir-birinə qarışacaq. Hər zaman burdan yol ötənlər Gəlinqayanın seyrinə dalacaq, gözəlliklər məskənində uyuyan bu qərib məzarları ziyarət edəcəklər!

***1998***

# Kinoseriallar





## Bazar həngaməsi

*(Beş bölümlü telekomediya)*

**İştirak edirlər:**

**Hikkəbaz Gülsənəm** — 40-45 yaşlarında
**Astabas Güləhməd** — Hikkəbaz Gülsənəmin əri
**Şap lələş** — quda
**Şup nənəş** — quda
**Qazavoy Əzməli** — sürücü, qonşu
**Nazlı Gülçöhrə** — qozsatan, 35 yaşında
**Zurnaçı Xudayar** — Astabas Güləhmədin əmisi oğlu
**Nos Cabbar** — kəndçi
**Adamyeyən** — naməlum kişi
**Şəlpəqulaq** — naməlum kişi
**Naznazı Gülyanaq —**
**Çənəgir Tamamnisə —**
**Həvəçi Badamnisə —**
**Gödənbıl Gülbuta —**
**Vasvası Hürzad —**
**Nəfsgir Qaraməryəm —**
**Quramaçı Sədaqət —**
**Halvaçı Həlimə —**
**Erkək Sitəm —**
**Rəis**
**Polis**
**Ucaboy kişi**

**Alyanaq kişi**
**Ağsaçlı kişi**
**Gödək kişi**
**Qara kişi**
**Keçəl kişi**
**Yaşlı qadın**
**Bəstəboy qadın**

## I bölüm

*Kameranın ekranında: geniş, təmiz, səliqəli həyət. Bir tərəfdə qıpqırmızı pomidor sahəsi, o biri tərəfdə xiyar tağları. Hikkəbaz Gülsənəm əlindəki nazik çubuqla tağları o tərəf-bu tərəfə çevirir. Astabas Güləhməd arvadına yaxınlaşır. Onlar bir neçə pomidor, xiyar dərib həyətin aşağısındakı iki mərtəbəli şüşəbəndli evə tərəf addımlayırlar. Hikkəbaz Gülsənəm dayanır. Handan-hana başını bulayır. Kişi təəccüblə arvadının üzünə baxır.*

**Hikkəbaz Gülsənəm:** Heyf əziyyətimizdən, kişi, batacaq.
**Astabas Güləhməd:** Neynəyək? Özümüzü öldürənmərik ki.
— Allahın mürüvvətidi, bu qədər əziyyət çək, məhsulun nazıyla oyna, yetişdir, onlar da əlindən iş gəlməz kişi ucbatından xarab olsun.
— Haqsız olma. Kim istər zəhməti hədər getsin? Gündə mənə bir şəbədə qoşma.
— Bircə dəfə ağıllı işin olub?
— Olmayıb?
— Yox!... Gərək təklifi mən verəm?
— Sən canın qurtar. Qonşular eşidib, məni bambılı yerinə qoyarlar.





— Mənim gül ağzımı açdırma, qarnına girgi dolar, gündə bir-iki yeşik yığıb zəhrimarlardan bazara aparsan? Satıb verəsən əyir-əysiyimizə? Uşaqların pal-paltarları tökülür. Qızın ayaqqabısından, gedənin şalvarından xəbərin var?
— Yox... Nə olub ki?
— Ayaqqabının altı, şalvarın dalı, dizləri deşilib. Yazıq uşaqlar neyləməlidilər? Biz dura-dura gedib kimə ağız açmalıdılar? Əşi, dayı da, əmi də özləri üçün... Heç uşaqlar barədə düşünürsən?
— Niyə düşünmürəm? Allah imkansızlığın üzün qara eləsin. Əzrail kimi kişilər arvad-uşaq yanında mücdülər. Üzləri qara olduğundan danışmağa dilləri də yoxdu.
— Da sənə mən söz deməyəcəm, gözlərini aç, ətrafına yaxşı-yaxşı bax.
— Nə olub ki?
— Nə olacaq? Qonşu nos Cabbar biznesmen, zurnaçı Xudayar kommersant olublar. Zalım uşağı gündüz batıb, gecə çıxırlar. Arvadları da barmaqlarının ucunda yeriyirlər. Hərdən də deyirlər: "Mənim kişim iş adamıdı". Onda dilim girir qarnıma. Deyən-soruşan lazımdı ki, əşi, sizinkilər iş adamıdısa, bəs bizimkilər nə adamıdı?.
— He... he... he... Pay atonan. Qudurğanlığa bax ha...

*Pauza*

— Bu kommersant, biznesmen nə olan şeydi?
— Mən də dəqiq bilmirəm, ancaq deyəsən "alverçi" deməkdi.
— Əə, bunu adam dilində deyənmirlər? Kişi, bəlkə sən də onlardan olasan.
— Elə bilirsən asantdı? Ona pul lazımdı, lopağ yox.
— Dilin uzanıb ha.
— Məni dərdə-bəlaya salma.
— Niyə? Kommersant, biznesmen məgər pisdi ki? Mən də

ərimlə fəxr eləmək istəyirəm. Ər ər olanda, arvad da arvad olar.

— Fəxr elə də. O da pulla döör ki *(gülümsünərək)*. Haçan karına çatmamışam?

— Adə, mən elə demirəm ki. O barədə umu-küsü eləsəm, Allah ağzımı əyər.

— Bəs nə istəyirsən?

— Kommersant, biznesmen arvadı olmaq.

— Nə? Necə? Necə? Göydən daş yağdır, Allah. Bu nə biabırçılıqdı? Arvad, yolunu azma... Bu yaşda öyrənən, gorunda çalar. Birdən dilimi qısaldarsan, ha?

— Səsini başına atma. Dünya dəyişib. Ata-babalarımız görənlər getdi. İndi pul zəmanəsidi. Pulun olsaydı, ailənə bir gün ağlayardın. Bu söz-söhbətə də yer qalmazdı.

— Yox, arvad, o yana elə.

— Yaxşı fikirləş...

— Dedim, uzaq elə. Zatımda-kökümdə tacir olsaydı, məndən də kommersant, ya biznesmen çıxardı. Zatımda olmayanı məndən tələb eləmə.

*Pauza*

— Bəhanə gətirib, məni dəli eləmə, indi ata-baba zəmanəsi döör. Kim nə bacarır, onu da eləyir.

— Alver üçün bir ətək pul gərəkdi... Deyirsən, gedib oğurluq eləyim? Məni oda salma... Yazığam...

— Mən dedikcə, sən özünü çəkib dağın başına qoyma. İstəsək, pul da tapılar, lap dollar da. Hələ yevronu demirəm.

— Dəli olmusan, dollar, yevro nədi? Onlar arasındakı fərqi də bilmirəm. Yaşımın bu sinində...

— Gözümüz aydın, qalıb sənə dərs keçməm... Desəydim, savadsızsan, səs-küyün aləmi götürərdi. Hamısı zəhrimar qocalıqdandı. Başqa vaxt qocalığını boynuna almazdın.

— Əşi, əlimi ağdan-qaraya vuranmıram. Azğımı açıb danışanmıram. Başımı qaxıclı eləmisən. Başa düşmürəm, səndə al-





ver həvəsi hardandı?

— Hardan olacaq? Dolanışıqdan. Ac-yalavaclıqdan. Söz oynatma, könlü balıq istəyən, quyruğun suya vurar.

— Hə, onu eşitmişəm: "Çobanın könlü olsa, təkədən pendir tutar".

— *(ərinin əsəbiləşdiyini görcək, astadan)*: Kişi, keçilərimizdən üçünü-beşini sat, yol xərci elə. Əkib becərdiyimiz Allah verən gilası, alçanı, pomidoru, xiyarı yığaq, lap mən də səninlə gedərəm, aparaq Göyçay bazarına. O bazar Gəncə, Bakı bazarlarından da ötədi. Malları sataq, əlimizə maya salaq. Sonra da lap istəsək Türkiyəyə, İrana, Dubaya da gedək. Kiçik alverdən böyük kommersiyaya, biznesə keçək. Hə, nə istəyirsən, hamı belə eləyir də. Ölmək istəyiriksə, gedək Mazandarana. Bir böyür-başına bax... *(Səsinə ara verir)* Dəyirmançı Mirzəli arvadı hap-gopçu Tükəzlə, bostançı Abbasəli xanımı gülməşəkər Güldərənlə, dəymədüşər Fərzəli ömür-gün yoldaşı baməzə Mahmızayla, allahsız Şükürəlı zövcəsi imansız Fizzəylə... çıxarmadıqları hoqqa yoxdu. Kənd-kəsək belə dolanır da. Oturan yerdə adama...

*Pauza*

— Bacararıq?

— Kimdən acizik? Uşaqlar çörək istəyirlər, boş-boş sözlər yox. Gözümüzü açıb-yumacoq, qış haqlayacaq qapımızı. Onda kimə nə deyəcök? Hamı girəcək evə, qapını da arxadan bərk-bərk bağlayıb, yorğanını çəkəcək başına.

— Düz deyirsən...

— Elə götürək kommersant Xudayarla nos Cabbarı. Onlar analarının qarnında kommersant, biznesmen olublar?

— Arvad, sən evdə otura-otura bunları hardan bilirsən?

— Ayə, kor-kor, gör-gör. Ətrafına bax da...

*Qonşu şıllaq Əsədin arvadı naznazı Gülyanaq gəlir. Salam-*

*laşırlar.*

**Naznazı Gülyanaq:** Bol məhsul yetişdirmisiz. Çalışın batmasın, heyifdi. Bəd nəzərdən uzaq. Baxanda adamın ürəyi açılır.

**Hikkəbaz Gülsənəm:** Ağız, başımı qatarsan yadımdan çıxar. Gecə o nə səs-küyüydü. Qonşuları dəli elədiz. İstədim duram gələm sizə. Fikirləşdim gecdi. Qorxdum ərinin xatirinə dəyər.

**Naznazı Gülyanaq:** Qaynım piyanıydı, anası ölmüş Şıllaq Əsədin abrın aldı. Bacı-bacı kişidə abır, həya qoymadı.

**Astabas Güləhməd:** Şıllaq Əsəd çörək verib, atalıq eləyib Kövrük Davuda.

**Hikkəbaz Gülsənəm:** Niyə? Hər piyan olanda səs-küy qopararlar. Xeyir ola?

**Naznazı Gülyanaq:** Dərdimiz böyükdü. Hər dəfə içib evinə gedəndə arvadını söyür, döyür. Yazıq mıs-mısa Südüşə: — Evdən çıx, sən arvad döörsən, — deyir. Mıs-mısa Südüş də qaçıb gəlir bizə.

**Astabas Güləhməd:** A namərd... Arvadı da bəyəm söyübdöyəllər?

**Hikkəbaz Gülsənəm:** Aa... Bəs Şıllaq Əsəd nə deyir qardaşına.

**Naznazı Gülyanaq:** Nə deyəcək? Kişi yazıq bezib. Bir söz deyən kimi Şıllar Əsəd də qayıdır onun üzünə. Nalayiq eləyir kişini.

*Pauza*

**Hikkəbaz Gülsənəm:** İki-üç arvadlıq dəbdədi. Bəlkə qaynın birin də almaq istəyir?

**Naznazı Gülyanaq:** Xəlvəti var. Düzdü, mən gözümlə görməmişəm. Mıs-mısa Südüş özü deyir: Ərim hər axşam donmagöz Sədəfin çəpəri üstə banlayır.





**Hikkəbaz Gülsənəm:** Ağız eşit, inanma. Mıs-mısa Südüş ərinin mataxın qaldırır.

**Naznazı Gülyanaq:** Bajı, ərin elə matağın qaldırarlar?

**Hikkəbaz Gülsənəm:** Donbagöz Sədəfi tanımırsan, başını dağladığım kövrək Davudun, onun nəyinə və harasına vurulub. İnanma. İnanan daşa dönsün. Nəsə hiylələri var.

**Astabas Güləhməd:** Adamlar xarab olublar. Onlardan nə desən çıxar. O gədəyə uşaqlıqdan bələdəm. Gözlərindən də cin yağır.

**Naznazı Gülyanaq:** Qaynım bir neçə dəfə evdən acıq eləyib gedib. Şəhərdə yaşayan kiçik qardaşıgildə qalıb. Hətta, ondan üç dəfə mıs-mısa Südüşü boşamaq adıyla pul da alıb.

**Hikkəbaz Gülsənəm:** Bu da təzə çıxdı. Arvad boşayan gedib kimdənsə pul da alır?

**Naznazı Gülyanaq:** Güya məhkəmə sədrinə rüşvət verəcəkmiş ki, ləngitməsin, tez boşasın. Qaynım canını mıs-mısa Südüşdən tez qurtarsın.

**Astabas Güləhməd:** Boyunu yerə soxum belə kişinin. Kişi də arvaddan boşanar? Ayə, nə təhər adamlar var, əə. Niyə qammırlar ki, arvad namusdu, arvad qeyrətdi. Arvad arxadı, dirəkdi kişiyə. Arvad kişinin uşaqlarının anasıdı...

**Hikkəbaz Gülsənəm** *(ərinə)***:** Qurban olaram sənə. Bu sözlərinlə nə içimi dincəltdin!

**Naznazı Gülyanaq:** Elə mənim də. Az qala ürəyim əridi. Mən hər yanda demişəm, həmişə də deyəcəm. İndi çıraqla axtarsan kişi tapanmazsan. Kişi Astabas Güləhməd kimi olar...

**Astabas Güləhməd** *(sinəsi qabarır)***:** Çox çətindi.

*Pauza*

**Hikkəbaz Gülsənəm** *(ərinə)***:** Öl yerində. Danışma. Bir kəlmə sözə necə də sıyıldın?.. Kişilərin hamısı bir bezin qırağıdılar *(üzünü Naznazı Gülyanağa tutaraq)*. Sənə axırıncı xəbərdarlıq. Yığışdır özünü. Özgə kişisinə nəfs yetirməzlər. Sən qız

vədəndə belə döördün. Görünür pis mühitə düşmüsən.

**Naznazı Gülyanaq:** Aa... Mən nə dedim ki?

**Hikkəbaz Gülsənəm:** Nə deməliydin ki? Üzün-üzümə, gözün-gözümə hər şeyi dedin də. Bircə qaldı vurub qoltuğuna aparmağın.

**Naznazı Gülyanaq:** Bura gələn yerdə qıçlarım sınaydı. Məni rüsvay eləmə. Ərim eşidər...

**Hikkəbaz Gülsənəm:** Ərim!.. Ərim!... Pa... Pa... Ərə bax ey, Şıllaq Əsəd. Xatanı məndən aralı çək, sən atanın goru... Sus... Danışma... Kənd-kəsək olmayan söz axtarır, onda qalmışda ki, dammıldayanı ola.

*Hamı sakitləşir. Gecə qara-cücə qara Qarasəlli Səfiyarın arvadı Halvaçı Həlimə qonşu çəpərini aşaraq gəlir. Astabas Güləhməd xiyar tağlarını o tərəf-bu tərəfə çevirir.*

*Salamlaşırlar.*

**Halvaçı Həlimə:** Balam, becərdiklərinizi tək yeyirsiz. Qonşuları yada salmırsız. Xeyir ola?

**Hikkəbaz Gülsənəm:** Tələsməyin. Hövsələniz olsun. Qoyun nübar eləyək... Ağız, başımız qarışıb işə-gücə. Kənddən-kəsəkdən xəbərsizik. Kimlərin nə qələt elədiyini də bilmirik.

*Pauza*

**Halvaçı Həlimə:** Bu səhər eşitdim, Qaravəlli Səfiyarın nəyisə ölüb. Tez telefon açdım onlara. Kimsə dəstəyi götürdü. Mikrofondan Həvəçi Badamnisənin vəziyyətin soruşam, ancaq cəsarət eləmədim. İndi də gəldim sizdən öyrənəm. Yas yerində olmusuz, ya olmamısız. Olmamısızsa, birlikdə gedəyin. Kənd yeridi, ayıbdı. Sayıb yasa getmək Allaha da xoş gedər.

**Astabas Güləhməd:** Ada... ada, bir-iki gündü Qaravəlli Səfiyar özünü bikef hiss eləyirdi. Domuşdurdu. Gəzişi də xoşuma





gəlmədi. Adam iki günün içində necə də əriyərmiş. Kişinin dalı bir yana, başı bir yana gedirdi. *(Üzünü arvadına tutaraq)* Birdən olmaya o zavallı özü ölər ha. Mən tez gedim nəşin qaldırılmasına çatım. Sən də qonşularla gələrsən.

*Astabas Güləhməd tələm-tələsik gedir. Qadınlar təəssüf hissi keçirirlər... Elə bu vaxt dağar Gülmirzənin xanımı vasvası Hürzad gəlir.*

**Hikkəbaz Gülsənəm** *(vasvası Hürzada üzünü tutur)*: Həvəçi Badamnisəyə başsağlığına getmişdin?

**Vasvası Hürzad:** Nə başsağlığı? Nə olub?

**Naznazı Gülyanaq:** Eh, filqulağında yatmısan. Qaravəlli Səfiyar axşam ölüb. Həvəçi Badamnisə dözməyib üz-gözünü cırıb qoyub yerə.

**Halvaçı Həlimə:** Vay... Ağız de başımıza daş düşüb də. Bilmirsiz, o, mənim anamın dayısıdı?

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Əzrail ona baxmır ki, filankəs kimin nəyidi, gəldi aparır. Heç nəfəsin də çəkməyə qoymur.

*Halvaçı Hürzad hay-həşirlə, başına döyə-döyə saçlarını yolur.*

**Naznazı Gülyanaq:** Əcəb zibilə düşdülər. Lüt-üryandılar. İlin-günün bu vaxtında yazıq Həvəçi Badamnisə, evində bir köpüyü yoxdu. Borc alacağ başı daşlının güman yeri yox, neyləyəcək? Mollaya ver, mürdəşirə ver, kəfənə ver, qəbirqazana ver, ehsan ver... Camaatı pis günə qoydu Qaravəlli Səfiyar. Aaz, bu nə təhər adammış. Allaha acıq getməsin, belə kişini Allah arvada verincə, verməsə ondan yaxşıdı.

**Hikkəbaz Gülsənəm:** Yekə arvadsan, bir dayan, tumanını

atma başına, hövsələn olsun, kişini göndərmişəm, tələsmə, görək nə xəbərlə qayıdır.

**Naznazı Gülyanaq:** Yazıq kişiydi... Bir kapal balalarını gücbəlayla dolandırırdı. Həvəçi Badamnisə qanmaz uşaqlar əlində pis günə qaldı. Zavallı qadın gün görmədi.

**Vasvası Hürzad:** Xasiyyətinə bələdəm, o, kişisiz çətin ki, yaşaya. Yox, xanımlar mən gedirəm, qalanmaram *(Hönkürür)*.

**Naznazı Gülyanaq:** Ay qız, kirisənə... Qonşular elə bilərlər Qaravəlli Səfiyarla aranızda bir şey-mirşey olub.

*Halvaçı Hürzad qabaqda, Hikkəbaz Gülsənəmlə Naznazı Gülyanaq onun ardınca vay-şivən qopara-qopara gedirlər. Qaravəlli Səfiyarın həyət darvazasından girirlər. Geniş həyət. Həyətin ortasında üstü örtülü meyidə oxşar bir şey görünür. Bu anda əlində vedrə, Həvəçi Badamnisə yanında on üç-on beş yaşlı iki qız uşağı onlara tərəf gəlirlər. Nərəsi dərhal meyidə oxşar şeyin bir tərəfindən qucaqlayaraq ağlaşırlar.*

**Hikkəbaz Gülsənəm:** Anan ölsün, ay Qaravəlli Səfiyar. Sənin nə vədəndi. Ağzıma daşlar. Uşaqlarının vay halına.

**Həvəçi Badamnisə:** Demə... demə bajı. Nə oldusa, uşaqlara oldu. Biz bir təhər dolanacuq. Uşaqlar zülm çəkəcəklər. Anaları öləydi uşaqların. Söz dilimdə, səs ağzımda, yaş gözlərimdə qəhətə çıxıb bacılar.

*Pauza*

**Naznazı Gülyanaq:** Yazığım Həvəçi Badamnisəyə gəlir. Dərd onundu. Yaxşı deyiblər: "Güc doğana düşər", qorxma-qorxma, güc elə deyənə yox... Üü... hü-hü-hü, üüü... hü... hü... hü...

*Elə bu vaxt həyət darvazası açılır. Qazavoy Əzmələnin kuzovlu maşını həyətə girir. Astabas Güləhməd Qazavoy Əzməlinin maşınından düşür və ağlaşan qadınlara yaxınlaşır. Qadınlar ayağa qalxırlar. Qadınları gözləri yaşlı görən Astabas Güləhməd təəccüblənir.*





**Astabas Güləhməd:** Siz niyə ağlaşırsız,

**Halvaçı Həlimə:** Bu boyda başımıza bəla gəlib, bizi qaramat basıb ağlamayaq deyirsən? Həvəçi Badamnisənin bəyəm bundan da ağır günü olacaq?

**Astabas Güləhməd:** Əşi, ayıbdı. Bu tək Həvəçi Badamnisənin başına gələn işdi? Burda nə vardı, xanımlar, gərək olmayaydı, indi olub da. Görünür belə qismətmiş...

*Həvəçi Badamnisə hönkürür, ürəyi qısılır, tirtab uzanır. Xanımlar hərəsi bir tərəfdən onu qucaqlayırlar. Naznazı Gülyanaq evə qaçır, tez də əlində bir stəkan su geri qayıdır. Həvəçi Badamnisənin üzünə su səpirlər.*

**Vasvası Hürzad:** Həkim! Həkim çağırın.

**Hikkəbaz Gülsənəm:** Dədəm vay... Bədbəxtliyə bax... Bu da ölsə, kənddən iki ölü birdən çıxacaq. Bizim kənd heç vaxt belə zibilə düşməyib.

**Astabas Güləhməd:** Məni qınayan atana lənət *(üzünü Qazavoy Əzməliyə tutaraq)*. Ayə, bu arvadlar nətər şeydilər, əə? Ayə, bunlar adam öldürər, əə.

*Pauza*

**Qazavoy Əzməli** *(Həvəçi Badamnisənin yerə yıxılmış vəziyyətinə işarə eləyərək)***:** Öldürmək nəyə deyirsən. Budu ha... Görmürsən... Ayə, Astabas Güləhməd, sən öl mənə təsir eləyən meyidlərin ortada olması döör ey, xanımların yanıqlı-yanıqlı ağlaşmasıdı.

*Ağlaşma səsləri bir az da qalxır. Sözlərin kəsəri Qazavoy*

*Əzməlini kövrəldir. İyirmi il əvvəl ölən dədəsi gəlib durur gözləri önündə. Gedir maşının kabinəsindən əski çıxarır, gözlərinin yaşını silir.*

**Astabas Güləhməd:** Səndə gicləndin əə.

**Qazavoy Əzməli:** Dədəm yadıma düşdü. Nə yaman şeymiş kişi xatirələr.

**Naznazı Gülyanaq:** Ürəyim az qalır yerindən çıxa.

**Hikkəbaz Gülsənəm:** Yasda ağlamaq suvabdı. Ağlayın. Göz yaşları axıdın. Vaxt gələcək sizin də meyidiniz üstə beləcə deyib ağlayacaqlar. Hər şey borcdu.

**Qazavoy Əzməli:** Ağlayıram. Heç vaxt unutmaram dədəmin üstündə kənd əhlinin saldığı zırhazırı. Rəhmətlik dədəm ölməli kişi döördü. O da başını götürüb gedəndə biz də pis günə qaldıq. Getsin o günlər bir də gəlməsin...

**Astabas Güləhməd** *(rişxəndlə)***:** Gələcək Qazavoy Əzməli, gələcək. Dünya belə dünyadı: aparıb-gətirir. Aparanda ağlaşırıq, gətirəndə gülüşürük.

**Halvaçı Həlimə:** Ay camaat, bu Astabas Güləhmədin ürəyi daşmış. Namərdə bu boyda hadisə təsir eləmir.

**Hikkəbaz Gülsənəm:** Nə bildin, az. Girişməyə adam qəhədə çıxıb? Sən öl canını alaram. Get öz itinin, pişiyinin gününə ağla. Az qahmar çıx ölüb-itənə. Yazıq... Öləndə yadına düşüb. Yüz dəfənin suyunu qarışdırma.

**Halvaçı Səlimə:** Qarışdıranın tifağı dağılsın. Qiyamət qopar, Güləhməd də bircə ağız yanıqlı söz desə. Çox demirəm, bircə ovuc yaş axıda. Qazavoy Əzməli kimi bir dəsmal islada. Belə yerdə adam özün çəkməz. Astabas Güləhməd kimdi? Tısbağa yerişi yeriyən bir gəda.

*Pauza*

**Astabas Güləhməd:** Hə... İşim düzəldi.

**Qazavoy Əzməli:** Səbr elə... Cavab vermə. Arvad nədi ki,





onun da sözünü mirvari kimi ipə düzəsən.

**Hikkəbaz Gülsənəm:** Qurban olasan ölənin ruhuna. Səni burdaca ağ yuyub qara sərərdim...

**Naznazı Gülyanaq:** Qurtarın söhbəti. Nə sözünüz, umu-küsünüz var evinizdə çəkərsiz. Əslində nə kişi, nə qadın? Xanımlar, o fərq Avropada çoxdan aradan qaldırılıb. Nə yaxşı ki, indi-indi də bizə çatmaqdadı. Az-çox intellekti olanlar məni tez anlarlar.

**Halvaçı Həlimə:** Məni dəli eləməyin. Qoyun içimizi boşaldaq. Allah bilir, bir də belə fürsət əlimizə nə vaxt düşəcək. Ölünü gərək hörmətlə yola salasan.

**Astabas Güləhməd:** A bacı, elə danışırsan, ayağımız yerdən üzülür. Bəyəm biz ölüyə hörmət olunmasının əleyhinəyik? A tövbə yox...

**Hikkəbaz Gülsənəm:** Ölüm həmişə var. Dünya durduqca olacaq. Onlar varsa, xanım, deməli, bizdən asılı olmadan ağlamaq-sıtqamaq da olacaq. Ancaq bu şərtlə ki, yalandan hü... hü...ldəməyələr. Ölünü məsxərəyə qoymayalar. Həvəçi Badamnisə zor adamdı.

**Qazavoy Əzməli:** Niyə?

**Hikkəbaz Gülsənəm:** Allah eləməsin Qaravəlli Səfiyarın əvəzində Astabas Güləhməd ölsəydi, mənim çoxdan ürəyim çatlardı.

**Naznazı Gülyanaq:** Ağ eləmə...

**Hikkəbaz Gülsənəm:** Ağ niyə eləyirəm, bəyəm kişinin də ölümünə arvad dözər?

*Pauza*

**Astabas Güləhməd:** Xeyir ola, dinmirəm, danışmıram, oturmuşam yerimdə, ayağınız yandı geri çək demirəm, indi də məni ələ salırsız? *(əsəbiləşir)***:** Əşi, qurtarın biabırçılığı... Ağı götürün sərin Vasvası Hürzadın üstünə, əndamı açıq qalmasın. Bir azdan o da böyük söz-söhbət olacaq.

*Xanımlar Astabas Güləhmədin sözündən çaş-baş qalırlar.*

**Naznazı Gülyanaq:** Uşaqlar qorxub dəli olarlar. Bəs Qaravəlli Səfiyarın meyidi.

**Qazavoy Əzməli:** Böyük dərddi.

**Hikkəbaz Gülsənəm:** Ayıbdı... Onda evdən yorğan gətirək.

*Astabas Güləhməd hövsələdən çıxır. Özü gedib ağı götürür Həvəçi Badamnisənin üstünə sərir. Keçinin cəmdəyi görünür.*

**Halvaçı Həlimə:** Aa... Bu nədi?

**Astabas Güləhməd:** Keçi... Keçi görməmisiz? Deyirlər bunun əti, südü dərman, tükündən də çatı olur.

*Həvəçi Badamnisə yavaş-yavaş özünə gəlir. Ayağa qalxır. Bir qurtum su içir.*

**Naznazı Gülyanaq:** Bəs Qaravəlli Səfiyarın meyidi hanı?

**Astabas Güləhməd:** Nə Qaravəlli Səfiyar? Nə meyid?

**Hikkəbaz Gülsənəm:** Bə deyirdin Qaravəlli Səfiyar domuşurdu, ölən o olacaq?

**Həvəçi Badamnisə:** A bacı ölən Qaravəlli Səfiyar yox ey, keçimizdi.

**Halvaçı Həlimə:** Nə?..

**Həvəçi Badamnisə:** Bəli! Keçimiz *(hönkürərək)*. Kaş Qaravəlli Səfiyar öləydi. Keçi əməlli-başlıca süd verirdi... Heyf ondan.

*Pauza*

**Qazavoy Əzməli:** Əcəb kefdi!

**Hikkəbaz Gülsənəm** *(üzünü ərinə tutaraq)***:** Kişi ölməmişdisə, Qazavoy Əzməlinin maşınını bura niyə gətirirdin.

**Astabas Güləhməd:** Üstə ağladığınız keçini aparacaqdım.





**Qazavoy Əzməli** *(Astabas Güləhmədə)***:** Sən öl bu yaşa gəlmişəm, belə zırhazır görməmişəm. Allah amandı, deyəsən indi keçi kişidən dəyərli olub.

**Hikkəbaz Gülsənəm:** Ağzını yerə tut danış.... Mən Qazavoy-mazavoy tanımıram, tanımaq da istəmirəm. Səni bir günə salaram... Mənim ağlım var.

**Qazavoy Əzməli:** Ağlın olsaydı keçiylə Qaravəlli Səfiyarın ölümünü qarışıq salmazdız.

**Astabas Güləhməd:** Xanımlar, kömək eləyin keçini qaldırıb qoyaq maşına. Sonra kimə və nəyə necə ağlarsız özünüz bilərsiz. Yolçu yolda gərək.

*Astabas Güləhmədlə Qazavoy Əzməli keçini ayaqlarından götürürlər. Xanımlar da onlarla köməkləşərək keçini maşına qoyurlar.*

**Hikkəbaz Gülsənəm:** Biz burdayıq. Vasvası Hürzadı tək qoyanmarıq. Ona təskinlik verib mən də axşama gələcəm.

**Astabas Güləhməd:** Az danış. Onsuz da əsəbiyəm. Otur maşına gedək xarabamıza. Çox böyük mərifət nümayiş elətdirdik. Keçi əvəzinə Qaravəlli Səfiyara yas tutduq. Özüm də yaman susuzlamışam.

*Hikkəbaz Gülsənəm maşının kuzovuna, Qazavoy Əzməliylə Astabas Güləhməd kabinəsinə minirlər. Maşın həyətdən çıxır.*

*Kadr dəyişir. Astabas Güləhmədin darvazasının yanında maşını saxlayır. Hikkəbaz Gülsənəm maşından düşür. Astabas Güləhmədlə Qazavoy Əzməli kəndin kənarındakı təpəcikdə keçinin cəmdəyini basdırır. Astabas Güləhməd Qazavoy Əzəməlidən ayrılıb evinə gəlir.*

**Hikkəbaz Gülsənəm:** Axşamdan heyva ağacının qabığından

dəmlədiyim çaydan qalıb. İsidim, adama bir stəkan içək. Ağlımız başımıza gəlsin... Qaravəlli Səfiyarın keçisinin ölümü bir tərəfdən, isti də o biri tərəfdən gic elədi bizi.

*Kadr dəyişir. Ər-arvad evə gəlirlər. Astabas Güləhməd stulda əyləşir, onu fikir götürür.*

**Astabas Güləhməd:** O xiyardan soy gətir yeyək. İstidi, tər adamı aparır, bəlkə susuzluğumuzu...

**Hikkəbaz Gülsənəm:** Eh... o qədər çənə döydük, göz yaşı tökdük, başımız yamanca xarab oldu. Evdə yuyulmuş alça, gilas da var. Bəlkə...

## II bölüm

**Astabas Güləhməd:** Hə... hə... Atana rəhmət... Nə gətirirsən gətir, tez elə...

**Hikkəbaz Gülsənəm:** Bu saat... Kişi, bazar barədə də düşün. Evdə oturub əlimizi əlimizin üstə qoymaqla iş düzəlməz. Gedək əlimizə azdan-çoxdan maya salaq.

**Astabas Güləhmədin daxili səsi:** Balam, arvad olanda nə olar? Onun da sözünü eşitmək pis olmaz. Əşi, zəhmət çəkib bu qədər məhsul yetişdirmişik, bunu da kimə gəldi paylamaq, dəyər-dəyməzinə satmaq, sonra da aldandığını düşünüb ağzını Allah yoluna qoymaq, vallah, kişilikdən döör. Atalar yaxşı deyib: "Arvadın sözünə gah bax, gah da baxma". Bu dəfə məhsulu bazara özüm aparacam. Gülsənəmi də özümlə götürəcəm, şəhər-bazar görüb gözü-könlü açılsın...

*Hikkəbaz Gülsənəm mətbəxə gedir, bir boşqabda alça, gilas, birində soyulmuş xiyar gətirib stolun üstünə qoyur. Ər-arvad yeyirlər. Astabas Güləhməd köpür, əliylə qarnını bir neçə dəfə döyəcləyir.*





**Astabas Güləhməd:** Əcəbcə köpdüm...

**Hikkəbaz Gülsənəm:** Dur hərlən həyət-bacada, oturma, oturduqca...

**Astabas Güləhməd:** Gedim soraqlaşım, görüm, keçilərə müştəri tapa bilərəmmi?

**Hikkəbaz Gülsənəm:** Get, gəzən ayağa daş dəyər... Uğur olsun.

*Astabas Güləhməd həyətdən çıxır. Hikkəbaz Gülsənəm evə keçir. Qapı döyülür. Gülsənəm gedib qapını açır. Qonşu Şap Lələşlə Paz Nənəş gəlirlər.*

*Ev sahibəsi qonaqları gülərüzlə qəbul eləyir. Qonşular stul çəkib əyləşirlər. Hikkəbaz Gülsənəm mətbəxə gedir, hərəyə bir stəkan çay gətirir.*

**Paz Nənəş:** Kişi hardadı?

**Hikkəbaz Gülsənəm:** İndi gələr.

**Şap Lələş:** Bu istidə nə əcəb evdən çıxıb?

**Hikkəbaz Gülsənəm:** Zavallı kəndçiyə nə isti, nə soyuq? İsti-soyuq axtarası olsa, acından ölər.

**Paz Nənəş:** İsti oldu, Şap Lələş dözmür ki, it kimi ləhləyir yazıq kişi.

**Şap Lələş:** Əşi, yaxşı, ayıbdı, sözünə fikir ver. Qonşu elə bilər ki, mədəniyyətimiz-zadımız çatmır.

*Elə bu vaxt Astabas Güləhməd qayıdır. Qonşularla əl verib görüşür.*

**Şap Lələş:** Əşi, isti adamı təntidir.

**Paz Nənəş:** Təntidir, nədi? Lap adamı...

**Şap Lələş:** Ayıbdı. Qonşu elə bilər, səndə çatmır.
**Paz Nənəş:** Nəyimiz var, özümüzə bəsdi.
**Hikkəbaz Gülsənəm***(ərinə)***:** Keçilərə müştəri tapdınmı?
**Astabas Güləhməd:** Hə... Narahat olma.

*Hikkəbaz Gülsənəm evə gedir. Köynəyinin qollarını qatlayır. Paz Nənəş qəzetlə üzünü yelpizləyir. Hikkəbaz Gülsənəm çay gətirir.*

**Paz Nənəş:** Nə əziyyət çəkirsən? Canın üçün yeyib-içib gəlmişik. Otur söhbətimizi eləyək. Başımız qarışıb iş-gücə, görüşə də bilmirik. Adamın işi keçməsə, qonşuya salam vermir ki.
**Şap Lələş:** Ayə qardaş, lap başımı itirmişəm. Kimə yanaşıramsa, hamı iqtisadi böhrandan danışır. Çaşıb qalmışam matməəttəl. Əldə bir şey yox... Neyləyəcəyik?
**Hikkəbaz Gülsənəm:** A Lələş, bunu deyib bizi dərd-sərə salmağamı gəlmisiz? Qonşu, öz dərdimiz bizə bəyəm azdı, sən də bir tərəfdən pazzayasan?
**Astabas Güləhməd:** O, bizim də dərdimizdi, arvad. İqtisadi böhran ki var, çox qorxulu şeydi. Yunanıstanı, İtaliyanı, Portuqaliyanı görmürsən, necə dilənçi gününə düşüblər.

*Pauza*

**Şap Lələş:** O qarınağrısı bizi tutmasa, yaxşıdı? İşdi-şayətdi tutsa, çox güman əlindən qurtaranmayacoq.
**Paz Nənəş:** Bu kişini düzəldənmirəm. Hey doğrayıb tökür, ancaq öz sözünü danışmır. Onu-bunu yamsılayır. Duzlu-duzsuz, fərq eləməz. Hər dəfə də məzəmmətlənir. Anası ölmüş Qəməş də yüz dəfə deyir buna: ata, özünə lazım olmayan şeyə girişmə. Kim nə deyir, qoy desin, üzünə bax, ancaq mumla... Kimə deyirsən, kişi elə hey tulazlayır.
**Hikkəbaz Gülsənəm:** Bura davaya gəlmisiz, ya iş-gücünüzü atıb laqqırtı vurmağa? Elə işləri evdə danışın, qonşuda yox... Biz





nə ondanıq, nə bundan, bizi iş-gücdən ayırmayın. Almayın qızıl kimi vaxtımızı. Qoyun özümüz öz dərdimizə ağlayaq.
**Şap Lələş:** Yox... Bizim də dərdimiz böyükdü, qonşu. Deyirsiz ər-arvad yola gedənmirik? Danışığımız alınmır. Dolananmırıqsa, adama deyərlər ki, bəs otuz il bir yastığa necə baş qoyuruq? *(Arvadına)* Çatmamış nəs gəldi, qalx rədd olaq xarabamıza...
**Paz Nənəş:** Biz bura xeyir iş üçün gəlmişik, kişi. Söhbətimizi eləyək: tutar qatıq, tutmaz süd.
**Şap Lələş:** Heyf *(başını yelləyərək),* aləmi qarışdırdıq. Elə bil əlimizin üstə it hürüb.
**Astabas Güləhməd:** Çəkinməyin, gəlişinizin məqsədini deyin, qiyamət qopmaz ki, biz də bilək.
**Paz Nənəş:** Gəldik sizinlə qohum olaq. Atılıb-düşüb, axırda oyun düzəltdik. Qaş qayıran yerdə göz çıxartdıq.
**Hikkəbaz Gülsənəm:** Özü də bu abırda... Düşünmürsüz, ağızlarda söz olarsız?..
**Astabas Güləhməd:** Siz özünüzü qırırsız, biz ürək-göbəyimizi yeyirik... Davayla nə qohumluq, a Paz Nənəş?
**Hikkəbaz Gülsənəm:** Əşi, anan səni dam üstə doğmayıb ki, dayan görək. Səbrin-qərarın olsun... Lap sən də bunlardan betərsən. *(Gülümsünərək)* Qoy sözlərini axıracan desinlər. Bu işdə gərək yüz ölçüb-bir biçəsən. İşi səbirlə görərlər. Dalın-qabağın sonalamadan, necə gəldi addım atmazlar.
**Astabas Güləhməd:** A Hikkəbaz, ay sənə qurban olum, niyə anlamırsan, bəyəm bunlardan gəlin saxlayan olar? Qızı bu gün aparacaqlar, sabah qırğın salıb qaytaracaqlar üstümüzə. Ən azından it də gedəcək, ip də. Kənd yeridi, gəl yırtıq ağızları saxla görüm necə saxlayırsan. Məsxərə də baş alıb gedəcək. Onda da gəl başını qaldır yuxarı görüm, necə qaldırırsan. Kəndi də tanıyırsan, adamlar qəhqəhə çəkib güləcəklər bizə.

*Pauza*

**Şap Lələş:** Qonşu, *(arvadını göstərərək)* buna düçar olan yerdə canım çıxaydı. Ayə, sən öl, hər gün yüz dəfələrlə ölürəm-dirilirəm. Nə qədər törpü gələrlər arvada? Arvad mənimdi, Onda nə var mən bilirəm. Ona havayı yerə Paz Nənəş demirlər.

**Hikkəbaz Gülsənəm:** Çərənçi arvad görməmisən, ay Lələş.

**Astabas Güləhməd** *(lovğalanır)***:** Elənçiyi bir gün də saxlamaram, zıplayaram dalına təpiyi.

**Paz Nənəş:** Yekə-yekə basma... Arvad istəsə kişini elə günə salar, halvaçı çalılı qalar. Arvad nağara döör, kişi gedib-gəlib şabbıldada. Arvadı da vaxtıyla bir kişi doğub, bir arvad əkib.

**Şap Lələş:** Ayə elə yox... Fikrini tərsinə fırlat.

**Hikkəbaz Gülsənəm:** Necə yəni tərsinə fırlat?

**Astabas Güləhməd:** Dərinə getmə, zibili çıxar...

**Hikkəbaz Gülsənəm:** Arvadın əkin-biçinlə məşğul olduğun harda eşitmisən?

**Astabas Güləhməd:** Paz Nənəşdən... Ayə, bu nə addı... Dəyiş arvadın adın, ay Şap Lələş.

**Hikkəbaz Gülsənəm:** Bəyəm, Paz Nənəş pis addı? Ayə, ad görməmisiz. Eşitsəz, dəli olarsız, ay Şap Lələş.

**Paz Nənəş:** Lələşdi, nə olsa, danışır da. Kimə çatdı, şəbədə qoşur. Guya özünün çox fərli, dəymə-düşər adı var: Şap Lələş. Hi... hi... hi...

**Hikkəbaz Gülsənəm:** O ləqəbləri sizə kim qoyub?

**Şap Lələş:** Şəxsən mənə gorbagor qayınanam.

**Paz Nənəş:** Qeyrətsiz qayınatam.

**Astabas Güləhməd:** Ayə Lələş, vallah komediyasız əə, sizdən sirkdəkilərin xəbəri yoxdu: ha... ha... ha...

**Şap Lələş:** Pisdi?..

**Astabas Güləhməd:** Yox...

**Hikkəbaz Gülsənəm:** O qədər yaxşı da demək olmaz.

**Şap Lələş:** Hə... Başımıza daş düşüb deynən.





*Şap Lələş stolun üstündəki stəkanı əlinə alır. Onu görən Paz Nənəş qənddanı götürür. Bir-birilərinin üstünə qıcanırlar. Hikkəbaz Gülsənəmlə Astabas Güləhməd təəccüblə bir-birinin üzünə baxırlar. Güləhməd tez Lələşdən stəkanı, Gülsənəm də Nənəşdən qənddanı alırlar. Nənəşlə Lələş süpürüşürlər. Haray-qışqırıq aləmi bürüyür, Güləhməd əsəbiləşir, arvadına qıcanır. Gülsənəm başını tutur. Güləhməd geri çəkilir. Onlara baxıb Nənəşlə Lələş də sakitləşirlər.*

**Astabas Güləhməd:** Lənət şeytana... Az qala evimdə qan su yerinə axacaqdı. Polis-molis də gəlib evimdə dərimi soyacaqdı. Qonşu, mənə nə xeyriniz, nə də şəriniz gərəkdi, durun basın bayıra.

*Pauza*

**Şap Lələş:** Aa... Sağ ol, qonşu. Qonağı da...

**Astabas Güləhməd:** Ayə, nə qonaq-qonaq salmısız. Qonağın da abrı-həyası olar.

**Paz Nənəş:** Sizdən gözləməzdik... Biz dedik axı, bura xeyir niyyətlə gəlmişdik. Sizinlə can-ciyər olmaq istəyirik.

**Hikkəbaz Gülsənəm** *(ərinə)***:** Səsini atma başına *(üzünü Nənəşə tutaraq)*. Əyləşin. Dava olmasa, sülh bağlanmaz, ona heç ehtiyac da qalmaz... Araqızışdırana lənət... Əşi, biz də elə sizin sayağıyıq. Su suyu tapır, su da çuxuru. Eşitməmisiz, "Qonşu qonşuya baxar, canını oda yaxar".

**Astabas Güləhməd** *(arvadına)***:** Sən nə danışırsan? Bizimki bunlarla tutan döör. Qızı bədbəxt elərik. İş işdən keçər, sonrakı peşmançılıq fayda verməz. Özünü yayxalama.

**Şap Lələş:** Qurtar Güləhməd, sən canın, sən atanın goru aranı qatıb bizi məyus eləmə. Ümidimizi qırma.

**Paz Nənəş:** Bizi üzüqara qaytarma qapından. Təcrübəsizik. Birdən-ikiyə də elçiliyə getməmişik. Qız alverinin təhər-töhürünü bilmirik.

**Hikkəbaz Gülsənəm** *(iki döşəkçə götürür, birini Paz Nənəşə, ikincisini Şap Ləläşə verir)*: Dedim oturun, döşəkçələri də altınıza qoyun, yumşaq olsun... Qız qızıl kimi şeydi. Onun alverində ağla gəlməz çox şey olar. Üzüqara düşməniniz olsun.

**Astabas Güləhməd** *(arvadına)*: Ayə, təkrar eləyirəm, qızı bədbəxt eləmə. Onun altın sonra biz çəkəcök. Mən ömrü boyu zırhazıra qulaq asan döörəm... Məni də, elə qızı da nırhanıra salıb çərlətmə. Yazığıq.

**Hikkəbaz Gülsənəm:** Qızı mən doğmuşam, yoxsa sən?

**Astabas Güləhməd:** Sözündən belə çıxır ki, o itdə heç mənim xidmətim olmayıb? Eləysə, eşşək arılar təki burda nə vızıldayıram? Elədisə, de cəhənnəm olum da burdan.

*Hikkəbaz Gülsənəm ərinə him-cim eləyir. Astabas Güləhməd heç nə anlamır. Səsini kəsir. Əsəbiləşir. Qalxaraq otaqda var-gəl eləyir. Hikkəbaz Gülsənəm də qanlı-qanlı arxadan onu seyr eləyir.*

**Hikkəbaz Gülsənəm** *(qonşulara toxtaqlıq verir)*: Özünüzü ələ alın. Ev qalsız, ər-arvad sözsüz-söhbətsiz olmaz. İndi dalaşarsız, bir azdan barışarsız. Adam ölüb, qan düşməyib ki. Qonşu, biz sirr dağarcığıyıq, bəziləri kimi faş eləyən döörük.

**Astabas Güləhməd:** Qan salmaq, faş eləmək nəyə deyirsən? Nəyimiz qaldı açılıb tökülməyən? Dağar çoxdan deşilib.

**Paz Nənəş:** Şeytana lənət. Şeytan ki var, həmişə adamı vəlvələyə salandı... Səhərdən əsəbiydim. Zəhərimi tökməyə yer axtarırdım.

**Astabas Güləhməd:** Tapdın?... Özü də bizim evimizdə? Əşi, günahımız nədi?

*Pauza*

**Şap Lələş:** Qonşu, söz-söhbətin hamısı ürəyi itilikdəndi. Ürəyin ki iti oldu, başlayırsan hallayılığa. Dilində də bitir: hallayı gəl, hallayı.





**Paz Nənəş:** Gəldik sizinlə qohum olaq. O da vurdu belə çıxdı. Kaş...

**Hikkəbaz Gülsənəm:** Kaş nə?.. Bu ağıl ki, sizdə var... Heç kimlə qohum olanmazsız. Heç nədən çırpınmazlar. Belə işin get-gəli çox olur... Əks halda, şarpa-şurp başınızın üstə olacaq...

**Şap Lələş:** Nənəş düz deyir. Qəməş səbirsizliklə evdə bizi gözləyir. Zalım oğlu anası kimi pazdı, paz! Ürəyi o qədər itidi, gəl görəsən... Görməyə də ən azı dörd göz gərəkdi... Sizin qızınız Gülşəndən ötrü az qalıb Məcnuna dönə.

**Hikkəbaz Gülsənəm** *(gülərək)*: Bizim qız, vallah qızıldı, zinətdi. Tayı yoxdu. Əldən çıxası döör... İndiki halda aramızda əsas atəşkəsdi, şükür, o da oldu, qalanlar boş şeylərdi, düzələr, narahat olmayın. Xeyir işə hamı kömək eləməlidi.

**Astabas Güləhməd:** Bəs qızın fikri? Bəs qohum-əqrabanın sözü? Bəs mən dədəsi?

**Hikkəbaz Gülsənəm** *(ərinə)*: Yüz dəfə sənə demişəm, yersiz nərildəmə. Sən deyənlər sonranın işidi. Araya soyuq su çiləmə, kişi *(üzünü qonşulara tutaraq)*. Güləhməd Koroğlu nəslindəndi... Atalar deyib: "Uzaq qohumdan yaxın qonşu yaxşıdı". Düşünnəm ki, bizim itiyimiz bir-birimizdə tapılar.

**Astabas Güləhməd:** Başa düşmürəm, sən qızı verdin, hə? Ayə, arvad alan gədənin də, ərə gedəsi qızın da, quda olası bizlərin də vaxtımız döör. Gəlin çaya çatmamış çırmanmayaq.

**Hikkəbaz Gülsənəm:** Sən Allah, bəsdi. Qanımızı qaraltma. Bilmirsən, işi necə pozasan. Nənələrimiz doqquz yaşında gedirdilər.

**Şap Lələş:** Bəli! Bəli! Özü də babaları yaşdakılara.

**Paz Nənəş** *(üzünü Güləhmədə tutaraq)*: Yaxşısın olar eləyib.

**Astabas Güləhməd:** Çünki o vaxtlar qız uşaq olsaydı da, kişilərin təcrübəsi vardı. Bilirdilər arvadı niyə alırlar...

**Paz Nənəş:** Hü... hü... hü... Qəm eləmə, indiki cavanlar çox şey bilirlər.

**Şap Lələş:** Əşi, çox da açıb-töküb ağartmayın.

**Astabas Güləhməd:** Hə necədi, siz də düz-əməlli bilmirsiz?

**Hikkəbaz Gülsənəm:** Əşi, bizə baxmayın, onlar biləcəklər. Hamı əvvəl-əvvəl təcrübəsiz olur.

**Astabas Güləhməd:** Yoox... Əvvəlcə məni başa salın, sonra.

**Paz Nənəş:** Bu lap ağ elədi... A kişi, belə şalvar-köynək yumağı, mal-qara saxlamağı, toyuq-cücəyə baxmağı ki biləcəklər... Dalın da deyim?

**Şap Lələş:** Saxla... Saxla, arvad... Bizi biabır eləmə.

**Hikkəbaz Gülsənəm:** Dəli-dəli danışmayın... Sən deyənləri evimdə eləyir də.

**Şap Lələş:** Qonşu, hələ alıb başa çıxmamışıq, indidən kəlləvara danışırsız. Eşidib-bilənlər bizə nə deyərlər?

**Paz Nənəş:** Abrımız getdi ki. Mən elə bilirdim Astabas Güləhməd sakit, korkəsməz bir adamdı. Sən demə kişinin canında od-alov varmış?..

**Astabas Güləhməd:** Mənim: — Arvadı nə üçün alırlar? — sualıma doğru-düzgün cavab vermədiz.

**Şap Lələş:** Ayə, qonşu, Allaha and verirəm, əcaib problemi gəl yaratmayaq, onu özləri bilərlər.

**Astabas Güləhməd:** Ayə, öküz boyda kişisən, sən qanmayanı, neçə ilin ərəgən arvadları bilməyəni yeniyetmələr hardan anlayacaqlar.

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Hə... Bildim... Sən genderi, hüquq bərabərliyini deyirsən.

**Astabas Güləhməd:** Yoox... Daha zəruri məsələlər var. Onları nəzərdə tuturam.

**Paz Nənəş** *(dodaqlarını çeynəyə-çeynəyə)*: Belə çay qoyacaq. Yemək bişirəcək. Yırtıq-sökük tikəcək. Corab yamıyacaq.





**Hikkəbaz Gülsənəm** *(əsəbiləşir)*: Yeyəcək... İçəcək... Yatacaq... Danışacaq... Güləcək... Rəqs eləyəcək...

**Astabas Güləhməd:** Yox... Tapmadız...

**Şap Lələş:** Əşi, tapmadıq, özün de...

**Astabas Güləhməd:** Kişi arvadı alır ki, özünün dayağı, dalıdaldası olsun. Nəsil artırsın. Xalq, millət qarşısındakı cavabdehliyini hiss eləsin. Borcunu ödəsin. Qandığıma görə bu uşaqlar hələ çox şeydən xəbərsizdilər.

*Hamı qəşş eləyir. Sonra Paz Nənəş Hikkəbaz Gülsənəmi, Şap Lələş Astabas Güləhmədi qucaqlayıb öpür.*

**Paz Nənəş:** Çox mübarək!

**Şap Lələş:** Allah işimizi avand, balalarımızı xoşbəxt eləsin, qudalar!

**Astabas Güləhməd:** Gülsənəm?..

**Hikkəbaz Gülsənəm:** Əşi, sən narahat olma. Mən inanıram, bizim qaz bunların qazıyla bir çəməndə otlayar.

**Paz Nənəş:** Gülsənəm, təcili bizə şirin çay.

*Hikkəbaz Gülsənəm mətbəxə qaçır, tez çay gətirir. Şap Lələşlə Paz Nənəş qənddandakı qəndi stəkana atır, qaşıqla qarışdırıb içirlər. Şap Lələş nişan üzüyünü cibindən çıxarıb Paz Nənəşə verir.*

**Paz Nənəş:** Qız gəlsin.

**Hikkəbaz Gülsənəm:** Ah... Qız evdə yoxdu. Dərsdədi...

**Paz Nənəş** *(ərinin üzünə baxır)*: Neyləyək, üzüktaxtını sonrayamı saxlayaq?

**Hikkəbaz Gülsənəm:** Gözləməyə vaxt yoxdu. Səfərə çıxmalıyıq. İstəsəniz üzüyü verin, özümüz taxarıq. Nə böyük şeydi ki.

*Şap Lələş əlini cibinə salır. Qəsdən arvadının üzünə təəccüblə baxır.*

**Şap Lələş:** Eh... Üzük yaddan çıxıb qalıb evdə.

**Hikkəbaz Gülsənəm:** Üzüksüz qapı döyərlər, gedin gətirin, gecikməyin. Uzaqda yaşamırsız ki. Qapını o qədər döyənlər var ki.

**Paz Nənəş:** Sevindiyimizdən başımız şişib. Allah bilir hara qoymuşuq. Gedib hardan tapacoq? Görünür, belə qismətdi. Səfərə gedin, gəlin. Onacan da biz özümüzü...

*Pauza*

**Astabas Güləhməd:** Əcəb bəlaya düşmüşük. Zurnanın səsi sonra çıxacaq. Bu şüur ki, var insanın başına bəladı.

**Hikkəbaz Gülsənəm:** Kişi, az danış... Adam bu qədər qorxaq olmaz, gərək ağıl insanı idarə eləsin, insan onu yox... Yerləri səhv düşəndə həmişə belə olur.

**Astabas Güləhməd:** Qorxmuram... Üyüdürəm arvad. Gələcək çox dumanlıdı.

**Şap Lələş:** Gəlinin ləqəbi nədi?

**Hikkəbaz Gülsənəm** *(könülsüz halda)***:** Pişik Gülşən.

**Paz Nənəş** *(ərinə gözün ağardır)***:** Çox yaxşı.

**Hikkəbaz Gülsənəm:** Kürəkənimizin quraması nədi?

**Paz Nənəş:** Ləqəbsiz düşmənimiz olsun. Düdük Qəməş.

**Astabas Güləhməd** *(istehza ilə)***:** Əla! Əla! Göz dəyməsin. Uzun ömürlü olsun.

*Şap Lələş çırtıq vurub oynayır. Paz Nənəşlə Hikkəbaz Gülsənəm əl çalırlar. Şap Lələş yorulub əldən düşüb dayanır. Astabas Güləhməd əsəbiləşir. Şap Lələşin nəfəsi təngişir. Handan-hana özünə gəlir.*

**Paz Nənəş** *(ərinə)***:** Ayə, keç otur, az atıl-düş, bu şad günüzdə bizi biabır eləyərsən. Allah eləməsin, elə ki, Gülsənəm eşitdi, həmin an ölkənin hər tərəfində rezonans verəcək. Hamı bizdən danışacaq.





**Şap Lələş:** Axır ki, mən deyən oldu, qızı aldıq, qaldı üzük məsələsi...

**Paz Nənəş:** Verməyib neyləyəcəkdilər? Nə olsun ki, balamızın ləqəbi düdükdü, zato Qəməş oğuldu. Necə deyərlər, oğlum oğul olsun, tapılmayan qız.

**Astabas Güləhməd** *(əsəbi halda)***:** Bəyəm, bizimki şeytandı? Oddan törəyib? Bəlkə yerdən çıxıb?

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Səbr elə, kişi.

**Astabas Güləhməd:** Nə səbr eləyəcəm. Sənin də başın xarab olub, elə elçi gələnlərin də. Sabah işdi-şayətdi, nəvən olsa, ona düdük filankəsin oğlu, ya qızımı deyəcəklər? Xeyr, mən razı ola bilmərəm ki, gələcək nəvələrim elə qaramat, düşük adla çağrılsınlar.

**Hikkəbaz Gülsənəm:** Bəsdi kişi, məni təbdən çıxarma... Qızı vermişik. İlkimizdi, oyun düzəltmə, gecikmisən. Bu çoxdan olmalıydı.

**Astabas Güləhməd:** Deməli, vermisən, indi də mərəkə düzəldirsən?

**Hikkəbaz Gülsənəm:** Hə...

**Astabas Güləhməd:** Bəs quraması?

**Hikkəbaz Gülsənəm:** Eşitməmisən, "Daldan atılan daş topuğa dəyər". Sonrasına baxarıq. Lazım gələr "düdük" sözünü kürəkənin adının qarşısından silərik.

**Astabas Güləhməd:** Vay... Vay... Vay... Ay yazıq, necə siləcəksən. Bacarsaydıq, özümüzünküləri silərdik. Yox... Yox... Mən düdük Qəməşə yüz küçüyüm ola verənmərəm... Pazzama... Gülsənəm, pazzama... Zülmlə uşaq böyütmüşük. Zeynəb qarı demişkən: ziyanın yarısından...

**Şap Ləläş:** Ağ eləmə...

**Astabas Güləhməd:** Ayə, belə vermirəm, zorla qız alarlar?

**Paz Nənəş** *(Güləhmədə):* Ayə, ay əbləh, qızını nazirə verəcəksən? Sevin ki, sizi adam bilib qapınızı döymüşük.

**Şap Lələş** *(üzünü arvadına tutaraq)*: Ayə, siz lap ağ elədiz (xanımlara). Canınız üçün Astabas Güləhməd gədanı elə vəziyyətə saldı ki, Qəməş düşdü gözümdən... Ayə, sənə Astabas Güləhməd deyiblər, ağlın başından çıxmasın, ayağın yer almasın. Məni məcbur eləmə, tüpürərəm hər şeyə...

*Pauza*

**Hikkəbas Gülsənəm:** Bir hövsələn olsun. Dinmirəm, danışmıram, elə bilirsən, dilim yoxdu. hi... hi... hi... Şap Lələş, sən də adını, ləqəbini tulla getsin. Kişi olan kəs onun altına girməz.

**Paz Nənəş:** Yekə arvadsan, sən də yığışdır özünü... Güc-bəlayla gedəylə kişini razı salmışdım.

**Astabas Güləhməd** *(arvadına)*: Güc-bəlayla sırınan kürəkən nəyimizə gərəkdi. Sabah gəlib oturacaq çiynimizdə.

**Hikkəbaz Gülsənəm:** Qələt eləyər. Ona bir gün ağlayaram, Paz Nənəşdən əmdiyi gözündən gələr.

**Paz Nənəş:** Ağ eləmə, yel də olub oğlumun böyüründən ötənməzsən. Bəyəm onun anası ölüb?.. Ya o, atasızdı?.. Yaxud ağzıma daşlar, zinadan törəmədi?

**Şap Lələş** *(arvadına)*: Sən bunların səviyyəsinə enmə. Sən görüb-götürmüş kişinin qızısan. Ancaq balaca boş buraxan kimi, yolundan çıxırsan.

**Astabas Güləhməd:** Gördün, Gülsənəm? Belə yaramazlarla qohum olmaq olar? Bizim dədələrimiz necə olub?

**Şap Lələş:** Sağ ol səni Astabas Güləhməd. Ayə, nə tez qudurdun, əə. Arvad sayəsində adam olmusan... İndi mənim qabağımda at oynadırsan? Səni gecəykən yox eləyərəm. Od vurub evini yandıraram.

**Hikkəbaz Gülsənəm:** Necə? Necə? Nə qozu-qozu danışırsan, əə... Düdüklük sizin canınızdaymış ki, əə. Ot kökü üstə bitər.





*Pauza*

**Paz Nənəş:** Biz düdük oluruqsa, bəs siz nəsiz? Bir güzgüyə də baxın.

*Hikkəbaz Gülsənəm hövsələsini saxlayanmır. Şap Lələşə şillə vurur və onu itələyib yıxır. Bunu görən Paz Nənəş Astabas Güləhmədə cumur. Astabas Güləhməd qaçıb Hikkəbaz Gülsənəmin arxasında gizlənməyə çalışır. Bunu görən Hikkəbas Gülsənəm ərinin də başına bir qapaz çəkir. Vuruş qızışır... Handan-hana hamı yorulur. Döyüş dayanır. Hərə keçib bir stulda oturur.*

**Şap Lələş** *(nəfəsi təngişə-təngişə)*: Mənim Gəncədə, Qubada qohumlarım var. İki qardaşım Bakıda yaşayır. Bu gün teleqrama vuracam gəlsinlər. Polisə də şikayət eləyəcəm. Onda baxarsız işinizə.

**Paz Nənəş:** Mənimkiləri də de, saxlama. İkisi killerdi... Onlar gəlsə, Hikkəbas Gülsənəm, şəxsən sən canını hara qoyacaqsan?

**Hikkəbaz Gülsənəm** *(istehzayla)*: Ölüb Astabas Güləhməd. Canımı qoymağa yer tapanmayam?

**Astabas Güləhməd** *(gülümsünür)*: İki daşın arasında iş bərkə düşəndə yadına mən düşürəm *(Üzünü arvadına tutur)*. Gör məni kimlərlə hədələyirlər: xox qorxdum ha...

**Paz Nənəş:** Biz sizi tanımırıqmış. Biz də elə bilirik, abırlı-ismətli kişinin qızına elçiliyə gəlmişik. Bu nədi, əə? *(Ərinə)* Özünə gəl... Gedək gədəni başa salaq.

*Hikkəbaz Gülsənəm ərinə çəp-çəp baxır. Başını yelləyir. Astabas Güləhməd başını aşağı salır.*

**Şap Lələş** *(Gülsənəmə üzünü tutaraq)*: Babamdan dədəmə, dədəmdən də mənə üç küpə daş-qaş qalıb. İstədim o sənin qızıngilə qalsın. Qarnınız götürmədi... *(Arvadına)* Dur gedək arvad. Qızılımız əlimizdə, ağlımız başımızda.

**Hikkəbaz Gülsənəm:** Hərcayı-hərcayı danışmayın. Nəyiniz var, nəyiniz yoxdu, onu sizdən yaxşı bilirəm... Sizi yaxşı tanıyırıq. İkinizin də babanız onun-bunun qapısında mehtər olub, dədəniz sülənib.

*Pauza*

**Astabas Güləhməd** *(başını qaldıraraq)*: Özünüzə ərbab yaxmayın. Sizdə kömür yoxdu, onda qalmış da, qiymətli daş-qaş ola...

**Paz Nənəş:** Var. Özümüz səsimizi çıxarmırıq.

**Hikkəbaz Gülsənəm** *(əsəbi halda)*: Yoxdu!.. Yalançı-kazzablar!...

**Şap Lələş:** Nəyə deyirsiz and içək ki, var.

**Hikkəbaz Gülsənəm:** Ayə, ay yazıqlar, eşidər Ağaismayıl, elə bilər həqiqətən də qiymətli daş-qaşınız var, gecəykən, yatdığınız yerdəcə çökər sinənizə. Mıq eləyənməzsiz.

**Paz Nənəş:** Ölüb Nənəş, ona qırağını göstərə daş-qaşların.

**Hikkəbaz Gülsənəm:** Bizə baxmayın, qonşuyuq, nə deyirsiz dözürük, dinmirik. Sizə güzəştə gedirik. Ağaismayıl ikinizi də deşik-deşik eləyər bıçaqla. Benzin tokübsizə od vurar, yanıb kül olarsız. Külünüz də tapılmaz.

**Şap Lələş:** Tapılar. Hələ ki bizim polislər ayıq-sayıqdılar... Quşu gözündən göydə tuturlar.

**Astabas Güləhməd:** Eh... Nə qoyub, nə axtarırsız. Siz bizə polisləri tanıdacaqsız?.. Onlar elə öyrəniblər, ölən adamın da sahibindən şirinlik alırlar.

*Pauza*





## III bölüm

**Hikkəbaz Gülsənəm:** Ayə, ay Şap Lələş, ay Paz Nənəş, indi Adəm-Həvva zəmanəsi döör. Ağıllı olun... Dilinizi uzatmayın. Ağaismayıl sizin kimilərdən çox görüb.

**Paz Nənəş:** Ürəyimizi partlatma. Tüpürüm Ağaismayıla da, hələ...

**Şap Lələş:** Stop!.. Uzağa getmə, eşidər, zəhrimarın düşərdüşməzi olar.

**Paz Nənəş:** Hələ...

**Şap Lələş:** Dilin çaşdı?

**Astabas Güləhməd** *(astadan)*: Oturduğumuz yerdə işə düşdük.

**Hikkəbaz Gülsənəm:** Dedim, səbr elə, kişi.

*Şap Lələşlə Paz Nənəş ev sahiblərinin yumşaldığını görcək bir-birilərinin üzünə baxırlar. Paz Nənəş ərinə göz vurur. Şap Lələş başını aşağı-yuxarı qaldırıb endirərək gülümsəyir.*

**Paz Nənəş:** Biz od qonşusuyuq. Ölüncən can deyib, can eşitməliyik.

**Şap Lələş:** Pisimizi-yaxşımızı özümüz bilməliyik. Açıbağartmaq, aləmlə bir eləmək bizə yaraşmaz, Astabas Güləhməd.

**Astabas Güləhməd:** Nə demək istəyirsiz?

**Hikkəbaz Gülsənəm** *(əsəbiləşir)*: Anlamırsan. Bir-birimizi qırdıqsa da, nəticə çıxaranmırsan *(üzünü elçilərə tutaraq)* Yüz Astabas Güləhməd ola ha, qız sizindi, gedin hazırlığınızı görün.

**Astabas Güləhməd:** Yenə ilkin varianta gələcəkdiksə, niyə qırırdıq, arvad, bir-birimizi? Balam bayaq mübarək olsun, demişdik də.

**Hikkəbaz Gülsənəm:** Əşi, hamımızın dili qurusun. Söz söz gətirər, dava dava. Dalaşmasaydıq, barışmazdıq ki.

**Paz Nənəş:** Atalar deyib: Gecənin ardınca gündüz, müharibənin dalınca sülh gələr. Necədi, qonşu üzüyü səfərinizdən sonra...

**Hikkəbaz Gülsənəm:** Üzüyü gətirin, sözü uzatmaq məsləhət döör. Əşi, ay pir olmuşlar, Güləhməd qız atasıdı, naz-qoz eləməliydi də. Bunu niyə anlamırsız?

**Paz Nənəş:** Naz-qoz, xax-xax.

*Astabas Güləhməd istəyir cavab verə, Hikkəbaz Gülsənəm onu dirsəyiylə vurur. Kişi sakitləşir. Yazıq-yazıq arvadının üzünə baxır. Hikkəbaz Gülsənəm ərinə göz vurur. Paz Nənəşlə Şap Lələş xudahafizləşərək gedirlər.*

**Astabas Güləhməd:** Eşitdin dediklərini?

**Hikkəbaz Gülsənəm:** Eşitdim, kişi. Atalar sözüdü: "Cücəni payızda sayarlar"... Qız evi toyacan, oğlan evi qəbrəcən.

— Elə yox.

— Tələsmə. Dediklərinin cavabını vaxtı gələndə qız özü verəcək. Əsas odu ki, "hə"sini verdik... İndi qıza cehiz lazımdı. Artıq söz-söhbət yox. Gərək bazarda qazandıqlarımızı cehizə sərf eləyək. Eldən ayıbdı.

— Qız, doğrudan da, razıdı? Sonra dəbbələməz ki?..

— Ayə, ay Güləhməd, özüm oyun düzəldirdim. Bizim başı xarab qızımızı onlardan savayı kim alacaqdı? Bir də ki nə dəbbələyəcək? Axşam televizorda deyilənləri eşitmədin?

— Nəyi?

— Yunanıstanda kişi çatışmadığını. Türkiyəyə iyirmi min kişi sifarişi vermələrini... Xeyir işi gecikdirməzlər... İşin içindən iş çıxar... Kişi, gələn il pomidor, xiyar yetişəndə, alça, gilas qızaranda nəvəmiz olacaq. O qədər onu oynadacaqsan, çəkdiyin





zıbbıltılar onda canından çıxacaq.

— Qudalardan ağlım şey kəsmir. Nə hır qanırlar, nə zır.

— Sevincəkdilər, kişi. Çətini toya qədərdi. Bayaq dedim axı, qız onlara bir divan tutacaq, dədələri də yaddan çıxacaq. Başlayacaqlar əl-ayağını yalamağa.

— Deyirsən, tutar?

— Tutar, kişi, tutar. Tutmasa da, tutdurmalıyıq.

— Dalı qaranlıq gəlir ey.

— Dalı mənim işimdi.

*Ər-arvad yan otağa keçirlər.*

*Kadr dəyişir. Həyət. Pomidor, xiyar, gilas və alçalarla dolu yeşikləri kamera panoram edir. Hikkəbaz Gülsənəm yeşiyin üstündə oturur. Astabas Güləhməd fikirləşir.*

**Astabas Güləhməd:** Tüllab Cəfərlə danışmışam, gəlib keçiləri aparacaq. Pulu al, özündə saxla. Mən də bazara getmək üçün gedim maşın tapım.

**Hikkəbaz Gülsənəm:** Uzağa getmə, qonşu Qazavoy Əzməliylə danış. O, aparsın. Əlimiz yananda ağzımıza təpirik, hər dəfə onun üstünə qaçırıq.

— Onun ağzı yırtıq, maşını tələkədi. Bizi fərəzən günə çatdırmaz ki.

*Pauza*

— Ayə, ağzıyla nə işin var, qoy olsun da. Camaatın hamısına Qazavoy Əzməli yaradı, bizə yoox? Tələkədi, deməli, yol xərcini də az alacaq. Bunun nəyi pisdi ki? Alver elədi ki, qadası, gərək qəpik-qəpik yığasan, yoxsa, qazandığının bərəkəti olmaz.

— Aha... O heç ağlıma gəlmirdi... Nə vaxta danışaq?

— *(gülərək)*: Ağıl vardı ki?... Qaş qaralana, kənddən çıxağın, görən olmasın. Hər gözdə bir şey var. Qırılmışlar deyib-

darıyacaqlar bizi. Səhər açılana qayıdıb gələr kəndə. Özünə də tapşır, nə dil bilsin, nə dodaq.

— Yüz dəfə tapşırasan ha, dili dayanmayacaq. Görək hələ aparacaqmı? De deyirsən, deyim də...

— Ayə, niyə aparmır? Keçəl halva yeyər, puluna minnət. Pulunu ver, Qazavoy Əzməlinin dalına min, nəinki maşınına. Canına and olsun, onun üçün fərq eləməz. Özü də maşallah, kəl kimidi, hara desən, aparacaq.

*Kadr dəyişir. Astabas Güləhməd qonşu Qazavoy Əzməlinin çəpərinə yaxınlaşır.*

**Astabas Güləhməd:** Əzməli... Əzməli...
**Qazavoy Əzməli:** Eşidirəm, a qonşu.
**Astabas Güləhməd:** Bir bura zəhmət çək.

*Qazavoy Əzməli ara çəpərə yaxınlaşır.*

**Qazavoy Əzməli:** Salam, qonşu.
**Astabas Güləhməd:** Əleyküməssalam... Mənim beş-altı yeşik yüküm var. Bu axşam əl-ayaq yığışanda onları Göyçay bazarına apararsanmı?

*Pauza*

**Qazavoy Əzməli:** Bilirsən, sabaha işim çoxdu. Gecə də yuxusuz maşın sürmək çətindi. Bir şey olar, xəcalətdən qurtaranmaram. Maşın da kı o söz...
**Astabas Güləhməd:** Ayə, nə o söz? Söz deyən kimi bəhanə axtarmağa öyrəncəlisən. Əvvəla, bir saat o yana, bir saat bu yana. Deməli, iki saat. Yarım saat da yükü boşaltmağa vaxt itirəcəksən. Bax işinə, qonşu. Mən xeyrimi başqasına vermək istəmirəm. Yaxşı fikirləş, pulumu hansı it oğluna versəm, yalvara-yalvara yükümü aparacaq. Hələ tula kimi başıma da dolanacaq.





*Pul sözünü eşidən Qazavoy Əzməlinin gözləri parıldayır.*

**Qazavoy Əzməli:** Yaxşı, əlac nədi? Qonşusan da.
**Astabas Güləhməd:** Minnət qoyma, qaş qaralanda maşını bizim həyətə sür. Yükü yığaq, gecəykən kənddən çıxaq. Dilini də fərağat saxla. Yoxsa, Şpiyon Qüdrət polisə-molisə zəng çalar, bizi yolda incidərlər.

*Kadr dəyişir. Axşamdır... Qazavoy Əzməli maşını Astabas Güləhmədgilin həyətinə sürür. Ər-arvad yeşikləri maşına yığırlar. Sonra Astabas Güləhmədlə Hikkəbaz Gülsənəm maşının kabinəsinə otururlar.*

**Qazavoy Əzməli:** Polis bizi saxlayacaq. Kabinə məndən savayı, ancaq bir adama palojnidi.
**Hikkəbaz Gülsənəm:** Ayə, qırışmal, palojni-malojni bilmirəm. Mənim kuzova çıxmağımı bu gecə vaxtı qeyrətinə necə sığışdırırsan? Deməzlər ki, Əzməlinin qeyrəti hanı? O, nə kişidi?

*Pauza*

**Qazavoy Əzməli:** Qonşu, onu Ucarın dəymədüşər polislərinə necə başa salasan? Onlar nə hır qanırlar, nə də zır. Maşında yük görən kimi gözləri qızacaq, o saat da elə gördükləri yerdən də kəsəcəklər. Tutsalar, bəri başdan deyirəm, sizə bazara getmək lazım gəlməyəcək.
**Astabas Güləhməd:** Niyə? Bəyəm biz vətəndaş döörük?.. Ayə, kişilərin adlarını biabır eləmə.
**Qazavoy Əzməli:** Budu deyirəm... Satacağınız malların pullarını sizdən bəri başdan alacaqlar.
**Astabas Güləhməd:** Nujenni? *(Fikirləşir, handan-hana)* Deyirsən, əvəzində bir şey-mir şey, verməyəcəklər?
**Qazavoy Əzməli:** O işin gedişindən asılı olacaq. Dubinka ola bilər.

**Astabas Güləhməd:** Allah hamısına insaf versin.

**Hikkəbaz Gülsənəm:** Qələt eləyərlər. Sən maşını sür, cavablarını özüm verəcəm. Kabinədə qadın görsələr, canın üçün onlar elə qeyrətsizlik eləməzlər.

**Qazavoy Əzməli:** Əşi, nə qeyrət-qeyrət salmısan, sənin qeyrətin Astabas Güləhmədə lazımdı, onlara yox!.. Adama elə zopalar vururlar, özün də yaddan çıxırsan. Başlanır qoyma, yaxam cırıldı. Bir göz qırpımında boyayırlar adamı al qana. Sonra da atırlar içəri. İçəridə də hi... hi... hi...

**Hikkəbaz Gülsənəm:** İyli-iyli danışma. Yoxsa, səni...

**Qazavoy Əzməli:** Məni yox... Qonşu, bozbaş Məmişi... Hi... hi... hi...

**Astabas Güləhməd:** Hırıldama. Deyirsən, arvad sənin yanında otursun, mən çıxım kuzova? Eşidib-bilənlər bizə nə deyər, əə, gicbəsər.

**Qazavoy Əzməli:** Ayə, məni təhqir eləmə. Gicbəsər ən acığım gedən sözdü. Mən hardan bilim, nə deyərlər?

**Hikkəbaz Gülsənəm:** Höcət olma.

**Qazavoy Əzməli:** Höcətlik eləyənin atasına lənət. Onda ikiniz də qalxın kuzova.

**Hikkəbaz Gülsənəm:** Ağ eləmə, Əzməli.

**Astabas Güləhməd:** Yekə kişisən, Əzməli, bizi hərifləmə.

*Pauza*

**Qazavoy Əzməli:** Əcəb işə düşdüm. Hərifləyirəmsə, ürəyimə güllə dəysin... Gərək ikiniz də bazara gedəsiz?

**Hikkəbaz Gülsənəm:** Onu özümüz bilərik... Malı satıb qıza cehiz almalıyıq. Toya hazırlıq görməliyik... Sən də deyəsən, o söz.

**Astabas Güləhməd** *(arvadına)*: Deyəsən, Qazavoyun çatmır.

**Hikkəbaz Gülsənəm:** Nəyi?

**Astabas Güləhməd:** Yəni vinti.





**Hikkəbaz Gülsənəm** *(gülümsünərək)*: Bas qaza, Əzməli, aradan çıxaq. Ucar polislərinə cavab verənməyəcəyiksə, Göyçay bazarında nə itimiz ölüb?

*Kadr dəyişir. Qazavoy Əzməli maşını hərəkətə gətirir. Maşın gedir.*

**Qazavoy Əzməli:** Göyçayın bazarı da bazardı ha... Mən məəttəl qalmışam xadavoyluğuna. Dədəm vay. Gündə nə qədər gəlir, nə qədər əridir?

**Hikkəbaz Gülsənəm:** Deyirsən yaxşı olar?

**Qazavoy Əzməli:** Əşi, iki saata əridəcəksiz.

**Astabas Güləhməd:** Bazarkomla dil tapa bilsək, yaxşı olar. Görəm, o, hardandı?

**Qazavoy Əzməli:** Onu deyənmərəm, ancaq onu bilirəm ki, yaman pulgirdi.

**Hikkəbaz Gülsənəm:** Göyçaylı olasan, pulgir olmayasan, ona heç kim inanmaz...

*Maşın Ucara daxil olur. Qazavoy Əzməli həyəcan keçirir.*

**Astabas Güləhməd:** Qorxma, bizim də Allahımız var *(Qürrələnir)*. Başımın tükü sanı, o qədər elə şeylər görmüşəm.

*Pauza*

**Qazavoy Əzməli:** Bəs, Ucar polislərinin Allahı yoxdu? Onların balaları bala quşu kimi ağızlarını göyə açıblar? Qazdan ayıqdılar. Nəinki Amerika, heç İran kəşfiyyatı da elə olanmaz. Pulun iyini o saat alırlar.

**Hikkəbaz Gülsənəm:** Qorxma, Əzməli, səni saxlatsalar, demişəm, düşüb özüm onların cavablarını verəcəm *(Qazavoy Əzməli tərs-tərs Hikkəbaz Gülsənəmin üzünə baxır. Bunu Astabas Güləhməd də görür)*.

**Astabas Güləhməd:** Qabağa bax, məni zibilə salma, Əzməli.

**Hikkəbaz Gülsənəm** *(Əzməliyə)*: Adının, ləqəbinin mənasını bilirsən?

**Qazavoy Əzməli:** Yoox... Nə olub ki?

**Astabas Güləhməd:** Qazavoy, yəni qaza bas, saxlama. Əzməli sözünün mənası da odu ki, vur, əz. Yəni, təhlükə hiss eləyən kimi, saxlama, işini gör.

**Hikkəbaz Gülsənəm:** Cavan oğlansan, indi qandın? Heç olmasa, adına, ləqəbinə hörmət elə. Adamın ümidini heç nədən qırma. Biz qonşuyuq. Sənin hünərinlə fəxr eləməyə borcluyuq.

**Qazavoy Əzməli** *(gülümsünərək)*: Hikkəbaz, Astabas... Allah sizə gözləriniz dolusu məhsul versin. Mənim daimi müştərim olasız...

*Pauza*

**Astabas Güləhməd:** Necədi, xoşuna gəlmir? Hikkəbaz o deməkdi ki, hikkəlidi, qabağından yeməyəndi.

**Qazavoy Əzməli:** Xi... xi... xi... Adamı utandırma.

**Hikkəbaz Gülsənəm:** Astabas da işi qorxmadan, çəkinmədən, utanmadan asta-asta görənə deyərlər. Gərək bunları vaxtında öyrənəydin... Nə vaxtsa sənə lazım olacaq.

**Qazavoy Əzməli:** Bəs çərənçi?..

**Astabas Güləhməd:** O qadın ləqəbidi.

*Ucarın çıxacağında polislər maşına əl qaldırırlar.*

**Hikkəbaz Gülsənəm:** Bas qaza, saxlama, bərk darıxmışam... Ürəyim bulanır, Əzməli.

**Qazavoy Əzməli:** Pravamı alıb, maşınımı da cərmələsinlər? Malınızı da töksünlər çölün düzünə? Onda ağlınız gələr başınıza.





*Qazavoy Əzməli maşını saxlayır. Polis nəfəri maşına yaxınlaşır. Hikkəbaz Gülsənəm gözlərini yumub özünü yatmışlığa vurur. Arada gizlincə göz qapaqlarını qaldırıb polisə baxır. Polis qadının hiyləsini anlayır.*

**Pois:** O nə xumar-xumar baxışdı, xanım? *(Üzünü Qazavoy Əzməliyə tutaraq)* Deyəsən, hal əhlidi?

*Əzməli çaşır. Astabas Güləhməd əsəbiləşir. Hikkəbaz Gülsənəm gözlərini açır.*

**Hikkəbaz Gülsənəm:** Mənimləsən?

**Polis:** Bəli! Hardan gəlib, hara gedirsən? Nə məqsədlə? Arayışını ver.

**Hikkəbaz Gülsənəm:** Zərdabdan gəlib Göyçaya gedirəm. Qapımın məhsulunu satacam. Nə arayış-marayış. Deyəsən bu dünyada yaşamırsan? Yoxsa gəlmələrdənsən?

**Polis:** Nə gəlmə? Gəlmə nədi?

**Hikkəbaz Gülsənəm:** Deyirəm, bəlkə sən də yad planetlərdən uçan boşqablarla gələnlərdənsən.

**Polis** *(üzünü Qazavoy Əzməliyə tutaraq)*: Bu hardan əlinə keçib, əə?

**Qazavoy Əzməli:** Zərdablıdı... Kəndçimdi... Qonşumdu... Bir az ehtiyatlı...

*Polis əvvəl çaşır. Özünü itirir. Handan-hana özünə gəlir.*

**Polis** *(üzünü Hikkəbaz Gülsənəmə tutur)*: Mən hardan bilim sən həqiqətən də Qazavoy Əzməli deyən kimisən, kamukadze döörsən? Hardasa ağır cinayət törətməmisən? Hərçənd üz-gözündən kamukadzeyə oxşayırsan. And içsən də xeyri yoxdu, inanmıram.

**Qazavoy Əzməli:** Gördüz? Sizə dedim də. Mənə inanmırdız. Bunlara da Ucar polisləri deyərlər.

**Hikkəbaz Gülsənəm** *(Polisə)***:** Məni dolama, qoy düz yolumu gedim. Kamukadzedi, cinayətdi nədi, saxla, lazım olar özünə. İndi vaxtım çox azdı, qayıdan baş danışarıq.

**Astabas Güləhməd** *(əsəbi halda)***:** Polissən-nəsən, sən bizi təhqir eləyirsən. Bizim xalqın mentaliteti var. Kişi dura-dura, əvvəla, qadından söz soruşmazlar. O, etika xatirinə gözlərin yumar, yad kişiyə baxmaq istəməz. Sənsə paqonundan istifadə eləyib özgənin arvadına girişirsən. İkincisi, mənim kişilik hüququmu tapdalayırsan. Üçüncüsü, mənim adı təmiz, özü təmiz arvadımı kamukadze, cinayətkar adlandırırsan. Mən burda olmasaydım, yəqin başqa qələt də eləyərdin. Bu nalayiq hərəkətlərinə görə cavab verməli olacaqsan *(Səsini qaldıraraq)*. Ayə, Allahsız, sənə hüquq dərsin eləmi veriblər?

**Polis** *(Qazavoy Əzməliyə)***:** Bu, nə çərənləyir, əə?

**Qazavoy Əzməli** *(Hikkəbaz Gülsənəmlə Astabas Güləhmədə)***:** Əşi, qurtarın boş-boş söhbəti. Qoyun sənədləri versin, rədd olaq burdan. Hələ xarabama qayıtmalıyam, yatıb gözlərimin acısın almalıyam.

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Qazavoy Əzməli, sən otur yerində. Daha sənlik iş qalmadı. *(Üzünü polisə tutaraq)* Nə sırtıq-sırtıq üzümə baxırsan? Məni nə hesab eləyirsən? Özünü çöldə qoyan var? Gecə qara, cücə qara eləyirsən. Sən də mənə sübut elə ki, dələduz yox, həqiqətən də polissən. Özgənin mundirini geyinməmisən. Tez elə sənədlərini mənə ver, baxacam, görüm kimsən, belə yaramaz polis olmaz.

**Polis:** Xanım, qara məni basınca, mən qaranı basım eləmə.

**Qazavoy Əzməli:** Gecə vaxtı işə düşmədim?! Ayə, mən nə qələt eləyib, bu axşam yola çıxdım. Yoxsa məni qara basıb, əə? Zeynəb qarı deyərdi: "Xəta baş verəndə quymaq diş sındırar".





Cənab polis, vallah-billah, bunlar mənim qonşularımdı. Çörəklərini güc-bəlayla çıxarırlar. Nə kamukadze, nə cinayət! Meyvətərəvəzlərini bazara aparırlar. Hər şey qanunidi. Bunlarda sizə çatacaq heç zad yoxdu. Gözünüzü onlardan yığın. Nə lazımdı mənə deyim, mən sizə səhər tezdən çatdıraram.

*Pauza*

**Polis:** Sənin də başın xarabdı. Əvvəla, verəcək şeyi sonraya saxlamazlar. İsti-isti eləyərlər. İkincisi də, belə adamlarla yola çıxmazlar.

**Qazavoy Əzməli:** Qələt eləmişəm. Keç günahımdan... Sənədlərimi ver.

**Astabas Güləhməd:** Polis, nə olub-olub, gəl bizi burax, yolumuzla gedək. Səhərin açılmasına az qalıb, nə səni görən olsun, nə də bizi. Təsəvvür eləyək, aramızda söz olmayıb.

**Hikkəbaz Gülsənəm:** Necə olmayıb, əə. "Xumar-xumar baxmaq" nə deməkdi? Bayaqdan da sırtıq-sırtıq süzür məni... Bəs kamukadze, bəs cinayət? Ayə, hər biri bir qanlıq sözdü ey.

**Polis:** Ayıbdı... Mən bir bacı kimi dedim sənə o sözü.

**Hikkəbaz Gülsənəm:** Qeyrətsiz, bacıya da dəyyus-dəyyus baxarlar?

*Pauza*

**Astabas Güləhməd:** Təqsir məndədi. Mənə deyən lazımdı, birdən ikiyə belə mürəkkəb əməliyyata nəslində-kökündə girən olub? Kül mənim bu başıma *(əlini başına vuraraq)*, arvad sözüylə tullanıb düşdüm ortaya. Dəyus da utanmaz-utanmaz arvada girişir. Anlamır ki, mənim xanımıma da Hikkəbaz Gülsənəm deyərlər.

**Qazavoy Əzməli:** Ayə, cəhənnəm mən, maşın ilişdi.

**Polis:** Sürücülük vəsiqən saxtadı, Əzməli. Maşın qarışıq səni aparacam şöbəyə *(Üzünü Gülsənəmə tutaraq)*. Sən də həyasızlıq eləmə, mən səndən də betərəm. Nə sözün varsa, rəisə orda deyərsən. Rəis sənin kimiləri çox görüb.

**Hikkəbas Gülsənəm** *(dik atılır)*: Ayə, mənə həyasız deyirsən?..

**Astabas Güləhməd:** Paqonun var deyə, bizi öldürəcəksən? Ya səsimizi alacaqsan? O nə-mənə sözdü, əə, mənim arvadıma deyirsən?..

*Gülsənəm polisə yaxınlaşır. Qəflətən əlini atıb onun paqonunu qoparır. Polis əsəbiləşir. Gülsənəmi itələyir. Qadın yıxılır, başı yerdəki kərpic parçasına toxunub qanayır. Polis çəkinir. Şantaja keçir.*

**Polis:** Başını niyə yarırsan az? Yekə arvadsan, yoxsa, məni şərləmək istəyirsən?

*Hikkəbaz Gülsənəm başını tutur.*

**Hikkəbas Gülsənəm:** Öldüm, ana.

**Qazavoy Əzməli** *(polisə)*: Sən neylədin? Xalxı qana boyadın. Ölsə, kimə nə cavab verəcəksən?

*Polis duruxur. Astabas Güləhməd arvadını ayağa qaldırır. Əlini cibinə salıb dəsmalını çıxarır. Arvadının başını tutur. Qanın axmasını kəsməyə çalışır. Handan-hana Gülsənəm özünə gəlir.*

**Astabas Güləhməd:** Mən bu qanı yerdə qoymayacam.

**Polis:** Məni şərləmə. Heç kimi görməmişəm, heç nədən xəbərim yoxdu. Vurub itələdiyimi sübut eləyə bilsəniz, nə olar?

**Astabas Güləhməd:** Sözümüzü deyərik, eşitməzlər, qarışqadan böyük fil də var. Axır ki səsimizi eşidən tapılar.

*Kadr dəyişir. Gülsənəmlə Güləhməd Əzməlinin maşınına*





*oturur. Polis şöbəsinə gedirlər. Birbaşa qapını vurub rəisin otağına girirlər.*

**Rəis** *(təəccüblə)*: Eşidirəm... Siz kimsiz?

**Hikkəbaz Gülsənəm:** Rəis, orda uzun, yekə burun, qaraqura və kobud bir gedə var. Üzünüzdən iraq... Polisdən çox cığana oxşayır. Özün cırıb-dağıdır ki, polisəm. Əşi, elə polis olar?

**Rəis** *(duruxur)*: Niyə olmaz? Polisdə ondan da betərləri var, xanım.

**Hikkəbaz Gülsənəm:** Sözümü kəsmə. Zəhmin məni basır. Çaşıram... Həmin polis məni sırtıq-sırtıq süzüb həyasız, cinayətkar, nə bilim kamukadze - nədi - adlandırır. Bayaq vurub yıxdı da məni. Başımın yarığın, üzümün qanın da görürsən. Özü də bizə deyir: məni şərləyirsiz? Bu gecə vaxtı, yol üstə olan adama vacibiydi ki, maşını saxladıb bir dılğırı şərləyə? Mən heç elə adama oxşayıram?

**Rəis:** Mən hardan bilim?

**Hikkəbaz Gülsənəm:** Yoox... Düz demirsən, rəis, onu sən bilməlisən. Rayonun taleyini sənə tapşırıblar axı.

**Rəis:** Xanım, özünü təqdim elə.

**Hikkəbaz Gülsənəm:** Hikkəbaz Gülsənəm. Üç uşaq anası. Kəndçi. Göyçay bazarına yetişdirdiyi məhsulu satmağa aparan ərli qadın. Yenə təqdimata ehtiyac var?

**Rəis:** Yoox, xanım! Başqa xəta-gün əməlin yoxdu ki?

**Hikkəbaz Gülsənəm:** Necə yəni xəta-gün. Sənin də danışığın heç xoşuma gəlmir, rəis.

*Pauza*

**Astabas Güləhməd:** Mənim xanımımdı. Keçiləri satıb yol xərci eləmişik. Cənab rəis, sizin polis də keçinin pulunu bizdən almaq istəyirsə, bunu adam kimi desin də. Baş-gözümüzü yarmağa, bizi təhqir etməyə nə ehtiyac?

*Rəis Qazavoy Əzmәlinin üzünə baxır. Qazavoyun dili topuq vurur, danışanmır.*

**Hikkəbaz Gülsənəm:** Cənab rəis, o, yaxşı danışanmır. Pəltəkdi... Ağır xəstəlik keçirib. Üzünə çox baxsaz, ürəyi gedib yıxılacaq. Şərə düşə bilərsiz.

*Polis başını kabinetə soxur. Rəis əliylə ona "gəl" işarəsini verir. Polis çəkinə-çəkinə kabinetə girir.*

**Rəis** *(polisə)***:** Bu nədi, əə? Dəyyus, yoluğun nəyi var, sənə nə verə... Get evini sat bunların qan pulunu ödə.
**Polis:** Rəis...
**Rəis:** Kəs, namərd... Bu boyda rayonda sataşmağa adam tapanmadın? Neçə dəfə sənə demişəm: üzünə bax, qanın al.
**Hikkəbaz Gülsənəm:** Ux... Gözlərinə dönüm... Sənə atam-anam qurban, rəis. Mənə elə üz göstərirdi, inan, ətim cimmildəşirdi *(Üzünü polisə tutaraq)*. Ayə, Astabas Güləhmədi görürsən, onun bir deşik ayaqqabısına sənin kimi mürdəşirin bütün vücudunu dəyişmərəm. *(Üzünü rəisə tərəf çevirərək)* Cənab rəis, heyf ki, aranızda belə sarsaqlar da var.
**Astabas Güləhməd:** Rəis, indi biz neyləyək?
**Rəis:** Polisdən şikayətçisiz?
**Hikkəbaz Gülsənəm:** Yox... Balığı at dəryaya, balıq da bilməsə xaliq bilər. Belənçikləri rədd eləyin, Zeynəb qarı demişkən, qoyun gedib qarınlarını qaşısınlar. Onda ağılları gələr başlarına.
**Rəis:** Zeynəb qarı kimdi?

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Rəhmətlik bizim kəndin filosofuydu.

*Rəis qəhqəhə çəkir. Sonra üzünü polisə tutur.*





**Rəis:** Ədəb-ərkanla bunları yola sal getsinlər.
**Polis:** Başa düşmədim, rəis.
**Hikkəbaz Gülsənəm:** Göyçay bazarına qədər müşayiət elə bizi. Qazavoy Əzmәlinin də sənədlərin qaytar.
**Rəis:** Nə deyirlər, onu elə.

*Hikkəbaz Gülsənəm, Astabas Güləhməd və Qazavoy Əzməli rəisdən razılıqla kabinetdən çıxırlar. Birbaşa maşının yanına gəlirlər.*

**Polis** *(Qazavoy Əzməliyə)***:** Arxamca, ancaq ehtiyatla sür, birdən qəza törədərsən ha...
**Qazavoy Əzməli:** Oldu... Baş üstə... Oldu...

## VI bölüm

**Astabas Güləhməd:** Özümüz gedərik, aralaş bizdən.
**Hikkəbaz Gülsənəm:** Sənin dalınca düşən zibilliyə rast gələr.

*Kadr dəyişir. Masın bazarın qarşısında dayanır. Ər-arvad yükləri boşaldırlar. Qazavoy Əzməli qayıdır. Hikkəbaz Gülsənəmlə Astabas Güləhməd malları bazarda yerləşdirirlər. Malları piştaxtanın üstünə yığırlar. Pomidorun, gilasın, alçanın əzildiyini, xiyarın büzüşdüyünü görən ərlə arvadı dəhşət bürüyür.*

**Hikkəbaz Gülsənəm:** Nəfs kəsdi. Göz ki, deyilən şey var... Gözlərinə bıçaq batmış adamı peşman eləyir. Hıqqıldaya-hıqqıldaya qalırsan. Düz-əməlli səsin də çıxmır.

*Pauza*

**Astabas Güləhməd:** Qazovoy it oğlu əlimizin üstə nə qədər hürdü. Gərək başqa maşınla gətirəydik. Eybi yoxdu, bazarda hər cür adam olur. Əzilən, suyu çıxan malların da müştərisi tapılacaq. Hamının başına gələn işdi.

**Hikkəbaz Gülsənəm:** Allah ağzından eşitsin.

*Hikkəbaz Gülsənəmlə Astabas Güləhmədin malına bazarda heç kim yaxınlaşmır. Ər-arvadın hövsələsi daralır. Günortaya yaxın əcnəbi bir qadınla kişi onların piştaxtalarının qarşısında dayanırlar. Astabas Güləhmədlə Hikkəbaz Gülsənəm sevincək ayağa qalxırlar.*

**Hikkəbaz Gülsənəm:** Buyurun, biz ucuz veririk. Öz bağımızdandı. Hamısı dünən dərilib. Bu səhər gətirmişik.

**Astabas Güləhməd:** Buyurun, dadına baxın. Meyxoşdu. Məzəlidi... Şəkər xəstəliyinə də dərmandı... Əsəbləri də qaydaya salır...

*Kişiylə qadın gedirlər.*

**Astabas Güləhməd:** Evdə bişməyib, qonşudan gəlməyib, görməmişlər bizim malın qədrini nə bilirlər? Narahat olma. Bazarda çox şey ola bilər. Sən mala bax, mən də yeməyə bir şey alıb gəlirəm. Özünü darıxdırma.

*Astabas Güləhməd gedir. Hikkəbaz Gülsənəmi fikir aparır. Qəbələli qoz-fındıq satan Nazlı Gülçöhrə üst-başının tozunu çırpır, boğazını arıtlayır, sonra Hikkəbaz Gülsənəmə yaxınlaşır.*

**Nazlı Gülçöhrə:** Xanım, sənin ərin mənim çox xoşuma gəlir. Kişi görüb-götürmüş, sakit adama oxşayır.

*Hikkəbaz Gülsənəm diksinir, sonra da çevrilib tərs-tərs qoz-fındıq satana baxır.*





**Hikkəbaz Gülsənəm:** Haralısan?

**Qadın:** Qəbələdən, qadan alım... Nə olub ki?

**Hikkəbaz Gülsənəm:** Adın nədi?

**Qadın** *(gülümsünərək)***:** Nazlı Gülçöhrə.

**Hikkəbaz Gülsənəmin daxili səsi:** Dərdimizə bax, bircə nazlı-qozlu Gülçöhrəmiz çatmırdı. Pomidor, xiyar cəhənnəmə, deyəsən, kişini də bazarda qoyub getməli olacam.

**Nazlı Gülçöhrə:** Gülsənəm xanım, sizin pomidorlar su verir nədi, xiyarınız da büzüşüb, hə. İnanmıram onlara müştəri çıxa.

*Hikkəbaz Gülsənəm əsəbiləşir.*

**Hikkəbaz Gülsənəm:** Hə, əri döyən arvadı it də bir tərəfdən tutdu. Ağız, sənə yaxşısan, pissən deyən var? Sən niyə narahat olursan? Get, öz qoz-fındığının qeydinə qal. Pomidorumuzun, xiyarımızın dərdini özümüz çəkərik... Bəyəm, mən elə kor-kəsməzəm ki, əlimdəkini də sən alasan? Onu sənə verərəm? Nə həyasız adamsan, aaz.

**Nazlı Gülçöhrə:** İşə düşmədik. Aaz, mən nə dedim atıldın. Da ölərəm, sənə söz demərəm, lap istəyir bazar od tutub yana... *(öz-özünə)* Adamlara söz demək olmur. Elə bil dilotu yeyiblər, arsız-qırsızlar...

— Yaxşı cuvanəzən olsaydın, bazara ərinlə gələrdin. Bir yan-böyürünə bax da... Hamı ərciyəziylə gəlib. Sən də gəlsəydin, gözün onun-bunun kişisində olmazdı. Astabas Güləhmədin başına xəta-bəla gəlsə, səndən əl çəkənin atası tümmətün olsun.

— Sözdən söz düzəltmə sən canın. Aaz, pomidor, xiyar nədi ki, səni qudurdub ağlını başından çıxarıb. Biz tərəfdə onların üzünə baxan da olmur.

*Pauza*

— Bilirəm, xanım, bilirəm. Yeyirsən qozdan, fındıqdan, alovlanırsan, bilmirsən adamlara necə sataşasan? Qızışıb Allahı da unudursan... Abrın, həyan olsun.

— Aa.... Bu lap ağ elədi ki? Bir kəlmə söz soruşdum, əcəb məni peşman elədi *(üzünü Gülsənəmə tutaraq)*. Ərinlə, qonşularla necə yola gedirsən, xanım?

— Əlində zəhrimarını sat. Min dərənin suyunu bir yerə qatma. Onların sənə dəxli yoxdu. Özüm bilərəm, kimlə necə yola gedərəm.

— Odu ha, xanım, başının yarığından hər şey bəllidi. Allah bilir nə iş tutmusan, kişi vurub dağıdıb başını. Qanın da tökülüb üz-gözünə.

— İyli-iyli danışma. Ayağım ilişdi, yıxıldım, başım daşa dəydi.

*Pauza*

— Allahın qəzəbinə gəlmisən. Bu hikkəliylə adam necə yaşayır, özüm də məəttəl qalmışam. Bizim kənddə biri vardı. Çatana çatır, çatmayana bir daş atırdı... Qurban olum Allaha, gecələrin birində yatdığı yerdəcə ilan çaldı dilindən. Allahdansa nəinki vəsiyyətin elədi, heç ağzın da açanmadı. Şırt getdi. Sirrin də apardı özüylə. Neçə ildi öldüyü, rəhmət oxuyanı da yoxdu... Eləsinin sözünü kim ağzına alar ki?

— Məni əsəbiləşdirmə, xanım. Sənə əl bulaşdırsam... İstəmirəm cavan öləsən.

— Xuliqanlığın da varmış... Yoxsa, məni tək görmüsən?... Mən səndən də betərəm. Gəl söhbəti saxlayaq axşama. Bazardan kənarda danışarıq.

*Adamlar səsə onların başına toplaşırlar. Kimsə arxadan "Bazar arvadları" ifadəsini işlədir. Adamlar ucadan gülüşürlər. Hikkəbaz Gülsənəm də, Nazlı Gülçöhrə də əsəbi halda arxaya çevrilirlər. İfadəni ağızdan çıxaranı müəyyənləşdirə bilməyirlər. Elə bu vaxt ikinci səs eşidilir: "Daş qayayla qarşılaşır". Bazarı yenə gülüş səsləri bürüyür. Kimsə deyir:* Kefdi... Kef... *Hikkəbaz Gülsənəmlə Nazlı Gülçöhrə deyilənləri eşitməzliyə vurmağa çalışırlar.*





**Hikkəbaz Gülsənəm** *(Nazlı Gülçöhrəyə)***:** Bu adı istəyirdin?

**Nazlı Gülçöhrə:** Sən necə? Səsini başına atmasaydın, qiyamət qopardı.

— Qışqıranın cavabını verməsən, deyər laldı, kardı, nə bilim nədi?

— Bu dəfə sənə güzəştə getdim....

— Neyləyəcəkdin?

— Sürtük qızı, sürtük.

— Necə dedin? Sürtük qızı, sürtük? Ağız mənə deyirsən.

*Hikkəbaz Gülsənəm yeşik taxtasını götürüb Nazlı Gülçöhrənin çiyinlərinə bir neçə dəfə vurur. Qadın qışqırır.*

**Nazlı Gülçöhrə:** Öldüm, ana.

*Bir göz qırpımında Nazlı Gülçöhrə Hikkəbaz Gülsənəmin üstə atılır. Qadınlar bir-birlərinin saçlarını yoluşdururlar. Bel-belə girirlər. Meydan qızışır. Adamlar dayanaraq onlara tamaşa eləyirlər. Hikkəbaz Gülsənəm Nazlı Gülçöhrənin sinəsinə əl atır.*

**Nazlı Gülçöhrə:** Ordan tutma.
**Hikkəbaz Gülsənəm:** Niyə?
— Olmaz!!!
— Yoox... Tutacam.
— Onda mən də.

*Nazlı Gülçöhrə də hardan gəldi tutur.*

— Səni öldürəcəm... Bu boyda bazarda kişi azlığıdı? Gərək mənim ərimə gözün düşə? Onu əlimdən alan hələ anasından olmayıb.

*Polis fit çalır. Adamlar tökülüşüb Nazlı Gülçöhrəylə Hikkəbaz Gülsənəmi bir-birlərindən ayırırlar. Qadınların hərəsi öz yerlərində oturur.*

— Al payını... *(üzünü adamlara tutur)* Nə hırıldaşırsız, dava görməmisiz?

— Nə hırıldaşırsız? Birdən ikiyə dalaşmamısız, ya dalaşan görməmisiz?

**Nazlı Gülçöhrənin daxili səsi:** Yaxşıca adamları özümüzə güldürdük. İndi mən Qəbələyə necə gedəcəm? Ərimin, uşaqlarımın, qohum-qonşularımın üzünə necə baxacam? Onlara necə deyəcəm ki, bazarda dava düşüb, mən də orda xəsarət almışam. Biabırçılıq. Mərdimazarı axtarmaqla döör. Özü gəlib adamı tapır...

**Hikkəbaz Gülsənəmin daxili səsi:** Başıma daş düşən canım, bu dava-dalaş hardan çıxdı? Mən neylədim?... Əşi, bir kəlmə söziydi də, demişdi, gərək dözəydim. Əsəb belədi də... Qızışıb tifan qaldırırsan, sonra peşmançılığını çəkirsən. Polis gəlib çıxmasaydı, neynəyəcəkdim? Axşamkından güc-bəlayla qurtarmışam. Qanımın kompensasiyasını da almamışam... Allah kişinin, uşaqların üzünə baxdı.

— *(Əlləri ilə saçlarını yolur)*: Allah, Allah, yandım, Allah! Bir kəlmə sözün də bu boyda zıbbıltısı?

*Pauza*

— Keçi pulları getdi... Mal batdı... Abırdan düşdüm...

— Zurnanın səsi Qəbələyə inanmıram çatmaya.





— Kişi necə oldu? Harda ölüb qaldı? Gəlib zibilinə yiyə dursaydı... Əsəblərim necə gərildi, heç özüm də bilmədim. Əşi, belə də şey olar? Qəbələdən gəl, oyun düzəlt. Bəyəm yer yiyəsizdi? Bəyəm arvad döörsən? Ağız səni nə deyib doğub anan?

— Mızıldanıb baş beynimi aparma. Bazar bizə baxır. Tələsmə, bazarkom gələr... Onda abrımıza çatarıq, bazarı qoyub qaçarıq.

— Onu qanan arvad əvvəldən dilin sakit saxlar... Taxta zəhirmar əlimi dağıtdı.

— Çiynim qırılıb... Gedəcəm şikayətə... Baxarsan işinə...

— Sənin satqınlığın da varmış? Utanım əvəzinə...

— Onu özüm bilərəm.

— Get, sat... Güləhməd gəlsin. Göndərrəm Qəbələyə. Sahiblərinlə danışar.

— Sən qan-qan eləyirsən. Məni döydünsə də, için dincəlmədi?.. Ərin gedib sahiblərimə nə deyəcək?

— Nə deyəcək, ar-namusunu atmısan arxana... Belə də qızışmaq olar? Bütün bazara tanıtmasın özünü.

— Xanım, öz adını mənə qoyma. Gəldiyin cəmi-cümlətani bir saat olar. Özünü elə yerə qoydun... Hamı səni tanıdı.

— Məni də sən tanıtdın... Adına bax... Nazlı Gülçöhrə. Yox... Qozlu-fındıqlı Gülçöhrə...

— Adın nə olması da, bir matax olub?

— Olmasa, deyərəm?

— Anam-bacım. Məni söydün? Döydün? Abırdan saldın?.. İndi nə istəyirsən? Məni öldürəcəksən, gəl öldür. İstəyirsən qoz-fındığımı da, yerimi də verim sənə. Sən dirilərinin goru, ölülərinin canı, məndən əl çək.

*Pauza*

— Hə... Yumşalarsan... Tərsinə danışma. Sən boyda arvad ölüylə dirini qarışdırısan... Get Qəbələdə beş özündən deyəndə, bir də məndən de... Ağız, bu bazar nə axmaq şeymiş... Axtarsan,

hər şey taparsan, təkcə adam başından savayı.

— Göyçay bazarında bajı, arxeyin ol, o da var.

— Bədənli, bədənsiz?

— Hər ikisindən!

— Hi... hi.. hi... Ağız, başım ağrayır, bəlkə, səndə dərman ola?

— Yoxdu... Hü... hü... hü... İstəyirsən qaçım aptekdən alım.

*Bunu görən bazardakılar qəşş eləyirlər. Hikkəbaz Gülsənəm yan-yörəyə, arxaya baxır.*

— Zeynəb qarı demişkən: Yağışdan çıxıb yağmura düşdük. Yığışdırın hırıltılarınızı... Özün çöldə qoyan var? Əbləhlər...

— Fikir vermə. Hırıltıya öyrəncəlidilər... Barmaq oynatsan ona da güləcəklər.

— Arları yox, qırları yox... Ay Nazlı Gülçöhrə, malları satsaydıq, qonaq aparardım səni evimizə...

— Ərimdən xəbərsiz gedənmərəm. Qəlbi qaradı. Çox qısqancdı...

*Pauza*

— Görürəm... Kişilər hamısı elədi. Qaşınmayan yerdən qan çıxarandılar. Astabas Güləhməd dayanıb kənarda bu saat məni pusur ki, görsün neyləyirəm, kimlə danışıram. Anlamırlar ki, arvad istəsə...

— İcazə alaram kişidən gələn dəfə...

— Belə getsə, malı atıb gedəcəm... Allahın qəzəbinə keçmişik... Ona da qurban olum. Varlıları qudurdur, kasıblara zülm eləyir. Adın da qoyur ki, guya o dünyada kasıblara yaxşı olacaq...

*Astabas Güləhməd gəlir. Arvadına yaxınlaşır. Arvadını əsəbi görüb onun da hövsələsi daralır.*





**Astabas Güləhməd:** Mal xarab olub. Batırmışıq. Gələndən heç bir qələt eləyənməmişik. Bir ucdan keçi pulları da axır. Cehiz almaq da çezdi, arvad. Vəziyyətdən çıxmağın bircə yolu var.

**Hikkəbaz Gülsənəm:** O, hansı yoldu?

**Astabas Güləhməd:** Malı bazarda qoyub qaçmaq. Bazarkomdan da gözüm su içmir. Vaxtında başımıza çarə qılmasaq, gəlib bizi cərimə eləyəcəklər. Sonra da xarab olmuş malları özümüzə daşıtdıracaqlar. Təsəvvür eləyək, bu il ağaclar bar gətirməyib. Tərəvəz əkməmişik. Keçiləri də çaqqal-çuqqal parçalayıb. Ya da ki qonşu piyaniskə Sülhəddin kəsib yeyib.

**Hikkəbaz Gülsənəm** *(peşman-peşman)*: Mən də elə düşünnəm. Gəl belə eləyək, kişi, sən bazardan çıx. Təcili bir taksi saxlat. Mən də sənin ardınca gəlim. Oturub taksiyə, çıxaq aradan. Nə qədər gec döör, gedək Göyçayın Ucar avtovağzalına. Sonrasına baxarıq.

*Əvvəl Astabas Güləhməd, onun da ardınca Hikkəbaz Gülsənəm bazardan çıxırlar. Ər-arvad taksiyə otururlar. Maşın gedir.*

*Kadr dəyişir. Göyçayın Ucar avtovağzalı. Taksi dayanır. Hikkəbaz Gülsənəmlə Astabas Güləhməd maşından hürükə-hürükə düşürlər. Onlar kəndçiləri zurnaçı Xudayar və nos Cabbarla qarşılaşırlar.*

**Zurnaçı Xudayar:** Yaman istidi. Neylədiz? Satdıqlarınızdan nə qədər qazandız? Cehizi yola verə biləcəksizmi?

**Hikkəbaz Gülsənəm:** Qanacağın olsun, yol üstə elə söhbət eləməzlər.

**Nos Cabbar:** O söhbətin kimə nə dəxli var? Dövlət sirri-zadı dı bəyəm?

*Pauza*

**Astabas Güləhməd:** Deyəsən, qızı adaxladığımızı bütün öl-

kə bilir.

**Hikkəbaz Gülsənəm:** Bilsinlər də. Oğurluq iş görməmişik ki. Qıza elçi gələr də. Gec-tez biləcəklər.

*Elə bu vaxt dayanacaqdakı elektrik dirəyinə bərkidilmiş radioda elan olunur.*

**Diktor:** Diqqət! Diqqət! Sərnişinlərin nəzərinə! Müəyyən səbəblərə görə Göyçaydan Ucara gedən sərnişin avtobusunun hərəkəti bu gün təxirə salınır. Sərnişinlərdən xahiş olunur ki, başqa nəqliyyat vasitələrindən istifadə etsinlər.

**Zurnaçı Xudayar:** Əcəb işə düşdük.

**Nos Cabbar:** Çətin ki, maşın tapıla.

**Hikkəbaz Gülsənəm** *(ərinə)***:** Burda çox qalmaq olmaz. Səksəkədəyəm. Ürəyimə damıb. Bazarkom gəlib bizi yaxalaya bilər.

**Astabas Güləhməd:** Deyirsən, əlli kilometr yolu pay-piyada gedək? Tələsmə. Üç-beş dəqiqə də gözləyək... Malımızın batması azmış kimi, bazarkomdan da qorxaq?

*Ər-arvadın qanı qaralır. Elə bu vaxt kuzovuna çadır çəkilən yük maşını bir az aralıda dayanır. Sürücü başını pəncərədən çıxarır: — "Ucara gedən! Ucara gedən!" — deyə qışqırır. Adamlar sevincək halda maşının kuzovuna minirlər. Kuzov sərnişinlərlə dolur. Ərlə arvad kuzovun qabaq hissəsinə bərkidilən oturacaqda əyləşirlər.*

**Hikkəbaz Gülsənəm:** Maşın vaxtında gəldi, yoxsa işimiz çətin olardı. Sonra da get, itə-qurda cavab ver.

**Astabas Güləhməd:** Hə, arvad, elə bilirəm, bu maşında getməyin xərci də az olar.

**Hikkəbaz Gülsənəm** *(başını yelləyərək)***:** Yenə xərc...





Allah özü bilən yaxşıdı, onsuz da bizimki bu alverdə gətirmədi. Ayı ovuna gəlib kürkümüzü yandırdıq. Düşünürdüm ki, qazanıb qıza azdan-çoxdan cehiz alarıq. Toya hazırlıq görərik. Gəldik bığ düzəltdirməyə, saqqalı da qoyub gedirik. İndi də gedib kimə nə deyək?

**Astabas Güləhməd:** Da demə. Bunda deyirlər: "Gəldik kabab yeməyə, gördük eşşək dağlanır". Sən Allah, qurtar, yadıma salma bazar həngaməsini. Az qalır ürəyim çatlaya. Heyf keçilərdən.

**Hikkəbaz Gülsənəm:** Da demə, hərəsi bir qazan süd verirdi. İpək kimi tükləri, şiş buynuzları, bir qarış saqqalı vardı keçilərin. Onların pulunu Gülşənin cehizinə sərf eləsəydik...

**Astabas Güləhməd:** Dalından qorxuram...

**Hikkəbaz Gülsənəm:** Yəni bundan da betəri?

**Astabas Güləhməd:** Bu bəxt ki, bizdədi...

**Hikkəbaz Gülsənəm:** Alovlandırma, onsuz da çırtım-çırtım yanıram, kişi.

*Kadr dəyişir. Maşın yavaş-yavaş yerindən tərpənir. O yolun çala-çuxuruna düşdükcə adamlar o tərəf-bu tərəfə çırpılır, canlarını yıxılıb əzilməkdən qurtarmaq üçün bir-birilərindən möhkəmcə tuturlar. Birdən Hikkəbaz Gülsənəmin gözləri kuzovun arxasında əyləşən kor-kobud, adamyeyən bir kişiyə sataşır. Onun da yanında şəlpəqulaq bir kişi oturub. Onların göz-qaşı qaynaşır. Hikkəbaz Gülsənəm həyəcanlanır. Arvadının həyəcanını əri duyur.*

**Astabas Güləhməd** *(arvadına)***:** Nə olub?

**Hikkəbaz Gülsənəm:** O kişiləri tanımırsan ki?

— Yox, necə bəyəm?

— Nəsə onlardan ağlım bir şey kəsmir.

— Özündən söz düzəltmə, otur yerində. İmkan ver dərdimizi

çəkək. Bizim başımıza gələn...

— Bəlkə zurnaçı Xudayar əmioğlu onları tanıyır?

— Yox, o da tanımaz. Lap bir də ki tanısın. Bizə nə dəxli var?

— Yox, kişi, nəsə ürəyimə damıb. Bunlar düz adama oxşamırlar. Şərəşürlük üz-gözlərindən yağır. Əsəbdən adamyeyənin bığları əsir... Sən zurnaçı Xudayar əmioğlundan, nos Cabbardan soruş.

— Zurnaçı Xudayar əmioğlu tanımırsa, deməli, nos Cabbar da tanımır. Onlar da tanısaydılar, salamlaşardılar, görüşərdilər, hal-əhval tutardılar.

— ***(astadan):*** Əşi, mən də qəribə adamam, heç nədən qarışqanı fil eləyirəm... Lap kim olur-olsun, bir naxır kişinin içində mən nədən qorxuram? Bizi öldürməyəcəklər ki. Nə günah sahibiyik?

— *(əsəbiləşərək)***:** Arvad, bəsdi, qalanını evdə danışarıq. Hövsələmi lap daraltdın. Mən keçilərin, bazarda atıb gəldiklərimizin dərdini çəkim, yoxsa bu it uşağının? Hələ qızın cer-cehizini demirəm. Yazıq qızın gözü açılmamış atdıq çölə. Hələ onun nə vaxtıydı?

*Pauza*

— Qızla qurtar. Xeyir işə nəs danışmazlar. Özün də yavaş danış, eşidərlər. Belə getsə, bizi aləmlə bir eləyəcəksən.

— Eşitsinlər də. Öldürməyəcəklər ki. Bərkə düşər, cavablarını verərik. Bircə gedə-güdədən qorxub-hürkməyimiz qalmışdı.

— Necə? Necə? Ay səni verənin başına dönüm. Vallah, kişisən!..

— Ayə, qoy oturaq. Bəyəm kişi döörük. Yoxsa düşünürsən qeyrətimiz çatmaz? Bir xarabadan dörd nəfərik. Yəqin burda tək, kimsəsiz adam olmaz.

— Həə... Deyirsən...





— Bə nədi?

*Hikkəbaz Gülsənəm bir az sakitləşir. Yerini rahatlayır. Göyçayla Ucar arasındakı meşəyə çatar-çatmaz adamyeyən ayağa qalxır. Muskullarını oynadır. Boyun-boğazını çiyinləri üstə o tərəf-bu tərəfə əyir. Gözlənilmədən yanında əyləşən sərnişinin yaxasından tutur. Üzünə bir sillə çəkir. Vurulan kişi özünü itirir. Adamlar heyrətlənirlər. Hikkəbaz Gülsənəm ayağa qalxmaq istəyir. Əri onun yanını basır. Adamyeyən özünü daha da şişirdir. Qollarını bədənindən aralayır. Çiyinlərini qaldırır. Dünya çempionlarının vahiməli görkəmini alır.*

**Adamyeyən:** Pulları çıxar, əclaf.

*Kişi dil-dodağı əsə-əsə cibindəki pulları çıxarır və ona tərəf uzadır. Adamyeyən Şəlpəqulağa "pulları al" işarəsini verir. Adamyeyən bircə-bircə sərnişinlərə yaxınlaşır, kişilərin qulağının dibinə, başına şapalaq çəkir, kimisinin qarnına diziylə vurur, sözünə əməl eləməyənlərin yumşaq yerinə bir neçə təpik çalır.*

**Hikkəbaz Gülsənəmin daxili səsi:** Adə, bu heyvərə kimdi? Bir naxır kişi niyə onun əsirinə çevrildi? Bu qədər kişidən biri onun qarşısına çıxanmazdımı? Günahsız olduqları halda, bu qeyrətsizlər niyə qoyuna çevrilirlər? Bəyəm, cəsarətləri çatmır? Vay, dədəm vay... Bu naxır kimə lazımdı? Hamı şapalağı alıb pulunu verməlidi? Sizə ərim var deyən arvadların atalarına lənət!.. Onlar ər əvəzinə dovşan saxlayırmışlar. Siçan bəsləyirmişlər.

*Növbə Nos Cabbara çatır. Adamyeyən onu da yaxalayır. Nos Cabbar özünü Adamyeyənin ayaqları altına atır, qıçlarını qu-*

*caqlayır.*

**Nos Cabbar:** Atam-anam sənə qurban, vurma məni, al pulları.

*Adamyeyən onun qarnına bir-iki təpik çalır. Şəlpəqulaq pulları alır. Növbə zurnaçı Xudayar əmioğluya çatır.*

**Zurnaçı Xudayar** *(ağlamsınaraq)***:** Mənim pulum yoxdu.

*Adamyeyən qışqırır. O, bir əli ilə Zurnaçı Xudayar əmioğlunun boynundan, o biri əli ilə paçasının arasından tutur və başı üzərinə qaldırır.*

**Adamyeyən:** Səni asfalta çırpacam, əclaf.
**Zurnaçı Xudayar:** Öldürmə məni. Yalan demişəm. Bir də... Pullarım corabımdadı. Hamısını verirəm, mənə yazığın gəlsin. Qələt elədim ata-babamla.

*Adamyeyən Zurnaçı Xudayar əmioğlunu maşının içinə çırpır, belinə minir, əzişdirir. Sonra üstündən qalxır. Zurnaçı Xudayar əmioğlu titrəyə-titrəyə pulları corabından çıxarır və Şəlpəqulağa verir. Adamyeyənin ürəyi dözmür, Zurnaçı Xudayar əmioğlunun yumşaq yerinə bir necə təpik çalır.*

**Zurnaçı Xudayar** *(dözmür)***:** Vay, deşildi... Yırtıldı... Partladı...

*Adamyeyən Astabas Güləhmədə çatır. Kişi gah Güləhmədin arvadına baxır, gah da Adamyeyənə. Astabas Güləhməd ovcundakı keçi pullarını Adamyeyənə uzadır. Astabas Güləhmədlə Adamyeyənin baxışları toqquşur. Astabas Güləhməd yazıq görkəm alır. Adamyeyənin ona yazığı gəlir. Gülümsəyir, başını bulaya-bulaya Şəlpəqulağa "pulunu al" işarəsini verir. Şəlpəqulaq alır. Hikkəbaz Gülsənəm bərk qorxur. Adamyeyən Hikkəbaz gülsənəmə baxır. Qadın özünü itirir, nə danışdığının mənasına da varmır.*





**Hikkəbaz Gülsənəm:** Qardaş, mən Güləhmədin övrətiyəm. O, mənim pulumu da verdi. Vallah-billah qalmadı. Kişi hamısını verdi. Hətta, qızın cehiz pullarını da.

*Adamyeyən balaca qımışır. Sonra da maşının kabinəsi üstünü döyəcləyir. Sürücü başını kabinədən çıxarır.*

**Sürücü:** Eşidirəm.
**Adamyeyən:** Dərd eşidirəm, çor eşidirəm. Saxla maşını!
**Sürücü:** Oldu.

*Adamyeyənlə Şəlpəquyruq maşından tullanırlar.*

**Adamyeyən:** Bunları Ucara çatdır. Özlərini də incitmə. Yoxsa, sənin gözlərini çıxararam.
**Sürücü:** Oldu. Baş üstə. Oldu...

*Adamyeyənlə Şəlpəqulaq özlərini meşəyə salırlar. Tez də yoxa çıxırlar. Maşın sürət götürür. Hikkəbaz Gülsənəm istehza ilə kişiləri süzür. Kimisi qarnını tutur, kimisi şapalaq dəyən üzünü ovuşdurur, kimisi də ağrı-acıdan ora-burasını tutaraq ufuldayır. Astabas Güləhməd xəcalətdən arvadının üzünə baxa bilmir. Hikkəbaz Gülsənəm qəflətən qışqırır və baş-gözünə döyür.*

**Hikkəbaz Gülsənəm:** Apardılar!.. Apardılar!.. Keçinin pullarıydı... Hamısını apardılar... Vay... Ürəyim çatlayır. Mən ölə-

cəm... Qıza cehizi hansı pulla alacam?.. Ürəyim çatlayır *(Üzünü maşındakılara tutaraq).* Eviniz yıxılsın. Sizə kişi deyən arvadın atasına lənət.

**Astabas Güləhməd:** Özünə gəl. Görünür, bu da olacaqmış...

**Hikkəbaz Gülsənəm:** Əşi, sən də öl yerində, səsin çıxmasın.

*Arvad qışqırmağında davam edir. Kadr dəyişir. Maşın Ucar-Zərdab avtobus dayanacağına çatır. Maşın dayanır. Adamlar yolunmuş qaz kimi maşından tökülüşürlər.*

*Bir neçə avtobus dayanır. Sərnişinlər bilet alıb əyləşirlər. Ucar-Zərdab avtobusu sərnişinlərlə dolmaq üzrədir. Astabas Güləhmədlə Hikkəbaz Gülsənəm avtobusun yanındadırlar. Çox əsəbi görünürlər.*

**Astabas Güləhməd:** Atam itlə yatsın, bir də avtobusdan savayı, başqa maşına minsəm... Əşi, abırdan düşdük. İndi avtobusa pulsuz necə minək? Deməzlər ki, ər-arvad iki adam hansı ağılla pulsuz çölə çıxmısız? Cibinizdə siçanlar oynaşır. Bir bilet nədi ki, onu da alanmırsız?

## V bölüm

**Hikkəbaz Gülsənəm:** Əşi, az donquldan. Onun günahı kimdədi? Atasına lənət mərdimazarların. Kişiliyiniz çatmadı, mən neyləyim? Məndən xəbərdarlıqdı, onu da sənə vaxtında elədim.

*Astabas Güləhməd başını yelləyir. Avtobusun yanında o yanbu yana gedir. Sonra arvadının yanına gəlir.*

— Bəlkə, sürücüylə danışım?

— Nə danışacaqsan? Deyəcəksən ki, pulumuz yoxdu, bizi də





havayı apar? Birdən dedi aparmıram. Get bilet al. Onda burda qalacaqsan? Tələsmə kişi. Eşitmisən də.

— Nəyi?

*Pauza*

— Tələsən köpək süpürülmüş yerə... Nos Cabbarla zurnaçı Xudayar əmioğlu da avtobusun yola düşməsini gözləyirlər.

*Söz kişinin başına batır. Avtobus tərpənir. Ər-arvad, onların da ardınca Nos Cabbarla zurnaçı Xudayar əmioğlu avtobusa tərəf qaçırlar. Çətinliklə avtobusun arxa qapısından içəri girirlər. Avtobus Ucardan çıxır.*

*Kadr dəyişir. Yolkənarı dayanacaqlarda hər dəfə avtobus dayanır, kimisi düşür, kimisi də minir, Astabas Güləhməd xəyala dalır.*

**Astabas Güləhmədin daxili səsi:** Bu, nə görəcək işdi biz düşdük, İlahi? Evdə uşaqların üzünə necə baxacoq? Axı evdən çıxanda onlara şirin vədlər verdik. İndi onlara necə deyək ki, mal batdı? Quldurlar da keçi pullarını əlimizdən alıb apardılar. Yanınıza xəcalətli gəlmişik, balalarım. Bizi bağışlayın. Ayə, bundansa, vallah, ölüm yaxşıdı. Allah, Allah, daş yağdır, Allah.

*Avtobusda sərnişinlər seyrəlir. Ər-arvad keçib orta oturacaqda əyləşirlər. Növbəti dayanacaqda avtobus dayanır. Üç cavan oğlan avtobusa minir. Hikkəbaz Gülsənəm onlardan şübhələnir, həyəcan və təlaş içərisində ərini dümsükləyir.*

— Kişi, vallah, bu gədalardan da gözüm su içmir. Bunlar cüvəllağıya oxşayırlar.

— Bəsdi, ağzını xeyirliyə aç. Ürəyimi partlatma. Cəhənnəm olsun hamısı. İndi nəyimizi alacaqlar? Verə biləcəyimiz şeyləri verdik də.

— Əsəbiləşmə, kişi. Qaradan da tünd rəng var, — deyib babalar.

*Pauza*

— Babalar çox söz deyib... Nə bilirlər eləsinlər. Uzaq başı...
— Nə uzaq başı, kişi?
— Əşi, ağzımı sənin yanında açanmıram... Məni az peşman elə. Bilmirəm sən deyənlər barədə düşünüm, yoxsa qızın cehizləri...

*Ər-arvad söhbəti kəsirlər. Arvad pəncərədən çölü seyr eləyir. Kişi başını arxa söykənəcəyə dirəyib gözlərini yumur. Mürgü döyməyə başlayır. Avtobusun qabaq qapısı ağzında səs-küy qopur. Qarışıqlıq yaranır. Astabas Güləhməd diksinir. Maşının qəzaya uğradığını düşünür. Özünü pəncərədən çölə atmaq istəyir. Gülsənəm ərini qucaqlayır.*

— Bıy, başıma daş düşən canım. Əşi, səbr elə. Özünü hara atırsan? Uşaqları yetimmi qoyacaqsan?
— Qəza baş verib, arvad. Gəl dalımca.
— Əşi, nə qəza? Mən hara gedirəm? Gözünü aç, əməlli bax. Elə qorxulu bir şey yoxdu.

*Pauza*

— Lənət sənə, şeytan. Bu nə gündü biz düşdük? Gözümüzü də yumanmırıq. Dünya ala-bula görünür gözümüzdə. Özün kömək ol, ya Rəbbim. Belə getsə, kəndə çatanmayacoq. Uşaqları görənməyəcök.

*Oğlanlardan spirt iyi vurur. Onlardan ikisi adamları həyəcanlanmamağa, sakitləşməyə çağırır. Biri isə qabaq tərəfdən arxaya doğru adamların boynunu qucaqlayır, hər birini həvəslə öpür. Qabaqda dayanan arvad-uşaq qorxu içərisində salonun arxasına axışırlar. Ona öpüş verən kişilər dərindən nəfəs alır,*





*sevinirlər. Ciblərindən dəsmallarını çıxarır, üz-gözlərini, ağız-burunlarını silirlər. Oğlan zurnaçı Xudayar əmioğluyla nos Cabbarı da öpür və onlar da rahatlanırlar.*

— Ədə, bunların ar-namusu getdi ki. Kül bunların öpüş verən kişi başına. Bunlar çoxdanın... Qoy kəndə çataq, bir düdük çalacam, gəl görəsən. Arvadlarını şıdırğı rəqsə gətirəcəm.
— Səs salma, arvad, görək axırı nəylə qurtarır?
— Necə yəni?
— Piyəniskə köpəkoğlunun ağzından it iyi gəlir.
— Bıy, onun sənə nə dəxli var, kişi? Yoxsa, sənin də...
— Heç, elə-belə deyirəm də.
— Yoxsa, sən də vermək istəyirsən?

*Kişi susur. Arvad heyrətlənir.*

— Yox, yox, sən nə danışırsan? Elə düşünənin atasına lənət.
— Allah, göydən daş yağdır, Allah. Bu kişilər neyləyirlər? Kişi, canına and olsun, sən də versən ha... Bir gün də səni qapıda saxlamaram. Ağlını başına yığ. Arımızı, namusumuzu satma.
— Qorxma, arvad, mən elələrindən döörəm. Evdən necə çıxmışamsa, atanın goru haqqı, elə də evə qayıdacam. Özün şahid olacaqsan.
— Çox sağ ol, kişi, mən elə belə də düşünürdüm.

**Astabas Güləhmədin daxili səsi:** Əşi, bu əclaflara öpüş niyə verək? Arvadın gözünün qabağında necə verək? Eşidib-bilən deməz ki, a biqeyrət, bu nə işdi? Ağlınız hardaydı? Allah kəssin belə kommersant, biznesmen olmağı. Zərdabla Göyçay arasında bu qəzyə nə idi başımıza gəldi? Gör indi Türkiyəyə, İrana, Dubaya, nə bilim hara, hara gedənlərin başına nə oyunlar gətirirlər. Yox... Öpüş verməkdən söz gedənməz. Yumşalıb öpüş versəm, arvad məni evə qoymayacaq. Onda gərək kəndə getməyəm.

Yox, bu kişilikdən döör. Ölsəm də verməərəm. Əşi, bu da keçi puludu, bu da meyvə, tərəvəzdi, bazara atıb canımı qurtaram? Bu, ömürlük xəcalətdi. Bu, ar-namus məsələsidi. Qurtardıq. Ölərəm, verməərəm!

*Astabas Güləhmədə bir-iki adam qalır. Onu vahimə basır. Hikkəbaz Gülsənəm yer dəyişir.*

— Kişi, oğraş gəlir. Ehtiyatlı ol. Qəflətən səni yığışdırar, biabır olarıq.

— Sən ayağa qalx. Keç salonun o biri tərəfinə. Görək, mən bu vicdansız əclafdan necə qurtarıram.

*Arvad tez ayağa qalxır. Keçir salonun o biri tərəfinə.*

— Kişi, möhkəm ol ha. And olsun atamın goruna, cırıb dağıdaram səni.

— Dədəmin goru haqqı ölərəm, verməərəm.

— Baxarıq.

*Arvadın ürəyi dözmür. Ərinin yanına qayıdır. Sərxoş Hikkəbaz Gülsənəmin ərindən əvvəldə əyləşmiş Alyanaq kişini qucaqlayır. Onu şəhvani öpüşlərə qərq eləyir. Alyanaq sərxoşu bir neçə dəfə kənara itələyir. Sərxoş yenə qayıdıb onun boynunu qucaqlayır.*

**Alyanaq kişi:** Əşi, adamı neçə dəfə öpərlər? Heyvərə oğlu heyvərə. Heç elə bil adam-zad görməyib. Camaatın əvəzində təkcə məni öpməyəcəksən ki.

*Müvazinətini çətinliklə düzəldən sərxoş qollarını açıb Astabas Güləhmədin boynunu qulaclayır. Kişi xam dayça kimi tullanır. Əli ilə sərxoşun ağzını qapamağa çalışır. Hikkəbaz Gülsənəm sərxoşun saçından tutaraq geri çəkir. Onun ağzının üstünə güclü bir zərbə vurur. Sərxoş Hikkəbaz Gülsənəmin ayaqları altına düşür. Qadın dizini sərxoşun sinəsinin üstünə qoyur, başgözünü yumruqla əzişdirir. Salonda vəziyyət dəyişir. Sərxoşun dostları qorxurlar. Gülsənəm sərxoşun qıçından tutur və onu salonun arxa tərəfinə sürüyür. Sərxoşun şalvarının balağı üzü yuxarı sökülür. Alabəzək parçadan tikilmiş tumanı onu biabırçılıqdan qurtarır.*





**Hikkəbaz Gülsənəm** *(ərinə)***:** Harda ölmüsən, gəl kömək elə. Bu it oğlunu öldürəcəm.

*Ər-arvad sərxoşu avtobusdan yerə salmağa cəhd edirlər. Camaat sərxoşu onların əlindən alır.*

**Astabas Güləhməd:** Adamına rast gəlməyib. Axır ki, bu boyda avtobusda bir adam tapıldı.

*Arvad ərinə əsəbiləşir.*

**Hikkəbaz Gülsənəm:** Get otur yerində. Buna bax. Mən olmasaydım, az qala ar-namusumuz gedəcəkdi. Adımızı, sanımızı batıracaqdı... Keçin, keçin, ay bacılar, oturun öz yerinizdə. Görün ərləriniz kimlərdi *(üzünü sürücüyə tutur)*. Sən də ağzını ayırma, maşını sür, gedək. Özün də yolda heç kimə maşın saxlama.

*Maşın yola düşür.*

**Ucaboy kişi:** Əşi, xətrinə niyə dəyək, cavan oğlandı, bir öpüşdü də, istədi verdik, xi... xi... xi... İt aparan olsun. O da bu

millətin oğludu.

**Gödək kişi:** Atalar deyib: "İstiyənin bir üzü qara, verməyənin iki üzü".

*Pauza*

**Ağsaçlı kişi:** Əşi, işi böyütməyin. Cavan oğlandı da... Keçənə güzəşt deyərlər... Görünür, o da belə şeydən...

**Qara kişi:** Mən qəti verməzdim. O haranın qoduğudu ki? Fərli sir-sifəti olsaydı... Bəlkə də adamı yandırmazdı.

**Keçəl kişi:** Kim istəyər verər, istəməz verməz. O hər kəsin öz işidi. Burda nə qəbahət var?

**Yaşlı qadın:** Bacı, Allah sənə ömür versin. Kişilərin böyük-böyük danışmalarına baxma. Hamısı bir bezin qırağıdır. Allahından dön, bunlara giriş, ucdantutma hamısı o söz... Biz qadınları o dəyyusun əlindən yaxşı qurtardın. Yoxsa...

**Bəstəboy qadın:** Tarixdə qalası şeydi. Vallahı az qala ölmüşdüm. Bilmirəm, bu kişilər niyə belə əldəgöz olublar. Elə bil oba-qara görməyiblər, ağına-bozuna baxmırlar. Çatanı basmarlayırlar.

**Hikkəbaz Gülsənəm:** Bacılar, gedin kişilərinizlə məşğul olun. Onlara inanmayın. Gördünüz, bir balaca çətinliyə düşən kimi neylədilər?

*Kadr dəyişir. Avtobus kəndə çatır. Ər-arvad maşından düşürlər. Qadınlar Hikkəbaz Gülsənəmə pəncərədən əlləriylə təşəkkürlərini bildirirlər. Avtobus yola düşür və gözdən itir.*

*Kadr dəyişir. Hikkəbaz Gülsənəmin evi. Kənd arvadları onlardadırlar. Hərə bir tərəfdə əyləşir. Qadınların üz-gözündən həyəcanlı olduqları duyulur. Hikkəbaz Gülsənəm şıllaq Əsədin arvadı Naznazı Gülyanaqla yan otaqdan çıxıb mikrofonun yanında dayanır.*

**Hikkəbaz Gülsənəm:** Hamınızı salamlayıram. İstəyirəm





qalmaqal düşməsin deyə, Şıllaq Əsədin arvadı, hamımızın sevimlisi, əziz bacımız naznazı Gülyanaq yığıncaqda aparıcılıq eləsin.

**Yerbəyerdən:** Lap yaxşı. Biz də razı...

*Aparıcı mikrofona yaxınlaşır. Yığıncaq iştirakçılarına nəzər salır. Boğazını arıtlayır. Araya sükut çökür.*

**Naznazı Gülyanaq:** Hörmətli xanımlar! Mikrofonlar açıqdı. Xatırladım ki, bütün sual-cavablar lentə alınır. İstərdim etik normaları gözləyəsiz. Hamı sərbəstdi. Kimin sözü var, buyura bilər.

*Qadınlar yerbəyerdən əllərini qaldırırlar. Naznazı Gülyanaq qalxan əllərin çoxluğunu görərək gülümsəyir.*

**Naznazı Gülyanaq:** İlk söz qonşu uzundraz Əhlimanın xanımı Çənəgir Tamamnisəyə verilir.

*Tamamnisə ayağa qalxır. Əlləriylə koftasının, yubkasının ətəklərini dartışdırır.*

**Çənəgir Tamamnisə:** Gülsənəm xanım, bir gün bizdən uzaq düşmüsən. Bu müddətdə özünü necə hiss edirdin?

**Hikkəbaz Gülsənəm:** Nə gizlədim sizdən ötrü bərk xiffət çəkirdim. Daha doğrusu, hörmətli xanımlar, sizsizləmişdim...

*Pauza*

Bir günüm də sizsiz olmasın... Mən harda olsam, özümü sizinlə birlikdə sanıram...

**Naznazı Gülyanaq:** Xanımlar, indi də sözü Qaravəlli Səfiyarın zövcəsi Həvəçi Badamnisəyə verirəm. Buyurun, xanım.

**Həvəçi Badamnisə:** Güləhməd qardaşın çölçülüyü barədə

nə deyə bilərsən?

**Hikkəbaz Gülsənəm:** Düzdü, kişi bir az səbirsizdi. Hövsələdən tez çıxandı. Ancaq diqqətlidi, tədbirlidi. Hər şeyin yerini biləndi. Bir az çərənçiliyi də var... Ancaq tez dolub, tez də boşalandı. Yola getmək olar. Allah atasına rəhmət eləsin. Heç vaxt ondan narazılığım olmayıb. Bircə dəfə kişini itirmək təhlükəsi yarandı. Onun da qarşısını şükür Allaha ki, vaxtında ala bildim.

**Həvəçi Badamnisə:** Xahiş edirik, o təhlükəni mümkünsə, bir qədər açıqlayasız.

**Hikkəbaz Gülsənəm:** Təkrar eləyirəm. Belə təhlükəli vəziyyət tək bircə dəfə yarandı. Bizimlə yanaşı, qoz satan qəbələli arvad kişini az qala əlimdən alacaqdı. Mən dərhal işi başa düşdüm. Sayıqlığımı əldən vermədim. Kişimlə maraqlandığını görüb dərhal bazarda tozanaq qaldırdım. Saç yolduya, qurşaq tutduya, hətta nə gizlədim, yeşik taxtasıyla dözməyə qədər gedib çıxdım. Qozsatan gözlərinin qarasını tökdü. Özünü yığışdırdı. Sizi inandırıram, əgər o, yığışmasaydı ha, bazarda qan su yerinə axacaqdı.

**Həvəçi Badamnisə:** Booy. Abrın tökülsün qız doğan... Deməli, böyük təhlükə. Təxribat. Qorxdın kamukadze-zad olar?... Keçmə bu kişilərdən.

**Hikkəbaz Gülsənəm:** Allah mənim tərəfimdə oldu, mənə ərsizliyi qıymadı... Sizi bilmirəm, şəxsən mən ərsiz qalanmazdım.

**Naznazı Gülyanaq:** Qarınqulu Məmətinin arvadı Gödənbıl Gülbuta, indi də səni eşidirik.

**Gödənbıl Gülbuta:** Ərin astabaz Güləhməd o işə necə baxırdı, a bacı?

**Hikkəbaz Gülsənəm:** İnsafən, yazıq Güləhmədin o işdən xəbəri yoxıydı... İmkan vermədim. İnanın, geciksəydim, kişini yoldan çıxarardı o qoz satan. Kəndə atıla-atıla qayıtmalı olardım.





**Gödənbıl Gülbuta:** Bu, böyük biabırçılıq olardı.

**Hikkəbaz Gülsənəm:** Allahın bizə yazığı gəlsin. Mən gördüyümü görmüşəm. Bazarda arvadların işi Allaha qalıb. Azacıq gözünü yumdun ha, səndən kimliyini soruşan olmayacaq, gözün baxa-baxa ərini əlindən alacaqlar. İndi gəl dost-düşmən üzünə çıx görüm, necə çıxırsan? Deyəcəklər, ağrım sənin kimi arvadın ağzına, bir kişini də əlində saxlayanmadın. Uşaqlar da hır qammır, zır qammırlar, "ata" deyib düşəcəklər üstünə. İndi gəl onlara cavab ver görüm, necə verirsən?

**Naznazı Gülyanaq:** Dağar Gülmirzənin xanımı vasvası Hürzad, ürəyində saxlama, sən də de sözünü.

**Vasvası Hürzad:** Bazardakı qadınların geyim-keçimləri, vid-fasonları barədə nə deyə bilərsən?

**Hikkəbaz Gülsənəm:** Hə, xanımlar! Bu barədə danışmağa belə dilim gəlmir. Hamısını bir selbəyə vurub Allahın qəzəbinə keçənmərəm. Xuda başıma daş salar. Bir də mən babal yuyammaram. Gördüklərimi deyəcəm. Arvadların bəziləri nazik kalkotkanı yöndəmsiz bədənlərinə pərçimləyib elə burcuda-burcuda yeriyirlər ki, gəl görəsən. Kişilər o yana dursun, arvadlar da tamaha düşürlər.

**Yerbəyerdən:** Bıy, başımıza daş düşən canımız. Ağız, de abır-həya getdi də. Bunun dalı necə olacaq?

**Hikkəbaz Gülsənəm:** Doğrusu, mən dalı-qabağı barədə fikirləşməmişəm. Hələ bu harasıdı? Mən ətir-kirşan çəkməyin əleyhinə döörəm. Vaxtıyla nənələrimiz də çəkib, analarımız da. Elə indi biz də. Di gəl, bazardakılar lap ağ eləyiblər. Üzlərinə pudranı, dodaqlarına kraskanı o qədər çəkirlər ki, onlara baxanda gözlərimin qabağına leş dağıtmış canavar gəlir, bacılar! Eh...

*Pauza*

Dərdin böyüyü daldadı. Geyirlər nazik parçadan tikilən yupkanı, ya donu, hər iki tərəfin də qurşağacan cırırlar, ağappaq, şirmayı kimi sığallı qıçları çıxır yarıqdan... Kişilərdə nə günah.

Onda qalmış da kı bizim dünyadan xəbərsiz mal-qara dalınca qaçan kənd kişiləri ola...

*Arvadlar başlarını yelləyir, əllərini yana-yana dizlərinə çırpır, pıçıldaşırlar.*

**Naznazı Gülyanaq:** İndi də buyursun arabaçı Qulamrzanın həyat yoldaşı nəfisgir Qaraməryəm.

**Nəfisgir Qaraməryəm:** Alveriniz necə keçdi? Ələ maya sala bildinizmi? Eşitdiyimizə görə qızın da "hə"sini vermisiz.

**Hikkəbaz Gülsənəm** *(bir qədər özünü çəkərək)*: Hörmətli xanımlar! Bilirsiz ki, Göyçayın bazarı çox gurdu. Bazara nə çıxarsan, alınır. Nədənsə, bizim pomidorla xiyar batdı. Pomidorlar su verdi. Xiyarlar büzüşdü. Onları dövriyyəyə buraxanmadıq. Nə isə, özümüzü öldürənmərik ki. Bu da bir təcrübədi. Alan Allah verməyi də bacarır. Görünür, növbəti səfər üçün daha düşünülmüş addımlar atmaq lazım gələcək. Düzdü, kişi alverdən qəti imtina edib. Mən çalışacam ki, onu da yola gətirim. Qaldı qızın "hə"sinə. Düz eşitmisiz. Allah sizinkiləri də xoşbəxt eləsin, elə bizimkini də. Qarşıdakı əsas işimiz onun cehizidi.

**Naznazı Gülyanaq:** Topaş Mirzəlinin ömür-gün yoldaşı Quramaçı Sədaqət.

**Quramaçı Sədaqət:** Bu neçə gündə bazarda tanış-bilişdən kimlərlə rastlaşdız?

**Hikkəbaz Gülsənəm:** Göyçay-Ucar avtobus dayanacağında zurnaçı Xudayar əmioğlu, bir də hamımızın yaxşı tanıdığımız Nos Cabbarla.

**Quramaçı Sədaqət:** Onların fəaliyyəti barədə nə deyə bilərsən?

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Onlardan çətin ki, kişi ola. Boyunlarına alsalar da, almasalar da, onların hər biri ömrü boyu arvadlarının yanında xəcalətlidirlər. Hər ikisi, hörmətli xanımlar, ar-namuslarını satdılar. Mən heç vaxt belə təsəvvür eləməzdim. Təəssüf! Çox təəssüf! Onların kəndə, el arasına çıxmağa haqları yoxdu. Onlar mənim aləmimdə ölüblər. Kişi döörlər. Belə kişiləri intellekti olan arvadlar bir gün də saxlamazlar.





**Naznazı Gülyanaq:** Gecə qara, cücə qara Qarasəlimin arvadı Halvaçı Həliməyə söz verilir.

**Halvaçı Həlimə:** Bəs ərin Astabas Güləhməd barədə nə deyə bilərsən?

**Hikkəbaz Gülsənəm:** Düzdü, deyə bilərsiz kişi kişidi. Nə fərqi var? Sizi inandırıram ki, fərqi çoxdu. Görürsüz ki, Güləhməd dəymədüşər, cırtqoz, mərdimazar adam döör. Öl dedim ölür, qal dedim qalır. Bayaq adlarını çəkdiyimiz şəxslərsə şalvara sığmırlar. Ədəbazlıqları adamı cırıb-dağıdır. Əvvəlcə mən də elə bilirdim dallı-başlı kişidilər. Sən demə, elə... Bir göz qırpımında bunlar hansı yola desən, gedərlərmiş.

*Arvadlar arasında pıçhapıç başlanır.*

**Naznazı Gülyanaq:** Sakit, xanımlar, sakit!

**Halvaçı Həlimə:** Əşi, kişiyə nə dal-baş? O hansı yola düşər ki? Kişi də ar-namus satar?

**Hikkəbaz Gülsənəm:** Xanımlar, gərək kişiləri qoruyaq. Buraxsaq başlarını, işləri korlayacaqlar. Bir halda ki, soruşursuz, deyim. Biri bax, mənim ərim. Mən olmasaydım, o da zurnaçı Xudayar əmioğludan, nos Cabbardan pis günə düşəcəkdi. Arnamusumuzu satacaqdı. Ömrü boyu...

**Yerbəyerdən səslər:** Vallah, heç nə başa düşmürük. Fikrini açıqla. Qeyrətin, namusun bura nə dəxli var?

**Hikkəbaz Gülsənəm:** Var, xanımlar, var. İnanmıram, Zurnaçı Xudayardan, Nos Cabbardan kişi ola. Onları korladılar.

**Yerbəyerdən səslər:** Öldürdülər?

*Pauza*

**Hikkəbaz Gülsənəm:** Yox, ölümə nə var ki? Ölmək canını götürüb bu dünyadan rahat getməkdi. Ancaq onlar...

*Zurnaçı Xudayar əmioğlunun zövcəsi Erkək Sitəm gəlir.*

**Erkək Sitəm:** Ay Gülsənəm, ay Gülsənəm, Xudayar şəhərdən gəlib xəstələnib, qarnını sancı doğrayır. Bəlkə sizdə ağrıkəsici dərman ola.

**Hikkəbaz Gülsənəm:** Eşitdiz? Dedim, onlardan çətin ki, kişi ola. Ölsələr, yaxşıdı. Nə dərman, nə dəva. Ölsə, a Sitəm, üz ağlığın olar...

**Halvaçı Həlimə:** Qızın toyuna hazırlıq gedirmi?

**Hikkəbaz Gülsənəm:** Əlbəttə, gedəcək. Bir özümüzə gələk. Növbəti toplantıda ona da aydınlıq gətirərik. Onu da deyim ki, mənim kişim "Qarğa məndə qoz var" eləyənlərdən, "Çay gəlməmiş şalvar çırmayanlardan" döör. Elənçiklərdən zəhləsi gedir.

**Naznazı Gülyanaq:** Xanımlar, bu günə məncə, bəs elər. Gülsənəm bacı da yorğundu. Təzə xəbər alan kimi sizi bura toplayarıq.

*Arvadlar qalxırlar. Hırıldaşa-hırıldaşa, pıçıldaşa-pıçıldaşa evi tərk eləyirlər. İşıq sönür.*

***2012***





# Kələkbazlar

***(on yeddi bölümlü telekomediya)***

**İştirak edirlər**

**Xasay** — "general" — 45 yaşında
**Gülçöhrə** — onun arvadı
**Katibə** — 20 yaşında
**Gülnaz** — Nazirliyin işçisi
**Şaman** — Nazirliyin işçisi
**Xadimə** — Orta yaşlı qadın
**Diktor**
**Müxalifət** — 30-35 yaşlarında kişi
**İqtidar** — 30-35 yaşlarında kişi
**Kişi** — 50 yaşında
**Dayı** — Xasayın dayısı
**Uzun polis**
**Gödək polis**
**Xavər** — yaşlı qadın
**Mollabaşı** — yaşlı kişi
**Balakişi** —
**Ağakişi** —
**Qarakişi** —
**Şef** — 40 yaşında kişi
**Sücəddin** — ortayaşlı kişi
**Mövsüm** — 45 yaşında kişi
**Pirvəli**

**Narınc** — yaşlı qadın
**Əsmayə** — yaşlı qadın
**Nihad** — qoca kişi
**Nərgiz** — Xasayın xalası
**Mehri** — Xasayın məşuqəsi
**Sirac** — qonşu
**Müstəntiq** — 45-46 yaşlarında kişi
**Cəmilə** — Mehrinin bacısı
**Sürmə** — qonşu
**Aparıcı** — televiziya işçisi
**Sevda Kələntərli** — müəllimə
**Fazil Xəlilov** — Bənna
**Qəzənfər Fərəcov** — iş adamı
**Seyfulla Seyfullayev** — yaşlı yazıçı
**Mehmandar Mehmandarov** — yaşlı alim
**Yaramazov** —





# I bölüm

*Dəbdəbəli ev. Zövqlə bəzədilmiş yataq otağı. Kamera otağı panorama edir. Ekranda yataq çarpayısı. Çarpayının baş tərəfində divara vurulmuş Xasay Əlləşoviç Mıxıyevin şəkli görünür. O, çarpayıda yatıb. Fısıltısı otağı bürüyüb... Arvadı Gülçöhrə gəlir. Xasay çarpayıda çevrilir. Gülçöhrə ərinə baxıb qımışır.*

**Gülçöhrənin daxili səsi:** Yat, Xasay, yat. Yuxu üçün doğulmusan. Dovşandan çox yatan yoxdu... Görək axırımız necə olacaq? Qalxanda yuxularını danışarsan.

*Gülçöhrə otaqdan çıxır. Xasay Əlləşoviç yenə yataqda çevrilir.*

*Kadr dəyişir.*

*Nazirliyin təchizat şöbəsi. Müdir Xasay Əlləşoviç Mıxıyev kabinetə daxil olur. Kresloya yaxınlaşır və arxasını kresloya çevirib özünü buraxır. Üz-gözündən narazılıq tökülür.*

**Xasay** *(öz-özüylə):* Eh... İçim qırılıb töküldü. Adam kimi oturmağa can çəkirəm. Xəsarət alsaydım dincələrdim.

*Səsə katibə kabinetə daxil olur.*

**Katibə:** Üz-gözündən zəhrimar yağır, Xasaycan, yenə nə olub?

**Xasay** *(ağzını əyişdirir, əlini belinə qoyur)***:** Nə olacaq? Adam kimi otursaydım, qiyamət qopardı?

**Katibə** *(qəhqəhə çəkərək)***:** Öyrəncəlisən deyingənliyə.

**Xasay:** Eh... İçim tökülsəydi, əcəb günə qalacaqdım... Aç

televizoru, görək orda nə var?

*Xadimə əlində süpürgə kabinetə daxil olur. Xasayla katibə ona diqqətlə baxırlar. Xadimə qımışır.*

**Xadimə** *(Xasaya)***:** Xasay Əlləşoviç, əla darçın, quluncan, mixək var. İşinə yarasa, hərəsindən bir çimdik təşkil eləyə bilərəm sənə.

**Xasay:** Aa... Onlar mənim nəyimə gərəkdi, xanım?

**Xadimə:** Mixəkli çay adama ləzzət verir. Sağ ol Xasay Əlləşoviç, sən kişi adamsan. Bu xarabada səndən savayı, mənə xanım deyən olmamışdı *(Üzünü katibəyə tutaraq)*. Adamın nəslizatı olar... Kişi əsilli-nəsilli adamdı. Ondan muğayat ol.

**Katibə:** Bas bayıra... Mənə göstəriş verənə bax... Bircə bu qalmışdı.

**Xadimə** *(katibəyə)***:** Dəymədüşər olma. Bu nazirlikdə hamının hüququ birdi. Gözətçinin də, nazirin də.

**Katibə:** Çıx... çıx... Çağıranda gələrsən. Xasaycana qiymət verənə bax... Yenə nazir dəyərləndirsəydi, dərd yarıydı *(Xidmətçini qolundan tutub qapıdan çıxarır)*. İtin qudursun a belə dünya, hələ görəcəyimiz daldaymış *(Xasaya)*. Siz də özünüzü boş qoymayın. Bərk saxlayın.

*Pauza*

**Xasay:** Özünü hər çırtı-pırtı şeydən ötrü üzmə. Dünya belə gəlib, belə də gedəcək, qadası... Dedim axı aç televizoru.

**Katibə:** Yadımdan çıxmışdı.

*Katibə televizorun düyməsini basır. Ekran yavaş-yavaş ağarır. Yaşlı həkim məsləhət verir.*

**Aparıcı:** Hörmətli tamaşaçılar! Sağlamlıq böyük xoşbəxtlikdi. Sağlamlığınızın qayğısına qalmağı unutmayın. Özünüzə diq-





qətli olun. Vərəm, taun, sarılıq, qrip keçici xəstəliklər qrupuna daxildir. Ürək, qan-damar, şəkər, xərçəng xəstəlikləri keçici deyildir. Ehtiyatlı olun, sayılmayan şey başa bəla gətirir... Ürək adamı birdən aparır. Vəsiyyətini danışmağa nəinki yaxınlarına, heç arvad-uşağına da imkan vermir. Bir də görürsən şırt apardı. Mən ölüm, sən ölə də baxır. Geriyə də yol qoymur. Bütün körpüləri dağıdır.

**Katibə:** Bəs xərçəng?

**Xasay:** Xərçəngdən danışma. O çox ağrılıdır. O, adamı xeyli müddət yorğan-döşəyə salır. İnsafən, ürəkdən fərqlidi. O, vəsiyyətə imkan verəndi. Şəkərsə zəhlətökəndi. Adamı çərlədəndir. Ona mübtəla olan nə ürəkdən sevinə, nə də gülə bilir. Adamın ürəyində, ciyərində, gözlərində, ayaqlarında ağlagəlməz fəsadlar yaratsa da, yaddaşını zibilə döndərsə də, onu arsız-arsız həyat tərzi sananlar da tapılır... Adamı deyingən eləyir, onda nüfuz-müfuz qoymur qala.

*Pauza*

**Xasay:** Hə... Dincəldik... Bu da həkim? Ayə, da hansı əzamız qaldı ki toxunmadığı? Bu şərhdən nə təmərzük umaq. Bizim zonada ağıllı kişilər buna deyərlər ki, nə qədər gec döör, get ayağını uzat öl. Canın şəkərdən də qurtarsın, hələ onun fəsadlarından da.

**Katibə:** Niyə ki Xasaycan? Demədi ki, şəkər həyat tərzidi. Pəhriz tələb eləyir, hə. Həkim tay nə deməliydi ki?

**Xasay:** Ürək, qan-damar. Mənim həkimimə bax ey... Əşi, qan-damarı ürəkdən niyə ayırırsan? Ürək çezsə, qan-damar neyləyəcək? Yaxud əksinə.

**Katibə:** Heç nə.

**Xasay:** Xərçəng zəhrimardı. Yaxşısı budu, ondan danışma, danışılan yerdən dalına baxmadan qaç.

**Katibə:** Ondan üyüdürsüz hə, Xasaycan?

**Xasay** *(dərindən köks ötürərək)***:** Ələyim ələnib, xəlbirim

göydə fırlanır... Həkim mənə bu yaşda ağılmı verəcək? Onuycan qanmıram?

**Katibə:** Nə xəlbir? Nə dəyirman? Canın hələ suludu.

**Xasay** *(sevincək):* Kişi qızısan. Qanansan.

*Qapı sakitcə aralanır. Xadimə barmaqlarının ucunda kabinetə daxil olur və Xasaya yaxınlaşır.*

**Xadimə:** Yaxşı balıq var. Tanışlarım gətiriblər. Təzədi. Gözə, şəkərə xeyirlidi. Nə qədər çox yesən, başın da yaxşı işləyər.

**Xasay:** Lazım döör, rədd elə getsin. Balıq özü bizə tərəf gəlir. Balıq nədi ki, onun dalınca da mən sürünəm.

**Katibə:** Aaz yenə gəldin? Niyə yığışmırsan? Burdan başqa şöbə, Xasaycandan savayı müdir yoxdu?

**Xadimə:** Var.... Niyə yoxdu... Hamısı sağdı, Allah canların da sağ eləsin. Sən imkan verirsən ki, Əlləşoviçin də işin mən düzəldim?.. *(Xasaya)* Kişi, şəkərin-zadın yoxdu ki?

**Xasay:** Xeyr... Onu da satırlar?

**Xadimə:** Yox... Şəkərin yoxsa, üz-gözün niyə elədi?

**Xasay:** Nə olub ki?!

**Xadimə:** Nə olacaq? Gözlərin qıyılır. Üz-gözündən yorğunluq yağır. Dodaqların quruyur. Ağzının qıraqlarında da ağ köpük duyulur. Elə bil şor yemisən, ağzını da silməmisən.

**Katibə:** Aa... Kişini dəli eləmə. Qoy işimizi görək. Sən öləsən, bir də qapını açıb içəri girsən, bu səhər bazardan yalvar-yaxarla aldığım zopanı... hi... hi... hi...

**Xadimə:** Da gör nə var?.. Hi... hi... hi... Onda polis özü səni...

**Xasay** *(əsəbləşir)***:** Axmaqlamayın... Dinmirəm, danışmıram, yolunuzu azırsız. Mən olan yerdə polis kimdi... Bəyəm mən onlardan qabiliyyətsiz kişiyəm?

**Katibə:** Yox... Allah eləməsin, Xasaycan. Nə polis, nə zopa,





özüm bu ifritəni qorxutmaq üçün vid göstərirəm.

**Xasay:** Hə?.. *(Üzünü xadiməyə tutaraq)* Sən də şəkərdən az danış. Ayıbdı. Elə bilərlər şəkərlə oturub-duran adamam.

*Pauza*

**Xadimə:** Xasaycan, siz kişisiz. Kişilərin qəhətə çıxdığı bu zəmanədə ümidim sənədi.

**Xasay:** Hə... Sağ ol, xanım. Mən də elə düşünnəm.

**Katibə** *(əsəbləşir)***:** Ağız, nə həyasız, sıntarmış adamsan... İmkan ver işimizi görək də *(Xasaya üzünü tutaraq)*. Beləlşriylə haracan gedə bilərsiz? Nazir eşitsə ki, bəzi adamları qoyub xadiməylə məşğulsuz, sizə tüpürər. Məşğul olmağa bəyəm adam azlığıdı? *(xadiməyə)* Rədd ol, gözümə görünmə. Sənə yaxınlaşanda dozanqurdu iyi verirsən.

*Pauza*

**Xadimə:** Əşi, sən lap ağ elədin. Xasay Əlləşoviçdən gələn iyi mənə niyə yaxırsan?

*Xasay üz-gözünü turşudur. Yaxasını iyləyir.*

**Xasay** *(katibəyə)***:** Necədi, məndən dozanqurdu iyi gəlir?

**Katibə:** Əşi, yalan deyir... Dili qurumuş böhtan atır. İy məsələsini əməkdaşlar eşitsə, sizə yaxın gələn olmayacaq. Əvvəllər biri vardı, ondan barıt qarışıq tər iyi gəlirdi, burnunu tut qaçıydı, adamlar dözmədilər, hay-küy qoparıb, onun mitilini atdılar bayıra.

*Pauza*

**Xadimə:** Atarlar da. İndi hansı zəmanədi çimməyəsən, yaxşı-yaxşı sabunlanmayasan, ətir-kirşan çəkməyəsən. Aston iyi verəsən...

**Xasay** *(xadiməyə)***:** Yaxşı... Yaxşı... Saxla!.. Sən get, görək biz başımıza nə çarə qılırıq.

*Xadimə kabinetdən çıxır.*

**Katibə:** Xasaycan, bu nə gündü siz düşdüz. Əldən düşmüş yüz illik xadimə görün sizə nə deyir: dozanqurdu iyi gəlir... Bir az da güzəştə getsəydin deyəcəkdi: "İt-pişik iyi verirsən".

**Xasay:** Sən də ağ eləmə.

**Katibə:** Ağ eləyənin atasına lənət. Eşidib-bilənin hırıltısını kəsmək olmaz eyyy... Bilirsiz onu, Xasaycan?

*Qapı açılır. Ağakişi çəkinə-çəkinə otağa soxulur. Salam verir. Xasay ona əyləşmək üçün yer göstərir. Ağakişinin xışıltılı səsi titrəyir, dil-dodağı əsir.*

**Ağakişi:** Ölmüşəm, məni yerdən götür. İlişmişəm.

**Katibə:** Özünü adam kimi apar, ilişmə. Xasaycan neyləsin? Üzünün suyun kimə töksün? Siz də qəribə adamsız.

*Ağakişi katibəyə tərəf çevrilir. Acıqlı-acıqlı ona baxır. Yenidən Xasaya tərəf dönür.*

**Ağakişi:** Məni balalarının başına dolandır. Əvəzin çıxaram.

**Xasay:** Ayə, çox fərəzən gündəyəm? Sən hardan çıxdın?

**Ağakişi:** Liftlə, Xasaycan, necə bəyəm?

*Pauza*

**Xasay:** Qapını duman-çən alıb. Canavarlar üstümüzə axışır. Hərə də bir söz danışır.

*Ağakişi çaşır. Özünü itirir.*

**Ağakişi:** Ayə, nə duman, nə çən? Bu boyda kabinetdə nə canavar, nə filan? Onlar hara axışır? Dədəm vay, hər günün öz xəbəri, öz vay-şivəni var. Zırha-zırdan başımızı götürüb hara qaçaq.





**Xasay:** Ağakişi, sən bilməyən işlər var. İmkan ver, aşımızı bişirək. Başımız açılsın. Görək nə olur. Məni burdan itirməsələr yaxşıdı, Ağakişi.

**Katibə:** Allah, ürəyim çatlayır. İşimizin axırı fıs çıxmasa yaxşıdı.

**Ağakişi:** Vallah, siz deyənlərdən heç nə qanmadım.

**Katibə:** İndiki zəmanədə ən yaxşı xoşbəxtlik qanmazlıqdı. Dəli kimi, hara gəldi üzünü tut, get, sənə işi düşən də, söz deyən də olmasın.

**Xasay** *(səsini bir az da qaldırır)***:** Vay!... Vay!.. Allah, amandı. Ayə, gəlmisən sözü de də. Ürəyimi çatlatma, yanımdakı xanımdan ayıb elə *(üzünü katibəyə tutaraq)*. Oturduğumuz yerdə başımıza nə gəldi, əə? Ayə, canımı hara qoyum, sənin əlindən, Ağakişi?

**Ağakişi:** Axı nə olub? Hansı namərd ayağını tapdaladı. Böyrünə barmaq elədi.

**Xasay:** Barmaq eləyənin... Qorxma, çəkinmə... Vallah-billah, qardaş canı, sənin yolunda ölümə də gedərəm. Gəlişinin səbəbini, aç, de.

**Katibə:** Hamı elə deyir, lazım olanda sözünün üstə duran kişi tapılmır. Deyirəm, Xasaycan, biz xanımlar bəzi kişilərdən qeyrətliyik. Sözü bütövük. Dediyimiz yerdən kəsənik. İş düzəldənik.

**Xasay:** Hamısından yox... Arada-bərədə — Bəzilərindən — də de.

*Pauza*

**Ağakişi:** Ayə, katibənin əvvəla sözüylə az otur-dur, sonra da çığır-bağırla, emosiyayla işin başına çatı salmaq olmaz. İş ağılla görülər. Sənin oturduğun kabinetdi, görüb-danışdığın katibə. Hələ yaşayırsan, Xasay canın üçün böyük şeydi.

*Qapı açılır. Xadimə su qabı ilə içəri girir. Dibçəkdəki çiçəkləri sulayır. Katibə onu görcək əsəbləşərək saçını yolur.*

**Katibə:** Az, vurduğun odun-alovu sönməmiş, yenə gəldün?

**Xadimə:** Mən öz işimi görürəm, xanım *(Xasaya)*. Özünüzü necə hiss eləyirsiz, Əlləşoviç?

**Xasay** *(gah Ağakişiyə, gah katibəyə, gah da xadiməyə baxaraq)***:** Dəf kimi. Adam təki.

*Pauza*

**Xadimə:** Lap yaxşı. Sizi incidən olsa burdayam, qapının arxasında. Bircə fit çal, ya vızıv at, içəridə olacam: hi... hi... hi... Mənim də quşum sənə qonub, Əlləşoviç.

**Katibə:** Gözümüz aydın. İşimiz düzəldi. Ağakişidi-nədi o bir yandan, səndə bir yandan. Nə olardı, Xasaycanın yanan yerinə su səpəydiz, onun da canı dincələydi...

*Katibə Xadiməni qapıdan itələyə-itələyə çıxarır. Xasay başını tutub durur. Handan-hana Ağakişiyə tərəf baxır. Ağakişi özünü yığışdırır.*

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasayın çarpayısını yaxınlaşdırır. Xasay yerində arxası üstə, uzanıqlıdır. Xorultusu eşidilir. Yanı üstə çevrilir. Çarpayı yavaş-yavaş uzaqlaşır. Hadisə davam edir.*

**Xasay** *(təmkinlə)***:** Nə olub? Tez elə, çəkinmə, sözünü de... Gedəsiyəm, nazir məni gözləyir.

*Pauza*

**Ağakişi:** Vergidən gəliblər. Bufetdə axtarış aparıb beş-altı samaqon araq tutub aktlaşdırıblar. Bilirsən də, onlara ilişmə, ilişdinsə, axırına çıxacaqlar. Kafe cəhənnəmə, evimi satdırmasalar, əl çəkməyəcəklər. Bəlkə onların böyüklərinə telefon açıb, məni tapşırasan?





**Xasay:** Çalış, özün dil tap. Mən danışsam, işlər korlanar. Onda sən öl, bir əvəzinə beş... Onları yaxşı tanıyıram. Tutduqları yerdən kəsillər... Dur get. Xətanı məndən uzaq elə.

*Ağakişi kor-peşman gedir. Xasay başını yelləyir.*

**Ağakişi:** Get deyirsən, gedirəm. Ancaq adam kişi olar.

**Katibə** *(Xasaya):* Kişiliyinə şübhə eləyir?

**Xasay:** Sözdü deyir də. Sözə inanan kimdi ki?

**Katibə:** Qəribə adamdılar. Özləri o ki var, qazanırlar, bir çimdik nəzarətçilərə verməyə canları çıxır. Utanmaz-utanmaz, atıla-atıla gəlişinə bax.

**Xasay:** Boş şeydi. Fikir vermə. Hələ gələn çox olacaq. Bu da gəlib ki, məni hərifləsin... Sözümüz harda qaldı?

**Katibə:** Qanmaz məsələsində. Əşi, böyüklər də sözdən öyrəniblər söz çıxarmağı. Demədim ki, qanmırsız. Allah eləməsin, Xasaycan. Qanırsız *(Səsinə ara verir)*. Ancaq yarı-yarımçıq.

**Xasay:** Sən Xasaycan deyəndə mən bir təhər oluram ey.

**Katibə** *(nazlanır)***:** Mən beləyəm də...

**Xasay:** Yaxşısan... Təki özünə lazım olmayan şeyə baş aparmayasan. Sözümü tez-tez kəsməyin də olmaya. Bir də hərdən bir küsməyin də işimizi korlayır.

**Katibə:** Elə söz de, inciyib-küsməyim.

**Xasay:** Yanıma bir adam gələndə dil-boğaza qoymursan. Qır-qır qırıldayırsan... Kaş qırıldaman, vəkkildəmən olmaya.

**Katibə:** Xasaycan, elə danışırsan ki, adamın başına yüz fikir gəlir.

**Xasay:** Sən şəkərsən?..

**Katibə:** Boy, o nə deməkdi? Şəkər düşmənim olsun.

**Xasay:** Qarğıma... Düşmən də insandı... Bir də ki qarğıyan kimi adamın ağzından çıxıb qoynuna tökülür. Özün humanist ol ki, yuxarıdakı *(əlinin baş barmağıyla yuxarıya işarə eləyir)* da

sənə humanist olsun.

*Gülnaz gəlir. Salam verir, əyləşir. Stolun üstündəki jurnalı vərəqləyir.*

**Katibə** *(Gülnaza)***:** Sən xəstəsən?

**Gülnaz:** Aaa... O sənin ağlına hardan gəldi?

**Katibə:** Dəqiq?

**Gülnaz:** Dəqiq!..

*Pauza*

**Xasay:** İndiki zəmanədə həkimlər xatadı. Onlarla təsadüfən qarşılaşdınsa, çox yox, üç aya işini bitirəcəklər.

**Katibə:** Xasaycan düz deyir, həkimlərdən keçmə. Əllərinə kirəvə keçdimi, ağına-bozuna baxmadan öyrəniblər adamı qalperin bıçağının altına soxmağa. Sənə elə diaqnoz qoyurlar, sağalacağına da ümidin qalmır. Məcbur olursan, evini satıb yalvar-yaxarla onlara verməyə. Nə var, nə var, ölürəm, canımı bu bəladan qurtar.

**Gülnaz:** Həkimlərdən danışma. Bizim qonşunun yanından çiban çıxıb, tutub yazığın böyrəyinin birini çıxarıblar. Beş min də pul alıblar, evə gələn kimi xəstə canın tapşırıb. Soruşanda yoxdu ki, a bala, yanda çıxan çibanla böyrək arasında nə əlaqə var? Böyrəyi niyə çıxarmısız?

**Xasay:** Görünür başqa xəstəliyi də varmış.

**Katibə:** Nə həkimə etibar var, nə də yamaqçıya. Axşam yalvarmışam, yaxarmışam ki, çəkməmin altı su verir, deşiyini tut, onun da gözünə dönüm, onu tutub böyüründən birini də açıb.

**Gülnaz:** Aa, demədin bu nədi?

**Katibə:** Dedim.

**Xasay:** Nə cavab verdi?

**Katibə:** Dedi havası çıxsa, yaxşıdı.

**Gülnaz:** Əcəb sözdü.





**Xasay** *(təəccüblə)***:** Əşi, sən də dəli eləmə bizi. Hərə öz işin görür də.

**Gülnaz:** Düzdü. Həkim öz işin görməsə, Hippokrat andı ona qənim olar.

**Katibə:** Çox... O qədər ağla gəlməyən şey var ki, Xasaycan, məcbur eləmə sadalayım.

**Xasay:** Qarışqanı əcəb fil eləyənsən.

*Xadimə özünü yırğalaya-yırğalaya, hayray-həşirlə kabinetə daxil olur. Hamı təəccüblə ona baxır.*

**Xadimə:** Oturmusuz burda, dünyadan xəbəriniz yoxdu. Baş məsləhətçinin qarnı ağrıyırmış. Təcili tibbi yardım maşını çağırıblar. O da gəlib görüb iş işdən keçib. Deyib aparmağın xeyiri yoxdu, mənzil başına çatmayacaq. Yaxşısı budu, uzadağın stolun üstünə, siz əl-ayağını bərk-bərk tutun, mən onun qarnını açım, kor bağırsağını kəsim.

**Xasay** *(təəccüblə)***:** Bu nə danışır, əə? Belə də həkimlik, belə də əməliyyat olar?

**Gülnaz:** Əməliyyat elədilər?

**Xadimə:** Ata-anası müəllimlərmiş. Telefon açıblar. Valideynləri gəliblər. Razılaşmayıblar.

**Katibə:** Niyə?

**Xadimə:** Həkim beş min manat istəyib, onlar da deyiblər minə gücümüz çatar. Mübahisə yaranıb, sonra şiddətlənib, axırı vur-vuruma qədər gedib çıxıblar. Xəstə qalıb ortada...

**Xasay:** Hə... Bu, hər iki tərəfin nadanlığıdı. Gərək ikiylə-üçlə dil tapaydılar.

**Xadimə:** Tapmayıblar.

**Gülnaz:** Xəstənin vəziyyəti necə olub?

**Xadimə:** Necə olacaq? Yazıq ağrıdan-acıdan ilan kimi qıvrılırmış.

**Katibə:** Öldü?..

**Xadimə:** Yoox!.. Əlacı kəsilib, katibə kişi qızı kimi qalxıb ayağa. Qollarını çırmalayıb məndən ucuzca aldığı darçını, quluncanı, mixəyi qarışdırıb bir-birinə, sonra da bir çaynik çay dəmləyib. Töküb stəkana öz əliylə içirib xəstəyə. Dönüm xəstənin gözünə, içən kimi "şup" eləyib qalxıb durub ayağa. Heç elə bil ağrıdan bağıran, özünü yırtıb-dağıdan xəstə o döörmüş.

**Gülnaz:** Xəstə indi neyləyir?

*Pauza*

**Xadimə:** Sappasaq ayaq üstədi. Canınız üçün fransız atlarından bir cüt lazımdı alıb çapa. Biri yorulanda, qan-tərə batanda o birisini minib sürə. O da qan-tərə batıb... Əldən düşəndə...

**Xasay:** Katibə elə olar ey.

**Katibə:** Bə mən necəyəm?

**Xasay:** Sən də yaxşısan, Allah var başımın üstündə, sənə pissən deyənmərəm.

**Xadimə:** Darçın, quluncan, mixək var, Əlləşoviç, bəlkə siz də alıb ehtiyat yaman günün yaraşığıdı, şöbədə saxlayasız... Şər deməsən, xeyir gəlməz...

*Katibə Xadiməni anlayır. Qolundan tutaraq onu kabinetdən çıxarır.*

## II bölüm

**Katibə** *(üzünü Xasaya tutaraq)*: Bu ifritənin məqsədi öz malını işə keçirməkdi. Ona inanmayın. Qaldı həkimlərə. Yalançıdan doğru xəbər. Bizim həkimlərdən nə desəniz çıxar.

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı geniş planda panorama edir. Xasayın yatdığı çarpayını yaxınlaşdırır.*





*Xasay o tərəf-bu tərəfə çevrilir. Ayağını yorğandan çıxarır. Çarpayı yavaş-yavaş uzaqlaşır.*

*Söhbət davam edir.*

**Katibə:** Xasaycan, sizi qorxutmaq istəmirəm. Görünür, bizim həkimlərin əlinə düşməmisiz. Başlarını bulaya-bulaya deyəcəklər: qalxanvarı bağırsağın qırılıb; təzyiqdən mədən deşilib; qanaxman var; qara ciyərin partlayıb; öd kisən qara ciyərdən ayrılıb; qarında gedən proseslər bir azdan başqa fəsadlar törədəcək... Nə bilim, nələr, nələr...

**Xasay:** Ürəyimi qırdın ki. Sən kitibəsən, yoxsa falçı?

*Pauza*

**Gülnaz:** Xəstəlik adı  eşidəndə az qalır zəhrim çatlaya.

*Pauza*

**Katibə:** Çatmamış diaqnoz qoyurlar. Prostatın o söz. Babasilin bu söz... Hər diaqnozun də öz məzənnəsi. Zəhmət haqqı xərclərinin üstünə iynə-dərman xərcinidə gəlsən, çıxacaq kəlləçarxa.

**Xasay** *(təntimiş halda)*: Qurtardın?

**Katibə:** Yox... Hələ harasıdı? Vay o günə ki, evdə beş manata gümanın olmaya, arvad-uşaq da "al gətir" deyə. Əl tutacaq vicdanlı qohum-əqraba da çıxa qəhətə.

**Xasay:** Sən katibə döörsən, ayrı nüsxəsən. Səni mənə urcah eləyənin lap...

**Gülnaz:** Siz Allah elə deməyin. Siz katibə görməmisiz. Eləsi var müdirini soyub-talayır, quru yurda qoyur... Bir sözlə, ölüsündən də əl çəkmir.

**Katibə:** Xasaycan, kişi dəymədüşər olmaz. Mən ehtimallar irəli sürrəm. Gərək, hər şeyə ehtiyatla yanaşasız. Qəzavi-qədərin işini bilmək olmaz.

**Xasay** *(dizinə vuraraq)*: Əcəb işə düşdüm.

**Katibə:** Bəli! Bəli, Xasaycan. Zeynəb qarı demişkən, xəta

üz verəndə quymaq diş sındırar... Yaxşı ki, bizdə müxalifət yoxdu.

**Gülnaz:** Xasay Əlləşoviç, guya siz oğurluq, dələduzluq üstə üç il türmədə yatmısız, o düzdü?

**Xasay** *(əsəbləşir)***:** Hansı namərd dedi, aaz, onu.

**Gülnaz:** Xanımlar.

**Katibə:** Xanımların işi yox, gücü yox, axşamacan oturурlar şöbələrdə, çatana çatır çatmayana şəbədə qoşurlar... Bir də ki adama çox söz deyərlər. Kimdi onlar deyənə inanan?

**Gülnaz:** Mən də əvvəl-əvvəl inanmırdım. Elə yerli-yataqlı dedilər ki, ayaqlarım yerdən üzüldü.

**Xasay:** Türmədə az adam yatmır. Orda elə kişilər var, gəl görəsən: dövlət xadimləri; generallar; sərkərdələr...

**Katibə:** Doğurdan yatmısan, Xasaycan?

**Gülnaz:** Mən oğrulardan, dələduzlardan qorxuram.

*Pauza*

**Xasay:** O qədər qorxulası şeylər var, türmə onların yanında toya getməlidi. Soruşursan, ay Gülnaz, deyim: Bəli! Etiraf eləyim ki, mən türmədə yatmışam. Özü də üç il sərasər. Ancaq yalan danışmayaq, oğurluq üstə, dələduzluq üstə yox... Tamam alahı şey üstə. Onun üçün də fəxr eləyirəm.

**Katibə:** Türmədə yatmaqla fəxr eləyərlər?

**Gülnaz:** Doğurdan ha... O alah şey nədi ki, ondan da fəxr eləyəsiz?

**Xasay:** Qız üstə.

**Katibə:** Aa... Necə yəni qız üstə.

**Gülnaz:** Qəribədi.

**Xasay:** Bir qız vardı cavanlıqda. Mən onu sevirdim. Biz bulvarda gəzəndə bir oğlan qıza girişdi. Çox çalışdım ki, onu başa salım. Dəyyus qızdan əl çəksin. Başa düşmədi. Onu itələdim. Gedə söyüş söyüb, bıçaq çıxartdı. Mən də uzun müddət karate üzrə idman klubuna gedib-gəlmiş adam. Bunu görcək fənd işlətdim, özü də nə fənd. Bir də gördüm ki, oğlan yıxılıb asfaltda, bıçaq da fır-fır fırlanır özü üçün göydə. Bıçağı göydəcə tutub oğlanın qulağının birini kəsdim. Canınıza and olsun, o birisini də dibindən sıyıracaqdım, qız qoymadı.





**Gülnaz:** Ooo... Bu ki vəhşilikdi, siz eləmisiz.

**Xasay:** Bəs günahsız qıza sataşmaq vəhşilik döör, nədi? O qızın yerinə siz olsaydız, neylərdiz? Deyirsiz orda da mədəniyyət göstərəydim? Hə nə düşünürsüz: vəhşiyəm?

**Katibə:** Düz eləmisən. Qanmayanı qandırarlar, yolunu azanın yerini göstərərlər.

**Gülnaz:** Onda bu oğurluq, dələduzluq maddələrini sizə niyə yapıblar?

*Pauza*

**Xasay:** Mən istəmədim qızın adına ləkə gəlsin. Oğlana dedim ki, qızın adın tutsan, o da məhkəməyə gedib-çıxacaq. Nə deyirsən de, təkcə qızın adını tutma. O da kişilik elədi. Dedi ki, Xasay Əlləşoviç Mıxıyev cibimə basqın elədi. Mənim qulağımı kəsdi. Cibimdə bir az da pul vardı, onları götürdü. Gözünə döndüyüm müstəntiq də mənə yapdı oğurluq və dələduz maddələrini... Bir sözlə, xuliqanstvayla nə az-nə çox, üç il sərasər yatdım.

**Katibə:** Xasaycan kişidi... Kişi... O heç vaxt oğurluq, dələduzluq eləməz.

**Gülnaz:** Deməli, cinayət törətmisiz?

**Xasay:** Törətmişəm... Boynuma da alıram. Ancaq məhəbbətim, sevgim naminə.

**Gülnaz:** İndi o qız hardadı? Salamatdımı?

**Xasay:** Durur... Ərindən ayrılıb. Tək yaşayır.

**Katibə** *(qısqanclıqla)***:** Onunla görüşürsən, Xasaycan.

**Xasay:** Əşi, yox... Mən elə hərəkət eləmərəm. Ancaq ona yazığım gəlir... Çox dərinə getdik... Dəyişin söhbəti...

*Xadimə kabinetə girir. Hamının halı təlx olur.*

**Katibə** *(xadiməyə)*: Xeyir ola?
**Xadimə:** Nə vaxt şər iş görmüşəm ki. Məni görməyə gözünüz yoxdu. Mən şikayət eləyəcəm, Xasay Əlləşoviç, sizin katibənizdən yuxarıya.
**Gülnaz:** Bu da xadimə.
**Katibə:** Söz deməyə məəttəlsən. Özündən elə şey çıxarır, az qalırsan durub üz-gözünü yalayasan?
**Xadimə:** Bircə dəfə yalasan, qiyamət qopar?
**Xasay** *(xadiməyə)*: İndi nə xəbərlə gəlmisən?
**Xadimə:** Heç... Gəldim ki... Deyirlər böyük ixtisar var. Şöbə və bölmələri birləşdirəcəklər. Artıq işçiləri atacaqlar bayıra. Gedib hər kəs özünə iş tapacaq. Deyirəm, Xasay Əlləşoviç, mənim də kefim pozulur. Bilirsiz niyə?
**Xasay:** Yox... Nə olacaq ki?
**Xadimə:** Bir çox işçilər göz dikəcəklər yerimə. Ölələr ha, süpürgəmi, pol silənimi onlara verməyəm. Mənə də sürtük Nəbinin qızı deyərlər.
**Katibə:** Allah özünə qismət eləsin.
**Gülnaz:** Mən də istəmirəm. Ancaq özünü Nənəşdən qoru. Ondan nə desən çıxar.
**Xadimə:** Mən gedim, bir azdan gələcəm. Siz də vəziyyətiniz barədə düşünün.

*Xadimə gedir. Xasay arxadan ona baxır. Katibəylə Gülnaz gülüşürlər.*

**Xasay** *(xadimənin ünvanına)*: Bu ağıl ki səndə var, hələ yüz bizim kimilərin dalına təpik vuracaqsan.

*Gülnaz başını tutur. Xasay başını yelləyir.*





**Gülnaz:** Əlləşoviç, dəlidən doğru xəbər. İxtisara düşə bilərik?
**Xasay:** O baxır cənab nazirə.
**Katibə:** Nə yatdıq ki, nə yuxu görək.
**Xasay:** Yuxu yatmağa baxmır ki. Yerin-göyün sahibi var, o nə məsləhət bilsə, elə də olacaq. Əsəbləşirəm. *(üzünü katibəyə tutaraq)* Dedim, dur dəyiş kanalı.

*Katibə kanalı çevirir. Televizorda xarici ölkələrin birində müxalifətin nümayişi gedir. Aparıcının şərhi.*

**Aparıcı:** Polislə müxalifət arasında güclü toqquşma olub. Müxalifətçilər daş-kəsəkdən, benzin dolu butulkalardan istifadə eləyiblər, dövlət və ictimai binalara hücum çəkiblər. Polis hücumun qarşısını alıb. Hər iki tərəfdən xeyli yaralanan var.

*Pauza*

**Xasay:** Bu Qərblilər ki var... Hərəyə bir demokratiya düdüyü veriblər.
**Katibə:** Müxalifət bunu neujenni başa düşmür?
**Xasay:** Əlbəttə, başa düşür. Xanım, bilmirsən, dava yorğan davasıdı?
**Gülnaz:** Müxalifətdən danışma. Təkcə dava salmağı bilirlər.
**Katibə:** Bu, hansı ölkədi?
**Xasay:** Deyəsən, ya Mozanbikdi, ya da bizim demokratiya beşiyi Fransa. Hi... hi... hi...
**Katibə:** Bütün ölkələrdə cəmiyyəti içəridən sökən bir qrup belə dağıdıcılar var. Özləri öz barələrində danos verməyə öyrəncəlidilər.
**Xasay:** Sən nə bildin?
**Katibə:** Televizorda elə deyirlər. Vəzifə ovundadılar. Onlardan nə əcaib şey desən çıxar.
**Gülnaz:** Televiziya bilməyən şey yoxdu. Bu qədər xəbəri hardan çıxarırlar məəttələm.

**Xasay:** Görünür, orda da tək-tək ağıllı adamlar var... Müxalifət deyilən şey çox əcaibdi. Bütün dövrlərdə elə olub, olacaq da. Kor tutduğun buraxmayan kimi, əl-ayağa dolaşa-dolaşa dururlar. Onlarla danışmağın bircə yolu var. Yığ hamısını bir gəmiyə, çək apar okeanın ortasına. Orda da keç xərcindən, gəmini batır. Biri də çıxanmasın dəryadan, hamısı da balıqlara yem olsun. Yaxud gecənin birində hamısını yığ tövləyə, benzini tök, od vur, nə diş bilsin, nə dodaq. Adını da qoy, naqillərin qısa qapanmasından yaranan yanğın.

*Pauza*

**Katibə:** Xasaycan, elə də şey olar? Əşi, insafınız olsun, lap ağ elədiz, bəyəm onların balaları yoxdu?

**Gülnaz** *(gülərək)***:** Xasay Əlləşoviç, siz danışanda mən o dünyanı görüb gəlirəm.

**Katibə:** O dünya da belədi?

**Gülnaz:** Əşi, burdan da betərdi. Ordakılar bəyəm burdan gedənlər döörlər?

**Xasay:** Müxalifəti tanımırsız, balaları da böyüyüb özləri kimi müxalifətdə olacaqlar. Ağzında müxalifət deyirsən. Görgötür dünyasıdı. Adam elədi də, nə görür, onu da götürür *(katibəyə).* Üzümə marıtdama, kanalı dəyiş.

*Katibə kanalı dəyişir. Ekranda görünən diktor qız elan edir.*

**Aparıcı:** Hörmətli tamaşaçılar! Xasay Əlləşoviç Mıxıyevə general rütbəsi verilməsi haqqında...

*Birdən işıq sönür. Ekran ağarır, səs kəsilir. Xasayla katibə yarımçıq elandan çaş-baş qalırlar. Bir-birilərinin üzünə baxırlar. Katibə qəflətən Xasayı öpür. O, katibəni geri itələyir.*

*Ekran ani ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı yaxından və geniş planda panorama edir. Xasay dərin yuxudadır. O, çarpayıda çevrilir. Çarpayı yavaş-yavaş uzaqlaşır. Yenidən kadr dəyişir. Katibəylə Xasayın söhbəti davam edir.*





**Xasay:** Tələsmə, dayan görək, bu nə qara qoparan həngamədi. Mən adi təchizatçıyam. Hələ oturduğum kreslo da düz-əməlli qızmayıb. Mən hara, general olmaq hara? Cavanlıqdan əsgərliyə də getməmişəm. Hüquq-mühafizə işçilərinin necə addım atdıqlarını da, nə təhər sıraya düzüldüklərini də, sağa-sola necə buruldduqlarını da bilmirəm. Nəinki... General rutbəsi verilən tamam başqa adam olacaq. Nə olsun ki, familiyam, özümün və atamın adı düz gəlir. O qədər elə şeylər olur ki. Hətta, çaşa da bilərlər.

**Katibə:** Ürəyimə damıb ki, o, siz olacaqsız. Xasaycan, yalan deyirəmsə, cavan canıma, *(əlini ürəyinin üstünə qoyaraq)* lap bu ürəyimə güllə dəysin, o, sizsiz. Fil boyda adamsız. Kresloda oturanda namxuda lap ayı kimi görünürsüz. Adam sizdən qorxur... Niyə də olmayasız?

**Gülnaz:** Aa... Sən lap ağ elədin, qız, nə böyük qanırsan, nə də kiçik.

**Xasay:** Saxla. Ədəbsiz. Mən ayıya oxşayıram? Dost var, düşmən var, məni el içində biabır eləmə, dilə-dişə salıb şəlpəyə döndərmə. Fil hara, ayı hara, mən hara?

**Katibə:** Əşi, hansından əskiksiz? Maşallah, göz dəyməsin, boy-buxun sizdə. Bolluca ağıl sizdə. Danışanda ağzınızdan od-alov yağır. Zəhminiz də ki o söz. Sizi görən qaçıb gizlənməyə deşik axtarır.

**Gülnaz:** Kişi elə olar da. Yoxsa kişi görməmisən?

*Xasay fikrə gedir. Xadimə gəlir.*

**Katibə:** Aaz, sənin özgə dərd-sərin yoxdu? Burda nə azarın var, Xasaycanda gözün qalıb?

**Xadimə:** Allah özünə qismət eləsin.

**Xasay** *(əsəbləşir)*: Bəsdirin. Üz verdikcə astar da istəyirsiz.

**Xadimə:** Onu katibənə de. Mənim işim nazirliyi zir-zibildən təmizləməkdi.

**Gülnaz:** Zibili deyəndə nəyi nəzərdə tutursan? Bizi, yoxsa...

**Katibə:** Əlbəttə, bizi. Görür Xasaycanın ağzı xəmir kəsmir.

**Xasay** *(qışqıraraq əlini stola vurur)*: Məni məcbur eləməyin *(astadan üzünü katibəyə tutaraq)* Deyirsən, general mən olaram?... Vallah vur, öldür məni, inanmağım gəlmir. Yenə deyirəm, sözümün üstündə də dururam, nə çox mənə adaş ola biləcək Xasay Əlləşoviç Mıxıyev.

**Katibə:** Sizsiz, kişi. Özünüzə inamınız olsun, hər kiçik şeyə çaşmayın. General olmasanız da, deyin, mən də general olmağa layiqəm.

**Xadimə:** Əşi, niyə də olmayasan?

**Xasay:** Bu qətiliylə danışmayın, bir az sürüşkən eləyin. Baxaq görək nə olur? Başımıza nə iş gəlir? Mənəmsə, bir azdan hay-küy aləmi bürüyəcək. Yadınızda saxlayın, xəta üz verəndə can cəfa çəkər.

**Gülnaz:** Xəta niyə?

**Xasay:** Söz üstən deyirəm.

**Katibə:** Burcutmayın, müdir, rütbə sizindi.

*Pauza*

**Xasay:** Olsun, ancaq — Burcutma — sözü heç xoşuma gəlmir. O sözün aidatı olduğu adamlar var. Onu eşidəndə ətim tökülür. İlanın acığı yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər.

**Katibə:** Dünyanın işi belədi... O qədər ağlagəlməz şeylər törəyir, yatanda da yuxuna gəlməz.

**Xasay:** Kanalı dəyiş.

*Katibə kanalı dəyişir. Şaman gəlir. Ekranda aparıcı görünür.*





**Aparıcı:** Hörmətli tamaşaçılar, indi də dünyada baş verən acı xəbərlər haqqında. Gündoğan ölkəsi Yaponiyada vay-şivən qurtarar-qurtarmaz qardaş Türkiyənin Van vilayətində zəlzələ özünü pərçim elədi. Binalar dağıldı. Xeyli qırğın və yaralılar var.

**Xadimə:** Vay!.. Vay!.. Anası ölmüşlər Yaponiyanın pazına keçdilər.

**Xasay:** İmkan ver axıracan qulaq asaq.

**Aparıcı:** Okeanın o tayı alışıb yanır. ABŞ-da yanğınlar tüğyan eləyir. Avropada daşqınlar hər tərəfi bürüyür... Filippinin bir çox yaşayış məskənlərini su yer üzündən sildi. Çoxlu ölən və itkin düşənlər var. Avropa onlara humanitar yardım eləmək istəyir. Ancaq özü iqtisadi böhran içərisində boğulduğundan udquna-udquna qalıb.

**Xadimə:** Qəza baş verəndə quymaq diş sındırar.

**Katibə:** Dili qurtlamış sakit olmur, deyiləni düz-əməlli eşidək.

**Gülnaz:** Elə bil altıaylıqdı.

**Aparıcı:** Bu arada müttəfiqləriylə bir araya gələn ABŞ İrana hücum planı hazırlayıb. İsrail də atılıb ortaya. İrana qarşı o söz... Beynəlxalq vəziyyət gərgindi. Ola bilsin ki, bir azdan qaçaqaç düşsün. İran da deyir hücum eləsəniz İsraili xəritədən siləcəm...

*Televiziyada veriliş dəyişir. Bir anlığa hamını fikir aparır.*

**Xadimə** *(baş-gözünə döyərək)*: Başımıza daş düşdü.

**Xasay:** Niyə?

**Gülnaz:** Amerika İsraillə birləşib İranı yerlə-yeksan eləyəcək.

**Katibə:** Bayquşlar. Nə olsa, danışırlar.

**Xasay:** Saxlayın... Ürəyimi çatlatmayın. Bu boyda zıppıltıya adammı dözər?

**Şaman:** Dünya dağılır. Belə getməz... Heyf ölənlərdən..

**Katibə:** Əksinə, ölənlər ağıllı iş görürlər.
**Xasay:** Çünki görənməyəcəklər bu zırhazırları.
**Katibə:** Xasaycan, siz tərsinə danışırsız eyy?..
**Xasay:** Necə yəni tərsinə.
**Katibə:** Bəyəm ölmək ağıllı işdi?
**Şaman:** Qanana hə...
**Xasay:** Ay qız, sən məktəb oxumamısan? Təlim keçməmisən?
**Katibə:** Keçmişəm, niyə ki?
**Gülnaz:** Kor-kor, gör-gör zəmanəsidi. — Gözüylə görən Allahından çox bilər — deyirlər.
**Xadimə:** Qələt eləyir onu deyən... Allah bir oyun düzəldər, hamı burda yatıb qalar.
**Gülnaz:** Allah əyri-üyrü məsələlərə qarışmır.
**Şaman:** Onun razılığı olmasa, bir adam hoqqa düzəldə bilər?
**Gülnaz:** Xeyr... Əyri-üyrüləri şeytan törədir.
**Katibə:** Gülnaz düz deyir.
**Xasay** *(katibəyə)***:** Valideynlərin durur?
**Katibə:** Hər ikisi ölüb.
**Xasay:** Olsaydılar, İzrailin bu sevincinə, atılıb-düşməsinə şahid olardılar.
**Katibə:** Nə Amerika, nə Avropa, nə də İsrail İranın böyründən quş olub keçənməzlər. İran onlara can verməz. Bir də ki onlar İraqdan, Əfqanıstandan, Liviyadan nə abırla çıxdılar?

*Pauza*

**Xasay:** Deyəsən, başın işləyir, qız.
**Şaman:** İran dağıdacaq. Hər şeyi var. Biz İranı müdafiə eləsək, ərəblər bizə güzəştə getməzlər.
**Xasay:** Getməyib neyləyəcəklər?
**Şaman:** Dubaya buraxmayacaqlar. Alverimiz düşəcək.
**Xadimə:** Ölüb Xandadaş ki, Amerika da gəlib orda at oynada.





**Katibə:** Sən canın bəsdi, Şaman. Elə bil fal açmısan. O gün dedin işıqlar sönəcək, qaz kəsiləcək. Oldu da.
**Gülnaz:** Bilmirsən, Şaman şeytanla oturub-durur?
**Şaman:** Bəli!.. Bəli!..Bə nə bilmişdin. Mən uşağam.
**Katibə:** Odu ha... Amerikayla İsrail İranın qorxusundan Allahın Suriyasında bir iş görənmirlər. Bilirsən niyə?
**Xasay:** Yox... Çünki arada Rusiyanın pazı var.
**Katibə:** Axşam eşitmədin, Rusiya fırfıralarını göndərib Aralıq dənizinə. Hamıya da hədə gəlir. Deyir: "Kimin gecə quşu havaya qalxsa vuracam". Xasaycan, sən general olsan, bu vurhavurda düşünürəm səndən də istifadə eləyə bilərlər. Öyrənmək istəyirəm ki, sən Amerikanın tərəfində zıpbıldadarsan, yoxsa İranın?
**Xasay:** Mən neytral olaram...
**Gülnaz:** Allah üzün o yana eləsin.

*Pauza*

**Xadimə:** Bir qaşıq qandan ötrü qorxmazlar.
**Şaman:** Dünya yaranandan insanlar bir-birilərini qırıblar. Çalış ölmə. — Bir günün dirisi, min ilin ölüsündən yaxşıdı, — deyiblər.
**Katibə:** İnsan yazıqdı. Qurban olum Allaha, o da harda, nə paz çalsa, gəlib yerdə dəyir insana.

*Gülüşürlər*

**Şaman:** Heyf Yaponiyadan. Yaxşı inkişaf eləyirdi.
**Xasay:** Ona görə də atalar deyib: — Nə qabağa çıx, nə də dala qal.
**Katibə:** Niyə?
**Şaman** *(gülümsəyərək)***:** Qabağa çıxanda ağız-burun əzilir, dala qalanda şalvarın cırığı görünür.
**Gülnaz:** Adam ki var, həmişə başı bəlalıdı...

**Xadimə:** Çox vaxt da bəlanı özü açır başına.

**Şaman:** Nə alnına yazılıbsa, onu da görəcəksən. Atılıb-düşməyə, meymunluq eləməyə dəyməz.

**Xasay:** Kəllə-mayallaq da var.

**Katibə:** Doğrudu. Qismətdən qaçmaq olmaz. O doğulmaq kimi bir şeydi, Şaman bəy. Bəyəm vaxt çatanda doğdurandan və doğandan, ya doğulandan söz soruşan, onların fikrini öyrənən olur? Birdəfəlik qaydadı: doğulan öləcək. Düz demirəm? Şübhən varsa, Zeynəb qarıdan öyrən... O, belə şeyləri yaxşı bilir... Gəl, mənə də de.

**Xasay:** Əşi, sənə nə deyəcəm? Sən görüb-eşitmədiyin şeylərə də don biçməyə öyrəncəlisən.

*Hamı gülüşür.*

**Xadimə:** Gedim, görüm təzə nə xəbər var, gəlirəm.

*Xadimə gedir.*

**Gülnaz:** Təzə xəbərləri zalım qızı elə bil əliylə qoyub.

**Xasay:** Lakatrları çox güclüdü. Burda oturur Hindistandan danışır... Neçə toy olub, neçə yas.

**Şaman:** Olacaq da. Axşamacan burun soxmadığı otaq yoxdu.

*Xadimə qayıdır.*

**Xadimə:** Nazirliyin bütün əməkdaşları sabah qan verəcəklər. Sizin xəbəriniz var?

**Katibə:** Televizorda dedilər?

**Xadimə:** Yox... Xanımlardan eşitdim.

**Xasay:** Xanımların dilinə yara çıxsın. Hey nifrin danışırlar. Əşi, mənim özümə qan lazımdı. Nazir də ki lap ağ eləyib. Gün-





də — Əlləşoviç, gətir-götür — deyir. Nə yeyirəm ki, damarlarıma da nə qan toplana.

**Katibə:** Yüz dəfə sizə demişəm, dilinizi farağat qoyun. Ağzınızdan ucuz alıb, cənab nazirə baha satacaqlar. O da ağına-bozuna baxmadan sizə deyəcək: — Açarı qoy masanın üstünə, özün də vızqırt burdan.

**Xasay:** Əşi, Şaman özümüzünküdü. Ondan elə şey çıxmaz.

**Katibə:** Bəs xadimə. Onun dilinin dinc duran vaxtın görmüsən?

**Gülnaz:** Anam-bacım, mən heç nə eşitməmişəm, heç nə görməmişəm.

**Katibə:** Şamana inanırsız?

**Xasay:** Özüm kimi...

**Şaman:** Mən satanşçik döörəm. Məni çıxın o siyahıdan.

**Katibə:** Mənim generalım! Səndə nə olduğun bilən yoxdu. Sən rütbəni alanda, görərsən, mən neyləyəcəm?

*Gülüşürlər. Xadimə, Gülnaz və Şaman gedir.*

**Xasay:** Ay qız, bəsdi. Məni cin atına mindirmə. Nazir eşitsə...

*Xasay iki əliylə başına vurur. Saçlarını yolur. Katibə ona yaxınlaşır. Çiyinlərindən tutub silkələyir.*

**Katibə:** Özünə gəl, Xasaycan... Lap dəymə-düşər olmusan.

**Xasay:** Əşi, nə general, nə filan... Boş şeydi... Zibilə düşmədim? İndi də gəl, onun dərdini çək.

*Pauza*

**Katibə:** Hövsələn olsun... Niyə əsəbləşirsən, Xasaycan? Bir az gözləsən bəyəm dünya qopar? Əziyyətsiz iş olmaz. Olsa da, o adama ləzzət verməz.

**Xasay:** Əşi, nə ləzzətdi o. Bezdim, saxla sən atanın goru, qalanı qalsın sonraya...

**Katibə:** Xasaycan, yəqin evdə arvad-uşaqların da həyəcanlı olarlar.

**Xasay:** Arvad-uşaq mənim işimə qarışmır. Lap general olsam da soruşmazlar ki, o nə rütbədi?

**Katibə:** Niyə?

## III bölüm

*Xasay ciddi görkəm alır. Diqqətlə katibənin üzünə baxır...*

**Xasay** *(ciddi halda)***:** Çünki xasiyyətim tünddü... Dünya dolaş-bulaşdı... General rütbəsi... Odlu silah... Dələduz adamlar... Allah eləməsin, əlimdən bir xəta çıxar... Sonra da gəl onun ucun-bucağın yığışdır. Qapı-qapı sülən ki, səni bağışlasınlar.

**Katibə:** Vay! Vay! Şər deməsən, xeyir gəlməz. Vapşe düz deyirsən. Arvad-uşaq qalar başsız. Hərəsi də ağzın tutar bir yana. Arvadın Gülçöhrə onda da çıxış yolu tapanmayıb güc verəcək gözlərinin yaşına... Təəssüf ki, indi göz yaşı silən də yoxdu. Bir-iki gün dözəcək. Sonra da bezib güc verəcək dilinə... Əvvəl az-az, sonra tez-tez səni söyəcək... Başa düşürəm səni... Çətindi... Özü də çox...

**Xasay:** Yox... O, məni söyməz.

**Katibə:** Söyər.

**Xasay:** Neujenni?..

**Katibə:** Arvadların peşəsi söyməkdi... Ərin qarasına danışmaqdı... Belinə çöpdən dirək verib, dalında dəyirman tikməkdi.

*Xasay yazıq görkəm alır. Katibə sarı pırpızlı başını yelləyir, təzəcə alınmış qaşlarını oynadır, gözlərini süzdürür. Xadimə içəri girir. O tərəf-bu tərəfə göz gəzdirir. Katibə onu göz altı süzür.*





**Xasay** *(astadan)***:** Adamlara etibar yoxdu. Nə desən çıxar... Sən bilməyən şeyə qurd düşər.

**Xadimə:** Sağ ol səni, Xasaycan, sən katibənə yaxşı baxırsan. Lap kişi kimi.

*Katibə atılır.*

**Katibə:** İyli-iyli danışma. Necə yəni kişi kimi?

**Xadimə:** Qışqırma. Gördüklərimi, eşitdiklərimi deyirəm... Özün də şadlığından şitlik eləmə. Sevin ki, qarşına Xasaycan çıxıb. Novruz çıxsaydı, neylərdin?

**Katibə:** Novruz-movruzları yığıb bura, ağız, məni hövsələdən çıxarma.

**Xadimə:** Boğazını cırma, nə qədər Xasaycan burdadı, canımda can var, gələcəm...

*Pauza*

**Xasay:** Yaxşı, get, indi başım ağrayır, sonra gələrsən, danışarıq.

*Xadimə gedir.*

**Katibə** *(gülümsəyir)***:** Əcəb işə düşmüşük. Bir az üz versək, nazirlik bizdən danışacaq *(başını yelləyərək)*. Xoruzquyruğu çayla aran necədi? Təzə dəmləmişəm, atam canı, ölü içsə dirilər, Xasay Əlləşoviç.

**Xasay:** Həvəsim yoxdu... Dəmləmisən, gətir də... Aparıcı məni lap bir təhər elədi. Televizorun düyməsini bas... Görək Sxenvalidən nə xəbər var? Ruslar gürcülərlə atışaraq asentinlərə nə gün ağlayıblar? Qara Dəniz çalxalanmır ki?

**Katibə:** Hələ xəbərlərin vaxtına bir az var... Bu rusların da işindən keçmə, özünün özgənin bilmir, hara gəldi pərçimləyirlər... Belə getsə, geci-tezi var...

**Xasay:** Deyirsən, bizim turbamıza da sığal çəkərlər?..

**Katibə:** Ürəyimə damıb... Şaman necə dedi: “Dünya dağılacaq”.

*Pauza*

**Xasay:** Televizorun düyməsini bas. Təhlükəli bir şey varsa, duraq qaçaq, biz də başımıza çarə qılaq. Yox, həmişəki kimidisə, söz güləşdirirlərsə, oturduğumuz yerdə də olsa, mürgüləyək.

**Katibə:** Qorxuram... Xadiməyə də elə şey lazımdı. Gələr, görər, nazirə çatdırarlar... Bilirsən də onun xasiyyətini.

**Xasay:** Çaydan başqa nə işiniz var?

**Katibə** *(gülümsünərək)*: Var, müdir.

**Xasay** *(təəccüblə)*: Nədi o?

**Katibə:** Telefon.

*Xasay ilk dəfə görürmüş kimi katibəyə mənalı-mənalı baxır. Katibə nazlanır.*

**Xasay:** Öz işini əla bilirsən, bərəkallah səni doğan arvada. Arvad döör ey, mələkdi. Sən canın, mənim təşəkkürümü də hərdən ona çatdır.

**Katibə:** Əvvəla arvada yox, anaya. İkincisi də, dedim axı anam ölüb.

**Xasay:** Nahaq. Mən belə vaxtsız ölümə haqq qazandıranmaram.

**Katibə:** Onu qurban olduğumla danış, gedə-güdəylə yox.

*Ekranda ucaboy, nərmənazik, 23-25 yaşı olar-olmaz yarıçılpaq xanım görünür. Xadiməylə Gülnaz gəlib boş stullarda əyləşirlər. Xanım gülə-gülə, nazlana-nazlana danışır.*

**Xanım:** Seksuallıq!.. Hi... hi... hi... Bu, bəşəriyyət yarandığı gündən olub. Bu gün də var, əziz tamaşaçılar, sabah da olacaq... Etiraf eləyim ki, mən onu sevirəm. Özü də lap çox... Bunun nəyi





pisdi ki? Şərqdə-Qərbdə həmişə yüksək dəyərləndiriblər bunu. Bizdə isə köhnə fikirli kişilər belə şeylərə yaxşı baxmırlar. Çünki onların müasirlikdən xəbərləri yoxdu *(nazlana-nazlana, bədənini yırğalaya-yırğalaya gülür, ekrandan tamaşaçılara öpüş göndərir)*. Adamlar öz intellektual səviyyələrini qaldırmalıdırlar ki, seksuallığa mükəmməl yiyələnə bilsinlər.

**Xadimə:** Ən çox sevdiyim verilişdi.

*Katibə xadiməyə acıqlı-acıqlı baxır*

**Xasay:** Gözümüz aydın, düzəldi işimiz. Bu xanımın başı xarab olub. Belə çıxır ki, seksuallıqla nənə-babalarımız da məşğul olublar. Bizsə ağılca geriyik. Ona görə də seksuallığı dəyərləndirənmirik. Lənət sənə şeytan... Ayə, bəyəm bu xanımın yiyəsi yoxdu? Çəkib oturda dizinin yanında, soruşa ki, a həyasız, o danışdıqların nədi?

**Xadimə:** Aa... Seksin nəyi pisdi ki?

**Xasay:** Pisdi-yaxşıdı, mən yaxşı bilirəm. Sən o deyənləri görünür anlamırsan. Utanmaz-utanmaz gör nə deyir: “İntellektual səviyyələrini qaldırmalıdırlar ki, seksuallığa mükəmməl yiyələnə bilsinlər”. Qız yiyəsi, da mən sənə nə deyim. Seksuallıqla intellekt arasında nə əlaqə?

*Pauza*

**Katibə:** Mən biabır oldum, Xasaycan, da mənim sənə sözüm yoxdu.

**Xasay:** Xanımlar, məni dəli eləməyin.

**Xadimə:** Uxti ölürəm elə şeydən ötrü.

**Katibə:** Ağız sən mumla... Buna bax.

**Xadimə:** Nə olub mənə. Doğrudu, özüm bir az kökəm. Yeriyəndə silkələnirəm... Üzümdə qırışlar var. Söz veriblər. Gözəllik salonunda onu da qaydasına qoyacaqlar.

**Gülnaz:** Əşi... Vallah-billah o da lazımdı... Dünya əzəldən

belə qurulub.

**Xasay:** Necə?

**Gülnaz:** Heç necə, da mən mahiyyəti sizə açıqlayanmaram ki, birinin dediyi o birisinin ürəyinə yatmır.

**Xasay:** Vay! Ağız mənim xəbərim yoxmuş... Siz də onun ağıldasız?

**Gülnaz:** Bizim ağlımıza nə olub ki?

**Katibə:** Xasaycan, xanım deyənlər o qədər qorxulu şey döör... Elə olmayana indiki zəmanədə, düzdü hamı yox, bir çoxları pis baxırlar.

**Xasay:** Hə...

**Gülnaz:** Bəli!.. Bəli!.. Niyə də baxmasınlar ki.

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı geniş planda təsvir edir. Onun yatdığı çarpayını yaxınlaşdırır. Xasay yorğanın altında çabalayır... Çarpayı yavaş-yavaş uzaqlaşır.*

*Kadr dəyişir. Katibə sinəsini qabardır. Qalxıb televizorun düyməsini basır. Ekranda qadın şou-biznes nümayəndələrinin ən çox soyunanlar üzrə müsabiqəsi nümayiş etdirilir. Xasay həsədlə verilişə baxır.*

**Katibə** *(Qəsdən)***:** Xasaycan, belə şeylərlə aran necədi?

*Gülnaz gülür. Xasay özünü itirir.*

**Gülnaz:** Necə olacaq? Əla! Kişilər hamısı bir bezin qırağdılar... İtin axmağı qaysavadan pay umar.

*Veriliş bir an dayanır. Ekranda diktor qız görünür.*

**Diktor:** Əziz tamaşaçılar, indi də keçirik şou-biznes iştirakçılarının seksə münasibət məsələsinə.





*Xasay ciddi görkəm alır.*

**Xasay:** Da mənim sizə sözüm yoxdu. Sizdən nə desəz çıxar. Üzümüzdə bir damcı su, bir çimdik də abrımız-həyamız qalmışdı, o da getdi. Gəlib üstümüzə çıxan olar...

**Gülnaz:** Nə biədəb iş görürürük ki. Şou-biznes də tamaşaçılar üçündü də, Əlləşoviç.

**Xadimə:** Dünya belə şeylə məşğuldu, Xasay Əlləşoviç.

**Xasay:** Yox... Yox... Mənim xasiyyətim bir təhərdi, elə şit şeyləri başım götürmür... Hansı kanalı açırsan, hansı qəzeti, jurnalı vərəqləyirsən, qırılmışların şıllaq atmalarının şahidi olursan. Nə böyük qanırlar, nə də kiçik. Özlərini qoyurlar çöldə. Elə bilirlər, ağızlarına gələni danışanda, soyunanda, seksual hərəkətlər eləyəndə daha çox xal qazanırlar.

**Xadimə:** Xasay Əlləşoviç, halını pozma. Orda qorxulu şey də yoxdu. Seks də mədəniyyətdi. Necə düşünürsən düşün. Mən təklif eləyərdim ki, bu məsələylə bağlı məktəblərdə də məlumatlar verilsin.

**Xasay:** Bircə bu qalmışdı. Hər işimiz düzəldi, qaldı saqqal darağımız.

*Pauza*

**Katibə:** Xasaycan, şıllaq atmaq da pisdi? Əksinə o mənə çox ləzzət verir. Balaca, imkanım olsaydı, mən onlardan da betər atılıb düşərdim. Əndamımı yırğalardım... Bu, həm puldu, həm də incəsənət, Xasaycan. Neujenni, siz...

**Xasay:** Nə şıllaq? Bu da təzə çıxdı?

**Katibə:** Şıllaq atmaq tullanıb düşməkdi də.

**Gülnaz** *(Xasaya)***:** Arvadınızın da elə şeylərdən xoşu gəlmir?

*Xasay sözünə ara verir, udqunur, bir az amiranə şəkildə dillənir.*

**Xasay:** Arvadımın buna nə dəxli? Belə şeyə baxsa, onun başın gecəykən kəsərəm... İnsafən, özü də lap qızlıqdan elə şit-şit şeylərə baxmağı xoşlamır.

**Gülnaz:** Aa... Təəccüblüdü... Qadın olasan... Özünü belə kefdən-damaqdan məhrum eləyəsən... Xasay Əlləşoviç, deyəsən, sizdə də bir az klassikanın əlamətləri var... Arvadınız xurafatla məşğul olmur ki?

**Xasay:** Yox... Yox... Nə xurafatla məşğul olmaq? Mən səninlə razı döörəm, Gülnaz xanım.

**Xadimə:** Arvadın gödək şalvar geyənlərdən, ətir-kirşan çəkməyənlərdən döör ki?

**Xasay:** Gödək şalvar geyməsinin, ətir-kirşan çəkməsinin buna nə dəxli var?

**Xadimə:** Var, Xasay Əlləşoviç. Bəlkə arvadınız vəhabilərdəndi.

**Katibə** *(xadiməylə Gülnaza üzünü tutaraq)***:** Xasaycan geridə qalmış çırtı-pırtı kişilərdən döör. Onun aləmində hər şeyin həddi var. Həddi aşılan şeyə tüpürür birdəfəlik tullayır.

**Xasay** *(sinəsini qabardaraq)***:** Mən seksin əleyhinə döörəm. Hörmətli Gülnaz xanım, əziz-şərəf xadimə, məni elə dar düşüncəli, həzsiz, duyğusuz da sanmayın. Mən gözəllik aşiqiyəm. Ancaq söz öz aramızda, seks baxır harda? Yoxsa, televizorda? Heç böyükləri demirəm, uşaqların gözlərinin qabağında? Allah, daş yağdır, Allah.

*Gülnaz gedir. Şaman kabinetə daxil olaraq stulda əyləşir.*

**Xadimə:** Şaman da, nə Şaman. Dünənki uşaqlar əlli dəfə ailə quranda bu birinə yan almadı.

**Şaman:** Dilini dinc saxlayanmırsan? İçində nə var aç de. Onsuz da qarama dediklərini eşidəcəm.

**Xadimə:** Mənim yalanla, böhtanla işim yoxdu. Olanını deyirəm. Kimi istəsən, sənə gözü yumulu gələcək. Mən gedirəm, yaxşı-yaxşı fikirləş.





*Xadimə gedir.*

**Katibə:** Get, arxanca bir qara daş... Anası bunu nə deyib doğub, əə.

**Xasay** *(gülərək)***:** Bilsəydi doğduğu belə olacaq, vaxtında başına çarə qılardı.

**Şaman** *(əlini-əlinə sürtərək)***:** Futbolun vaxtıdı, Xasay Əlləşoviç.

**Xasay:** Bu gün hansı komandalar görüşür?

**Şaman:** Ayıblı və Düdəməli kənd futbol komandaları.

**Xasay** *(katibəyə)***:** Dəyiş kanalı.

*Katibə kanalı dəyişir. Ekranda futbol oyunu nümayiş olunur. Oyun başlanan kimi Ayıblı futbol komandasının kapitanı Qoçu Qoçuyev qaydanı pozur. Düdəməli futbol komandasının hücumçusu Çaşqın Fərəməzov onu itələyib yıxır. Meydanda vurhavur başlanır. Hakim fitlə polisləri meydançaya dəvət eləyir. Studiyadan veriliş dayandırılır.*

**Xasay:** Hə... bu da bizim Ayıblı və Düdəməli futbolçularının intellekti. Bunlarla nəinki Banqledeşə, heç Dağıstana da getmək olmaz.

**Şaman:** Bütün günü səhərdən həvəslə futbol olacağını gözləmişəm, axırı da bu. Lənət şeytana.

**Katibə:** Bəlkə ardını verdilər. Versələr qiyamət olacaq.

*Pauza*

**Şaman:** Yamanca əsəbləşdim... Özümə söz vemişəm, baxmayacam. “Futbol” adı eşidən kimi dediklərimi unuduram.

**Katibə:** Görünür ya iradəniz zəifdi...

**Xadimə:** Nə görmüsən, onun başı çoxdan xarabdı.

**Xasay:** Bir az mədəni. Vapşe mən kobudluğa nifrət eləyirəm.

**Katibə:** Xadimədən nə gözləyirsən bundan artıq.

**Xadimə:** Guya sən məndən yaxşısan.

**Şaman:** İndi elə zəmanədə yaşayırıq, inanmıram başı taraz çətin. Bəlkə də heç yoxdu.

**Xasay** *(əsəbləşərək əlini stola vurur)***:** Qurtarın çəkişməni. *(üzünü Şamana tutaraq)* Sən də sərəyləmə... Niyə yoxdu? Bəs biz nəyik? Oyuq-zadıq?.. Verilişi saxlamasaydılar, beynəlxalq aləmdə olan-qalan nüfuzumuz da... Görünür, orda da intellektli adamlar var *(üzünü katibəyə tutaraq)*. Dayanma, çöör o biri kanala.

*Şaman gedir. Katibə kanalı dəyişir. Ekranda ABŞ-la İraq arasındakı müharibədən kiçik fraqmentlər göstərilir.*

**Aparıcı:** Hörmətli tamaşaçılar, bu gün İraqda çox saylı adam ölümüylə nəticələnən terror hadisəsi baş verib. Kammikadze qadının özünü partlatması nəticəsində müttəfiq qoşunlarından iyirmi hərbçi və yerli günahsız adamlardan səksənə yaxın sakin öldürülüb. Yüzdən artıq adam yaralanıb. İraqda hazırda dava-dərman çatışmır...

**Katibə:** Qadındakı cəsarətə bax ey. Adam eşidəndə ağlı başından çıxır... Qadın olasan, özün də ölümdən qorxmayasan. Kişi olsaydım...

**Xasay:** Nə?

**Katibə:** Alardım onu. Özümə arvad eləyərdim... Mühafizəmi ona tapşırardım.

**Xasay:** Elənçiklər xatadı, xata. Kamukadzenin Allahı yoxdu.

**Katibə:** Zato cəsarəti ki, var. Cənnətə ki, gedəcək.





*Pauza*

**Xasay:** Əşi, nə cənnət? Ölmək istəyir, kimdi o hüququ ondan alan, adam kimi əl-ayağın uzadıb ölsün də. Gərək doğrana?.. Parça-parça ola. Böyük tikələri qulağı boyda olub dağıla ətrafa... Gəl onları yığışdır, apar basdır... Zülm ölmək döör, tikələrin yığılıb basdırılmasıdı...

**Xadimə:** Vay... Vay... Vay... Bu saat dünyanın pazı Amerikadı. Görəsən, Xasay Əlləşoviç, bizə girişməzlər ki?

**Xasay:** Yox... Nə girişəcəklər... Nə istəyiblər hamısını vermişik. Qazımız onlarda, neftimiz, mazutumuz onlarda. Bircə iyli-qoxulu ürəyimizi, qaldıran havamız qalıb. İstəyirlər, onu da verərik. Özümüz də o söz...

**Katibə:** Nə söz?

**Xasay:** Çox ağartma. Suallar çox olanda, cavablar azalır. Onda da Amerikanlar deyirlər balans pozulur.

**Xadimə:** Eh... Cəhənnəmə... Söhbəti dəyişin... 8 Marta bir həftə qalıb. Xasay Əlləşoviç, mənə çatdıracağını ver, gedim duxudan-muxudan alım. Bayram yaxınlaşanda hamısının qiyməti dağ başına qalxacaq. Allah insaf versin satıcılara.

**Xasay:** Deyəsən, sənin kefin qalxıb. Eləsə əlacını başqa yerdə axtar.

**Katibə** *(xadiməyə)***:** Başın xarabdı... Get özünə babın tap. Bəs mən burda nəyəm? Yekə arvadsan.

**Xadimə:** Mənə nə olub?

**Katibə:** Nə olduğun özün bilirsən. Hər yoldan ötənə... Sən canın zəhləmi tökmə.

**Xadimə:** İstədim sizə sürpriz eləyim. Bayram bəhanəsiylə sizə stol açım. Maqnitofonu qurum, şam yandırım. Yeyib-içib o ki var oynayaq. Qonşular da məəttəl qalsınlar.

**Katibə:** Sonra...

**Xadimə:** Qalanını özünüz bilərsiz... Bu şərtlə ki, *(barmağını yelləyərək)* ədəb qaydalarını pozmayasız. Qonşular mərdmazar-

dılar, azacıq bir şey duysalar, polis çağıracaqlar. Onları da bilirsiz də. Düşünəcəklər bayram ola, şərəşürlüq olmaya. Zəli kimi yapışacaqlar bizdən... Beyni qızanın Allahı olmur. Ver deyəcəklər, biz də verənməyəcök. Hi... hi... hi... Qollarımızı qandallayıb atacaqlar içəri. Allı-güllü bir məktub da salqarlayacaqlar nazirə...

**Xasay** *(xadiməyə)***:** Sən atanın goru, şərini bizdən uzaq elə.

**Xadimə:** Aaa... Olmaya bayram keçirməyəcəksiz?

**Katibə:** Onu özümüz bilərik. Sən qalx get, çöldə havanı dəyiş, sonra gələrsən. Bizə də iş tapşırıblar, vaxt itirmədən onu görək.

**Xadimə:** Yaxşı qızsan... Ancaq...

**Katibə:** Nə ancaq?

**Xadimə:** Get... Get deməyin olmaya.

*Xadimə gedir.*

**Xasay:** Dil diyanmır eyy..

**Katibə:** Günah sizdədi, çox üz verirsiz, Xasaycan.

**Xasay:** Zalım qızı başımızı xarab elədi... Yaddaşımın da zibili çıxıb. Bayaq harda qaldıq?

**Katibə:** İraqda günahsız adamların qırılmasında. Amerikanın İraqda nə iti ölüb axı? Yıxılıb xarabasında oturanmazdımı?

**Xasay:** Heç zad. Çox humanistdilər. Azarları demokratiya adı altında İraqın neftini, qazını özününküləşdirməkdi.

*Pauza*

**Katibə:** Dədələrinin malıdı? Onda günahsız adamları niyə qırdırırlar?

**Xasay:** Hə... Əzizim, adamları qırdırmasalar, nefti, qazı özlərinkiləşdirə bilməzlər. İraqda ağıllı beş-üç adam qalıb. Bu yaxında onları da aradan götürsələr, daha öldürməyə adam tapmayacaqlar. Tək-tək qalanlardan da qul kimi istifadə eləyəcəklər.





Bunun nəyi pisdi ki? Sonra da ərəblər işləyəcək, amerikalılar da dədələrinin malı kimi üyüdəcəklər.

**Katibə:** Xasaycan, siz əməlli-başlı siyasətçisiz.

**Xasay** *(özündən razı halda)***:** Hı... Xanım, mən siyasətin içində doğulmuşam. Öz xeyrini-şərini qanmayan Fatış oğlu Sülü, Külbaş Höcətin oğlu Mətiş kimi gədə-güdələrdən döörəm.

**Katibə:** Yaxşı, amerikalıların Əfqanıstanda nə itləri ölüb?

**Xasay:** Əfqanıstan anaşa mənbəyidi. Dünya narkobizneslə nəfəs alır. Əfqanlardan anaşanı zorla qoparırlar. Oradan İrana, İrandan da Qarabağa, buradan da Orta Asiyaya, Avropaya, Qərbə "hədiyyə" eləyirlər. Qarabağ da olur tranzit məmləkət.

**Katibə:** Axı Amerikayla İran qırhaqırdadı. Amerika ordan... İnanmıram.

**Xasay:** Şeytan görmüsən?

**Katibə:** Yox...

**Xasay:** Mən də görməmişəm. Heç kim görməyib. Ancaq — Onun barmağı hamının dalındadı, — deyirlər. Amerikada belə. Qurcala ha qurcaladı... Neyləsin izlərin də tapanmazsan...

*Kanalı dəyiş. Katibə kanalı dəyişir. Aparıcı qız görünür.*

**Aparıcı:** Axşam Dardanel boğazından Qara Dənizə keçən ABŞ-ın hərbi gəmisi humanitar yardım adıyla Gürcüstanın Poti limanına yan aldı. Bundan təşvişə düşən rus hərbçiləri də söz güləşdirib muskul oynatmağa başladılar... Qorxudan canına vəlvələ düşən Avropanı hayray-qışqırıq qucmağa başladı... Əsəb vəlvələsi həddini aşır. Bir sözlə, dünya çalxalanır. Belə bir zırhazırda hər kəsdən öz yerini tutmaq tələb olunur...

*Şamanla Gülnaz tələm-tələsik nəfəsləri təngişə-təngişə kabinetə girirlər.*

# IV bölüm

**Şaman:** Ayə Xasay, eşitdiz televizorda deyilənləri. Zibil qarışacaq.

**Gülnaz:** Heyf tikib-qurduqlarımızdan.

**Şaman:** A Xasay, ağıllı adamsan, bu gübba-gübdan ağlın nə kəsir?

**Xasay:** Hə... bu, alahı pazdı... bəla Allahdan gəlirsə, nə yer tutmaq?! Harda olsaq, xeyri yoxdu, basmarlayacaqlar bizi. Od qalayacaqlar başımızda.

**Katibə:** Bu, birinci hərbi gəmi döör, Xasaycan.

**Şaman:** Ay rəhmətliyin qızı, ölənə nə fərqi var, birinci olsun, ya ikinci.

**Gülnaz:** Qıçlarım əsir.

**Xasay:** Bilirəm... Uzatma... İçimdə tufan var. Adamlar qırılsa, nə qədər sahibsiz araq tökülüb qalacaq. Sən atanın goru, tez elə çöör kanalı.

*Pauza*

**Katibə:** Qorxu elə gəlib ki, atam da yadımdan çıxıb.

**Xasay:** Düz-əməlli atan vardı ki? Dəqiq anan da bilmir. Allahın da qəribə işləri var. İşi görür, bərkə düşən kimi atır şeytanın üstünə. Adamlar da deyirlər: bu şeytan əməlidi. Yazığım balacalara gəlir.

**Gülnaz:** Dünya belə dünyadı: gətirir, zülmə salır, meymun kimi oynadır, gərəyi olmayanda dalına bir təpik çalır.

**Xasay** *(əsəbləşir)***:** Tez elə, dəyiş, dəyiş kanalı.

*Katibə kanalı dəyişir. İqtidarla müxalifət nümayəndələri söz vuruşuna başlayırlar.*

**Müxalifət:** İqtidar icazə versə də, verməsə də, qarşıdan gələn bazar günü mitinq eləyəcök.





**İqtidar:** Onu bacarmayacaqsız, icazəsiz mitinq hər vasitəylə dağıdılacaq.

**Şaman:** Ayə, bunlar nəyi bölüşdürənmirlər?

**Xasay:** Kirisənə, görək dalı hara gedir.

**Müxalifət:** Mitinqçilərə əl qaldıracaqsız? Adamların baş-gözünü dağıdıb, qanlarınmı tökəcəksiz?

**İqtidar:** O vəziyyətdən asılı olacaq. Yaxşısı budu, ona şərait yaratmayın. Əl çəkin hikkənizdən.

**Xasay:** Əla! Hünəriniz var, durun irəli.

**Müxalifət:** Biz azad söz, demokratiya uğrunda mübarizə aparırıq.

**İqtidar:** Boş yerə çərənləyib baş ağrıtmayın. Mübarizə sivil yolla olar. Qanunsuz hərəkət anarxiyadı. Dövlət çevrilişinə gedən yolun başlanğıcıdı. Dövlətin gücü də var, qüdrəti də. Aləmi qatıb beyni qan cavanları küçələrə tökməyin.

**Gülnaz:** İqtidar düz deyir də.

**Müxalifət:** Biz bəyanat verəcök. Avropa Şurası, ATƏT qoy bilsin ki, burda demokratiyaya qəsd var.

**Gülnaz:** Bəyanata bax ey, utanım yerinizə. Davanızı öz aranızda çəkənmirsiz, Avropa Şurası, ATƏT axtarırsız. Hələ xiyarın şirin başıdı.

**Katibə:** Az qalıb, lap az. Həyəcansız şey olmur. İşin gözəlliyi də həyəcandadı. Müxalifət xəyala dalsa... Güman eləyirəm ki, çox çəkməz bir şey çıxar. Buna da iqtidar deyərlər.

*Pauza*

**Xasay:** Xəyalla iş düzəlsəydi, nənəm çoxdan Marsda şıllaq atırdı.

**Gülnaz:** Uyy... Bu da təzə sözdü.

**Katibə:** Xasay, həyəcandan içim alışıb yanır, ürəyim gör-gör göynəyir. Hara getsəniz, məni də özünüzlə aparın. Ayağım sizə düşür. Biz nəsilliklə beləyik. Xalam də eləydi, ayağı müdi-

rinə düşəniydi. Yuxarıdakılar müdiri böyütdülər, o da xalamı. İkisi də o gedən getdilər.

**Xasay:** Xalan da sənin kimi cavan, dul və hal biləniydi?

**Katibə:** Bəli!

**Xasay:** Mən də söz verirəm, səni it-qurdun əlində qoymaram.

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı geniş planda təsvir eləyir. Xasayın yatdığı çarpayını ekrana yaxınlaşdırır. Xorultusu eşidilir. Çarpayı yavaş-yavaş uzaqlaşır.*

*Aparıcı görünür.*

**Aparıcı:** Texniki nasazlığa görə üzr istəyirik... Nazirliyin təchizat şöbəsinin müdiri Xasay Əlləşoviç Mıxıyevə general rübtəsi verilsin. Mötəbər mənbələrdən alınan çox ciddi və məxvi xəbərə görə, müxalifət bazar günü ciddi-cəhdlə mitinq keçirməkdə israrlıdı. Üzvləri narkomanlardan, əyyaşlardan ibarət olan müxalifətçilər şəhərdə asayişi pozurlar. Şəhər sakinlərini narahat eləyirlər. İctimai binaların qapı-pəncərələrini sındırırlar. Şəxsi maşınları əzirlər. Bir sözlə dağıdılmamış dəlmə-deşik qalmayacaq. Odur ki, mitinqin dağıdılması nazirliyin təchizat şöbəsinin sabiq müdiri, hazırkı mətin general Xasay Əlləş oğlu Mıxıyevə həvalə edilsin.

*Xasay Əlləşoviç çaş-baş qalır. Katibə kabinetdə tullanıb-düşür. O tərəf-bu tərəfə qaçır. Generalı qucaqlayır.*

**Katibə:** Gördüz, inanmırdız mənə.

**Xasay:** Vay... Dədəm vay. Bu nəsə, ağlıma gətirənmirəm. Pulsuz-mulsuz, xərcsiz-xəcalətsiz, dayısız-mayısız adama bu boyda rütbə? Aaz, bəlkə yuxu görürəm.

**Katibə:** Xasaycan, rütbəni adama verərlər də. Başqa nəyə





vermək olar?... Yuxum buymuş. İstədim sizə deyəm, ancaq cəsarət eləmədim.

**Şaman:** Bu dünya qullabıdı. Nə desən olarmış.

**Xasay:** Bəlkə məni məsxərəyə qoyurlar. Bəlkə bu da bir fırıldaqdı? O mənim ağzımın yemi döör axı, qız.

**Katibə:** Siz nədən çəkinirsiz?.. Belə də fırıldaq olar? Siz təkcə əmr verəcəksiz, hər şey qurtarıb gedəcək. Qaldı müxalifətə, onlar yolunu çoxdan azmışdılar. Xasaycan, gördüz iş bərkə düşdü, itlərdən istifadə eləyərsiz. Gec-tez bunu bir adam eləməliydi. Görünür, o da sizin qismətinizə düşüb.

**Gülnaz** *(Sevincək halda)***:** Gözünüz aydın, Xasay Əlləşoviç.

**Xasay:** Çox sağ olun.

**Katibə:** Sağ əli Şamanın başına.

**Şaman** *(əyilib düzələrək)***:** Minnətdaram, xanım.

**Xasay** *(özünü çəkərək)***:** Əşi, bu çox dolaşıq məsələdi, abrım töküləcək.

**Gülnaz:** Cənab general, şadlığınıza şitlik eləməyin. Sizin yerinizə mənim müdirim olsaydı, özü cəhənnəm, kabinetdəcə məni yüz dəfə dombalaq aşdırardı.

**Katibə:** Nə?.. Cənab general desə, vallah şəxsən mən min dəfə aşaram: Hi... hi.. hi...

**Xasay:** Necə? Necə? Oh... Cənab general. İfadə ürəyimə yağ kimi yayıldı.

**Şaman:** Az qalır sevincimdən ürəyim çatlaya.

**Gülnaz:** Çatlayar da.

*Pauza*

**Katibə:** Bəli! Bəli! Bundan sonra hamı sizə "cənab general", "əlahəzrət general" titullarıyla müraciət eləyəcək. Elə mən də, cənab general.

**Xasay:** Cənab general! Əlahəzrət general! Doğrudan gurultulu səslənir.

**Şaman:** Səslənməsinə söz olanmaz.

**Katibə:** Az qalır ürəyimi yerindən qopara, hi... hi... hi...

**Gülnaz:** Kim sevinməz ki, sizin qələbənizə.

**Katibə:** Onu gözü götürməyənlər.

**Xasay:** Kaş otuz il əvvəl dünyasını dəyişən atam duraydı. Bu günümü görsəydi, sümüyü söyünərdi. Sevindiyindən ürəyi qəşş eləyər, dili ağzına sığmazdı.

*Xadimə gəlir. Əlində dolu torba var.*

**Xasay:** O nədi, aaz?

**Xadimə:** Yaxşı kələm şorabasıdı. Öz əllərimlə çəkmişəm. Üstündə də iki Ağdam çaxırı. Neyləyim ey, gücüm çatan budu. Gətirdim ki, Əlləşoviç, sənin generallığını ayaqüstü də olsa yuyaq...

*Hamı bir-birinin üzünə baxaraq gülümsəyir. Xadimə sözünə davam edir.*

**Xadimə:** Kasıb verən atın dişinə baxmazlar.

**Gülnaz** *(gülərək)*: Kasıb verən atın yox, bəy verən atın.

**Xadimə:** Kasıbın da, bəyin də...

**Katibə:** Kabinet çaxır vurmaq yeridi? Ağız, rədd elə şorabanı, çaxırı burdan. Bəyəm mən ölmüşəm, burda darğalıq eləyib at oynadasan?

**Xasay** *(udqunaraq)*: Əşi, gətirib də, xatirinə dəymə. Onun da gücü ona çatır...

**Şaman:** Əşi, aşıq gördüyün çağırar.

**Xadimə:** Əşi, məni nə danlayırsız. İçmək istəmirsiz, heç içməyin. Əlləşcanla özümüz vurarıq, düt deyincə.

**Katibə** *(əsəbləşir)*: Əvvəla, kişinin adı Xasaycandı, Əlləşcan döör. Özünü yığışdır.

**Gülnaz:** Katibə düz deyir. Köhnə bazara təzə nırx qoyma.





Eşidib-bilənlər öz adı qalar kənarda, it sürüsü kimi düşərlər generalın canına, hamı deyər Əlləşcan.

*Xadimə danışa-danışa masasının üstə süfrə sərir. Böyük boşqabda gətirdiyi şorabanı və çaxır şüşələrini süfrəyə qoyur. Xasay özünü saxlayanmayıb şorabadan ağzına qoyur.*

**Xasay:** Pəh-pəh... Əla... Təsəvvür elə, çaxırla necə gedər.

*Katibənin ürəyi qısılır. Gülnaz onun üzünü, başını sığallayır.*

**Gülnaz:** Vay! Vay, qız öldü, qız öldü qoymayın. Yarım stəkan su...

*Şaman qaçıb su gətirir. Gülnaz stəkanı alıb katibənin üzünə, boyun-boğazına səpir.*

**Xasay:** Bu xoş günümüzdə işə düşmədik? Bunda deyiblər də: — "Ayda-ildə bir dəfə kasıb oğurluğa çıxmaqda, ay da aydınlamaqda". Belə də dərd olar?

**Xadimə:** Özünü tülkülüyə qoyub, Əlləşcan. Məni sənə qısqanır.

**Xasay:** Əlləşcan yox... Səsini eşidən olar, o zurnaya mən oynayanmaram... Bir də ki nə qısqanmaq? Sən alahı, o alahı. Hərənin öz yeri var.

*Katibə özünə gəlir. Acıqlı-acıqlı xadiməni süzür. Xadimə qəsdən ona sataşır.*

**Xadimə** *(katibəyə)*: Gəl otur, özünə gəl, şorabadan dad, hər şey çıxacaq yadından, onda da olarıq günü-bacı.

**Şaman** *(zarafatla)*: Xasiyyəti pisdi. İnanmıram sənin şorabanın...

**Xasay** *(özünü çəkərək)***:** Bu gün heç kimin ixtiyarı yoxdu, mənim adıma açılan ziyafətdə şərəşurluq eləsin. Yaxud bir xəta törətsin.

**Gülnaz:** Mən yüz faiz Xasay Əlləşoviçin tərəfində.

*Katibə başını əlləriylə tutub sıxır. Sonra səndələyə-səndələyə süfrəyə yaxınlaşır. Şaman şüşələrin ağzını açır. Gülnaz çay sətkanlarını süfrəyə qoyur. Xasay stəkanlara çaxır süzür.*

**Xasay:** Dostlar, siz nə deyirsiz deyin, nə düşünürsüz düşünün, mən xadimənin vaxtında düşünülmüş cəld, çevik hərəkətlərini yüksək dəyərləndirirəm. Məsələ bir boşqab şorabada, adama bir-iki qurtum çaxırda döör... Məsələ diqqətdədi. Dostun, tanışın, qohumun şad günündə sevinməyi bacarmasındadı. Əzizim katibə, bilirsən ki, sənin xatirini mən evdəkindən də çox istəyirəm. İnan mənə, hər axşam yatanda, səhər yuxulu-yuxulu onun üzünü görürəm... Ancaq günümün hamısı sənin yanında keçir. Səninlə bir kabinetdə hava da alıram. Bir sözlə, insan kimi yaşayıram. Necə ola bilər ki, mən sənə qarşı etinasız ola biləm? Yox... Yox... Bu, mümkün olan şey döör. Dəhlizə də çıxanda ürəyim yanında olur. Gərək sən Xadiməylə mənim münasibətlərimə qısqanmayasan...

*Pauza*

Gəlin bu badələri içək Qara oğulun şərəfinə.

**Xadimə:** Qara oğul kimdi? Mən ziyafəti sənin üçün eləyirəm.

**Xasay:** Qara oğlu kim olacaq: — Mən!

**Katibə** *(özünü saxlayanmır)***:** Paa... Paa... Paa... Nə böyük ziyafətdi.

*Hamı gülüşür.*

**Gülnaz:** Sən canın, katibə, bir qurtum çaxır içəcök, bir qırıq





duzlu kələm qoyacoq ağzımıza, bəhanəylə zəhər eləyib gözümüzdən tökmə. Kişinin ağzından dür tökülür. Qoyun danışsın.

**Şaman** *(hiyləgərliklə)***:** Sözü kəsməyin. Söz kəsiləndə fikir yayınır. Hamınız birdən danışanda da fikir bulaşır. Nitq anlaşılmaz olur. Qarmaqarışıqlıq düşür. Hörmətli natiq əsas məsələdən yayına bilər. Biz dinləyək, Xasay xırdalasın. Nəyi düz olar, nəyi səhv, onu da lazım gəlsə, müzakirə eləyərik. Hərçənd Xasay artıq-əskik söz danışmaz. Ondakı bu əlahiddə qabiliyyətə bələd olmasaydılar, şübhəsiz yuxarılar ona general rütbəsi verməzdilər...

**Xasay:** Atana rəhmət, qanan kişi. Qanan adam gözümün işığıdı.

**Katibə:** Əşi, çox uzatma, nazirə xəbər verərlər, o da gələr, içdiyinizi sizə haram eləyər.

**Gülnaz:** Nazir nə bilir ki, biz indi burda nə iş başına çatı salırıq?

**Katibə:** Nə bilirsiz, bəlkə xadimə bu oyunları özü qurub? Bu, cənab Xasay Əlləşoviçə bir tələdi?

**Xadimə:** Danışdı da. Dinmirəm, danışmıram, hey qudurursan. Elənçiyə qalsa, cənab nazirə o qədər deyilməli şeylər var ki. Hər yanına girəndə, çıxanda hər dəfə bir az xırıd eləyərəm. Səni bir göz qırpımında atar bayıra.

**Xasay:** Dərinə getməyin, bunu da içək katibənin şərəfinə.

**Xadimə:** Bu lap ağ oldu. Şoraba gətirən, xərc qoyub çaxır alan, zırhazırla süfrə açan mən, şərəfinə tost qaldırılan isə katibə.

**Xasay** *(katibəyə)***:** Məclisdə gillədənlərə *(çırtmayla əlini boğazına vuraraq)* iki hörmət və nüfuz gətirən tost var. Əvvəlinci və sonuncu. Bu zifayətdə günün birinci şəxsi mən, əzizim, ikincisi sənsən. Bunlarsa, aralıqda vur-vur deyənlərdilər... Sən tələsmə... Hər şeyin öz vaxtı var.

**Xadimə:** Mən çox məclislər görmüşəm, doğrusu, sən deyən-

ləri eşitməmişəm.

**Şaman** *(xadiməyə)***:** Görünür, sən görənlər gədə-güdə məclisləri olub.

**Xadimə:** Mübahisə eləmirəm. Ola bilər.

*Qədəhlər doldurulur. Xasay ayağa qalxır.*

**Xasay:** Mən təklif eləyirəm bu badələri də içək can-ciyərimiz Gülnazın sağlığına. O da özüyçün bir gədə tapsın, ağır-yüngüllüyünü salqarlasın, salqarlamaz özü bilər, toy eləsin, biz də gələk doyunca gillədək və əl-qol açaq. Görsünlər, necə oğullar var?

*Qədəhlər vurulur. Başlar yavaş-yavaş qızır. Xasay ağzına şorabadan qoyur. Bu dəfə Şamanın üzünə baxır.*

**Xasay:** Şaman, a bala, bilirsən ki, şəxsən mən sənin xatirini çox istəyirəm. Arvadsız kişi şəxsən mənə küçələrdə sülənən itləri xatırladır. Gərək köməkləşib səni kişi eləyək.

**Xadimə:** Sözündən belə çıxır ki, Şaman kişi döör?

**Katibə:** Hər əyninə şalvar geyəndən kişi olmaz?

**Gülnaz:** Niyə olmur?

**Xasay:** Yaxşı, söhbəti çürütməyin. Bunu da içək Şamanın evlənməsi şərəfinə.

*Xadimə əlindəki mobil telefonunu işə salır. Kabineti gubbultulu musiqi sədaları bürüyür. Xadimə qollarını qaldırıb Xasayın əllərindən tutur və onu rəqsə dəvət eləyir. Xasay oturduğu kreslodan qalxır. O da oynamağa başlayır.*

**Katibə:** Hə... gözümüz aydın. Bircə bu çatmırdı.





*Şamanla Gülnaz əl çalırlar. Gözlənilmədən Şaman dizinin birini yerə atır. Gülnaz qıy vurur.*

**Xasay:** Hop-pa... Hop-pa... Hop-pa....

**Şaman** *(Xasaya)***:** Əla! Ayə, sən balaca vaxtı rəqsə getməmisən ki?

**Gülnaz:** Görünür gedib, getməsəydi...

**Katibə** *(Gülnaza)*: Allah, canımı aldı bu yaramaz. Görəm o nə vaxt öləcək, mən dincələcəm. *(Xasaya)* Adə, sən katibə tayısan?

**Gülnaz** *(əl vura-vura)***:** Qıiy... Quuy... Qıiy... Quu...y

*Əlacsız qalan katibə rəqsə qoşulur. Xasay tez-tez şalvarını çəkir.*

**Xasay:** Səni zəhrimara qalasan, əynimdə də qalmır.

*Otağı səs-küy bürüyür. Xasayın ayağı büdrəyir. O, döşəməyə uzanır. Katibəylə xadimə hərəsi Xasayın bir qolundan tutub qaldırır.*

**Xadimə:** Xasay Əlləşoviç, belə işiniz var, özünüzü gücə niyə salırsız?

**Gülnaz:** Mən Əlləşoviçin mıqqıltısından-naqqıltısından qorxdum. Başıma yüz söz gəldi.

**Katibə:** Nə?

**Gülnaz:** Elə bildim ağzıma daşlar ürəyi dayandı.

**Şaman:** Mən də elə bildim.

**Xadimə:** Ooy... Başıma daş düşən canım, kişi bir təhər olsaydı, mən neylərdim?

**Katibə:** Sənə nə var? Gedib arsız-arsız oturardın Xasaycanın arvadının dizinin dibində. Deyərdin, az qəm eləmə, gəl sənin-

kiləri də, mənimkiləri də birlikdə saxlayaq.

**Xadimə:** İnanmıram. Əlləşoviçin arvadının başın kəssən də, onu qəbul eləməz.

**Şaman** *(hırıldayaraq)*: Qəbul eləsəydi, gedərdin?

**Xasay:** Eləməzdi. Onun başı elə şeyi götürməz.

*Pauza*

**Gülnaz** *(qəsdən)*: Əşi, orda nə var ey. General arvadıdı, dərhal düşünəcəkdi ki, sənin gəlişin uşaqları dolandırmağa xidmət eləyir. Güman ki, o da humanist adam olar.

**Xasay:** Humansitdi. Məni çox istəyirsə, deməli, mənlə bağlı hər şeyi qəbul eləyər.

**Şaman:** De ki, arvad yıxılı evin dirəyidi də.

**Katibə** *(Şamana)*: Ay yazıq, sən arvad qədri nə bilirsən. Bilsəydin, küçə dolu dul arvaddı, tinlərdə qalmazdın ki. Çoxdan başını soxmağa sən də isti yer tapardın.

**Xasay:** Düz sözə nə deyəsən. Sən öl, Şaman, mənim katibəm imam övladı kimi bir şeydi.

**Şaman:** Üst-başının tozunu sil. Qapıdan girən olar, yaxşı alınmaz.

**Katibə** *(xadiməyə)*: Generalın üst-başını sil, qab-qacağını götür, qapıdan çıx.

*Xadimə Xasayın üst-başını süpürgəylə təmizləyir və gedir.*

**Şaman:** Üzünüzə günəş doğub, çox mübarək, yoldaş general. Balalarınla bir yerdə.

*Xasay tutulur, sifəti bozarır. Ancaq səbrini boğur.*

**Xasay** *(astadan)*: Zarafat, oynamaq, atılıb-düşmək qurtardı. "Yoldaş"ı o yana elə. O sovet mühitinin müraciətidi. İndi dəbdə ya cənab, ya da əlahəzrətdi. Qarnın ağrıyır hökumət vərəni də-





yəndə? Bir də ki o rütbə asanlıqla əldə olunan şey döör, Şaman.

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı geniş planda panorama edir. Xasayın yatdığı çarpayı ekrana yaxınlaşır. Xasay yanı üstə çevrilir. Çarpayı yavaş-yavaş uzaqlaşır.*

**Şaman:** Bağışlayın, Xasay müəllim, daha "yoldaş" sözünü demərəm. Bu axırıncı dəfə olar.

**Xasay:** "Müəllim"i də at getsin. O da bir şey döör.

*Pauza*

Cibləri boş, çənələri iti. Demaqoqdular. Hörmət eləyirsən, gəlib səninlə elə danışırlar ki, elə bil dədələrinə borcun var.

**Katibə:** Ağlamaq əllərində. Onlardan yenə həkimlər yaxşıdılar, düz demirəm, Xasaycan?

**Xasay:** Düzdü... Düzdü... Lap qızıl kimi... Dolmuş içim necə də boşaldı.

**Gülnaz:** Həkimlər müəllimlərdən betərdilər. Görünür onlar da əldə-gözdülər. Baş ağrı dərmanı əvəzinə, qarın ağrı dərmanı verirlər. Xəstəyə onların harası yaxşıdı?..

## V bölüm

**Katibə:** Can!.. Can!.. "Müəllim", "həkim" əl həzər. Onlardan danışmayın allergiyam tutur. Sizi başa düşürəm. Ancaq "cənab general", "əlahəzrət general" müraciətlərini eşidəndə o atamın goru haqqı mənim gözlərim önündə tamam başqa mənzərə canlanır.

**Şaman:** Doğurdan ha...

**Gülnaz:** Həkim, müəllim, mühəndis əl verən şey döör. Onların yüzündən bir qəssab yaxşıdı.

**Katibə:** Polis də pis olmaz.

**Xasay:** Ancaq...

**Şaman:** Nə ancaq, əlahəzrət?

**Xasay:** Alışıb-tutaşıb yanıram Şaman...

**Gülnaz:** Yansın sizi istəməyənlər.

**Şaman** *(Xasaya)***:** Niyə?

**Xasay:** Ayə, necə niyə? Vaxtilə valideynlərimin də başları xarabmış. Nə iş tutduqlarını özləri də bilməyiblər.

**Gülnaz:** Booy... Mən bunu bilmirdim.

**Katibə** *(təəccüblə)***:** Aa.... Niyə elə deyirsiz? Az əvvəl atanızın yaşamasını istəmirdiz?

**Şaman:** Cənab general, sizin tək oğulları olduğu üçün onlar dünyanın xoşbəxtləridilər.

**Katibə:** Sizin kimi oğul əkib, oğul doğmaq bəyəm asandı? Odu ha, doğub töküblər çölə-bayıra. Küçə-baca it sürüsü tək gədə-güdəylə doludu. Allah eləməsin, ananız özgə kişidən döl tutsaydı, onda neylərdiz? Hi... hi... hi... *(üzünü Şamana tutaraq)* Bəlkə yalan deyirəm, Şaman?

**Şaman:** Düzdü, düzdü...

*Pauza*

**Xasay:** Başın xarab olub. Döl nədi, aaz? Bu kor-kəsməz sözü hardan çıxartdın?.. Dərdin birini bilirsiz, birin yox...

**Gülnaz:** Döl. Döl. O nə olan şeydi?

**Katibə:** Döl?... Hi... hi... hi... Dərinə getmə, Gülnaz. Təkcə onu bilirəm ki, hər əyninə şalvar geyəndən kişi çıxmaz. Dünyanın hələ avam vaxtı Zeynəb qarı deyərdi: kişinin də öz atributları var. Elə biri bizim Xasaycan. Ondan savayı, indiyəcən kimə oturduğu yerdə general rütbəsi veriblər?

**Gülnaz:** Heç kimə.

**Şaman:** Mən də eşitməmişəm.

**Xasay:** Hə... Görürsüz? Elə bilirsiz kefdəyəm? Ancaq dərdim böyükdü, içim özümü yandırır, çölüm özgələri. Elə götürək mənim adımı: Xasay. A kişinin qızları, ağzımı açdırırsız *(əlini*





*ağzına vuraraq)*, bəyəm bu addı? O adı ağıllı və imkanlı adamlar itlərinə verirlər.

**Katibə:** Doğrudu.

**Gülnaz:** Düz sözə nə deyəsən?

**Xasay:** Bəxtimə bax, indi o adı mən daşıyası oluram. Xasay, deyə çağrılanda xəcalət çəkirəm. Ətim tökülür. Cavab vermək istəmirəm. Dağıl, dünya, dağıl! Nə durmusan?

*Pauza*

**Şaman:** Hə... Tüpürüləsi addı. Ancaq başqa yolunuz da yoxdu, məcbursuz, o ad altında gəzməyə. Lap tutalım çağırışlara cavab vermədiz, nə dəyişəcək? Heç nə?

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı geniş naporama edir. Xasay yatan çarpayı yaxınlaşır. Xasay yataqda çevrilir. Fısıltısı otağı bürüyür. Çarpayı yavaş-yavaş uzaqlaşır. Kadr dəyişir.*

*Gülnaz gedir.*

**Xasay:** Gülnaz elə bilir, kişi olub kef çəkirik. Atamın goru haqqı bundan arvad olmaq yaxşıydı. Uşağa, kişiyə baxacaqdıq, iş qurtarıb gedəcəkdi.

**Katibə:** Boş-boş danışma. Mən ikisini təcrübədən keçirtdim, zülmünü də gördüm.

**Şaman:** Kişi olsaydın, bilərdin kişilik nə olduğunu.

**Katibə:** Siz də arvad olmamısız. Qazan özün tərifləyir, çömçə deyir az təriflə, dibində bulanıb çıxmışam.

*Gülnaz əlində şokolad qutusu gəlir.*

**Gülnaz:** İkinci şirinliyi mən paylayım, cənab general. Görürəm, əsəbisiz. Belə bir şad gündə?

**Xasay** *(şokoladdan birini götürüb ağzına qoyaraq)***:** Sən də

eşit, Gülnaz, mənim adım cəhənnəm. Ona bir təhər dözmək olar. Atamın adına fikir verin: Əlləş. Ay camaat, vurun öldürün məni, vallah-billah bu da adam adı döör. Şəhərdə bir adam tanıyıram, çox varlıdı, pul onun üçün semeçka qabığıdı elə bil. Onun itinin adı Əlləşdi. Deməli, vaxtıyla babamın da başı o söz.

**Şaman:** O varlı-hallı kişini mən tanıyıram?

**Xasay:** Hə... Lap yaxşı. Dədəmə bax da, ayə, oturmağa yer tapmıram, xəcalətimdən. Dədəm Əlləş interesni adamıydı. Utanıb qızarmadan, abır-həya eləmədən həmişə babamın ağlından razılıq eləyərdi. Vecsiz-vecsiz şeyləri kişinin adına çıxardı.

*Pauza*

**Şaman:** Onunla mən də razılaşıram. Pis-yaxşı, kimin nəyi varsa, öz adında olmalıdı. Çırpışdırmaya o dünyada da yaxşı baxmırlar.

**Katibə:** Doğurdan ha. Ağlıma bax, indiyəcən mən heç fikir verməmişəm. Xasay, Əlləş. Bunlar nə əcaib adlarmış, aaz...

**Gülnaz:** Cənab general, özünüz açıb ağartmasaz heç kim, əvvəla, heç nə qanmayacaq, qananlar da deməyə cəsarət eləməyəcəklər.

**Katibə:** Babanızın da, elə dədənizin də başların dağlayım. O boyda əziyyət çəkib, bu boyda kişi qayırıblar, görün zavallıya necə adlar qoyublar? Adam utanır.

**Gülnaz:** Vay!.. Vay!... Dilim-ağzım quruyub, danışmağa söz tapanmıram. Mən cənab generalın yerinə olsaydım, vallah çoxdan intihar eləmişdim. Necə dözüb yaşayır, bilmirəm?

**Şaman** *(Xasaya)***:** Əşi, fikir vermə. Başın sağ olsun, ölüylə dirinin haqq-hesab çəkməsi çətindi. Bundan sonra nə sizin, nə də atanızın adını çəkən olacaq. Hamı sizə ya "cənab", ya da "əlahəzrət" deyə müraciət eləyəcək. Adamları vəzifə düşündürür, ad-familiya yox. Beləcə sizin və atanızın adı boş şeydi, itib-batacaq.

**Xasay:** Soyadım onlardan da betərdi: Mıxı. Buna nə deyəsiz?





Bu da ulu babamın kəraməti. Əşi, mən döörəm, sizsiz, general Əlləşoviç, Cənab general Xasay, — deyə ad-familiyamla çağırsalar, ürəyinizə yatar? Mənim əvəzimdə ət tökərsiz, ya tökməzsiz? Zeynəb qarı bunda deyib: "Özgələr gedib bülbül gətirir, mənimkilər bayquş".

**Katibə:** Neujenni sizin belə əcaib-qəraib nəsliniz varmış? Lap ölüb yerə giriləsiymişlər. Gərək, uşaq vaxtı adınızı dəyişəydiz.

**Şaman:** Hansını dəyişəydi? Adını, atasının adını, ya soyadını? Əvvəla, hökumət qoymazdı. Qoysaydılar da, cənab general olardı tamam başqa adam. Üçüncüsü də, bu heyvərəliyə kişini oturub-durub ələ salacaqdılar.

**Gülnaz:** Onda da, cənab general, adınız qalardı bicdən olma. Atası bilinməyən, özgə familyasında bir adam.

*Pauza*

**Xasay:** Tamamilə düz deyirsən? And içib kimi inandıra bilərdim ki, ürəyim istəyib, adımı, atamın adını və soyadımı dəyişmişəm. Əşi, özgələr o yana dursun, özümünkülər bir vay-şüvən qopardılar, gəl görəsən. Qanmazlıq faciədi. Qanmazla yaxınlıq eləyincə itlə yorğan-döşəyə girmək yüz min dəfə ondan yaxşıdı. Biqeyrət atam da eləydi.

**Katibə:** Doğurdan da, dərdin böyükmüş, Xasaycan.

**Xasay:** Hələ bu toya getməlidi. Atam biqeyrətin vəsiyyətinə bax: "Oğlun olsa, nəslindən-kökündən uzağa getmə, ata-babanın adıyla yaşat". Elə bilirdim atam ağıllı başlı kişidi, gövdəsinə aldandım, anam da başıma bir ağıl qoymadı, əksinə, məni qızışdırdı, dedi: "Atanın sözündən çıxma, nə deyir onu da elə..." Mən yaramaz, mən külbaş da dalın-qabağın sonalamadım, oğlumun adını qoydum, o vəsiyyət eləyən kimi: Əlləş Xasay oğlu Mıxıyev. Geci-tezi var, o da gələcəkdə məni söyəcək...

**Katibə:** Oğlun bəlkə ona tərəf çəkəcək.

**Xasay:** Elə olsa, lap başıma daş düşəcək.

**Gülnaz:** Niyə?

**Xasay:** Orda da ağıllı adam görmürəm.

**Gülnaz:** İşi tamam korlamısız ki. Bəlkə familiyanızı dəyişib arvadınızınkını götürəsiz.

**Xasay:** Dedim axı, olar da bir şey döör. Onda gərək arvadı dəyişəm.

**Şaman:** Dəyişin. Bəyəm arvad familiyasına keçənlər azdı?

**Katibə:** Bəyəm o asandı. Özü də iki uşaqla. Yox, o çox müəmmalıdı, cənab general.

**Gülnaz:** Onda da deyəcəklər Xasay arvad hesabına kişidi. Vay... Vay... Vay... O papaq altında yaşamaqdansa, ölmək yaxşıdı.

**Şaman:** Adamın əti tökülür... Bizim generalda yamaqlıq yoxdu.

**Katibə:** Adamlar qəribə olublar ey. Oturan yerdə adama bir şəbədə qoşurlar, gəl görəsən. Odu ha... Nəcməddin... Kişinin altmışa yaxın yaşı var. Atası da bəllidi. Hansı anasının əmcəyini kəsənsə, vaxtıyla bir dəfə ona deyib: "Balaca Nəcməddin atasından çox qonşuları Əzizağaya oxşayır". Düz əlli ildən artıqdı kişini məsxərəyə qoyub hallandırırlar. Əzizağa neçə ildi ölüb. Onu görməyənlər də deyirlər: "Nəcməddin eynən Əzizağadı. Elə bil Əzizağanın başın kəsib Nəcməddinin çiyinlərinin üstünə qoymusan..." Bax, beləcə yazıq kişinin nüfuzu ayaqlar altında xıncımlanır. Sizin belə vəziyyətə düşmənizə mən də razı olanmaram.

**Xasay:** Yox, qadası, mən də az aşın duzu döörəm. İmkan vermərəm ki, atasından xəbərsiz adıyla məni dünyadan yola salalar. Yazığım oğlum Əlləşə gəlir. Hələ arvad yaxşı ki, başa düşmür. İnsialımın mənasını o, bilə ha, dünyanı dağıdar. İnanmıram o, mənə: — Ərim, — deyib üzümə baxa... Atam məni əcəb işə salıb.

*Pauza*





**Katibə:** Fikir eləmə. Rəhmətlik nə eləyib, eləyib, dəxli yoxdu, pisdi-yaxşıdı atan olub. Səhvlərini unut getsin.

**Xasay:** Demək asandı. Unutmaq olur ki?

**Katibə:** Fərqi yoxdu. Atanı da unut, familiyanı da. Qanmazlığını da. Savadsızlığını da.

**Xasay:** Anama da zülm eləyirdi. Yadıma düşəndə içim gör-gör göynəyir.

**Gülnaz:** Mən elə atanı saçlarından asardım... Keçənə güzəşt deyərlər. Qaldı adına, bayaq, necə, necə dedin, hə, hə gərək ki insialına. Adamları tanımırsan. Qəm eləmə, sənə "cənab general", "əlahəzrət general" deməklə kifayətlənəcəklər.

**Şaman:** Vəzifə olan yerdə axmaqlıqlar gözə görünmür. Görünsə də, elə mənalandırırlar, əlin üzündə qalır, sən də elə güman eləyirsən, bundan yaxşısı yoxdu...

**Xasay:** Deyirsən, belə gedər?

**Şaman:** Gedər... Gedər... Əlahəzrət.

**Katibə:** Sözümüz sözdü, cənab general, gedəndə məni də özünüzlə çəkib aparın. Onsuz da burda əllisi əlli söz qoşub bizə... Nə qoşurlar qoşsunlar, mən elə qoşqulardan qorxmuram. Şəxsən sizinlə fəxr eləyirəm, cənab general.

**Xasay:** Elə mən də fəxr eləyirəm.

**Katibə:** Atana rəhmət... Ona görə də səni çox istəyirəm.

**Xasay:** İstə... Lap çox... İstəsən yaxşıdı.

*Pauza*

**Şaman:** Dost sevinər, düşmən o söz...

**Katibə:** Sizsiz bir günüm də olmasın... Çətini general olmaqdı.

**Xasay:** Qorxuram, general etimadını doğruldanmayam. O sistemə bir az nabələdəm ey.

**Şaman:** Kimdi bu zəmanədə yerində olan. Kimi hara gəldi dürtüşdürürlər. Sən də o dürtülmüşlərdən biri.

**Xasay:** Olum ey, ancaq nəsə dürtülmək sözü xoşuma gəlmir.

**Gülnaz:** Doğrudu, siftə-siftə çətin olur... Öyrənişəcəksiz.
**Katibə:** Doğruldarsız. Bəyəm mən ölmüşəm, nə lazımdı kömək eləyəcəm. Bir adam yanımda göz qırpanmaz. Arxeyin olun.
**Gülnaz:** Neyləyəcəksən?
**Katibə:** Gətir-götür öz əlimə alacam. Atılıb-düşənin ağzın cıracam.
**Xasay:** Əşi, onu mən özüm də eləyərəm. O mənim üçün problem döör. Əsas məsələ qanunları, hüquqları bilməkdi.

*Qapı açılır. Xadimə qımışa-qımışa içəri daxil olur. Hamının gözləri ona dikilir.*

**Katibə** *(əsəbi halda)***:** Yenə lo xəbər?
**Xadimə:** Sən məni dəli eləyirsən. Cənab generalla aramıza az düşmənçilik toxumu səp. Yadda saxla ki, sənin mənə gücün çatmaz. Dalımda dayananları bilsən, ürəyin çatlar. Qurban olasan cənab generala. Yoxsa, səni gecəykən götüzdürərəm.
**Katibə:** Xox... Qorxdum ha...
**Xasay:** Səsinizi başınıza atmayın. İkiniz də yaxın gəlin.

*Katibəylə Xadimə qoşalaşıb Xasayın qarşısında dayanırlar. Xasay onları ayaqdan başacan mənalı-mənalı süzür.*

**Gülnaz** *(Şamana)***:** General bunları neyləyəcək?
**Şaman** *(çiyinlərini çəkərək)***:** Kiri... Görək axırı necə olur.
**Xasay** *(katibəylə xadiməyə)***:** Artıq düşüb? Bölüşdürənmirsiz? Mənim dərdim-sərim elə sizsiz? Başım çatlayır. Faktları, hadisələri əlaqələndirməkdə çətinlik çəkirəm, sistemləşdirənmirəm, siz də vurub bir tərəfdən dağıdırsız. Barənizdə nə tədbir görüm? Bu gün-sabah gördüyüm işlər barədə məndən hesabat istəyəcəklər. Deməliyəm ki, katibəylə xadimə məsələsini həll eləmişəm. Vaxtım olmayıb suallarınıza yerli-yataqlı cavab verim?





**Katibə:** Bağışlayın, əlahəzrət general. Axırıncı çəh-çöhrümüz olar.
**Xadimə:** Bu dəfə sizin xatirinizə keçdim katibənizin günahından.
**Xasay:** Gözlərimin qabağındaca qucaqlaşın, öpüşün.

*Katibəylə Xadimə qucaqlaşırlar, öpüşürlər. Xasay uyur. Gülnazla Şaman əl çalırlar.*

**Şaman:** Əla!.. Xoşuma gəldi... Əsl humanizm.
**Gülnaz:** Kişi belə olar. Qarşılıqlı hörmət. Böyük izzət.
**Xasay:** İndi eşidirəm, xadimə. Şəhərdə nə hadisə baş verib?
**Xadimə:** Patamdartda kamazla jiquli toqquşub. Jiquli yerə yapışıb. Kamaz aşıb.
**Katibə:** Ölüm var.
**Xadimə:** Hi... hi... hi... Ölüm olmasa, bura gələrəm ki?
**Xasay:** Onun mənə dəxli yoxdu. Onun öz cavabdehləri var. O, məndən ötrü ... Daha nə baş verib?
**Xadimə:** Şəhərdə dava düşüb. Çoxlu sayda ölən, yaralanan var. Ölüləri morqa, yaralıları xəstəxanalara yerləşdiriblər. Deyilənə görə çarpayı, iynə, dərman, sarğı çatışmır.
**Gülnaz:** Dədəm vay. Bu ki biabırçılıqdı. Bir azdan xarici televizorlar bizdən piləyəcəklər.
**Şaman:** Cənab general, bu hadisələrin sizin imicinizə təsiri olmaz ki?
**Xasay:** Yox... Bunların da mənə dəxli yoxdu.
**Xadimə:** İqtidarla müxalifət arasında deyirlər razborka olub.
**Xasay:** Nə? Necə?
**Katibə:** Özünüzü ələ alın. Elə gözlənilməz reaksiya verməyin.
**Gülnaz:** İsti başda ağıl olmaz deyiblər.

**Şaman:** O sözü müxalifət deyib, yoxsa iqtidar?

**Xadimə:** Kim deyib, fərqi var?

*Pauza*

**Xasay:** Var, əlbəttə var! Müxalifət deyibsə, boş şeydi, iqtidar deyibsə, o sözün dalı qovulacaq. Bu sözün birbaşa mənə dəxli var. Gərək yatmayaq, ayıq-sayıq olaq... Əks halda mənə "Nə yemisən, turşulu toyuq əti" eləyərlər *(üzünü xadiməyə tutaraq)*. Da nə eşitmisən?

**Xadimə:** İranın hədə dolu bəyanatından sonra Amerika hərbi gəmiləri Hörmüz boğazına yaxınlaşır.

**Katibə:** Lakatorları nə dəqiq işləyir, əə, bunun.

**Gülnaz** *(xadiməyə)***:** Ürəyimizi çatlatma.

**Xadimə:** Hələ harasıdı?

**Şaman:** Dalı da var?

**Xadimə:** Hi... hi... hi... Avam-avam danışma, dalsız şey olar?

**Xasay:** Yadda saxla, sənin dediklərin kəşfiyyat qrupunun sözləriylə düz gəlməsə, sənə indi etimadsızlıq göstərəcəm.

**Gülnaz:** Ay aman.

**Xadimə:** Siz söhbətinizi eləyin, mən gedim görüm, təzə nə xəbər var.

*Hamı gülüşür. Xadimə gedir.*

**Şaman:** Cənab general, atalar deyib, şər deməsən xeyir gəlməz. Etibarsız dünyadı, işdi-şayətdi çepe baş versə, səhlənkarlıq eləsəz, "uf" demədən sizin özünüzü də atarlar içəri. Dalınızca gələniniz də olmaz. Ehtiyatlı olun. Ehtiyatlı oğulun anası ağlamaz.

**Katibə:** Əşi, sən də lap korladın,  tüpürmə kişinin əlinin üstünə. Cənab generalın cəsarəti olmasaydı, ona bu rütbəni verməzdilər. Keçmə müsəlmanın paxıllığından. İkincisi də, de görüm hansı general Xasay Əlləşoviçdən artıqdı? Kişilər qaz vurub qazan doldururlar, bununsa, gözləri qalıb onun-bunun əlində. Soruşan da yoxdu, balası acdı, ya toxdu.





**Gülnaz** *(katibəyə)***:** Aa... Şaman nə dedi ki, sən elə əsəbləşirsən?

**Katibə:** Onu özüm bilərəm, xanım. Şamanın "mıqqın"da başa düşürəm, "hıqqın" da. Sən də onun vəkili seçilməmisən. Cənab general əvvəla, qayda-qanunu hamıdan yaxşı bilir. Sonrası da, qayda-qanun qara kütlə üçündü. Yadda saxlayın, heç zaman aşağıdakıların bağırtısı yuxarılarda eşidilmir.

**Şaman:** Niyə?

**Katibə:** Çünki eşidilsə, aşağıdakılar bit-birə kimi daraşarlar yuxarıdakıların canına. Onda da fəlakət başlanar.

*Pauza*

**Şaman:** Sən deyənlərin bizim cənab generala dəxli yoxdu. İnanmıram, o, xalqdan ayrı düşə.

**Gülnaz:** Yox, mən burda səninlə razı döörəm, Şaman. Özün də boş-boş danışma. Xalq, millət məqsədə çatmaq üçün bir bəhanədi. Cənab generalın dediyi ilə əməli düz gəlsə, onda işləyənməz ki. Zeynəb qarı demişkən, hi... hi... hi.... nə əl-əli yuyar, nə də əl üzü?

**Xasay** *(başını yelləyərək)***:** Xərc qoymamışam ki, yerin dolduram. Cəhənnəmə, haracan gedər, gedər. Deyirsiz, gündəlik araq pulu da olmayacaq?

**Katibə:** Siz nə danışırsız? Qanı əvvəl verdiz, ya sonra, nə fərqi var? Axırı ki, verirsiz.

**Şaman:** Elə bil bu cəmiyyətdə yaşamırsız? Zeynəb qarı demişkən, sizin xətti-xalınıza, gül cəmalınıza susayıblar, cənab general? Vermək qanundu. Qanuna əməl eləməmək cinayətdi.

**Katibə:** Dəli eləməyin, əlahəzrəti. Bir az işləsə, özü hər şeyi hamıdan yaxşı bacaracaq. İnsafən, adamları satmaq barədə özünün də yaxşı təcrübəsi var.

**Xasay** *(katibəyə)*: Onu saxla *(Şamanla Gülnaza)*. Özünüzü gücə salmayın. Yuxarının da, aşağının da öz dili var. Çətini bir dəfə dil tapmaqdı. Tapdın ha gedir, özü də yağ kimi.

**Katibə:** Əşi, ekstremal vəziyyətdə səni əl-amanda qoymaram, kömək eləyərəm.

*Pauza*

**Xasay:** Sən bilməyən iş yoxdu... Vallah katibə döörsən ey, qızılgül ləçəyisən. Sənə katibə deyənin lap atasına lənət.

**Katibə** *(gülümsünərək)*: Bəs nə desinlər?

**Gülnaz:** Fillənmiş.

**Katibə:** Uy, siz Allah, o yana eləyin. O sözdən lap uşaqlıqdan zəhləm gedir. Məktəbə gedəndə altı yaşım vardı. Rəfiqələrim o sözü bir dəfə mənə demişdilər. Onlardan küsüb-incidim. Hələ də danışmırıq. Xasiyyətim tünddü, adamdan küsməyim, elə ki, küsdüm ha, heç vaxt barışanmıram.

**Şaman** *(gülərək)*: Belə çıxır ki, səndə dəvə kini var, həə...

**Xasay** *(üzünü katibəyə tutaraq)*: Məni səndən yaxşı tanıyan yoxdu. Şaman düz tutub.

**Katibə:** Küsdürməyin məni. Xoş sözlə istəyirsiz gəlib lap canımı alın, muzayğısı yoxdu, olmayacaq da. Təki ürəklər bir olsun. Mənə can desəniz, məndən də can eşidəcəksiz... *(üzünü Xasaya tutaraq)* Məsələdən yayınmayaq. Cənab general, özünüzü çəkin, sinənizi qabardın, adam içində çox sadə aparmayın, o saat düşünəcəklər, ya avamsız, ya pulunuz yoxdu, ya da adamsızsız. Dal-daldanız yoxdu. Dalsız kişinin iki qəpiklik dəyəri olmaz. Həmişə adamların başının üstündən uzağa baxmağı bacarın. Adamlar elə bilsinlər, onları görmürsüz. Ya da imkanınız çoxdu, onları adam yerinə qoymursuz. Çalışın dost-tanışdan uzaq olun. İmkan verməyin, onlar sizə yaxınlaşmağa cəsarət eləsinlər. Yoxsa, xahiş-minnətlə baş-beyninizi aparacaqlar.

**Xasay:** Onları bilirəm.

**Şaman:** Xanım düz deyir, bir az da yalan danışmağı artırın.





Yuxarılara yox ha, aşağılara. Çaşıb yuxarılara da deyərsiz, atarlar sizi içəri.

**Gülnaz:** Ayağı sürüşkənliyi azaldın. Çox gəzəntilik düşmənlərinizi artırar. Kimi sizdən çox umacaq, kimisi də sizə paxıllıq eləyəcək.

**Katibə:** Ona imkan vermərik.

**Xasay** *(Gülnaza)*: Heç ərdə olmusan?

**Katibə:** Neçəsində. Biriylə də vot-votdadı.

**Xasay:** O axmaq şeydi. Ürək istədisə, sandığa girsə də, ordan baş qaldıracaq.

**Gülnaz:** Allah üzünüzün suyun töksün. Ərdə olmaq başqa, demək başqa.

**Şaman:** Cənab general, atanşikliyi azaldın. O hərəkət generala yaraşmaz.

*Telefon zəng çalır. Xasay dəstəyi götürür.*

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasayın çarpayısını yaxınlaşdırır. Xasay çarpayıda arxası üstə yatıb. O üzünün milçəyini uçurur. Yanı üstə çevrilir. Çarpayı yavaş-yavaş uzaqlaşır.*

*Kadr dəyişir. Xasayın telefon danışığı davam edir.*

**Xasay:** Alo... Alo... Eşidirəm.

**Səs:** Səni təbrik eləyirəm.

**Xasay:** Əlinizdən öpürəm.

*Xasay qalstukunu çəkişdirir.*

**Səs:** General, gərək etimadı doğruldasan.

**Xasay** *(titrək səslə)*: Başımla... Siz ayağınızı qoyduğunuz yerə, mən başımı qoyacam.

**Səs:** Bir azdan sənə mundir gətirəcəklər. Gərək ki razmerin

qırx altıdı.

## VI bölüm

**Xasay:** Bəli!... Bəli!... Qırx altı...
**Səs:** Mundiri geyin. Tapşırığı al. Planla tanış ol. Qorxma...
**Xasay:** Oldu...

*Xasay sevinir. Qalxıb kabinetdə əvvəl katibəni, sonra Şamanı, axırda Gülnazı qucaqlayıb öpür.*

**Gülnaz:** Cənab general, siz düzələn deyilsiz. Sözsüz-söhbətsiz, necə gəldi qadına-kişiyə fərq qoymadan tutub basmarlayırsız. Razılıqsız-filansız şey olar? Hi... hi... hi...

*Gülnazla Şaman gedirlər. Katibə gözləmə otağına keçir, tez də qayıdır.*

**Katibə:** Cənab general, bir kişi gəlib, əlində bükülü var, sizi görmək istəyir, kefi də kökdü.
**Xasay:** Gözlərin yığışmır, onda-bundadı... Nədən bildin kefi kökdü.

*Pauza*

**Katibə:** Mənim zövqümdə döör... Gözləri gülür, hal-əhlinə oxşayır, görünür, sizi təbrikə hədiyyəylə gəlib. Məncə beləlirini qəbul eləmək pis olmaz. Nə deyirsiz, gəlsin-gəlməsin?

*Xasay güzgünün qənşərinə keçir. Saçlarına sığal çəkir. Köynəyini, qalstukunu düzəldir. Sonra keçib kreslosunda əyləşir.*

**Xasay:** Qapı dalında saxlama, de gəlsin.





*Katibə kabinetdən çıxır. Ucaboy, qarnı xeyli qabağa çıxan, qarayanız, lopabığ kişi içəri girir. Qucaqlayaraq Xasayı öpür. Sonra stulda əyləşir.*
*Katibə çay gətirir.*

**Kişi:** Sizi təbrik eləyirəm. Böyük etimaddı. Rütbə və tutduğunuz vəzifə yüz ölçüb-bir biçməyi tələb eləyir. Alkoqollu içkiləri, yüngül-düngül hərəkətləri sevmir. Olsa, tez bir zamanda şəhərdə yayılacaq, səni də nüfuzdan salacaq.
**Katibə** *(etinasız halda)*: Gecikmisiz, onları mən demişəm. Ciddi nəzarətə götürmüşəm... İnsafən, özü də başa düşəndi.
**Kişi:** Lap yaxşı *(üzünü Xasaya tutaraq)*. General, bu, xanımınızdı?
**Xasay:** Yox... Katibəmdi.
**Kişi:** Çox qabağa çıxır... Katibənizə çox üz verməyin... Rütbənizə görə, küçəyə çıxan kimi hamının gözləri sizə dikiləcək. Onsuz da hər şeyi bəhanə eləyən müxalifət də sizdə qəbahət axtaracaq... Alış-verişə hərisliyinizi azaldın. Çalışın dil-ağıza düşməyəsiz. Düşsəniz saqqız kimi çeynəyib-çeynəyib sizi çürüdəcəklər.
**Katibə:** Nə lazımdı, özüm demişəm.
**Kişi:** İmkan verin, xanım, sözümüzü deyək.
**Xasay:** Sizi tanımadım.
**Kişi:** Vaxtı çatanda tanıyarsız, indi mundirinizi gətirmişəm, general, qalxın geyinin, uyğun gəlmirsə, dəyişək.

*Xasay ciddi görkəm alır. Kreslodan ağır-ağır qalxır. Kostyumunu çıxarıb mundiri geyinir. Katibə Xasayın kostyumunu şkafdan asır. Xasay keçib kresloda əyləşir.*

**Kişi:** Siz anadan general doğulmusuz, Xasay Əlləşoviç Mıxıyev.

**Katibə** *(Xasaya)*: Maşallah, tu... tu... göz dəyməsin, mundir sizə elə yaraşır, lap şeytana lənət yaraşan kimi.

**Kişi:** Ağlayışın bilməyən, ölüsün bozdar — deyə çağırar.

*Kişi başını yelləyir. Sonra qalxaraq kabinetdən çıxır. General gözlərilə onu qapıyadək müşayiət eləyir.*

**Katibə:** Zeynəb qarı demişkən, gözəllik ondu, doqquzu dondu... Yenə sizi təbrikə gələnlər var. Çağırım, gəlsinlər?

**Xasay:** Bir-bir... De tələsirəm, yuxarı getməliyəm... Vaxt yoxdu... İçəridə çox dayanmasınlar... Qısa və konkret.

**Katibə:** Oldu, cənab general.

*Katibə kabinetdən çıxır. Ağakişi içəri atılır. O, Xasayı qucaqlayır.*

**Ağakişi:** Siz bizim fəxrimizsiz. Balakişiylə Qarakişi də gəliblər, qapının ağzındadılar, içəri girmək istəyirlər. Hərəsinin də əlində bir şüşə araq. Dedim, ayə, qoyun mən gedim, vəziyyəti araşdırım, öyrənim, imkan olsa, sizi də içəri dəvət elərik.

*Pauza*

**Xasay:** Yox... Adam balasısız, içib-çəkməyi yığışdırın. Mən daha siz deyən adam döörəm. Canınız üçün üçünüzü də...

**Ağakişi:** Nə tez?.. *(məyus-məyus)* Mən belə də bilirdim. *(fikrə gedir)* Görməmiş adam tez qudurğan olur... Hi... hi... hi... Qaldı böyümənə, mən bilirdim, səndən bir şey nə vaxtsa çıxacaq, şükür, çıxdı da. Ancaq özünü qoru... Adamlar çox etibarsızdılar, namərddilər. Bəhanə axtarırlar satqınlığa, üzə durmağa...

*Xasayın iti nəzərləri Ağakişinin gözlərinə dikilir. Ağakişi çəkinir.*





**Xasay:** Necə gəldi tullama, adam oğlusan.

**Ağakişi:** Oldu... Ağlınızın bolluğu gözlərinizdən oxunur, Xasay. Həqiqətən də siz general olmağa layiqsiz. Sevinirəm, axır ki öz yerinizi tutduz. Siz də böyük nüfuz sahibinə çevrildiz. Doğrudu, bir az diliniz acıdı, ancaq sədaqətli adamsız. Əlləşin oğlu belə də olmalıydı... Güman eləyirəm, cənab general, araq dostlarınızı unutmayacaqsız. Hərdən bizimlə vurmağa vaxt tapacaqsız.

**Xasay:** Bura Əlləş-məlləş yeri döör. Vurmağı da yığışdırın... Tez elə, sözünü qurtar, növbədə adamlar var.

**Ağakişi:** Bir oğlum var, o da işsizdi. Onu götür yanına, olsun cangüdənin.

**Xasay:** Get... Get... O sonranın işidi.

**Ağakişi** *(gedə-gedə)*: Yetim oğlanlarıq, Xasay. Allah sizə versin, siz də bizə. Zeynəb qarı demişkən: "Əl tutmaq Əlidən qalıb". Savabı bəsdi sizə, cənab general.

*Ağakişi qapıdan çıxır. Qarakişi gəlir. Generalın əlindən öpür.*

**Qarakişi:** Sən Allahın nəzərindəsən, Xasay müəllim.

**Xasay** *(əsəbləşir)*: Ayə, yekə kişisən, bir ayağın burda, o birisi gorda. Qanmaz olaraq qalırsan. "Müəllim" nədi, əə?

**Qarakişi:** "Müəllim"dən yaxşı söz?

**Xasay:** Dılğır oğlu dılğır, şor satana da müəllim, mənə də? Hərənin öz peşəsi var. Dilin quruyar rütbəmi desən? Burdan çıxanda da ağzını qoyacaqsan Allah yoluna... Sərəyləyəcəksən.

**Qarakişi:** Deyirsən, sadəcə general deyim?

**Xasay:** Qıçın boyda katibə "cənab general", "əlahəzrət general" deyir, sənsə... Ayə, vallah, üzdən iraq, mən deyəndənsən ey, mən deyəndən! Özü də burunlu qulaqlısından.

**Qarakişi:** Ayə, nə qışqırırsan? Bir saat əvvələdək sən kim

idin? Nə olub? Yavaş-yavaş da. Evdə bişməyib, qonşudan gəlməyib. Birdən-ikiyə, bu döörsə, bizim generalımız olub?

**Xasay:** Sözünü de.. Bas bayıra... Aç qulağını eşit. Dostlarına da de... Da mən əvəlki Xasay döörəm.

**Qarakişi:** Bə nəsən? Da bizim qulağımız olmursan? Vay!.. Belə də tez unutqanlıq? Bu ki biabırçılıqdı. Eşidən sənə nə deyər?

**Xasay:** Nə qədər bacarırlar, qoy desinlər... Üz verəndə astar da istəyirsiz.

**Qarakişi:** A başına dönüm, astarsız üz olar?

**Katibə:** Ayə, səndən başqa da qəbula gələnlər var. Dur bas bayıra.

**Qarakişi:** A bacı, sən bilirsən mən kiməm?

**Katibə:** Niyə bilmirəm: Narkaman... Alkaş... Generalı özünə tay eləmə.

**Xasay** *(Qarakişiyə)***:** Xanım düz deyir. Məni dəli eləmə. Zəhərə qalaydı o yüz-yüz atmalar.

**Katibə** *(Qarakişiyə)***:** Yooxx... Sənin səviyyəndə qalmalıydı.

**Qarakişi:** Görürəm, çox tez dəyişmisən, qağa.

**Xasay:** Evin yıxılsın, "qağa" nədi? Dedim, "cənab general!".

**Qarakişi:** Bağışlayın "cənab", "əlahəzrət general". Ağzım öyrəşməyib bu sözlərə. Arxeyin ol, tezliklə düzələcək.

**Xasay:** O sözlərin ikisin birdən demə. Ya cənab, ya da "əlahəzrət general" de.

**Qarakişi:** Oldu.

**Xasay:** Yaxşı, başqa nə sözün var?

**Qarakişi** *(sakit tərzdə)***:** Mənim baldızımı bəlkə yanına katibə götürəsən. Əlimiz aşağıdı. Heç olmasa, o özünü işləyib dolandırsın. Mən də qulluğunuzda hazır. Bu şəhərin cikinə də bələdəm, bikinə də. Evində kimin hansı üzdə yatdığını da deyərəm sənə.





**Katibə:** Ayə, nə nanəcib adamsan, əə. Üzün üzümə, gözlərin gözlərimə, mənim ayağımın altını qazırsan?...

**Xasay:** Katibə var, mükəmməlindən. Bayaqdan vermisən çənəyə qanmırsan ki, özündən böyüyə "sənə" yox, "sizə" deyərlər.

**Qarakişi:** Əşi, nə fərqi var lap olsun sizə. Tüstü düz çıxsın... Bir katibə sizə neyləyəcək?

**Xasay:** Əbləh... *(əsəbi halda)* Dur get.

*Qarakişi kabinetdən çıxar-çıxmaz Balakişi özünü içəri salır.*

**Balakişi:** Atamın goru haqqı, bu günü ömrüm boyu özümə arzulamışam. Axır ki yuxarılarda bizim də dayağımız oldu. Sizin ətəyinizdən yapışa bilərik. Üz tutan yerimiz var. Dost dostun nəyinə gərəkdi? Əllərin yeməz, ayaqların yeməz. Ağrısın-acısın çəkər. Yeri gələndə də malades qazanar... Nə çətinliyin olsa, mən hazır. Utanmazlıq eləyirəm, nökəriniz qardaşım türmədədi. Nə var, nə var, arvadın öldürüb. Əşi, arvad öldürməkdən ötrü də adam tutarlar?.. Əşi, belə də haqsızlıq olar? Sevəndə yaxşıydı, öldürəndə pis?.. Onu türmədən çıxara bilsəz, vallah qulunuz olaram...

**Xasay:** Yaxşı, sən də get.

**Balakişi:** Axı "hə", "yox" demədiz.

**Xasay** *(əsəbi halda):* Dedim get. Ayə, nə qanmaz adamsan!

*Balakişi gedir, Pirvəli gəlir. Xasayı öpür.*

**Pirvəli:** Vəzifə at kimi bir şeydi, Xasay! Nə qədər altındadı sənindi. Elə ki düşdün üstündən, əlindən verdin, bir də geri qayıtmayacaq. Balalarına gün qazan.

*Xasay əlini çənəsinə dirəyərək Pirvəlini diqqətlə nəzərdən*

*keçirir.*

**Xasay:** Mən sizi tanımadım.

**Pirvəli:** Deyərəm, xatırlayarsız. Eşitdim general qayırıblar sizi, gəldim deyəm ki, hər şey yadımdadı, heç şeyi unutmamışam. Siz də çaşmayasız.

**Xasay:** Çox yaxşı. Daha nə sözün var?

*Pauza*

**Pirvəli:** Gəldim deyəm, Allah sizə qapı açıb. Papağınızı havayı yandırmayın günə. Hamı özünə qırmanc çalır. Zeynəb qarı demişkən: "Bu evin işığı o evə düşmür". Görürsüz, vəzifədəkilər neyləyirlər? Kirəvəsinə keçəni çalıb-çapırlar. Altlarını doldururlar. Ailələrinə gün qazanırlar.

**Xasay:** Başqa sözün?

**Pirvəli:** Qardaş canı, zaman ayrı zamandı, pulu olan həmişə, hər yerdə kişi sanılıb, elə indi də. Pulsuz kişidən arvad da bezardı.

**Xasay:** Adını unutmuşam?

**Pirvəli:** Bıy... Nə tez? Adım Pirvəli Lənkərani.

**Xasay:** Siyasi səhvə yol vermə.

**Pirvəli:** Səhvin də siyasi-miyasisi olur? Bu da təzə çıxdı?

**Xasay:** Çaşma, Lənkərani, çaşma.

*Ekran ağarır. Kadr dəyişir. Kamera Xasay yatan otağı panorama edir və yatdığı çarpayını ekrana yaxınlaşdırır. Xasay yorğanın ətəyini sinəsindən atır. Onun üz-gözü aydın görünür.*

**Pirvəli:** Xasay, gəl keçək əsas mətləbə. Olduz general, lap yaxşı. Hər ay mənim düşərim nə olacaq?

**Xasay:** Nə düşər? Çaşmısan?

**Pirvəli:** Yoxsa unutmusuz, mücrənizin mənim əlimin altında olduğunu.





**Xasay:** Nə mücrəm? Sənin yanında nə basarlı işim var, Pirvəli Lənkərani?

**Pirvəli:** Unutmusuzmu, Vəlinin, Şəminin evinə basqınlarımızı? Maşınla Məcidi vurub öldürdüyümüzü? Narkobizneslə əlaqələrimizi? Hansını deyim? Bəs and içib əhd bağlamışdıq ki, heç vaxt bir-birimizə arxa çevirmərik. İndi nə oldu, əə, dəyanətsiz?

**Xasay** *(göz-qaşıyla katibəni göstərərək)*: Yavaş danış, eşidən olar. Elə başa düşərlər ki, dediklərin düzdü. Ağzını yerə tut danış.

**Pirvəli:** Ayə, heç kimdən mənim qorxub çəkinəcək yerim yoxdu. Mən deyənlərə boyun əymirsənsə, deməli, mənə atırsan. Mənə atan hələ anasından olmayıb.

**Katibə** *(Pirvəliyə)*: Səni tanımıram. İstədim sənə cavab verməyim, ancaq görürəm yolunu azırsan. Adamlar Xasaycanın bir işarəsinə bənddilər. Göz eləyər evinə salamat gedib çıxanmazsan. Sən də aç qulağını yaxşı-yaxşı eşit, Xasaycanı general təyin eləyən var.

**Pirvəli:** Mənim işim Xasayı general təyin eləyənlə yox, Xasayladı. Dalğaları qarışdırma.

**Katibə:** Cənab general him eləsə, ən azından böhtançı, dələduz, şarlatan kimi sənin əlhəmini tərs qılacaqlar.

**Xasay:** Eşitdin? Keçmiş xatirələrimizə görə mən bu günkü imkanlarımı sənə xatırlatmaq istəmirdim. Get, xanımın dediklərini qulaqlarında sırğa elə.

**Pirvəli** *(çəkingəc halda)*: Mənə bir gün qazandırmayacaqsan?.. Axı yaxın olmuşuq.

**Katibə:** Bu başqa məsələ... Bu kişi sözüdü.

**Xasay:** İmkan ver, bismillah eləyim. Get, gələrsən, görüşüb söhbət elərik.

*Pirvəli, gedir, xadimə gəlir*

**Xasay** *(xadiməyə)***:** Nə xəbər?

**Xadimə:** Növbədə bir kor-kəsməz kişi var. Ağzına gələni, gözünə görükəni danışır. Nə dediyini də zındıq oğlu zındıq sonalamır.

*Xasayla katibə şaqqıltıyla gülürlər.*

**Xasay:** Axı nə deyir?

**Xadimə:** Canına qara dərd, bir də çor. Yalandan adamlar arasında xal qazanır.

**Katibə:** Necə? Açıqla, biz də bilək.

**Xadimə:** Deyir, Xasay mənim bacıoğlumdu. Onu qucağımda mən böyütmüşəm. Mən oxutmuşam. Elçiliyinə də mən getmişəm. Eşitdim Xasayı general qayırıblar. Gəldim, başına bir az ağıl qoyum.

**Xasay:** Elə helə dedi?

**Katibə** *(üzünü Xasaya tutaraq)***:** O kimsə, başı xarabdı ki.

**Xasay:** Məni düz əməlli adam tapmır. Bu da özümünkü. O ağılın sahibi dayım olar ancaq.

**Xadimə:** Donquldanmağa cəhənnəm azlığıdı? Gərək burda? Qanım əcəbcə qaraldı. Bu, əməllicə-başlıca darğalıqdı, dayılıq yox.

**Katibə:** Xasaycan, çağır otuzdur qabağında abrını bük ətəyinə.

**Xasay** *(katibəyə)***:** Çağır gəlsin.

*Xadimə gedir. Dayı gəlir. Xasay əsəbidi. Üzünü pəncərədən gah çölə tutur, gah da tavana baxır. Dərindən nəfəs alır. Dayı Xasaya salam verir. Bacıoğlu, salamı astadan, dil-ucu alır.*

**Dayı:** A Xasay, deyəsən, vaxtsız gəlmişəm. Vaxtın yoxdu mənimlə kəlmə kəsməyə?





**Xasay:** Fısıldama, sözünü de. Yuxarı çağırıblar.

**Dayı:** Fısıldama nədi? Üzün ağ olsun. İstəyirsən gedim, sonra vaxt tapıb gələrəm.

**Xasay:** Buranı su yoluna döndərmə. Gəlmisən sözünü de. Bizi oynatma.

*Pauza*

**Dayı:** Oğlum, bu təyinatdan ağlım heç nə kəsmir. Böyük Xaqani Şirvani deyənləri yəqin bilirsən. Bilmirsənsə, öyrənib qulağından sırğa eləməlisən.

**Xasay:** O nə deyib?

**Dayı:** Deyib ki:

Eşşəyə dedilər buyur toya gəl.
Eşşək qəh-qəh çəkib güldü nəhayət.

**Xasay:** Saxla.

**Dayı:** Yox, qulaq as deyim... Sonra demə ki, dayım məni başa salmadı:

Dedi: mən siz deyən rəqqas deyiləm,
Nə də çalğıçı tək tapmışam şöhrət
Su, odun daşımaq lazımdır əlbət.

**Xasay** *(əsəbi halda)***:** Qurtardın? Dur get, bir də gəlib mənə qəzəl oxuma.

**Dayı:** Zeynəb qarı müdrük adamdı, yəqin o, deyəni də eşitməmiş olmazsan?

**Xasay:** Rəhmətlik o qədər söz deyib... Başım şişib qazandan böyük olub. Mən binəva hardan bilim, sən hansı kəlamını deyirsən?

**Katibə** *(öz-özünə)*: Əcəb donqultusu varmış ki... Yaxşı bu Zeynəb qarı kimdi? Hamı ondan iqtibas gətirir.

**Dayı:** Yetimə gəl-gəl deyən çox olar, çörək verən az. Vəzifədi, rütbədi-nədi veriblər, götür ağılla işlə. Əvvəl bilsəydim, qəti etiraz eləyərdim. Razı olmazdım. Çünki o yük ağırdı, onu sən daşıyanmazsan. İlanı Seyidəhməd Əliylə tuturlar... Ürəyimə damıb, bu rütbənin də bir xətası var.

**Katibə:** Yazıq Xasaycan, belələrinə necə dözür? Səbri də var ey.

**Xasay** *(qışqıraraq)***:** Əşi, sən canın bəsdi. Get öz iş-gücünlə məşğul ol. Mənə darğa lazım döör. Gündə gəlib baş-beynimi aparacaqsan. Hələ bir qələt eləməmişəm, dayım olsan da, şalvarını başına çəkə-çəkə, atıla-atıla qaçıb gəlmisən üstümə. Mənə etimad göstəriblər. Məni adam biliblər. Sən də başlamısan fısqırıq qoparmağa.

*Pauza*

Gələndə gərək bacılarını da özünlə gətirəydin. Görəydik onlar nə mərifət xərc eləyirlər.

**Dayı:** Fısqırıq qoparmaq nədi, əə, qırışmal? Xalalarını bəyənmirsən?

**Katibə:** Generala heç kəs lazım döör. Hərə gəlib bir zurna çalmasın.

**Xasay:** Sən boyda kişi, sözü anlamırsan. Nə olsa ağzına gələni danışırsan. Əlimizin üstə...

**Dayı:** A başını dağladığım, nə cinlənirsən? Sabah sən qalacaqsan əldə. Müxalifətin anası ölsün. Əskiləri tüstülüdü. Əl-qolları hər tərəfdən qırılıb. Boğulurlar.

**Katibə:** Müxalifətə yanan olmusan? Elə yanırsansa, bura niyə gəlmisən? Canın yanır, get onların yanına. Özlərinə ağladıqları gündən sənə də ağlasınlar.

**Dayı:** Onlar nə deyirlər? Xalqın vəziyyəti yaxşı döör. Ölkədə vətəndaş cəmiyyəti qurulsun. Adamların hüququ tapdalanmasın... Bunların nəyi pisdi? Harası və nəyi pisdi deyin, biz də bilək.





**Xasay:** Ayə, dayısan-mayısan-nəsən. Mənim gül ağzımı açdırma. Onlar vəzifə istəyirlər. Nə xalq? Nə millət? Elə olmasaydılar, gündə bir-birlərini iqtidara satardılarmı? Özlərini satanların dəyərləri olarmı?

**Katibə:** Əşi, deynən qaraqızın dərdi var. Bu gün sabah gurhagurdasan. Heç olmsa o dünyanı düşün.

**Dayı:** Xeyr, siz düz demirsiz. Onların istəyi azad söz, fikir plüralizmi, demokratiyadı. Bu, hamının hüququdu. Xasay, buna şərait yarada biləcəksənsə, dur irəli. Biz də səni dəstəkləyək. Budu deyirəm eləyənməyəcəksənsə, nəslin adın batıracaqsan...

**Katibə:** Ayə, bacıoğlunu qana çalxama. Ailəsi-uşağı var. Dayısan, onlara yazığın gəlsin.

**Xasay:** He... he.. he... — Vəzifələrinizi bizə verin, özünüz çəkilin geri, ölkəni biz idarə eləyərik— deməyəcəksiz ki?... He... he... he... *(Baş barmağını iki barmağının arasından soxaraq qolunu irəli uzadır)* Budu ha, al, day-day.

*Pauza*

**Dayı:** Dədənə dəysin *(Başını bulayaraq)*. Mənə göstərdiyi şişkaya bax, ha. Ayə, bu dəlixanalıqdı ki? Vəzifə nə axmağı şeymiş.

**Xasay:** Day-day, Zeynəb qarı deyir: "Keçinin əcəli çatanda çobanın çomağına sürtünər"... Qurtar mənimlə oyuna girməyi.

**Katibə:** İtin axmağı qaysavadan pay umar... Xasaycan, bunlar üz sığallayırlar. Allah dalından saxlasın. Əlbəttə, dava yorğan üstündədi.

## VII bölüm

**Xasay:** Kim vəzifəni öz xoşuna əlindən verər? Get həmkarlarına da de, dayı-mayı tanımıram, sizə bir paz çalaram, hardan gəlib hara getdiyinizi də bilməzsiz. Dövlət var, dövlətçilik var, onları da qoruyub saxlayanlar var. Siz hamınız cahillərsiz...

Ayə, niyə yığışmırsız? Bu qədər döyülüb-söyülmək olar? Canınıza and olsun, qanınızı itlərə yaladaram.

*Pauza*

*(Səsini bir qədər aşağı salaraq)* Heyf ki, anamla bir qarında yatmısan. Səni bir hala salaram, başını xəcalətindən dik qaldıranmazsan, üç ay yeməyini itlər yeyər.

**Katibə:** Dilinə qurban olum, nə dedin? Oğrunun qabağına vaxtında çıxmasan, deyəllər qorxaqdı. Elə olmasa, bu manqurtlar yığışmazlar.

**Dayı:** Eynən dədənin balasısan... Səndən bundan artıq nə gözləyəsən. Bacımın korgəsməz oğlu.

**Katibə:** Qızışma, kişi *(Üzünü Xasaya tutaraq)* Dayının qabağını almasaz, fəsadları daha dözülməz olar, cənab general...

*Pauza*

**Dayı:** Düz yola gəl, Xasay. Ağıl verəni katibə olanın başına külüm olar.

**Xasay** *(katibəyə)***:** Sən əsəbləşmə özünü əla al, mən cavabını verəcəm *(üzünü dayısına tutaraq)* Dayısan-nəsən, qatığın var, sürt öz başına. Mənim hayıma qalma. Mənə də Əlahəzrət general, deyərlər. Get əziz-xələf müxalifətinə çatdır, qara kütləni başdan çıxarmasınlar. Əks halda məni qarşılarında görəcəklər.

**Katibə** *(dayıya)***:** Xışlanmaq istəyirsiz? Siz cənab generalı tanımırsız, fərq qoymadan hamınızı hopdum göndərər qoduqluğa. Hələ üstəlik dubinka da təşkil eləyər hərənizə, çox yox, bir dənə.

*Dayı başını yelləyir.*

**Dayı** *(astadan)***:** Əslihu-əslə... Əsilsiz-nəsilsiz adamdan bundan artıq nə gözləyəsən?

**Katibə:** Aaa... Sən cənab generalla nə dillə danışırsan? Əşi,





utanmırsan?.. O sözləri başqasına deyə bilərsənmi?

**Xasay:** Bir dəli şeytan deyir, göndər gedər-gəlməzə. Vaxtıyla belənçikləri ya Maqadana, ya da alahı buzlaqlara göndərərdilər.

**Katibə:** Adın da qoy müxalifətçi.

**Dayı:** Xasay, dədən Əlləş tökdüklərini bircə-bircə yığışdırmısan. Mən sənə yol göstərmək istədim... Can sənin, cəhənnəm Tanrının. Kefin nə qədər istəyir ağana. Ayaqların sürüşəndə, yadına salarsan dediklərimi.

**Katibə:** Əşi, söz güləşdirmə. Cənab generalla qoz-qoz oynamazlar. Əynindəki mundirə, şalvarındakı qırmızı zolağa, çiyinlərindəki rütbəyə bax. Onun xasiyyətinə bələdəm. Ata-anası xortlayıb gələ ha, onu yolundan döndərənməzlər. Onda qalmışdakı sən dayı olasan.

**Dayı** *(katibəyə)***:** Sənin tək vəkili olanın aqibəti belə olar.

**Xasay:** Bəli! Bəli, katibə düz deyir. Axı niyə də döndərməliydilər? Neçə vaxtdı zülm çəkirəm. Bircə dəfə gəlib soruşmusuz ki, a bala, necə dolanırsan? Harda itib-batmısan? Əşi, görmürsən, anasının əmcəyini kəsənlər neyləyirlər?

**Dayı:** Kimləri deyirsən?

*Xasay acıqlı-acıqlı dayısının üzünə baxır.*

**Xasay:** Kimləri deyəcəm? Bacın Əsmayənin ərini. Anaşaxorları. Cibgirləri... Eşitmirsən gündə televizorda deyilənləri?

**Dayı:** Sən dünyanı düzəldəcəksən?... Əslində səndə o bacarıq da yoxdu. Bu rütbəyə hərisliklə özünü də, ailəni də oda salarsan. İndiyəcən ailənə düz-əməlli çörək aparmamısan. Hamı səni ələ salıb gülür. İndi də utanmaz-utanmaz gör nə iddiadasan? Qaxıl otur yerində... Ağılsız baş yiyəsinə donuz güddürər.

*Pauza*

**Xasay:** Ee... Yekə kişisən... Məni söyüş sahibi eləmə. Məs-

cidin qapısı açıq oldu-oldu, dayı, bəs itin abrına nə? Dur, bas bayıra. Sənin kimi dayıdan bir paçka siqaret yaxşıdı mənə. Çəkəm, fısqırdam, içim soyuya...

**Katibə:** Cənab general, bunu bayaqdan de də.

*Dayı peşman-peşman kabinetdən çıxır. Katibə generalı qucaqlayır. Sonra saatına baxır.*

**Xasay:** Mütrüf dayım başımı xarab elədi.

**Katibə:** Cənab general, getmək istəmirsiz?

**Xasay:** Yox... Mən bir az ləngiyəcəm. Yuxarı gedəcəm. Səncə necə yerisəm, yaxşıdı.

**Katibə:** Yeriyəndə qamətinizi düz saxlayın. O tərəf-bu tərəfə əyilməyin. Yanmızlarınızı də həşəyri qadınlar kimi oynatmayın. Qaz təsiri bağışlayırsız. Sizə baxanda adamın gülməyi gəlir. Ehtiyatlı olun, adamlarda tamam özgə fikir oyadarsız.

**Xasay:** Məsələn.

**Katibə:** Hi... hi... hi... Utanıram deməyə.

**Xasay:** De, utanma.

**Katibə:** Mütrüf!

**Xasay:** Yox əşi?

*Xasayın sifəti bozarır. Katibə çəkinir.*

**Katibə:** Belə də olar, cənab general. O qədər də qorxulu şey deyil.

*Qapı açılır. İki polis içəri daxil olur. Eyni vaxtda hər ikisi əllərini qulaqlarının dibinə aparırlar və özlərini təqdim edirlər.*

**Uzun polis:** Polkovnik Şiriyev.

**Gödək polis:** Baş leytenant Qaramollayev.





**Uzun polis:** Cənab general, sizi gözləyirlər, getməliyik. Maşın aşağıdadı.

**Xasay:** Bu saat...

*Xasay güzgünün qarşısına keçir. Üz-gözünü nəzərdən keçirir. Cibindən darağı çıxarır, saçlarını darayır. Furaşkasını başına qoyur. Sonra Xasay qabaqda, onun ardınca polkovnik və baş leytenant qapıya tərəf gedirlər... Katibə onların ardınca su atır.*

*Kamera Xasayın evini, yataq otağını panorama edir. Xasay çarpayıda yatır. Gülçöhrə qəfildən yorğanı ərinin üstündən çəkir. Xasay diksinir və çarpayının ortasında oturur.*

**Gülçöhrə:** Evi yıxılmış, nə qədər yatmaq olar? Ayağa qalx. Bütün gecəni sayıqlamısan. Uşaqları da xorultunla, fısıltınla az qala dəli eləyəcəkdin.

**Xasay:** Bu nə hərəkətdi? Özünü yığışdır. Bilirsən bura haradı?

*Gülçöhrə səsini qaldırır.*

**Gülçöhrə:** Sən nə danışırsan, əə? Yoxsa, dəli olmusan? Bura evdi də... Gündə yatdığın çarpayıdı da... Tanımırsan?.. Vay... Vay... Ay camaat kişi dəli olub. Evimiz yıxıldı. Başımıza daş düşdü. İndi təəcili yardım maşını çağırıb bunu dəlixanayamı yola salım?

*Gülçöhrə ərindən qorxur. Dalın-dalın geri çəkilir. Xasay yavaş-yavaş özünə gəlir.*

**Gülçöhrə:** Bu saat dəlixanaya zəng çalacam.

**Xasay:** Ayə, başın xarab olub? Bircə bu, qalmışdı. Nə dəlixana?! Nə dəli olmaq? Bu yuxudu? Qorxma... İmkan ver, qoy ağ-

lım başıma gəlsin. Bitdən-sirkəyə nə olub hamısın danışacam sənə.

**Gülçöhrə** *(həyəcanla)***:** Ola bilməz... Sən falçı-zadsan.

**Xasay:** Elədi, Gülçöhrə, elədi. Sən qohum-əqrəbanın canı, məni dilə-dişə salma. Uşaqlardan xəcalətli eləmə... Lənət sənə şeytan, az qala məni azdıracaqdın. Nə yaxşı Gülçöhrə varmış, yuxudan məni tez qaldırdı. Hələ çox fısdırıq qopacaqdı.

*Gülçöhrə çəkinə-çəkinə ərinə yaxınlaşır.*

**Gülçöhrə:** Deyirsən, qorxulu şey yoxdu, indi mən sənə inana bilərəm, ağlın başındadı?

**Xasay:** Hə... Nə dəli? Nə filan? Hamının özünə arzu elədiyi yuxulardandı, bu gecə mən də bacardığımdan gupbuldatdım.

*Pauza*

**Gülçöhrə:** Key kimisən ey. Dur, qadası, dur. Yatağa girəndən fıssa-fıssan. Bəyəm yuxudan doymadın? Boru axşamdan partlayıb, əlac eləyənmirəm.

**Xasay:** Nə boru?

**Gülçöhrə:** Nə boru olacaq, görəcək günümüz varmış. İndi yoxsa, tanımayacaqsan, kanalizasiya borusunu deyirəm də. Çirkab sular həyət-bacanı alıb ağzına. Qonşunun həyətinə keçsə, hay-qışqırıq qopacaq. Aləm qarışacaq. Mənim dava eləyən halım yoxdu. Qalx, canım, qalx, göstər şücaətini. Kişisən ey, hərdən düşünürəm ağzıma daşlar, sən olmasaydın, mən neylərdim?

**Xasay** *(gözlərini qıyaraq***:** Ney-lər-din?

**Gülçöhrə** Sözdü dedim də.

*Xasay ağız-burnunu əyişdirir, başını yelləyir.*

**Xasay:** İmkan ver, özümə gəlim. Nə olardı? Uzaq başı gedib birini bədbəxt eləyərdin... Bu nə oyundu, əə? Belə də yuxu olar?





**Gülçöhrə:** Hi... hi... hi... Gecəni neyləmisən? Yoxsa, təsir altına düşmüsən? Sənə yük daşıtdırıblar? Ya səni arabaya qoşublar? Bəlkə səni yoldan çıxarıblar? Elə şey varsa, utanma de, mən də bilim. Gedib atalarının goruna od vurub-odlayaram.

**Xasay:** Sənə də söz deməyə məəttələm. Qozumun qabığına elə qoz qoyursan, kor-peşman oluram.

**Gülçöhrə:** Bəs nə bilmişdin. Ölünü öz xoşuna qoysalar...

*Xasay arvadının üzünə təəccüblə baxır. Sonra yorğanı üstündən sıyrırır və ayağa qalxır. İdman eləyir. Əyilir, qalxır. Boyun-boğazını oynadır...*

**Xasay:** Qoymadın yatmağa, Həzrət Abbas haqqı əla yuxu görürdüm. Əgər o çin çıxa ha... Özümüz üçün əla həyət-baca salacam. Ortasında beş mərtəbəli italyansayağı imarət tikdirəcəm. Qabağında ayrıca hovuzu, saunası olacaq. Xarici maşınların biri gedib, beşi gələcək. Hamısı da dolu.

**Gülçöhrə:** Xasay, məni dolama, sənin başına bir oyun açaram, səsin dəlixanadan gələr.

**Xasay:** Ay atası-anası behşitlik, ağzımı açanmıram, sən dəlixanayla məni hədələyirsən. Mən yuxudan danışıram. Kaş sən də orda olaydın. Aralıda dayanıb məni öz gözlərinlə seyr eləyəydin.

**Gülçöhrə:** Yüz yuxu bir gerçəyi əvəz eləmir. Elə yuxudan qonşu Məşədi Cəfər, Kərbəlayı Qızyetər hamıdan çox görürdülər.

**Xasay:** Beləsindən yox... A tövbə... Qiyamət şeyiydi. Gördüklərimi danışsam, ağzın açıla qalar.

**Gülçöhrə:** Xəbərim yoxdu: Hi... hi... hi... Yoxsa huri-mələklər yığışıblarmış başına? Şitlik eləsən, canını alarlar, ha... Ağıllı adamlar onlara da etibar eləmirlər. Çatan kimi onlar da adama yağlı vədlər verirlər, sonra atıb qaçırlar.

**Xasay:** Yox... Bu yuxunun hurilərlə əlaqəsi yoxıydı. Mən ona əminəm. Bu nəsə, ictimai-siyasi bir hoqqaydı, yuxuma gəlmişdi. Özü də möhkəm, ciddi, sərt...

**Gülçöhrə:** Elə yuxunu axar su başında danışarlar... Tez elə, çirkablı su həyəti götürüb. Gün qızan kimi buxarlanacaq. Zəhrimarın iyindən ürək-göbəyimiz ağzımızdan gələcək.

**Xasay:** Nə? Nə? Özünü yığışdır. Ayıbdı. Eşidən mənə nə deyər? Göbək adı tutma. Mənim başım elə şey götürmür.

**Gülçöhrə:** Niyə?

**Xasay:** Həyətdə kişilər eşidərlər, yaxşı düşməz. Əclaflar. Hərə ağzına gələn bir şey uydurar. Yandırar bizi. Biz də atılıb-düşərik. Başlarıq heç nədən and-aman eləməyə.

**Gülçöhrə:** Əvvəla, qələt eləyərlər söz uydurmağa. Onlara bir gəliş gələrəm, adlarını yadlarından çıxararlar. Səndə də elə şey varsa, özünü yığışdır. Uydurmaçı kişini bir gün də qapıda saxlamaram...

*Pauza*

İkincisi də, göbək adı tutmamaq nənələrimizin zəmanəsindəydi, indi arvadlar özləri açıb qoyublar çöldə. Onların ərləri utanmırlar? Mən o zəhrimarın adın çəkən kimi sən xəcalətlənirsən. Mühafizəkarlığından əl çəkmirsən. Da mən sənə nə deyim?

**Xasay:** Xanım, mən elə biqeyrətlərdən döörəm. İçən adamın elə şey heç vaxt yadına düşməz. Kim neyləyir özü bilər. Neylədiklərinin də bizə dəxli yoxdu.

**Gülçöhrə:** Sənin namusuna qurban olum. Qısqanmasan, elə bilərəm... Qonşu Xavər də neçə vaxtdı turbasından gileylənir. Onunkuna da bax, gör deşilib, ya yox? Deyir, hardansa, su verir... Yazıqdı, kimsəsiz qadındı, Xavərinki deşilibsə, gör özün ona nə əlac qılırsan. Başqa usta çağırsa, batdıq. O kor-kəsməz də gəlib təzədən bizimkin də deşəcək.

**Xasay:** Ayə, niyə batırıq? Niyə əlac olmur? Ölməmişəm ki. Özüm düzəldənməsəm də, qonşu Bağırı çağıraram. O ki elə şeyin ustasıdı...





**Gülçöhrə:** Əşi, basıb-bağalama. Onun da hünərinə bələdəm, sənin də. Əlinizdən gəlməyəcək. Onda da deyəcəksiz ki, belə əndirəbadi turbanın deşiyin tutmaq kişi işi deyil.

*Pauza*

**Xasay:** Görəcək danışma, məni işə salma, qonşular eşidər, hərə mənə bir cürə şəbədə qoşar... Gülçöhrə, məni qınama, canın üçün bu gecəki yuxudan sonra əlim işə yapışmayacaq. Vur öldür məni, günah özündədi, mərdimazarlıq elədin. Telefon aç, ustalar gəlib düzəltsinlər, həvəsimi korlama. Xərci nədi, onu Ağakişidən alıb ödəyərik.

**Gülçöhrə:** Mən səni başa düşmürəm. Axı nə olub, açıq de. Elə bil gündəki Xasay döörsən, axı yuxuda nə görmüsən?

**Xasay:** Yalan desəm, nəslim-köküm qırılsın-batsın. Gördüm, hansı nazirlikdəsə, təchizat şöbəsinin müdiriyəm. Katibə çay gətirir... Neçə telefon aparatı var stolun üstündə, sayını unutdum. Televizorda diktor elan elədi ki, mənə general rütbəsi veriblər. Hələ bu, azmış kimi mənə mundir də geyindirdilər. Adamlar üstümə tum kimi töküldülər.

**Gülçöhrə:** Niyə?

**Xasay:** Qəbuluma gəlmişdilər. Onlarla söhbətə oturdum. Dərdlərini-sərlərini, şikayətlərini, nə vardı hamısını açıb dedilər.

**Gülçöhrə:** Dərdlərinə çarə qıldınmı?

**Xasay:** Hə... Söz verdim. Şahid kimi yaxşı yadımda qalmadı deyəsən, yanımda nazirlikdən üç adam da vardı. Birinin adı Gülnaz, o birisininki Şamanıydı. Biri də Xadimə.

## VII bölüm

**Gülçöhrə:** Başqa tanış-biliş yoxıydı?

**Xasay:** Niyə ki, dostlarım, hətta əziz-xələf dayım da gəlmişdilər.

**Gülçöhrə:** Dayın niyə gəlmişdi?

**Xasay:** Ağıl verməyə.

**Gülçöhrə:** Demədin, qatığın var, sürt öz başına?

**Xasay:** Atamın goru haqqı onu da dedim, hətta, ondan betərin də.

**Gülçöhrə:** Əla! Sonra...

**Xasay:** Məni yuxarı aparırdılar ki, sən çağırdın, mən oyandım.

*Pauza*

**Gülçöhrə:** Bağışla, Xasay, a tövbə bilməmişəm, biləm iş belə fısdırıqdı ha, lap çirkab suda boğulsaydıq da, səni oyatmazdım... Rəhmətlik Zeynəb qarı deyərdi, yuxuda böyüklərlə əlləşən xeyir tapar.

**Xasay:** Bu sistem işçiləri ki var, Gülçöhrə, çox xətakar olurlar. Qorxuram, birdən yuxu tərsinə ola.

**Gülçöhrə:** Yalan demirsənsə, qorxma, ancaq indi düzünü boynuna al, bu yaxınlarda dolaşıq iş görməmisən ki?

**Xasay:** Yox... Yox... Ağlıma gəlmir.

**Gülçöhrə:** Görmüsənsə, özünü yaxma, səni atacaqlar qoduqluğa, bizi də lüt-üryan eləyəcəklər... Bayaqdan qanını qaraltmaq istəmirdim. Fikirləşdim, bir özünə gəl, sonra deyim.

*Xasayı təəccüb bürüyür. O, həyəcanla arvadının üzünə baxır. Gülçöhrə başını yelləyir. Ərinin hövsələsi daralır.*

**Xasay:** Ölən var?





**Gülçöhrə:** Əşi, ölən ölsün də, lap tutaq ki, elədi, ona narahat olmağa dəyər? Özün ağıllı adamsan *(Xasayın sinəsi qabarır)*, bilirsən ki, bu dünyaya gələn geci-tezi var, nə vaxtsa getməlidi. Gedəndə də gedəcək. Xoşbəxtlik odu ki, ölən gününü görüb, dövranını sürüb. Əslində elənçiklər tullana-tullana getməlidilər.

*Pauza*

**Xasay:** Sən atan Nihadın canı, məni təntitmə, ürəyim çatlayır, de görüm, ölən kimdi? Bəlkə heç narahat olmağa dəyməz?

**Gülçöhrə:** Ayə, özünü ələ al, təntidiyini uşaqlar görər, yaxşı düşməz. Elə eləyəcəksən ki, ürəyin dözməyib çatlayacaq, uşaqlar da yetim qalacaqlar. Evə bir şey gətirməsən də, uşaqlar "ata" deyib üstünə qaçırlar. Qıçlarına sarılırlar. Yetim olmadıqlarını hiss eləyirlər. Sən varsan, hərdən qapını açıb içəri girirsən, bilirsən-bilmirsən deyənmərəm, mənim də ürəyim dağa dönür, sakitləşirəm. Bilsən, nə qədər sevinirəm, sən mənə "can" deyəndə. Qonşular da elə bilirlər aləmi talayıb gətirirsən.

**Xasay:** Ölən kimdi, çərlətmə məni?

**Gülçöhrə:** Əşi, niyə çərləyirsən? Dünya qopmayıb ki. Deyəcəm, biləcəksən.

**Xasay:** Allahu-Əkbər də.

**Gülçöhrə:** Deyirlər qəflətən xəstələnib. Evin ortasına şarappadan yıxılıb, tirtab qalıb. Ağzından köpük daşdanıb... Deyirəm, yaxşı ki, o natarazlığa kişinin altında qalan olmayıb.

**Xasay:** Axı o vicdansız, namərd kimdi? Niyə açıb demirsən adın?

**Gülçöhrə:** Dedim axı, hövsələn olsun... Vallah, Xasay, düz deyirlər, çox kəmhövsələsən. Səndən çətin ki, general çıxa. Çıxsa da, vec verməyəcəksən. Kişilərin etimadını...

**Xasay:** Sənə söz deməyə məəttələm. Çatmamış... Ölənin kimliyini də da demə, lazım döör. Kim ölüb, ölüb, cəhənnəmə ki. Lap dədən də ölsə...

**Gülçöhrə:** Həddini aşıb, dədəmi əl-qoluna dolama. Kişi bö-

yük şücaət göstərərək təqaüdə çıxan müəllimdi. Kim öləcək, xalan Əsmayənin əri gülməşəkər Nuruş.

*Pauza*

**Xasay:** Cəhənnəmə ölsün, qara da yola. Dalınca da bir qara daş. Elə bilərəm, xalam anadan gəlmə duldu, yaxud da yerli-dibli ərə getməyib. Bapbalaca, qız uşağıdı.

**Gülçöhrə:** Ağ eləmə. Nə qız uşağı? Axı gedib. İndi də dul qalır. Camaatın gözləri qabağında baş verən şeyi gizləmək olar?

**Xasay:** Dedim, axı elə bilərəm... Yaxşı çox saxlama, de görüm, xalamın əri nə vaxt ölüb?

**Gülçöhrə:** Axşam. Hay-harayla, qıyhaqıyla sənə general rütbəsi veriləndə. Dar macalda, soxa-soxla sənə mundir geyindiriləndə.

**Xasay:** Hardan bildin?

**Gülçöhrə:** Xalan o vurhavurda zəng çalıbmış dayına, dayın da qaça-qaçla telefon açıb bizə. Mən də səni narahat eləyib tələm-tələsik yuxudan oyatmadım.

**Xasay:** Hə... Onu düz eləmisən.

**Gülçöhrə:** Kişi serrozmuş... Bir neçə dəfə xəstəxanada xəlvəti müalicə olunubmuş.

**Xasay:** Düz eləyib, yanına kim gedəcəkdi ki. O boyda vəzifədə olub, bir köpək oğlunun sınıq barmağına tüpürməyib.

**Gülçöhrə:** Son vaxtlar başı daşlı, şəkərdən də əziyyət çəkirmiş... Gündə üç dəfə ilisulin zıplayırmış.... Prostatı da...

**Xasay:** Onu açıb ağartma. O kişi xəstəliyidi.

**Gülçöhrə:** Bədbəxtin babasili da varmış...

**Xasay:** Kimin babasili yoxdu ki. De ki, mikrob dağarcığıymış...

**Gülçöhrə:** Bunlar azmış kimi ürəyi tutub... Fil boyda kişini mık eləməyə qoymayıb, bir göz qırpımındaca aşırıb. Ürəyin etibarsızlığına bax ey, Xasay. Bu qədər xəstəliyin ona gücü çatmayıb, ancaq ürək...





*Pauza*

**Xasay:** Ürək matordu... Ölməkdə ağıllı iş görüb. Avropanın iqtisadi böhranını görməkdənsə... Ancaq vaxtı düz seçməyib. Sən ağıllı kişinin qızısan... Bir bəhanə fikirləş... Xalama çatdır ki, həlli zəruri səbəblər üzündən əlahəzrət general Xasay Əlləşoviç Mıxıyev hüzürə bu tezliyə gələnməyəcək. Çalışıb münasib vaxt tapacaq.

**Gülçöhrə:** Nə bəhanə eləyək? Deyim, cənab general xəstədi? Harasısa partlayıb, nəyisə şişib? Deşilən çibanı imkan vermir ki, kişi ayağa qalxsın. Külbaşların bir sürüdü, birdən tökülüşüb gələrlər üstümüzə. Sən ki qohum-əqrəbanın huşdurum-haraylığına bələdsən... Məni işə salma, desək ki, sən Xasay yox ha, itimiz xəstələnib, canın üçün ağıllarına bələdəm, hamısı sanılı qoz kimi burda olacaq. Gəl onların qabağına çıx görüm, necə çıxırsan?.. Hamısı da əli ətəyindən uzun. Gətir-götür başlanacaq. Bizə də sıntarmışlarının ayaqlarının tozunu silmək qalacaq.

**Xasay:** A-ha... *(Fikirləşir)* Nə düşünürsən, bəlkə deyəsən, evdə yoxam?

**Gülçöhrə:** Onda da yüz cür sual verəcəklər. Hara getdi? Nə vaxt getdi? Kimlə getdi? Xeyirdimi? Nə vaxt qayıdacaq? Gəlsək, onunla necə görüşə bilərik?.. İt burdan keçdi, qurd ordan getdi... Ona heç qulaq nədi, baş-beyin də dözməz. Ən qorxulusu da odu ki, dediyimiz ünvana da telefon açalar. Tapanmayanda da televizorda axtarış elan eləyərlər. Yox, Xasay, sənə and verirəm dədən Əlləşin goruna, məni işə salma. Hüzürə getmək, o suallara cavab verməkdən yüz dəfə yüngüldü?

**Xasay:** İşə düşmədik? Ayə, dəyyus ölməyə vaxt tapdı?.. İşin-gücün bu vaxtında başıma haranın daşın salım, bilmirəm. Yəni qaçıb ölkədənmi çıxım, ay həzarat?

## VIII bölüm

**Gülçöhrə:** Qalx, su axan deşiyi tut, bayaqdan fışqırdır qapıya, cənab general. Sonrasına baxarıq.

**Xasay:** Yuxum çin çıxsaydı, nə vardı ki. Qonşular tökülüşüb özləri düzəldərdilər. Lap suyu da ovuclarıyla yığıb apardılar. Həyatın işinə bax... Bir gecənin yuxusunun dadı yüz illik ömrümdən şirindi...

*Xasay donquldana-donquldana geyinir. Həyətə düşür. Çirkli su həyət-bacanı basır. Üfunət hər tərəfi götürür. Xasay luka yaxınlaşır. Məftili luka salır. Qonşu Xavərlə Gülçöhrə Xasaya göstəriş verirlər. Xasay məftili o tərəf-bu tərəfə burur. Məftili çıxarır və yenidən luka salır. Əsəbiləşir. Ayağı sürüşür, üzü üstə çirkablı suya yıxılır. Xavər arvadla Gülçöhrə irəli atılırlar. Xasayı ayağa qaldırırlar.*

**Xavər:** Allah nə deyib səni kişi, danadişini həşərat, porsuğu da heyvan yaradıb, ay Xasay. Heyf o boy-buxundan sənə. Utanım yerinə.

**Gülçöhrə** *(Xavərə)***:** O nə danışıqdı, az. Bəyəm mən ölmüşəm, sən mənim ərimlə o dillə danışasan? *(Üzünü Xasaya tutaraq)* Can, ay Xasay, can!.. Özünə gəl...

*Xasayın üz-gözündən, üst başından çirkab axır. Gülçöhrə iyrənir, onun bədəni cimmildəşir. Evə qaçır, əlində dəsmal geri qayıdır. Ərinin üz-gözünü silir.*

**Xavər:** Ay qız, əlini saxla, murdar sudu. Təmizə çıxması üçün Xasaya bir dəniz, iki qəlib də paltar sabunu gərəkdi. Bir də ha... ha... ha... enlituman arvadlardan beş-onu.





*Xasay üz-gözünü turşudur*

**Gülçöhrə** *(ərinə)***:** Sənə — Yaralı barmağa sığal çək — deyənmirəm, o saat da məni peşman eləyirsən. Qonşular arasında biabır oldum.

**Xavər** *(Xasaya)***:** Hə, necədi, xoşuna gəlir?

**Xasay** *(arvadına)***:** Əcəb sudu, özü də çox turşməzədi.

**Gülçöhrə:** Hə... Elə olmalıdı, hi... hi... hi... Uşaqlar görsələr, səni tanımayacaqlar.

**Xasay:** Bu nə gündü düşdüm, əə? Bu suda nə desən taparsan. Hamamı hazırla. İy-qoxudan ürəyim qalxır...

**Xavər:** Bə nə bilmişdin? Ağzını yum, qurd-quş dolub qarnına, mədəni xarab eləyər. Zibilindən qurtaranmazsan. Budu deyirəm ha, ölsən, adını "Qurd-quş" Xasay qoyacaqlar. Uşaqların da ömrü boyu xəcalətli qalacaqlar.

*Pauza*

**Gülçöhrə:** Qız vaxtımda gözlərimlə gördüm. Qonşuluqda biri belə oldu. Lığablı su doldu qarnına, altı ay keçməmiş həkimlər operasiya eləyib *(əl-qoluyla göstərərək)* barmaq-barmaq, qulac-qulac qurd çıxartdılar qarnından.

**Xavər:** Sonra nə oldu?

**Gülçöhrə:** Nə olacaq? Üççə gün qaldı. Ömrün bağışladı yekəpər arvadına.

**Xavər:** Gördün... Deyirəm də...

**Xasay** *(qorxaraq)***:** Pay atonan... Əcəb işə düşdük. Gedib dərdimizi kimə deyək?

**Gülçöhrə:** Bəyəm, mən ölmüşəm, kimə deyəcəksən, mənim əlahəzrət generalım.

**Xavər** *(Gülçöhrəyə təəccüblə)***:** Nə? Əlahəzrat general? *(Üzünü Xasaya tutaraq)* Xasay, bu nədi, ədə yoxsa, səndən general qayırıblar? *(Üzünü Gülçöhrəyə tutaraq istehza ilə)* Gözünüz aydın, ay Gülçöhrə. Kişidən muğayat ol. Onun nəinki özü,

təkcə adı bəsdi sənə də, balalarına da...

*Xasay qamətini düzəldərək sinəsini qabardır.*

**Gülçöhrə:** Sağ ol, Xavər xanım. Allah elə rütbədən əzizlərinə də qismət eləsin.

**Xavər** *(rişğəndlə)*: Böyük adamdı... Aaz, Xasayı burda belə görkəmdə qoyma, apar evə, qonşular bu abırda onu görməsinlər. Göz dəyməsin, başına da nədi o, hə, üzərlik fırlat.

*Xasay tez evə keçir. Arvadı da onun ardınca.*

**Xasay** *(arvadına)*: Gərək mənə general rütbəsi verilməsini deməyəydin Xavərə. O da ağzın qoyacaq Allah yoluna. İtə-qurda deyəcək. Onlar da şəhərə car çəkəcəklər, məni qonşular arasında lağa qoyub güləcəklər.

**Gülçöhrə:** Qələt eləyərlər. Əvvəla, qonşuların o qədər lağa qoyulası yerləri var, gəl görəsən... İkincisi, özüm qəsdən dedim, qoy içləri qırılsın. Gözləri çıxsın. Pəncərənin pərdəsini kənara sıyıranların bir baxışından tappıltıyla yıxılıb dəvə kimi nərildədin. Allah-Təala deyib göz olan yerdə mən yoxam... Yuxuda general olmağa nə var ki, kişi gərək turbanı qurcalamağı da bacarsın.

**Xasay:** Əsl general arvadısan... Həmişə məndə ruh yaratmısan.

*Xavər gəlir.*

**Xavər:** Darıxdım, dedim, iraq olsun, Xasayın başına bir iş gələr. Qonşuluqda xəbərimiz olmaz, ayıbdı.

**Gülçöhrə:** Bir şey olsa, onu sirr saxlamazlar ki.

**Xasay** *(çəkinərək)*: Yəni bir şey ola bilər?

**Xavər:** Hər şey olar, qonşu.

**Gülçöhrə** *(Xasaya)*: Xəbərin var da, Keşlədə baş verənlərdən.





**Xasay:** Yox... Nə olub axı?

**Gülçöhrə:** Kanalizasiya kollektoru deşilib, çirkablı su aləmi basıb. Nə az, nə çox, yüzdən artıq ev, nə qədər maşın qalıb suyun altında. Məhəllənin uşaqları da üzürmüşlər çirkablı suda. Suyun dərinliyi nə qədər olsa, yaxşıdı?

**Xasay:** Mən hardan bilim?

**Gülçöhrə:** Canına and olsun, geneal, inanılası döör.

**Xasay:** Pay atonan...

**Xavər:** Vay!.. Vay!.. Yazıqlar.

**Gülçöhrə:** Altı, səkkiz metr... Gör orda nələr olub ey?

**Xasay:** Yəqin köpək balıqlar da olub. Hələ insan ölümü də.

**Gülçöhrə:** Ölüm cəhənnəm. Köpək balıqlar əcəb pazdı... O, hubb eləyib yəqin adamlardan da udub.

**Xavər:** Onsuz da dünya həyəcan təbili çalır. Yer üzü adamları saxlayanmayacaq. Bunlar qabağa düşdülər.

**Xasay:** Deməli, adamlar zülmlə yığdıqlarını bir göz qırpımında itiriblər, hə...

*Pauza*

**Gülçöhrə:** Fikirləşəndə az qalıram havalanam. Hökumətin də gözünə dönüm, deyir, kompensasiya-monpensasiya yoxdu və olmayacaq da.

**Xasay:** Ölüm məsələsində mən sənlə razı döörəm.

**Gülçöhrə:** Niyə?

**Xasay:** Onsuz da Qərb Şərqi qırıb tökür də.

**Xavər:** Bu şərqlilər ki var, başına gələnlərdən nəticə çıxaran döörlər. Qərblilər də ondan istifadə eləyirlər. Həmişə də eləyəcəklər.

**Gülçöhrə:** Arxeyin ol, gör İran neyləyəcək? Ürəyimə damıb, Avropaqarışıq Qərbə bir paz çalacaq. Ölən öləcək, qalan da tıspıs olub oturacaq xarabasında.

**Xasay:** Neujenni... İranda elə güc?...

**Gülçöhrə:** Doğrusu, cənab general, çirkablı su gələndə elə bildim bizimki də Keşlədəki kimi olacaq. Yoxsa əziyyət verib səni oyatmazdım. Sən yuxunu kaş axıra çatdıraydın. Çox şükür ki, yaxşı qurtardıq...

**Xavər:** Dünyanın işi tamam qəmbərquludu. Adın da qoymağa söz tapanmırsan. Budu görürsən, burda biri doğulur, orda bir başqası ölür.

**Gülçöhrə:** Xavər ölü dedi, yadıma düşdü. Qalx, hazırlaş, xalanın ərinin hüzürünə.

**Xasay:** Gedim deyirsən?

**Gülçöhrə:** Məni dava-dalaşa salma.

*Xasay kostyumunu geyir və hüzürə yollanır... O, hüzür yerinə çatır. Keçib stulda əyləşir. Mollabaşı üzünü adamlara tutur.*

**Mollabaşı:** Cəmaət, mərhumla vidalaşmağın vaxtıdı. Qalxın.

*Adamlar ayağa qalxırlar. Meyid həyətə düşürülür. Mollabaşı qabaqda dayanır, yasin oxuyur. Xasay adamların arasında dayanır. Balakişi arxadan ona yaxınlaşır.*

**Balakişi** *(pıçıltılı səslə Xasaya)***:** Cənab general, gedib tiyanı qızışdırağın?

**Xasay:** Necə?

**Balakişi:** Boğazımızı yaşlayağın.

**Xasay:** Ədə, nə danışırsan? Mərhum xalamın əridi. Kişinin üstümüzdə haqqı var, onun çörəyi ilə böyümüşük.

**Balakişi:** Olsun da, ömrü boyu yasda qalacaqsan? Çox yox, bir tava cızbız, adama iki yüz rus arağı.

*Xasay fikirləşir. Balakişi onu dümsəkləyir.*





**Xasayın daxili səsi:** Getsəm, eşidib-bilən barəmdə nə fikirləşər? Görəm, xalam vurmağıma pis baxmaz ki? Rəhmətliyin ruhu inciməz ki? İncisə də, rəhmətliklə onsuz da qarşılaşmayacam ki. Qarşılaşmayacamsa, deməli, utanmayacam... Xalam vida mərasimindən sonra araq gillətdiyimi hardan biləcək? Heç hardan. Qaldı el-obanın qınağına. Onsuz da hamı qınaq içindədi.

*Pauza*

**Balakişi:** Ayə, az fikirləş. Qorxanla utananın oğlu-qızı olmur.

**Xasay** *(xısıltılı səslə)***:** Pulum yoxdu.

**Balakişi:** Sənin nə vaxt pulun olub ki. Ağakişiylə danışmışıq, hüzürun düşdüyü üçün, qorxma, nisyə verəcək. Pulun olanda ödəyərsən. Qarakişi bizi kafedə gözləyir, mən getdim, uzatma. Xalanın əri kefindən ölüb də, ölməyəydi. Onu məcbur eləyən vardı?.. Ya öldürən? Atalar demişkən, baltadı, sapı sınıb, xalan birini də saplar...

**Xasayın daxili səsi:** Getməsəm, Qarakişi deyəcək: a nadan, dədənə borcum yoxdu ki? Keçən dəfə arvadımın yasında yeyib-içmisən, borcumu ver.

*Balakişi gedir. Xasay gah mərhum Nuruşun şəklinə baxır, gah mollaya, gah da gözləri yaşlı xalası Əsmayəyə. Daxili səs davam edir:*

Əşi, ölən də bizimdi, hüzür də. Cəhənnəmə... Mənə deyən lazımdı, ay axmaq, general da toya-yasa gedərmi? Özünü bu qədər ucuzlaşdırarmı?..

*Cənazə qaldırılır. Adamlar yola düşürlər. Xasay yavaş-yavaş aradan çıxır... Kafeyə girir. Onu Balakişi, Qarakişi və Ağakişi qarşılayırlar. Xasay üzünə süni görkəm verir.*

**Qarakişi:** Düşük olma, general. Kimin ölüsü düşməyib ki. Bəlkə unutmusuz, dədəm ölən günü məni arağın küpünə saldığınızı?..

**Balakişi:** Ayə, Qarakişi, səninki toya getməliydi. Nə tez yaddan çıxartdız arvadımın ehsanıyla iki şüşə boşaltdığınızı? Qaynım narazılıq elədiyinə görə qaynatamı da döyüb şül-küt elədiyinizi? Xuliqanlıq üstə on beş gün kepezedə yatdığınızı? Ayə general, bəyəm səninki adamdı, mənimki, ya Qarakişininki pişik ölüsüdü?

*Ağakişi qəşş eləyir.*

**Ağakişi:** Ayə, general, hər şey borcdu. Ananın əri ölsəydi, sən öl məni yandırmazdı. Nə böyük şeydi, xalanın ərinin hüzüründə boğazımızı yaşlamaq? Bizə vid göstərmə, general. Biz vurmasaq da, sən vuracaqsan. Ha... ha... ha... Tumanını başına atıb bizimlə məzələnmə.

*Xasayın üzündəki məcburiyyətdən doğan sərtlik qəflətən hırıltıya çevrilir.*

**Xasay:** Ayə, gillədək ey, vallah mən etiraz eləmirəm. Məni narahat eləyən tamam başqa şeydi, düzünü axtarsaz, kişinin ölümü döör.

**Qarakişi:** Bəs nədi?

*Pauza*

**Xasay:** Yazıq xalam tək-tənha qaldı. Allahın da qəribə işləri var. Eləsinə uşaq verir ki, o, uşağının qədrini bilmir. Düz-əməlli geyindirib keçindirməyə pul tapanmır. Xalamın var-dövləti başından aşır, qurban olduğum ona da kordan-şildən bir övlad vermir. Balina boyda, arvad sonsuzdu.

**Ağakişi:** Allaha şəkk gətirmə. O, nelədiyini yaxşı bilir.





Bəlkə sən xalanı yaxşı tanımırsan. O, tanıdığı üçün xalanı da elə cəzalandırıb.

**Xasay:** Dərdim çoxdu, hansını deyim? Budu gördün, evinin bir tərəfi uçdu. Çağıracaq, general gəl, düzəlt. Ayə, bəyəm mən yırtıq-sökük tutanam? Yaxud xəstələndi. Özümü güc-bəlayla dolandırıram. Ona neyləyəcəm?.. Ağlına nəsə yerləşdi, arsız-qırsız arvaddı, gecənin birində durdu gəldi bizə. Dedi, mən də sizdə qalacam. Bizdə iki siçan daşlasa, biri borş qazanına düşəcək. Mənzil dar, yorğan-döşək yox. Uşaqlar məktəbli, Gülçöhrə deyingən, söyüşkən, dalaşqan... Siz öləsiz, evin əyri-əskiyini düzəldənmirəm. Mən başına daş düşmüş neyləyəcəm? Hara baş götürüb gedim?

**Balakişi:** Ayə, dayan, dayan, neçə otağı var xalanın?

*Balakişi Qarakişiylə Ağakişinin üzlərinə baxır.*

**Xasay:** Beş... Nə olub? Niyə elə baxırsan? Vaxtında kişi böyük vəzifədə olub... Hökumət verib. O vaxtdan ər-arvad ağnayırlar içində. Dedim, a kişi, bunun birini də mənə təşkil elə. Nə deyirsən verim. Dedi ayə, sənin pulun var? Kimə deyirsən?

**Ağakişi:** Ayə, düz deyib də. Çuval kimi şeysən, ağzın açıq, için boş, iştahan da böyük.

**Xasay:** Gorbagor eşitmədi sözümü. Eşitsəydi, bu gün bir rəhmət də, mən oxuyardım ona.

**Ağakişi:** Bir rəhmətə adama ev verərlər?... Belə çıxır ki, rəhmət oxumayacaqsan?

**Xasay:** Üz yeri qoyub?

**Balakişi:** Sözdü deyir də.

**Ağakişi:** Səni təbrik eləyirəm.

**Xasay:** Niyə?

**Balakişi:** A qanmaz, arsız-arsız general rütbəsi də daşıyırsan. Bir balaca başını işlət... Görünür, yuxun çin çıxacaq...

**Xasay:** Necə?

**Balakişi:** Xalanı get, köçür yanına. Uşaqlarından da birini qeydiyyata saldır onun evinə. Qoca arvaddı, üç-beş gün ömrü qalıb. Ölən kimi evi qamarla. Ver kirayəyə, al pulunu. Uşaq ev sahibi olar, sən də pul. Yoğurmadın yapmadın, hazırca kökə tapdın. Ayda bir-iki dəfə də biz boğazımızı yaşlayaq. Gələcəkdə də uşağı evləndirib köçürərsən o evə.

**Ağakişi:** Balakişi düz deyir, general. Bu hələm-hələm kişiyə qismət olan şey döör. Var-dövlət öz ayağıyla gəlir qapına. Yaradanına şıllaq atma. Bir az vur, hələ tələsmə. Onacan da meyidi dürtsünlər qəbrə. Fürsəti fövtə vermə, get xalanı zor-xoş gətir evinə. Özünü də elə apar ki, xalan sənin ürəyiyananlığına inansın... Al qəlbini ələ, keç evin dalına. Sonra xalan ağırlıq eləyər, göndərərsən qocalar evinə... Dayın biqeyrət girişər xalana. Ev çıxar əlindən.

**Xasay:** Birdən gəlmədi?

**Qarakişi:** Gic-gic danışma, general. Gəlmədi nədi? Arvadını başa sal. Arvad arvadla daha tez dil tapar. Zor-xoş girsin xalanın qılığına.

**Xasay:** Nəyinə?

**Balakişi:** Qılığına! Qanmırsan? Yəni ürəyini alsın ələ. Temboli özün də yaxşı yuxu görmüsən...

**Ağakişi:** Xalanın səndən yaxın adamı var?

**Xasay:** Kiçik xalam Nərgiz, dayım Nicat. Hərəsinin də iki uşağı var.

**Qarakişi:** Çox pis... Əl çəkmə, onlar sənə qəmiş ola bilərlər. Yəqin dayın da, xalan da bu barədə fikirləşirlər. Bostan üstüdü, geciksən, çırtım-çırtım yanarsan.

**Xasay:** Gecə gedim, gündüz?

**Balakişi:** Gecə-gündüz fərq eləməz. Axırı get. Əl çəkmə. Hər şey xalandan asılıdı. O, rəsmi şəkildə evi kiməsə verəndən sonra neyləyəcəksən? Səhlənkarlıq dananı qurda verər. Onda





içinəcən alışıb yanarsan. Sənin od-alovun arvad-uşağını qarsıyacaq. Beş otağı xarici vətəndaşa kirayə versən, üç min Amerika dolları üstündədi. Nə istəyirsən, general? Ölmək istəyirsən, get Mazandarana...

*Pauza*

**Qarakişi:** Qoy xalanı vannaya çimizdir, könlü xoş olsun deyə, lap suyunu da iç. Əl-ayağını da yala. Peşmançılığın olsa, gəlib tüpürərsən, mənim bu qotur üzümə.

**Ağakişi:** Yuxuda böyük rütbə varlanmağın əlamətidi. Fikirləşirsən ki, yeməyi çeynəyib ağzına dürtsünlər, sonra ötürəsən? Onu görməyəcəksən. Belə işlərə görə zavallı Zeynəb qarı deyərdi: "Yatan öküzün başına duran öküz"... Allah verdiyi kimi, canın üçün, Xasay, almağı da bacarır.

**Qarakişi:** Bu, halvadı, halva! Oturduğun yerdə uğuruna çıxıb. Ağzına dürt ərisin. Cəsarət dəmidi, general. Cəsarətsiz general kimin nəyinə lazımdı? Generalın yumruğu olar *(üzünü Balakişiyə tutaraq)*. Bəlkə düz demirəm, Balakişi?

**Xasay:** Ayə, deyirsən kişi döörük?

*Pauza*

**Balakişi:** Kişi olmağına kişisən. Buna şübhə eləmirik... Gərək hərəkətə keçməyi bacarasan. Dannı moment kim kimi məsələsidi. Əsmayə xalan, Nərgiz, yoxsa sən general. Xalan Əsmayə, dayın Nicat, yoxsa sən general. İndi hərəkət dəmidi. Səhlənkarlıq, gecikmək sənin üçün ölüm deməkdi. Bunu bilirsən? Ayə, başa düş, dediklərimiz albalı döör ey, evdi, ev.

*Xasay fikrə gedir, handan-hana üzünü Ağakişiyə tutur.*

**Xasay:** Qırışmal, nə durmusan? Tez elə süz, kişinin ruhunu əvvəl yad eləyək, sonra dalına baxarıq.

**Qarakişi** *(əsəbiləşir)***:** Bir kitablıq söz danışırıq, hələ — Dalına baxarıq — deyir.

*Qədəhlər doldurulur. Balakişi boğazını arıtlayır.*

**Balakişi:** Bizim üçün şərəfdi ki, sən general rütbəsi almısan. Bu ilahinin sənə ərməğanıdı vallah. Xasay adını generala çevirə bilmisən, bu, çox böyük işdi, əvəzolunmaz hadisədi. Gözümüz aydın, xalamın əri Nuruş vaxtında ölüb. Ağıllı iş görüb. Nəyə deyirsən, and içim. Ərinin üzünə xalan çox baxmaqdansa, kişinin üzüsulu getməsi məsləhətiydi.

*Pauza*

Ümumilikdə götürəndə Nuruş, pis adam döördü. Deyib-gülməyi sevirdi... Ancaq doğrudu, bir az xəbisiydi. Canından qəpik çıxmırdı. Hey altına yığırdı. Onu tanıyanlar deyirlər ki, seksuallığı, bayquşluğu da varmış. İşdi-şayətdi ərinin xasiyyətləri arvadına sirayət eləyibsə, heç nə. Batdın general, onda gərək bu məsələnin də üstündən xətt çəkəsən...

**Xasay:** Niyə?

**Atakişi:** Necə niyə? Seksualsa xalanı çətin ki...

**Balakişi:** Nə isə, kişi tüpürdüyünü yalamaz... Gəlin ilk badələri qaldıraq Əsmayənin əri Nuruşun ruhuna... O, bu dar macalda ölməsəydi, biz belə ürəklə, canı yananlıqla danışanmazdıq.

**Xasay:** Yox... Xalamda seksuallıq yoxdu.

**Qarakişi:** Tamamilə doğrudu. Mən də elə düşünürdüm.

**Ağakişi:** Ağ eləmə, gəlib özü sənə deməliydi?

*Qədəhlər içilir. Qarakişi ağzına kələm turşusu qoyur.*

**Qarakişi:** Kələm duzlu, araq acı.

**Ağakişi:** Nə olub, qağa?

**Qarakişi:** Canına dərd olub. Keyfiyyətsiz kələm, samaqon araq. Nə olacaq? Yandırdı boğazımızı, deşdi qarnımızı.

**Ağakişi:** Yox... Mən sizə zay şey vermərəm.





**Xasay:** Yəqin zavodda qarış-quruş eləyiblər.

**Qarakişi:** Yaxşı, qurtar. Balakişinin dediyi tost çox xoşuma gəldi. Belə tostu ancaq qeyrətli kişilər deyə bilərdilər. Artırması-filanı yoxdu. Atı atın yanına bağlayarsan, ya halın götürər, ya da huyun. Zeynəb qarı deyərdi: "Su axar, çuxurun tapar". Ağıl ağılı tutmasa, birgə yaşayış olmaz. Darı unundan paxlava bişirməzlər.

*Balakişi başıyla Qarakişinin sözünü təsdiqləyir.*

**Balakişi:** Şübhəsiz, elədi.

**Ağakişi:** A kişilər, gəlin qaragüruhçu olmayaq. Bəlkə Əsmayə bir yerdə yaşamaq təklifini generala özü verəcək... Arağı qədəhdə çox saxlamazlar, süzmüsüz, vuraq getsin. Qaldıqca zəhərə dönür.

*Qədəhlərdəki araq içilir. Xasay ağzını əyişdirir. Başını yelləyir. Qarakişi yenidən qədəhləri doldurur. Ağakişi sözünə davam edir.*

**Xasay:** Sənin arağın zəhərdi, Ağakişi, zəhər...

**Ağakişi:** Urvatdan salma, general.

**Xasay:** Onsuz da bizimki gətirmir.

**Balakişi:** Gətirmək nəyə deyirsən, bundan artıq nə olmalıydı, cənab general, görünür, başında ilan-qurbağa oynaşır, narahatsan. Bir az vur, düzələcək.

**Qarakişi:** Narahat olar da. Xalası kişi olsaydı, nə vardı ki. İkicə kəlməylə başa salardıq. O da qaxılıb oturaydı yerində.

**Ağakişi:** Bəyəm, kişidən də xala olur?

**Qarakişi:** Ayə, qurtdanquc olma, demədim ki, kişidən xala olar. Yaxud əksinə. Öyrəncəlisiz sözdən söz düzəltməyə.

*Pauza*

**Ağakişi:** Kişiylə danışmağa nə var ki. Gedib qəlbini açırsan,

yüz-yüz atırsan, mən ölüm-sən öllə, hər şeyi razılaşırsan, hətta, ölüm işini yoluna qoyursan. Generalın xalasına nə var? Gedib şarpdan-şurpdan deyəcəksən, o da dalını-qabağını sonalamadan deyəcək: "Yox". Zülm sonradan "yoxu" "var" eləməkdi. Özü də kəsilməmiş adam ola. Özünü öldürsən də, sözünün əvvəli də, axırı da "yox" olacaq ki "yox".

## IX bölüm

**Balakişi:** Ha... ha... ha... Sözündən belə çıxır ki o saat...

**Qarakişi:** O saat düzəlməsə də, nəm-nüm eləyərdi. Zeynəb qarı demişkən, özün naza qoyardı. Biz də bir-iki qədəh qaldırıb, mən ölüm, sən öllə işə düzəliş verərdik. Neyləyəsən, içmir, çəkmir... Kor tutduğunu buraxmayan kimi, ağzından əvvəl nə çıxıbsa, onu da axıra qədər çalacaq.

*Qarakişi qədəhlərə araq süzür.*

**Xasay:** Mənimkini az elə... Axı xalamla söhbətə oturmalıyam. Qarakişinin canı haqqı, mən deyəni eləməsə...

**Ağakişi:** Yox... Mən səninlə razılaşmıram. Sən düz fikirləşmirsən, əsəbi başda ağıl olmaz. Kobudluq kobudluq gətirər, o da vurub işləri korlayar, cənab general. Özünü bəri başdan umsuq eləmə. Eləsən, müəmmalı və "zır-zır" olacaq?

**Xasay:** Xalam çox ayıqdı. Hürksə, heç nə... Başlayacaq atıb kəsməyə. İfritəliyə. Eynən anasına oxşayıb. Düzələn işin düzəlməyən tərəfindən yapışandı.

**Ağakişi:** Ayə, bəs mən nə deyirəm? Belə iş zor yox, bişirmək sevir. Eşitməmisən, şirin dil yüz ev yeyər, acı dil birini də yeyənməz.





*Pauza*

**Balakişi:** Bunu da içək Əsmayə qarının sağlığına *(Üzünü generala tutur)*. Əsmayənin evinə sahib dura bilsən, budu deyirəm, uşdosu-muşdosu yoxdu, axşam aldığın yüz elə rütbəyə dəyər. Biz də oturub-durub Yaradana yalvaracoq ki, sənin işin düzəlsin, məqsədinə nail olasan. Qismətimiz o olsun ki, arada bu kafedə yüz-yüz gillədək...

**Xasay:** Ayə, vallah onu mən yaxşı tanıyıram, nə qədər o üzbu üzünə keçəm ha, yumşalan döör. Mən xalamı yaxşı tanıyıram, yezid kimi bir şeydi. Baş çatladandı...

**Ağakişi:** Səhv eləyirsən. Özün də bədgüman olma. Allahı olan nagüman qalmaz.

*Pauza*

**Qarakişi:** Arxa çatmamış çırmanma. O qədər gözlənilməyən işlər olur, adama möcüzə kimi görünür.

*Qədəhlər qaldırılır. Başlar qızışır.*

**Ağakişi:** Əsmayə, kaş mənim xalam olaydı.

**Xasay:** Ayə, bəsdi, əə. Nəfsin Murtuzəlinin qılıncından itidi.

**Qarakişi:** Əsəbləşmə, Xasay, adama çox söz deyərlər. Bundan sonra Əsmayəni səndən alıb Ağakişiyə verən var? Verən olsa da, o, mümkündümü?

*Xasay keflənir. Ağlına gələni danışır. Çənəsi söz tutmur. Sözləri təkrarlayır. Cümlələri qırıq-qırıq tələffüz eləyir.*

**Xasay:** Mən Nazlıyla çox yaxın olmuşam. Firəngizlə gəzmişəm. Onun atası böyük adamıydı. İstədi qızın mənə sırısın, axmaqlıq eləyib almadım. Alsaydım, evimin dirəyi indi qızıldanıydı. Bu da axırım. Gör gözümü xalamın nəyinə dikmişəm?

**Balakişi:** Boş-boş danışma... Olan oldu, keçdi. "Keçi can

hayında, qəssab piy axtarır". "Daldan atılan daş topuğa dəyər" — məsəli... Ayə, biz səninlə çörək kəsirik. Gör biz nə fikirləşirik, sən nə fikirləşirsən? Niyə başa düşmürsən ki, biz heç vaxt sənin yaxşını qoyub pisini demərik.

*Pauza*

**Xasay:** Ayə, mən nə deyirəm, vallah-billah sizi başa düşürəm. Dediyim odu, xalam öz xoşuna verər, lap yaxşı. Verməz... Mənə general rütbəsini elə-belə verməyiblər. Əvvəlcə, mülayim təsir göstərərəm, biz qılınc müsəlmanıyıq, alınmaz, onda keçərəm zora. Sonra da təzyiqi yavaş-yavaş gücləndirərəm. Özü gözünün yaşını axıda-axıda qaçar üstümə. O da alınmazsa, Zeynəb qarı demişkən: "Ağa durur, Ağacan durur". Lotulara göz vururam, gecələrin birindəcə xalamın işini bitirərlər. Ona nə deyirsiz?

**Qarakişi** *(kinayəylə)*: Əsl generalsan. Bu mən ölüm düzünü de, nəslində-kökündə general rütbəsində adam olub?

**Xasay:** Necə bəyəm?

**Qarakişi:** "Ot kökü üstə bitər", — deyirlər axı.

**Balakişi** *(Ağakişiylə Qarakişiyə)*: Ayə, aləmi qarışdırmayın. Söz güləşdirəcəksiz, Xasay da gedib bir oyun düzəldəcək. Bizi də zibilə salacaq, özünü də *(Üzünü Xasaya tutaraq)*. General, ağılla zor bir araya sığmaz. İki başlı danışma. Orda-burda belə zordan danışarsan, polis canını alar. Yaxşısı budur, bir az açıqlama ver, sözünə aydınlıq gətir.

*Pauza*

**Xasay:** Burda nə anlaşılmazlıq var ki? Mən bir mənalı danışıram. Onu aradan götürdərəm. Göndərərəm əri Nuruşun yanına. Orda yatar, dincələr. Mən xala-mala tanımıram... Olub olmamış olsun.

**Ağakişi:** Bu göndəriş yollarını axşam yuxundamı öyrənmisən?

**Xasay:** Yenə saldın yadıma. Canın üçün axşam kefdəydim.





**Ağakişi** *(ağzını yana tutaraq astadan)*: Öz canın üçün.

**Xasay:** Görmədiyim günə düşmüşdüm. Katibə qarşımda. Məddahlar əhatəmdə. Xahişlər, minnətlər öz yerində. Telefon da o söz. Qılıncımın dalı da kəsirdi, qabağı da. Heç kimdən qorxacaq, çəkinəcək yerim yoxıydı. Şükür Allahın böyüklüyünə, verdi mənə, ancaq yuxuda, reallıqda yox... Real olsaydı, nə vardı. Əsmayə kişiydi ki, indi də qabağında şöngüyəydim?

*Xasay Ağakişini süzür. Gülməkdən Ağakişinin bədəni titrəyir. Qarakişi Balakişinin üzünə baxır. Balakişi vəziyyəti anlayır.*

**Qarakişi:** Məndən olsa, bu günə içmək bəsdi, qalanını saxlayaq sabaha...

**Ağakişi:** Pulu kim verəcək?

**Balakişi:** Şərtləşdiyimiz kimi, general.

**Ağakişi:** Ayə, basıb-bağlamağına baxırsız, onun pulu var? Olsa, özünə şalvar alar. Borclarını verər.

**Xasay:** Mənim pulum yoxdu. Olsaydı, Ağakişiyə borclu qalmazdım. O da boynu sınmış qaz kimi üzümə maddım-maddım baxmazdı.

**Balakişi:** İndi yeri döör, sabah danışarıq.

*Kafeni gülüş səsləri bürüyür. Balakişi pencəyinin döş cibindən kart paçkasını çıxararaq qarışdırır, Xasaya tərəf uzadır. Xasay kartı kəsir.*

**Ağakişi** *(Xasaya)*: Yekə kişisən. Utanıb qızarmırsan. Gəlib yeyib-içirsən, "verəcəm" deyib gedirsən. Hər dəfə də məni təhqir eləyirsən. Ədə, yediyin çörəkdən qorxmursan ki, gözlərindən gələr?

**Qarakişi:** Ağakişi, qurtar boş-boş söhbəti. Böyür-başdakılar eşidirlər. Əslində *(gülə-gülə)* bugünkü vurhavurun xərcini sən

vermәliydin.

**Ağakişi:** Mәn niyә?

**Qarakişi:** Çünki Xasayın rütbәsini yumaq sәnә düşürdü.

**Ağakişi:** Xeyr. Bu gün o bura gәlib ki, Nuruşun ruhunu yad elәsin vә sizdәn dә evlә bağlı mәslәhәt alsın. Xalasından evi ala bilsә, xeyli irәli düşәcәk.

**Balakişi** *(kartları düzә-düzә)*: Kәnar stollara deyәsәn, tәzә qazlar qonub.

*Gülüşürlәr.*

**Ağakişi:** Gözlәrin rentgen şüasıdı. Bәri üzdәn baxanda adamların o üzünü görürsәn.

**Qarakişi:** Bәs nә bilmişdin? Havayı yerә onu özümüzә şef seçmәmişik ki.

**Xasay:** Xalamın gözlәri indi mәni axtarır. Özünün dә bilmәdiyi şey yoxdu. Elә bil zalım qızı Mәrkәzi Kәşfiyyat İdarәsindә yüz il tәcrübә keçib. Sәlahiyyәtli xәfiyyәdi.

**Balakişi:** Xalan Nuruşdan dәrs alıb. O belә dә olmalıydı... Yoxsa, bizim arvadlar kimi...

*Pauza*

**Qarakişi:** Bizim şokolada başlıca tәlim gillәtmәk vә qumardı. Kim nә görür, onu da çalır. Bizim arvadlardan bizdәn artıq nә gözlәmәk olar?

**Ağakişi:** Gillәtmәk tәcrübәmizi arvadlarımız da qazansaydılar, fәrәzәn günә çıxardıq.

*Gülüşürlәr. Balakişi Xasaya pul verir. Qumar qazanı qaynayır. Xasay әtrafına göz gәzdirir.*

**Xasay:** Çәtin ki, bu gün әlim gәtirә.

**Ağakişi:** Qorxma... Tәzә qazlar hәrifdilәr. Oynamaq üçün ağızları sulanıb sizә baxırlar. Tiyan qızanda gözün mәndә olsun,





Xasay. Bu gün sәnin xidmәtindәyәm.

**Qarakişi:** Xasay, mәn dә sәnә pas verәcәm. Öz ayaqlarıyla gәliblәr qәfәsә. Bunları yolmasaq, bizi tanımazlar.

**Xasay:** Heç hәvәsim gәlmir.

**Balakişi:** Qanacağın olsun, bizi çәrlәtmә... Qurtar.

**Xasay:** Ya Mәdәd Zәngilaninin cәddi... Özün mәnә kömәk ol.

*Xasay Ağakişiyә baxır.*

**Ağakişi:** Sözümüz sözdü.

*Balakişi stolun üstünә xeyli pul atır.*

**Xasay:** Anasının әmcәyini kәsәnlәrdәn biri gәlәr, yalandan bir patron şappıldadar, yaxud bunlardan hansısa biri bıçağı böyrümüzә dirәyәr, pulları qapıb aradan çıxar. Mәn generallığımı sübut elәyincә it dә gedәr, ip dә. Lap getdim düşdüm polisә. Şәxsәn mәnә demәzlәr, sәn nәyimin generalısan?... Onda da gәl cavab ver... Heç bir şeydәn qumarbaz, fırıldaqçı, dәlәduz kimi әn aşağısı iki-üç maddәni dürtüşdürәcәklәr bizә. Onda da canımızı qoymağa yer tapanmayacoq. Yaxşısı budur, qumarı dayandıraq. Yoxsa Zeynәb qarı demişkәn: "Çox yemәk, bizi az yemәkdәn qoyar".

*Balakişi kartları nümayişkәranә qarışdırır. Başqa masaların әtrafında әylәşәn lotular onlara yaxınlaşaraq oynamaq istәdiklәrini bildirirlәr.*

**Balakişi:** Buyurun... Oyunçu nә qәdәr çox olsa, qumar o qәdәr şiddәtli olar.

**Qarakişi:** İstәdiyimiz yar idi, yetirdi pәrvәrdigar.

*Xasay Ağakişiyə baxır. Ağakişi kirpiklərini qırpmaqla ona "yanındayam" işarəsini verir. Qumar başlanır...*

**Ağakişi:** Oyunçu aparsın. Çay, meyvə şirəsi ehtiyacı olanlar sifariş verə bilərlər. Mən hazır. Əvvəlcədən deyirəm, sonra şap-pa-şurup yaratmayın, udanı mühakimə eləməzlər.

**Balakişi** *(qəsdən Ağakişiyə)***:** Sən qatılma?.. Yer pulu bəsindi.

**Qarakişi** *(Ağakişiyə)***:** Ayə, gəl otur...

**Ağakişi:** Vızqırdın... Bir azdan kafeni də qumara qoymağa halım yoxdu. Eşidib-bilsə, arvad məni evə qoymaz.

*Qumar qızışır. Ağakişi arada gəzir. Xasay çətin anlarda ona baxır. Ağakişi ustalıqla Xasaya xidmət eləyir. Balakişiylə Qara-kişi də Xasaya hiss olunmadan yardım əllərini uzadırlar. Bank yığılır. Xasay pulları götürür... Ağakişi Xasaya getmək işarəsini verir. Daha oynamadığını bildirir. "Qazlar" narazılıq eləyirlər.*

**Xasay:** Ayə, axşamdı ki. Evi dağılmışlar, mən axı danışığa getməliydim.

**Balakişi:** Qarşıdan uzun gecə gəlir.

*Xasay başını yelləyir, Ağakişiyə olan borclarını ödəyir. Göz-lənilmədən kafedə vurhavur başlanır. Kim nə eləyəcəyini bil-mir. Xasay əlləriylə ciblərini tutur və yıxılır. Ağakişi onu altdan çıxarır... Aparıb arxa otağa salır. Açarla qapını bağlayır. Ağa-kişi qayıdanda onu yoğun kişi vurur, zərbədən başı partlayır. Üz-gözünü qan bürüyür. Mətbəxdən bıçağı götürür və həmin ki-şinin yanbızına soxur. Kişi bağırıb yıxılır. Bağırtıya hamı sakit-ləşir. Kimisi ağzının, kimisi burnunun qanını silir.*

**Balakişi** *(qəsdən)***:** General necə oldu?





*Balakişi Ağakişiyə göz-qvş eləyir.*

**Ağakişi** *(Balakişini anlayır)***:** Evim yıxıldı. Bu saat general polisləri tökəcək bura. Hamımızı basdıracaq içəri. Dincələrsiz...

**Qarakişi:** Ayə, son çörək pulum da getdi. Arvad-uşaq da ac qalacaq. Ağakişi, bağla kafeni, rədd olaq bu xarabadan.

*Ağakişi gedir, Xasay olan otağın qapısını açır. Xasay gəlir.*

**Xasay:** Uduzmağı bacarmayan kişi gərək qumar oyanmasın. *(Üzünü lotulara tutaraq)* Kimdi sizin şefiniz.?

*Yammızına bıçaq girən kişi çətinliklə qabağa çıxır. Həmkar-larından biri əskini onun yarasına basır. "Qazlar" qapını kəs-məyə çalışır.*

**Şef:** Mən!

**Xasay:** Nə qışqırırsan, əə? Cinayət törətməyə gəlmişdiz, ya dalınızı dağıtdırmağa? Mən neyləyim?

*"Qazlar"ın çəkindiyini görən Balakişi üzünü Xasaya tutur.*

**Balakişi:** Cənab general, kimsə mənim çeçelə barmağımı dişləyib, qanın güclə kəsmişəm.

**Şef:** Bıçaq, cənab general, mənim dalıma soxulub, hələ də qanın kəsənmirik.

**Xasay** *(Qarakişiyə)***:** Onun qanın kəsin.

**Qarakişi:** Baş üstə, bu saat, cənab.

**Şef:** Cinayəti Ağakişi törədib. O, cinayət məsuliyyətinə cəlb olunmalıdı.

**Xasay** *(Balakişiyə)***:** Sənin qulağına nə olub, əə?

**Balakişi:** Şef dişlədi.

**Xasay:** Qulağın yarısı hanı?
**Şef:** Uddum.
**Xasay:** Əcəb işə düşdük.

*Hamı gülüşür. Xasay sözünə davam edir.*

**Balakişi:** Arvad-uşaq bu abırda məni evə qoymayacaq. Bundansa bıçağın dala girməsi yaxşıdı.

*Pauza*

**Xasay:** Burda hamının qanı tökülüb. Deməli, hamı cinayətkardı. İşimin-gücümün bu vaxtında başımızı deyirsiz istintaqa qataq? Axı hamınız təqsirkarsız.

*Qarakişi əlində bir şüşə neft, bir əlində də parça gəlir. Parçanı neftlə isladıb Şefin dalına yapışdırır.*

**Qarakişi** *(şefin dostlarına)*: Bərk tutun, özünüz də onu tez evə çatdırın.
**Şef:** Qan axsa, həkim baxası olsa, ona nə deyəcəm? Bilirsiz ki, onlar da polisə məlumat verəcəklər. Polislər də qarışqanı fil eləyəcəklər. İstintaq başlanacaq.
**Xasay:** Mən ölmüşəm?
**Şef:** Cənab general, birdən məni qan apardı. Tanış həkim tapsaydıq, məni evimdə müalicə eləyərdi. Pulunu da özüm verərəm.

*Xasay Ağakişiylə Balakişinin üzünə baxır.*

**Ağakişi:** Bu binanın ikinci mərtəbəsində baytar var.
**Xasay:** Çağır, gəlsin.
**Ağakişi** *(qəsdən)*: Birdən məni eşitmədi?
**Xasay** *(Ağakişinin fikrini anlayır)*: Uzatma... Mənim adımdan de, tez gəlsin.
**Ağakişi:** Əmr eləyək.





**Xasay:** Əmr niyə? Çox yaxşı iş görmüsüz. Adımı eşitsə, özü tullana-tullana gələcək. Gəlməz, o da baxar işinə.

*Ağakişi gedir, Xasay kafedə var-gəl eləyir. Adamlar sakitcə dayanıb onun nə deyəcəyini gözləyirlər. Qapı açılır, baytar içəri daxil olur, Ağakişi də onun ardınca.*

**Ağakişi:** Cənab general, həkim bu kişidi.
**Xasay:** Həkim, Şef oturanda ehtiyatsızlıq eləyib, dalına bıçaq girib.
**Baytar:** Çıxmır?
**Xasay:** Hövsələn olsun, çıxır. Niyə də çıxmasın? Balakişinin də qulağının yarısı yoxdu. Onlara düzəliş ver.
**Baytar:** Ölən də var?
**Xasay:** Ölüm mütləq olmalıdı?... Axmaq... Dələduz... Qaşınmayan yerdən...
**Baytar:** Yox... Bağışlayın, sizi gördüm, zəhminiz basdı məni, çaşdım.
**Xasay:** Çaşma. Onun dalına, bunun qulağına çarə qıl.
**Baytar:** Oldu... Burda?
**Xasay:** Burda bax, evdə tədbir gör, səsi çıxmasın.
**Baytar:** Oldu.
**Xasay:** Qapıları bağlayın. Heç kəsi içəri buraxmayın.

*Baytar Şefi stolun üstünə uzandırır. Qaynanmış su və pambıqla yaranı təmizləyir. Araqla dezinfeksiya eləyir. Sonra Balakişinin qulağını tənziflə təmizləyir. Baytar Xasayın qarşısında dayanır.*

**Baytar** *(dili topuq vura-vura)*: Heyvanlar insanlardan təhlükəsizdi. Heyvan öləndə... Qalanını evdə.
**Xasay:** Bir dalını qoruyanmayan adam, gərək boyundan yu-

xarı tullanmasın. Qulaq saxlayanmayan da elə... Özünüz də əl verib barışın. Bu əlahəzrət generalın tələbidi.

*Hər iki tərəf əl verirlər. Öüpüşürlər. Şeytanı lənətləyirlər. Sonra "qazlar" Şefi qolları üstə alaraq kafedən çıxarırlar. Balakişi qulağını tutur ufuldayır.*

**Balakişi:** Ürəyimə dammışdı, bu zırhazırda nəsə olacaq. *(Cibindən güzgünü çıxarıb baxaraq)* Kül başına, a Balakişi, qalan ömrünü də paraqulaq yaşa.

**Qarakişi:** Şefin pazı düzələcək, sənsə paraqulaq ləqəbini qazandın.

*Pauza*

**Xasay:** Günah Ağakişinin arağındadı.

*Qarakişi, Ağakişi və Xasay qarınlarını tutub uğunurlar.*

*Kadr dəyişir. Xasayın evi. Xasay otağa daxil olur. Gülçöhrə ərinin kefliliyini anlayır. Xasay qucaqlayıb arvadını öpür. Gülçöhrə onu sinəsindən itələyərək özündən aralayır.*

**Gülçöhrə** *(zarafatla)***:** Mənim generalım... Mənim əlahəzrətim... Mənim ağıllı ərim... Bu günkü mədəniyyət səndə hardandı?... Sən ki belə döördün...

*Xasay stulda əyləşir.*

**Xasay:** Çay!

*Gülçöhrə mətbəxə keçir. Bir stəkan çay gətirir. Ərinin qarşısına qoyur.*

**Gülçöhrə:** Mənim generalım, gözümə bir təhər dəyirsən. Olmaya sənə gözün üstə qaşın var deyən olub? Varsa de, canın





üçün çay da bərəkətdi, bu bərəkət haqqı gedib şalvarını çıxararam.

**Xasay:** Yox, bu gün bir balaca... Sən şalvar çıxaransan?

**Gülçöhrə:** Yaxşı, mən səni vurmağa göndərmişdim, yoxsa hüzürə?

**Xasay:** Hüzürə də getdim, meyidi yumağa da.

**Gülçöhrə:** Necə yəni meyidi yumağa? Sənə general rütbəsi veriləndə, sən mundir geyinəndə, o yuyulubmuş axı.

**Xasay** *(gülür)***:** Elə yumaq demirəm.

**Gülçöhrə:** Bəs necə?

**Xasay:** Biz onun cismini yox, ruhunu yuduq. Qoy bu dünyadan rahat getsin. Cənnətməkan olsun... Axı hər nədi, xalamın əri olub.

**Gülçöhrə:** Deməli, araqla? Xalan sən deyənləri eşitsə...

**Xasay:** Neyləyəcək?... O hələ sevinsin ki... Yoxsa, qulağımı kəsəcək?

**Gülçöhrə:** Keç o biri otağa, yatağı açım, uzan dincəl. Özünə gəl, sabah danışarıq.

**Xasay:** Yox... Nə dincəlmək? *(Xasay əlini cibinə salır. Qumardan udduğu pulları dəstəylə çıxarır. İki yerə bölür, yarısını saymadan arvadına verir)*. Sabah uşaqlara bir şey alarsan. Özün də dur, gedək.

**Gülçöhrə:** Hara?

**Xasay:** Xalamgilə.

**Gülçöhrə:** Gecdi. Keçən axşam da xalan yatmayıb, ərinin keşiyini çəkib. Üz-gözündən halsızlıq yağır.

**Xasay:** Gec döör. Qalx gedək.

*Pauza*

**Gülçöhrə:** Sən keflisən. Xalan səni içən görsə, abrımızı ətəyimizə bükər. Nə sözümüz var, gündüz demişik də.

**Xasay:** Yox, budəfəki tamam alahı sözdü.

**Gülçöhrə:** Başa düşmədim.

**Xasay:** Bilirsən ki, kişi ölüb, arvad təkdi, həddən artıq qocalıb. Əldən düşüb. Ayağı güc-bəlayla yer tutur. Gördün, gecələrin birində, elə gündüz də ola bilər, şırt getdi əldən. Elə olsa inan, o geri qayıtmayacaq. Başıma daş düşəcək.

## X bölüm

**Gülçöhrə:** Nə? Sən xalanı bu qədər istəyirsən? Xeyir ola?... Getsin də, xalan yaşda meşədə ağac da qalmayıb. Onun üçün nə həyəcan keçirirsən? Başına niyə daş düşməlidi. Uşaqlar yazıqdılar. Onlar niyə yetim qalmalıdılar ki. O qədər anasının əmcəyini kəsənlər var ki. Daş düşsün onların başına.

**Xasay:** Onda evi kimə qalacaq?

**Gülçöhrə:** Dayına... Nərgiz xalana... Onların uşaqlarına... Eh... Mən nə bilim... *(Fikirləşir)* Mənim generalım, xalanın səndən zəhləsi gedir. Hər halda göz-qulağını birdəfəlik yığ, evi sənə verməyəcək. Ümidini kəs evdən, yoxsa başın xarab olar.

**Xasay:** Dərdimə bax... Elə etinasız danışırsan, vallah ayaqlarım yerdən üzülür... *(Başını bulayır)* İndi də gəl arvadı başa sal... İşə girişməmiş ağ bayraq qaldırma. Adımız-sanımız var.

**Gülçöhrə:** Xeyir ola, yoxsa müharibəyə başlayırıq? Gicləmə, Xasay, sənin adın-sanın var.

**Xasay:** Gicləyənin lap atasına lənət, tüpürüm o ad-sana. Mən deyənlər sənə sonra çatacaq. Arvad ki arvad... Qandırınca adamın canı çıxır. Zeynəb qarı necə deyərdi?

**Gülçöhrə:** Nəyi?

**Xasay:** "Ovu bərədə vurarlar"... "Saçı ölünün üstə kəsərlər"... Hansını deyim? Ov qaçıb canını qurtarandan sonra, dalınca nə qədər şappıldadırsan, şappıldat. Xeyri olacaq?.. Ya ölü qəbrə girəndən sonra... Başımı sən gic elədin.

**Gülçöhrə:** Yox... A tövbə...





**Xasay:** Atana rəhmət!

**Gülçöhrə:** Mənim dədəm sappasağdı, ölməyib, general. İstəsə, canı sulu arvad da ala bilər. Musqulları cağbacaq, dizlərinin taqəti yerbəyerində.

*Pauza*

Maşallah canında da otuz-qırx at gücü var. Nə qədər desən, çəkər.

**Xasay:** Ağ eləmə.... O da vot-votdadı... Dədənin də ruhunu yumaq...

**Gülçöhrə:** Özünü yığışdır. Axşam-axşam qanımı qaraltma, general!.. Öz aramızdı, hərdən yolunu azırsan ha... Elə bil o mələyən Xasay döörsən... Sən öl, sənə bir toy tutaram...

**Xasay:** Yox... Əzizim, dədənin ruhunu yumasam, ömrü boyu nəvələrinin üzlərinə baxanmaram. Dünyadan xəcalətli köçərəm. Heç dədənin də ruhu onu mənə bağışlamaz.

*Gülçöhrə xeyli fikirləşir. Sonra çiyinlərini çəkir.*

**Gülçöhrə:** Yenə səndən soruşuram, indi gedib xalana nə deyək?

**Xasay:** Deyəcəyik ki, yığış, gəl bizdə qal. Bu yaşda tək-tənha bir evdə tək qalmaq, sənə çətin olar.

**Gülçöhrə** *(səsi gərilir)***:** İstəyirsən, ömrü boyu xalanın dalın güdəm? Sonra nə olsun?

**Xasay:** Sonrası budu ki, evi keçirsin bizim uşaqlardan birinin adına. Öləndə də onu biz yerdən götürək.

**Gülçöhrə:** Mən qəbul eləməsəm, onda necə?

**Xasay:** Şadlığından şitlik eləmə, Gülçöhrə, əlimizə bir şans düşüb.

**Gülçöhrə:** Hə... Anladım. Zeynəb qarı demişkən: "Yoğurmadım yapmadım, hazırca kökə tapdım..." Özgənin soxası mənim balalarıma gərək deyil. Özünə alırsan, o başqa...

**Xasay:** Belə satıb pulunu xərcləyəcəm... Belə kirayə verəcəm. Bizi bədbəxtlik basıb. Birimizin dediyi o birimizin boğazından keçmir. Allah verəni qəbul eləmirik. Qorxuram Allaha acıq gedə, əlimizdəkini də ala... Dincəlib oturaq yerimizdə...

**Gülçöhrə:** Gözləri özgə cibində olan ac qalar, Xasay. Sən Allahından istə.

**Xasay:** Əəə... Ağzımı açdırma. Allah neyləməliydi ki? Bunu bizim üçün yetirib də... Onu da qanmırıqsa, ağzımızdan çıxarıb atırıqsa, o neyləyəcək?

**Gülçöhrə** *(fikirləşir)***:** Dayın elə qurddu ki, bəyəm bizə imkan verər?

*Pauza*

**Xasay:** Verməz... Ölünü öz xoşuna qoysalar... Yorğan-döşək məsələsi. O, Qarakişinin bir qolun da qatlayanmaz. Onda baxar işinə. Yalvara-yalvara gələr ayağıma.

**Gülçöhrə:** Aa.. Başın bircə gündə xarab oldu, general.

**Xasay:** Olar da... Bu zırhazıra, hırhahıra baş dözər? Ancaq ağzından çıxmasın.

**Gülçöhrə:** Nə?

**Xasay:** Dayımı yeri gələn kimi, bir göz qırpımında aradan götürəcəm... O, çox zibil qarışdırır. Xeyirsiz dayının vayına oturum.

**Gülçöhrə:** Nəylə?

**Xasay:** Tapançayla.

**Gülçöhrə** *(qəh-qəhə çəkir)***:** Səndə elə şey hardandı?... Yəqin rütbəylə, mundirlə, katibəylə birlikdə onu da sənə veriblər? Səndəki başqa şey üçündü, adama atmaq üçün deyil, general. Bu yaşda sayıqlama. Çaşmısan.

**Xasay:** Bəs neyləyək? O boyda şeyi əldən vermək olar?

**Gülçöhrə:** Bu da axşamkı yuxunun təsirindəndi? Hərarətin qalxmayıb ki?

**Xasay:** Yox... Qalx gedək, görək nə yola qoyuruq.





**Gülçöhrə:** A bədbəxt, səndə it nəfsi var. Bizi biabır eləmə. Orda nəyi yoluna qoyacaqsan? Hələ kişini bu gün torpağa tapşırıblar. Bu fitvanı sənə kim verib?

**Xasay:** Qarakişiylə Balakişi. Ağakişi də uğur dilədi *(Böyük həvəslə əlini-əlinə sürtərək)*. İşə düzəliş verə bilsək, bizə ölüm yoxdu.

*Gülçöhrə gülür. Sonra uşaqların ünvanına gileylənir.*

**Gülçöhrə:** Siz də bədbəxsiz, bala... Elə bilirsiz dallı-başlı dədəniz var. Hardan biləsiz ki, dədənizin halına ağlayan doqquz taxta tuman geyən ana-bacı lazımdı.

**Xasay:** Nə xeyrini qanırsan, nə də şərini. Deyilənə də qulp qoyursan, durduqca əsəbiləşirəm. Məni dəli eləmə, Gülçöhrə. Gedək arvadı evə dəvət eləyək. İtirdiyimiz nədi? Tutar qatıq, tutmaz süd.

**Gülçöhrə:** Xalan bizimlə yola getməz.

**Xasay:** Evi adımıza keçirək. Yola getməz, onun da çarəsi var.

**Gülçöhrə:** Nədi o çarə?

**Xasay:** Göndərərik qocalar evinə.

**Gülçöhrə:** General, xalan nifrindi. Hey Nuruş deyib ağlayacaq. Bizim də günümüz qara olacaq. Gedək deyirsən, gedək, ürəyimə damıb, vallah-billah yağışdan islanmış pişik kimi, hər ikimiz suyu süzülə-süzülə qayıdacoq. Eşidib-bilənlər bizə tüpürəcəklər.

*Pauza*

Ağlına nə batdı, sonalamadan eləyirsən. Fikirləşmirsən ki, bu işi eləmək olar, ya olmaz. Tələsmə, imkan ver, bir az fikirləşək. Bəlkə sənin düşündüklərini arvad özü bizə təklif eləyəcək.

**Xasay:** Eh... Çətin... Dayım ölməyib... Sən nə qoyub, nə axtarırsan? Bu işdə bizim birinci düşmənimiz dayım, ikincisi

xalamdı... Sən deyən kimi bizə təklif eləsə, canın üçün çim yağ olar. Kor nə istəyər: iki göz biri əyri, biri düz. Ancaq dayımla Nərgiz xalamın nəfsi Murtuzəlinin qılıncından itidi... Nəyə olsa, udqunurlar... Ağızları sulanır.

*Pauza*

**Gülçöhrə:** Ay mənim generalım, axı Nərgiz xalan barədə düz demirsən. Onun ürəyi sənin üçün tir-tir əsir. Xanım-xatın arvaddı, dünya malında gözü yoxdu. İstəsək, o ürəyini də verər bizə. Qaldı dayına, onun nə düşündüyünü deyənmərəm. Sən də ki bir adamla çəpləşmə. Ya ondan şübhələnmə... Öyrəncəlisən dayına düşmən kimi baxmağa... Yeri gələndə lap məndən də şübhələnirsən.

**Xasay:** İnsafın olsun, aaz. Elə danışma. Səndən niyə? Sən yazığın nəyi varsa, balalarınındı da.

**Gülçöhrə:** Bu dilləri hardan öyrənmisən, Xasay?

**Xasay:** Hardan öyrənəcəm, bilmirsən, hüquq işçiləri hazırcavab olurlar?

**Gülçöhrə:** Bir gecəyə bu qədər dil öyrənmək? Gəl görə anadan gəlmə general olaydın. Onda səninlə danışmaq olmazdı ki.

**Xasay:** Anadan gəlmə general olmur. O zəhmətlə, əzmlə çalışanda əldə olunur. Dil də elə, o sonradan qazanılır. Qurban olduğum hərəyə bir şey verib. Dülgərə ağac kəsib yonmağı. Kərpic kəsənə palçıq qatmağı. Çəkənə papiros, anaşa. Alkaşa şərab. Arvadbaza o söz. Hüquq işçilərinə də dil. Yenə deyim?

*Gülçöhrə ucadan qəh-qəhə çəkir.*

**Gülçöhrə:** Sağ ol, səni Xasay müəllim.

**Xasay:** Ay evin tikilsin, o biədəb sözü işlətmə.

**Gülçöhrə:** Nə biədəb söz? Mən nə dedim ki?

**Xasay:** Daha nə deməlisən ki? Ömrüm boyu babamın da, atamın da, özümün də adımızın xəcalətini çəkmişəm. İnanıram





ki, bundan sonra da çəkəcəm. Bunlar azmış kimi, indi də mənə müəllim deyirsən... Dərd məni götürüb, neyləyim, bilmirəm. Gül kimi oğluma da dədəmin adını qoymuşam. Uşağın ad-familiyasını təcili dəyişməliyik. Gələcəyini bilmək olmaz.

**Gülçöhrə** *(istehza ilə)***:** Generalın balası general olacaq. Ondan artıq nə gözləyirsən? Serjant olmayacaq ki.

*Pauza*

**Xasay:** Mən də elə düşünnəm. Zeynəb qarı demişkən: "Boş-boş söhbəti qurtaraq". Nə qədər ki xalam yatmayıb, özümüzü yetirək ona. Şarlatanlara imkan verməyək. İndi çoxunun gözləri bizdədi. Bəxtəvərlik oxuyurlar bizə. Səncə vağamlamış bir arvada sözümüzü deyənmərik? Aaz, belə də ağzı xəmir kəsməzlik olar?.. Vallah cəsarətsizliyimiz barədə fikirləşəndə əl-ayağım yerdən üzülür. Gəl görə bizə casusluq eləmək tapşıraydılar... Onda özümüzü batırardıq ki.

**Gülçöhrə:** Ayə, ay evi tikilmiş, əvvəla, sənin ağzın xarabdı. Yanında oturmaq olmur. Nə olsa atırsan. Batırarıq, — nədi? İkincisi, vallah, ağlım sən deyəndən bir şey kəsmir. Qorxuram xalan səsin ata başına, getdiyimizə də peşman olaq. El içində başı qaxıclı qalaq.

**Xasay:** Əşi, eşit məni. Gəl biz canımızı dişimizə tutub sözümüzü deyək. Eşidər, atasına rəhmət, eşitməz, ağzıma bir yaxşısı gəlmişdi. Bizdən gedən nədi? Bizimki boş dopudu, vururuq dolunun böyrünə. İtirdiyimiz heç nə olmayacaq, uzaq başı xalamın dolu dopusundan azdan-çoxdan bizimkinə töküləcək.

**Gülçöhrə:** General, sənə kələkbaz deməyənin lap atasına lənət. Neçə ildi bir yastığa baş qoyuruq, hələ səni tanımamışam. İndi-indi...

*Gülçöhrə geyinib-keçinir. Ərinin yanına düşür. Xasay qabaqda, Gülçöhrə də onun ardınca Əsmayə qarıgilə gedirlər. Ev adamla doludur. Salam verərək əyləşirlər. Mollabaşı salavat*

*verir.*

**Mollabaşı:** Ay Xasay, deyirlər gecə sənə nəsə veriblər. O, düzdü, ya əyridi?

**Xasay:** Düzdü.

**Mollabaşı** *(yanında əyləşən yaşlı kişiyə)*: Qəribə zəmanəyə yetişmişik, Sücəddin. Elə söz-söhbətlər qurub-düzüb ortaya çıxarırlar, adamın əl-ayağı yerdən üzülür. Bilmir inansın, ya inanmasın. *(Üzünü Xasaya tutaraq)* Bəlkə özün deyəsən, ay Xasay, sənə verdikləri nə olan şeydi?

**Balakişi** *(dərhal)*: Heç zad, general!

**Mollabaşı:** Ayə, necə heç zad? Bəyəm general balaca şeydi?

**Sücəddin** *(özünü avamlığa qoyur)*: O da falçılıqdı?

**Qarakişi:** Nə falçılıq? Falçılar qələt eləyirlər. Kişiyə əməllicə-başlıca ad veriblər... Bizim fəxrimizdi *(Əlini üzünə vuraraq)* bu mən ölüm, bərkə düşəndə qaçarıq yanına. Qoy mərdimazarların, paxılların gözlərinə şiş batsın.

**Mövsüm:** Onu mələklər verib sənə, yoxsa şeytan?

**Mollabaşı:** Yaxşısını özü bilər. İmkan verin, Xasay danışsın. Görək ona harda veriblər, necə veriblər? Onda bizə məlum olar işin təfərrüatı.

*Xasay qamətini düzəldir. Sinəsini qabağa verir.*

**Xasay:** Kim verdiyini bilmirəm. Əvvəlcə məni böyütdülər. Böyük izzət və ehtiramla kabinetimi təşkil eləyib, yumşaq kresloda əyləşdirdilər. Sonra başa düşdüm ki, oturduğum yer nazirliyin dəbdəbəli təchizat şöbəsidi.

*Pauza*

**Qarakişi:** Təsəvvür eləyirsiz, işıqlı kabinet. Təmtəraqlı mebellər. Yumşaq kreslo. Qırmızı, qara, ağ, yaşıl telefonlar. Cavan və şux katibə.





**Xasay:** Bəli! Bəli! Tamamilə doğrudu. Televizoru açan kimi general rütbəsini də oxudular üzümə. Təbrik təbrik üstən gəldi mənə. Mundiri geyindirib mənə, yaraşıb yaraşmadığını da yoxladılar. Xahişə gələnlər nə qədər. İndi də oturub gözləyirəm, görüm nə olacaq? Nə olar, olar? Allahın mərhəmətinə şükür.

**Mollabaşı** *(istehza ilə)*: Allah kərimdi. Şeytan əməli döörsə, yaxşı olar.

**Mövsüm:** Bu, şeytan əməlidi, Xasay. Özünə, balalarına yazığın gəlsin. Mollabaşı sənə kitab da aça bilər. Ondan sonra Zeynəb qarı demişkən: “Bir daş altdan, bir daş üstən”.

**Balakişi:** Kitab niyə açdırır? Ona kim yaxınlaşa bilər ki. Gündə bir az, çox yox, iki yüz-üç yüz gillədən adamdı.

**Mollabaşı:** Elə o pisdi də.

**Qarakişi:** Xasayın heç zaddan qorxusu-hürküsü yoxdu, bu mən ölüm.

**Mollabaşı:** Bu barədə kimsəyə nəsə demisən, Xasay?

**Xasay:** Çox yox, beş-altı arvada. Onlar da bütün şəhərə car çəkiblər. Məncə, şəhərdə hamı bilir.

*Pauza*

**Sücəddin:** Deməli, generalsan, mundirini də geyinmisən. El-obaya kömək elə, Xasay.

**Mollabaşı:** Hamımız bu dünyada qonağıq. İstər general ol, istər marşal. Biz mərhuma əlimizdən gələni elədik. O dünyasını vermək Allahın ixtiyarındadı. Əməllərini bu gecə inşallah haqqın mizan-tərəzisindən keçirəcəklər. Camaət, o mizan-tərəzidən qorxun. O burdakından döör. Nə eləmisiz, hamısını zərrəbinlə ölçüb-biçəcəklər. Fırıldaq, məddahlıq, dost-tanışlıq, hətta, ilahiləşdirdiklərimiz də orda keçmir. Keçsəydi, Nuruş ağıllı adamıydı. Yerin altın da bilirdi, üstün də *(Üzünü generala tutaraq)*. Dünyanın işi belədi, general. İstər general ol, istərsə də generalissmus. O dünyada haqq-hesabı çəkəcəklər. Zeynəb qarı demişkən: “Açacaqlar sandığı, tökəcəklər pambığı”. Oranın öz

şahidləri var. Burda şahidi özgələrdən tutursan. Özü də pulla. Orda əzalarının hər biri sənə şahidlik eləyir. Özü də pulsuz-mulsuz. Hünərin var, boynuna alma. Təsəvvür elə kösöv yanlarındadı.

**Pirvəli** *(mollabaşıya)***:** Kösöv nəmənə şeydi?

**Mollabaşı:** Bir ucu yanmış pazdı. Polislərin dəyənəyinə oxşayır. Elə ki yalan danışdın, o söz...

**Pirvəli:** Necə yəni o söz?

**Mollabaşı:** Onu cənab generaldan soruşarsan, o bilər *(Xasay sinəsini qabardır)*. Biz oturub söhbət eləyirik, ona da nəzarət eləyirlər, bala. Dünya sahibindən xali deyil, hər gələn bir mıx çalıb gedə. Qandın?

**Pirvəli:** Bəli!.. Bəli!..

*Pauza*

**Mollabaşı:** Sən qandınsa, inanıram, hamı qanacaq. Belə-belə işlər, general. Üləmaların buyurduqlarına görə kim bu dünyada kimə haqsız paz çalırsa, əvəzini o dünyada alacaq... Necədi, ağıla batandı?

**Xasay:** Batsa da, batmasa da Zeynəb qarı demişkən: "Ehtiyatlı igidin anası ağlamaz". Ya o dünya olsun, ya bu dünya... İbrətli sözlərdi.

**Mollabaşı:** Gecə gecədən keçir. Camaat, mərhuma nə lazımdı, elədik. Vaxtdı... Ölü sahibləri də yorğundu. Onlar da yatıb bir az dincəlsinlər.

*Mollabaşı ayağa qalxır. Adamlar da onun ardınca xudahafizləşərək gedirlər. Xasay, Gülçöhrə, Dayı, Nərgiz, Əsmayə və başqaları evdə qalırlar. Stulda əyləşirlər. Xasay kədər içindədi. O, arvadının üzünə baxır. Gülçöhrə ərinin fikrini anlayır. Yas buzunu sındırmaq üçün üzünü Narınc qarıya tutur.*

**Gülçöhrə:** Gəlinlə necə dolanırsan, yaxşı baxırmı sənə?





*Narıncın qulağı ağır eşidir.*

**Narınc:** Hay... Ucadan danış. Qulağım eşitmir. Allah kəssin qocalığı.

**Gülçöhrə:** Hələ yaxşısan, nə qocalıq? Şikayətlənmə qocalıqdan.

**Narınc** *(yenə Gülçöhrəni başa düşmür. Öz könlündəkindən dəm vurur)***:** Tutub heç nədən, adam pıçaqlamaq üstə səkkiz il zıplayıblar.

**Gülçöhrə:** Kimə? Gəlinə?

**Narınc:** Kişi dünyasını dəyişəndən özümə gələnmirəm.

**Əsmayə:** Karın könlündəki.

**Dayı:** Da demə. Karın qulağının dibində balta saplayırlar, deyir o taqqıltı nədi?

**Nərgiz:** Lap ürəyim sıxıldı.

**Narınc:** Sabah gələcək.

**Gülçöhrə:** Kim?

**Narınc:** Deyirlər, müharibə olacaq. İzrail İranı vuracaq. A gəlin, yaxşısın sən bilərsən. Yəni İran İzrailə can verər? İnanmıram.

**Gülçöhrə:** Mən hardan bilim?

**Narınc:** Deyirlər, ərindən general qayırıblar, dedim bəlkə o sənə düzün deyər.

**Gülçöhrə:** Yox, deməyib.

**Narınc:** İzrailin başı xarab olub.

**Nərgiz:** Niyə?

**Narınc:** İranda mollalar çoxdu. Hərəsi bir qələm çalsa... İzrail dağılar...

*Hamı qımışır.*

**Əsmayə:** İşə düşmədik?!

**Gülçöhrə** *(ucadan)***:** Deyirəm, gəlinlə aran necədi?

**Narınc:** Nə?.. Nə olacaq? Belə de... Dolanırıq. Sənin ərin varmı, a bala.

**Gülçöhrə:** Var.

**Narınc:** Olsun... Olsun... Şükür Allahın böyüklüyünə. Məndən balacaların hamısının əri var. Mənimkini keçən il Əzrail apardı. O da mənə bir əri çox gördü. Axşamlar başımı yastığıma aparanmıram. Gəlib durur gözlərimin qabağında. Mənə dinclik vermir. İş ki belə gətirir, yəqin məni də çəkəcək dalınca. Deyirəm, a zalım oğlu, getmisən, get rahat ol. Məndən niyə əl çəkmirsən? Kimə deyirsən, elə bil kişi bir az da sıntarıb, sabah axşam yenə atıla-atıla gəlir.

**Gülçöhrə:** Bu gecə də gələcək?

**Narınc:** He... he... he... Elə cavanlıqdan sırtıqıydı... Sinəsindən vurub itələyirdim geriyə, hırıldaya-hırıldaya gəlirdi üstümə. Yəqin səninki də elə olar?..

*Uğunurlar.*

**Nərgiz:** Dincəldin? Ver cavabın.

*Adamları gülmək tutur. Onlar stuldan qalxıb gedirlər. Ən axırda Əsmayə, Nərgiz, Dayı, Xasay və Gülçöhrə qalırlar.*

*Əsmayə Xasaya tərs-tərs baxır.*

**Əsmayə:** Səndən it iyi gəlir, Xasay. A başı boş, zəhrimarı hardan tökmüsən içinə? Bir gün özünü saxlayanmazdınmı? Dur, rədd ol, o yanda otur. Ədəbsizliyini gərək hər yerdə göstərəsən. Nəş qaldırılanda səni gördüm. O anda Balakişi səni hara çəkdi?

**Xasay** *(çaşdı)***:** Heç hara?

**Əsmayə:** Bəs uzana-uzana hara getdin?

*Pauza*





**Xasay:** Agenturan çox güclü işləyir, xala. Rəhmətlik ərin də öyrəncəliydi sirr toplamağa. Ona görə də dayım ərinin adını sirr dağacığı qoymuşdu.

**Dayı:** Ayə, a bala, bu yaşda mənim yaxılası vaxtım döör.

**Əsmayə** *(Xasaya)***:** Dayını məsələyə qatma... Mətləbə keç, Xasay.

**Xasay:** Kişinin öləcəyini hardan biləydim? Axşamdan bir az vurmuşdum. Paxmeliydim. Gördüm başım hərlənir. Qorxdum, camaat bir şey başa düşər. Biabır olarıq. Ona görə də bir az geri çəkildim. Gedib başımı düzəltdim.

**Nərgiz:** Xasayı az sıxın. Elə söz deyəcək, dəymişimiz dura-dura, kalımız töküləcək.

**Xasay:** Demərəm, Əsmayə xalam anam əvəzidi.

**Əsmayə:** General rütbəsini də axşam sənə piyan-piyan verdilər?

**Dayı:** Vergiyə nə vaxt? Nə zaman kef qalxdı onda.

**Xasay:** Mənim orda günahım yoxdu ki. Məsuliyyət verənlərə düşür. Narahat olma, xala, əvəzin çıxacam.

**Əsmayə:** Necə?

**Nərgiz:** Gözümüz aydın, tülkü Həccə gedir.

**Xasay:** Söz verirəm, üçündə, yeddisində, qırxında rəhmətliyin qəbrini yalayacam. O, bizim böyüyümüziydi.

**Əsmayə:** İçib-vurandan sonra.

**Xasay:** İçib-vurmasan, qəbrə Əzrailin əlindən yaxın getmək olarmı?

**Dayı:** Bərəkallah bacıoğlu.

*Xasay kövrəlir. Şalvar cibindən bir arşın əski çıxarır, gözlərinin yaşını silir. Əsmayə başını yelləyir. Xasay qəflətən hönkürür.*

**Əsmayə:** Anan rəhmətlik yaxşı qadıniydi. İnsafən, dədən də

pis adam döördü. Elə adamlardan sənin kimi qor-qoduq? Ay qırışmal, nə vaxt adam olacaqsan?

**Dayı:** Bacım ölüb, bu arsızın əlindən canın yaxşı qurtardı. Yoxsa, qırışmal ona dərd-sər olacaqdı.

**Xasay:** Mənə nə olub? Günahkaram, vurun-öldürün məni. Ya səhvimi deyin, düzəldim. Dünya qopmayıb ki. Kimin səhvi yoxdu?..

## XI bölüm

**Nərgiz:** Xeyir ola, bu dilləri sənə kim öyrədib?

**Dayı:** Kim öyrədəcək? Balakişi, Qarakişi, Ağakişi.

**Əsmayə:** Xasay, sən düzələn döörsən. İtirmisən yurd-yuvanı. Olmusan avara. Nə düz-əməlli işin var, nə də cibində pulun...

**Xasay:** Mən əvvəlki Xasay döörəm, xala *(qumardan qalan pulları çıxarıb göstərərək)*. Avaranın cibində bu qədər pul olmaz. Mənə general deyərlər. Bilirsən, niyə gəlmişəm?

**Əsmayə:** Yox...

**Xasay:** İstəyirəm, səni aparam evimə. Tək-tənha qalma. Ye, iç, yat bizdə. Gülçöhrə də, uşaqlar da qulluq eləsinlər sənə. Gözümün qabağında olsan, onda mən də nigaran qalmaram.

**Əsmayə:** Sonra?

**Nərgiz:** Bəs deyirdiz Xasay düzələn döör?

**Gülçöhrə:** Evini ya verək kirayəyə, ya da qapısını bağlayaq.

**Xasay:** Qalanını özün bilirsən.

**Əsmayə:** Mən kirayədən gələn qəpik-quruşa qalmamışam. Qapısını bağlayıb işığını niyə söndürüm evin? Gendən baxan da desin, Nuruşun evi xaraba qalıb. A general, gəl evi verim sənə. Ol içində, özüm də gedim qocalar evinə.

*Pauza*

**Xasay:** Hay... Hi... Yox... Onu mənim başım götürməz.





**Nərgiz** *(qəsdən)*: Burda nə pis iş var ki? Əsmayənin qəlbi elə istəyir.

**Dayı:** Əsmayə qəlbinin hökmüylə yaşayan qadındı, Xasay. Niyə razı olmursan.

**Gülçöhrə:** O bizə söyüş olar, Əsmayə xala.

**Xasay:** Mən onu qeyrətimə sığışdıranmaram. O kişilikdən döör. Mən sənin evinə sahiblənim, sən də qocalar evinə köçəsən?

**Gülçöhrə:** Vay... Vay... Vay... Ürəyim ağrıdı... Elə demə...

**Xasay:** Bəyəm, mən ölmüşəm, ya şikəstəm?! Eşidib-bilənlər cəmdəyimə tüpürərlər.

**Nərgiz:** Eşidib-bilən olmasa, mümkündü?..

**Xasay:** Siz Allah məni dolaşdırmayın. Mən siyasət adamı döörəm. Dayı, məni az gözü qıpıq elə. Mənə general rütbəsi veriləndə də xatalı danışırdın. Ayə, niyə bilmək istəmirsiz ki, mən sizin bacınız oğluyam ey.

**Dayı:** Sənə rütbə veriləndə mən hardaydım? O rütbəni sənə harda verdilər?

**Xasay:** Yuxuda.

**Əsmayə:** Görəcəyimiz hələ qabaqdadı.

**Nərgiz:** Qurtarın söhbəti. Xasay, "burun pisdi" deyə onu kəsib atmazlar.

**Xasay:** Atanıza rəhmət.

**Gülçöhrə:** Dayı — Xasayın xalası qocalar evindədi — desələr, mən də dözmərəm.

**Xasay:** Televizorda göstərsələr, radioda desələr, qəzetdə yazsalar, özümü ataram qatarın altına. Mən özgə döörəm, Əsmayə xala. Doğmaca bacın oğluyam. Oğlun əvəziyəm.

**Nərgiz:** Vay!.. Vay!.. Vay!.. Yox, səni heç kim atanmaz, Xasay.

*Pauza*

**Əsmayə:** İkinizə də deyirəm. Bizimki tutan sevda döör.

Qoca qarıyam, mənə rahatlıq lazımdı. Azdan-çoxdan təqaüd alıram. Evim var, yaşayıram. Siz də sağ olun. Qaz, su, işıq pulundan da azadam. Mənə heç nə lazım döör. Ağrımayan başıma yaş dəsmal bağlamayın. Hər kəs öz evində olsa, yaxşıdı.

**Xasay:** Xala tək qadınsan. Şəhər anasının əmcəyini kəsənlərlə doludu. Sənə girişə bilərlər.

**Gülçöhrə:** Hə... Hə... Mən də ondan qorxuram. Bu yaşda sənin təmiz adına ləkə yaxarlar.

**Əsmayə:** Neylərlər? Ha... ha... ha... Oyununuz olsun. Mən özüm adamlara girişirəm. Böyrümdən bismillah eləyib keçirlər.

**Dayı** *(qəh-qəhə çəkərək)***:** Qeyrət mücəssəmələri.

**Xasay:** Dayı, xatirinə dəymirəm, özünü yığışdır.

**Gülçöhrə:** Xasayın xasiyyəti tünddü. Binamusluğu başı götürmür.

**Nərgiz:** Özünüzü yığışdırın, Gülçöhrə. Bizi ələ salmayın.

**Xasay:** Sizi ələ salanın lap atasına lənət.

**Gülçöhrə:** Dayı ilə sənin danışığın heç xoşuma gəlmir, Nərgiz xala. Sən də belə?..

**Xasay:** Fikirləş, xala...

*Pauza*

**Gülçöhrə:** Kişinin yeddisi çıxsın, bu söhbətə bir də qayıdarıq.

**Əsmayə:** Mənasız şeydi.

**Dayı:** Ağlını başına yığ, Xasay. Məscidin qapısı açıq oldu-oldu, itin abrına nə?

**Nərgiz:** Heyf bu boydan-buxundan sənə, Xasay. Elə bilirdim səndə az da olsa qeyrət, namus var.

**Xasay** *(əsəbləşir)***:** Kül başına, general. Gör sənin qarşında kimlər at oynadır.

**Gülçöhrə:** Özününkülər. Əşi, bəsdi, siz Allah... Adamın qursağı yağ götürməzmiş... Əşi, sizdən nə təmənnamız var? İstəyirik qoca arvaddı, əziyyət çəkməsin. Xasay da el qınağı olmasın.

**Dayı:** Xoruzun quyruğu görünür, bala.

*Ər-arvad bir-birilərinin üzünə baxırlar. Əsmayə əliylə işarə eləyərək onları ayağa qaldırır. Xasay arvadıyla kor-peşman evlərinə qayıdır. O, divanda oturur. Saçlarını yolur.*

**Gülçöhrə:** Ay başına xeyir, cəhənnəm xalanın soxa evi, sən özünü infarkt eləyəcəksən. Bəyəm xoruz olmasa, sabah açılmır? Əsmayənin evinə qalmışıq? Tüpürüm xalanın evinə. O nə evdi, əə? O, evsiz dolananmarıq?

**Xasay:** Mənə ev təsir eləmir. Məni çırtım-çırtım yandıran Əsmayədi-nədi onun bacısı Nərgizin, huşdurum haray dayımın mən boyda generalı ələ salmalarıdı... Biz manevr eləməliyik, Gülçöhrə manevr.

**Gülçöhrə:** O nəmənə şeydi?

**Xasay:** Yəni hiylə işlətməliyik. Daha həvəsləndirici, şirnikləndirici yol seçməliyik. Bayaq dedin, dədən istəsə, arvad da ala bilər. Biz dədənin məsələsini qaldırmalıyıq. Onun kartını açmasaq, çətin. Sənin dədənin arvadı, mənim xalamın əri ölüb. Hər ikisi duldu. Kişinin canı da suludu. Maşallah, kir-kir kişnəyir. Boynuna almamağına baxma, xalam da dingildəyir.

**Gülçöhrə:** Nədən bildin?

**Xasay:** Koram?.. Onları görüşdürək. Dədənin yeganə balasısan. Hər nəyi var, sənindi. Xalamın kəbinini dədənə kəsdirsək, onda əmlak sənindi. Sabah mən olmaya da bilərəm. Heç olmasa, uşaqlar əliboş qalmasınlar.

*Pauza*

**Gülçöhrə:** Ayə, şər deməsən, xeyir gəlməz. "Xəta baş verəndə quymaq diş sındırar". Tutaq ki, aldıq-verdik, kəbin də kəsdirdik. Birdən ağzıma daşlar, xalan dədəmin də başın yedi? İncimə məndən, sənin xalan həm qaramatdı, həm də həşəyridi.

Birdən xalan dədəmin evinə də sahib olub, başqa kişi saldı yanına? Onda da gəl döy başına, döy dizinə — olacaq.

**Xasay:** Məni dəli eləmə, Gülçöhrə.

**Gülçöhrə:** Bu, çox böyük risqdi, general.

**Xasay:** Sən dədəni razı sal. Bir müddət yaşasınlar. Günlərin birində xalamın ağzına balınc basıb öldürmək mənim boynuma. Onsuz da gec-tez ölməlidi.

**Gülçöhrə:** Yox... O cinayətdi, səni tutarlar. Aç qulaqlarını eşit. Sən həbs olunsan, o saat özümü öldürərəm. Canın üçün mən ərə öyrənmişəm, yanımda olmasan... Həm də sənin yetimlərinə kim baxar?

**Xasay:** Bəs mən başı daşlı neyləyim? Başıma haranın daşın salım? Bu imansızın yaşamasından nə olar? Kimə xeyir verəcək? Əşi, bu ölkənin də əcaib qanunları var? Bir qarıya görə mən boyda generalı yelləyəcəklər içəri. Gedə-güdələr də mənə hökm çıxaracaqlar... Sən dədənin ağzını ara, görək nə deyir? Bəlkə özləri razı olacaqlar?

**Gülçöhrə:** Anam cəmi-cümlətani ay yarımdı dünyasını dəyişib. Qırxı təzəcə çıxıb. Dədəm arvad almaq istəyəcəkmi? İnanmıram.

**Xasay:** Nəinki deməlisən, arvad almağın zəruriliyini həm də ona inandırmalısan.

*Pauza*

**Gülgəz:** Bu tezliyə mən ona necə deyim ki, ay dədə, gəl arvad al. Anamın ruhu inciməzmi?

**Xasay:** Deməlisən. Nə ruh-murh, olar boş şeydi.

**Gülçöhrə:** Eşidən-bilən mənə nə deyər? Deməzlərmi, ay ifritə, dünya malından ötrü nə oyun düzəldirsən? Onda mən kimə nə cavab verim?

**Xasay:** Əvvəla, deməzlər. Deyən də qələt eləyər. Onun da tutarlı cavabı var. Deyərik xəstədi. Özünü girləyənmir. Altınıüstünü təmizləyən lazımdı.





**Gülçöhrə:** Onu Allah götürər?

**Xasay:** Götürməsə də, əlac yoxdu.

*Gülçöhrə dədəsinə telefon açır.*

**Nihad:** Eşidirəm...

**Gülçöhrə:** Sənə deyiləsi vacib sözümüz var, dədə. Qorxuruq, sonra gec ola. İstəyirik, generalla yanına gələk.

**Nihad** *(təəccüblənərək)***:** A başına dönüm, siz hara, general hara? Xasay yenə nə oyun düzəldib? Nə xəta törədib? Yoxsa keçən dəfəki kimi, oğurluq eləyib?

**Gülçöhrə:** Əşi, yox... Narahat olma. Gələrik, bilərsən.

*Xasayla Gülçöhrə geyinib evdən çıxırlar.*
*Kadr dəyişir. Nihad onları qarşılayır. Kişi əsəbi görünür.*

**Nihad:** A qızım, general hanı? Generalla gələcəyini dedin, gecə vaxtı dəli oldum.

**Gülçöhrə** *(həvəslə)***:** Əşi, dəli niyə olursan? Dəli olsun, səni istəməyənlər. Axşam kürəkəninə general rütbəsi veriblər, xəbərin yoxdu?

*Nihad Xasayın üzünə baxır. Xasay sinəsini qabardır.*

**Nihad** *(istehzayla)***:** Demisiz, biləm?

**Gülçöhrə:** Bütün şəhər, ay dədə, ondan danışır.

*Xasay yerində qurcalanır. Qamətini düzəldir. Boğazını arıtlayır. Nihad yenidən gözaltı Xasayı süzür.*

**Nihad:** General hara, Xasay hara? Mən biləni Xasay heç o sahədə işləməyib. Gərək ki ali təhsili də yoxdu.

*Gülçöhrə çaşır, nə deyəcəyini bilmir.*

**Gülçöhrə:** Nə bilim, ay dədə, deyir, axşam yuxuda veriblər.

*Nihad qəh-qəhə çəkir.*

**Nihad:** Yuxuda olar, Xasay... Çox böyük etimaddı. *(Xasayın üzünə baxır, sonra da başını yelləyir)* Özünüzü biabır eləməyin. Uşaqlarınızı tay-tuşları arasında utandırmayın... *(gülür)* Bu, Xasayın təzə nömrəsidi? Düzünü de, Xasay, bu, nə oyundu?

**Xasay:** Yuxudu da, görmüşəm. Kim yuxu görmür ki?

**Nihad:** Yuxuda çox şey olar, onu reallıq kimi cəmiyyətə sırımazlar, Xasay. O biabırçılıqdan şəxsən mənim də, nəvələrimin də üstünə çamır düşür.

*Xasay yerində qurcalanır. Nihad sözünə davam eləyir.*

**Nihad:** Axşam mən də ananı yuxuda görmüşəm. Gördüm elə narahatdı, gəl görəsən. Üzümə baxıb hönkür-hönkür ağladı. Səndən də, Xasaydan da gileyləndi... Uşaqları da soruşdu. Mənə dedi, yığış gəl, səndən ötrü darıxmışam. Yəqin Xasayın rütbə alması ona da əyan olub.

*Xasay narahat olur. Gülçöhrəyə əsas mətləbə keç işarəsini verir. Gülçöhrə söhbətin səmtini dəyişir və birbaşa mətləbə keçir.*

**Gülçöhrə:** Dədə, bilirsən, gecənin bu vədəsində səni niyə narahat elədik?

**Nihad:** Yox... Hardan bilim, a qızım. Dedin generalla gəlirik, az qala ürəyim qopacaqdı. Ha... ha.. ha... Oyunun olsun, Xasay...





*Xasayla Gülçöhrə gülürlər.*

**Gülçöhrə:** Hər gün ürəyimin yağı əriyir. Anam dünyasını dəyişəndən sənin nə əzablar çəkdiyini üzə vurmasan da, duyuram. Qalmısan pis günə. Vaxtlı-vaxtında baxanın yox... Xasay da səndən narahatdı, elə mən də. Utanırıq, üzünə baxanmırıq... Xəcalət çəkirik.

**Nihad:** Xəcalətli düşməniniz olsun. Burda sizin nə günahınız var?

**Xasay:** Var... Biz də qarşında günahkarıq.

*Kişi fikrə gedir. Handan-hana Xasayın üzünə çəpəki baxır. Xasay başını yana çevirir.*

**Nihad:** Qızım, mən səndən çox razıyam. Çətin zamandı, işdən-gücdən başınız ayrılmır. Balalarınıza yaxşı baxın. Onları sağlam böyüdə bilsəniz, böyük şeydi. Elə bilərəm, mənə də qulluq eləyirsiz.

**Gülçöhrə:** Yox... Dədə, sənə fal açdırdım. Falçı dedi: “Dədənə arvad tap, onu evləndir. Ananın da ruhu narahatdı. Qışda soyuğa, yayda istiyə dədən dözməyəcək... Paltar yu, ütülə, yemək-içmək hazırla, evi sil, süpür. Bu işlər o yaşda dədənə lazımdımı? Mən icazə verirəm. Arvad al ona”.

*Pauza*

**Xasay:** Əşi, sadalananlar kişi işi döör.

**Nihad:** Əlbəttə, mən də istəməzdim. Allah özü belə məsləhət bildi. Neyləyə bilərdik?

**Gülçöhrə:** Anam təkidlə bildirdi: “Qızım, dədən fani dünyada narahat olanda mən də haqq dünyasında əziyyət çəkirəm. Üzü qara olasan, dədəni baş-ayaq eləyib yanıma gəlməsən. Gəlsən üzünə də baxmaram. ”

**Xasay:** Əlacsız şey yoxdu.

**Nihad:** Neyləyək?

**Gülçöhrə:** Yığış gedək bizə.

**Nihad:** Mən evimdə öləcəm, qızım.

**Gülçöhrə:** Onda sənə arvad alaq, nə çox əri ölmüş dul qadın.

*Nihad özünü itirir. Gözlərinin dərinliyində ümidsizlik yaranır... Titrək səslə.*

**Nihad:** Mənə toy eləmək istəyirsiz?

**Xasay:** Dünyanın işi belədi. Arvadı ölən kişi arvad alar, həm də əri ölən arvad ərə gedər.

**Gülçöhrə:** Toy yox... Kəbin kəsdirək. Səssiz-küysüz. Camaatdan ayıbdı. Səsə salmayaq, gecələrin birində qazan asıb, adamımızı gətirək evimizə.

**Nihad:** Bəs ananın ruhu?

**Xasay:** Falçı deyir, dədənizə arvad alsaz, ananızın da ruhu xoş olar.

**Nihad:** Namizədiniz varmı?

*Xasay arvadının üzünə baxır. Gülçöhrə ərini dərhal başa düşür.*

**Gülçöhrə:** Xasayın xalası... Hallıca-dulluca. Ərini bu gün basdırdıq torpağa.

**Nihad:** Allah o dünyasını versin kişinin *(Nihad üzünü kürəkəninə tutur)*. Xalan özü də razıdı, Xasay?

**Xasay:** Hələ ona deməmişik. Düşündük ki, əsas sizsiz. Sizin razılığınızı alsaq, onu da yola gətirərik.

**Gülçöhrə:** Əşi, arvaddı da. Arvadın peşəsi... Ərə verdiyimizi eşitsə, sevindiyindən uçacaq...

**Nihad:** A ha... Deməli belə *(fikirləşir)*. Xalanın ərinin öldüyünü eşitcək, tez qaçdız yanıma ki, kimsə qabağa düşə bilər?





Xalana elçi gələr? Arvad əldən çıxar, hə?..

**Xasay:** Bəli!.. Bəli!...

**Nihad:** Qorxmayın getməz. Mən razı, gedin, şəhərdə ən bahalı şadlıq saraylarından birinə sifariş verin. Toyda mütləq zurna da çalınmalıdı. Düdüyü də yaddan çıxarmayın.

**Gülçöhrə:** Də-də, düdük nədi?

**Nihad:** Zurnanın böyründə çalınan qüvvətləndirici alət.

**Gülçöhrə:** Də-də düdüksüz olmaz?

**Nihad:** Düdüksüz toyun nə ləzzəti?

**Gülçöhrə:** Əşi düdük ağ olar ey. Birdəki düdükdə nə ləzzət görmüsən? Zurna da, düdük də, çoxdan dəbdən düşüb.

**Nihad:** Onu Xasaydan soruş.

**Xasay:** Xərci böyük olar, Nihad dayı.

*Pauza*

**Nihad:** Ayə, a general, mən arvad alıram ey, keçi yox *(Üzünü Gülçöhrəyə tutaraq)*. Bəyəm, biz uşağıq? Bizim adımız-sanımız var. Kimdən əskiyik? Mən qır-qızıl, bahalı pal-paltar almasam, zurna-qaval çaldırmasam, düdük pilətməsəm, qol açıb şıdırğı oynamasam, gəlinin qapısının kandarına ayaq basmaram. Siz nə bilirsiz? Mənim adım-sanım var. Elə xalanın da. Yəqin azdan-çoxdan xalanın da əmlakı var, Xasay. Olmasın birimizin əmlakımız. Uzaqbaşı onun evini satıb mənimkinə yığışarıq. Yaxud da mənimkini satıb onunkuna. Qorxmayın, toyun xərcini özümüz çəkərik.

*Ər-arvad çaş-baş qalırlar. Bir-birilərinin üzünə baxırlar. Xasay udqunur.*

**Gülçöhrə:** Dədə, o böyüklüyə həngaməyə ehtiyac yoxdu. Anamın da ruhunu zırpazırp, atılıb-düşmək incidə bilər.

**Nihad** *(gülümsünərək)***:** Xasay, görürəm sən qazdan ayıq adamsan. Uzaqgörənliyinə söz olanmaz. Bicliyinə görə sənə

qibtə eləmək olar. Ancaq düşündüklərin baş tutsa... Ər-arvad sizin dedikləriniz mənim yadıma bir əhvalatı saldı. Günlərin birində tacir oğlunu evləndirmək istəyir. Cercehiz barədə evin xanımıyla məsləhətləşir və belə qərara gəlirlər ki, gəlin üçün ən bahalı daş-qaşlar, hamının həsəd aparacağı paltarlar alsınlar. Gedib alırlar da. Alınanları faytondan evə daşıyan nökər tacirdən soruşur:

— Ağa, bu qədər cer-cehizə, daş-qaşa nə ehtiyac var? On arşın bez, bir cüt sırğa, bir üzük alsaydız kifayət eləməzdimi? Bu qədər bədxərclik nəyə lazımıydı?

*Pauza*

Tacir nökəri altdan-altdan süzür və özün saxlayanmayıb deyir:

— A nökər, belə daş-qaşla, cer-cehizlə, zər-libasla gətirilən gəlin oğul doğar, böyüdər, o da ağa olar. On arşınla gələn gəlin uşaq dünyaya gətirər, o da boya-başa yetər, sənin kimi nökər olar... Mən evə xanım gətirəcəm, arvad yox. Doğmayan, nəsil artıranmayan xanım kimə gərəkdi.

*Xasay Gülçöhrənin üzünə baxır. Gülçöhrə çaş-baş qalır. Çiyinlərini çəkir.*

**Gülçöhrə:** Dədə, bu yaşda arvadmı doğuzduracaqsan? Əşi, dədəm olsan da, deyəcəm, bu yaşda sənin başına atmı təpib? Uşaq sənin nəyinə gərəkdi?

**Nihad:** Yox... Qızım uşaqsız ev olmaz, ailənin yaraşığı uşaqdı.

**Xasay:** Bəri başdan deyirəm, mənim xalam anadan gəlmə qısırdı. Onun uşağı olmayacaq. Olsa da, mən ona imkan verməyəm.

**Nihad:** Yox, Xasay, sən düşünənlər şeytan işidi. Mənə də qısır arvad lazım döör.





*Matı-mutu quruyan Gülçöhrə çaşqın halda gah atasının, gah da ərinin üzünə baxır. Vəziyyətdən çıxış yolları axtarır.*

**Gülçöhrə:** Dədə, məndə iki uşaq var. İstəsəniz, ikisini də verərik sizə. Atalar deyib: “Dövlətdə dəvə, övladda nəvə”.

**Xasay:** Bu yaşınızda uşaq dünyaya gətirmək faciəniz olar. Allah eləməsin, bir xəta baş verər, uşaq yetim qalar, onu kim saxlayacaq?

**Nihad:** Bəs siz nəsiz?

**Gülçöhrə:** Də-də..

**Nihad:** Nədi, a bala?

**Xasay:** Kişi, bizi el içində xar eləmə... Bu yaşda uşağınız olsa, bütün qəzetlər sizdən yazacaqlar. Televiziya kanalları gün axşamacan sizi göstərəcəklər, radio verilişlərində sizdən danışacaqlar.

**Nihad:** Elə mənim axtardığım da odu da.

**Xasay:** Onu özünüzə necə sığışdırarsız? Yox...

**Gülçöhrə:** Mən razı olanmaram ki, dədəm barəsində elə düşük məlumatlar getsin.

**Nihad:** Xasay, it, pişik görmüsən?

**Xasay:** O nə sualdı verirsən. Ömrümüz itlərin pişiklərin əhatəsində keçmir?

*Pauza*

**Gülçöhrə:** Doğrudu, itimiz yoxdu, ancaq bir ana, üç bala pişiyimiz var.

**Nihad:** Təki olsun, qızım, pişik pis heyvan döör. Onların balalarına xidmətin də görmüsüz?

**Gülçöhrə:** Hə... Hər gün ana pişik balalarını yalayır, yemləyir.

**Xasay** *(əsəbiləşir)*: Əşi, itin, pişiyin bura nə dəxli var? Xalama da, sənə də yazığımız gəlir. İstəyirik it günündə yaşamayasız. Adam kimi verib baş-başa dolanasız. Biz də sizdən arxeyin

olaq. Sən də başlamısan, gah tacirdən-nökərdən, gah da itdən-pişikdən...

*Pauza*

**Nihad:** Xasay, sən ağılda adamla siyasətdən, fəlsəfədən danışmayacam ki. Danışsam, nə olacaq?

**Xasay:** Mənə qiymət qoymursan, Nihad kişi, heç olmasa rütbəmi dəyərləndir.

*Nihad qəh-qəhə çəkir.*

**Gülçöhrə:** Dədə, qonşular yatıb. Onları dəli eləmə. Bu saat tökülüşüb gələcəklər. Nə sirrimiz var, hamısı faş olacaq.

**Xasay** *(arvadına)***:** Nə çətin dədən varmış, aaz? Bununla necə yola getmisiz? Xalam beləsinə çətin ki, arvadlıq eləyə. Kişiliyi çatmayan adamda arvad oturar?

**Nihad:** A qanmaz, indi də məni təhqir eləyirsən?

**Xasay:** Təhqir niyə? Dəyərini vermək təhqir eləməkdi?

*Pauza*

**Gülçöhrə:** Ay də-də, əgər biz sənə yanmasaydıq, gecənin bu vədəsində sənin yanına gələrdik? İncimə məndən, dədəm də olsan, deyəcəm: Sən xeyrini başa düşmürsən. Dostunu, düşmənini tanımırsan. Lap uşaq kimisən. A kişi, bəyəm mən anamı səndən az istəyirəm? Otur yerində, imkan ver, işimizi görək. Dolanmazsız, xoşuna gəlməz — hərçənd dolanacaqsız, xoşunuza gələcək — onda da boşanarsız. Bir gözünü aç, bax da. Təzəcə yumurtadan çıxanlardan ikisi evlənir, üçü boşanır. Buna nə deyirsən, ay dədə?

## XII bölüm

**Xasay:** Qocalanın...

**Nihad:** Məni arıya qoymusuz? Əlinizə-qolunuza dolamısız?





Niyə qoymursuz, dincfarağat oturam, xarabamda öləm? Mənim arvad alan vaxtımdı? Ay Xasay, vallah-billah istəyirsən, lap şəhərdə elan eləyim. Mən də sənin xalan kimiyəm.

**Xasay:** Ayə yekə kişisən, bizi biabır eləmə, əə?

**Nihad:** Nə biabırçılıq? Olanını deyirəm.

**Gülçöhrə:** Də-də...

**Nihad:** Düzdü, mən sənin xalanı şəxsən tanımıram. Ağlına bələd döörəm. Xasay, xalan ər istəyir, özü bilər. Apar, kimə xatirin istəyir, ver.

**Gülçöhrə:** Də-də bu olmadı. Sən həddini aşırsan.

*Pauza*

**Nihad:** A qızım, Xasay dedi-dedi, bəs sənin ağlın hardadı? Utanmırsan? Səndən puldan, çörəkdən, paltardan umacağım var? Bunu eşidənlər bizə necə baxarlar?

**Gülçöhrə:** Əşi, qələt eləyərlər.

**Xasay:** Hərə özüyçün yaşayır.

**Gülçöhrə:** Sabah xəstələnsən, altını-üstünü kim təmizləyəcək?

**Nihad:** Üzün ağ olsun.

**Gülçöhrə:** Niyə acığına gedir? Hamının başına gələn işi deyirəm. Gərək altını batıracağın günü gözləyək? Ola bilməz ki, bəri başdan işimizi görək?

**Nihad** *(əsəbiləşir)***:** Xasay, sən düz yolda döörsən. Birdən xalan... Lənət şeytana... Mən sənə atalıq eləmişəm, Xasay. Ancaq sizə ehtiyacım yoxdu. Siz deyənləri nəvələrim eşitsə... İnanıram, xalan bilsə, abırınızı bükəcək.

**Gülçöhrə:** Əşi, sabah yıxılıb ölsən, xəbərimiz olmayacaq. Bütün aləm qarışar, hamı qınayar bizi. Kimə inandıra bilərik ki, biz dedik, sən evlənmədin.

*Pauza*

**Nihad:** Narahat olmayın. Qonşularım hər gün məndən hal-əhval tuturlar. Bələdiyyəylə danışmışam. Başıma bir iş gəlsə,

özləri təhrimi qılacaqlar *(qəsdən)*. Yazbaşı evi satıb pulunu da qoyacam cibimə, köçəcəm qocalar evinə. Nə qədər ömrüm qalıb ki. Evin pulu ayağımdan girib başımdan çıxacaq.

**Xasay** *(əsəbi halda arvadına)***:** Bu nə danışır aaz? Dədənin hərarəti qalxıb, evdə hərarət ölçən cihaz varmı?

**Nihad:** Cihaz-mihaz lazım döör. Xidmətinizi unutmaram. Qalxın, gedin. Mən yatıb dincəlmək istəyirəm *(Xasaya üzünü tutaraq)*. Məndən bir şey çıxmayacaq.

**Xasay:** Biz xalqın mentalitetinə əsaslanırıq. Gedirik, özün bilərsən. Can sənin, cəhənnəm Tanrının. Mən xalamdan bezməmişəm. Fikirləşdik...

**Nihad:** Bərəkallah səni əkən kişiyə, doğan arvada.

**Gülçöhrə:** Də-də, əgər biz deyən başına batsa, telefon açarsan.

**Xasay:** Sənə hörmətim olmasaydı, qızını bircə gün saxlamazdım. Gətirib çoxdan atardım üstünə.

*Pauza*

**Gülçöhrə** *(ərinə)***:** Nadan... Ayə, məni sən saxlayırsan, yoxsa səni mən. Sən öl, səni evə buraxmaram, qalarsan küçələrdə. Onda ağlın başına gələr. Bilərsən, mən kiməm, sən kimsən?

**Xasay:** Mən də kimliyimi sənə başa salaram, Gülçöhrə.

**Nihad:** Ayə, yuxusuzam, baş-beynimi aparmayın.

**Gülçöhrə:** Dayan, dədə, o sənə kimliyini göstərir, mənə yox *(üzünü ərinə tutaraq)*. Nə böyük adam olmusan? Əlləşin oğlu Xasay Mıxıyevsən də. Tüpürüm sənin generallığına da, hələ... Ağzıma gəlmişdi. Deyəcəkdim, qurban olasan dədəmə.

**Xasay:** Elə sənin dədən də...

**Nihad:** Nə?... Yaramaz...

**Gülçöhrə:** Qoy desin.

**Xasay:** Xalama atmayın. Mənim xalam Nuruşun arvadı olub. Kişi onu yağ içində böyrək kimi saxlayıb. O, elə-belə şey döör, Nihad kişi...





**Gülçöhrə:** Kasıb dövlətlinin... Lənət şeytana. Sən də xalanı az təriflə...

**Nihad:** A bala, hər nədi xalanın özünə, onun mənə nə dəxli var?

**Xasay:** Sən onun qədrini, dəyərini bilməzsən. Ayağa duranda əsməyən yeri olmur. Çim yağdı. Üz-gözü də par-par parıldayır. Düzdü üzündə, boğazında bir az qırışları var. Buna baxmayaraq, möhtəşəmdi, müştərisi başının üstündədi...

*Pauza*

**Nihad** *(üzünü qızına tutaraq)***:** Ərin zırramaymış ki.

**Gülçöhrə:** İt-qurddu, dədə, nəvələrinin atasıdı.

**Xasay:** Zırrama olaram da. Kül mənim başıma. Fikirləşdim, xalam əldən çıxası şey döör. Gədə-güdədənsə, qoy sənə qismət olsun... Sən də özünü qaldırıb qoydun dağın başına.

**Nihad:** Su suyu tapar, su da çuxuru. İkiniz də bir ağıldasız. Sizin dalınızca düşən zibilliyə rast gələr.

*Gülçöhrəylə Xasay acıqlı-acıqlı evdən çıxırlar. Evlərinə çatırlar.*

**Xasayın daxili səsi:** Hara əl atıram, zibil çıxır. Qanmaz Nihad da nitq irad elədi. Guya biz onun qədər bilmirik. Pa... pa... Evi yıxılmışın sərəy-sərəy danışığına bax: "Evi satıb qocalar evinə gedəcəm". Mən ölmüşəm, sən evi satıb gedəsən? Ölünü öz xoşuna qoysalar... Anadan əmdiyini burnundan gətirərəm. Gör mən nə fikirləşirəm, bu nə düşünür. Kaftarın bir ayağı burda, o birisi gorda... Neçə vaxtdı bilir ki, gözlərimi onun evinə dikmişəm... *(üzünü Gülçöhrəyə tutaraq)*

**Gülçöhrə:** Deməli, bu istəyimiz də boşa çıxdı.

**Xasay** *(yana-yana)***:** Dədən qanmaz gördün də nə mərifət nümayiş elətdirdi. Bizim tərəflərdə belənçiklərə — Dağar, — deyərlər.

**Gülçöhrə:** Əbləh, kişinin qarasına az donquldan. Sən öl durub şalvarını çıxararam. Özünü də ataram bayıra. Bilirsən də, polisə də elə şey lazımdı.

**Xasay:** Onu bacararsan.

**Gülçöhrə:** Dava-dalaşla, çərənləməklə iş düzəlmir. O da adamdı, üstündə işləmək lazımdı. Hələ gün tamam olmayıb. Nuruş dünən bu vaxtı can verirdi.

**Xasay** *(astadan)***:** İşləsək, deyirsən, düzələr?

**Gülçöhrə:** Neyləyəcək? Üzünə baxmaram. Telefon açmaram. Ürəyi yumşalıb, peşmanlayacaq. Dədələr elədi də. Zato dədəm ailəcanlıdı. Məni də, uşaqları da çox istəyir... Qocalığı Allah kəssin, adamı elə yumşaldır ki, gəl görəsən.

*Pauza*

**Xasay:** Ayə, dədən elə bil kişi döör ey. Anan rəhmətə gedəndə bu da ölüb. Nəyi varmışsa dədənin, anan rəhmətlik hamısın yığıb-yığışdırıb özüylə aparıb. Kişi qalıb quru yurdda. Babamın iki arvadı vardı, yenə gözü orda-burdaydı... Ancaq bu...

**Gülçöhrə:** Dədəm namuslu kişidi, general.

**Xasay:** Məni qorxudan başqa şeydi. Evsiz-eşiksiz cavan oğlanlar şəhərdə doludu. Aralarında doktorantları da var. Xalama girişib saqqızını oğurlayarlar, o da nigaha gedər. Hər şey batar.

**Gülçöhrə:** Hə, xalan Allahsızdı, ondan nə desən çıxar... Nuruşun cənazəsi ortada, arvadın gözləri oynaşır. Sən öl, general, mənim yadıma düşmürdü. Sən deyən ağla batandı. Biz səhv elədik, bir şeyi bəhanə eləyib, gərək dədəmlə xalanı əvvəlcədən görüşdürəydik.

*Pauza*

**Xasay:** Hüzürdə?

**Gülçöhrə:** Hə, nə olacaqdı?.. Kişi öldü, qurtardı... Divin canı şüşədə olan kimi. Şüşə sındı, div çıxdı. Onu şüşəyə bir də qaytarıb salmaq olar?

**Xasay:** Bu nə sözdü, Gülçöhrə?.. Belə çıxır ki...





**Gülçöhrə:** Qızarıb-bozarıb özündən söz çıxarma.. Lap cavanlıqdan xalanın gözləri tində-bucaqda gəzirdi.

**Xasay:** Ola bilməz.

**Gülçöhrə:** Mənə yox da. Qadın qadını yaxşı tanıyır. Dədəmi görən kimi, onu xalan göz-qaşla bişirəcəkdi. Heç bizə ehtiyac qalmayacaqdı.

**Xasay:** Keçənə güzəşt deyərlər... Biz dədənə ideya verdik. Qaldı xalama. — Axşamın xeyrindən sabahın şəri yaxşıdı, — deyiblər. Gərək sabah ucundan-qulağından sən ona qandırasan. İndi keçdi.

*Kadr dəyişir. Səhər açılır. Gülçöhrə evdən çıxır. Birbaşa Əsmayəgilə gedir. Qapını döyür. Evdən səs gəlmir.*

**Gülçöhrənin daxili səsi:** Ağzıma daşlar, bəlkə arvad gecə dünyasını dəyişib? Vay!... Vay!... Elədisə, Xasay çətin ki, dözə. Kişi infarkt olmasa yaxşıdı... Aman Allah, onda hıçqırığımız içimizdə qalacaq... Əşi yox... Nə olsa, ürəyimə gəlir... Mən də qəribə adamam. Yaxşını qoyub pisi fikirləşirəm... Tək-tənha qadındı, bəlkə axşam bizi yola salıb bacısı, ya qardaşıgilə gedib? Bəlkə Xasay deyən kimi, əvvəlcədən anlayıb Nuruş öləcəyini kimləsə sövdələşib, yəhərsiz-yüyənsiz at təki qoşulub ona, qaçıb gedib ərə? Haranı gözləməliydi ki?.. Yox, bu vurha-vurda gedib özünü dilə-dişə salmaz. Kişinin qırxının çıxmasını gözləyər... Eh, kül dədəmin başına, yaşamağı bacarmır. Qarnı quymaq götürmür. Ona deyən lazımdı, yup yumşaq, gözəl-göyçək gəlin kimi arvadın nəyindən qorxub-çəkinirsən? Əsmayədən yaxşısınımı tapacaqsan? Ölmək istəyirsən, get Mazandarana... Bəlkə kişinin ayrı qüsuru var, mən bilmirəm, açıb xəcalətindən deyənmir?

*Gülçöhrə geriyə dönür. Pilləkənləri düşür. Qonşu qapı açı-*

*lır. Qapı ağzında orta yaşlı qadın görünür.*

**Qadın:** Əsmayə xalagilə gəlmisiz?
**Gülçöhrə:** Bayaqdan qapının zəngini basıram, içəridən səs-səmir eşidilmir.
**Qadın:** Səhər ara verəndə, o, ərinin qəbri üstünə getdi.
**Gülçöhrə:** Nə? Dəli olub? Bu tezzənliyə?
**Qadın:** Ərinin qəbrini ziyarətə gedən, bəyəm, dəli olur, xanım?
**Gülçöhrə** *(səhvini anlayaraq)*: Vaxtı var da.
**Qadın:** Bu gün cümədi. Tezdən getdi ki, qəbri ziyarət eləsin. Tez də evə qayıtsın. Bir azdan adamlar tökülüşüb gələcəklər, baş qarışacaq, məzhəb itəcək. İt yiyəsin, bağa başın tanımayacaq. Çox şey yaddan çıxacaq.

*Pauza*

**Gülçöhrə** *(sözünə düzəliş verir)*: Deyəsən, xanım, biz bir-birimizi başa düşmədik. Mən üzümə su vurmadan tezdən gəldim ki, qəbiristanlığa, Əsmayə xalamla birlikdə gedək... Qəbirstanlıq ağır məkandı. Hər qəbir daşı adama bir tarix danışır. Orda tək adamı vahimə basır. İllah da gecə gözə cin-şeytanlar görünür. Yaxınlaşıb adamı yoldan çıxarırlar. Qorxuram, arvadın başına bir iş gələ *(qəsdən)* generalda məni evdə boğazımdan asa...
**Qadın:** General nəyinizdi?
**Gülçöhrə:** Ərim... Xasiyyəti tünddü... Özü də çox... Tapşırdıqlarını vaxtında, yüksək səviyyədə yerinə yetirməsən, hövsələdən çıxacaq, səni tır-mır eləyəcək.
**Qadın:** Məni niyə?
**Gülçöhrə:** Əşi, söz üstən dedim. Arvadı-zadı döörsən ha...
**Qadın:** A... Evdə kişi eşidər...
**Gülçöhrə:** Eh... Kişiyə bax, ha.
**Qadın:** Tır-mır nədi?
**Gülçöhrə:** Qulağın öyrənmədiyi, iç yırtan əcaib sözlər.





**Qadın:** Əşi, deynən eşşəyim var da. Nə olsun generaldı.

*Söz Gülçöhrəni tutur. İstəyir qadının cavabını versin. Əsmayə tövşüyə-tövşüyə, nəfsi təngişə-təngişə pilləkənlərlə qalxır. Gülçöhrə qadınla söhbətini kəsir. Əsmayəni qucaqlayaraq üzündən öpür. O, pilləkəndə dayanaraq nəfəsini dərir. Qadın gedir.*

**Gülçöhrə:** Ay xala, sənə qurban olum, nə yaman əziyyət çəkirsən? Ölməyəydi, kim iydi onu məcbur eləyən. Öldü, getdi. Sənin də canın qurtardı, elə onun da. Onu geri qaytaranmazsan ki. Lap tutalım, qaytardın. Adı da qalacaq xortlamış. Xortlamışın əlindən nə gələcək ki. Oturub-durub baş-beynini aparacaq. Gözlərini qabar, qulaqlarını kar eləyəcək. *(Əsmayə ciddi görkəm alır, gözlərini Gülçöhrəyə ağardır. Gülçöhrə çəkinir və sözünə düzəliş verir)*. Məni gözləsəydin, birlikdə gedərdik. Özün bilirsən, qəbirstanlıq nədi. Adamlar gedirlər, ancaq geri qayıtmırlar. Allah düşmənimi də ora qismət eləməsin.

*Pauza*

**Əsmayə:** Deyəsən, başın xarab olub. Xasayın arvadı belə olar... Sənin ağlın var, nəyindən inciyib-küsüm? Qəbirstanlığa qismət olmayaq, bəs hara gedək? Cəsədimizi deyirsən, it-qurd dağıtsın? Canavar parçalasın, ya ayı söküb aləmlə bir eləsin? Mikrobumuz şəhəri ağzına götürsün? Halımın belə vaxtı məni hövsələdən çıxarma, Gülçöhrə.

*Gülçöhrə danışmağa söz tapmır. Gülümsünür. Əsmayə qabaqda, Gülçöhrə də onun ardınca evə keçirlər.*

**Əsmayə** *(qəsdən)*: Serjant neyləyir?
**Gülçöhrə** *(yan-yörəsinə baxır)*: Mənimləsən, xala?
**Əsmayə:** Hə... Ərini soruşuram.

**Gülçöhrə:** Serjant yox, xala, general. Nə əcəb bacıoğlun var. O olmasaydı, iki uşağın əlində mən neylərdim?

**Əsmayə:** Axşam kimsə qırıldatdı. Mənim yadımda serjant qaldı. Generaldısa, işi xod gedər.

**Gülçöhrə:** Görək də, Əsmayə xala, qaçan da Allahın adın çağırır, qovan da.

**Əsmayə:** Onu arağın cəngindən ala bilsən, igid adamsan. Görmürsən, dəyyus hüzürə içib gəlir? Nuruş ona o qədər əziyyət çəkib... Eh... Eh... Rəhmətliyin də əziyyəti hədər getdi. Çörəyinin duzu yoxmuş...

*Pauza*

**Gülçöhrə:** İncimə, ay xala, mənim anamın hüzüründə sənin o bacıoğlun ayaq üstə duranmırdı ki. Bir həftə gəldi-getdi, içdi. Neçə gün ayılmadı. Dədəm də elə o vaxtdan ondan qırıldı. Sonralar bizə görə məcbur oldu barışmağa. Neyləsin yazıq kişi, pis-yaxşı kürəkənidi də.

**Əsmayə:** Deyirsən, düzələn döör, hə?

**Gülçöhrə:** Nə qədər yabı olsa, neyləyəsən, yenə sizinkidi. Dost-düşmən var. Hərə sizə bir söz deyər.

**Əsmayə:** Nə deyəcəklər, desinlər. Donqarı qəbir düzəldər.

**Gülçöhrə:** Səni çox istəyir, xala. Allah var başımın üstündə. Yalan danışanmaram. Təzə hüzür yeridi, yəqin inkir-mirkirlər də burda olarlar. Deyiləni yazarlar. Səndən danışanda dili ağzına sığmır... Öz anasının, atasının hüzüründə də arağın lap küpünə girmişdi.

**Əsmayə:** Görmürsən, axşam da utanmaz-utanmaz deyir ki, gəl gedək bizə. Bağ belə, bostan elə. Ona deyən lazımdı, əşi, səndə kişilik qalıbdı?

**Gülçöhrə:** Xala, öz bacın oğludu. Gərək dözəsən. İt itdi ki, sahibi onu abrına görə yedirib-içirib saxlayır. Hərə bir tərəfdən üstünə düşüb tərbiyə eləməlidi. Yığışdırmalıdı. Elə dədəm də, sən də, mən də...





**Əsmayə** *(gülür)*: Onun düzəlməsi getdi İsrafil düdük çalana.

**Gülçöhrə:** O nə vaxt olacaq?

**Əsmayə:** Qiyamət günündə.

*Gülçöhrə söhbətin səmtini dəyişməyə çalışır.*

**Gülçöhrə:** Dədəmin də dərdi götürüb bizi. Anam dünyasını dəyişəndən dədəm qalıb odla-suyun arasında. İstəyirik, onu baş-göz eləyək. Nə qədər özü bişirib özü yeyəcək? Tumanını özü yuyacaq.

**Əsmayə:** Anan nə vaxt ölüb?

**Gülçöhrə:** Bir az olar qırxı çıxıb?

**Əsmayə:** Bu tezliyə?

*Pauza*

**Gülçöhrə** *(sözünü dəyişərək)*: Söz üstən deyirəm. Biz də kömək eləyənmirik. Uşaqları da hər şeydən ötrü göndərənmirəm yanına. Qorxuram uşaqları oğurlayarlar. Xasay deyir: "Şəhərdə adam "ovçularının" sayı-hesabı bilinmir. Tökülüşüblər küçələrə. Əllərinə kim keçdi, qadına, kişiyə baxmırlar. Basmarlayıb basıb maşına aparırlar. Bəzilərini bir-iki gün saxlayıb buraxırlar. Bəzilərinin də başını bir dəfəlik əkirlər"...

**Əsmayə:** Heç generala girişən olub?

**Gülçöhrə:** Yox...

**Əsmayə:** Bəs hardan bilirsən?

**Gülçöhrə:** Qonşumuz Emanı apardılar, nə söhbətləri var, elədilər, sonra buraxdılar.

**Əsmayə** *(istehzayla)*: Qorxma, generaldan çəkinib onun arvad-uşaqlarına toxunmazlar.

**Gülçöhrə:** Oğurlasalar, general neyləyəcək? General geri qaytarsa da, onlardan, bizcə adam olmaz... Dədəmə bir tərbiyəli dul qadın axtarırıq.

*Əsmayə Gülçöhrənin nə demək istədiyini anlayır. Ancaq özünü bilməzliyə vurur.*

**Əsmayə:** Dədənin neçə yaşı var?
**Gülçöhrə:** Səksən iki... Yaşı çox olsa da, canı suludu.
**Əsmayə:** Adı nədi?
**Gülçöhrə:** Nihad.
**Əsmayə:** Heç olmasa, özü yatıb dura bilirmi? Yoxsa, elə yataqdadı?
**Gülçöhrə:** Nə danışırsız? Üzünə baxsan, altmış yaş ancaq verərsən ona.
**Əsmayə:** Evi-zadı varmı?
**Gülçöhrə:** Var... Mətbəxi balkona keçirib. Maşallah, böyük zaldı. Havasına da söz olanmaz. Ancaq o "zad" nəyə deyirsiz, başa düşmədim.
**Əsmayə:** İşi, təhsili.
**Gülçöhrə:** Universitetdə ərəb dilindən dərs deyib. İndi təqaüddədi. Müharibə veteranıdı. Dövlətdən çoxlu tərifnamələri, medalları var. Hər il qələbə günü çağırırlar yuxarı, konvertdə pul qoyurlar cibinə. O da paylayır yetim-yesirə, şikəstlərə.

*Pauza*

**Əsmayə** *(qəsdən)***:** Deynən, əsl mənim malımdı ki.
**Gülçöhrə** *(sevinir)***:** Nə danışırsan, Əsmayə xala? Sənə qurban olum! Mən həmişə demişəm, kaş mənim anam Əsmayə xala olaydı. Deyəsən, Allahım yalvarışlarımı eşitdi.
**Əsmayə** *(özünü naza qoyurmuş kimi)***:** Ola bilməz, dədənə şəhərdə bab arvad olmasın. Küçə-baca doludu. Hansı tinə getsəniz, tapacaqsız. Özü də üç-beş yox, yüzlərlə.
**Gülçöhrə:** Var ey, kişi sevmir.

*Qapı döyülür. Gülçöhrə qapını açır. Nərgizlə Dayı gəlirlər. Gülçöhrə üz-gözünü turşudur. Onun bu halı dayıyla Nərgizin gözlərindən yayınmır. Onlar bir şey başa düşmürlər kimi stul çəkib əyləşirlər.*





**Nərgiz** *(Əsmayəyə)***:** Yamanca yorğun görünürsən? Yenə yatmamısan?
**Əsmayə:** Yatmışam, rəhmətlik yuxuma girmişdi. Gördüm kişi gəlib evə. Girəcəyin qabağındaca bir boz it qamarladı onu. Mən çatınca kişi əzişdirdi iti.

*Pauza*

**Dayı** *(şübhələnir)***:** Əsəbləşib eləməmisən? Yəqin ruhu narahat olub. Dözməyib gəlib də. Yuxuda it axmaq adamların simvoludu. Kimsə, darıyır səni, Əsmayə.
**Gülçöhrə** *(Əsmayəylə Dayının işarələrini anlayır)***:** Əşi, ər öldü, qurtardı da. Öləni diriltmək olar? Ərini qəbrə soxub, təzə ər axtaranların neçəsini tanıyıram.
**Nərgiz:** Sözündən belə çıxır ki, biz də o yolu gedək. Danışığına fikir ver.
**Əsmayə** *(Nərgizlə Dayıya)***:** Hə... hə... hə... Xasayla Gülçöhrə mənə elçiliyə gəliblər. Məndən gəlin qayıracaqlar. Məsləhətli don gen olur. Siz necə fikirləşirsiz?

*Nərgizlə Dayı bir-birilərinin üzünə heyrətlə baxırlar.*

**Nərgiz:** Kimə?
**Əsmayə** *(üzünü Gülçöhrəyə tutur)***:** Dədənin adı nədi, aaz?
**Gülçöhrə** *(çəkinəcəkli halda)***:** Nihad.
**Nərgiz:** Bircə bu çatışmırdı.
**Dayı:** Mən tanıyıram onu, bacı. Nihad, ağıllı adamdı. Vallah-billah onun bu elçilikdən xəbəri yoxdu. Gülçöhrəni də Xasay başdan çıxarıb, salıb bəlaya. Neyləyək, bacımız oğludu, nə başın kəsə bilərik, nədə çölə ata?
**Nərgiz:** Bacımızı da biqeyrət çərlədib öldürdü.

**Əsmayə:** İndi də arsız-arsız düşüb elin canına. Nə var, nə var, yuxuda buna general rütbəsi veriblər. Geci-tezi var, qanun keşikçilərinə o xəbər çatsa, inanıram çatacaq da, fırıldaqçılıq, dələduzluq üstə cinayət işi açıb atacaqlar içəri. Balaları qalacaq pis günə. Dərdimizə bax, indi də gəl ona bala saxla.

**Nərgiz** *(təmkinlə)*: Gülçöhrə, ərinə de, özün yığışdırsın. Nə sənin atan Nihada arvad lazımdı, nə də mənim bacım Əsmayəyə ər. Gedin balalarınızın tərbiyəsiylə məşğul olun.

## XIII bölüm

**Dayı:** Xasayın bir dərdi var. O da əmlakdı, bacı. Sənin evinin kimə qalmasıdı. Gülçöhrə, get, ərinə de ki, Əsmayə evi heç kimə verməyəcək, qaytaracaq dövlətə. Kimin evə ehtiyacı varsa, dövlət də açarları verəcək ona.

**Gülçöhrə** *(üzünü yana tutaraq mızıldanır)*: Qonşu qonşu olsa, kor qız ərə gedər.

**Əsmayə:** Generala de, getsin, qarnın qaşısın, itiyini başqa yerdə axtarsın. Baxmaram bacım oğludu, tulamdı-nədi, tutaram onun ağzın cıraram *(üzünü Nihadla Nərgizə tutaraq)*. Əcəb kefdəyəm... Məni bu yaşda dilə-dişə salacaq qeyrətsiz.

**Gülçöhrə:** Bacınızın ruhunu incitməyin.

*Pauza*

**Nərgiz:** Mən Xasayın xatirini çox istəyirəm. Ağlıma gəlməzdi ki, o xalası barədə belə nadancasına düşünsün *(başını bulayaraq)*. Mən bu ədəbsizliyi ona bağışlayanmaram.

**Əsmayə** *(özündən çıxır)*: Dur, Gülçöhrə, bas bayıra... Görün, ər-arvad məni nə yerinə qoymusuz?.. Həyasızlar... Alçaqlar... Əri özündən, özü ərindən betər dələduzlar.

*Kadr dəyişir. Gülçöhrə çantasını götürərək qapıdan necə*





*çıxdığını bilmir. Binanın tinində onu gözləyən Xasayla qarşılaşır.*

**Xasay:** Nə oldu?

**Gülçöhrə:** Ee... Nərgizə də, Dayıya da, elə sənə də... Arvad alana da, ərə gedənə də... Generala bax. Bunu istəyirdin?

*Pauza*

**Xasay:** Hamısı səfehdi... Qanı zəhərdi dədənin də, elə bunların da... *(əlini dizlərinə vuraraq)* Səfehlər... Səfehlər...

*Gülçöhrə əsəbi halda evinə gedir. General küçə aşağı düşür. Köhnə məşuqəsi Mehriylə qarşılaşır. Xanım əlləriylə saçlarını arxaya daraqlayır. Generalla salamlaşır.*

**Mehri:** Ədə, başın batmasın, harda ölmüsən, görünmürsən? Eşitdim səni general qayırıblar *(qucaqlayıb Xasayı öpür)*. İtin qudursun, Xasay. Səni təbrik eləyirəm. O, hamıya qismət olan şey döör. Yaxşı, belə hara?

*Xasay üzünə ciddi görkəm verir. Qolundakı köhnə saatına baxır.*

**Xasay** *(yalandan)*: Bir nəfər gəlməliydi. Görünür, gecikir. Son vaxtlar şəhərdə tıxaclar o qədər artıb, yola çıxmaq, vəd verdiyin adamla vaxtında görüşmək böyük problemə çevrilib...

*Xasay bir də saatına baxır. Mehri üz-gözünü turşudur.*

**Mehri:** O nə saatdı, əə, vurmusan. Aç, ver mənə gözünün qabağındaca atacam maşınların təkərləri altına. Əzik-üzük elətdirəcəm onu. Soxum arvadının boyunu yerə. Saxladığı kişiyə, vurduğu saata bax.

**Xasay:** Ağız, bu dəqiqə nə saat düşür yadıma, nə də özüm. Başımı itirib qalmışam iki qanmazın əlində. Başqa adam olsalar, mənə təsir eləməzlər. Biri doğmaca xalam, o birisi də uşaqlarımın doğmaca babası.

**Mehri:** Hansı babaları?

**Xasay:** Qaynatam.

**Mehri:** Başını niyə qatırlar?

**Xasay:** Bu gün-sabah öləcəklər. Deyirəm, evlərinizi keçirin mənim uşaqlarımın adına. Durublar quyruqlarının üstə, eləmirlər.

**Mehri:** Axmaqdılar da... Sən də hiylə işlət...

**Xasay:** Hiyləylə mümkün olan şeydi?

**Mehri:** Ağılla düşünmək lazımdı.

**Xasay:** Az qalıram, cinayət törədəm.

**Mehri** *(ağzını büzərək)*: Bu da özününkülər. Hamısı gözügötürməzlikdən, paxıllıqdandı, Xasay. Vecinə də alma. Özləri qabağında gəlib diz çökəcəklər. Sənə yalvaracaqlar. Bu, yolüstü söhbət döör, gələrsən bizə, düzüb-qoşub bir qərara gələrik.

**Xasay:** Sən hələ əvvəlki ərindəsən?

**Mehri:** Yox... O qədər dedilər, o qədər daradılar... Özü də can-ciyərlərim... Kişi dəli oldu. Dəlini neyləməliydim? Əlacım kəsildi, mən də acıqla dalından bir təpik çaldım.

**Xasay:** Dəliyə oxşamırdı axı?

**Mehri:** Üzdən hə, sən deyəndi, içdən yox...

**Xasay:** Necə yəni içdən yox?

**Mehri:** Dedi iti görüm, qurdu görüm, bu evdə qonaq-filan görməyim.

**Xasay:** Evinə başqa adamlar gəlirdi?

*Pauza*

**Mehri:** Əşi yox... Əmioğlanlarım, bibioğlanlarım, dayıoğlanlarım, iş yoldaşlarım, qonşularım. Balam, onlara necə deyə bilərdim ki, bizə gəlməyin? İçim özümü yandırırdı, Xasay, çölüm özgələrini. Axırda əlacım kəsildi, gecənin yarısında dəydim dalından.

*Pauza*

Nə qədər gəlib-getdisə, əl-ayağıma düşüb yalvardısa, ağlayıb-sıtqadısa, ona qapı açmadım... Bilirsən də xasiyyətimi? Üzüm dönməsin, döndüsə... Biqeyrət adımı nə qoysa yaxşıdı?

**Xasay:** Yoox! Nə?

**Mehri:** Utannam deməyə.

**Xasay:** Aaa... Lap açıq? Bir az pərdəli demədi?

**Mehri:** Yooxxx....

**Xasay:** Heç olmasa, pozğun, lotu deyəydi də.

**Mehri:** Ona mədəniyyəti çatmadı.

**Xasay:** Hərənin bir dərdi var... Gedib, vecinə də alma. Cəhənnəmə getsin, qara yola.

**Mehri:** İndi-indi qulağım dincəlir. Pisi odu ki, general, evdə təkəm, darıxıram. Necə olmasa, hərdən başımı qatırdı.

*Xasay fikirləşir. Sonra bic-bic gülümsünür. Xasayın mobil telefonuna zəng gəlir. Xasay düyməni basır. Ağakişinin səsini tanıyır.*

**Xasay:** Eşidirəm... Xeyir ola?

**Ağakişi:** Bir cüt dovşan var.

**Xasay:** Evlə əlaqədar bərk məşğulam. Dovşan yeridi, saxla sonraya. İndi gələnmərəm.

**Ağakişi:** Ağıl kəsəndi? İnanılasıdı? Birdən səni qaza döndərər ha...

**Xasay:** Ağıl kəsməyən, inamsız işə girişənə oxşayıram? Narahat olma...

**Ağakişi:** Nə vaxt gələ bilərsən?

**Xasay:** Bu gün keçdi, qalsın sabaha. Gələrəm...

*Xasay telefonu söndürür. Sonra Mehrinin üzünə baxır.*

**Mehri:** O, kimdi? Birdən ağzı yırtıqlıq eləyərsən ha, Xasay. Sən öl ikimizi də cənab rəis çarmıxa çəkər. Sən onu tanımırsan.

**Xasay:** Əşi, yox... Kişinin, əgər əlbəttə o kişidisə, hülqumu olar.

**Mehri:** Qəzəl oxuma, Xasay, söz ağzından çıxmasın. Rəis üçün fərqi yoxdu, heç onu axtarmayacaq da hülqumun var, ya yoxdu. Deyəcək, gəlin girin içəri... İkimizi bir kameraya salsalar, nə var ki. Heç olmasa, başımızı orda da qatarıq.

**Xasay** *(çəkinərək)***:** Nə danışırsan?

**Mehri:** Adını general qoymusan, adi şeylərdən belə xəbərsizsən, canın üçün kameraların, aşağı-yuxarısı, yan-yörəsi hamısı betondu. Gecə qabana oxşayan bir-ikisini göndərirlər yanına. Allah onlara da insaf versin. Nə məqsədlə gəldiklərin də bilmirsən. Hərəsi bir tərəfdən düşür üstünə. Gecə ara verincə səni həhdən-heydən salırlar. Ayıq ol, dilini dinc saxla ha. Dilini saxlayanmayan, heç...

*Pauza*

**Xasay:** Mənim dilimdən qorxub-çəkinmə. Nəslimdə-zatımda söz oynadan olmayıb. Məndən də onu gözləmə. Nə isə... Bayaq harda qaldıq?

**Mehri:** Evdə tək-tənha qalmağında. Kişinin başımı qatmasında.

**Xasay:** İstəyirsən, sizi barışdırım?

**Mehri:** O yana elə. Gəlib yenə başımı xarab eləyəcək. Qonşular haray-qışqırığa yenə tökülüşüb gələcəklər. Nə var, nə var, Mehrinin ərinin yenə gicliyi tutub.

**Xasay:** Özün bil. Nə vaxt lazım olsam, vızıv at, gələrəm.

**Mehri:** Çoxdandı... Sənsizləmişəm, general. Turş çaxırla aran necədi? Səbzi də yanında. Həvəsin olsa, qapı açıqdı.

*Pauza*





**Xasay:** Qonşular... Polisi narahat eləməzlər ki?

**Mehri:** Polislər də, dedim axı, özümüzünkülərdi. Qaldı qonşulara... Gündə hərəsi yüz oyundan çıxır. Kimə gözün üstə qaşın var deyirəm ki, onlar da mənim işimə qarışalar, yanıma gedib-gələnə qəzəl oxuyalar.

**Xasay:** Baxarıq... Sən get.

*Xasay küçədə var-gəl eləyir. Dükanları gəzir...*

*Kadr dəyişir. Nəhayət, oğru pişiklər kimi qapıya yaxınlaşır. Mehri onu qapı ağzında qarşılayır. Otağa girirlər. Xasay pencəyini çıxarıb asılqandan asır. Stulda əyləşir. Mehri süfrəyə çaxır, meyvə, soyuq salat, xörək gətirir.*

**Xasay:** Ay sənə nə deyim? Bu qədər... Yaman bədxərcsən.

**Mehri:** Sənə hər şey olar. Neçə vaxtdı yoxa çıxmısan. Gəl xatirələrimizi oyadaq şam işığında...

**Xasay:** Sənə necə xoşdu, elə də olsun. Mən bura sənin istəyinlə gəlmişəm... Ha... ha... ha... Qonaq quzu kimi şeydi, onu ev sahibi harda istəyər, orda da əyləşdirər... Qulluğundayam... (*Xasay qədəhləri çaxırla doldurur və hər ikisi qədəhləri götürürlər. Xasay sözünə davam edir).* Sən çox romantiksən, Mehri. Səni hər kişi anlaya bilməz. Sən düdük-müdük əlinə düşmüsənmiş...

**Mehri:** Düdük-müdük nədi?

**Xasay:** Adamın korkəsməzi. Üzü tüpürcəklisi. Kişinin matuşkəsi.

**Mehri:** Ağ eləmə, Xasay, ha... ha... ha... Kişidən nə matuşkə?

*Pauza*

**Xasay:** Hamısı yox... Arvad sayağılar da var... Sən gözəlsən. Açıqgözlüsən. Müasirsən. Gəlib deyəcəm, seksualsan...

**Mehri** *(nazlanaraq)***:** Sən deyənləri o, qanmadı, Xasay.

**Xasay:** Gözəlliyin, təravətin həmişə belə olsun. Kimsəyə ehtiyaclı olmayasan. Allaha yalvarıram, həmişə öz möhübümüzü özümüz düzə bilək. Qaldıraq bu badələri sənin şərəfinə.

*Qədəhlər vurulur, çaxırlar içilir. Xasayın mobil telefonuna zəng gəlir. Xasay əsəbiləşir.*

**Mehri:** İmkan vermirlər ey... Telefonu söndürsən olmaz?

*Xasay Mehriyə əliylə sakit ol işarəsini verir.*

**Xasay:** Alo... Eşidirəm... Sabah görüşərik. Nüfuzlu bir adamın qəbulundayam.

**Balakişi:** Kişidi, qadındı?

**Xasay:** Ağ eləmə... Bu, içtimai xadimdi. Onunla mühüm məsələyə girişmişik.

**Balakişi:** Alınacaq?

**Xasay:** Başqa yolumuz yoxdu, gərək aldıraq. Allahın böyüklüyünə şükür. Ağlına gəlməyən yerdən, özün də bilmədən qapılar üzünə tayba-tay açılır. Möcüzə baş verir. Bu saat mən də o möcüzənin astanasındayam, Balakişi.

**Balakişi:** Ev məsələsini neylədin?

**Xasay:** Dannı moment mən də ona çalışıram da.

**Balakişi:** Kömək lazımsa... Mən rəisə də, başçıya da deyə bilərəm.

**Xasay** *(sinəsini qabardaraq)***:** Onlar mənim kiçiyimdilər. Birdəki mən xərc çəkmək istəmirəm *(Mehriyə göz vurur, xanım qımıldaşır)*. Hələlik... *(Xasay telefonu qapayır, sonra Mehriyə)* Yaxşı dedim?

**Mehri:** Hə... Xasay, sən bilirsən, mən neçə polis rəisiylə işləmişəm. Hamısıyla da can deyib, can eşitmişik. Mənə görə ərimə hörmət eləyiblər. Əvəzində ərim mənə nə desə, yaxşıdı?





**Xasay:** Mən hardan bilim?

**Mehri:** Deyir: "Onların qabağında niyə əzilib-büzülürsən?" Ayə, a Xasay, bu da sözdü? Qanmır ki, onlarla oyunu gərək düz oynayasan? Oynamadın, fısss.... *(Xasay diksinir. Mehri sözünə ara verir)* Yeməyini ye.

**Xasay:** Hara tələsirik? Söhbətini elə, yeyərik də.

**Mehri:** Ağzım qızışanda diqqətim azalır. Bayaq dedin, qohumların səni başa düşmürlər... Narahat olma, dost-tanışlar çoxdu. Aşağılarda da, yuxarılarda da.

**Xasay:** Dul xalamla, dul qaynatamı birləşdirsəm, elə bilərəm, anadan təzəcə doğulmuşam. Ölmərəm... Ancaq, Mehri, hər ikisinin başı xarabdı.

*Pauza*

**Mehri**: Mən səni yaxşı tanıyıram. Sən zəlisən, tutduğun yerdən elə-belə əl çəkmirsən. Mənimlə açıq danış. Bacardığım qədər sənə kömək eləyəcəm.

**Xasay:** Xalamın beş, qaynatamın dörd otaqlı evi var. Haqdınıqdı bilmirəm, onlar öləndə evlər mənim olmalıdı.

**Mehri:** İkisində bir milyon Amerika dolları... Biz elə şeyi çox görmüşük, Xasay. Sabah mən yuxarıyla danışım, sən qayınatanla xalanın ad-familiyalarını, atalarının adlarını, bir də ər-arvad öz şəkillərinizi mənə çatdırın. Sizə başbiletlər çıxartdırım. Elan verək, guya evlərinizin kupçaları itib. Evlərə təzə kupça çıxartdıraq. Ər-arvad boşanın, izi itirmək üçün sonra da evləri bir-birinizə satın.

**Xasay:** Aa ha... Boşanma məsələsi... Gülçöhrə ona razı olarmı?

**Mehri:** Müvəqqəti, Xasay... Könlü balıq istəyən neylər?

**Xasay:** Quyruğun suya qoyar.

**Mehri:** A ha... Bir az xərci var... Yoxdu, borc elə... Hamı bir-birindən dolanır.

**Xasay:** Xərci nə qədər?..

**Mehri:** On min dollar.

**Xasay:** Düzəlmədi.

**Mehri:** Kredit götür.

**Xasay:** Kredit yox... Qaş qayırdığım yerdə göz çıxararam. Əlimdəki də gedər. Görüm, dost-tanışdan neyləyirəm... Nə vaxta lazımdı?

**Mehri:** Danışım, sonra deyərəm.

**Xasay:** Borcu vaxtında qaytaranmasam, aləm qarışar.

**Mehri:** Onda on mini tək bir adamdan alma. Bir neçə adamdan min-iki min qoparsan bəsdi. Az məbləğdən ötrü kimdi səni də, özünü də zibilə salan? Onlara da: — Gözləyin, tapıb verəcəm, — de, onsuz da ata-at zəmanəsidi. Borc aldıqlarının gözlərindən bir müddət uzaq ol...Gizlən.

**Xasay:** Çox qarışıq, baş xarab eləyən məsələdi. İçim açılmır...

*Pauza*

**Mehri:** Açılar... Evi alarsan, verərsən xaricilərə kirayəyə. Üç ayda qoyduğunu çıxararsan.

**Xasay:** Qorxuram... Üstü açıla, bizi də atalar içəri.

**Mehri:** Qorxma. Eşitsələr evləri almısan, qohumların o andaca infarkt olacaqlar. Vağamlamış şeydilər, onların nə gücləri var, o zıppıltıya dözələr?.. Qoy yaşasınlar evdə. Ölən kimi sənədlərini çıxar üzə. Ondan şeytan da baş açmaz.

*Xasay qədəhləri çaxırla doldurur. Mehri sözünə davam eləyir.*

**Mehri:** Xasay, sən yaxşı kişisən. Görünür, evlər sənin qismətindədi. Yoxsa, biz qarşılaşmazdıq. Biz bunun üstündə bir neçə variantda işləməliyik. Birincisi, mən deyən kimi əlləşməliyik. İkincisi, xalanla qaynatana zəng çalıb təzyiq göstərməliyik.





**Xasay:** Təzyiq göstərən kimi məndən şübhələnəcəklər.

**Mehri:** Arxeyin ol, xox eləyən kimi, özlərini batıracaqlar. Çəkiləcəklər qınlarına, başlayacaqlar səni axtarmağa... Gəl bu badələri qaldıraq generalın sağlığına.

*Çaxır qədəhləri boşaldılır. Xasay qədəhləri yenidən doldurur. Mehri yenə tost deyir.*

**Mehri:** Bunu da içək qələbənin şərəfinə.

*Qədəhlər boşaldılır. Mehri maqnitofonun düyməsini basır. Küçə mahnısı otağı bürüyür. Oynayırlar. Mahnı sona yetir. Mehri Xasayın qalstukundan tutur və onu yan otağa apararkən telefona zəng gəlir. Xasay nömrəyə baxır.*

**Xasay:** Gülçöhrədi... Sakit...

**Mehri:** Sir-sifətin bozardı...

*Mehri qəşş eləyir, telefon çağırmaqda davam edir. Mehri gülüşünə ara verir. Xasay düyməni basır.*

**Gülçöhrə** *(əsəbi halda)***:** Telefonu niyə açmırsan?

**Xasay:** Çətin yerdəydim...

**Gülçöhrə:** İndi hardasan?

**Xasay** *(çaşaraq)***:** Küçədə.

**Gülçöhrə:** Tez evə gəl, gözləyirəm.

**Xasay**: Vacib işim var. İmkan ver, onu görüm.

**Gülçöhrə:** Nə işdi o?

**Xasay:** Gələrəm, deyərəm. Telefon söhbəti döör.

*Gülçöhrə telefonu söndürür. Xasay telefona bir an baxır. O da söndürmə düyməsini basır. Mehriylə Xasay yan otağa keçir-*

*lər. Ekran qaralır, sonra yavaş-yavaş ağarır.*
*Xasay evə gedir. Arvadı onu qarşılayır.*

**Gülçöhrə** *(əsəbi halda)***:** Yenə Ağakişi?.. Yenə Qarakişi?.. Yenə Balakişi?.. Allah onları da öldürsün, Xasay, elə səni də. Mən bezdim. Ayə, nə dilbilməz adamsan, ev-eşiyin yoxdu? Sən küçə adamısan? Ayə, sən generalsan ey.

**Xasay** *(gülərək yalan danışır)***:** Hə... Buraxmadılar. Dedilər getsən səndən küsərik. Səni danışdırmarıq.

*Pauza*

**Gülçöhrə:** Bezmişik... Nə qədər zəhər loqqullatmaq olar? Məni də azara salmısan? Yatıb-durub soxa görürəm yuxuda... Dərd öldürməsə, yaxşıdı bizi, səfeh kişi.

**Xasay:** Nə azar, nə soxa? Mən kim üçün çalışıram? Qanırsan? Arvad ki, arvad.

**Gülçöhrə:** Az qalır ürəyim çatlaya. Sənin ağılda elə mən olaram, Xasay. Biz Allahı qoyub bəndədən istəyirik.

**Xasay:** Qorxma. Əla adam tapmışam. Toxumu biz səpəcök, o özü cücərdəcək...

**Gülçöhrə:** Necə?

**Xasay:** Əsmayəylə Nihadın şəkillərini əldə eləyə bilərikmi?

**Gülçöhrə:** Əşi, başımı xarab eləmə, o yanda dur.

**Xasay:** Sən mənim canım, nəm-nüm eləmə.

**Gülçöhrə:** Dədəminkini hə, xalanınkını deyənmərəm.

**Xasay:** Evlərinin orderlərini necə, onları əldə eləyənmərik?

**Gülçöhrə:** Yenə deyirəm, dədəminkini hə, xalanınkını yox.

**Xasay:** On min Amerika dolları lazım olacaq.

**Gülçöhrə:** Booyy... Ürəyimi çatlatma, Xasay. Onu bizə kim verər?

**Xasay:** Dədəndə olar.

**Gülçöhrə:** Xasiyyətinə bələdəm, olsa da verməz... Götürən kimi, məndən şübhələnəcək. Üzümə vurmasa da, ömrüm boyu





oğru kimi xəcalətimdən ölərəm... Ölüncə üzümə baxmaz.

*Pauza*

**Xasay:** Eh... Beş gündən sonra çıxacaq yaddan... Qorxma, o, bizdən şikayət eləməyəcək. Uzaq başı danışıb-danışıb oturacaq yerində. Birdəki, elə xanım-xatın arvadlar var ki, ərinin başı ağrımasın deyə lazım gəlsə, atasının venasından şiprislə qanın çəkib, ərinə ərmağan eləyər.

**Gülçöhrə:** Xanımları o qatılığa çirkaba salma.

**Xasay:** A tövbə. Ər olan yerdə ata kimdi?

**Gülçöhrə:** Başımı xarab elədin.

**Xasay:** Ərlə ata qarşılaşanda balans həmişə ərin xeyrinə dəyişər... Qorxma işini gör, Gülçöhrə.

**Gülçöhrə:** Baxaram...

*Xasay Gülçöhrəni Nihadgilə yola salır. Özü isə Ağakişinin kafesinə gedir. Qarakişi və Balakişiylə görüşür.*

**Xasay** *(narazı halda)***:** Ayə, o nə ideyadı mənə vermisiz? Əcəb qarınağrısına düşmüşəm. Xalam tufan qoparır. Deyir, vur öldür məni, nə sizə gedirəm, nə də Nihada ərə.

**Qarakişi:** Elə deyirsə, çarəsi başqa şeydi.

**Xasay:** Nədi?

**Qarakişi:** Maska geyib xalanın üstünə hücum çəkmək. Onu yaxşıca qorxutmaq. Hər dərdin öz dərmanı var, Xasay.

**Balakişi:** Nəyə deyirsən and içim. Nə qədər Dayı var, Xasay, orda sənə yer yoxdu. Əsmayə sənin üzünə tüpürməyəcək.

**Ağakişi:** Elə demə, tüpürər, lap o yana da keçər.

**Balakişi:** Öldür məni, kişi, tüpürməyəcək.

**Qarakişi:** Görəcək danışma, tüpürər... Bəyəm, Xasaydan artıq adamın üzünə tüpürəcək?..

**Ağakişi** *(gülərək)***:** Xasay, sənin işin düzəldi.

## XIV bölüm

**Xasay:** Ayə, mən gəlmədim ki, xalamın mənim üzümə tüpürüb tüpürməyəcəyini siz müzakirə eləyəsiz. Mənə pul lazımdı. Əl tuta bilərsiz, ya bilməzsiz, onu deyin.

**Qarakişi:** General, mənim vəziyyətimi məndən yaxşı özün bilirsən. Acından şalvar belimdən düşür. Qarnıma tökməyə araq tapanmıram.

**Balakişi:** Sən öl, Xasay, mən də eləyəm. Arvad iki gündü qapıdan çıxarıb məni. — Canın çıxsın, get yeməyə bir şey tap gətir, — deyir. Elə tiplərik, bizə bir adam borc verməz. Bu boyda şəhərdə atmadığımız dükan-bazar, cibinə girmədiyimiz qonaq-qara qalıb?

*Pauza*

**Ağakişi:** Xasaycanı, mən ubitkadayam.

*Xasay üz-gözünü əyişdirir. Telefonuna zəng gəlir. Xasay düyməni basır.*

**Xasay:** Gülçöhrə, sənsən?...

**Gülçöhrə:** Alo... Alo... Xasaydı...

**Xasay:** Hə... Mənəm, ağıl kəsən bir şey var?

**Gülçöhrə:** Bir az dədəmdən çırpışdırmışam.

**Xasay** *(sevincək)***:** Kişi qızısan, nə qədər?

**Gülçöhrə:** Üç min.

**Xasay:** Gör, dədəni bir az da darıya bilərsənmi? O gün sənə verdiyim dururmu?

**Gülçöhrə:** Daranası bir şeyi qalmadı, Xasay. O gün verdiklərinlə cəmi beş min. Hə... Evdə dədəmin norka papağı var, götürsəm, sata bilərsənmi?

**Xasay:** İndi norka papağa... Yaxşı götür, ona da baxarıq. Gör





güman gələn yer varmı?.. Deməli, yenə beş çatmır.

**Gülçöhrə:** Birdən məni pis hala salarsan ha... Kişinin kəfən puludu. Onsuz da ürəyim səksəkədədi. Pulu atarlar sənə... Ölüm qaşla göz arasındadı... Ağzıma daşlar, kişinin başına iş gələr... Anası ölmüş qalar ortada. Qəbr xərci də tapanmarıq.

**Xasay:** Gör yenə neyləyirsən?

**Gülçöhrə:** Ağ eləmə, Xasay. Dədəm bilsə, çırpışdığımı, ikimizin də pişiyimizi divara dırmaşdırar. Sən də qırılmışlarına əl atsan, qiyamət qopar?

*Pauza*

**Xasay:** Əşi, qorxma... Biz də elə pişik saxlayan bala döörük. Elənçiklərdən çox görmüşük. Qaldı mənim qırılmışlarıma. Allah kəsib hamısını... Bilmirsən, əzizim, mənimkilər Yevlax qaraçılarından dönmədilər?

*Xasay telefonu söndürür. Stuldan qalxır, kafedə o tərəf-bu tərəfə gedir. Fikirləşir. Gəlib stulda əyləşir. Dizinə vurur, handan-hana üzünü dostlarına tutur.*

**Xasay:** Yaxşı norka papaq var.

**Qarakişi:** Eh... İndi norka papağa toyuq yumurtadırlar. Ya da qırt yatırdırlar.

**Xasay:** Dublyonka necə?

**Balakişi:** O da dəbdən düşüb, it, pişik üstə sərirlər.

**Xasay:** Ayə, yekə kişisiz. Bu qədər çörək kəsmişik. Qazısalar mənim çörəyim sizin qarnınızdan getməyəcək.

**Balakişi:** Ağ eləmə, Xasay, sənin nə vaxt çörəyin olub, bizə də yedirəsən?

**Xasay:** Neujenni məni başa düşmürsüz. Hərəniz beş-üç manat versəz, dünya qopar?

**Qarakişi:** Yoxu qanmırsan?

**Xasay:** Ayə, çox demirəm, adama mincə dollar... Qalanını

görüm hardan tapıram. *(Dostlarının hərəkətsizliyini görən Xasay yalan danışır)* Adə, məndə var ey. Yoxdu demirəm. İki daşın arasında yaxın adamım gəlib borc aldı məndən. Özü də böyük summa... Mal dalınca gedib Kitaya. Bir aya gələcək. Borcdan zəhləm gedir. Ondan alan kimi sizinkini qaytaracam.

**Ağakişi:** Gop eləmə, səndə pul olsaydı, keçən ilki araq borcunu ödəyərdin mənə.

*Pauza*

**Qarakişi:** General, bəlkə qalan pulu da xalandan alasan? Adam adama əl tutar. Xalanın hay-hayı gedib, vay-vayı qalıb. Ölər, lap yaxşı, verəcəyin də qalar sənə, ölməz, dediyin yaxın adamın gələr, ondan alıb verərsən xalana. Qoca arvaddı. Ağlayıb-sıtqasan ürəyi yumşalacaq. Öz pullarından özlərinə...

*Ağakişi qəşş eləyir.*

**Ağakişi:** Bu nəyə bənzəyir? Yaxın adama döyüşdə tapança verirsən, — Düşməndən özünü qoru, — deyirsən, gözünə döndüyüm də tapançanı alıb gülləni sıxar sənin təpənə. Ha... ha... ha...

**Balakişi:** Əşi, dayan görək. Hırıldamaq sənin əlindədi... Bəlkə Gülçöhrənin qızıllarını satasan?

**Xasay:** Yox... O vaxt aparacaq.

**Qarakişi:** Lombarda qoy... İş görən səni gözləyənməz?

**Xasay:** Yox... O da başqasına ötürəcək.

**Ağakişi:** Qorxmursan atar?

**Xasay:** Sınanılmış adamdı.

*Xasay ayağa qalxır. Ayaqlarını sürüyə-sürüyə kafedən çıxır. Kadr dəyişir. Xasay qonşusu satıcı Siracla mağazada görüşür.*

**Sirac:** Nə lazımdı, qonşu? Sənə nə qulluq eləyim?

**Xasay:** Qulluq sahibi olasan. Təcili mənə üç min dollar lazımdı *(Yalan danışır)*. Getdim, qayınatamdan alam, o da gedib rayona. Bir həftəyə gələr.





*Pauza*

**Sirac:** General, mən adam tanıyanam. Sənə üç min versəm, əvəzində mənə beş bit qaytarmayacaqsan. Sən canın dolama məni.

*Xasay fikrə gedir. Dərindən nəfəs alır.*

**Xasay:** Evi girov qoya bilərəm... Gərək mənə inamsızlıq eləməyəydin...

**Sirac:** Qağa, mən dədəmə də etibar eləmirəm. Nəinki sənə. O qədər məni yandırıblar ki. Axmaq palçığa bir dəfə batır. Mənsə yüz dəfə...

**Xasay:** Evi girov götürürsən-götürmürsən?

**Sirac:** Üç min əvəzində girov ev... Olar.

**Xasay:** Onda indi pulu ver, çatdırım iş görənə. Qayıdım, rəsmiləşdirək.

**Sirac:** Gəlməsən, məndən incimə.

**Xasay:** Ayə, mən kişiyəm.

*Sirac pulları sayıb Xasaya verir. Xasay tələm-tələsik mağazadan çıxır və evinə gedir.*

*Kadr dəyişir. Xasayın evi. Gülçöhrəni qucaqlayıb öpmək istəyir. Arvadı onu sinəsindən kənara itələyir.*

**Gülçöhrə:** Uşaqlar yan otaqdadılar. Görərlər, biabır olarıq.

**Xasay:** Yaxşı... Tələsirəm... Pulları, şəkilləri ver, gözləyirlər məni, aparıb çatdırım.

*Gülçöhrə pul və şəkilləri Xasaya verir. Xasay tələm-tələsik evdən çıxır. Birbaşa Mehrigilə yollanır.*

*Kadr dəyişir. Mehrinin evi. Yenə şamlı ziyafət. Yenə turş ça-*

*xır. Yenə səbzi, yenə soyuq qəlyanaltı. Meyvələr. Yeyib-içirlər. Xasay pulu sayaraq Mehriyə verir. Mehri pulu alır, qoynuna soxur.*

**Mehri:** Əsmayənin telefonunu de...
**Xasay:** 000-14-28. Bəlkə zəng eləməyəsən?

*Mehri nömrəni yığır. Bətdən səs eşidilir.*

**Əsmayə:** Alo... Alo...
**Mehri:** Əsmayə xanım?
**Əsmayə:** Bəli!

*Mehri səsinə ara verir.*

**Mehri** *(salamsız-kəlamsız)***:** Mən sizə mühüm məsələni bildirmək istəyirəm.

*Xasay qulağını dəstəyə yaxınlaşdırır. Mikrofonda Əsmayənin səsi aydın eşidilir.*

**Əsmayə:** Buyur.
**Mehri:** Sizə qarşı çox ciddi təxribat hazırlanıb. Evinizə basqın eləyəcəklər. Çölə çıxmayın, kimsəyə qapı açmayın. Yaxşı olar ki, müvəqqəti də olsa, yerinizi dəyişəsiz. Evi də başqasının adına keçirəsiz.
**Əsmayə:** Kimdi danışan?

*Pauza*

**Mehri:** Sizi ürəkdən sevən şəxs. Təhlükə ötüşərsə, axırı yaxşılıqla qurtarsa, özümü sizə təqdim eləyərəm.
**Əsmayə:** Yaxşı oldu məlumat verdin, yoxsa Xasayın əli başa çıxacaqdı.





*Mehri telefonun dəstəyini yerinə qoyur. Xasay adının çəkildiyini eşidir və dizlərinə baş-gözünə döyür. Atılır-düşür.*

**Xasay:** Zibili çıxdı... Sən neylədin? Polisə məlumat verməsə, yaxşıdı.
**Mehri** *(qəsdən)***:** Əə, kişi ol, əə. General polisdən qorxacaq? Arvadsayağı ağlama, gəlsin, sübut eləsin. Bu nədi, mən elə şeylər eləmişəm, desəm, ağlın başından çıxar. Tüklərin biz-biz olar. Mənə də Mehri deyərlər. Niyə anlamırsan ki, elə mən özüm də polisdənəm də.

*Yeyib-içib keflənən Mehriylə Xasay yenə yan otağa keçirlər... Gecə yarı Xasay evinə qayıdır.*
*Kadr dəyişir. O, əsəbi görünür. Xasay Mehridən şübhələnir.*

**Xasayın daxili səsi:** Donuz qızı atmasa, yaxşıdı. Mən də qəribə adamam. Kim üzümə hırıldasa, barəmdə yaxşı söz desə, sıyılıram. Az qalıram əl-ayağından öpəm. Lap ayağının altında öləm. Mehri mənə atsa, dərdimi kimə deyəcəm? Gülçöhrənin üzünə baxa biləcəmmi? Nihada nə deyəcəm? Əsmayə deməz ki, a general, bu nə olan şeydi?
**Gülçöhrə:** Nə xəbər var? Ürəyimə damıb, deyəsən, sənə atırlar. Eləsə, Xasay, ya özünü öldür, ya da sənə atanı. Budu, sənə deyirəm, yanıma üzü qara gəlmə.
**Xasay** *(şübhələrini gizlədir)***:** İnanmıram, dələduzluğuna görə onu yatdığı yerdə qamarlayarlar.

*Pauza*

Polislər dovşanı arabayla tuturlar. Bircə himə bənddilər.
**Gülçöhrə:** General, polislər dovşana qaç deyirlər, tazıya tut.
**Xasay:** Tazının sahibi varsa, dovşanın da Allahı var.
**Gülçöhrə:** Dovşan niyə olursan? Bəyəm general da gilelənər?

**Xasayın daxili səsi:** Mən dəyyus haranın daşın salım başıma? Siraca necə cavab verim? Sirac hır-zır qanmır. Qonşuların gözlərinin qabağında əzişdirəcək məni. Mənə deyən lazımdı, ay axmaq, sənin əlindən maxinasiya gəlir?

**Gülçöhrənin daxili səsi:** Xasaya atsalar, mən dədəmə gedib nə deyəcəm? O, mənə deməz ki, a qızım, bir dərədə iki axsaq ceyran olmur? Evimə gəlib-gedən təkcə sənsən. Oğurluq eləyib pulları götürmüsən, gətir yerinə qoy. Bu, nə xəcalətdi, mən eləmişəm? Dədəmdən oğurluq elədiyimi bilsələr, mənə inanan olarmı?

**Xasay:** Kaş mən öləydim, Gülçöhrə. Əsmayə bütün sirlərimizi bilir.

**Gülçöhrə:** Başa düşmədim.

**Xasay:** Danışdığım adam Əsmayəyə telefon açıb onu hədələdi.

**Gülçöhrə:** O, qadındı, yoxsa kişi?

**Xasay:** Kişi olsaydı, nə vardı ki.

*Pauza*

**Gülçöhrə:** Dədəm vay... Öz əllərimlə gör başıma nə oyun açdım? Ədə, danışmağa kişi qəhədə çıxmışdı? İndi də arvadlarla oturub-durursan, Xasay?.. Sirac da sənin kimi axmaqdı, o evi alacaq əlimizdən.

**Xasay:** Qoy özümə gəlim. Siracla danışaram.

*Xasay tutulur. Arvadına nə deyəcəyini bilmir. nıqqıldayır. Gülçöhrə ərini itələyə-itələyə qapıdan çıxarır.*

**Gülçöhrə:** Rədd ol, get, pulları gətir. Siracın da, sənin də...

*Xasay qapıdan çıxır.*

*Kadr dəyişir. Xasay tini burulur. Yanında xarici maşın dayanır. Mehri maşından düşür. Xasayla görüşür. Mehri gülür.*





**Mehri:** Xasay, səni təbrik eləyirəm. İşlər düzəldi.

**Xasay:** Nə? Sənə atam-anam qurban, evim-eşiyim qurban, Mehri. Elə bilirdim atmısan mənə. Ölmüşdüm, sən məni yerdən götürdün.

**Mehri:** Dəli-dəli danışma. Nə atmaq? Əclaflar üç min də əlavə istəyirlər.

**Xasay:** Nə? Üç min? Yoxdu, xanım ev-mev istəmirəm, xaraba qalsın onu, verdiklərimi qaytar.

**Mehri:** Başın xarabdı. Əvvəla, sən mənə verdin, mən də başqasına. İkincisi, aç qulaqlarını eşit, elə şeyi geri qayıtarmazlar. Verilən şeyin başına çatı salmazlar. Çünki o ölür...

*Xasayın əl-ayağı əsməyə başlayır.*

**Xasay:** O qədər pul?

**Mehri:** O nə puldu, əə? Axmaq. Hər axşam gəlib yeyib-içib, hi... hi... hi... işini görüb gedirsən. Bircə dəfə soruşmusan ki, bu nə xərcdi? A Mehri, xərclədiklərini hardan və kimdən alırsan? Hesablasaq, hələ mənə borclu qalacaqsan.

**Xasay:** Məni cinayətə sürükləmə, Mehri.

**Mehri:** Neyləyəcəksən, əə, düdük? Ayə, sənin kimilərin gündə neçəsini fırladıram. Səni itirərəm, izin-tozun da qalmaz. İstəyirsən, sənin üçün tədbir görüm *(Xasay çəkinir. Səsi enir. Mehri kükrəyir)*. Qonşular deyirlər, hər axşam gəlib qapıdan məni pusursan, əə, baş tutan. Lotular bir işarəmə bənddilər. Səni yortarlar. Sənə nə müstəntiq əli çatar, nə də həkim. Yarım il morqda qalarsan.

*Pauza*

Qorxusundan axtarıb tapanın da olmaz. Evimin yan-yörəsinə az hərlən. Başqa sözün var?..

**Xasay:** Mehri, evi girov qoymuşam... Balalarımın başını kəsmə. Yarısın da olsa, ver...

**Mehri:** Qudurma, Xasay.

**Xasay:** Öldürtdür məni, canım qurtarsın. Onsuz da ölü kimi şeyəm... Verməsən, səndən şikayət eləyəcəm, lap yazacam da.

**Mehri:** A bədbəxt... Kimdən kimə? Onlar mən, mən də onlaram. Onlarsız sənə kələk gələ bilərdimmi?

**Xasay:** Yoxxx...

**Mehri:** Onda səsini kəs, nəfəsin də çıxmasın.

**Xasay:** İnsafın, mürvətin olsun, Mehri. Axı dostuq. Həmişə can deyib-can eşitmişik. Sənin möhübün məndə, mənimki də səndə düzülüb.

**Mehri:** Harda?... Hesab bərabərdi, Xasay. Bundan sonra nə sən məni, nə də mən səni tanıyırıq. Adımı tutsan, özünü ölmüş bil.

*Mehri acıqlı-acıqlı gedir. Xasay onun dalınca baxır. O, ayaqlarını sürüyə-sürüyə evə qayıdır.*

*Kadr dəyişir. Ev. Zəng çalınır. Sirac otağa daxil olur.*

**Sirac:** Sözü nə qədər qulaq ardına vurmaq olar, Xasay? Ya pulu qaytar, ya da evi ver.

**Xasay:** Qonşu, bir az da gözlə.

**Sirac:** Abrın olsun... Evdən çıx... Şələ-küləmi gətirim bura.

*Pauza*

**Xasay:** İndi neyləyim? Oğurluqmu eləyim? Kiminsə evinimi yarım, başınımı kəsim? Əlimi qanamı batırım?

**Gülçöhrə:** Sirac, qonşu, ağlını başına yığ. Sənə bir gəliş gələrəm. Bilməzsən yerin altındasan, ya üstündə.

**Sirac:** Bunda deyiblər də, oğru elə qışqırdı, doğru bucağa qısıldı. Məni oğrunun gününə salanmazsız.

**Gülçöhrə:** Salaram. Sənə bir divan tutaram, adını da yadından çıxararsan, dəyyus *(Səsini aşağı salaraq)*. İstəyirsən ev haqqı Xasayı da verirəm sənə, apar saxla. O Xasay, o da sən.





**Sirac** *(heyrətlənir)*: Nə? Xasayı mənə verirsən? Onu mən saxlayım? Xanım, ərin fərli zibilsə, mənə niyə verirsən, özün saxlamırsan?

**Gülçöhrə:** Bu yaşa gəlmisən, hələ qanmırsan ki, cansız evdən, canlı Xasay yaxşıdı.

**Xasayın daxili səsi:** Vay!.. Vay!.. Əcəb bəlaya düşdüm... Eşidən-bilən mənə nə deyər, əə? Bəlkə Siracı vurub öldürüm, canım bir dəfəlik ondan qurtarsın... Eh mən adam öldürə bilərəmmi? Elənçiyə qalsa, şəhərdə belə dəyusların sayı o qədərdi? Odu ha, biri doğmaca xalam imansız Əsmayə. Qaynatam biqeyrət Nihad. Məni fırladan Mehri... Əstəğfurullah, yenə başım xarab oldu... Bu qədər adamı öldürüb qatil olmaqdansa, orda-burda, ona-buna izahat verməkdənsə, müstəntiq, prokuror, hakim qabağında tir-tir əsməkdənsə, vallah-billah, özümə qəsd hamısından sərfəlidi. Eşidən-bilən də deyər: "Xasay intihar eləyib...". Yox.. Yooxx. Özgəni öldürənməyən kişi özünə qəsd eləyə bilərmi? Kişiyə bax ha... Deyən lazımdı, ay Xasay, kişiliyin generallığınla getdi... İkisi də zibilə döndü. Ürəyimə damıb, pazın yekəsi hələ daldadı. Ləzzət var, arvad sözünün üstə dura, məni evdən çıxara. Onda da gəl düş itin gününə... General rütbəsi aldığına görə dil-ağıza düş, hər dəfə də xatırlayanda xəcalətindən öl...

**Sirac:** Gedirəm. Sizə üç gün vaxt verirəm. Gələcəm... Yığışın...

**Gülçöhrə:** Get, dalınca da bir qara daş.

*Sirac domuşa-domuşa gedir. Ərinin özündə olmadığını görən Gülçöhrə onun boynunu qucaqlayır. Hər ikisi kövrəlir.*

**Xasay:** Yenə gələcək... Əcəbcə ilişmişəm.

**Gülçöhrə:** Xasay, fikir eləmə, əzizim, atalar deyib: "Kişinin başı qalda gərək". Bu işdə mənim də günahım oldu.

*Pauza*

**Xasay:** Gülçöhrə, vur öldür məni. Doğmaca qayınatam elə, xalam belə.

*Xasayı ağlamaq tutur. O, yaylığını çıxarır, gözlərinin yaşını silir, stulda əyləşir. Gülçöhrə bir az əvvəl Xasaya gələn məktubu qoynundan çıxararaq səssiz oxuyur.*

**Gülçöhrə:** Xasay, bu çağırış məktubu polis idarəsindəndi. Bir azdan müstəntiqin yanında olmalısan.

**Xasay:** Ver, mən də oxuyum.

*Xasay məktubu alır, Səssiz oxuyur.*

*Vətəndaş Xasay Əlləş oğlu Mıxıyev 12 iyun 2012-ci ildə saat 14$^{00}$-da polis şöbəsinə çağırılırsız. 24-cü kabinetdə olmalısız.*

*Müstəntiq: Haqverdiyev*

*Xasayın sifəti bozarır. Dili-dodağı əsir. Ər-arvad müstəntiqlə görüşə gedirlər.*

*Kadr dəyişir. Müstəntiqin otağı. Xasayla Gülçöhrə özlərini müstəntiqə təqdim eləyir. Müstəntiq Xasaya hərbə-zorba gəlir.*

**Müstəntiq:** Ayə, düdük, deyirlər general olmusan? Şəhərdə dələduzluq eləyirsən? Adamlara hədə gəlirsən? Evlərə telefon açdırırsan. Əsmayəyə telefon açan qadın *(Gülçöhrəni göstərərək)* budu?

*Kamera Gülçöhrəni yaxından nümayiş eləyir. Qadın çaşır. Sir-sifəti bozarır.*

**Xasay:** Cənab müstəntiq! Siz nə danışırsız? Barəmdə deyilənlər yalandı, böhtandı, vallah-billah şərdi. Mən general rütbəsini, doğrudu almışam, ancaq yuxuda. Bəli, boynuma alıram, mənə mundir də geyindiriblər. Siz mənim yerimə olsaydız, neylərdiz? Rütbəylə mundiri alardız, ya almazdız? Ola bilməz ki, siz





bu vaxtacan yuxuda özünüzü generalissmus görməyəsiz. Mənim səhvim odur ki, yuxumu hər çatana, üzümə hırıldayana inanıb danışmışam. Adamlar məni görəndə özləri vahimələnirlər.

*Pauza*

**Gülçöhrə** *(ərinə)*: Özünü yığışdır, müstəntiqin sözünü kəsmə, qoy kişi danışsın, sən qulaq as.

*Müstəntiq qəşş eləyir. Xasayla Gülçöhrə də ona qoşulurlar.*

**Müstəntiq** *(üzünü Xasaya tutaraq)*: Telefon zəngi nə mənə şeydi?

*Pauza*

**Xasay:** Əsmayə mənim doğmaca xalamdı. Ona zarafat eləmişik. Səksən yaşı var. Görünür zarafatı başa düşməyib. O yaşda adamdan nə ağıl umursuz, cənab müstəntiq?.. Ha... ha... ha...

**Gülçöhrə:** Düz deyir Xasay. Xalası söz başa düşmür. Ağzına gələni kimə olsa danışır. Ancaq Xasay məsuliyyətli kişidi, müstəntiq.

## XV bölüm

*Müstəntiq Xasayın qarşısına ağ kağız qoyur.*

**Müstəntiq:** Yaz, Əsmayənin başına bir iş gəlsə, cavabdeh mənəm. İmza at, tarixini qoy, ver mənə. Səs-səmiri çıxsa... O söz...

**Xasay:** Birdən başqası...

**Müstəntiq:** Kəs səsini. Bir dərədə iki ağsaq çaqqal olmur.

*Xasay müstəntiq deyən kimi izahat yazır.*

**Xasay:** Başqa neyləyim?

**Müstəntiq** *(Gülçöhrəni göstərərək)*: Bu qadın kimdi?
**Xasay:** Arvadım.
**Müstəntiq** *(zarafatla)*: Ərindən muğayat ol, şitəngi şeydi, alarlar əlindən.
**Gülçöhrə:** Həmin günü qurban kəsərəm, müstəntiq.
**Müstəntiq:** Xanım, bizə işçi lazımdı. Görürəm diqqətli, hal bilən qadınsız. Özünüz də...
**Gülçöhrə:** Nə?
**Xasay:** Başqa adam tap, müstəntiq. Onun bir dədəsi var, yazı-pozu adamıdı. Yazdıqları da daşdan keçir.
**Müstəntiq:** Ay axmaq, adamın dədəsi bir olar da, yüz olmaz ki.
**Gülçöhrə:** Müstəntiq, nə dolanmalı, ağzı cırılası kişisən.

*Müstəntiq işi korladığını anlayır. Xasayla Gülçöhrəyə əliylə "gedin" işarəsini verir. Ər-arvad kabinetdən çıxırlar. Müstəntiq onların arxasınca baxır. Sonra özü kabinetdən çıxır.*
*Kadr dəyişir. Mehrinin evi. O, bacısı Cəmiləylə söhbət eləyir. Beşikdən körpə səsi eşidilir.*

**Mehri:** Mən Xasaydan on min dollar almışam. Dəyyus qaraba qara arxamca düşüb məni izləyir. Qorxuram, mənə xəsarət yetirə. Sən tədbirli qadınsan. Onun ağzına necə daş basmaq olar?

*Cəmilə başını acıqlı-acıqlı yelləyir.*

**Cəmilə:** Fırıldağından əl çəkmirsən. Ərin də sənin belə axmaq əməllərinə qurban getdi... On min dollar az döör. Polisə getsə, səni doğuzduracaqlar.
**Mehri:** Bu kələyi polislə bir yerdə eləmişik.
**Cəmilə:** Polislərə nə var? Lazımıydın, dünən səni tanıyırdılar, bu gün səndən xeyir görmürlərsə, bajı, ya gedib öz xoşunla





dama girməlisən, ya da evini satıb pulu qaytarmalısan. Bax işinə.

*Pauza*

**Mehri:** Axı pulun yarısını Xasayla ikimiz xərcləmişik.
**Cəmilə:** Nə olsun?.. Sən onu inandırmısan ki, iş görürəm. Elə də iş görərlər? Xasayı atmısan quyuya. O da səni çəkib ardınca. Bircə yolun var, Xasayı sal evinə, onunla təcili gir kəbinə. Onda pula xitam verə bilərsən. Bir müddət keçsin, vur dalına təpiyi.
**Mehri:** Bəhanəm nə olsun?
**Cəmilə:** Səndən it iyi gəlir. Vəssəlam, şüttamam. Bundan savayı, başqa yol görmürəm.
**Mehri:** Aa...
**Cəmilə:** Nədi?
**Mehri:** Birdən kəbinə getmədi?.. Başı batmışın iki uşağı da var.
**Cəmilə:** Olsun da. Sənə kəbinə girincə lazımdı. Ona arvad-uşaq saxlayan döörsən ki... Ağzımız qarışdı söhbətə... Sən uşağa bax. Mən də dərziyə düzəliş üçün paltar vermişəm, ona dəyib gəlirəm.
**Mehri:** Çalış tez elə... Lap başımı itirmişəm.
**Cəmilə:** Bu saat qayıdıram.

*Cəmilə gedir. Mehri fikirləşir. Mehrinin daxili səsi: Yooxx... Xasay mənimlə kəbinə getməz. Onun mənə inamı qırılıb. Bircə yolu var. O da böhtan... İftira... Şantaj... Mehri tələm-tələsik Cəmilənin uşağını adyala bükür. Qucağına alır və evdən çıxır.*
*Kadr dəyişir. Mehri taksiyə oturaraq Xasaygilə gəlir.*
*Qapını döyür. Gülçöhrə qanını açır.*

**Gülçöhrə** *(əsəbi halda)*: Bu nə hərəkətdi, xanım? Zəngi adam kimi basanmırsan? Bəlkə evdə xəstə var?

**Mehri** *(əsəbi)***:** Xasaya de, çıxsın bayıra. Yoxsa, içəri girib, onun ağzını cıraram.

*Tanımadığı qadının dedikləri Gülçöhrəni çaşdırır.*

**Gülçöhrə:** Aa... Yolunu azma, xanım. Xasayı əl-qoluna dolama. Hələ mən ölməmişəm, varam.

*Pauza*

**Mehri:** Bütün aləmi yığdırma bura. Xasaya de, Mehri gəlib...

**Gülçöhrə** *(təəccüblənir)***:** Xasay evdə yoxdu. Səhər tezdən gedib. Nə vaxt qayıdacağını da bilmirəm. Nə sözünüz var deyin, xanım, mən onun arvadıyam. Gələndə çatdıraram.

**Mehri:** Nəyisən?

**Gülçöhrə:** Arvadı!

**Mehri:** Bəs deyirdi arvadım keçən il xərçəngdən ölüb?

**Gülçöhrə:** Nə? Kaş xərçəngdən o özü öləydi.

**Mehri:** Deməli, oğraş mənə yalan deyib. Mənə də atıb. Baxarsan işinə. Heç hara getməyəcəm. Mən sənə yetim saxlayan döörəm. Çağır gəlsin, yetiminə yiyə dursun. Uşaq dipdiri özüdü. Elə bil Xasayın başın kəsib uşağın çiyinləri üstünə qoymusan.

*Gülçöhrə qışqırır, saçlarını yolur, dizlərinə döyür. Səsə qonşu Xavər gəlir.*

**Xavər:** Bu nə həngamədi? Səsiniz aləmi götürür.

**Mehri** *(qızışır)***:** Oğraş, məni doğuzdurmusan, lap yaxşı, gəl yetiminə yiyə dur. Niyə mənə atırsan? Abrım-həyam üstümdə, ar-namusus özümdə oturmuşdum xarabamda. Yalvardın-yaxardın, dedin generalam, mən başı boş da sevindim ki, generala ərə gedirəm. Cəlladdan betər qardaşlarım eşitsə, səni də doğruyacaqlar, məni də, hələ üstəlik sənin ailəni də.





*Pauza*

**Xavər:** Sən qan-qan deyirsən, xanım. Səbrin olsun... Gələr, özüylə danışarsan. Lap istər, səni də saxlar.

**Gülçöhrə:** Nə danışırsan, od vurub yandıraram hər ikisini.

**Xavər:** Ağ eləmə...

**Mehri:** Əl çəkən döörəm.

**Gülçöhrə** *(acığından)***:** Bağırma, məcbur heç kim heç kimə... Razı olmasaydın, doğuzduranmazdı. Əcəb eləyib. Başqasının xoruzuna nəfs yetirəndə bilmirdin, axırın belə olar?

*Gülçöhrənin ürəyi sıxılır. Şappıltıyla evin ortasına yıxılır, Xavər onu qucaqlayır, üz-gözünə su səpir. Mehri bir anlığa səsini kəsir. Gülçöhrə handan-hana özünə gəlir.*

**Mehri:** Təkrar eləyirəm, adım Mehridi. Aşağı küçədə qalıram. Gözləyəcəm, gəlməsə, onu məhkəməyə verəcəm. Mən gedirəm. Xasaya deyərsiz, ya uşağını aparsın, ya da gəlib otursun xarabasında. Mən biqeyrətə uşaq saxlamayacam.

*Gülçöhrənin ürəyi yenidən qısılır, Xavər onu divanda uzandırır, ağzına su verir. Qonşu Sürmə də qapını açaraq içəri girir.*

**Xavər:** Mən uşağa baxdım. Elə bil Xasayın özüdü. Uşaq necə də atasına oxşayırmış, Xudaya.

*Sürmə uşağa maraqla baxır. Mehri gedir.*

**Sürmə:** Uşaq eynən Xasaya oxşayır. Gözləri, burnu, çənəsi eynən Xasayınkıdı. Zeynəb qarı demişkən: "Zinadan törəyən dədəsinə oxşar".

**Xavər:** Altmış yaşa çatmışam, mən belə şey görməmişəm. Elə bil Xasayla uşaq bir almadılar, alma iki yerə bölünüb. Uşağı

başqa yerdə görsəydim, o saat deyərdim Xasaydandı.

*Pauza*

**Sürmə:** Elə bilirdim Xasay maldı. Qandığı şey yoxdu. Sən demə Xasay evə buraxılası adam döörmüş.

**Xavər:** Xasay dəyyusmuş... Ancaq Gülçöhrə abırlı cüvanəzəndi. Tərbiyəli xanımdı. Yazıq neyləsin ki, qismətinə bu dəyyus çıxıb.

*Xasay gəlir. Otaqda qonşuları görür. Çaşır. Sürmə birbaşa mətləbə keçir.*

**Sürmə:** Mehri gəlmişdi.

**Xasay:** Mehri kimdi?

**Sürmə:** Guya tanımırsan? Camaatın gözü ağappaq, yupyumru arvadında, səninki də onun-bununkunda. Bu, nə biabırçılıqdı, əə? İndi də and içib qarnını yırtacaqsan ki, guya böhtandı, şərdi, yalandı. Bu məni gözləri götürməyənlərin söz-söhbətidi.

**Xasay:** Əşi, qızışma. O it qızı məni də dəli eləyib. Dərdimi də açıb-danışanmıram.

**Xavər:** Gördüz, dedim də, elə böhtan, şər olanmaz. O, faktla gəlmişdi.

**Sürmə:** Bəli, faktla. Xasay, bizi dolama, səni asan yox, kəsən yox. Cavan qadındı, doğuzdurmusan lap yaxşı. Kişi qadın doğuzdurar da. Balam, doğuzdurmusan, uşağına yiyə dur da. Deyirsən, indi uşağın başı üstə özgə xoruz banlasın? Biqeyrət, onu özünə necə sığışdırırsan?

**Xasay:** Nə doğuzdurmaq? Sizin başınız xarab olub?

**Sürmə:** Canına dərd nə? Çor nə?

**Xavər:** Sağ ol, səni Xasay. Ayə, sənin generallığını hardan bilirdi o? Yoxsa tas açdırmışdı?

*Gülçöhrə özünə gəlir. Divandan qalxır. Nifrətlə ərinin üzünə baxır.*





**Gülçöhrə:** Əgər əməl sənin döörsə, uşaq sənə niyə oxşamalıydı? Buna nə deyirsən, Xasay? Ona da and içəcəksən? A nadan, dünyanın hoqqabazlığının hamısı sənin başına gəlməliydi?

**Sürmə:** Sən yalan danışma, Xasay? Uşaq fırt eləyib sənin burnundan düşüb.

*Pauza*

**Xasay:** Gülçöhrə, sən bu ifritələrə inanırsan?

**Gülçöhrə** *(ağlaya-ağlaya)***:** Adyala bükülü uşaqla Mehri özü gəlmişdi. Müsəlmançılıqdı, o, and içir, mən inanıram. İnanmayım?

**Xasay:** Sən məni tanımırsan? Bu yaşda sənə xəyanət eləyərəm.

**Xavər:** Kişi döörsən? Kişinin ətəyində namaz qılarlar?

**Xasay:** Gülçöhrəni Mehri yox, siz dəli eləmisiz.

**Sürmə:** Aa... Buna bax ey, indi də bizi günahkar çıxaracaq. A qırışmal, arvadının haray-qışqırığına gəlmişik ey. Biz Mehrini hardan tanıyırdıq?

**Gülçöhrə** *(dizlərinə vuraraq)***:** Bu biabırçılığa daha mən dözənmərəm. Səninlə bir yastığa baş qoyanmaram, Xasay. Hara gedirsən get, kimlə yaşayırsan yaşa.

**Xasay:** Ağıllı ol, Gülçöhrə. İki uşağımız var.

**Xavər:** Get, Xasay, get, sənin üçün nə Gülçöhrə var, nə də uşaqlar.

*Pauza*

**Gülçöhrə:** Sənə acıqlanmıram da, səni söymürəm də, məhkəməyə də vermirəm. Hətta, niyə eləmisən də demirəm. Get neçəsini bacarırsansa... Biri də çıxıb səni... Bildin də nə demək istədiyimi?

**Sürmə:** Sənə tüpürüm, ay Xasay, gül kimi arvadının qədrini bilmədin. Onun əvəzində mən olsaydım, pişiyini ağaca dırmaş-

dırardım. Səni bu əllərimlə boğardım. Utanım yerinə.

**Xasay:** Onu siz başdan çıxarmısız? O, heç vaxt mənə inamsızlıq eləməzdi.

**Sürmə:** Ayə, bayquş oğlu, bayquş, qələti eləyən sən, günahkar biz? Hələ biz ölməmişik. Nə çox şəhərdə evsiz-eşiksiz kirayəçi bir həftəyə Gülçöhrəyə elə ər taparıq, özün də baxıb məəttəl qalarsan.

**Xavər:** Allaha da xoş gedər. Get, özünü öldür, Xasay, sənin yaşamağa haqqın yoxdu.

**Gülçöhrə** *(başına vuraraq)*: Xanımlar, alışıb-tutaşıb yanıram. Cızdağım çıxır. Oğurladığım pullara görə dədəmə nə deyəcəm?

**Sürmə:** Bəsdi, sən Allah, Xasaydan ötrü. O niyə kişi olur az?

*Nihad içəri daxil olur. Hamı çaş-baş qalır. Xasay özünü itirir, evdən qaçmaq istəyir. Sürmə qapını kəsir.*

**Sürmə:** Hara qaçırsan, əclaf? Kişinin qızına xəyanət eləmisən, indi də xəcalətdən qaçıb canını qurtarmağa çalışırsan? Yox, biz qonşular ona imkan vermərik.

*Pauza*

**Xavər:** Əclaf, hər yanda əclafdı. Xasayın nəsli-zatı xarabmış, Nihad kişi.

**Nihad** *(Gülçöhrəyə)*: Bu, nə söz-söhbətdi? Nə qaçmaq, nə xəyanət, nə əclaf?!

**Gülçöhrə:** Dədə, evim yıxıldı, uşaqlar yetim qaldı.

**Nihad:** Axı niyə?

**Gülçöhrə:** Xasayın başqa arvaddan uşağı varmış. Mən biabır oldum.

**Nihad:** O bəd xəbəri gətirən kimdi?

**Xavər:** Arvad uşaqla gəlmişdi. Uşaq elə bil Xasayın burnundan düşüb.





**Sürmə:** Biz qonşular bu biabırçılığı Xasaya bağışlayanmarıq. Qonşularla özüm danışacam, Nihad kişi. Belə nankoru həyətə buraxmaq olmaz.

**Xasay:** Bu, yalandı. Məni el içində nüfuzdan salmaqdı.

**Gülçöhrə:** Ayə, boğazını cırma. Yanmayan ocaqdan tüstü çıxmaz. Dədəmdən qorxursan ha, elə qələti niyə eləyirdin? Dədə, sən də məni bağışla. Xasay mənə xəyanət eləyib, mən də sənə.

**Xavər:** Necə? Necə?

**Sürmə:** Xavər xanım, deyəsən torbada alahı pişik var.

*Nihadın gözləri böyüyür, Gülçöhrənin üzünə təəccüblə baxır.*

**Gülçöhrə:** Var, xanımlar var... *(üzünü dədəsinə tutaraq)* Xasay məni başdan çıxardı. Sənin seyfindəki pulları mən çırpışdırdım. Məni bağışla, dədə.

**Nihad:** Kaş dədənin boynu sınaydı, qızım.

*Xasay baş-gözünə döyür. Başını qapıya vurur. Sonra yıxılır Gülçöhrənin ayaqları altına.*

**Xasay:** Nihad kişi, mən özümü öldürəcəm. Daha yaşamaq istəmirəm.

**Nihad:** Niyə, Xasay? İşi görən özün, günahkar başqaları?

**Xasay:** Əşi, sən də belə? İş görənin atasına lənət. Ayə, bu arvadlar bizi dəli eləyiblər. Ailəmizi dağıdırlar. Gəl otur qızını da dinlə, məni də, sonra qərarını ver.

*Pauza*

**Xavər:** Ayə, Xasay, Nihad səninlə üz-üzə oturar? Qızını oğru eləmisən. Kişinin evinə basqın elətdirmisən... İndi də deyirsən, gəl üz-üzə oturaq? Nihad kişidi, Xasay döör.

**Xasay:** Bəs mən nəyəm?

**Sürmə:** Gedə-güdə.

**Gülçöhrə:** Xasay, şalvarını götür evdən çıx.

**Nihad:** A bala, dayan görək. Ailəni dağıdıb, uşaqları vələmyesir qoymayın. Sinəmə çalın-çarpaz dağlar çəkməyin.

**Xasay:** Atana rəhmət, Nihad kişi. Sən qanan adamsan. Varam sənin tək kişilərə. İstəyirəm, özümüz oturaq, düz-əməlli söhbətimizi eləyək. Lazım olar, Mehrini də çağırarıq gələr. Gəlməz, özümüz gedərik onun evinə.

**Sürmə:** Dilə bax ey... İlanı yuvasından çıxarır.

**Xavər:** Əyri həmişə düzlükdən, ədəbsiz ədəb-ərkandan dəm vurar.

*Pauza*

**Nihad:** Düzünü de, Xasay, bu ağılla hara gedirsən?

**Xasay:** Ağlım yetərincədi. kişi. Düzdü, həmişə mənə şübhəylə yanaşmısan. Axı belə olmaz. İzin ver sizə hər şeyi danışım.

**Nihad:** Yox, Xasay, siz ailəsiz. Özünüz də uşaq deyilsiz. Mən belə söz-söhbətə qarışmıram. Gülçöhrə özü nə qərar versə, mən onu dəstəkləyəcəm. Qaldı oğurluğa, götürdüyünüz pulları nəvələrimə bağışlayıram.

*Nihad acıq eləyib qapıdan çıxır. Hamı kor-peşman olur. Xasay qışqırır.*

**Xasay:** Rədd olun burdan, ifritələr. Siz haranın ambırlarısız, mənim evimdə darğalıq eləyəsiz? İmkan verin, öz dərdimizi özümüz çəkək.

*Xasay qollarından tutaraq qonşuları evdən çıxarır. Arvadıyla söhbətə oturur.*





**Gülçöhrə:** Bu, nə oyundu, Xasay, sən nə demisən, mən onu eləməmişəm?

**Xasay:** İmkan ver, sənə hamısını danışım. — Acıqlı başda ağıl olmaz, — deyirlər.

**Gülçöhrə:** Nə danışacaqsan?

**Xasay:** Axıra qədər dinlə. Sonra qərarını ver, əzizim.

**Gülçöhrə:** Mənə "əzizim" demə, bədənim cimmildəşir.

**Xasay:** Ev-eşik sənindi. Mənə inanmasan, özüm hər şeyi atıb gedəcəm. Onu da bilirəm ki, evdən çıxsam, güzəranım olmayacaq. Uşaqlar da mənə çətin ki, — Ata! — deyib üzümə baxalar.

**Gülçöhrə** *(ağlamsına-ağlamsına)***:** Buyur, eşidirəm.

**Xasay:** Əvvəla, qonşular qalı qızışdırıblar. Sözləri qurtarıb, onlara çeynəməyə yeni söz lazımıydı, ən azından təzəsi çıxanacan fırlatmağa. O sözü də tapdılar.

**Gülçöhrə** *(gözlərinin yaşını silərək)***:** Bax, onu düz deyirsən.

**Xasay:** Gələk Mehri canıyanmışa. O yaramaz dedi ki, yuxarıda böyük adamlarım var. Mən xalanın evini sənə təşkil eləyə bilərəm. Mən də o ifritəyə inandım.

**Gülçöhrə:** Bu sözlərinə də, inanmıram, Xasay. Keç arxasına.

**Xasay:** Nəyin arxasına?

**Gülçöhrə** *(əsəbləşir)***:** Nəyin arxasına? Danışığına bax. Söhbətin arxasına.

*Pauza*

**Xasay:** Keçirəm... Tapdığımız on min Amerika dollarını verdim ona... Neçə vaxtdı məni fırladır. O, məni susdurmaq, pulun axırına çıxmaq üçün bu həngaməni düzəldib.

**Gülçöhrə:** Pul cəhənnəmə. Keç uşağa.

**Xasay:** Mən biləni onun elə kiçik uşağı da yoxdu. Bəlkə başqasının uşağı olub, deyənmərəm, səni qızışdırmaq, mənim səsi-

mi kəsməkdən ötrü onu gətirib bura...

**Gülçöhrə:** Xasay, başımı bələmə.

**Xasay:** Əşi, nəyə deyirsən gətir, and içim. Onu mən üç aydı tanıyıram.

**Gülçöhrə:** Bəyəm üç ay azdı? Kül mənim *(əliylə başına vurur)* bu başıma. Sənə necə də inanmışam?!

**Xasay:** Vur, öldür məni. Evinin ünvanını bilirəm. Birlikdə gedək. İstəyirsən hoqqabaz qonşu arvadlarından birini də götürək. Qoy Mehri də uşağı göstərsin bizə. Ancaq onu bil, Zeynəb qarı demişkən, dava yorğan üstədi. Bu oyunda məqsəd pulun dalına keçməkdi.

*Gülçöhrə fikrə gedir. Sonra gülümsünür.*

**Gülçöhrə:** Dur gəl balkona.

*Ər-arvad balkona çıxırlar. Gülgəz qonşuları səsləyir. Hamı həyətə toplaşır.*

**Xasay** *(arvadına)*: Bu qədər arvadı neyləyirsən? Eşitməyənlər də...

**Gülçöhrə** *(balkondan deyir)*: Qonşular, Xasay nə eləyibsə, bağışladım ona. O hər şeyi düz eləyib. Halalı olsun.

*Xasay özündə-sözündə deyil. Evə qayıdaraq stulda oturur. Əlləriylə saçlarını yolur.*

**Gülçöhrə:** Əsmayə bizi fərəzəngünə çatdırdı. İndi nə hoqqa düzəltmək fikrindəsən?

**Xasay:** “Tərəqqi” qəzetinə açıq məktub yazıb Əsmayənin atasını yandırmışam. Oxuduqca alışıb yanır.

**Gülçöhrə:** Nə yazmısan?





**Xasay:** Çox şey yazmışam... Əri Nuruşu çərlədib öldürüb... Çox məkirli qadındı... hansını deyim? Beş tutarlı suala ondan cavab istəmişəm. Suallara cavab verənməyəcək. Çox güman ki, barəsində cinayət işi qaldıracaqlar.

**Gülçöhrə:** Sualları deyə bilərsənmi?

**Xasay:** Birincisi, o, ömrü boyu ərinə niyə aqressiv olub və nə üçün doğmayıb?

*Pauza*

**Gülçöhrə:** Ondan keç, Xasay, o sual cinayət qaldarılmasına əsas vermir. Ərinə aqressivliyini sübut eləmək lazımdı... Bilirsən ki, o da ölüb. Qaldı xalanın doğmamasına. İstəməyib doğmayıb. O, Mehri döör ki, doğmadığını adına çıxa. İkinci sualın?

**Xasay:** O qədər daşınan və daşınmaz əmlakı hardan və necə əldə eləyib?

**Gülçöhrə:** Bu da ağlıma batmadı, Xasay. Onu xalan yox, əri Nuruş əldə eləyib. Ər də ortada yoxdu.

**Xasay:** Gör üçüncüdə nə problem qaldırmışam: həddən artıq simic, möhtəkir, öz mənafeyini xalq mənafeyindən üstün tutan Əsmayə niyə qeyrətli oğullara oğru, dələduz, mənsəbpərəst kimi baxır?

**Gülçöhrə** *(rişxəndlə)*: Qurtardı?

**Xasay:** Yoox... Yazmışam ki, bir ayağı burda, o birisi gorda olan xalam varidatını hara saxlayır və onları ehtiyaclılara niyə paylamır?

*Pauza*

**Gülçöhrə:** Yenə qaldı?

**Xasay:** Hə... Həmişə xalqdan, vətəndən ağızdolusu danışan bu qadın niyə səhiyyənin, təhsilin, incəsənətin, elmin... inkişafına yardım eləmir? Hələ xalamı televiziyada debata da çağırmışam.

**Gülçöhrə:** Xalan ölən kimi dayın, xalan Nərgiz çıxacaqlar ortaya. Onlar bir köynək səndən irəlidilər xalan Əsmayəyə.

**Xasay:** Dayıyla xalam Nərgizi terrora uğradaram. Başa düşürsən, terror! Qoy xalam suallara cavab versin, sonrasına baxarıq.

**Gülçöhrə:** Ağzını yerə tut danış. Amerika kəşfiyyatı sənə elə-belə gəlməsin. Xəbər tutsalar, səni terroristlərlə əlaqələndirərlər.

*Qapı vurulur. Sürmə əlində "Tərəqqi" qəzeti gəlir. Xasay təəccüblə ona baxır.*

**Sürmə:** Qonşu, "Tərəqqi" qəzetinin dünənki nömrəsində "Açıq suallar" adıyla material vermisizmiş. Əsmayə bu gün həmin məqaləyə "Açıq suallara açıq cavab" adıyla münasibət bildirib. Xəbəriniz varmı?

**Xasay:** Düzəldi işimiz.

*Pauza*

**Gülçöhrə** *(Sürməyə)*: Oxu, eşidək görək o, nə yazıb?

**Sürmə** *(oxuyur)*: Hörmətli redaksiya! Xasay Əlləş oğlu Mıxıyev mənim doğmaca bacım oğludu. Onun qoyduğu birinci suala cavab vermirəm.

**Xasay:** A ha... Deməli, cavab verənmədi. Oxu, xanım, oxu. Onun cavabını namusu, qeyrəti varsa, bacıoğlum qoy özü axtarıb tapsın.

**Xasay:** Danışığa bax ey. Sənin kimi xalanı Kürdə axıdım, Xəzərdə tapanmayım.

**Gülçöhrə** *(ərinə)*: Səbrin olsun, adamsan axı!

**Sürmə** *(oxuyur)*: İkinci suala cavab olaraq bildirim ki, mənim həqiqətən də beş otaqlı mənzilim var. Onu vaxtıyla nazir işləyən ərim Nuruşa xalq, vətən qarşısındakı xidmətlərinə görə dövlət vermişdi.

**Xasay:** Əsasa bax, ey... Pay atonan... *(qımışır)*. Sən yazdın, biz inandıq.





**Gülçöhrə** *(Sürməyə)*: Oxu... Oxu...

**Sürmə** *(oxuyur)*: Evi özəlləşdirmişik. Hal-hazırda ərim dünyasını dəyişib. Ev mənə qalıb. O mənim şəxsi əmlakımdı. Qaldı daşınan əmlakıma. Xasay onu harda görübsə, yaxşı olardı, yerini mənə də göstərəydi, onda onu mən Xasaya məmnuniyyətlə bağışlardım.

**Gülçöhrə:** Bu iddian böhtandı, sənə cinayət işi açıla bilər, Xasay.

**Xasay:** İmkan ver oxusun... Sonra danışarıq.

*Pauza*

**Sürmə** *(oxuyur)*: Üçüncü sual olduqca mübahisəlidi. Əvvəla, simic olduğumu o hardan bilir? Bu söz onun hoqqabazlığına dəlalət eləyir. İkincisi, varidatımı fırıldaqçı bacoğluma niyə verməliyəm? Yaxşı olar ki, bacoğlum özü bu suala cavab versin. Güman eləyirəm ki, Xasay "möhtəkir" sözünün mənasını özü bilmir. "Öz mənafeyini xalq mənafeyindən yüksək tutmaq" ifadəsi mübahisəlidi. Mən təqaüddə olan adamam. Həmişə ərim dövlət işində çalışıb, mən evdar qadın olmuşam... Bir halda ki belədi, deməli, mənim gülməyimlə ağlamağımın xalqa təfavütü yoxdu. Xasay "qeyrətli oğullar" ifadəsini özünə şamil eləyir. Bunun üçün xala kimi, çox sıxıntı çəkirəm.

**Xasay:** Ay sənin... Arvad ki arvad. Gör nə yazır ey. Oxu...

**Sürmə** *(oxuyur)*: Gərək bacoğlum yadına salaydı qonşunun evini oğurladığına və ev alqı-satqısında iki nəfəri aldatdığına görə üç il türmədə yatdığını.

**Gülçöhrə:** Dincəldin, Xasay, bunu istəyirdin? Oxu, Sürmə, oxu... Görək daha nə yazır?

*Pauza*

**Sürmə** *(oxuyur)*: Yuxuda özünü general görən şəxsin həyatda özünü general sanmasına nə ad vermək olar? Şübhəsiz ki, əziz-xələf bacoğlum bu addan da geniş istifadə eləyəcək, hədəqorxu gələrək imkansızlardan nəsə qopardacaq. Dördüncü sua-

lın cavabını tarix göstərər. Qaldı beşinci suala. Oğlum, Zeynəb qarı deyərdi: "Yoluğun nəyi var, kasıba da verə".

## XVI bölüm

*Səhərdir. Gülçöhrə poçt qutusundan qəzetləri götürüb evə gəlir. Stulda əyləşir, qəzetləri vərəqləyir. Atası Nihadın məqaləsini görçək təəccüblənir, halı dəyişir.*

**Gülçöhrənin daxili səsi:** Bıy... Bircə bu çatmırdı. Bu yaşda kişi... Sənə min rəhmət, ay ana. Dədəmi abırdan düşməyə qoymayan sənsənmiş... Vallah-billah sənin yoxluğun göstərir özünü. Kişi dost-düşmən tanımır. Kimə olsa girişir... Xasay bəyəm özgədi? İngi çağırıb ona mən nə deyim? Necə deyim ki, ay Xasay, gözümüz aydın, dədəm səni büküb qəzetə?.. Dəli olmaz? Xasayı infarkt vurmaz? Şalvarın götürüb getməyi haqqı var, yoxdu? Özü də ürəyi istəyən yerə. Ağzıma daşlar, şəhərdə arvad qəhətə çıxıb?.. Xasiyyətinə bələdəm, Xasay qəzeti oxuyan kimi cırıb-dağıdacaq özünü. Onda da gəl onun haqq sözünə cavab ver.

*Gülçöhrə əlində qəzet, əsəbi halda otaqda bir-iki dəfə vargəl eləyir. Xasay yan otaqdan çıxır.*

**Xasay** *(arvadına):* Sabahın xeyir. Hə... Yenə yuxu görmüsən? Yoxsa, səhər-səhər mənə meydan sulayırsan? Nə qədər qulluğunda durram. Ha... ha... ha... Yenə mısmırığın yerlə gedir.

**Gülçöhrə:** General arvadı necə olmalıydı ki. Səhər-səhər *(qəsdən gülərək)* qəzetdə dədəmdən sənə surpriz var.

**Xasay:** Nə?.. Dədən?.. Qəzetdə?.. Zarafat eləyirsən?





**Gülçöhrə:** Nə zarafat? Həqiqi sözümdü.

**Xasay:** Canına and olsun, xalamın məqaləsindən sonra hələ özümə gəlməmişəm... Dədəndən nə desən çıxar... Deməli, gülməşəkər dədən yenə nə fırtına qoparıb? Nəyimdən yazacaq? Bəyəm indiyə qədər nəvələrinə, sataşdıqları azlıq eləyib?

**Gülçöhrə** *(istehzalı):* Kişi od vurub yandırır *(Qəzeti Xasaya tərəf uzadaraq)*. Mənim danışmağımdansa, yaxşısı budu özün oxu.

**Xasay:** Əşi, o yana elə. Gözlərim sulaşır, oxuyammaram... Bir də ki dədəndən nə vaxt fayda görmüşük ki. Ondan xeyir uman, Allahdan bəla görər. Zalım oğlu elə bil şər üçün doğulub. Üzünə baxanda adamın zəhri çatlayır.

**Gülçöhrə:** Deyəsən mənə inanmırsan, Xasay. Yaxşı, oxuyum qulaqlarınla eşit.

**Xasay:** Dədənin hoqqasız, bizim də zırhazırsız günümüz yoxdu... Oxu, görək indi nə hoqqa düzəldib?

**Gülçöhrə** *(dərindən nəfəs alaraq):* Başlığı oxuyuram: "Açıq suala açıq cavab, açıq cavaba açıq münasibət".

**Xasay:** De ki səndən yazmayıb ey, sənə girişib. Özü də necə?

**Gülçöhrə:** Tək sənə yox, ikimizə də... Nəvələrini də düşünmədən.

*Elə bu vaxt qapı açılır, Qarakişiylə Balakişi əllərində qəzet əsəbi halda otağa girirlər. Xasay onları görüb qızışır, kükrəyəkükrəyə otaqda o tərəf-bu tərəfə gəzişir.*

**Qarakişi:** Bu nə bibarıçılıqdı, Xasay? Sən öl bayaqdan bədənim od tutub yanır. Ayə, bəs basıb bağlayırdın ki, qaynatam oxumuş adamdı *(Əlini üzünə vuraraq)*. Bu mən ölüm, o iki qəpiklik də döörmüş... Gərək sən gecəykən belə qaynatanın işini bitirəydin.

**Gülçöhrə** *(Qarakişiyə):* Ayə, qələt eləmə dəyyus, ağzını cıraram. Xasayı qızışdırma.

**Balakişi** *(ciddi görkəm alaraq):* Xanım, Nihad Xasayın qaynatasıdı.

**Gülçöhrə:** Mən bilmirəm?

**Qarakişi:** Balakişi demək istəyir ki, dədən həddini aşıb. Qəzetdə yazılanlara, inan mənə, bir yabı da dözməzdi, nəinki Xasay Əlləşoviç Mıxıyev. Canın üçün nəyə deyirsən and içim Xasayı küçələrdə sülənən itlər də tanıyır. Mən bunu həmişə demişəm, indi də kişi kimi deyirəm.

**Gülçöhrə** *(kinayəylə):* Kişilərə bax ey.

**Qarakişi:** Elə mən də Balakişi deyənlərini deyirəm də. Vallah mən başa düşəmmirəm.

**Xasay** *(Əsəbi halda ucadan):* Nəyi?

**Qarakişi:** Ayə, Xasay, sən Nihadın qızı, nəvələri üçün çalışmırsan? O boyda kişi bunu niyə başa düşmür, bilmirəm.

**Xasay:** Anlamazdı, özü də anadan gəlmə. Beləsiylə yola çıxmazlar. Gərək vaxtında başıma çarə qılaydım. Özümə gün ağlayaydım.

**Gülçöhrə** *(tərs-tərs Xasaya baxaraq):* Nə çarə? Nə gün ağlamaq? Ay yazıq, səni mən generad eləmişəm ey. Onu qanırsan, ya yox?

**Xasay** *(Gülçöhrədən çəkinərək):* Hə... Onu qanıram. Qanammadığım dədənin fantazyorluğudu, mənə olan haqız hücumlarıdı. O boyda kişi düşüb bir arvadın toruna. Xalam nə havaya çalır, ona da oynayır. Hər kişinin öz havası olar.

**Gülçöhrə** *(kinayəylə):* Gözüvə dönüm, Xasay... Kişi belə olar ey.

**Balakişi:** Mən də Nihadın hərəkətlərinə məəttəl qalmışam. Ayə Nihad sözün var, Xasay səndən qaçmır ki, gəl otur qızının evində, nə dərdin var, aç, tök. Nə dost bilsin, nə düşmən. Sən öl Xasay, indi şəhər ayağa aqlxıb. Kimi sənə lənət oxuyur, kimsi





də atana...

**Xasay** *(başına vuraraq):* Kül mənim bu başıma. Ayə, siz öləsiz səhərin gözü açılmamış Nihad məni cin atına mindirdi. Ayə, mən boyda general indi qisas haqda düşünüm? Ayə, mənim çuxam bir dəvəyə yükdü. Eşidib-bilən deməz, a general, bu nə oyundu? Nihad qızından, nəvələrindən utanmır?.. Eybi yoxdu, sən Nihad ol, mən də Xasay.

**Balakişi** *(Gülçöhrəyə):* Çox çətin dədən varmış... Bu yaşda düşüb bir arvadın dalınca. Get dədənlə danış. Gör nə düşünür, məqsədi nədi?

**Qarakişi:** Atamın goru haqqı, mən hələ belə xırsız kişi görməmişəm...

**Balakişi:** Sən öl, Qarakişi, mən heç nə eşitməmişəm.

**Xasay:** Görəcək günümüz varmış... İlanımız ayağımızın altındaymış. Özü də gorundan. Oturduğumuz yerdə necə də sancdı bizi. Ürəyimə damıb ki, hələ bunun dalı da olacaq. Cəhənnəmə. Bu viranə qalmışda tək mənəm? Ayə, o namərd niyə düşünüm ki, mənim arvadım Gülçöhrə onun qızı, uşaqlarımsa, nəvələridi *(Gülçöhrəyə).* Atamın goru haqqı dədənin insafı, mürvəti yoxmuş... Görəcək günümüz varmış, Gülçöhrə. Bunda deyiblər də: "Ağılsız baş yiyəsinə donuz güddürər". Baxarlar mən neylərəm? Onda görərlər, analar necə oğlan doğub. Oxu qəzetdəkiləri, Gülçöhrə, oxu

**Gülçöhrə:** Yazılanların hamısını, oxu, yoxsa...

**Qarakişi** *(gülümsünərək):* Yağlı, duzlu yerlərini.

**Balakişi:** Hamısı nəyə lazım? Xa... Xa... Xa... Məzəli yerlərini.

**Xasay** *(Qarakişiylə Balakişiyə):* Hırıltılarınızı yığışdırın, əə. Oxu, Gülçöhrə, oxu.

**Gülçöhrə** *(oxuyur):* Səmayənin yaşı səksəni ötüb. Ağbirçək xalasının qulluğunda durmaq, ona nəvaziş göstərmək əvəzinə, görün bacıoğlusu Xasay hansı yollara əl atır?

**Xasay:** Ayə, hansı yollara əl atıram. A məni qınayan, atana lənət, görüm, səni alışıb yanasan. "Qulluğunda durmaq", "nəvazişi göstərmək" deyir *(Üzünü Gülçöhrəyə tutaraq)*. Qadını ərə verməkdən böyük qayğı, nəvaziş olar? A məni qınayan, atana lənət...Ciyəriməcən yandım... İçim göynəyir. Oxu, dalını, Gülçöhrə, oxu.

**Gülçöhrə** *(oxuyur):* Onun əməlləri *(Xasay, səni nəzərdə tutur),* ən yüngülü insani hisslərini itirməkdi.

**Xasay:** Necə? Necə? Necə yəni insani hisslərini? Bu nə deməkdi, a Qarakişi?

**Qarakişi** *(çiyinlərini çəkərək):* Paa hooy... Mən də anlamıram.

**Balakişi:** Nihada deyən lazımdı, a xırsız, bəyəm ağacın, daşın da insani hissləri olar? Bu ki gülməlidi. Hisslər insanda olar da.

**Xasay:** Gülməli nədi, lap ağlamalıdı *(Üzünü Gülçöhrəyə tutaraq)* Qarakişiylə Balakişi başa düşməyənləri yazıq ortabab oxucu hardan qansın? Onsuz da yuxarılarda qəzet oxuyan yoxdu. Aşağıdakılara bir qoz. Məni yandıran, hövsələdən çıxaran dədənin mənə atmasıdı.

**Gülçöhrə** *(əsəbiləşərək):* Mən neyləyim get vur öldür. Elə bilərəm, mənim də dədəm naməlumdu.

**Balakişi:** Varam bu sözə. Əla!

**Qarakişi:** Adamların qəzet anlayanmaması, yaxud oxuya bilməməsi sənin xoşbəxtliyindi, Xasay.

**Balakişi** *(başını bulayaraq):* Nihadın yazdıqları çox tünddü, çox qərəzlidi. Qarakişi, şəxsən mən Nihadın ağlına şübhə eləyirəm.

**Xasay:** Oxu, Gülçöhrə, oxu!

**Gülçöhrə:** Şəxsən bir qaynata kimi Xasayın hərəkətləri mənə utanc gətirir.

**Xasay** *(Nihadın ünvanına):* Utanc nədi, lap xəcalət gətirməlidi. Əcəb eləmişəm. Görünür lap hədəfə zıplamışam. Xalam da, qaynatam da yanıb yaxılırlar. Gedin beş özünüzdən deyəndə, bir də məndən deyin. Oxu Gülçöhrə, oxu.





**Gülçöhrə:** Xasayın şərəfsiz əməlləri çoxdu.

**Qarakişi:** Bu məhkəməlikdi.

**Balakişi:** Xasay, bayaqdan dərinə getmək istəmirdim. Canına and olsun, onları məhkəməyə vermək lazımdı. Hərəsindən onca min qoparsan, çəkdiyin xərcini-borcunu bəlkə ödəyə.

**Xasay:** Məhkəmə-zad bikara şeydi. Hakimlərə nə var, əlüstü girəcəklər Əsmayəylə, Nihadla əlaqəyə, onlardan alıb özləri lum-lum ötürəcəklər. Üstəlik mənim də evimi satdıracaqlar... Yox, Balakişi məhkəmə xeyir çıxarmaz... Oxu, Gülçöhrə, oxu.

**Gülçöhrə** *(oxuyur):* Xasay kimi nadürüstlərlə, idrakı korlarla, mənəviyyatı boş antipodlarla, cəmiyyətə qəmiş qoyan avanturustlərlə tək Əsmayə xanım yox, hamı mübarizəyə qalxmalıdı.

*Xasay tutulur, dərin fikrə gedir. Qarakişi başını tutur, Balakişi dizi üstə çökür. Gülçöhrə ərinə yazıq-yazıq baxır.*

**Xasay** *(handan-hana):* Vay! Vay! Vay! Bu sözləri dəyyus hardan tapıb çıxarıb əə? Repressiyalar dövrü olsaydı, sən öl Nihad anamı... ağladardı. Bəyəm, Qarakişi, dediyi sözlərin mənasını Nihad özü bilir sən qədər?

**Balakişi:** Əsas sözün deyilməsidi. Nihad da ağına-bozuna baxmadan deyib. Heç sənin həsəd aparılası generallığını da saya salmayıb.

**Xasay:** Ah... Partladım, cırılıb-dağıldım, Allah *(Üzünü Gülçöhrəyə tutaraq).* Az, dədəndən bir şey qaldı?

**Gülçöhrə:** Lap az qalıb. Özünü ələ al, Xasay, qurban olum sənin səbrinə, təmkininə. Bircə qırıq da döz.

**Xasay:** Onu da oxu.

**Gülçöhrə** *(oxuyur):* Mən öyrənəndə ki, Xasayın hərəkətlərini qızım üsyankarlıqla qarşılamayıb, əksinə, hətta ona rəvac verib, çürük fikirlərinə şərik çıxıb, onda yer yarılmadı ki, yerə girəm.

**Qarakişi:** Bu, nə danışır, əə. Bu səfeh və bambılıymış ki.

**Balakişi** *(məsxərəyə qoyaraq):* Ayə yox, çox humanistdi: ha... ha... ha...

**Xasay:** Özü dediyi kimi, kaş yer yarılaydı, o da yerə girəydi. Onun bu qıfılbəndlərini kaş mən eşitməyəydim.

**Qarakişi:** Mənə elə gəlir ki, Xasay, gedib Nihadla üz-üzə, diz-dizə oturmaq lazımdı. Sən aç sandığı, qoy o töksün pambığı. Onda bilərsən dağarında nə var, nə yox.

**Balakişi:** Ağakişi, Nihada yeri göstərilməlidi. Ən azından o, əzişdirilməlidi.

**Gülçöhrə:** Qələt eləyir Ağakişi də, sən də. Ələkçinin qıl verən düdükləri. Sizə bir törpi gələrəm, hardan gəlib getdiyinizi bilməsiz Alkaşlar.

**Xasay:** Əsəbiləşmə *(Gülçöhrəyə)* dalını oxu.

**Gülçöhrə:** Ayə, nə dalı, nə qabağı *(Əlini Qarakişiylə Balakişiyə tutaraq).* bunlar araq dostlarıdı. Kişi döörlər.

**Xasay:** Bilirəm... Sən çox da dərinə getmə... Həştim-püştüm yanır. Söz güləşdirmə, oxu deyirəm, oxu!..

**Gülçöhrə** *(oxuyur):* Atı atın yanına bağlarsan, ya halın götürər, ya hüyün.

**Xasay:** Dədən "at", "at" deməkdə, yoxsa səninlə məni nəzərdə tutur?

**Qarakişi:** Əlbəttə, sizi. Balakişiylə məni deməyəcəkdi ki.

**Balakişi:** Ayə, bu yaşa gəlmişəm, sən öl, çox zırrama qaynatalar görmüşüm. Ancaq belənçiyini yox...

**Gülçöhrə** *(rişxəndlə):* Deyirlər, Banqladeşdə bundan da bir tündü varmış.

**Qarakişi:** Vay onun kürəkəninin halına.





*Qapı açılır Xavər gəlir. Bir anlığa hamı səsini kəsir. Danışmır. O, Qarakişiylə Balakişini otaqda görüb təəccüblənir. Sonra astadan Gülçöhrəyə üzünü tutur.*

**Xavər:** Yatmısız fil qulağında. Şəhər dağılır.

**Gülçöhrə:** Necə yəni şəhər dağılır?

**Xasay** *(əsəbi halda):* Şəhər dağılır da. Kim nə istəyir, onu da eləyir.

**Gülçöhrə:** Karın könlündəki. İmkan ver, öyrənək görək şəhəri kim dağıdır, niyə dağıdır?

**Xavər:** Kim dağıdacaq. Dədən bu boyda generalı qəzetdə serjanta döndərib... Abırdan-həyadan salıb. Ondansa, yıxıb Xasayın başını kəssəydi...

**Qarakişi:** Bayaqdan biz də onu deyirik.

**Balakişi:** Zeynəb qarı demişkən, tısbağanı öldürdün, ya arxası üstə çevirdin, heç bir fərq eləməz.

**Xavər:** Şəhərin bu zırhazırından, qonşuların gubbultusundan azacıq qeyrəti olan kişi vallah-billah özün asardı.

**Xasay:** Belə çıxır ki, qeyrətim yoxdu?

**Gülçöhrə:** Niyə yoxdu? Bəyəm qeyrətinin yoxluğunu da özünə dərd eləyəcəksən?! Kişinin başı qalda gərək. Qeyrətinə Qara və Bala kişilər qurban, ay Xasay... Hamı deyib-deyib oturacaq yerində *(Üzünü qonaqlara tutaraq əl-qoluyla).* Bacım-qardaşım, yaxanızı geri çəkməyin. Budu ha deyirəm, Xasay özünə xətər yetirsə, qəsd eləsə, şəri sizin üstünüzdə qalacaq.

**Qarakişi:** A ha... Əcəb işə düşdük. Tona bax! Qara və Bala kişilər! Bu deyiliş də təzə hoqqadı? Bir də ki Gülçöhrə xanım, Xasayın şəri niyə dədən Nihadın yox, bizim üstümüzdə qalsın? *(Başını yelləyərək)* Ot kökü üstə bitər, — deyiblər.

**Xavər:** Hi... Hi... Hələ çox şey olacaq. Nihad qurddu. O kimə necə yanaşdığını yaxşı bilir.

**Xasay:** O heç zad bilmir. Ömrünü bada verib. Nə özünə gün

qazanıb, nə də nəvələrinə...

**Xavər:** Çox fəndgir adamdı. Taxtasının altında Alah bilir, nələr yatır. Zalım oğlu heç olmasa Gülçöhrəni nəzərə alaydı.

**Gülçöhrə:** Havayı yerə dədəmə deməyiblər: "Zakon Nihad", "Fəndgir Nihad..."

**Qaraikşi:** Bu yaşa gəlmişəm, kürəkəninə Nihad kimi priyom işlədən görməmişəm.

**Balakişi:** Düz deyirsən, Qarakişi. Nihad bu yekəliyə generalı birinci raundda nakauta uğratdı. Ha... Ha... Ha...

**Xasay:** Uğradıb, əvəzin də alacaq.

**Xavər:** Necə?

**Qarakişi:** Məncə onu oturub soyuq başla fikirləşmək, götür-qoy eləmək lazımdı.

**Balakişi:** Ayə, uzun-uzadı vaxt itirmək lazım döör. Gülçöhrə çox tədbirlidi. Dədəsinin evinə bir limonka atsın, bununla da işi bitirsin. Xasayın da canı qurtarsın. Qapı, pəncərələri sökülüb dağılsa da, qalsın nəvələrinə.

**Xavər:** O dediyin limonka hardadı?

**Qarakşi:** Eşitməmisiz, çoban istəsə, təkədən pendir tutar?.. Ağakişidə nə az, nə çox, üçü var.

**Gülçöhrə:** Dayanın... Dayanın. Dədəmin evinə niyə mən limonka atmalıyam?

**Balakişi:** Əvvəla, səndən şübhələnməz. Sonrası da səndən savayı, onun evinə bizlərdən kim gəlib gedir ki.

**Gülçöhrə:** Onda bir çimdik də zəhər tapıb gətirin.

*Hamı bir-birinin üzünə baxır.*

**Xasay** *(arvadına):* Zəhər kim üçündü?

**Gülçöhrə:** Sənin üçün. Sən ölsən, düdüklərin — yəni Ağa, Qara və bala kişilərin qollarına qandal vurdurmaq da asan olar. Bu saat polisə zəng çalıb. Ağakişidə üç limonka olduğunu deyərəm, polisə özünüz cavab verərsiz.

*Qarakişiylə Balakişi bir ağızdan — Sağ ol səni, Gülçöhrə.*

*Gülçöhrə telefon nömrələrini yığır. Xasay ondan telefonu alır.*

**Xasay:** Mənim xatirimə, qurban olum, eləmə. Mən də ilişərəm. Onsuz da bu işə öz xərcimiz çıxmayıb. Polis məsələdən yerli-yataqlı hali olsa, dələdüz damğası vurub məni atacaqlar içəri.

**Gülçöhrə:** Belə qorxarsan ha... Bəs kişiliyin?

**Qarakişi:** Xasay, bü səndə yoxdu.

**Balakişi:** Nə desən olar.

**Gülçöhrə** *(Balakişiylə Qarakişiyə):* Tüpürüm sizə də, sizin düşüncələrinizə də. durun vızqırdın burdan.

**Xavər:** Neyləsinlər?

**Gülçöhrə:** Vızqırtsınlar!..

*Qarakişiylə Balakişi dalın-dalın otaqdan çıxırlar. Gülçöhrəylə Xavər qəhqəhə çəkirlər. Xasay da handan-hana onlara qoşulub gülür. O birdən ciddi görkəm alır.*

**Xasay:** Atamın goru haqqı, dədənin başı xarabdı. O, nə ifadələrdi işlədib: insani hisslər, şərəfsiz əməllər, idrakı korlar, mənəviyyatı boş antipodlar, cəmiyyətə qəmiş olan avantürüstlər... Görəsən, dədən utanmır nəvələrindən?

**Gülçöhrə:** Sənin atan bəyəm yaxşıydı? Sən neylədin ki, mən neyləyəm?

**Xasay:** Dədən qanmır ki, mən xalama niyə girişmişəm? Zeynəb qarı demişkən: "Ayının min oynu var, bir armudun başında". Bax onun tifillərindən ötrü. "Ağlayışın bilməyən, ölüsün

bazzar deyib çağırar”. Dədən də ağlayışın bilmir.

*Qəbiristanlıq. Əsmayə əlində bir dəstə gül qəbiristanlıqdadır. Gül dəstəsini ərinin qəbrinin üstünə qoyur. Baş daşının tozunu alır. Qamətini düzəldir, o tərəf-bu tərəfə baxır. Bir qədər aralıda başqa qəbrin kənarında əyləşən Nihadı görür. Nihad Yasin oxuyur, Əsmayə ona yaxınlaşır. Nihad Yasini qurtarıb ayağa qalxır. Əsmayə ona salam verir. Nihad salamı alır.*

**Əsmayə:** Qardaş, oxuduğun Yasin kiminçündü bilmirəm, qəbri nurla dolsun.
**Nihad:** Xanımımdı... Sizinkilərlə bahəm.
**Əsmayə:** İstəyirəm, rəhmətlik ərim üçün də, vaxtın varsa, bir Yasin oxuyasan. Hesabı nədi verərəm.

## XVII bölüm

**Nihad:** Xanım, mən pulla Yasin oxumuram. Gəlirəm, bu saat. Qaldı vaxta, təqaüddə olan adamam. Bir zaman universitetdə ərəb dilindən dərs demişəm. Yasini də onda öyrənmişəm... Rəhmətliyin adı nədi?
**Əsmayə:** Nuruş...

*Nihad Yasin oxuyur. Əsmayə də bir az aralıda oturur. Qurtaranda salavat xətm eləyir... Ayağa qalxır.*

**Nihad:** Olmaya qəzetdə Xasayın dərsini verən Əsmayə sizsiz?
**Əsmayə:** Hə... Gülümsünərək. Gərək yadıma salmayaydız... Coşan hisslər baş qaldıranda, adam neylədiyini bilmir. O zamankı səhvim indi də mənə utanc gətirir.





*Pauza*

**Nihad:** O özü sizi vadar eləyib... Sizi başa düşürəm, xanım. Doğma, ağbirçək xalasına qarşı elə köntöy hərəkətini heç cürə ona bağışlayanmadım. Mən də dözmədim, Xasaya qəzetdə cavab verdim.
**Əsmayə:** Üoxsa siz də Nihadsız?
**Nihad:** Hə, xanım, Nihadam.

*Qadın astadan başını bulayaraq gülür.*

**Əsmayə:** Deməli, Xasayın qayınatası, Gülçöhrənin dədəsi sizsiz.
**Nihad:** Bəli! Bizim bir-birimiz barədə gərək ki, məlumatımız var.
**Əsmayə:** Ay Nihad, bağışlayın məni, gəlib deyəcəm. Qızın elçiliyə gəlmişdi mənə... Sizin üçün... Hü... hü... hü...
**Nihad:** Eyy... Gecənin bir aləmində mənim də yanıma gəlmişdilər. Xeyli düşdülər üstümə ki, xanım, səni mənə alsınlar. Guya mənə hörmət eləyirlər. Məni bağışlayın... Dedim, a bala, özünüzə əziyyət verməyin, məndə heç zad yoxdu, bu yaşdan sonra olmayacaq da. Mən də o xanım kimiyəm.

*Əsmay qəşş eləyir. Nihad qəbirstanlığı seyrə dalır.*

**Nihad:** Həyat qəribədi... Geci-tezi var. İstəsək də, istəməsək də hamımızın yeri buradı. Gör nə günə qalmışıq, uşaqlar başımıza oyun açırlar.
**Əsmayə:** Ay pir olmuş, dünya belə qurulub, belə də, gedəcək. Görün, nə dedim Xasayla Gülçöhrəyə: — A bala, hay-hayım gedib, vay-vayım qalıb. Gedin, özünüzə iş tapın... Xasay aləmi çalxaladı. Yüz oyundan çıxdı. Gülçöhrə də ona “zü” tutdu.

*Pauza*

**Nihad:** Mənim başıma açdıqları oyunlara, sizdən uzaq, it eşitsə, quyruq salar. Axırda nəyim vardı, çırpışdırdılar... Nəvələrə görə güzəştə getdim onlara.

**Əsmayə:** Bəlkə qızın sizə deyə, bizi evləndirməkdə onların məqsədi nəydi? Əmlak?

**Nihad:** Nəyimiz varsa, ələ keçirmək. Bizi quru yurdda qoymaq... Beş otaq səndə, dördü də məndə. Əlavə də olan-qalanı, yoğurmadım yapmadım, hazırca kökə tapdım. Qırışmallar gəlib açıq demədilər, desəydilər, onlara yox, uşaqlara görə. Başladılar mız-mız mızıldamağa.

**Əsmayə:** Deməli, mən də onları düz başa düşmüşəm. Yox deməyimə məəttəl qaldım. Elə bil şərikim iydilər. Başladılar üstümə hörüldəməyə. *(Səsinə ara verərək)* Qəzet əhvalatından sonra ağlıma belə bir fikir gəlib.

**Nihad:** Nə fikir?

*Pauza*

**Əsmayə:** Bilirsiz ki, hər il uşaq evlərindən nə qədər yeniyetmə, gənc xudahafizləşir. Onlarla maraqlanan yoxdu. Rəhmətlikdən qalanlarla özümə bir otaqlı mənzil götürəcəm. Sonra beş otaqlı mənzili satıb bir neçə tək otaqlı mənzil alacam. Gedəcəm, kimsəsizlər evinə. Yaşı çatmış sevişənlərin kəbinlərini kəsdirəcəm, sonra evlərin açarlarını verəcəm onlara. Yaşayıb xoşbəxt olsunlar. Necə baxırsız bu işə?

*Nihad fikrə gedir. Handan-hana üzündə təbəssüm yaranır.*

**Nihad:** Ağıllı işdi. Mən sizin fikrinizi dəstəkləyirəm. Dörd otaq da mənim var... Gəl hər ikisini sataq. İkisi bir yerdə olacaq doqquz otaq. Birində ikimiz yaşayaq. Bu şərtlə ki, kəbin kəsdirək. Həm bir-birimizə həyan olaq, həm də hansımız tez dünyamızı dəyişsə, obirinə qalar. Notariusda da bir sənəd təsdiq elətdirərik: "Qalan daşınan və daşınmaz əmlakımız uşaq evində böyüyüb ərsəyə çatan, ailə quran kimsəsizlərə verilsin". Buna nə deyirsiz?





**Əsmayə:** Kişi sözünə nə deyəcəm, ay Nihad.

*Kadr dəyişir. Nihadla Əsmayə qəbirstanlıqdan qayıdırlar. Qocaların hərəkəti ictimaiyyət arasında maraq doğurur.*

*Televiziyada təşkil olunan toplanışa alimlər, yazıçılar, şairlər, iş adamları, sadə adamlar, Əsmayə, Nihad, Xasay və Gülçöhrə dəvət olunurlar. Aparıcı ürək yanğısıyla sözə başlayır.*

**Aparıcı:** Hörmətli tamaşaçılar! Bu bir həqiqətdir ki, uşaqlarımızın gələcəyi bizdən asılıdır. Uşaqlar yoxsa, gələcəyimiz də yoxdur. Mən bəzəksiz-düzəksiz, əsaslandırmasız-filansız birbaşa mətləbə keçirəm. Respublikamızda bir neçə kimsəsiz uşaq evi fəaliyyət göstərir. Müəyyən dövr üçün dövlət onları himayə eləyir, onlara təhsil verir, səhhətləriylə maraqlanır... Böyüyüb yaşa dolandan sonra onlardan xəbərimiz olmur. Doğma yurdlarıyla xudahafizləşirlər. Hara gedəcəklərini bilmirlər. Yataqxana yox, əlavə sığınacaqları yox, iş yox... Yox... Yox... Bəs bu gənclər neyləməlidirlər? Özləri də bilmədən cinayətkara çevrilirlər. Qara kabus onları ağuşuna alır. Bununla da biz onların taleləri ilə oynamış oluruq. Axı bu uşaqlar bizimdir... Tez-tez "Xalq", "Millət" deyə hayqırırıq. Özümüzü xeyirxah, humanist adamlar kimi göstərməyə çalışırıq. Bər-bəzəkli sözlərlə nitqimizi doldururuq. Söz o zaman söz olur ki, o, yaxşı əmələ çevrilsin. Ona görə də istərdim, dəvət olunmuş şəxslər öz düşüncələrini ifadə eləsinlər...

*Pauza*

**Sevda Kələntərli:** Mən müəlliməyəm. Bu məsələ həmişə məni düşündürüb. Olduqca aktualdır. Hər bir fərd cəmiyyətin bir üzvüdür. Xalqın güzəranı da nisbətən yaxşıdır. Əlbəttə, tək-

tək daha böyük imkanlıları hələ demirəm. Heç kəsi tənqid eləmək də istəmirəm. Təkcə xeyirxahlığımız, sevgimiz, məhəbbətimiz gərəkdi. Hər iki yüz adam yığılıb bir ailə üçün mənzil təşkil eləsə, məncə, qaldırılan problem artıqlamasıyla həll olunar. Buna istək, insani məsuliyyət, ürək yananlıq lazımdı.

**Fazil Xəlilov:** Bənnayam. Xanım ürəyimcə danışdı. Düşündüklərimi dedi. Ölkədə güclü tikinti gedir, çoxmərtəbəli evlər tikilir. Ola bilməz ki, iş adamları tikdikləri hər binadan iki-üç mənzil ayırıb kimsəsiz uşaqlardan ərsəyə çatan ailə quranlara versinlər? Yaxud dövlət yataqxana inşa etdirib kimsəsizlərə paylasın? İş şəraiti yaratsın?.. Onlar da işləsinlər, özləri üçün mənzillər alsınlar? Köçüb gedəndə qaldıqları otağı arxalarınca gələn cütlüyə versinlər?.. Nə qədər ki, kimsəsizlərə qucaq açmamışıq, mərhəmətimizi, qayğımızı onlardan əsirgəyirik, gələcəkdə onlardan da heç nə ummağa haqqımız yoxdu. Umsaq da, xeyri olmayacaq. Əksinə, o gənclər bizə nifrət eləyəcəklər.

**Aparıcı:** Mən iş adamlarını eşitmək istərdim.

*Pauza*

**Qəzənfər Fərəcov:** İş adamları kimsəsizlərə ev verilməsini özbaşına həll eləyənməzlər. Ona yuxarıdan qol qoyulmalıdı. Başqa sözlə, yuxarı desə...

**Aparıcı:** Siz bina inşa elətdirib istədiyiniz qiymətə satırsız. Xeyriyyəçiliyə gələndə... Axı obyekt sizindi.

**Qəzənfər Fərəcov:** Bəli!

**Aparıcı:** Fərəcov, sizə kimsə göstəriş verməlidi ki, cibinizin pulundan, yaxud mənzilinizdən bir otaq fəqir-füqəraya verin və ya verməyin?

**Qəzənfər Fərəcov:** Xanım, dərd birdi-ikidi elə bilirsiz? Biz vergi veririk. Deyin, danışın, bizi vergidən azad eləsinlər... Əlbəttə, vergidən azad olsaq, o başqa məsələ. Yer almağa icazə, layihə məsələsi çətin. Materialın qiyməti çıxıb dağ başına. Əmək haqqı onlardan betər. İndi deyirsiz, kimsəsizlərə yardım





eləyək? Bəs bizə kim əl tutacaq? Bizə kimlər xeyriyyəçilik eləyəcək?

*Pauza*

**Aparıcı** *(rixşəntlə)***:** Aydındı, əyləşin, Qəzənfər bəy! Deyirsiz, sizi vergidən azad elətdirək? Nə var, nə var, kimsəsizlərə bir otaq ayıracaqsız? Soruşuram: vergidən azad olsanız, onda siz nə qədər qazanarsız? Təfəkkürünüz var, heyf ki, başqa səmtə işləyir *(aparıcı üzünü zala tutur)*. Şair və yazıçılarımızı eşitsək, pis olmaz.

**Seyfulla Seyfullayev:** Mən müzakirəyə qədər problemdən xəbərsiz iydim. Məqsəd burda mənə aydın oldu. Gərək söhbətin bu tədbirdə nədən gedəcəyini yazıçı və şairlərə əvvəlcədən sızdıraydız. Onda biz fikirləşərdik ki, bu müzakirənin bizə dəxli var, ya yoxdu? Yaxud biz verilişə gələk, ya gəlməyək? Bizim özümüzün nə pulumuz var, nə evimiz. Yalvarıram sizə bizi məmurlarla, oliqarxlarla üz-üzə qoymayın, xanım.

*Pauza*

Neçə illərdi qızıl kimi vaxtımızı ayırıb, gecəmizi-gündüzümüzə qatıb qalaq-qalaq kitablar yazırıq. Oxucularımızın gözləri yoldadı. Böyük intizar içərisində hədsiz həyəcanla bizim əsərlərimizi gözləyirlər. İmkanımız olsa, onları çap elətdirərik. Təkrar eləyirəm, bizi dolaşıq məsələlərə qatmayın.

**Aparıcı:** Hörmətli yazıçı! Yazarlar tarixən çox olub. Onlardan tarixdə ancaq qüdrətliləri qalıb. Hər yazar yox... Böyük fəxrlə deyirəm və iftixar hissi keçirirəm ki, tarixdə bizim güclü ideya sahibi olan mütəfəkkir yazıçılarımız, söz dühalarımız olub. İndi də var. Sabah da olacaq. Onlar içərisində yaşadığı cəmiyyəti, neçə-neçə nəsilləri ardınca çəkib apara biliblər. Belələrinin qarşısında baş əyirik. İndi biz sizi bura elə-belə çağırmamışıq, müzakirəyə qoşulmanızı istərdik.

**Seyfulla Seyfullayev:** Siz ara qarışdırısız, xanım. Bizim ayağımızın altını qazırsız. Bu gün verdiyimiz düşünülməmiş, yersiz

ideyaya görə sabah bizi yuxarı çağırıb atamızı yandırarlar.

**Aparıcı:** Çox təəssüf. Biz də şəxsən sizin uydurmalarınıza az vaxt itirməmişik *(kinayəylə)*. Əyləşin, Seyfulla Seyfullayev.

*Pauza*

Bəlkə ziyalılarımız adından professor Mehmandar Mehmandaroviç, sizi eşidək.

**Mehmandar Mehmandarov:** Televiziya çox böyük və nüfuzlu auditoriyadı. Gərək bura gəlməzdən yüz ölçüb, bir biçəydiz. İndi şarpdan-şurpdan məsələni atmısız ortaya. Mühüm məsələylə bağlı təklif verin deyirsiz. Biz ziyalıyıq. Bizə vaxt lazımdı, düşünək. Özümüzü işə salmayaq. Təklifim nədi? Toplantını saxlayaq başqa vaxta. Gedək oturub-durub yaxşı-yaxşı fikirləşək. Papağımızı qarşımıza qoyaq, nəyi deyə bilərik, nəyi deyənmərik, qətiləşdirək. Sonra danışaq.

**Aparıcı:** Danışmaq, fikir söyləmək üçün oturub-durmaq lazım deyil, professor. Mən anlamadım, danışmağa cəsarətiniz çatmır, yoxsa savadınız?

**Mehmandar Mehmandarov:** Sizin diliniz zəhərdi, xanım.

**Aparıcı:** Bu toplanışa iki maraqlı adam dəvət eləmişik. İstərdik, onları eşidək. Onların hər ikisinin səksəndən artıq yaşı var. Saf əqidə, təmiz vicdan sahibidilər. Bunlar kimlərdilər? Şükürlü Əsmayə Qüdrət qızı və Ümidli Nihad Hilal oğlu. Bu adamlar özləri danışmaq istəmirlər. İş görməyən adamlar danışırlar. Xeyirxahlıq üçün yetkin əxlaq, zəngin mənəviyyat lazımdı. Onların birlikdə doqquz otaqlı iki mənzilləri var. Bunlar öz mənzillərini satıb ayrı-ayrılıqda doqquz mənzil alıblar. Hazırda birində özləri yaşayır, səkkizinin açarını isə kimsəsiz uşaq evinin yetkin cütlüklərini evləndirib onlara veriblər. Başqa sözlə, səkkiz ailəni, on altı kimsəsiz yeniyetməni evlə təmin eləyiblər. Bunlar azmış kimi natariusla müqavilə bağlayıblar ki, dünyalarını dəyişəndən sonra da bir otaqlı mənzillərini, ağır-yüngüllərini kimsəsiz gənclərdən ailə quranlara versinlər. Bu qocalar başqa cür





də hərəkət eləyə bilərdilər. Şəxsən mən bu müdrük insanların qarşısında baş əyirəm. Xalqına, vətəninə xidmət eləməyən iş adamı da, yazıçı da, elm nümayəndəsi də belində ağır yük daşıyan dəvəyə bənzəyir.

*Xasay Nihadla Əsmayəyə çəp-çəp baxır, əsəbiləşir. Bunu onlar da hiss eləyirlər. Xasay ayağa qalxır. Danışmaq üçün icazə istəyir. Aparıcı sözü Xasay Əlləş oğlu Mıxıyevə verir.*

**Xasay:** Şəxsən mən Əsmayə qarıyla Nihad qocanın hərəkətlərini pisləyirəm. Birincisi, onlar əxlaq normalarını pozublar. Bu yaşda arvada ər, kişiyə arvad almaq nə deməkdi? Bu adamlar Allahın iradəsinin əleyhinə gediblər *(Veriliş iştirakçıları arasında xısın-xısın düşür. Hamı Xasaya qulaq kəsilir. O, sözünə davam eləyir)*. İkincisi, Allah özü o yeniyetmələri kimsəsiz eləyib. Burdakılardan heç kim yox. Qurban olduğum belə məsləhət bilib. Lazım bilsəydi, o kimsəsizlərə...

**Aparıcı:** Qurban olduğum verib də.

**Xasay:** Sözümü kəsmə, xanım.

**Aparıcı:** Buyurun, Xasay Əlləş oğlu Mıxıyev!..

**Xasay:** Bəyəm, onun əlində bu çətin işdi? Əsmayəylə Nihad fanatikdilər. Onlar özlərini xalqa yaxşı göstərmək üçün bu əcaib yola əl atıblar *(Adamlar gülməkdən uğunurlar. Aparıcı çox çətinliklə adamları sakitləşdirir. Xasay dərindən nəfəs alaraq sözünə davam eləyir),* O evlər geri qaytarılmalıdı. Əsmayəylə Nihad neylədiklərini bilmirlər. Ay camaat, onların hər birinin yaşları səksəni keçib. Bu yaşda evlənən adamların ağılları varmı? Kimdi onlara kəbin kəsən? Üçüncüsü, onların bu hərəkətləri milli mentalitetə ziddi.

*Pauza*

Mən kəbin kəsəni məhkəməyə verəcəm. Əşi, Allah eləməsin, onlardan dünyaya uşaq gəlsə, o, normal olacaqmı? Bunlar

öləndən sonra onların uşağını kim saxlayacaq? İndi özünüz deyin.

*Adamlar heyrətlə Xasaya baxırlar. O, əyləşir.*

**Fazil Xəlilov:** Öl yerində, alçaq! Qəzetdəki məqalələri də oxumuşam.

**Sevda Kələntərli:** Xasay kimi sarsaq bu məclisə hardan gəlib? Çağırın polisi, gəlib aparsın onu.

**Aparıcı:** Qansa, deyilənlər ona kifayət elər.

*Xasay yerindən qalxır.*

**Xasay:** Mənim üçün bu yaşadığım həyatla türmədə fərq yoxdu. Bircə şeyi nəzərinizə çatdırım ki, Əsmayəylə Nihad xəyanətkardılar. Özü də tək qohum-əqrəbalarına yox, Allaha... Mən deyərdim, onların daha yaşamağa haqları yoxdu. Gəncləri pozacaqlar.

*Pauza*

**Əsmayə:** Sağ ol səni, Xasay... O nə bığdı qoymusan əə, qurumsaq.

**Xasay:** Nədi? Nə olub mənim bığıma? Yoxsa, heç vaxt bığ görməmisən?

**Əsmayə:** Görmüşəm, belənçiyini yox.

**Xasay:** Mənim bığıma şəbədə qoşma. Bir də son xəbərdarlıq eləyirəm, mənim bığıma sataşsan, axırı yaxşı qurtarmayacaq.

**Əsmayə:** Tüpürüm bığına.

*Zal qəh-qəhə çəkir.*

**Nihad:** Özgə cibində gözü olanın aqibəti belə olar, Xasay!..

**Seyfulla Seyfullayev:** Mən yüzə-yüz Xasayın tərəfindəyəm. Atalar məsəlidi: "Əvvəl məscidin içi, sonra çölü". Xeyirxahlığın da həddi var. Tam əminliklə deyirəm: Əsmayəylə Nihad bu





əməlləriylə televizorda vid göstərmək istəyiblər. Bu yaşda bu adamlara söz tapanmıram deməyə...

*Pauza*

**Mehmandar Mehmandarov:** Mən çox eşitmişdim, bəzi adamların yaşlananda ağıldan qaçmalarını. Doğrusu, bu yaşa gəlmişəm, belə şey görməmişəm. Əsmayəylə Nihad təəssüf ki, elələrindəndi... Bu yaşda əlindəkiləri ver, gözlərini döyə-döyə qal. Özünüz də bilməyin nə vaxt öləcəyinizi.

**Yaramazov:** Mən də Xasayın dediklərinə şərikəm. Xasayın xalasıyla qaynatası çox bivec hərəkət eləyiblər. Mənim hörmətli Xasaya da, onun qohumlarına da yazığım gəlir. Allah qohumlarına ağıl, sənə səbr versin, Xasay.

**Ağakişi:** Mən əvvəldən bu məsələdən halıyam. *(Üzünü Nihadla Əsmayəyə tutaraq)* Xasayla Gülçöhrə sizi evləndirmək istəyirdilər də. Siz düz adamlarıydızsa, el adətiylə, qohum-əqrəbanın xeyir-duasıyla niyə ailə qurmadız? Bu mərəkəni yaratmağa ehtiyac vardımı?

**Əsmayə** *(Nihada)***:** Bu kimdi?

**Nihad:** Xasayın araq dostu.

**Balakişi:** Ağakişinin sualı çox düşündürücüdü. Nihadla Əsmayənin bir ayaqları burda, bir ayaqları gorda. Bu qoca cütlük gəncləri pozurlar. Gərək bunlar pozucu hərəkətə yol verməyəydilər... Məncə, hələ də gec döör.

*Qarakişi yerində qurcalanır. Başını yelləyir. Əlini qaldırıb söz alır.*

**Qarakişi:** Allah bundan betərindən saxlasın.

*Pauza*

Ağsaqqal, ağbirçək bu yolu seçirsə, beyni qan gənclər kimi oğurluq görüşürlərsə, vallah-billah dünyanın axırı çatıb.

**Fazil Xəlilov:** İnciməyin onlardan. Nihad müəllim, Əsmayə

xanım! Yetim kimə təpik atar, çörək verənə.

**Sevda Kələntərli:** Atamız Nihad müəllim, anamız Əsmayə xanım! Qarşınızda diz çökürük. Bunlar alkaşdılar. Bütün şəhər bu gədalardan danışır. Gədalardan nə umasız?! Onlardan analiz götürtdürüb qanlarını yoxlatdırmaq lazımdı.

**Gülçöhrə** *(istehzayla)*: Atamla Əsmayə anamı təbrik eləyirəm, qoşa qarısınlar.

*Əsmayəylə Nihad başlarını bulayırlar. Xasay zalı iti addımlarla tərk eləyir. Gülçöhrə də onun ardınca. Adamlar onların arxasınca fit çalırlar.*

**Aparıcı:** Biz problemi açıb göstərdik. Qalmaqallı keçən bu müzakirə bizə çox şey verdi, cənablar. Gələn görüşlərədək!

*Hamı ayağa qalxır. Adamlar Nihadla, Əsmayəylə qucaqlaşıb öpüşürlər. Sonra yavaş-yavaş zalı tərk edirlər. İşıq sönür.*

***2012***





# OXUDUQLARINIZ

## Pyeslər


Namərd körpüsü..............................................................4
Xanımın desant batalyonu................................................60
Qızıl əllər.......................................................................101


## Kinossenarilər


Canavar balası...............................................................146
Qırmızı qar....................................................................186


## Kinoseriallar


Bazar həngaməsi...........................................................227
Kələkbazlar...................................................................299

**Ağarəhim (Nüsrət oğlu Rəhimov)**
Bakı, BQU, 2015, 505 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 05.01.2015*
*Çapa imzalanıb: 26.01.2015*
*Həcmi: 33,5 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**

Ağarəhim Rəhimov Əsərlər



338

*Ağarəhim Rəhimov* *Əsərlər*

339

Ağarəhim Rəhimov Əsərlər

340

*Ağarəhim Rəhimov* *Əsərlər*

341

*Ağarəhim Rəhimov* *Əsərlər*

342

*Ağarəhim Rəhimov* *Əsərlər*

343

*Ağarəhim Rəhimov* *Əsərlər*

344

*Ağarəhim Rəhimov* *Əsərlər*

345

*Ağarəhim Rəhimov* *Əsərlər*

346

Ağarəhim Rəhimov Əsərlər
347

*Ağarəhim Rəhimov* *Əsərlər*

348

*Ağarəhim Rəhimov* *Əsərlər*

349

Ağarəhim Rəhimov Əsərlər

350

*Ağarəhim Rəhimov* *Əsərlər*

351

*Ağarəhim Rəhimov* *Əsərlər*



352

*Ağarəhim Rəhimov* *Əsərlər*

353

*Ağarəhim Rəhimov* *Əsərlər*
354

*Ağarəhim Rəhimov* *Əsərlər*

355

Ağarəhim Rəhimov Əsərlər

356

*Ağarəhim Rəhimov* *Əsərlər*

357

*Ağarəhim Rəhimov* *Əsərlər*

358

*Ağarəhim Rəhimov* *Əsərlər*

359

*Ağarəhim Rəhimov* *Əsərlər*

360

Ağarəhim Rəhimov Əsərlər

361

*Ağarəhim Rəhimov* *Əsərlər*

362

*Ağarəhim Rəhimov* *Əsərlər*

363